AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİ

Araz Qurbanov

Damğalar, rəmzlər... mənimsəmələr

BAKI -2013

Baş məsləhətçi və redaktor:
Ramiz Əskər, *filologiya elmləri doktoru, professor*

Məsləhətçilər:
Tahirə Allahyarova, *fəlsəfə elmləri doktoru*
Məsiağa Məhəmmədi, *filologiya üzrə fəlsəfə doktoru*

Elmi redaktor:
Aqşin Məmmədov, *filologiya üzrə fəlsəfə doktoru*

Dizaynerlər:
İntiqam Məhəmmədli
Azər Məhəmmədli

Tiraj: 500
Sifariş: 086

Strateji Araşdırmalar Mərkəzi,
Azərbaycan, Bakı şəhəri, AZ 1005, M. İbrahimov küçəsi 8
Tel.: (+99412) 596 82 36
Faks: (+99412) 437 34 58
E-poçt: info@sam.gov.az
Veb ünvan: www.sam.az

© Strateji Araşdırmalar Mərkəzi, 2013

Kitabın içindəkilər

Ramiz Əskər
Ön sözü. Mövzuya öz damğasini vuran kitab 5
Giriş əvəzi 9

I hissə. Damğa - etnik alın yazısı 13
«Damğa» sözünün etimoloji izahı 22
Damğa tarixi yaddaşın daşıyıcısı kimi..... 25

II hissə. Bəzi populyar türk damğa və rəmzlərinin semantikası 115
Xan damğası, eltəbər, baltavar 115
Toğrul,quşlu damğa,ikibaşlı qartal..... 132
Ay-ulduz, Günəş-Ay..... 141
And damğası 152
Bitik (pitik), tumar, nəzərlik, tilsim 159
Qaba ağac, töz ağac, baytərək, baytörə 164
Gün rəmzi, qizil alma… 169
Abak, ama, ana 172
Alban (atban) 178
Yay-ox damğası 184
Oğuzların qayı boyunun damğası 192
Buta (puta) 195

III hissə. Damğa işarələri. Etnogenez, təhriflər və mənimsəmələr 204
Erməni saxtakarlığı. Abidələr, xalçalar, qayaüstü təsvirlər və rəmzlər..... 222
Qərbi Azərbaycan qayaüstü təsvirlərindəki işarələrin etnik mənşəyi 264
Qafqaz Albaniyası işarələri. Dominant etnomədəniyyətin izləri 276
Dərbəndin «naməlum» olan məlum işarələri..... 289

Nəticə əvəzi 311
İstifadə olunmuş ədəbiyyat 314

Ön sözü

Mövzuya öz damğasını vuran kitab

Əlinizdəki bu kitab çox ağır, çətin və mürəkkəb bir mövzuya – damğalara həsr olunmuşdur. Petroqlif, piktoqram, rəmz, heraldika, nəhayət, yazı kimi damğa da bəşər mədəniyyəti tarixində çox mühüm yer tutur. Təəssüf ki, türk, eləcə də Azərbaycan damğaları sistemli şəkildə araşdırılmamış, elmi dövriyyəyə yetərincə daxil edilməmiş, bizlərə məxsus olan bir çox tarixi dəyər kimi yağmalanmış, başqa mədəniyyətlərə və millətlərə peşkəş edilmişdir. Bu mənada Araz Qurbanovun oxuculara təqdim olunan «Damğalar, rəmzlər... mənimsəmələr» adlı kitabı son dərəcə aktual və dəyərli tədqiqatdır.

Damğalar xüsusi mülkiyyətin meydana çıxması ilə yaşıd olsa da, bəzi ehtimallara əsasən, daha çox atın türk etnosu tərəfindən əhliləşdirilməsi ilə bağlıdır. Çünki at digər heyvanlara nəzərən ən sürətli nəqliyyat və savaş vasitəsi, dolayısı ilə ən qiymətli və baha əmtəə idi. Hələ hun çağında türklər qonşu Çinə çoxlu sayda at ixrac edirdilər. Bu atlar rənginə, növünə, cinsinə və digər zahiri əlamətlərinə görə *(qaşqa, çəkil və s.)* təsnif olunur və çeşidlənirdi. Bəzən bir-birinə oxşar kəhərləri və ya qaşqaları ayrı-ayrı istehsalçılara görə fərqləndirmək ehtiyacı yaranırdı. Təbii ki, bunu kağız üzərində aparmaq təcrübi baxımdan doğru deyildi, çünki ilxıda atlar bir-birinə qarışdıqda onları ayırd etmək qeyri-mümkün idi. Ona görə də atların kimə, hansı ailəyə, boya, soya mənsub olduğunu dərhal və səhvsiz anlamaq üçün damğalardan istifadə edilirdi. Müəyyən yaşdan sonra atın sağrısına *(buduna)* qızmar dəmirlə heç vaxt silinməyəcək şəkildə xüsusi damğa vurulurdu.

Daha sonra bu, başqa sahələrdə bir qədər fərqli məqsəd və metodlarla *(bayraq və sancaqlar üzərində, silahlarda, sənətdə, xüsusilə xalçaçılıqda, bəzək əşyaları, zərgərlik, gil və çini qab-qacaq istehsalında, yasaq ərazilərin sərhədlərinin göstərilməsində və s.)* tətbiq olunmağa başlandı, gömrük, möhür, imza, siqnatura, müəlliflik funksiyaları qazandı. Maraqlı cəhət budur ki, türkcə «damğa» sözü bir çox dillərə *(rus, ərəb, fars, monqol və s.)* keçmiş, rusca «tamqa», «tamojnya», «tabun» sözləri də buradan yaranmışdır. Əski türkcədəki «tamqaçı» *(damğaçı)* sözü ilə dövlətin ən yüksək



məmuriyyətlərindən biri olan «möhürdar», indiki mənası ilə «dövlət katibi» vəzifəsi ifadə edilmişdir.

Tarixin müəyyən çağında damğalar artıq yazı sistemlərinə nüfuz edir. Misal üçün, bunu Orxon əlifbasında da görmək mümkündür. Bu əlifbadakı 38 işarə-hərfdən 14-nün damğalardan ibarət olduğu dərhal sezilir. Yan tərəfdəki 6 işarə isə damğaları ən parlaq şəkildə ifadə edir. Rəsmdəki əl işarəsinin **l**, yaya bənzəyən işarənin **y**, oxu andıran işarənin **x**, itə bənzəyən işarənin **t**, ev *(çadır)* işarəsinin **b** *(«b» sonralar bir çox sözlərdə «v»-yə çevrilmişdir),* ata oxşayan işarənin isə **t** hərfini ifadə etdiyini görürük. Bunun başqa örnəkləri də vardır. Araz Qurbanov öz kitabında onların 20-sini damğa rəmzi kimi izah etmişdir.

Kiçik ön sözdə əlifbaya xeyli yer verməyimiz səbəbsiz deyil. Ermənilər bir çox platformalarda özlərini orijinal əlifba sahibi, mədəni millət kimi qələmə verir, bizi isə əlifbasız xalqlar cərgəsinə aid edirlər. Halbuki finikiya-aramey mənşəli erməni əlifbasından fərqli olaraq bizim runik əlifba daha milli, daha orijinal və qat-qat qədimdir.

Araz Qurbanov kitabının «Damğa – etnik alın yazısı» adlanan I hissəsində damğaları etnik mənsubiyyət göstəricisi, dominant etnomədəniyyətin təzahürü, dominant-vassal münasibətlərinin əlaməti, ərazi mənsubiyyətinin qrafik əlaməti kimi geniş təhlil etmiş, Azərbaycan xalçalarında işlənmiş damğaları, qədim və orta əsrlərdə mövcud olmuş türk dövlətlərinin bayraqlarındakı damğaları, finikiya və türk runik əlifbasındakı işarələri müqayisə etmiş, ortaq damğalara görə türk xalqlarının yaşadığı arealı göstərmiş, əhəməni və sasani tayfa rəmzləri arasındakı etnik türk damğalarını müəyyənləşdirmiş, oğuz boyları və damğalarını ayrıca araşdırmış, «damğa» sözünün etimoloji izahını vermişdir.

Kitabın II hissəsi «Bəzi populyar türk damğa və rəmzlərinin semantikası» adlanır. Müəllif burada xan damğası, ikibaşlı qartal/quşlu damğa, daha doğrusu, onqon quşlar, ay-ulduz rəmzləri, andiçmə rəmzləri, bitik, tumar, nəzərlik, tilsim ilə bağlı rəmzlər, totem sayılan qaba ağac, töz ağac, baytərək, baytörə rəmzləri, Gün rəmzi, qızıl alma, abak, ama, ana ilə əlaqədar rəmzlər, yay-ox, buta rəmzlərinin semantikasını açmışdır. Bu fəsil faktiki material-

larla həddən artıq yüklüdür, burada onlarca, yüzlərcə damğa, rəmz və işarə təhlilə cəlb edilmiş, onların mənası dolğun şəkildə izah olunmuşdur. Kitabın III hissəsi «Damğa işarələri. Etnogenez, təhriflər və mənimsəmələr» adlanır. Bu, kitabın ən maraqlı qismidir. Müəllif əvvəlcə Qobustan, Gəmiqaya, Manna, Midiya rəmzləri ilə türk damğalarını müqayisə edir, 9-15 rəmzlə damğanın üst-üstə düşdüyünü göstərir. Pazırıq işarələri ilə türk damğaları arasında 19 dəfə eynilik müşahidə edən A.Qurbanov Azərbaycanda rəmz və damğaların heç bir dəyişikliyə uğramadan tarix boyu davam etdiyini, bunların uzaq Altay bölgəsində yerləşən Pazırıq kurqanı ilə də eyniyyət göstərdiyini yazır.

Tədqiqatın «Erməni saxtakarlığı. Abidələr, xalçalar, qayaüstü təsvirlər və rəmzlər» bölməsində ermənilərin müəmma dolu saxta tarixi, mifik «erməni yayı və oxu», Haykın «atıcılıq» məharəti, Ağtomar kilsəsindəki barelyefdə təsvir olunan qıpçaq döyüşçüsünün ermənilər tərəfindən «xristian kral» şəklinə salınması, ermənilərə «məxsus» olan qayaüstü təsvirlərin başqa planetlərdən gələn varlıqlar haqqında çox qiymətli məlumat daşıması və ağlasığmaz başqa cəfəngiyyatlar sadalanır və ifşa olunur. Bədnam qonşular Azərbaycan xalça məktəblərinin nümunələrini, rəmzlərini, ornamentlərini - bir sözlə, bütün elementlərini mənimsəməyə can atmış, dünya elmi ictimaiyyətini aldatmaq məqsədilə kitablar yazmış və ya yazdırmış, ingiliscə xalça demək olan «karpet» sözünü Qərbdə xalça mağazası açmış erməni taciri Karapetin adı ilə bağlamaq dərəcəsinə qədər saxtakarlığa əl atmışlar. Kitabda daha sonra erməni sənətşünaslarının uydurmaları, erməni xalçası kimi qələmə verilən sənət nümunələrində Azərbaycan xalça məktəblərinə məxsus damğalara, habelə başqa türk xalqlarına aid damğalara gen-bol rast gəlinməsi fakları bir-bir göstərilir.

A.Qurbanov Qərbi Azərbaycan qayaüstü təsvirlərindəki işarələrin etnik mənşəyinə haqlı olaraq xüsusi bölmə həsr etmişdir. İş burasındadır ki, ermənilər çox-çox sonralar gəlib yerləşdikləri bu coğrafiyada bizə məxsus nə varsa hamısına qeyd-şərtsiz sahib çıxaraq həyasızcasına mənimsəmişlər. Bunların arasında qayaüstü təsvirlər xüsusi yet tutur. Ermənilər bu təsvirlərin yozumunu da özlərinə xas olan formada - bəzən gülməli, bəzən də fantastik şəkildə göstərirlər. Müəllif bu bölmədə Qərbi Azərbaycan işarələrinin Mərkəzi və Ön Asiya, Avropadakı türk damğaları və göytürk əlifbası ilə müqayisəsini vermiş, erməni iddialarının əsassız olduğunu sübuta yetirmişdir. A.Qurbanov Qafqaz Albaniyasının tarixini, mirasını, eləcə də damğa və işarələrini mənimsəmiş ermənilərin bütün əməllərini elmi məntiq və sübut-

larla ifşa etmişdir. Tədqiqatçı Dərbəndin qala divarları üzərindəki işarələri mənimsəməyə cəhd edən erməni alimlərinin qeyri-elmi tezislərini alt-üst etmiş, Dərbəndə aid 98 işarənin ortaq türk damğaları ilə, qıpçaq və oğuz simvolları ilə, göytürk və uyğur əlifbalarındakı işarələrlə qarşılıqlı müqayisəsini aparmışdır.

Araz Qurbanovun «Damğalar, rəmzlər... mənimsəmələr» adlı kitabı bu sahədəki çox mühüm boşluğu dolduran, saxtakarlara tutarlı cavab verən, türk və Azərbaycan damğa və rəmzlərilə bağlı bir çox məsələləri ilk dəfə elmi dövriyyəyə daxil edən, bəzi qaranlıq məqamlara aydınlıq gətirən - bir sözlə, mövzuya öz damğasını vuran tədqiqatdır. Hazırda müəllifin geniş həcmli «Ortaq türk rəmzləri və damğaları» kitabı nəşrə hazırlanır. Müəllifə bu çətin işdə uğurlar arzulayırıq.

Ramiz Əskər,
professor

Giriş əvəzi

«Dünlə bərabər getdi cancağımız,
İndi yeni sözlər söyləmək lazım.
Nə qədər söz varsa dünənə aid
Onları yenidən söyləmək lazım».
Mövlanə Camaləddin Rumi

Bu kitab xalqımızın mədəni irs nümunələrindən, kollektiv yaddaşımızın unudulan elementlərindən olan rəmz və damğa işarələri barədə «tarix yazmaq» iddiasından deyil, etnomədəniyyət, etnopsixologiya və etnik mifoloji təsəvvürlərlə sıx bağlı olan həmin nişanların mənşə və semantikasını, onların tətbiqi xüsusiyyətlərini öyrənmək və başqalarına çatdırmaq istəyindən yaranmışdır. Çünki haradan nə ilə gəldiyini unudan, haraya və hansı yüklə gedəcəyini də bilməyəcəkdir. Xalqa haradan gəldiyini xatırlatmaq tarixçilərin, haraya gedəcəyini müəyyən etmək isə siyasətçilərin işidir. Gizlinlər isə uzaqda, «qırx qapı arxasında» deyil, ətrafımızda, məişətimizdə, hələ də yaşanan adət-ənələrimizdə - bir sözlə, özümüzdədir. Bu çətin işdə çəkindiyimiz vardısa, o da gerçəklikləri bilmədən təhrif etmək xofu idi. Odur ki, səhvlərimizi qabaqcadan görüb qarşısını alanlara, bu kitabın ərsəyə gəlməsində yardımçı olanlara dərin minnətdarlığımızı bildiririk.

«Kökün kim!». Böyük mütəfəkkir Mahmud Kaşğarinin *(1008-1105)* «Divani lüğət-it-Türk» əsərində yer almış müdrik atalar sözləri arasında gizlənən bu xatırlatma dahi türk aliminin gələcək nəsillərə ünvanladığı əbədi vəsiyyətidir. Yer üzündə «böyük» və ya «kiçik» xalq, «üstün millət», «ali irq» və ya «seçilmiş» etnos olmasa da, onların hər birini digərlərindən fərqləndirən etnomədəni xüsusiyyətləri, dili, təkrarolunmaz maddi-mənəvi irsi vardır. Xalqlar həm də onları öz keçmişləri, bu günü və gələcəkləri arasında rabitə quran mifik Dirilik Ağacının *(Qaba Ağac, Baytərək)* qol-budaqlarının əcdad-köklərə bağlılığı ilə də seçilirlər. Bu kökdən ayrılanlar, onlara miras qoyulan irsə yiyə dura bilməyənlər isə mənbəyindən uzaq düşən çaya bənzəyirlər: axarı ilk vaxtlar nə qədər güclü olsa da, müvəqqətidir, yol qət etdikcə quruyacaq. Hələ eramızdan əvvəl böyük yunan mütəfəkkiri Platon «Dialoqlar» əsərində əcdadların qoyub-getdiyi irsin müasirlər üçün vacibliyini belə ifadə edirdi: **«Siz də, digər xalqlar da hər dəfə özünüzə əlifba yaratmağa, yeni həyata uyğunlaşmağa im-**

kan tapan kimi sanki göy yarılır, oradan başınıza bədbəxtliklər, amansız xəstəliklər yağmağa başlayır. Və siz yenidən savadsızlara, nadanlara çevrilirsiniz. Beləliklə, keçmiş əyyamlarda ölkənizdə nələrin baş verdiyindən xəbərsiz körpələr kimi hər şeyə yenidən başlamalı olursunuz».

Keçmişə biganəlik total unutqanlıq yaradır. O da həqiqətdir ki, bu gün bir çox xalqların üzləşdiyi süni etnomədəni münaqişələrin, ərazi iddialarının mayası genetik vərdişə çevrilmiş unutqanlıqda, öz tarixinə biganəlikdə, onu qoruya bilməməkdədir. Görkəmli fransız maarifçisi Şarl Lüi Monteskyö 1721-ci ildə qələmə aldığı «İran məktubları» romanında türk xalqları tarixinin gələcəkdə üzləşəcəyi təhrif və saxtakarlıqları bəsirətlə görərək təəssüf hissi ilə bunları yazırdı: **«Yer üzündə heç bir xalq nə fatehlik şöhrəti, nə də əzəməti ilə onlarla** *(Azərbaycan türkləri* – **A.Q.) yarışa bilməz. İranın həqiqi hökmdarları onlardır. Kirin, Kiştapsın taxtında qürurla əyləşənlər də onlardır… Bu fateh xalqın yalnız tarixçiləri çatışmayıb ki, şanlı qələbələrinin şöhrətini yazıb ətrafa yaysınlar… Bu cəngavər xalq öz məğlubedilməzliyinə o qədər inanıb ki, ötən qələbələrini əbədiləşdirmək qayğısına qalmayıb»**.[1] Fateh babalarımızın öz tarixlərinə biganəliyi isə yüz illər sonra, XIX-XX əsrlərdə acı nəticələrini verdi. Tarixi Azərbaycan torpaqları parçalandı, kiçildi və bu ərazilərin əcdadlarımıza məxsus olması barədə sübutları başqa xalqların mənbələrindən arayıb-axtarmaqdan başqa bir çarəmiz qalmadı. Eramızdan əvvəl yaşamış Çin şairi Sıma Syan-Ju haqlı idi: **«Öz tarixini bilməyən və bundan nəticə çıxarmayan xalq əcdadlarının çəkdiyi əzabları yenidən yaşamağa məhkumdur»**...

Təhlillər göstərir ki, bəzən əhəmiyyətsiz görünən, orta statistik istehlakçı təfəkküründə sadə «naxış», «bəzək ünsürü» kimi qəbul edilən qədim damğa işarələri milli-mədəni irsin təhriflərə, mənisəmə səylərinə ən dayanıqlı olan elementləridir. Məsələn, iddialı tərəflər qədim Azərbaycan xalçasını özününküləşdirə, «milli mədəniyyətinin nümunəsi» kimi təbliğ edə bilər. Lakin onların üzərindəki kodlaşdırılmış sakral təsvirləri, güclü etnik «immuniteti» ilə seçilən ortaq türk damğa işarələrini mənimsəmək isə mümkünsüzdür. Bu işarələr konkret ərazilərdə, məsələn, tarixi Azərbaycan torpaqlarında, Türkiyədə, Mərkəzi və Ön Asiyada, Krımda, Şərqi Avropada və s. ilkin tarixi-etnomədəni mənzərənin bərpasında unikal vasitə olmaqla yanaşı, türk xalqlarının protovətəni, miqrasiya prosesləri, dini inancları, mifologiyası, adət və

1 Ш.Л.Монтескье. “Персидские письма”. Москва, Издательство “ИОЛОС”, 1993.

ənənələri, hərb sənəti və hərbi-siyasi konfederasiyaları və s. haqqında qərəzsiz məlumat mənbəyidir. Məhz bu amillər bizi qədim türk damğaları ilə əlaqəli aşağıdakı suallara cavab axtarmağa sövq edir:

- Əgər Ön Asiya, xüsusilə tarixi Azərbaycan və Anadolu ərazilərinə ilk türk köçü həqiqətən də eramızın V əsrinə təsadüf edirsə, burada 2-5 min il əvvəllərə aid olunan və dünyada «türk damğaları» kimi tanınan qədim işarələrin müəllifləri kimlərdir?
- Azərbaycan ərazisindəki Qobustan, Gəmiqaya, Göyçə qayaüstü təsvirlərindəki işarələri, Manna, Midiya, sak-skif, bəzi sarmat, əhəməni və sasani rəmzlərini, Orxon-Yenisey əlifbasını əski türk damğa nişanları ilə hansı etnomədəni bağlar birləşdirir? Bu sual ətrafında araşdırmalar həqiqi türk köçünün «Şərqi Sibirdən Cənub-Qərbə» doğru deyil, məhz Ön Asiyadan istiqamətlənməsinə dair qənaətlərin təsdiqinə yardımçı ola bilərmi?
- Əgər Avrosentrizm nəzəriyyəsi tərəfdarlarının iddia etdikləri kimi, həmin damğa işarələri qədim türk xalqlarına deyil, hind-avropalılara *(slavyanlara, hindlilərə, germanlara, skandinavlara)* məxsusdursa, görəsən, nə üçün onların semantikası yalnız əski türklərin mifologiyası, yaşam tərzi, spesifik hərb sənəti və inancları *(qam-şaman dini, tanrıçılıq)* əsasında dəqiq izahını tapır? Digər iddialı xalqlar həmin damğa nişanlarının mənşə və mahiyyətini «unutduqları» halda, onların məhz ortaq türk ornamentləri, dövlət simvolları sırasında bu günə kimi qorunub-saxlanılmasının səbəbi nədir?
- Elmi ədəbiyyatda şərti olaraq «Qafqaz Albaniyası» adlandırılan Alban dövlətinin rəmz və damğa nişanlarının türk mənşəli olması həmin dövrdə bu ərazidə hansı etnomədəniyyətin dominant rolunun göstəricisidir?
- Xristian dininin bir sıra rəmzlərinin İsa Məsihin mövludundan və xaçın kult obyekti kimi qəbul edilməsindən xeyli əvvəl qədim türk inanclarında ilahi nişanlar, nəsil və tayfaların fərqləndirmə işarələrinin olması hansı etnomədəni və siyasi proseslərlə əlaqəlidir?

Antik və Orta əsr tarixçilərin məlumatına görə, qədim türk atlı döyüşçüləri savaş ərəfəsində bir-birini tanımaları və hərb meydanını Göydən seyr edən Tenqri xanın onları düşməndən fərqləndirməsi üçün alınlarına, baş geyimlərinə mənsub olduqları nəslin damğalarını və dini rəmzlərin təsvirlərini çəkərdilər. Əgər döyüşçünün qisməti şəhidlik olsaydı, onu Tenqri məkanına da həmin alın yazısı ilə yola salırdılar. Bəlkə də, bu gün «qəzavü-qədər» anlamını verən «alın yazısı» ifadəsinin ilkin semantikası bu ayin ilə əlaqəlidir.

Tarixdə təkcə ayrı-ayrı fərdlərin deyil, hər bir xalqın, millətin də öz missiyası, öz tale yolu və alın yazısı vardır. Bu yol isə keçmişin öyrənilməsindən başlanır. Hüseyn Cavidin təbirincə desək, **«Turana qılıncdan daha kəskin ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət»**...

Yaşlıların xatırlamasına görə, keçmişdə Azərbaycanda yad qonaqdan «Kimlərdənsən?» soruşanda əvvəlcə mənsub olduğu tayfanın, sonra isə nəslinin adını deməli idi. Daha uzaq əyyamlarda isə belə sorğu-suala da ehtiyac yox idi. Qərib adamın geyimi, silahı, yəhəri üzərindəki damğa işarələri onların sahibi haqqında ətraflı məlumat verirdi. Bu gün Azərbaycanda bir çox insan nəsil şəcərəsini, tayfasını, yeddi arxa dönəninin kimliyini qürurla xatırlayır, onlarla fəxr edir. Yaddaşlardan silinən bir şey varsa, o da həmin kimliyi təsdiqləyə biləcək tarixi şəhadətnamələr – damğa işarələridir...

Müəllif

- I HİSSƏ -

Damğa - etnik alın yazısı

Mən sizlərə oldum xaqan,
Düşməsin əlimizdən nə yayımız, nə qalxan
Damğamız olsun bizə yol göstərən bir nişan».
«Oğuz Xaqan» dastanından

Vaxt «inanılmaz» dediyimiz sürətlə keçir. Zamanın axarında nəsillər bir-birini əvəz edir, əhatəmizdəki fetişlər ilkin mahiyyətlərini itirir, adiləşir, mənəvi dəyərlər təzələnir, bütöv sivilizasiyalar, mədəniyyətlər çökərək estafeti yenilərə ötürür. Yaddaşlarda isə yalnız keçmişin kodlaşdırılmış işartıları – ötənlərin rəmz və işarələri, onların yozumları və bir də təhriflər qalır. Əlimizə aldığımız hər bir kitab da məzmunundan, müəllifin üslubundan, yazıldığı dildən asılı olmayaraq, rəmz və işarələrin toplumudur. İnsanlar təkcə sözlərlə deyil, yazı işarələri və təsvirlər vasitəsilə də öz fikirlərini ifadə edir, başqalarına çatdırır. Nitqimizdə və ya qələmə aldığımız mətnlərdəki sözlər də, rəqəmlər də ayrı-ayrılıqda müəyyən səslərin şərti işarələrlə rəmzləşdirilmiş formalarıdır. Səslərin, müxtəlif mənalı sözlərin işarələnmiş məntiqi ardıcıllığı isə bitmiş fikri – cümlələri, yazı mətnlərini – bir sözlə, müsahib və ya oxucu ilə ünsiyyəti yaradır.

İnsanı bioloji varlıq kimi digər canlılardan fərqləndirən xüsusiyyətlərdən biri onun abstrakt düşüncəyə malik olması, ətrafında baş verən hadisələri, bütövlükdə hər hansı bir informasiyanı, ideyanı, prosesləri sadələşdirilmiş obrazlara, asan qavranılan şərti işarələrə çevirmək qabiliyyətidir. Analitik psixologiya təliminin banilərindən olan Karl Qustav Yunqun təbirincə desək, qədim mifik təfəkkürün, dünyanı dərketmə formalarının, müxtəlif dinlərə, incəsənət növlərinə, bütövlükdə ayrı-ayrı etnik mədəniyyətlərə parçalanan bəşər sivilizasiyasının bütün arxetipləri, yəni ilkin obrazları məhz sadə rəmzlər vasitəsilə ötürülərək dövrümüzə gəlib çatmışdır.[2] Bu işarələr fərqli sosial-mədəni, intellektual təbəqələrə, etnomədəni qruplara, zaman kəsiyinə,

2 К.Юнг. “Архетип и символ”. Издательство “Ренессанс” СП “ИВО-СиД”, 1991.

ayrı-ayrı insan toplumlarına aid olsalar da, bütövlükdə qədim əcdadlar üçün milli, dini və məkan fərqi bilməyən ən rasional ünsiyyət vasitəsi idi. İnsanın ətraf aləmi lakonik obraz və rəmzlər vasitəsilə dərketmə qabiliyyətinə elmdə «mifopoetik təfəkkür» deyilir. Tanınmış psixoloq Erix From hamının aydın başa düşdüyü belə ünsiyyət forması haqqında bunları yazırdı: «**Rəmzlərin dili bütün bəşəriyyətin ən yaxşı anladığı universal dildir. Bu, qədim miflərin və müasirlərimizin gördükləri yuxuların dilidir, onu Hindistanda, Çində, Nyu-Yorkda və Parisdə də eyni səviyyədə anlayırlar**».[3] Polşa yazıçısı Anjey Sapkovskinin isə rəmz və nişanların insanların davranışına təsir etmək imkanlari barədə yarızarafat qənaəti belə idi: «**Siz ətrafdakılara ləyaqət, vətən sevgisi, dini ayinlərin icrası haqqında istədiyiniz qədər ağızdolusu danışa bilərsiniz. Lakin onların tükü belə tərpənməyəcəkdir. Amma həmin insanlara bir rəmz göstərin! Dərhal onun ardınca gedib özlərini oda-közə vuracaqlar. Belə qüdrətə malik rəmzlər bəzən ordudan da qiymətlidir**».

Elmə məlum olan ən qədim damğaların – tanınma-fərqləndirmə nişanlarının təqribən 5000 il yaşı vardır. Amerika tədqiqatçısı Ceyms Harrod bu fikirdədir ki, qədim insanların maddi-mənəvi dünyasında sadə qrafemlər – hərflər müxtəlif sakral rəmzlər əsasında yaranmış, yəni sonradan əlifba işarələrinə, damğalara, heroqliflərə, ideoqramlara və s. çevrilmişdir. Və bu işarələrin ilkin obrazları heç də ayrı-ayrı predmet və canlıları deyil, məhz onların təsvirləri vasitəsilə konkret hadisələri, mərasimləri və prosesləri təcəssüm etdirmişdir.[4] Qədim və populyar ortaq rəmzlərdə, məsələn, əlifba işarələrində, miqdarın və səsin qrafik təsvirlərində *(rəqəm və hərflərdə)* hansısa gizli mənaların, kodlaşdırılmış ilahi ismarıcların axtarışı müxtəlif dini-fəlsəfi təlimlərin - hürufiliyin, kabbalanın, numerologiyanın yaranmasına səbəb olmuş, poeziyada, musiqidə, rəngkarlıqda, heykəltəraşlıq və memarlıqda hətta konspirologiyanın ezoterik ənənələrə söykənən cərəyanlarında özünə xeyli ardıcıllar tapmışdır.

Psixologiya elminə əsasən, rəmzlər, o cümlədən haqqında bəhs etdiyimiz damğa işarələri qədim insanların mnemonik vərdişlərinin – geniş informasiyanı yığcam və universal təsvirlər vasitəsilə yaddaşda saxlamaq və ötürmək metodunun tərkib hissəsidir. Təkcə ulu əcdadlarımız deyil, müasir

3 "Сумерки богов", Ф.Ницще, З.Фрейд, Э.Фромм, А.Камю, Ж.П.Сатр, Москва, 1990.

4 J.Harrod. Deciphering Upper Paleolithic (European): Part I. The basic graphematics – Summary of discovery procedures. // Language Origins Society annual meeting, 1998.

insan da yaşayışını, işini, məişətini asanlaşdıran, sağlamlığını, vaxtını, təhlükəsizliyini qoruyan ən müxtəlif rəmzlərlə əhatə olunmuşdur. İctimai-siyasi, milli, dini simvolikada, dövlət rəmzlərində *(bayraq və gerblərdə)*, müasir kompüter texnologiyalarında, şirkət və təşkilatların emblemlərində, əmtəə, yol hərəkəti, hərbi rütbə nişanlarında, məlumat lövhələrində və s. mnemonikadan - şərti işarələr sistemindən geniş istifadə edilməkdədir. Ortaq işarə sistemlərinin bir çoxu hər bir kəs üçün tamamilə anlaşıqlıdır. Məsələn, iki maili çarpaz xətt ✕ ibtidai dövrlərdə olduğu kimi indi də bağlı, yasaq edilən ərazinin başlanmasını, ✚ nişanı hərb sənətində hədəfi, səhiyyədə xəstəxananı, «ox» işarəsi ↑ hərəkətin istiqamətini, qədəhə sarınmış ilan ⚕ təbabəti ifadə edir. İzdihamlı küçələrdə rast gəldiyimiz sadə ⛔ nişanı isə bütün ölkələrdə və dillərdə «nəqliyyat vasitələrinə giriş qadağandır!» kimi uzun xəbərdarlığı əvəz edir. Səmavi dinlərin fərqləndirici rəmzləri arasında Aypara ☾ islamın, xaç ✞ xristianlığın, Mogen David – Hz.Davudun qalxanı ✡ *(islamda - Möhrü-Süleyman)* isə iudaizmin rəmzlərindən sayılır. Digər populyar rəmzlərin semantikasına nəzər salaq. Tanınmış «Apple» şirkətinin loqotipi olan «dişlənmiş alma» ⍟ təsviri bir tərəfdən İsaak Nyutonu cazibə qüvvəsinin kəşfinə həvəsləndirən almanı, digər tərəfdən isə Adəm və Həvvanın cənnətdən qovulmasına bais olan «günah meyvəsinin» mifik obrazını təcəssüm edir. Bəzən təsadüfi oxşarlıqlara da rast gəlirik. Misal üçün, Şimali və Cənubi Qafqazda, Mərkəzi Asiyada geniş yayılan «alban» damğası ♁ astroloji simvolizmdə Yer kürəsinin, onun üzüaşağı çevrilmiş variantı isə ♀ Venera planetinin rəmzi kimi qəbul edilmişdir. Bundan başqa, Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri İttifaqının emblemi ✚☽ «Ay-ulduz» *(əslində, «Ay-Günəş»)* damğası olaraq, VI-VII əsrlərə aid Göytürk sikkələrinin üzərini, orta əsr Polşa-Litva tatarlarının gerblərini bəzəmişdir. Azərbaycan milli manatının rəmzi ₼ və «Mazerati» avtomobil şirkətinin loqosu Ψ əski türk tayfalarının «daraq», «baltavar» və ya «xan damğası» adlanan işarəsinin, avronun simvolu olan € nişanı saka-skiflərin, hunların, xəzərlərin, Altaylardan Şərqi Avropayadək uzanan ərazilərdə məskunlaşmış oğuz və qıpçaqların «yay-ox» işarəsinin, Fransanın «Sitroen» avtomobillərinin emblemi isə ⌃ Azərbaycan xalça ornamentlərində də geniş yayılan «atlı» damğasının eynidir.

Mifik təsəvvürlərin, ətraf aləmi estetik dərkin bədii təzahürü sayılan ornamentlərin yaranma səbəbləri, genezisi haqqında fərqli mülahizələr

olsa da, onların ilk dövrlərdə məhz sakral xarakter daşımaları mübahisə mövzusu deyildir. Qədim ornamentlərin ilk nümunələrinə Poleolit dövrünə aid qayaüstü təsvirlərdə, arxeoloji tədqiqatlar zamanı aşkar olunan saxsı qab, daş və sümük bəzək əşyaları və s. üzərində rast gəlinir. Neolit dövrünün mədəniyyətlərində onlar yeni formalar, fərqli işlənmə texnikası və tətbiq sahələri ilə təkmilləşmiş, rəmzi mahiyyətini, ibtidai dini inanclarla bağlılıqlarını daha da möhkəmləndirmişlər. Nəticədə, bu gün xalq tətbiqi sənətində «milli ornamentlər» kimi tanıdığımız etnik tərtibat ünsürlərinin bir çoxunun semantikasında məhz əcdadlarımızın qədim mnemonik simvolları, damğa və rəmzləri, əlifba işarələri vasitəsilə kodlaşdırıb-ötürdükləri informasiya dayanmaqdadır. Xüsusilə vurğulamaq lazımdır ki, damğalar, rəmzlər və onların törəmələri olan etnik ornamentlər konkret xalqın milli tarix və mədəniyyətinin, miqrasiya və inteqrasiya proseslərinin öyrənilməsində mühüm informasiya mənbəyidir.

Lakin təəssüflər olsun ki, qədim damğalar hələ də tarixi olayların təkzibedilməz maddi sübutları kimi deyil, «naxış», mədəni irs nümunələri qismində dəyərləndirilməkdədir. Çünki müasir dominant tarixşünaslığın rasionallığı şərtidir. Bir tərəfdən subyektivliyi inkar etsə də, salnaməçilərin fərdi qənaətlərinə - «tarixi yaddaşa» söykənir, digər tərəfdən isə ifrat maksimalizmə vararaq «bizim kimi düşünməyən bizdən deyildir!» prinsipinə arxalanır. Onun əzəli rəqibi isə gerçəklikləri bəzən yarıbədii obrazlar, yırımif, yarıgerçəkliklər səviyyəsində qoruyub-ötürən sosial yaddaş – xalq *(kollektiv)* yaddaşıdır. Yaranmış mövqe qarşıdurmaları isə bir çox hallarda keçmiş haqqında reallıqdan uzaq olan təsəvvürlər yaradır.

Damğa işarələrinin sistemli şəkildə öyrənilməsi iki yüz ilə yaxın müddət ərzində davam etsə də, bir sıra məsələlərə tam aydınlıq gətirilsə də, onların ətrafında yaranmış mübahisələr məhz etnosiyasi maraqlar üzündən hələ də səngimək bilmir. Əsas səbəb isə üzərində bu işarələr olan qədim və zəngin maddi-mədəniyyət nümunələrinin, eləcə də həmin irsin yerləşdiyi ərazilərə olan etnomədəni iddialardır. Daha doğrusu, damğa işarələri xronoloji dövrlər üzrə etnogenez proseslərinin, etnomədəniyyətin, dövlətçilik ənənələrinin, inancların müəyyən edilməsində həm təkzibolunmaz elmi sübutlar, həm də etnosiyasi mübarizədə təsirli vasitədir. Qeyd edək ki, digər xalqların tanınma-fərqləndirmə nişanları ilə müqayisədə qədim türklərin damğa işarələri daha geniş funksiyalara malikdir. Əgər irandilli, qafqazdilli xalqlarda, slavyanlarda

damğa nişanları əsas etibarilə əmlak, mal-qara üzərində fərdi və ya kollektiv mülkiyyət hüququnu ifadə edirdisə, türk xalqlarında, ilk növbədə, etnik və nəsil-tayfa mənsubiyyətini, dini və sosial mənşəyi, ayrı-ayrı fərdlərin, nəsil və ya tayfanın statusunu və s. bildirir, dövlət rəmzləri olaraq bayraq və tuğ başlıqlarını bəzəyirdi.

Təhlillərə əsasən, türk xalqlarında damğa işarələrinin təyinatı və funksiyaları kifayət qədər geniş olmuşdur. Onlara xalq, tayfa və ya nəsillərin dövlətçilik ənənələri, həyat tərzi, təsərrüfat fəaliyyəti, hərb sənəti, inancları ilə bağlı müxtəlif yerlərdə rast gəlmək mümkündür. Məsələn:

- döyüş bayraqlarında və hökmdar sancaqlarının başlıqlarında;
- zireh, dəbilqə və qalxanlarda, kəsici silahların tiyəsi üzərində;
- yasaq ərazilərin və şəxsi sahələrin sərhədlərində;
- xalça və xalça məmulatlarında, keçələrdə, ipək parçalarda;
- bəzək əşyalarında;
- bədənin əl, qol, bilək, alın hissələrinə vurulan döymə naxışlarda *(tatu);*
- dulusçuluq və zərgərlik məmulatlarında;
- baş geyimlərində *(papaq və yağmurluqların/araqçınların)* üst hissəsində, gəlinlik geyimlərinin, uşaq paltarlarının, yapıncıların üzərində;
- ev, alaçıq və çadırların divarlarında, qapı çatılarında;
- məzar daşlarında;
- dini inanc yerlərində;
- nəzərlik xarakterli əşyalarda;
- iri və xırda buynuzlu ev heyvanlarının, atların və dəvələrin bud, alın, qulaq və quyruq hissələrində;
- qoşqu vasitələrində *(araba, qazalaq və s.);*
- anbar və tövlələrin giriş hissəsində və s.

Bu baxımdan, B.Ögəl, O.Akçokraklı, V.Olxovski, Ə.Canıbəyov, L.Lavrov, K.Əliyev, V.Flerova, İ.Baski, E.Triyarski və X.Yaxtaniqov kimi tədqiqatçıların apardıqları araşdırmaların nəticələrini ümumiləşdirsək, ortaq türk damğalarının tarixşünaslıqda xüsusi əhəmiyyət kəsb edən aşağıdakı aparıcı funksiyalarını önə çəkə bilərik:

1. Etnik mənsubiyyət göstəricisi. Məlumdur ki, ortaq türk damğaları təkcə özünün qədimliyi ilə deyil, həm də spesifik qrafik təsvir üslubları və türk mifik təfəkkürü, inancları, yaşam tərzi, hərb sənəti, dövlətçilik ənənələrinə söykənən semantikası ilə başqa xalqların etnik tanınma-fərqləndirmə nişanlarından

kəskin şəkildə fərqlənir. Belə olan təqdirdə, hər hansı bir qədim xalqın və ya tayfanın etnogenezinin, məskunlaşma ərazilərinin müəyyənləşdirilməsində, dövlətçilik tarixinin öyrənilməsinə dair mübahisələrə son qoyulmasında digər etnomədəni əlamətlərlə yanaşı damğa işarələrinin də həlledici rolu vardır. O da məlumdur ki, saka-skif, sarmat, parf, sasani və s. damğaları içərisində etnik türk damğalarının da geniş yayılması bu konfederasiyaların və dövlətlərin qurulmasında türk tayfalarının fəal iştirakının sübutlarındandır. Bundan başqa, damğa işarələrinin genezisinin, yayılma areallarının araşdırılması müxtəlif tarixi dövrlərdə türk tayfalarının formalaşması, etnogenezi, məskunlaşma və miqrasiya prosesləri barədə qəti elmi fikirlər söyləməyə əsas verir.

Məsələn, 2012-ci ildə Türkmənistan Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyası Göytəpə ətrafı *(inzibati-ərazi vahidi)* Izqand yaşayış məntəqəsi yaxınlığında, Daşlıtəpə adlanan ərazidə qazıntılar zamanı antik dövrlərə aid bir sıra maddi-mədəniyyət nümunələri ilə yanaşı, üzərində «xan damğası» və ya «baltavar» işarəsi olan saxsı qab parçası da aşkar etmişdir. İnstitutun professoru Ovez Gündoğduyev qədim və orta əsr türkmən tayfaları arasında həmin tanınma-fərqləndirmə nişanının geniş yayıldığını vurğulayaraq, damğanın Parfiya hökmdarlarından birinə məxsus olduğunu bildirir. Alim qənaətini onunla əsaslandırır ki, burada məskunlaşmış massaget və sarmat-alan tayfaları sonralar birləşərək qədim oğuzların böyük hissəsini təşkil etmişlər. O yazır: «**Parfiya imperiyası tarixdən silinsə də, onu yaradan xalq yox olmamışdır. Vaxt ötdükcə Türkmənistan ərazisindəki qədim etnoslar güclü oğuz ittifaqını yaratmışlar. Bu ittifaqın iri şəhərlərindən biri də Izqand – Oğuzkənd olmuşdur. Odur ki, «parf hökmdarlarının» damğasının burada tapılması təəccüb doğurmamalıdır. Bu işarə həm də oğuzların kınık tayfasının rəmzi olmaqla səlcuqların sikkələri üzərinə də basılmışdır. Təsadüfi deyildir ki, Mixail Psell** *(1018-1078-ci illərdə yaşamış Bizans tarixçisi və filosofu)* **Səlcuq dövlətinin ilk hökmdarı olmuş Məhəmməd Toğrul bəyi «Parfiya sultanı» adlandırmışdır».**[5]

2. Dominant etnomədəniyyətin təzahürü. Mübaliğəsiz deyə bilərik ki, damğa işarələrinin bu funksiyası Kür-Araz mədəniyyətinin, Şimali və Cənubi Qafqazda, Anadoluda aşkar olunan maddi-mədəniyyət nümunələrinin, Qərbi Azərbaycandakı qayaüstü təsvirlərin etnik mənşəyi, Arşakilər, Qafqaz

5 О.Гундогдыев. “Знак парфянских царей из селения Ызган”, http://www.turkmenistan.gov.tm/?id=3103

Albaniyası, Səfəvi dövlətləri və s. ətrafında yaranan mübahisələrə tarixi-etnoqrafik baxımdan son qoyulması üçün əlverişli imkandır. Məsələn, Dərbənd qala divarlarının hörgü daşları üzərindəki 500-dən çox damğa işarəsi, Göytürk əlifbası qrafemləri və ortaq türk damğaları əsasında yaranan Qafqaz Albaniyası əlifbasının işarələri, bu dövlətə aid xristian abidələrində tipik türk sakral nişanlarının həkk edilməsi, Alban hökmdarı Asfagenin möhürü ilə Hun, Xəzər, Qızıl Orda rəmzləri arasında heyrətamiz eynilik, «erməni xalça naxışları» adı altında tanıdılan nümunələrin tamamilə etnik türk tanınma-fərqləndirmə nişanlarından ibarət olması və s. mənimsəmələrə qarşı ciddi müqavimət olmaqla, bu ərazilərdə tarixən hansı mədəniyyətin dominat rolunun ifadəçisidir.

3. Statusun, dominant-vassal münasibətlərinin əlaməti. Damğaların bu funksiyasının əhəmiyyəti, məsələn, «baltavar», «yay» və «yay-ox» işarələri «hakimiyyət», «dominatlıq», onların üzüaşağıya çevrilmiş tipləri müstəqillik hüquqlarının nisbətən məhdudlaşdırılmasını ifadə edirdisə, «ox» və «baltavarın» digər variantı vassallığı bildirirdi. Orta əsr rus knyazlıqlarının bayraqlarındakı həmin etnik türk işarəsinin variasiyaları onların həqiqətən də Qızıl Orda dövlətindən asılılıqlarından xəbər verir. Krımdakı Kırkör *(Qırx yer)* bəyliyinin qoşa «baltavar» damğası isə onun eyni zamanda həm Krım xanlığının, həm də Osmanlı dövlətinin vassalı olmasının ifadəsidir. Başqa bir misal. Ağqoyunlu dövlətinin bayrağında bu sultanlığı təşkil edən bayandur boyunun «zənginlik» anlarmı verən damğası *(etnik xalça ornamentlərinə istinadən «yüklü dəvə» kimi yozula bilər)* həkk olunmuşdu. O da məlumdur ki, müəyyən tarixi dövrlərdə bir tayfanın və ya nəslin, bəyliyin, dövlətin öz damğa işarəsini dəyişməsi, başqasının tanınma-fərqləndirmə nişanını götürməsi onun digərinin tabeliyinə keçməsinin əlaməti sayılır.

Burada kitab boyu vurğulanacaq bir məsələnin qısa anonsunu vermək istərdik. Təhlillər göstərir ki, erməni xalqında tarixən etnik damğa işarələri, o cümlədən hər hansı bir milli dövlətçilik rəmzləri olmamışdır. Eyni zamanda, erməni dilinin lüğət tərkibində də «damğa» anlamını verən söz və ya ifadə yoxdur. Məsələn, ornamentlərdən, dini rəmzlərdən, qayaüstü təsvirlərdəki işarələrdən bəhs olunarkən «möhür» mənasında işlədlən «droşm», fars mənşəli «nişan» və ya xalis türk sözü olan «bitik» *(pitik - «yazı», «yazılı dua», «tilsim»)* kəlməsinin «pitak» şəklində təhrif olunmuş variantını işlədirlər. Erməni

alimlərinin tarixi Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazilərində, Anadolu və Qafqazda qayaüstü təsvirlər içərisindəki qədim türk işarələrini bilərəkdən rəmz və ya damğa kimi deyil, «oxunması hələ mümkün olmayan qədim erməni əlifbası işarələri» adı altında təqdim etmələrinin arxasında bu rəmzləri dolayı yolla mənimsəmə istəkləri dayanır. Çünki «erməni damğası» kimi yozula biləcək istənilən işarənin, əslində, qədim türklərə, irandillilərə və ya Qafqaz xalqlarına məxsus olması onlarda da şübhə oyatmır. Məhz bu səbəb üzündən dağıstanlı alim Həsən Yaxtaniqov Qafqaz xalqlarının damğaları haqqında kitabında «erməni damğalarından» bəhs edərkən İrəvan alimlərinin «fəaliyyətsizliyinə» təəccübünü gizlədə bilməmişdir: **«1892-ci ildə Ulap Mustafa Mahir İsmayıl oğlunun Türkiyədə nəşr etdirdiyi kitab nədənsə tədqiqatçıların diqqətindən kənarda qalmışdır. Burada noqay, qaraçay, abaza, kabardin və ermənilərin 257 damğası toplanmışdır. Halbuki, bu damğalar bəzi nəsillərin etnik mənsubiyyətinə də aydınlıq gətirə bilər»**.[6] Səbəb isə budur: erməni tərəfi həqiqəti müəyyənləşdirmək marağında deyildir.

4. Dini mənsubiyyətin və mifoloji təfəkkürün göstəricisi. Qədim türk damğa işarələrinin böyük hissəsini sakral xarakter daşıyan rəmzlər və onların çoxsaylı variantları, məsələn, ♁ ☾ ☽ △ ♈ ✝ ‡ ⚕ ○ ⊕ ✱ və s. təşkil edir. Əski türk qam-şaman inanclarından, ibtidai kosmoqonik təsəvvürlərdən, tanrıçılıq dinindən bəhrələnən bu işarələr əsas etibarilə nəzərlik funksiyasına malik olan Tenqri xan və Humay Ana simvollarıdır. Türk xalqlarının islam və xristianlıq dinlərini qəbul etməsi nəticəsində bu rəmzlərin ilkin semantikası dəyişsə də, qoruyucu funksiyaları xalq yaddaşından silinməmişdir. Onlar ortaq etnik ornamentlər kimi tətbiqi sənətdə indi də geniş istifadə edilməkdədir. Məsələn, bu gün Azərbaycan, Anadolu, Şimali Qafqaz, Mərkəzi Asiya, Krım və Volqaboyu türk xalqlarının xalça naxışlarında qədim dinlər və əcdad kultu ilə bağlı bəzək ünsürlərinin damğa nişanları ilə müşayiət olunması bu mistik funksiyanın günümüzə gəlib çatan işartılarıdır. Lakin hər bir tayfanın qoruyucu damğaları ilə yanaşı, ortaq xarakter daşıyan nəzərlik işarələri: △ - bitik, tumar, ✝ ✕ - «aça», «elşən», 卐 卍 卐 - «qaz ayağı», «çərxi-fələk», «şəmsi-gərdan», «sarman» və s. vardır. Onu da xüsusi vurğulamaq lazımdır ki, hələ eramızdan əvvəl qədim qayaüstü təsvirlərdə, məzar daşları və maddi-mədəniyyət nümunələri üzərində «Dirilik Ağacı» *(Həyat Ağacı, Qaba Ağac)* ‡ ‡ ‡ və ucluqlarında tayfa damğaları olan Tenqi xan nişanlarının 卍 ✱

6 Х.Яхтанигов. «Северокавказские тамги». Нальчик: “Эльбрус”, 1993.

xristianlıq, «Günəş-Ay» anlamları verən və damğalarının işarələrinin isə islam dini ilə əlaqəsi yoxdur. Arxeoloji materiallara əsasən, bu rəmzlər həmin dinlərdən 1000-3000 il əvvəl yaranmış və yayılmışdır. Xristianlıqdan əvvəlki dövrlərdə formalaşan, ilkin yozumları təhrif olunan, türk xalqlarının qədim və müasir xalça ornamentləri kimi tanınan, lakin orta əsrlərdə xüsusilə erməni-qriqorian kilsəsi tərəfindən İsa Məsih dini ilə bağlanan, ucluqları qoç buynuzlu damğa və rəmzlərdən ibarət olan açalar *(hasalar, xaçlar)* və s. də ortaq türk maddi-mədəni irsində xalça ornamentləri kimi qalmışdır. Bununla belə, qoç işarəsinin türk xalqlarının islam dinini qəbul etməsindən sonra da unudulmamasının, qalmasının bir səbəbi onun zoomorf rəmz qismində İsmayıl qurbanı ilə əlaqələndirilməsidir.[7]

5. Ərazi mənsubiyyətinin qrafik əlaməti. Etnosiyasi qarşıdurmaların obyekti olan «mübahisəli ərazilərdə» aşkar olunan damğa işarələri, bu nişanlarla bağlı qədim toponimlər - «Oxçular», «Baltalı», «Yayçı», «Baqanalı», «Aşamaylı», «Daraqlı», «Bitikli»/«Tumarlı», «Çəmbərli» və s. konkret etnosun və ya ayrı-ayrı tayfaların məskunlaşma dövrünü və ərazilərinin göstəricisi kimi nəzərdən keçirilə bilər. Məsələn, ötən əsrin ortalarında Dərbənd qala divarlarının eramızın V-VI əsrlərinə aid hörgü daşları üzərindəki yüzlərlə damğa işarələrinin müqayisəli təhlili nəticəsində onların bütövlükdə türk tayfalarına və tayfa birləşmələrinə məxsus olduğu sübuta yetirilmişdir. Bu faktın özü də türklərin guya regiona VIII-XII əsrlərdə köç etmələrinə dair bir sıra Rusiya, Ermənistan və Dağıstan «mütəxəssislərinin» etnosiyasi iddialarını puça çıxarır. Başqa bir misal: 1940-cı ildə türkiyəli tədqiqatçı Əli Rza Yayğın Bursa şəhəri ətrafındakı kəndlərdə apardığı etnoqrafik araşdırmalar zamanı türk tayfalarına, eləcə də oğuz boylarına məxsus olan, mal-qaranın, bağ, bostan və əkin sahələri hüdudlarının nişanlanması məqsədilə istifadə edilən damğa işarələri və variantlarını müəyyənləşdirmişdir. Həmin işarələr: - alkaevli tayfası *(Samanlı kəndində),* - eymür tayfası *(Yaylacıq kəndində),* - alkaevlilərin digər damğası *(Kayapa kəndində),* - çuvardur tayfası *(Əlaiddin kəndində),* - çuvaldurların digər damğası, *(Samanlı kəndində)*, - yenə də Əlaiddin kəndində *(hansı boya aid olduğu məlum deyildir. Lakin oğuz elinin bügdüz boyunun damğa işarəsinə bənzəyir – A.Q.)*,

7 И.Богословская, «Зооморфные мотивы каракалпакского орнаментального искусства», http://www.sanat.orexca.com/rus/archive/2-09/irina_bogoslovskaya.shtml

- yıva boyu *(Domaniç və Çərşənbə kəndlərində),* Δ - Kayapa və Qızılkeçili kəndlərində *(tayfa mənsubiyyəti məlum deyildir),* ϰ - dodurğa tayfası *(Yaylacıq kəndində)* və s. ilkin orta əsrlərdə Türkiyənin bu ərazilərində də oğuz boylarının böyük nüfuza malik olduqlarını sübuta yetirir.[8]

«Damğa» sözünün etimoloji izahı

«Damğa» *(tamqa, tanma, tanqa, tanqama, tanba, takma, tamğa, tuğra)* sözü birmənalı olaraq türk mənşəlidir. Bu söz Göytürk mətnlərində 𐱅𐰇𐰢𐱅𐰆 kimi yazılır və «tamka» kimi oxunurdu. Damğa/tamğa/tamka sözünə Orxon epiqrafik abidələrindəki yazılarda da rast gəlinir: **«Yerdeki tamkalıg yılkı»** *(Yerdeki damgalı ilxı)*.[9] Başqa bir misal. 1949-cu ildə A.Okladnikov tərəfindən Monqolustanın Cənubi Xankay aymakında tapılmış daş abidə üzərində hündürlüyü 18 santimetrə çatan damğa təsviri 𐰋 altında Orxon-Yenisey işarələri ilə **«Tuğçi borqıçı Yağış çor tuğrağı»** *(«Yağış» adlı bayraqdar-şeypurçu/boruçalanın damğası)* sözləri yazılmışdır.[10] Qeyd edək ki, «Tuğra» kəlməsi ilk dövrlərdə «damğa» sözünün sinonimi kimi işlənsə də, orta əsrlərdə ərəb-türk xəttatlıq sənətində yazı ornamenti nümunəsi kimi hökmdarın imzasını, möhürünü və gerbini əvəz etmişdir. Tanınmış türk alimi Əhməd Cavad Əmrənin qənaətinə əsasən, «damğa» sözünün kökündə əski türkcədə «yandırmaq», «dağlamaq», «qızdırmaq» anlamı verən «tam» feli dayanır.[11] Fransız tədqiqatçısı Jan Pol Rou isə onun daha qədim, protoaltay mənşəli olan, «bir heyvanın üzərinə basmaq» kimi yozulan «taq» felindən törəndiyini iddia edir və misal olaraq «damğa» sözünün sinonimlərindən birini - «taqma» kəlməsini göstərir.[12] Oljas Süleymenov isə «tamqa/damğa» sözünün etimologiyasını daha qədim dövrlərlə, Şumer mədəniyyəti ilə bağlayır. Onun qənaətinə görə, bu kəlmə öz genezisini protoşumerlərin dilində «gil lövhə», «yazılı material» anlamını verən «tup» sözündən götürmüşdür. Sonralar akkadların, elamların və huritlərin dillərinə «tupp» və «tuppi», avropalıların dillərinə isə «tipus» *(latın),* «tipros» *(yunan),* «tippe» *(fransız)* və «tayp»

8 «Bursa çevresinde kayi boyu ve karakeçili damgalari», http://timeoutbursa.blogspot.com/2012/04/bursa-cevresinde-kayi-boyu-ve.html

9 Aysu Ata. «Orhun türkçesi». Anadolu Üniversitesi, 2011.

10 Ə.Rəcəbli. «Qədim türk yazısı abidələri», I cild. Bakı, 2009.

11 Emre Ahmet Cevat. Türk Dili Araştırmaları Yıllığı Belleten, 1954.

12 Funda Toprak, «Defter-i Çengiz-nāme'de boy nişanlari ve damgalar», Turkish Studies- International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 6/1 Winter 2011.

(ingilis) kimi daxil olmuşdur. Şumer əsilli «tup» sözü türk dillərində yazı, yazı lövhəsi, surətçıxarma, möhür, perqament, fərman və s. yozumlarda işlədilən «tumar», «tapu», «tap», «tabla» və ən nəhayət, «tamba», tamqa», «tabqa» kəlmələrinin yaranmasında iştirak etmişdir.[13]

Bəzi türk dillərində eləcə də orta əsrlər Azərbaycanında «tamğa», tamqa» və ya «damğa» sözü ilkin mənasından savayı, «möhür», «hərf» və «durğu işarəsi» *(məsələn, qazax dilində - «tendik tamqası»)* anlamında bu gün də işlədilir. Xatırladaq ki, qədim Şumerdə satışa çıxarılan malların üzərinə öz möhürünü *(damğasını)* vurmaq səlahiyyətinə malik olan, Ön Asiya, Misir və Hindistanla alış-veriş edən hərbiləşdirilmiş iri tacirlərə «tamkar» və ya «damkar» deyilirdi. Etimologiyasına gəldikdə isə onun qədim dövrlərdə «takma» *(taxma)*, «tanqa», «tanma» adlandırılması damğanın «tanınma işarəsi» kimi yaranması ehtimalını irəli sürməyə əsas verir. Çində, Tibet dağlarının ətəklərində yaşayan sarıq yuqurlar *(sarı uyğurlar)* bu günədək qədim inanclarını – qam-şaman dinini mühafizə edərək tanrılarını «As tamqa», «Yaq tamqa», «Sun tamqa» adlandırırlar. Bəzi ehtimallara görə, qədim türklərin inanclarında «Tenqri» və «tamqa» *(damğa)* kəlmələri ilk vaxtlar eyni mənanı bildirmişdir. Azərbaycanda müxtəlif tarixi dövrlərdə «damğa» sözünə sinonim olaraq «bilgə» və ya «bəlgə», «nişan», «möhür», «tuğra», «kərtik» kəlmələri işlədilirdi. Hazırda ölkəmizin Qərb hissəsində «ənə» sözündən də istifadə olunur. D.Nemetin fikrincə, «ənə» və ya «ene» qədim kökə malikdir və «etibar etmək», «etibarlı» anlamını verir.[14]

Orta əsrlərdə Mərkəzi Asiya, Yaxın Şərq, Şərqi Avropa türkləri, eləcə də onlarla sıx təmasda olmuş şərqi slavyanlar «damğa» sözünə sinonim qismində «yasaq», «tavro» kəlmələrindən də istifadə etmişlər. Lakin həqiqətdə bu sözlərin hər biri damğanın ayrı-ayrı qədim funksiyalarını ifadə edirdi. Məsələn, adından göründüyü kimi, «tavro» *(tavra)* kəlməsi ev heyvanlarının – davarın bədəninə, qulaqlarına dağlanan damğaları, «yasaq» - girişi kənar şəxslər üçün qadağan olunan binaların divarlarına, eləcə də «yasamal» *(hökmdar fərmanı ilə qorunan yasaq ərazi, qoruq)* elan edilən torpaqların hüdudlarındakı ağac və ya daş sütunlara vurulan rəmzləri bildirirdi. Üst geyim və inanc yerlərinin giriş qapılarını bəzəyən «bilgə» isə şəxsin etnik və dini mənsubiyyətini, ibadətgahın hansı inanca məxsus olduğunu göstərirdi. Bu gün arxaizmə çevrilən «bilgə» sözünün keçmiş dövrlərdə paralel olaraq «nikah»,

13 О.Сулейменов. «Аз и Я. Книга благонамеренного читателя». М.: изд. Грифон, 2005.
14 Yenə orada

«izdivac» anlamında da işləldilməsi onun məna çalarlarında «nişan», «əlamət» məhfumunun dayandığını təsdiqləyir. Məsələn, ulu ozan aşıq Qurbanidən bir bəndi yada salaq:

Qurbani der: «Bu dərdləri biləsiz,
Qohum-qardaş yığılıban gələsiz,
Adna axşamında **bəlgə** qoyasız,
Kəsilə qovğası-qalı qızların.

Bütün bunlardan başqa, orta əsrlərdə üzərində hökmdar möhürü *(möhrü-humayun)* olan fərmanlara, sənətkarların *(nəqqaş, zərgər, silah ustası, bənna, xalçaçı və s.)* müəlliflik hüququnu özündə əks etdirən lakonik ornamental nişanlara, gömrük rüsumuna, pul ilə ödənilən vergilərə də «damğa» deyilir, həmin vəsaitləri toplayan məmurlar isə «damğaçı» *(orta əsr Rusiyasında - tamqaç)* adlandırılırdı. Bundan başqa, hökmdar saraylarında «möhrdar» vəzifəsi də mövcud idi. Mahmud Kaşğariyə görə, Səlcuq dövlətində «tuğralığ» *(nişan/damğa vuran)* adlı məmur vəzifəsi də mövcud olmuşdur.[15] Oğuz yabqu dövlətində hökmdarın möhür və fərmanlarına «tuğrağ» və ya «tuğra» deyirdilər. Bu söz digər türklərə tanış deyildi. Oğuzlar bu kəlməni tarixi Azərbaycan və Anadolu ərazilərinə gətirmişdilər.

Maraqlıdır ki, Çingiz xanın özünün və ailə üzvlərinin, sərkərdələrinin damğaları olsa da, o dövrdə onların da «möhür» və ya «tuğra» anlayışları yox idi. Orta əsr Çin mənbələrinə görə, xanı möhür ilə əsir götürdüyü uyğur əsilzadəsi Tatatuna tanış etmişdir. Çin dilində yazılmış «Men-da bey-lu» salnməsində bildirilir ki, Çingiz xan ondan möhurdən nə üçün istifadə olunduğunu soruşmuş və Tatatuna cavab vermişdir: «**Möhür bütün işlərdə, vergi yığımında, insanları vəzifəyə təyin edəndə xanın əmrinin həqiqiliyini göstərmək üçündür. Çingiz xan bu sözləri bəyənmiş, fərmanlarını möhurlə təsdiqləməyi əmr etmiş, Tatatunanı tuğraçı kimi öz əyanları cərgəsinə qoşmuşdu**r».[16] Sonrakı tarixi sənədlərə əsasən, xarəzmşahların «Mühür basdı buğdayğa», çingizilərin «Tamqa daruba buğdayda» kimi ideomatik ifdələri damğaların paralel olaraq möhür kimi istifadə olunmasına işarə edir.

Qızıl Orda dövlətinin öz ərazilərini Şərqi Avropaya, Qafqaza və Mərkəzi Asiyaya doğru genişləndirdiyi dövrdə «damğa» sözünün izahı daha iki anlamla – «xan möhuru olan sənəd» və «pul vergisi» yozumları ilə zənginləşmişdir. XIII əsrdən sonra Rusiyada ticarət sövdələşmələrinin rüsumu belə

15 Faruq Sümər. «Oğuzlar». Bakı: "Yazıçı", 1992.

16 В.Беляев, С.Сидорович. «Новая интерпретация иерогрифа «бао» на монетах монгольских улусов», Эпиграфика Востока, XXIX, РАН, Институт Востоковедения, Москва, 2011.

adlandırılırdı. Müasir rus dilində «gömrük» anlamı verən **«таможня»** sözü də qədim «tamqa» kəlməsindən törəyərək, orta əsrlər Rusiyasında «tacirlərdən damğanın *(rüsumun)* alındığı yer» mənasında işlədilirdi. Şərqşünas Kristian Frenin *(1782-1851)* qənaətinə görə, qazax, qaraqalpaq, türkmən dillərində «pul» anlamını verən «tanqa» və «tenge» kəlmələri də kökünü «tamqa» sözündən götürmüşdür.[17] XIV əsrdən etibarən «tenge» rus yazılı mənbələrinə daxil olmuş, sonralar fonetik təhrifə məruz qalaraq **«denqi»** şəklini almışdır. Bu kəlmə əvvəllər nominal dəyəri yarım qəpik olan metal sikkə, sonralar isə, ümumiyyətlə, «pul», «əskinas» anlamını vermişdir.

Damğa sahibinə itaət etməyən qulun, əsirin, ağır cinayətlərdə ittiham olunan məhkumun bədəninə də vurulurdu. Bu söz Azərbaycan xalq poeziyasında, ideomatik ifadələrdə mənfi çalarlı məcazi məna daşıyaraq, «böhtana məruz qalmaq», «şərlənmək», «ləkələnmək» anlamını da verirdi. Ötən əsrin 30-cu illərində kütləvi bolşevik repressiyalarının qurbanı olmuş böyük Azərbaycan şairi Əhməd Cavad Sibir məhbəslərində qələmə aldığı son şeirində bunları yazırdı: **«Damğa vurub, zəncirləyib tullamışlar zindana, Qara-buzlu cəhənnəmlər məskən olmuşdur mana».**

Damğa tarixi yaddaş daşıyıcısı kimi

Azərbaycanın zəngin etnoqrafik materialları, maddi-mədəni irs nümunələri, xüsusilə bu gün «milli ornamentlər» kimi tanıdığımız unikal rəmzləri arasında yer alan damğa işarələrinin tədqiqi üçün kifayət qədər mənbə vardır. Lakin «rasional» tənqid uzun müddət sosial yaddaşı üstələmiş, bu nişanlar xronoloji, tarixi-coğrafi və etnoloji aspektdə kompleks şəkildə araşdırılmamışdır. Tarixi məsələlərə, bir qayda olaraq, daha geniş müstəvidə yanaşan rasionallıq üçün bu işarələr «xırda təfərrüatlar», əlavə tədqiqat vaxtı tələb edən «əhəmiyyətsiz detallar» olmuşlar. Xalq yaddaşı isə sintezə meyillidir, «kiçik təfərrüatları» bir araya gətirərək onların əsasında tarixi hadisələrin ümumi mənzərəsini bərpa etməyi bacarır. Bu baxımdan, damğa və rəmzlərin öyrənilməsi üçün rasional tarixşünaslıqla xalq yaddaşının bir araya gəlməsi, onlar arasında sağlam rabitənin yaradılması olduqca vacibdir. Çünki yuxarıda vurğulandığı kimi, əsrlər boyu geniş tətbiq funksiyaları ilə seçilən qədim damğa işarələri bu gün təkcə tarixşünaslıq baxımından deyil, xalqımızın etnogenezinin, etnomədəniyyətinin, etnopsixologiyasının, onun ərazi mənsubiyyətinin,

17 M.Fraehn. «De origine vocabuli rossici - denqi». Казань, 1815.

məskunlaşma dövrünün, dövlətçilik ənənələrinin, hərb sənətinin, ibtidai mülkiyyət və müəlliflik hüququnun və s. öyrənilməsi üçün də müstəsna əhəmiyyətə malikdir.

Şəki xan sarayının (XVIII əsr) divar rəsmlərində döyüş səhnəsi. Bayraqlar üzərindəki aypara və qılınc təsvirləri qədim türk hərb sənətində populyar tanınma-fərqləndirmə nişanları olan ☾ (Ay, Aypara, yay) və ⤫ (qılınc) işarələri etnik damğalar arasında da yer almışdır.

Yer üzündəki etnik mədəniyyətlərin hər biri bənzərsizdir. Məhz bu rəngarənglik bütövlükdə ümumbəşəri sivilizasiyanın, ortaq mədəni və mənəvi dəyərlərin formalaşdırılmasında, zənginləşməsində, mədəniyyətlərin mübadiləsində müstəsna rol oynayır. Eyni zamanda, hər bir etnik mədəniyyət məxsus olduğu xalqın etnogenezinin, tarixinin, yaşam tərzinin, inanclarının, adət və ənənələrinin aynasıdır. Bu baxımdan, qədim və müasir türk xalqlarının ortaq etnik mədəniyyətinin «nəzərə çarpmayan» fraqmenti olan və kökləri minilliklərə uzanan damğa işarələrinin tədqiqi bir tərəfdən ümumtürk etnomədəni və etnocoğrafi məkanının öyrənilməsində, digər tərəfdən isə bu məkana daxil olan çoxsaylı xalq və millətlərin tarixinin, mədəniyyətinin, inteqrasiyasının tədqiqində böyük əhəmiyyətə malikdir. Qeyd edildiyi kimi, qədim damğa işarələri və onların əsasında yaranan rəmzlər də ilk dövrlərdə məlumatın mnemonik tərzdə işarələnməsi, ötürülməsi və saxlanılması vasitəsi kimi yaransalar da, indiki halda saxtalaşdırılmalara və mənimsəmələrə dayanıqlı olan qiymətli etnik şəhadətnamələrdir. Damğaların bu xüsusiyyətinə söykənən qazax, tatar, başqırd, noqay, kumık, qaraçay və qırğız alimləri

XX əsrin əvvəllərindən etibarən həmin işarələr vasitəsilə «kodlaşdırılmış» etnotarixi məlumatların «deşifrəsi» ilə ciddi məşğul olmuş, öz xalqlarının tarix və mədəniyyətinin, etnogenezinin, qədim dini təsəvvürlərinin, təbii miqrasiya və inteqrasiya proseslərinin araşdırılması istiqamətində böyük uğurlar qazanmışlar.

Digər xalqların analoji işarələri kimi qədim türk damğaları da ilk dövrlərdə sakral inanc rəmzləri və ibtidai mülkiyyət nişanları kimi yaranmışdır. Lakin zaman keçdikcə onlardan fərqli olaraq, daha geniş tanınma-fərqləndirmə funksiyaları ilə zənginləşmişlər. Orta əsrlərdə yaşamış dövlət xadimi, ensiklopedist alim Fəzlullah Rəşidəddin *(1247-1318)* «Cami ət-Təvarix» əsərində yazırdı ki, Oğuz xanın vəsiyyətinə əsasən, onun ölümündən sonra oğlu Gün xan taxta əyləşmiş və yetmiş il hökmdarlıq emişdir. Salnaməçi damğa işarələrinin qədim oğuzların dövlətçilik atributları və mülkiyyət hüququ ilə bağlılığına toxunaraq bunları bildirir: **«Günlərin birində xanın müşaviri İrkil Xoca üzünü Gün xana tutub bunları dedi: Oğuz xan böyük hökmdar idi, dünyanı fəth etmişdi, saysız-hesabsız sərvətini, mülkünü, mal-qarasını sizə - öz oğlanlarına miras qoymuşdu. Tanrının köməyi ilə hər birinizin də dörd ləyaqətli oğlu dünyaya gəlmişdir. Onlara rütbə, ad və ləqəbdən başqa DAMĞA da verilmişdir ki, öz əmrlərini, xəzinələrini, ilxı və sürülərini bir-birindən ayıra bilsinlər, mal-mülk üstündə aralarında heç vaxt mübahisə düşməsin».**[18] Bu gün türk xalqları arasında ciddi mal-mülk mübahisələri yoxdur. Çünki hər birinin başı daha mürəkkəb problemlərlə qarışıb. Onların sərvətlərinin, rütbələrinin, adlarının, ümumiyyətlə, tarix və mədəniyyətlərinin bölüşdürülməsi uğrunda isterik çəkişmələr isə başqaları arasında gedir. Odur ki, mənimsənilməyə iddialı qədim maddi-mədəniyyət nümunələri, məsələn, qayaüstü təsvirlər, xalçalar, silah və məişət qabları, tikililər, məzar daşları və s. üzərində həkk olunan, ilk baxışda əhəmiyyətsiz, lüzumsuz görünən kiçicik bir damğa nişanı əslinə qalsa, təhriflərə qarşı böyük maneəyə çevrilə, bu dəyərlərin həqiqi sahiblərinin etnik kimliyini sübuta yetirə bilər. Və o da sirr deyildir ki, bu gün iştahlı tərəflər müqavimətədavamlı həmin səddləri də aradan qaldırmaq üçün etnomədəni qəsbin yeni mərhələsinə - ortaq türk damğaları və rəmzlərinin özünküləşdirilməsi prosesinə başlamışlar.

İlk vaxtlar tanınma-fərqləndirmə, mülkiyyət nişanı, nəzərlik *(gözqaytarma)* xarakteri daşıyan, böyük hissəsi isə Göytürk əlifbası qrafemlərinin pro-

18 F.Rəşidəddin. «Oğuznamə». Bakı, 1992.

totipi sayılan bu nişanlar zaman keçdikcə ilkin semantikasını itirmiş, türk xalqlarının tətbiqi sənətində «xalı-keçə kriptoqramları» ənənəsinin əsasını qoymuşdur. Çünki üzərinə damğa işarələri toxunan qədim xalçalar, kilimlər, palazlar və s. sənət əsərləri məişət avadanlığı olmaqdan savayı təkcə ayrı-ayrı sosial qrupların – ailənin, nəslin, tayfanın deyil, bütöv xalqın etnik tarixinin daşıyıcılarıdır. Bir zamanlar hər bir tayfa, nəsil toxuduqları xalça məmulatında yaşanan tarixi sonsuz qayğı və ehtiramla ilmələrə köçürmüş, həmin informasiyaları gələcək nəsillərə çatdırmışlar. Demək olar ki, türk xalqlarına məxsus çoxsaylı damğa işarələrinə və onların yüzlərlə variantına qədim və müasir tətbiqi sənət nümunələrində rast gəlmək mümkündür. Üzərində inanc rəmzinin, nəzərliyin, tayfanın və ya nəslin damğasının təsviri olan xalçalar yerə sərilmirdi, evin, alaçığın divarlarından asılırdı. Bu baxımdan, Göytürk əlifbasını, ortaq damğa işarələrinin semantikasını bilmədən qədim tayfa və tayfa birliklərinin yaranma tarixini, onların əski inanclarını və yaşam tərzlərini, mifoloji təsəvvürlərini «deşifrə etmək» olduqca çətindir. Qədim Azərbaycan nağıllarından birinin süjetini yada salaq. Folklorumuzun müsbət qəhrəmanlarından sayılan Şah Abbas Cənnətməkan quldurlara əsir düşərkən xalça toxumuş, nağılda deyildiyi kimi «gizli işarələr» vasitəsilə məhbəsin yerini ömür-gün yoldaşına çatdıra bilmişdir. Odur ki, bu gün bir çox hallarda yozumu təhrif edilən etnik xalça naxışlarının arxasında qədim sakral rəmzlərin, damğa işarələrinin dayanması şəksizdir. Məsələn, qədim türk ənənələrinə uyğun olaraq, totem canlının – qoçun *(əslinə qalsa, dağ qoçunun, arxarın)* stilizə edilmiş təsviri olan, «qoşqar», «koçkar», «kaçkar», koçmüyüz, «sınık müyüz», «qoç buynuzu» və ya «koçkorok», qədim erməni mənbələrində isə «kaçkar» kimi tanınan və sonralar «xaçkar» şəklində təhrif edilən damğanın və digər variantlarının Azərbaycan, Anadolu, türkmən, qazax, qırğız, uyğur, tatar, özbək, qaraçay, kumık, balkar xalq tətbiqi sənətində bərabərtərəfli xaç  işarəsində əks olunması nəsil və tayfanın vahid inanc, vahid kök ətrafında birliyini bildirirdi. Azərbaycan və Anadolu xalçaçılıq sənətində «qoç» ornamenti kimi tanınan, Mərkəzi Asiyada «koçmüyüz» *(qoç buynuzu),* Şimali Qafqazda «qoçqar», Krımda isə «öküz gözü», Azərbaycan və Anadoluda «qoç başı», «əlibelində» və «bərəkət» adlanan bu sakral türk rəmzinin  ən qədim təsvirinə Qərbi Azərbaycan qayaüstü rəsmlərində , «Kül tigin» abidələrində  rast gəlirik. Erməni tarixçiləri rəmzin semantikasını və mənşəyini dəyişmək

üçün bəzən onu üzüaşağı şəkildə ⚘ təqdim etməkdən də çəkinmirlər. Lakin belə olan təqdirdə də işarə yenə də ortaq türk damğası olaraq qalır və Göy-türk əlifbasında və damğa təsnifatında «ev» anlamını verən işarəyə çevrilir. Bu işarənin Azərbaycanla bilavasitə əlaqəsini sübut edən amillərdən biri də onun Abxaziyada hökmranlıq etmiş məşhur Şervaşidze knyaz sülaləsinin damğası ♈ olmasıdır. Təqribən 700 il yaşı olan bu sülalənin nümayəndələri bu gün də özlərini Şirvanşahlar dövləti hökmdarları nəslinin davamçıları hesab edirlər.[19]

Bakı xalçaçılıq məktəbi nümunəsi üzərində bəzi ortaq türk damğa işarələri ⌘ + Ψ T ♈ ⊓ ∧ *və qoç rəmzləri* ♓ ♈ ⌖

Qədim türk damğa işarələri sırasında Humay Ananın rəmzlərindən sayılan «tumar», «tumarça», «bitik» *(pitik – qədim türkcə «yazı»)* anlamını verən digər işarə △ və onun çoxsaylı variantlarının, məsələn, ◣ ▲ ⌂ ◢ ⚠ ▲ qədim adları dəyişərək müasir xalçaçılıq sənətində «tilsim», «nəzərlik» kimi qalmışdır. Bu işarə ⧗ və onun çoxsaylı bədii variantları Mərkəzi Asiyada «kos tumarşa» *(qoşa tumar),* Anadoluda isə həm damğa, həm də xalça or-

19 «Род князей Шервашидзе (историко-генеалогическое исследование)», http://www.nplg.gov.ge/dlibrary/collect/0001/000263/KNIGA-SHERVASHIDZE-1.pdf

namenti kimi «saçbağı», müasir anlamda desək, «qız-gəlinlərin hörüklərinin ucuna vurulan bant» adlanır. Azərbaycan və Anadolu xalçaçılıq sənətində bu rəmz Cənnət bağını simvolizə edir. Vaxtilə əski türk inanclarında Tenqri xanı və Humay Ananı simvolizə edən, sonralar Hun dövlətinin bayraqlarını bəzəyən bərabərtərəfli «açа» və ya «haça» işarəsi də islam dininin yayılmasından sonra ilkin semantikasını itirmiş, Azərbaycan xalçaçılığında «nəzərlik», «göl» elementinə, Qazaxıstanda isə hətta «dördqulaq» adlandırılan ornamentə çevrilmişdir. «Əli belində» kimi tanınan tərtibat elementi və onun stilizə edilmiş variantlarının kökündə, əslinə qalsa, həm damğa, həm də Göytürk əlifasında «ər» qrafemi kimi tanınan işarə dayanır. Bundan başqa, «Ay-Günəş» *(Ay-ulduz)* rəmzi Mərkəzi Asiyada «balalı Ay» naxışına, bəzi oğuz və qıpçaq tayfalarının tanınma-fərqləndirmə nişanı olan işarəsi milli xalçaçılıqda «bərəkəti, bolluğu və gücü ifadə edən heyvan motivinə» transformasiya olunmuş «ikibaşlı qartal» *(dünyəvi və dini hakimiyyətin birliyi)* mifologeminin təcəssümü olan işarəsi isə damğa nişanı kimi «qazan» və «qumquma» *(döyüşçünün kəmərindən və ya çiyindən asılan dəri su qabı)* adlarını qazanmışdır.

Başqa bir misal. Qarabağ xalçaçılıq məktəbinin Cəbrayıl qrupuna aid edilən xovlu xalçaların «hərsin» adlanan ornamentinin müxtəlif variantlarına, məsələn, işarələrinə Ön və Mərkəzi Asiyada, Şimali Qafqazda, Sibirdə, Krımda və Şərqi Avropada aşkar olunmuş qədim və orta əsr türk damğaları arasında, xalça, keçə və zərgərlik məmulatında geniş rast gəlinir. Bu işarə eyni zamanda Krımda məskunlaşmış onqurların tanınma-fərqləndirmə nişanları[20] və Kuşan hökmdarı I Kadfizin damğası ilə yaxın təsvirə və eyni semantikaya malikdir.[21] Bir sıra nüfuzlu türkoloq və qafqazşünaslar, o cümlədən Vitali Butba onqurları mənşə baxımından türk - **«uyğur tayfaları və ya onlarla eyni etnik kökə malik tayfalar»** adlandırır.[22] Bu damğa iki seqmentdən – «Kitabi-Dədə Qorqud» eposunda «Qaba Ağac», Altaylarda «Töz Ağac», Mərkəzi Asiyada «Bayterek» *(Baş Ağac, Baş Dirək və s.)* adlanan Dirilik Ağacı rəmzindən və əski Şumer simvolizmində «gəmi», «qayıq», türk rəmzləri içərisində «ikibaşlı qartal» işarəsindən

20 З.Мифтахов. «Первые булгарские государственные образования, Курс лекций по истории татарского народа», Государственный Педагогический Университет, Казань, 2002.

21 A.Akishev. «Art and mythology of sakas», Kazakh SSR, Alma-Ata, 1984

22 В.Бутба. «Труды», Академия Наук Абхазии, Абхазский Институт Гуманитарных Исследований им. Д .И . Гулиа, Сухуми, 2005

və «Ay», «yay», «açılmış qartal qanadları» anlamlarını verən Tanrı nişanından ibarətdir. Bütövlükdə həmin işarə nəslin və ya tayfanın Tanrı mühafizəsində, Dirilik Ağacının nəzərində olması yozumunu verir.





Qarabağ xalçalarında (Cəbrayıl qrupu) «hərsin» adlanan ornament; Duz torbası (yun, xovsuz. Ordubad rayonu, Gənzə kəndi 1910-cu il) üzərində «baltavar», «xan damğası», iki-başlı qartal» işarəsi[23]

Qeyd olunduğu kimi, damğa işarələrinin aparıcı funksiyalarından biri onların paralel olaraq qədim dövlətçilik rəmzlərini ifadə etməsidir. Rusiyalı alim Valeri Olxovskinin də fikrincə, tarixi dövrlərin və bu dövrlərdə cərəyan etmiş ictimai-siyasi və etnik proseslərin müəyyən olunmasında, dövlətlərin və tayfa birliklərinin *(konfederasiyaların)* yaranması və süqutu səbəblərinin öyrənilməsində damğaların əhəmiyyətli rolu vardır. V.Olxovski yazır ki, **«hətta qədim sənədlərə, daş kitabələrə, metal pullara və s. möhür kimi vurulan bu işarələr vasitəsilə ayrı-ayrı tarixi şəxsiyyətlərin** *(hökmdarların, sülalələrin)* **hakimiyyət illərinin də olduğu müddəti dəqiqləşdirmək mümkündür»**.[24] Onu da əlavə edə bilərik ki, araşdırma obyekti olan damğa işarələri tayfalar və nəsillər arasında dominant-vassal münasibətlərinin, miqrasiya prseslərinin, hərbi-siyasi ittifaqların tədqiqində, aparıcı etnosun, inancın, etnomədəniyyətin və dilin müəyyənləşdirilməsində mühüm vasitələrdəndir. Belə ki, bəzən konket tayfanın, nəslin müxtəlif dövrlərdə istifadə etdiyi damğalar ayrı-ayrı tarixi dövrlərdə baş verən hərbi, ictimai-siyasi və mədəni hadisələrdən asılı olaraq dəyişir, ilkin tanınma-fərqləndirmə nişanlarında seçilən işarələrlə əvəzlənir, ya da yeni məzmun kəsb edən seqmentlərlə zənginləşir. Digər tərəfdən, Azərbaycan,

23 http://ordubad.ucoz.com/news/ordubad_xalcalari/2013-11-05-71

24 В. Ольховский «Тамга (к функции знака)», Историко-археологический альманах, No 7, Армавир, 2001

Mərkəzi Asiya, Şimali Qafqaz xalça ornamentlərinin təhlilinə əsasən, damğa təsnifatlarında oğuz işarələri kimi tanınan nişanların müəyyən tarixi dövrlərdə qıpçaq tayfalarının da arasında yayılması və ya əksinə, oğuz nəsillərinin öz ənənəvi rəmzlərindən imtina edərək qıpçaq işarələrini götürmələri etnomədəni inteqrasiya və ya hərbi-siyasi situasiya ilə də əlaqəli ola bilər. Məsələn, Azərbaycan *(Qafqaz Albaniyası)* mənşəli işarələrin, o cümlədən «alban» və ya «alpan» adlanan damğanın ilkin orta əsrlərdən etibarən Qazaxıstandakı alpan-suan *(alban-suvar)* tayfasının tanınma-fərqləndirmə nişanına çevrilməsi xüsusi araşdırma tələb edən mövzulardandır.

Xalça üzrə ekspertlərə belə vəziyyət yaxşı tanışdır. Bəzən bir xalçanın hansı məktəbə aid olduğunu müəyyənləşdirmək problemli məsələyə çevrilir. Misal üçün, xalça üzərindəki naxışlar onun Quba məktəbinə aid olduğuna işarə vursa da, rəng çalarları, göl və haşiyə elementləri burada Bakı üslubunun da qabarıq şəkildə yer aldığını göstərir. Qocaman sənətkarların deduksiya metodu bu üslub rəngarəngliyinin səbəblərini belə izah edir: Xalçanı toxuyan xanım əslən qubalıdır və Bakıya gəlin köçmüşdür. Buna görə də ata evində görüb–öyrəndiyi naxışları qoruyub saxlasa da, ər evinin qayda-qanunlarına, o cümlədən xalçatoxuma üslubuna da ciddi əməl edir. Əgər onun qız övladı, məsələn, Şamaxıya gəlin gedərsə, təbii ki, toxuduğu xalçalara anasının Bakı-Quba naxışları ilə yanaşı Şirvan ornamentlərini də əlavə edəcəkdir.

Azərbaycanın müxtəlif damğa və rəmzlərinin bir xalça naxışları içərisində toplanmasına başqa bir misal. Bu gün Türkiyədəki Harmandalı obasında *(İzmir, Sivas, Amasiya ərazilərində)* toxunan xalçaların üzərində müxtəlif oğuz tayfalarına və onların qollarına aid damğa işarələrinin təsvirlərinə  və s.[25] rast gəlirik. Bu işarələr, eləcə də Quba xalçaçılıq məktəbinə məxsus əlavə ornamentlər Azərbaycanda *(Biləsuvar, Masallı)* və İranda *(Ərdəbil, Qəzvin, Zəncan)* yerləşən Xarmandalı *(yanlış olaraq «Xırmandalı» kimi yazılır)* kəndlərində hazırlanan Muğan xalçalarında da vardır. Bu tayfanın, əslinə qalsa, tayfa birliyinin tarixi, XI əsrdən etibarən Mərkəzi Asiyanın, Azərbaycanın, Türkiyənin ayrı-ayrı bölgələrini əhatə edən məskunlaşma coğrafiyası, eləcə də salnamələrdə onun oğuz elinin döğər, bayat, əfşar boylarına aid olunması xalçalarındakı ornament müxtəlifliyinin səbəblərini aydın izah edir. Xırmandalı tayfa birliyi XI-XII əsrlərdə Qəzvində bəyliklərini qurmuş, sonralar onların bir hissəsi Türkiyə ərazisinə köçmüş,

25 A.Yalqın. «Cenupta Türkmen oymakları», II, Ankara, 1977

burada artuqoğlular *(artuklular*) tayfası ilə birləşmiş, Diyarbəkirdə Artuqoğlular dövlətinin qurulmasında iştirak etmişlər. Ərdəbil ətrafında məskunlaşan xarmandalılar qızılbaş hərəkatına qoşularaq Səfəvi dövlətinin təşəkkülündə mühüm rol oynamış, I Şah İsmayılın və I Şah Abbasın taxta çıxmasında və hakimiyyətin möhkəmləndirilməsində xidmətlərinə görə onlar da «şahsevənlər» adını qazanmışdılar. Qubalı Fətəli xanın dəvətilə Muğan düzündə məskunlaşan tayfanın böyük bir hissəsi Artuqoğlu Alınazar bəyin başçılığı ilə Azərbaycanın Şimal bölgəsinə köçmüş, hərbi əməliyyatlarda ad qazanmış və Quba yaxınlığında Xarmandalı obasını salmışdır. Təsadüfi deyildir ki, İspaniya kralının yanında Səfəvi dövlətinin elçisi Oruc bəy Bayat *(1560-1604)* xanədanda xarmandalu tayfasının rolunu qeyd edərkən onları Qərb tərzi ilə «markizlər» *(Avropada zadəgan titulu)* adlandırmışdır.[26]

Tarixi Azərbaycan ərazilərində - Qobustan, Gəmiqaya, Kəlbəcər, Göyçə, Dəvəboynu, Geğam, Abşeron, Qarabağ, Türkiyənin Batman, Bayburt, Bilecik, Bingöl, Bitlis, Diyarbəkir, Ədirnə, Elazığ, Ərzincan, Ərzurum, Əskişehir, Qaziantep, Girəsun, Gümüşhane, Hakkari, İğdır, İzmir, Qars, Kırşehir, Konya, Mardin, Ordu, Rizə, Siirt, Sivas, Trabzon, Tunceli, Urfa və Van bölgələrindəki qayaüstü təsvirlərdə, Qafqazın Dərbənd, Xumara daşlarında və s. aşkar olunan rəsm və ortaq etnik damğa işarələri bir tərəfdən həmin ərazilərin Turan etnomədəni məkanına daxil oduğunu göstərməklə, digər tərəfdən isə onların xronologiyası qədim türklərin hələ eramızdan xeyli əvvəl bu torpaqlarda məskunlaşdıqlarını, zəngin və spesifik maddi-mədəni irsə malik olduqlarını sübuta yetirir. Bu regionlar, o cümlədən Azərbaycanın zəngin etnomədəni irsə - Manna, Midiya, Hun, Avar, Xəzər, Atabəylər, Şirvanşahlar, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar dövlətlərinə, saka-skif, massaget, sarmat, bulqar, oğuz, qıpçaq və s. aid maddi-mədəniyyət nümunələrinə malikdir. Lakin təəssüflər olsun ki, ölkənin aparıcı tarix və diyarşünaslıq muzeylərində saxlanılan və xarici qonaqlara nümayiş etdirilən bu eksponatların əsas hissəsi uzun illər boyu etnik mənsubiyyət müstəvisindən araşdırılmamış, onların hansı xalqa, hansı tayfa birliyinə, hətta hansı nəslə və ya sülaləyə aid edildiyini müəyyənləşdirmək, düzgün təbliğatını aparmaq vəzifəsi diqqətdən kənarda qalmışdır. Etnik identiklik daşıyıcıları olan nadir eksponatların təsnifatı əsas etibarilə xronoloji prinsip üzrə, məsələn, «Tunc dövrü», «Dəmir dövrü», «Eramızdan

26 «Россия и Европа глазами Орудж-бека Баята - Дон Жуана Персидского». СПб. СПбГУ. 2007

əvvəl», «Orta əsrlər» kimi zaman kəsikləri çərçivəsində təsnif olunmuş-dur. Bu isə öz növbəsində Azərbaycanın maddi-mənəvi irsinin başqaları tərəfindən mənimsənilməsi, etnik tarixin saxtalaşdırılması üçün əlverişli imkanlar yaratmaqdadır.

Qədim, orta əsrlər və müasir türk dövlətlərinin bayraqlarında rəmz və damğa işarələri

1. Böyük Hun dövləti (e.ə.204-cü ildən eramızın 216-cı ilinə kimi); 2. Ağ Hun dövləti (420-562). Hazırda bu işarə Moldovadakı Qaqauz Yeri (Qaqauziya) muxtar ərazisinin gerbində də əks olunmuşdur; 3. Qaraxanlılar dövləti (840-1212); 4. Tarixi Azərbaycan

ərazisindəki Qaraqoyunlu dövləti (1410-1468); 5-6. Ağqoyunlu dövləti (1378-1503); 7. Qaşqay türklərinin milli bayrağı; 8. Osmanlı dövlətinin təməlini qoymuş Kayı xanlığının bayrağı (XIV əsr); 9. Cəlairlər dövləti (XIV əsr); 10-12. I Şah İsmayıl və I Təhmasib zamanında istifadə olunan Səfəvi bayraqları; 13. İstanbulun fəhtinə kimi Osmanlı dövlətinin bayrağı; 14. Osmanlı imperatorluğunun bayrağı (1383-1453); 15. Katalon xəritəsindəki (1375) təsvirə görə, Qızıl Orda dövlətinin (Ulus-ı Cuci, 1242-1502) bayrağı; 16. Katalon xəritəsinə əsasən, Əmir Teymurun bayrağı; 17. Misir Məmlük sultanlığı; 18-19. Krım xanlığı; 20. XVI əsr Polşa-Litva tatarlarının döyüş bayrağı; 21. Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağı; 22. Azərbaycan Respublikasının dövlət bayrağı; 23. Türkiyə Cümhuriyyətinin bayrağı; 24. 1918-ci il İdel-Ural dövlətinin (ştatının) bayrağı; 25. Qazaxıstan Respublikasının bayrağında «Ay-Günəş» rəmzinin variantı; 26-28. Qırğızıstan, Çuvaşıstan, Saxa (Yakut) respublikalarının bayraqlarındakı qədim rəmzlər.

Yuxarıda təqdim olunan türk bayraqları üzərindəki rəmz nümunələrinin qısa semantikası ilə tanış olaq:

- Böyük Hun dövlətinin bayrağını bəzəyən bu işarə ortaq türk damğaları təsnifatında «Baytərək» *(Törə/nəsil dirəyi)* adlanır və ilkin olaraq, Aşağı Dünyanı *(Ruhlar Aləmini),* Orta Dünyanı və Göyü – Tenqri xan məkanını birləşdirən Müqəddəs Ağac anlamını vermişdir. Qazax və qırğızlarda alaçıq *(yurt)* tavanını saxlayan mərkəzi dirək də belə adlanır. Hazırda Qazaxıstan Respublikasının milli rəmzi, Çuvaş Respublikasının *(Rusiya)* isə rəsmi simvoludur. Qeyd edək ki, Böyük Hun dövlətinin rəmzi sayılan həmin işarə forma etibarilə 1969-cu ildə Qazaxıstanın İssık çayı sahilindəki saka-skif məzarlığında aşkar olunmuş döyüşçünün *(qaz. «Altun adam», eramızdan əvvəl V-VI əsrlər)* qızıl mərasim tuğulğasının *(dəbilqəsinin)* üzərindəki simvolun təkrarıdır. Tədqiqatçılar bu başlığın sakların tiqrahauda *(şişpapaqlılar)* qrupuna aid tayfalara məxsus olduğunu bildirirlər.

- Oğuz və qıpçaq tayfalarının mifoloji təfəkküründə «Qaba Ağac», «Dirilik Ağacı», «Həyat Ağacı» mifologeminin qrafik təzahürüdür. Ortaq türk damğaları sırasında onun və s. kimi variantları da vardır. Xristian dini ilə əlaqəsi yoxdur. Qədim türk inanclarına görə, Dirilik Ağacının yarpaqları qam-şaman, hökmdar və ya sərkərdələrin ruhlarıdır. Mərkəzi Kaşğar şəhəri olan Qaraxanlılar dövlətinin bayrağındakı Dirilik Ağacının budaqlarından asılan on yarpaq, bu siyasi birliyə daxil olan on uyğur tayfasının birliyini simvolizə edirdi. Əbülqazi Bahadur xan Xivəli *(XVII əsr)* «Şəcəreyi-Tərakimə»

əsərində yazırdı ki, qaraxanlılar özlərini Turan hökmdarı Əfrasiyabın *(Alp Ər Tonqa)* varisi hesab edirlər.

və - Birinci damğanın seqmentlərindən olan təsviri vassallıq bildirən «baltavar», «eltəbər» işarəsinin variantlarındandır. «Vassallıq» rəmzinin önündə gələn işarəsi isə həm «Ay», həm də dominantlığı təcəssüm etdirən «yay» anlamlarını verir. Bu baxımdan, damğanın semantikası «vassal bəylikləri olan dövlət» kimi yozula bilər. Qızıl Orda dövlətində, Krım xanlığında və Şimali Qafqazın Krımdan asılı olan knyazlıq və bəyliklərində geniş yayılmışdır. Krım xanlığının bayrağındakı işarələr və İdel-Ural dövlətinin rəmzi eyni semantikaya malikdir. Səfəvi dövlətinin *(I Şah İsmayıl dönəmində),* Osmanlı hökmdarı Sultan Mehmet Fatehin, Məmlük sultanlığının bayraqları üzərindəki «Aypara» təsvirləri də *mahiyyət etibarilə «yay»* - «müstəqillik» və «dominantlıq» anlayışlarını bildirir. Qeyd edək ki, Ayparanın üfiqi varinantı həm də qartal qanadlarının qrafik təzahürü olmuşdur.

- Əmir TEymürun həm damğası, həm də dövlət rəmzi olan bu işarə qədim saka-skiflərin, şun və xəzərlərin, oğuz və qıpçaqların hərbi-siyasi birlik yaratmaq ənənəsinin qrafik təzahürü kimi «and» adlanır və «qana and içmək», «qardaşlaşmaq», «sarsılmaz müttəfiqlik» anlamlarını verir. Damğanın kimi variantları da vardır.

- Təqribən üç min il yaşı olan və dünyanın bir çox qədim xalqlarında sakral təhlükəsizlik, nəzərlik, mühafizə rəmzi olan beşguşəli ulduz – pentaqramma türk tayfaları arasında «Günəş», «Tenri/Göy Adamı» anlamını verən damğa işarəsi kimi mövcud olsa da, indiki formasını əsas etibarilə xristian və islam dinlərinin yayılmasından sonra almışdır. İslam dininə əsasən, bu nişanın vahid mərkəzdən çıxan beş şüası və ya guşəsi dinin beş əsas şərtini – ***Şəhadət kəlməsini, namazı, orucu, Həcc ziyarətini və zəkatı*** özündə ehtiva edir. Ağ hunların bayrağı üzərində təsvir olunan üç ulduzun «And» damğa işarəsi şəklində düzülüşü həmin dövlətin müxtəlif tayfalardan ibarət konfederasiya olmasından xəbər verir.

- Səfəvi hökmdarı I Təhmasibin və Saxa Respublikasının bayraqlarına həkk olunmuş bu işarənin ortaq türk damğa təsnifatında «döngələk», «do-

malaq», «Gün bəlgisi» *(Gün nişanı*), «Domalaq ana», «Gün domalaq», «Sarı baybikə», «Baybikə», «Nurullah», «Altun top», «Qızıl alma», «Altun alma» kimi adları vardır. Tədqiqatçıların ümumi qənaətinə əsasən, Atillanın hun imperiyasının bayrağında da onun təsvirləri vardır. Altun alma həm də mütləq hakimiyyətin rəmzi sayılıb. Əski inanclarda bu işarə "Tenqri xan-Günəş" anlayışını bildirsə də, türk xalqlarının islam dinini qəbul etməsindən sonra onun da semantikası dəyişmişdir. Müsəlman simvolizmində Günəşin rəmzi yeni məzmunla zənginləşərək Allahın Yer üzünə yaydığı nuru, İslam Peyğəmbərini ifadə etməyə başlamışdır.

✚ - Ən qədim sakral işarələrdən biri hesab olunur. Əsas əlaməti bərabərtərəfli olmasıdır. Damğa işarəsi kimi «açа», «açamay», «elşən», «xaç» və s. adlanır. Tanrının dörd cəhət, dörd dünya və dörd ünsür üzərində bərabər dərəcədə hökmünü, eyni zamanda dünyanın dörd tərəfinə söykənərək Göyü saxlayan qövsvari çatını – ərşin tağını simvolizə edir. Bu kosmoqonik model qazax və qırğızların alaçıqlarında da öz əksini tapmışdır. İçəridə havanın təmizlənməsi və ocaq tüstüsünün çölə çıxması üçün tavanın mərkəzindəki dairəvi yarığa Mərkəzi Asiya xalqları «tunduk» deyirlər. Tunduq mərkəzdə çarpazlaşan ağac millər vasitəsilə möhkəmləndirilir. Onun tiplərindən hər biri ⊕ ⊛ ⊗ və s. sakral rəmz və damğa işarəsi kimi yayılmışdır. Damğa işarəsi kimi «təkər» də adlanır. Qırğızıstanın dövlət bayrağındakı rəmz ⊕ vahid ailədə, vətəndə birliyi, firavanlığı və inkişafı ifadə edir.

☪ ☪★ - Türk dünyasında və islam aləmində geniş yayılan, bir sıra müasir müsəlman ölkələrinin dövlət rəmzinə çevrilən bu işarə «Ay-ulduz» kimi tanınsa da, onun həqiqi semantikası Günəş və Ay təsvirləri ilə əlaqəlidir. Təsadüfi deyildir ki, Orta Şərqdə porulyar adlarından biri də «şəms-qəmər»dir. Damğa işarələri arasında Günəşin ✳ ✳ ○ və s. Ayın isə ☾ ☽ ◡ kimi əlahiddə təsvirləri vardır. Bundan başqa, «Günəş-Ay» mifologemindən yaranan çoxsaylı damğalar ⚓ ⚓ ⚓ ⚓ ⚓ ⚓ ◡ ⚓ və onların variantları da mövcuddur. Bu rəmzlərin ilkin tiplərinə Qobustan, Gəmiqaya, Qərbi Azərbaycan, Mərkəzi Asiya, Şərqi Sibir qayaüstü təsvirlərində, Şumer, Babil, Assuriya barelyeflərində, qutilərin, mannalıların və midiyalıların maddi-mədəniyyət nümunələrində geniş təsadüf olunması uzaq keçmişdə bu torpaqlarda yaşamış sakinlərin Ay və Günəşə tapınmasından xəbər verir. Müsəlman dövlətlərində

«bütpərəstliklə» əlaqəli solyar dini nişanın – Günəş təsvirinin islam simvolizmində səkkizguşəli ulduza çevrilərək əsas atributlardan birinə çevrilməsi mömin insanın səkkiz əməlinin və Cənnətin səkkiz qapısının bu işarədə təcəssüm olunması ilə əlaqələndirilir: ***Mərhəmət, səbr, dürüstlük, sirr saxlamağı bacarmaq, sədaqət, cömərdlik, şükr etmək, təkəbbürlü və həris olmamaq.*** Və bu əməllərə riayət edən mömin müsəlmanın üzünə axirətdə Cənnətin səkkiz qapısı açılacaqdır.

- Ağqoyunlu dövlətinin bayraqları üzərində güman edilən rəmz təsviri oğuzların bayandur boyunun damğası kimi Yazıçıoğlu Əlinin «Təvarixi əl-Səlcuq» *(XV əsr)*, Seyid Loğmanın «Hünərnamə» *(XVII əsr)* adlı salnamələrində şəklində, Mahmud Kaşğarinin «Divani lüğət-it Türk» *(XII əsr)* əsərindəki təsnifatda üzü aşağıya çevrilmiş formasında göstərilmişdir. Bayandurların damğası Fəzlullah Rəşidəddinin «Cami ət-Təvarix» *(XIV əsr)* kitabındakı variantı isə M.Kaşğarinin təqdim etdiyi tipə daha yaxındır. Ağqoyunlulara aid edilən bayraq simvolunun bənzərinə İranın cənub-qərbində yaşayan qaşqayların – etnik azərbaycanlıların milli rəmzləri sırasında, uyğur yazı sistemində, Qafqaz Albaniyasının əlifba variantlarında rast gəlirik. Bu fakt qaşqayların da vaxtilə bayandur tayfa birləşməsinin tərkibində olmasından xəbər verir. Məlumdur ki, Ayqoyunlu sultanı Həsən xan Bayandur *(Uzun Həsən, 1423-1478)* həmin tayfanın nümayəndəsi idi və öz şəcərəsini Oğuz xanla bağlayırdı. Etimoloji yozuma görə, «bayandur» sözü əski türkcədə «varlı», «dövlətli» anlamını verir. Bu baxımdan, Azərbaycan milli xalça naxışları içərisində «dəvə», Mərkəzi Asiyada isə «erkəş» *(dəvə hörgücü),* bəzən isə «qaz» *(qu quşu)* adlanan ornamentlər ilə bayandurların damğaları *(yüklü dəvə)* arasında zahiri bənzərlik onların arasındakı semantik yaxınlığın nəticəsi ola bilər. Belə ki, elat tayfalarının təsəvvürlərində «yüklü dəvə» zənginlik əlaməti sayılmışdır.

- Qədim türklərin mifik təsəvvürlərində qoç təsviri sakral rəmzlərdən biri sayılırdı. Qoç bir tərəfdən «bolluq» və «bərəkət» bildirir, digər tərəfdən isə vəfat etmiş insanların ruhlarını Tanrı məkanına çatdıran müqəddəs canlılardan hesab edilirdi. Tanrıya kəsilən qurbanlar arasında ağ atla yanaşı ağ qoçun da xüsusi dəyəri vardı. Bundan başqa, əski türk dillərində «qara» sözünün

təkcə rəng deyil, həm də «böyük», «güclü» anlamlarını verdiyini nəzərə alsaq, Qaraqoyunluların dövlət rəmzinin - «qara qoç» təsvirinin də şərti xarakter daşıdığını, «qüdrətli dövlət» kimi yozumunun daha düzgün və dəqiq olduğunu görərik. Bəzi mənbələrə görə, Ağqoyunlu dövlətinin ilkin rəmzi də analoji «qoç buynuzu» damğası olmuşdur.

- Bu işarə Osmanlı bəyliyini quran Qayı boyuna aid edilsə də, tayfanın damğaları və onların variantları arasında analoqları yoxdur. Əslində, Osmanlı bəyliyinin rəsmi rəmzi kimi tanınan bu işarə qədim oğuzlarda hakimiyyət *(yay)* və vassallıq *(ox)* bildirən damğaların birliyidir və təsnifatda «yay-ox» adlandırılır. Onun və kimi variantları vardır.

- Cəlairlər dövlətinin bayrağı üzərində təsvir olunan bu sadə damğa işarəsi «eşik», «qapı» adlanır. Mərkəzi Asiya, Volqaboyu, Krımın türk tayfaları arasında geniş yayılmışdır. Oğuz və qıpçaq tayfalarının damğa işarələri arasında onun müxtəlif variantlarına təsadüf edilir. Bu damğa işarəsinin bir adı «ev»dir. Ə.Canıbəyovun təsnifatına görə, işarəsi həm də noqayların as *(az)* və arqın *(arqun)* tayfalarının tanınma-fərqləndirmə nişanlarıdır.

Tarixi Azərbaycan ərazilərində təşəkkül tapan, indiki Ermənistan və Gürcüstanı, Dağıstanın cənub hissəsini əhatə edən Qaraqoyunlu dövlətinin *(1410-1468)* rəmzi, bayrağı üzərindəki qara qoç təsvirinin Azərbaycan xalçaçılıq sənətində əksi barədə bir qədər ətraflı danışmaq istərdik. Qeyd edək ki, bu işarənin digər variantları da mövcuddur. Məsələn, Qaraqoyunlu dövlətinə aid edilən metal sikkələrin üzərində və rəmzlərinə də təsadüf edilir. Qarabağ qrupuna aid olan «Malıbəyli» xalça naxışlarında nədənsə işarəsi tək halda «ördək», qrup şəklində isə «çərxi-fələk» kimi tanınan ornamentin təhlili onun açıq şəkildə Qaraqoyunlu dövlət rəmzinin – qara qoçun stilizə olunmuş təsviri olduğunu göstərir. Yəni bu rəmzdən dördünün xalça üzərində xaç şəklində birləşməsi təkcə sakral «çərxi-fələk» işarəsinin təsvir variantlarından biri deyil, həm də Qaraqoyunlu dövlətinin «dünyanın dörd tərəfinə yayılan hakimiyyəti» ideyasının sxematik təsviridir. Onu da xüsusi vurğulayaq ki, erməni mənimsəmələrinin əsas obyektlərindən biri məhz Qarabağ qrupuna aid olan, xüsusilə Şuşanın Malıbəyli kəndində toxunan eyni adlı xalçalardır. Ermənilərin Azərbaycan xalqının milli-mədəni

sərvətinə, əslinə qalsa, regiondakı türk etnomədəni irs nümunələrinə əsassız iddiaları barədə az sonra bəhs olunacaqdır. Bununla belə, «erməni xalçaları» üzərində türk damğa işarələrinin, xüsusilə dövlətçilik rəmzlərinin əsk olunması barədə tutarlı sübutlar onların mənimsəmə cəhdlərinə təsirli zərbə ola bilər. Təsadüfi deyildir ki, Ermənistanın xalça üzrə mütəxəssisi Liliya Avanesyan bəzən «Tatev», bəzən də «Sünik-Arsak xalçaları» kimi təqdim etdiyi «Malıbəyli» xalçaları üzərindəki rəmzlərin həqiqi semantikasını bilmədən, bəlkə də, məqsədli şəkildə gizlədərək, onlara uydurma yozum verməkdən çəkinmir, "qoç başı" təsvirini gah «qıvrılmış ilan», gah da «çinar ağacına bənzəyən magiya işarəsi» adlandırır.[27] Beləliklə, normal məntiqə və tarixi-etnoqrafik materiallara söykənərək, «Malıbəyli» xalçalarının, eyni zamanda, rəmz təsvirlərinə görə **«Qaraqoyunlu xalçaları»** sırasına daxil edilməsini məqsədəuyğun hasab edirik.



1-2. XIX əsrə aid «Malıbəyli» xalçalarında «çərxi-fələk» və onun fraqmenti. 3. Qraqoyunlu dövlətinin bayrağındakı qara qoç rəmzi. 4.Gəmiqaya qayaüstü təsvirlərində bənzər rəmz.[28] 5-6. Borçalıda və İranda yaşayan qaşqayların (etnik azərbaycanlıların) xalçalarında analoji rəmz.

27 Л.Аванесян. «Связь изображений армянских ковров с погребальным обрядом». Журнал «Анив», №3 (42).
28 V.Əliyev. «Gəmiqaya abidələri». Bakı, 1992.

Qədim yaşayış məntəqələri, şirin su mənbələri, otlaqlar yaxınlığındakı sal qaya daşları üzərinə həkk olunmuş damğalar xüsusi tədqiqat obyektləri olmaqla yanaşı funksional baxımdan digər tanınma-fərqləndirmə işarələrindən fərqli xüsusiyyətlərə malikdir. Azərbaycanda – Yazılıdaş *(Qobustan)*, Gəmiqaya, Qərbi Azərbaycanda - Geğam *(Göyçə),* Dəvəboynu abidələri, Qazaxıstanda - Tamqalıtas *(Damğalı daş)*, Eşkiölməz, Qırğızıstanda - Saymalıtaş, Xakasiyada - Sülek, Özbəkistanda - Sarmışsay, Xocikənt və s. belə rəmzlərlə zəngindir. Təəssüf ki, Azərbaycanda indiyədək həmin işarələrin sistemli şəkildə toplanması, onların etnomədəni məkan və məskunlaşma coğrafiyası kontekstində təsnifatı və kompleks tədqiqi istiqamətində kifayət qədər səmərəli iş aparılmamışdır. Təqribən eramızdan 12-15 min il əvvəlki dövrlərdən orta əsrlərədək olan böyük zaman kəsiyini əhatə edən Qobustan qayaüstü təsvirləri damğa işarələrinin tədqiqi baxımından da əhəmiyyətli tədqiqat mənbəyidir. Burada aşkar edilmiş damğa nümunələrinin ən qədimləri isə Tunc dövrünə və ondan əvvəlki zamanlara aid olunur. Sakral xarakter daşıyan Cingirdağ *(bəzi ehtimallara görə, Dinqirdağ/ Tenri dağı oroniminin fonetik təhrif olunmuş variantı)* ərazisi damğa işarələri ilə daha zəngindir. Buradakı 43 qaya parçası üzərində 170-dək damğa işarəsi müəyyən edilmişdir. Tanınmış Azərbaycan arxeoloqu, professor Cəfərqulu Rüstəmovun araşdırmalarına görə, təkcə 123 və 143 nömrəli daşların hər birinin üzərində 21 və 36 nümunə olmaqla qazma üsulu ilə 57 işarə həkk edilmişdir. Alimin qənaətinə görə, **«Qaya və daşlar üzərində işarə və damğaların nə məqsədlə qazılması haqqında tam və qəti fikirlər söyləmək çətindir. Hər halda, onların tayfa, qəbilə, nəsil və şəxsi damğa işarələri olması barədə fikir daha ağlabatandır».**[29] Tarixi Azərbaycan ərazilərində qədim damğa işarələrinin araşdırılması, onların deşifrəsi, semantikasının müəyyənləşdirilməsi ilə bağlı ilk və mühüm tədqiqatlar mərhum professor Cəfər Cəfərov tərəfindən aparılmışdır. Alim Azərbaycan xalqının etnogenezinin, etnik mədəniyyətinin öyrənilməsində ibtidai təsvirlərin, qədim maddi-mədəniyyət nümunələri üzərindəki rəmzlərin öyrənilməsinin zəruriliyi barədə yazırdı: «**On ildən artıq bir dövrdə göstərdiyimiz səylər Qobustan, Gəmiqaya, Kəlbəcər qayaları, habelə xalça nümunələri, dulusçuluq əşyaları, memarlıq abidələrindəki min illərin yadigarları olan damğa və işarələrin söz, anlayış, ideoqram kimi oxunuşuna inamı artırır və bu vacib məsələnin təxirəsalınmaz olduğunu bir daha əsaslandırır. Qənaətimizə görə, onların oxunuşu tarix**

29 C.Rüstəmov. «Qobustan dünyasi». Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

tərəfindən çoxdan unudulmuş xalqlar, tayfalar, titullar, ictimai-siyasi anlayışlar, vəzifələr barədə bizə əvəzsiz məlumat verir».[30] Bununla belə, Cəfər Cəfərov Qobustan qayaüstü rəsmlərindəki nişanları «ideoqrafik yazı nümunəsi» *(müəyyən ideyanı özündə əks etdirən təsvirlər)* adlandırsa da, onların bir hissəsinə heroqlif *(ayrı-ayrı söz və səsləri bildirən işarələr),* digərlərinə isə əlifba fonemləri *(hərfləri)* kimi yanaşmışdır. C.Cəfərov belə universal yanaşma sistemi sayəsində qədim türklərin «öz», «oz», «sarman», «qaz təpiyi» və s. adlandırdıqları sakral işarə variantları 卐 卐 卐 və Orxon-Yenisey əlifbasında cingiltili **«z»** samitini ifadə edən 卐[31] qrafemi arasında bənzərliyi əsas götürərək, Qobustan qayaları üzərindəki 卐 卐 卐 卐 卐 rəmzlərini **«as ər», «as kan», «ər as xan»** kimi oxumuş, onları unudulmuş etnonimlərdən olan və dilimizdə «**azman», «azər»** kimi sözlərdə qalan, Azərbaycan xalqının etnogenezinin formalaşmasında iştirak edən qədim **az** və ya **as** tayfaları ilə əlaqələndirmişdir.[32] Professor eyni zamanda **«Azərbaycan», «özbək», «oğuz», «çuvaş»** *(çuvas),* **«xakas», «qaraqaş»** *(karakas)*, **«tuva»** və digər etnonimləri, Azərbaycan ərazisindəki **Asnı** dağını, eyni adlı kənd, çay və tayfanı, **Astara** royonunu, Cənubi və Şimali Qafqaz, Krım və Rusiyadakı **Aştarak, Həştərxan** *(As-tarxan),* **Askan, Kanaz, As** *(Perm vilayəti)* şəhərlərinin adlarını as/az tayfaları ilə bağlamışdır. Alimin gəldiyi qənaətə görə, Qobustan qayaları üzərində həkk olunmuş işarələr bu qədim xalqın tarixinin və etnik mənşəyinin öyrənilməsində etibarlı mənbə ola bilər.

C.Cəfərovun təşəbbüsü və qənaətləri elm aləmində birmənalı qarşılanmasa da, onun Azərbaycanda az tayfalarının məskunlaşması, burada maddi-mədəniyyət nümunələri yaratmaları və etnik mənşələri barədə irəli sürdüyü cəsarətli fikirləri, səyləri diqqətəlayiqdir. Qeyd edək ki, adı Qurani-Kərimdə **«as qövmü»**, Orxon-Yenisey yazılarında **«ak er as»,** Kül tigin abidələrində **«as budun»** *(as xalqı)* kimi çəkilən as və ya azları Lev Qumilyov **«Altaydan Uraladək uzanan böyük bir ərazidə yaşamış məşhur müəmmalı xalq»** adlandırmışdır.[33] Orta əsrlərdə yaşamış ərəb tarixçisi İbn Hövqəl Azərbaycanda - Ərdəbil yaxınlığındakı Sərat şəhərində əhalinin **aslardan** *(ər-as, əhli ər-as)* ibarət olması barədə məlumat verirdi.[34] Eyni zamanda, Ağrı dağının yaxın-

30 C.Cəfərov. «Bəzi damğa və işarələrin etimoloji izahı»// (Elmi əsərlərin tematik məcmuəsi), Bakı, ADU, 1987.
31 Ə.Rəcəbli. «Qədim türk yazılı abidələri», I cild, Bakı, 2009.
32 C.Cəfərov. Göstərilən əsəri.
33 Л. Гумилев. «Древние тюрки». Москва, 1967.
34 N.Vəlixanlı. «IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında». Bakı, 1974.

lığında, **Araz** *(Ər-As)* çayının kənarında asların məskunlaşmaları və burada böyük nüfuz sahibi olmaları barədə də məlumat vardır. Vaxtilə professor Mahmud İsmayıl «Azərbaycan tarixi» əsərində **«Azərbaycan»** kəlməsinin etimologiyası ilə bağlı yozumlardan biri kimi bu adın **as** tayfası ilə bağlanmasını və **«As***(az)***ların ölkəsi»** şəklində izahını da nəzərdən keçirirdi.[35]

As xalqının etnik mənşəyi barədə ilk məlumata ərəb coğrafiyaşünası əl-Məqribinin *(1214-1286)* əsərlərində rast gəlirik. O yazır: **«Gürcüstandan Şərqdə alanların ölkəsi vardır. Onlar xristianlaşan türklərdir… Alanlardan sonra türklərdən «as» adlanan bir türk qövmü də** *(qövm min əl-turk)* **vardır».**[36] Yəhudi salnaməçisi İosif Flavi *(37-100)* «Yəhudi müharibələri tarixi» əsərində açıq şəkildə qeyd edir ki, **«yasların** *(asların)* **dili peçeneqlərin dilinin törəməsidir».**[37] Əbu Reyhan Biruni *(873-1048)* isə Xarəzmdə yaşayan asların və alanların türk mənşəli olduqlarını və yerli Xarəzm-peçeneq ləhcəsi ilə danışdıqlarını bildirir.[38] Tanınmış qafqazşünas və etnoqraf İsmayıl Miziyev asları və ya yasları türk mənşəli «skif-sarmat tayfalarının etnik varisi» hesab edir. Onun fkrincə, qədim türk dillərində «köçəri» anlamını verən «as» termini **«Asiya»** qitəsinin adında və skiflərə aid edilən **«as-kişi»** *(as adamı, aşquz, işquz)* ifadələrində Krım və Mərkəzi Asiyadakı etnonimlərdə bu gün də qalmaqdadır.[39]

Damğa işarələrinə qayıdaq. Qeyd edildiyi kimi, bir çox qədim yazı sistemlərində *(Şumer, Akkad, Vinçi, Bibl, Göytürk və s.)* işarələrin prototipi Neolit, Mezolit və Paleolit dövrlərinə aid olan və köçəri tayfalar vasitəsilə geniş ərazilərə yayılan rəmzlər, damğalardır. Yəni əlifba işarələri onlardan daha qədim olan fərqləndirmə-tanınma rəmzlərinin – damğaların törəmələridir. Məsələn, görkəmli türk alimi Əhməd Cavad Əmrə tarixin dərin qatlarına aid yazı qrafikası nümunələrini araşdıraraq, qədim türk *(Göytürk/Orxon-Yenisey)* əlifbasındakı bəzi işarələrin Şumer «hərfləri» ilə oxşar təsvirə və semantikaya malik olması qənaətinə gəlmişdir. Belə ki, onun fikrincə, türk əlifbasındakı ↓↑ işarələri *(eləcə də* ⚓ ⚓ ⚓ *damğaları* – **A.Q**.) və şumer yazısındakı ⚓ təsviri «ox» *(yay-ox)* anlamını verir. Müvafiq olaraq, türklərin 𐰋𐰉 şumerlərin isə 𒁹𒁹 rəmzləri

35 М.Исмаил. «История Азербайджана (Краткий обзор с древнейших времен до 1920 г.)». - Б.: Азернешр,1995.

36 «İslam cografiyaçılarına gore Türkler ve Türk ülkeleri». Hazarlayan Dr. Ramazan Sesen. Ankara,1985.

37 Н.Мещерский. «История иудейской войны» в древнерусском переводе. М.-Л. 1958.

38 С.Кляшторный. «Древнетюркские рунические памятники». Москва, 1964.

39 И.Мизиев. «Аланы и асы - предки балкарце и карачаевцев», http://passion-don.org/kazak.html.

- «göz», 𐰇 𐰈 və 𐰋 «ayaq», 𐰃 və 𐰄 «yay», 𐰆 𐰉 və 𐰆 «qapı», 𐰍 və 𐰏 isə «alt», «aşağı», «bədənin aşağı hissələri» anlamlarında işlədilirdi.[40] Əlavə olaraq onu da bildirək ki, şumer yazılarında «**1**» rəqəmi ilə yanaşı «insan», «döyüşçü» bildirən 𐰚 işarəsi ilə Orxon-Yenisey əlifbasında, türk damğaları təsnifatında eyni semantik mənanı verən 𐰚 *(ər, döyüşçü)* nişanı arasında həm sxematik, həm də semantik bənzərlik vardır. Türk damğaları ilə Göytürk əlifbası arasında yaxınlıq rusiyalı alim Pavel Nazarovu da ciddi maraqlandırmışdır. Qazax dilinə və Mərkəzi Asiya xalqlarının etnik mədəniyyətinə yaxşı bələd olan müəllif bölgə haqqında yazdığı kitabında bildirir: **«Orxon yazıları və qazaxların nəsil-tayfa damğaları eynidir. Onlar İsa Məsih dönəmindəki Fələstində səslənən və sonralar ivritlə əvəzlənən aramey dilinin əlifba işarələrini xatırladır. Damğaların aramey işarələrindən mənimsənildiyini və ya onlardan daha qədim dövrlərə aid olduğunu söyləmək çətindir. Türklər dünyanın ən əski sivilizasiyasına malik xalqdırlar. Dünyanın Assuriya-Babil mədəniyyətindən də qədim olan şumer sivilizasiyası da türk mənşəlidir»**.[41]

Tanınmış tarixçi, ortaq damğa işarələrinin yorulmaz tədqiqatçısı olmuş Sərvət Somuncuoğlunun *(Türkiyə)* təbirincə desək, **«Dərs kitablarımıza görə, bizim tariximiz Orxon yazıları ilə başlayır. Halbuki, Orxon kitabələri türklərin daşlar üzərinə həkk olunmuş son sözləridir. Bu, əsla türk tarixinin ön sözü deyildir»**. Türk xalqları öz tarixlərinin obyektiv öyrənilməsi və təbliği üçün bu fikirlə razılaşmağa məhkumdurlar. Rəsmi tarixşünaslıq, şərti olaraq, «Orxon-Yenisey işarələri» adlandırdığı Göytürk əlifbasının eramızın VIII-X əsrlərində yarandığını təkidlə iddia edir. Bu iddianın yaranmasına əsas isə guya VIII əsrdən əvvəlki dövrlərə aid türk yazı nümunələrinin aşkar olunmamasıdır.[42] Halbuki, tanınmış arxeoloq, Daş və Tunc dövrləri üzrə mütəxəssis Aleksandr Formozovun hələ 1953-cü ildə Volqaboyu və Qazaxıstan ərazilərində aşkar etdiyi və eramızdan əvvəl II-I minilliklərə aid olunan maddi-mədəniyyət nümunələri üzərindəki qədim türk yazı işarələri bu iddiaları əsaslı şəkildə iflasa uğradır. Lakin ənənəvi tarixşünaslıq bu barədə susmağı, tarix qatlarında türk layını gizlətməyi üstün saymışdır. Bundan başqa, qədim Xarəzmin «Beştübə», «Çilik» adlanan ərazilərində arxeoloji qazıntılar zamanı tapılan saxsı qablar üzərində də ana-

40 A.C.Emre. «Eski Türk Yazısının Menşeği», İstanbul, 1938.

41 P. Nazaroff, «Hunted Through Central Asia», Oxford University Press, 1993.

42 *В.Лившиц. «О происхождении древнетюркской рунической письменности.// Археологические исследования древнего и средневекового Казахстана». Алма-Ата, 1980*

loji işarələr müəyyən edilmişdir. Onların ən qədimlərinin eramızdan əvvəl IX əsrə aid olduğu müəyyən edilmişdir.[43] Həmin işarələri «VIII-X əsrlərdə yaranmış» Göytürk hərfləri və ortaq türk damğa nişanları ilə müqayisə edək: Y - Y *(nq);* | - | *(s);* ⅄ - ⅄ *(ç);* ⅃ - ⅃ *(l);* ✝ - ✝ *(z);* X - X *(d);* Y - Y *(iç);* Y - Y *(l);* 1 - 1 *(r);* Λ - Λ *və ya* Λ *(o, u);* Δ - Δ *(ik, ki);* ✝ *- Tenqi açası/xaçı, açamay, elşən;* ✱ *- Tenqri, Günəş, qartal, ikibaşlı qartal rəmzi və s.* Bu eyniliyi isə «zahiri oxşarlıq» və ya «təsadüf» adlandırmaq ən azı insafsızlıqdır. Ukraynalı dilçi, run yazıları üzrə mütəxəssis Aleksandr Kobrinski isə bir sıra qədim əlifbaların, o cümlədən Skandinav run işarələrinin *(Futrak)* şərti olaraq «İssık yazıları» adlanan qrafemlərdən qaynaqlanması qənaətindədir.[44] Xatırladaq ki, Pamir və Tyan-Şan dağlarında aşkar edilmiş qayaüstü təsvirlərdə, xüsusilə Qazaxıstandakı İssık kurqanından – saklara aid «Altın ər» *(Qızıl döyüşçü)* məzarlığından *(e.ə. V əsr)* aşkar olunmuş gümüş qab üzərindəki 26 işarə, o cümlədən - ᛚ ᛋ ᛇ ᛊ ᛝ ᛏ ᛉ ᛋ ᛇ | ᛯ ᛋ ᛗ qrafemləri zaman etibarilə Göytürk hərflərindən təqribən 1300 il qədimdir. O da maraqlıdır ki, həmin işarələrin daha erkən variantlarına Qərbi Azərbaycan da daxil olmaqla tarixi Azərbaycan ərazilərindəki qayaüstü təsvirlərdə, sonrakı dövrlərdə isə Qafqaz Albaniyasının damğalarında və əlifbasında da rast gəlinir. Digər bir sual. Əgər türk əlifba işarələri həqiqətən də eramızın VIII əsrində yaranmışsa, bu zaman Macarıstanda, Yanoxşida kəndi yaxınlığında aparılan qazıntılar nəticəsində aşkar olunmuş və VII əsrə aid qədim avar *(türk)* məzarlıqlarından çıxarılan sümük məişət əşyaları üzərindəki analoji run işarələri ᚼ Y | ᛟ necə izah edilə bilər? [45]

Qeyd edək ki, görkəmli qazax alimi, professor Altay Amanjolov Göytürk işarələrini digər xalqların qədim əlifba nümunələri ilə müqayisəli şəkildə təhlil etdikdən sonra belə bir qənaətə gəlmişdir ki, **«Türk run işarələri ilə ilkin sami, qədim yunan, etrusk, pisen, messap, venet, ret, likiya, sidet və s. əlifba nişanları arasında olan sıx genetik bağlılıq türk işarələrinin uzun inkişaf yolu keçdiyinin və görünür, hansısa ən qədim ortaq əlifba yazısından qaynaqlandığının göstəricisidir».** A.Amanjolov bu mənbənin ənənəvi olaraq Altaylarda deyil, eramızdan əvvəl III-II minilliklərdə Yaxın

43 Ж.Войников. «Древнеболгарское письмо», http://www.bulgari-istoria-2010.com/booksRu/ALANO_DREVNEBOLGARSKOE_PISJMO.pdf

44 А. Кобринский. «Руническая письменность: истоки и распространение», http://amkob113.narod.ru/kobra/runis/rez.htm

45 Иштван Эрдели. «Исчезнувшие народы. Авары», *Природа, 1980, № 11.*

və Orta Şərq, Şərqi Avropa ərazilərində mövcud olduğunu bildirir.[46] Vaxtilə tanınmış rus şərqşünası Platon Melioranski də *(1868-1906)* bir sıra qədim əlifbaların məhz türk run işarələri əsasında yaranması fikrini irəli sürmüşdür.[47] Əski türk əlifbasının qədimliyini Çin yazılı mənbələri də təsdiq edir. Eramızın ilk əsrlərinə aid salnamələrdə **«kanqyu** *(kanqlı)* **xalqının üfüqi yazıya malik olduğu»** bildirilir. V-VI əsrlərdə yaşamış kilsə tarixçisi, yepiskop Zaxari Ritor *(Zəkəriyyə Ritor)* isə hunların da öz əlifbaları olduğunu qeyd edir. Kumık alimi, professor Kamil Əliyev isə ortaq türk əlifbasının qədimliyinə dair digər tarixi məlumatları önə çəkir: **«Hələ eramızın 544-cü ilinə aid olan materiallarda Qafqazda məskunlaşmış hunların əlifba işarələrindən istifadə etdikləri bildirilir. 568-ci ildə Bizans imperatoruna göndərilən xan fərmanı da məhz əski türk əlifba işarələri ilə yazılmışdır. Yunanlar onu «skif yazısı» adlandırırdılar»**.[48] Qaraçay alimi Soslan Bayçorov Qaraçay-Çərkəz Respublikasındakı Xumara, Dağıstandakı Ullu-Boynak şəhər xarabalıqlarında apardığı tədqiqatlar zamanı burada türk əlifba işarələri ilə yazılmış və VII-X əsrlərə aid edilən 30-dan çox daş kitabə müəyyən etmiş, onların mətnlərini qədim türk leksikası əsasında oxumağa nail olmuşdur.[49]

«Altay nəzəriyyəsinin» siyasi mif olduğunu bildirən və onun doğruluğunu ciddi şəkildə şübhə altına alan bir sıra tanınmış alimlər *(Cəfər Cəfərov, F.Cəlilov, A.Amanjolov, A.Mühəmmədiyev və s.)* şərti olaraq «Göytürk əlifbası» kimi tanınan türk yazı sisteminin tarixinə və genezisinə nəzər salsaq, analoji əlifba işarələrinin daha qədim dövrlərdə tarixi Azərbaycan ərazisində *(Abşeron, Naxçıvan, Kəlbəcər, Göyçə və s.),* Şimali Qafqaz, Yaxın Şərq regionlarında da yayılmasını tutarlı dəlil kimi ortaya qoymuşlar. Göytürk əlifbası işarələrinin qrafem bənzərliyi baxımından Yaxın Şərq regionunun qədim fonetik yazı sistemləri *(bir işarə – bir səs)* ilə yaxınlığını diqqətə çatdıran mütəxəssislər bununla da türklərin ən azından Ön Asiya mənşəli olması qənaətindədirlər. Bu əlahiddə materialın mövzusu olsa da, əski türk əlifbasının və bu işarələrlə bağlı olan ortaq türk damğalarının ilkin sami – Finikiya yazısı ilə bağlılığı təkcə türk runlarının deyil, türklərin tarixi vətənləri barədə nəzəriyyələri də

46 Ш.Куанганов. «Уч кудук - три колодца!», http://ddp-main.narod.ru/2002/nomer_47/popularnaa_istoria.htm
47 П.Мелиоранский. «Памятник в честь Куль тегина» ЗВО, вып. II, III, т. XII, СПб, 1899.
48 К.Алиев. «Дорогой тысячелетий. От руники - к кириллице», http://kumukia.ru/article-9084.html
49 С.Байчоров. «Древнетюркские рунические памятники Европы: Отношение северокавказского ареала древнетюркской рунической письменности к волго-донскому и дунайскому ареалам». Ставрополь, 1989.

yenidən təftiş etmək zərurətini yaradır.[50] Damğa işarələrinin genezisi ilə yanaşı, əski türk yazı sistemlərinin digər əlifba nümunələri ilə yaxınlığı da qədim türk mədəniyyətinin Ön Asiya mənşəli olmamasını, coğrafi mənbəyinə, yaranmasına, formalaşmasına və yayılmasına dair etnosiyasi iddiaların yanlışlığını sübuta yetirməkdədir.

Qeyd edək ki, Finikiya əlifbası bəşəriyyətin ilk fonetik yazı sistemlərindən biri sayılır. Dünyanın bir çox fonetik əlifbalarının əcdadı hesab edilən bu sistem eramızdan əvvəl XV əsrdə Finikiyada - müasir Livanı və Aralıq dənizinin şərq sahillərini əhatə etmiş qədim dövlətdə yaranmış və yayılmışdır. Finikiyalıların dili sami qrupuna aid edilir. Genetik tədqiqatlar isə onların təkcə Yaxın Şərqin deyil, Qafqaz regionunun da mezolitik dövr əhalisi ilə qohum olduğunu təsdiqləyir. Bununla belə, əlifba işarələrinin təsviri baxımından latın, yunan, Göytürk qrafemləri arasında yaxınlıq olsa da, əsas fərq burada mətnlərin konsonant prinsipi ilə yazılması – sözlərdə yalnız samitlərin qeyd olunmasıdır. Finikiya və Göytürk *(Orxon, Yenisey, Talas)* yazı sistemlərinin daha bir oxşar cəhəti mətnlərdə əlifba işarələrinin sağdan-sola doğru istiqamətlənməsidir. Aşağıdakı cədvəldə Finikiya qrafemlərinin Talas, Yenisey, Orxon və uyğur yazı sistemləri hərfləri və ortaq türk damğa işarələri ilə oxşar cəhətləri göstərilir.

Cədvəl 1. Finikiya və qədim türk əlifba işarələrinin, ortaq türk damğalarının identikliyi

№	Finikiya hərfləri	Qədim türk əlifbalarında və damğa işarələrində analoqları	№	Finikiya hərfləri	Qədim türk əlifbalarında və damğa işarələrində analoqları
1.	*(a)*	*Orta əsrlərdə Qızıl Orda dövlətini təşkil edən türk tayfalarında, Volqaboyu bulqarlarında «ayı başı»* *və oğuzlarda «qurd ağzı»* *kimi tanınan damğa işarələri.*	12	*(l)*	*Göytürk hərfləri sırasında «o», «u» səslərini ifadə edən* < *və* > *qrafemlərinə bənzsə də, Orxon əlifbasında* **«l»** *səsini bildirən* *işarəsi ilə qrafik və fonetik oxşarlığı vardır. Ortaq türk damğa işarələri tasnifatında əsasən «bucaq»* *kimi tanınır,* *variantı isə «qapı» (alaçıq, çadır qapısı) adlanır.*

50 E.Hebibbeyli, «Uyqarlıqların Kavşağında Türk Dünyası», İstanbul, 2013.

2.	*(b)*	*Tam oxşarı qədim uyğur əlifbasında («Kutadqu-bilik») **«d»** və **«t»** səslərini bildirən qrafemidir. Talas, Orxon və Yenisey mətnlərində isə işarəsi **«u»** səsini bildirir. Damğa işarəsi və xalça ornamenti kimi «dəvə» nişanına bənzəyir. Qədim uyğur (Şərqi hun) əlifbasında «g», «k» səslərini bildirən qrafemi ilə yaxınlığı vardır. Mahmud Kaşğarinin «Divani lüğət-it Türk», Yazıçıoğlu Əlinin «Təvarixi əl-Səlcuq» (XV əsr), Seyid Loğmanın «Hünərnamə» (XVII əsr) adlı salnamələrində oğuzun bayandur boyunun damğalarına* və *oxşarlığı vardır.*	**13.**	*(m)*	*Qədim türk yazı sistemlərində* *və* *qrafemlərinin bənzəri hesab etmək olar. Həmin işarələr incə saitli sözlərdə **«n»** samitini ifadə edir.*
3.	*(c,g)*	*Talas, Orxon və Yenisey əlifba sistemlərində işarəsi **«p»** səsini ifadə etmək üçün işlədilir. Damğa işarəsi kimi «iqrak» (maşa), «qarmaq» və «kösöv» adlanır.*	**14.**	*(n)*	*Qrafemin tam bənzərinə Talas və Orxon işarələri arasında rast gəlinir. Onun variantları da vardır. Əlifbada qalın saitli sözlərdə **«r»** samitini bildirir.*
4.	*(d)*	*Sakral rəmzlər içərisində Humay Ananın simvolu, damğa işarəsi kimi «bitik» (pitik), xalça ornamentləri içərisində «nəzərlik» adlanan* *və* *işarələri Orxoni və Yenisey yazı sistemlərində **«i»** saiti ilə işlədilən **«k»** samitini bildirir.*	**15.**	*(s)*	*Qədim türk yazı sistemində əlifba işarəsi kimi olmasa da, ortaq damğa işarələri təsnifatında* *təsvirləri «Qaba Ağacı» (Dirilik Ağacı, Həyat Ağacı) simvolizə edir.*

5.	*(e)*	*Talas, Orxon və Yenisey əlifbalarında incə saitli sözlərdə işlədilən* ***«g»*** *samitini bildirən* *işarələri, damğalar arasında isə əsasən, «ali hakimiyyət və vassallar», «vassallıq» bildirən* *(daraq, xan damğası, ikibaşlı qartal, baltavar, iltəbər/ eltəbər) rəmzləri ilə yaxınlığı vardır. «Şəcəreyi-Tərakimə» əsərində isə oğuzun dögər tayfasının damğası* *şəklində göstərilmişdir.*	**16.**	*(o)*	*Finikiya əlifbasında «ayn» (göz) anlamını verən* *işarə ortaq türk damğa işarələri təsnifatında Günəş, Tanrı, ali hakimiyyət rəmzlərindən biri olmaqla «Gün», «Nurullah», «altun top» «qızıl alma», «döngələk» və s. adlarla tanınır. Türk əlifbalarında analoqu yoxdur. Lakin Mərkəzi Asiyada* *damğasının bir adı «qoşa gözdür».*
6.	*(f,v)*	*Hər üçü türk əlifba sistemində* *qrafemi incə saitli sözlərdə* ***«l»*** *səsini bildirir. Ortaq damğa işarəsi kimi Azərbaycanda, Anadoluda, Şimali Qafqaz və Krımda, Volqaboyunda, Mərkəzi Asiyada, Bolqarıstanda geniş yayılmışdır. Damğa adlarından biri «sənək»dir. Karaimlərin milli rəmzidir.*	**17.**	*(p)*	*Bu işarə* *Talas əlifbasında* ***«u»*** *(incə saitli sözlərdə), Orxon mətnlərində isə* ***«b»*** *səsini bildirmək üçün istifadə edilir. Damğa işarəsi kimi «qarmaq» adlanır.*
7.	*(z)*	*Bu işarə* *Cənubi və Şimali Qafqazda Mərkəzi Asiyada yaşayan turk xalqları arasında geniş yayılmışdır. Onun üfiqi variantı* *isə Cami ət-Təvarix» və «Hünərnamə»nin damğa təsnifatlarında qaraevli tayfasının damğası kimi göstərilmişdir.*	**18.**	*(s)*	*Talas, Orxon və Yeniey əlifbalarında* ***«ö» və «ü»*** *səslərini bildirmək üçün işlədilən* *işarələrinə, eləcə də* ***«t»*** *samitinə (incə saitli sözlərdə)* *bənzəyir. Türk damğaları içərisində də təsadüf olunur.*

8.	**(h)**	*Qədim sami xalqlarında «yay-ox» ideoqrafik işarəsi olması ehtimal olunur. Ortaq türk damğa işarələri içərisində həmin rəmz analoji ad altında tanınan nişanına bənzəyir.*	**19.**	**(q)**	*Mərkəzi Asiyanın damğa və etnik ornamentlərində Azərbaycanda, eləcə də Beşbarmaq yazılarında, Dərbənd qala divarlarının hörgü daşlarında onun nümunələrinə və kimi variantlarına rast gəlinir.*
9.	**(t)**	*Orxon mətnlərində və qrafemlərinin bir variantı kimi işarəsinə də təsadüf edilir. Həmin hərflər Finikiya əlifbasında olduğu kimi **«t»** səsini bildirir.*	**20.**	**(r)**	*Turk əlifba işarələrində tam anoloqu yoxdur. Lakin yalnız Talas mətnlərində «ş» səsini bildirən və kimi oxşarları vardır. Onun bənzəri olan rəmzi damğa nişanı kimi Qafqaz və Mərkəzi Asiya regionlarında populyardır. «Balta» adı ilə tanınır.*
10.	**(i, j)**	*Talas əlifbasında **«g»** səsini bildirən qrafemin oxşarıdır. Damğa işarələri içərisində həmin rəmz (kuray/qarğı ney)adlanır.*	**21.**	**(s)**	*Orxon və Yenisey abidələrində işarəsi **«nç» - «n»** və **«ç»** səslərinin birləşməsini ifadə edir.*
11.	**(k)**	*E.Triyarskinin damğa təsnifatında işarəsi spesifik türk damğası kimi göstərilir. Mərkəzi Asiyada onun şəkilində variantı da vardır.*	**22.**	**(t)**	*Talas, Orxon və Yenisey yazı mətnlərində qrafemi incə saitli sözlərdə «d» səsini bildirmək üçün işlədilir. Damğa işarələri təsnifatında «aça», «açamay» (Humay Ana açası/xaçı), «elşən», «sarkay» və s. adlanır. Azərbaycanda, Anadoluda, Şimali Qafqazda, Mərkəzt Asiya və Şərqi Sibirdə xalça motivi kimi qoruyucu rəmzdir və «nəzərlik» xarakteri daşıyır. Oğuzun əfşar boyunun damğalarındandır.*

Hələ ötən əsrin ortalarında tarixi Azərbaycan ərazilərində tapılan və eramızdan əvvəl IX-VIII əsrlərə aid olunan Manna maddi-mədəniyyət nümunələrində, Gəmiqaya, Geğam, Abaran *(Qərbi Azərbaycan)* təsvirlərində olan analoji işarələr türk tayfalarının regiona «eramızın XI əsrindən etibarən Altaylardan miqrasiya etməsi» barədə etnosiyasi mifi, ən nəhayət, qədim türk əlifbasının yaşı, yayılma arealına dair formalaşmış yanlış qənaəti əsaslı

şəkildə rədd edir. Məsələn, Azərbaycan alimi, professor Əlisa Şükürlü hələ 1996-cı ildə Ankarada keçirilmiş III Beynəxalq Türkoloji Konqresində «Azerbaycanda Yeni Bulunan Köktürk Yazılı İki Eser» adlı məruzəsində beynəlxalq elmi ictimaiyyətin diqqətini ölkənin Lənkəran, Cəlilabad, Cəbrayıl və İsmayıllı bölgələrində aşkar olunan və Göytürk hərflərindən daha qədim olan mətnlərdəki analoji işarələrə yönəltmişdir.[51] Ə.Şükürlünün təqdim etdiyi işarələri qədim türk qrafemlərinin təsvir və transliterasiyası, eləcə də ortaq damğalar müstəvisindən müqayisə edək: - Göytürk əlifbasında ***«b»*** samiti, damğa adı isə ***«eb», «ev»;*** - Talas mətnlərində **«l»** samiti, damğa adı ***«qarmaq»;*** - yazılarda ***«o», «u»*** saitlərini ifadə edir, damğa adı ***«bucaq»***, ***«qapı»*** *(alaçıq və ya çadır qapısı)*; - kar ***«t»*** samitidir, damğa işarəsi kimi müxtəlif variantlarında, o cümlədən Qobustan, Gəmiqaya, Göyçə, Mərkəzi Asiya və Altaylardakı Saymalıtaş, Sülek, Tamqalıtaş qayaüstü təsvirlərində və Qafqaz Albaniyası damğa təsnifatında ilkin olaraq ***«qoç», «təkə»*** anlamını vermişir; - burunda tələffüz edilən ***«nq»*** səsi, damğa işarəsi kimi Mərkəzi Asiya, Şimali və Cənubi Qafqazda geniş yayılmışdır; - qədim uyğur əlifbasında ***«g»*** və ***«k»*** səslərini bildirən işarəsinin eynidir, onun analoquna Xınalıq kitabələrində rast gəlinir; - ***«n»*** və ***«ç»*** səs birləşməsini göstərir; - Göytürk əlifbasında kimi təsvir olunur və kar ***«r»*** samitini bildirir, damğa işarəsi kimi adı ***«iqrak», «kösöv», «qurd izi»***; - ***«nd»*** səs birləşməsini ifadə edir, yaranış bildirən damğa nişanı kimi adı ***«abak», «ama»***; - Göytürk əlifbasında ***«y»*** samiti, damğa adı: ***«Ay», «yay»***; - kar ***«s»*** samiti, damğa adı ***«süngü», «qıpçaq»*** və s. *(adətən,* ***«bir tayfa, nəsil»*** *anlamını verir),* - uyğur *(Türkistan)* əlifbasında qrafemi ***«a»*** səsini ifadə edir. Damğa işarəsi kimi isə ***«ilan»*** və ya ***«qılınc»*** adlanır.

1995-ci ildə Lənkəran Dövlət Universitetinin tələbəsi Şakir Əsədullabəylinin Cəlilabad rayonu ərazisində tapdığı və eramızdan əvvəlki dövrlərə aid olunan saxsı iy *(ip əyirmək üçün alət)* hissəsi üzərində də «naməlum» işarələr həkk edilmişdir. Azərbaycanın xalça ornamentləri sırasında da yer alan nişanı «atlı» şərti adını daşımaqla, Mahmud Kaşğarinin təsnifatına əsasən, həm də oğuz tayfalarının çavuldur boyunun damğasıdır. İşarənin variantı isə Göytürk əlifbasında qalın saitli sözlərdə kar **«t»** samitini ifadə edir və fərqləndirmə-mülkiyyət nişanı *(«atlı»*

51 Э.Шукюрлю. «Надписанные камни – написанная история», http://karabakh-doc.azerall.info/ru/turkologiya/trk020.htm

damğası) kimi təsvirlərinə Qafqazda, Volqaboyunda, Krımda və Mərkəzi Asiyada, Şərqi Sibirdə yaşayan türkdilli xalqların damğaları arasında geniş rast gəlinir. Digər iki işarənin - [illegible] və [illegible] müxtəlif kombinasiyaları da [illegible] və [illegible] türk damğaları arasında geniş yayılmışdır. Yeri gəlmişkən, [illegible] işarəsinə «Xınalıq kitabələri»ndə də təsadüf olunur.

Cəlilabad rayonunda aşkar edilmiş qədim iyin saxsı hissəsində işarələr

Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda yerləşən, xalq arasında «Fərhad evi» adlanan mağaranın arxa divarındakı üç sətirdən ibarət mətn də ortaq türk əlifbasının qədim dövrlərdə yaranmasına dair yuxarıda deyilən fikirləri təsdiq edir. Buradakı Göytürk işarələri [illegible] «Cəlilabad yazıları»nın eyni olmaqla, əski türk əlifbasının regional mənsubiyyəti və yayılma arealı haqqında yeni mühakimələr irəli sürməyə imkan verir.[52]

Ötən əsrin 80-ci illərinin əvvəllərində əslən Ermənistan Respublikasının Nüvədi kəndindən *(Mehri rayonu)* olan müəllim Həmzə Vəli «Qarqadaşı» adlanan dağın ərazisində üzərində naməlum yazılar həkk edilmiş qaya parçaları aşkar etmişdi. Ən böyüyünün uzunluğu 1 metr, eni isə 70 santimetr olan daşlar üzərindəki yazılar haqqında 80-ci illərin sonunda «Elm və həyat» jurnalında dərc olunmuş məqalədə həmin işarələrin qədim qarqar tayfasına məxsus olması barədə fikir irəli sürülmüşdü. Əski türk əlifbası və qədim yazılı mətnlər üzrə mütəxəssis, professor Əbülfəz Rəcəbli həmin işarələri öyrənərək, onların **«şübhəsiz, göytürk hərfləri ilə yazılmış kitabə»** olduğunu təsdiqləmişdir.[53]

52 M.Rəhbəri. «Əhəmənilər dövrünə aid türkcə yazı nümunəsi», qafqazalbaniyasi.az/?p=4698
53 «Xalq qəzeti», 04. 09. 1996.

Daş parçaları üzərində qədim türk əlifba işarələri ilə 𐰚𐰇𐰋𐰃𐰆𐰇𐰋𐰃𐰆𐰇𐰋𐰃𐰆

bununla da sonrakı tədqiqatları yanlış istiqamətə yönəltmişlər. Halbuki, hələ XX əsrin ilk illərində rusiyalı şərqşünas və etnoqraf Nikolay Aristov *(1847-1910)* Orxon runlarının müstəqil və bənzərsiz əlifba olduğu, 38 işarədən 29-nun daha qədim köklərə malik olan türk damğa işarələrinin əsasında yaranması qənaətinə gəlmişdir. Rusiya alimlərinin «turançı» damğası vurduqları tanınmış qazax türkoloqu, qədim türk dillərinin qramatikası üzrə mütəxəssis Altay Amanjolov *(1934-2012)* türk tayfalarının IV-VI əsrlərdə Şərqi Sibirdən Qərbə doğru miqrasiyası haqqında stereotip nəzəriyyəni qismən müdafiə etsə də, Orxon-Yenisey əlifbasının tarixini eramızdan əvvəlki dövrlərə bağlamış, onun Finikiya, arami xətt qrafikası ilə paralel yaranması qənaətinə gəlmiş, prototürk işarələri ilə qədim yunan, sami-finikiya əlifbası arasında oxşarlığı isə üstüörtülü olaraq «genetik qohumluq əlaməti» adlandırmışdır. Yaxın Şərqdə, Ön Asiyada prototürk izlərini gizlətməyə çalışan, «etnik əlifbanın daşıyıcısının etnosdan əvvəl yarana bilmədiyini» və «türklərin digər xalqlardan əlifba mənimsədiklərini» iddia edən opponentlərə A.Amanjolov belə cavab verir: **«Bütün bunlar** *(əlifba bənzərliyi* – **A.Q.) eramızdan min il əvvəl Cənubi Sibirdə yaşamış köçəri tayfaların Ön Asiya əhalisi ilə mədəni əlaqələrinin daha dərin köklərə malik olmasından xəbər verir».**[56] «Altay nəzəriyyəsi»ni qətiyyətlə inkar edən görkəmli tatar alimi, akademik Mirfatıx Zəkiyev isə öz mövqeyini belə əsaslandırır: **«Bəzi türkoloqlar hələ də avrosentrizmin yaratdığı ənənəvi miflərin təsiri altındadırlar. Belə miflərin birinə görə, türklərin tarixi vətəni guya Altay dağlarıdır və guya onlar məhz oradan ətrafa yayılmağa başlamışlar. Əslinə qalsa, ilk obyektiv tədqiqatların nəticələri hələ eramızdan əvvəl Avrasiyanın müxtəlif regionlarında türk faktorunun mövcudluğu, onların qədim və zəngin mədəniyyət yaratmaları barədə material verir».**[57]

Xatırladaq ki, qədim Assuriya yazılı mənbələrində, Herodot, Strabon, Plutarx, Plini Sekund, Pomponi Melanın və başqa salnaməçilərin əsərlərində, Tövratda, yəhudi peyğəmbəri Yeremiyanın kitabında, ərəb tarixçiləri əl-Əzrakın, əl-Kufinin, ət-Təbərinin, əl-Həməvinin, Nasəvinin, alban tarixçisi Musa Qağankatlının, fransız marifçisi Şarl Lui Monteskyönün, şərqşünaslar Ejen Formanten və Elize Reklünün, isveç bibliyaşünası Erix Nüstremin və başqalarının əsərlərində türk tayfalarının hələ eramızdan əvvəl Ön Asiyada, o cümlədən tarixi Azərbaycan ərazilərində yaşadıqları barədə məlumatlar

56 А.Аманжолов. «Генезис тюркского рунического алфавита». Алматы, 2003.

57 М.Закиев. «Происхождение тюрков и татар». Москва, Изд. «Инсан», 2002

verilir. Fransız alimi E.Reklü isə Ön Asiyada türklərin məskunlaşma tarixinə toxunaraq bunları qeyd edirdi: **«Tədqiqatçılar qədim Midiyada naməlum dildə yazılmış iki yazı tapmışlar. Əminliklə demək olar ki, ölkə əhalisinin qədim dilində olan bu yazılar Turan mənşəlidir»**.[58] Bu baxımdan, görkəmli qazax şairi və alimi Oljas Suleymenovun bir fikri maraq doğurmaya bilməz: **«Şumer və etrusk materialları sübut edir ki, slavyan, german və türk dilləri hələ uzaq keçmişdə sükunət vəziyyətdən çıxaraq, müasir dillər üçün xarakterik olan dialektik xüsusiyyətlərə malik olmuşlar».**[59] Məşhur bir sitatı bir daha diqqətə çatdıraq: IX əsr ərəb müəllifi Əbdülməlik ibn Hişamın yazdığını görə, xəlifə I Müaviyyə *(661-680)* müşaviri Übeyd ibn Şariyədən Azərbaycan haqqında nə bildiyini soruşanda belə cavab alır: **«Azərbaycan türklərin yaşadığı ölkədir. Onlar qədimdən burada məskunlaşmış, bir-biri ilə qarışmış, çoxalmış və güclənmişlər»**. Ət-Təbəri Azərbaycan ərazisinin Həmədan və Zəncan şəhərlərindən başlayaraq, Dərbənd də daxil olmaqla şimala doğru uzandığını bildirirdi.

XVIII əsrdə yaşamış isveç bibliyaşünası və xristian missioneri Erik Nöstrem 1868-ci ildə nəşr etdirdiyi «Bibliya ensiklopediyası» əsərində qədim yazı işarələrinə söykənərək Yaxın və Orta Şərq tarixinə dair mövcud stereotipləri dağıtmış, nəinki şumerlərin, hətta akkadların da prototürk mənşəli olduqlarını bildirmişdir. Alim yazırdı: **«İncilə görə, Babilistan dövlətinin qurucusu Nimrod** *(islam dinində: Nimrud)* **olmuşdur. Lakin qazıntılar zamanı üzə çıxan kərpiclər** *(gil lövhəciklər)* **üzərindəki yazılar isə aydın şəkildə sübut edir ki, Xaldeyaya** *(Dəclə və Fərat çayları arasındakı ərazinin qədim adlarından biri)* **sami mədəniyyətinin gəlişindən xeyli əvvəl burada yaşca daha qədim olan, nə yəhudilərin, nə də ərəblərin mədəniyyətilərinə qətiyyən bənzəməyən, özündə türk-tatar mədəniyyətinin əlamətlərini qabarıq şəkildə göstərən sivilizasiya vardı».**[60] Görkəmli şumeroloq Samuel Kramer *(1887-1990)* şumerlərin əcdadlarının vaxtilə Xəzər dənizi sahillərində yaşadıqları və sonralar cənub istiqamətinə köç etdikləri, burada bəşər tarixinin ilk sivilizasiyasını yaratdıqları barədə fikir irəli sürmüşdür. Onun qənaətinə əsasən, sonrakı minilliklərdə köçəri sami tayfalarının Şumerə kütləvi axını üzündən

58 Э.Реклю. «Человек и земля», к-изд. П.П.Сойкина, СПб., 1906.

59 О.Сулейменов. «Язык письма. Взгляд в доисторию – о происхождении письменности и языка малого человечества». Алматы-Рим, 1998.

60 Э.Нюстрем. «Библейский словарь», изд. Библия для всех, 2011.

gəlmələrin sayı tədricən yerli əhalini üstələmiş, onları öz içərilərində əritmiş və son nəticədə ilkin şumerlərin unikal mədəni irsinə sahib olmuşlar. S.Kramer yazır: **«Çox güman ki, şumerlər bu ərazilərə eramızdan əvvəl, təqribən IV minilliyin birinci yarısında gəlmişlər. Onların ilkin vətəninin harada olması barədə hələ də birmənalı mövqe yoxdur. Lakin Uruk** *(Şumer ərazisindəki şəhər-dövlət)* **hökmdarları Enmerkar və Luqalband haqqında epik rəvayətlər silsiləsinə əsasən, Xəzər dənizi yaxınlığındakı Aratta dövləti ilə Şumer şahları arasında sıx və etibarlı münasibətlərin olması, aqqlütinativ Şumer dilinin Ural-Altay dillərini xatırlatması tarixi vətənin məhz Aratta istiqamətində yerləşməsinin göstəricisidir».**[61] Qeyd edək ki, Aratta tarixi Azərbaycan ərazisində *(Güney Azərbaycanda)* ilk dövlət olmuş, eramızdan əvvəl III minilliyin birinci yarısınadək mövcudluğunu saxlamışdır. Onun ərazisi Urmiyə gölünün cənub və cənub-şərq sahillərini, indiki Zəncan və Qəzvin şəhərləri arasındakı torpaqları əhatə edirdi. Samuel Kramer sonra bunları əlavə edir: **«Araşdırmaların nəticələrinə görə, eramızdan əvvəl III minilliyin əvvəllərində Şumer mədəniyyəti və sivilizasiyası müəyyən dərəcədə şərqə - Hindistana doğru, qərbə – Aralıq dənizi sahillərinə və Şimala - Xəzər dənizinə kimi olan ərazilərə nüfuz etmişdir»**.[62] Aratta və Şumer arasında epizodik hərbi münaqişələrin olmasına baxmayaraq, hər iki dövlət eyni ilahilərə tapınır, hökmdar və məmurları eyni tutulları daşıyır, eyni yazı sistemindən istifadə edir, çətin məqamlarda bir-birinə yardım göstərirdilər. Məsələn, köçəri sami tayfaları Uruk şəhərini mühasirəyə alarkən hökmdar Enmerkar hərbi kömək üçün məhz Arattaya müraciət etmişdir. Dövlət idarəçiliyi baxımından Aratta hökmdarı şumerli həmkarından fərqli olaraq, ölkədə dünyəvi və dini hakimiyyəti öz əlində cəmləşdirirdi. Yeri gəlmişkən, belə idarəetmə xüsusiyyəti qədim türklərin «xaqan» titulunun mahiyyəti və «ikibaşlı qartal» rəmzinin sadələşdirilmiş damğa variantı olan, «eltəbər», «baltavar», «baltalı», «daraq damğa», «xan damğası», «quşlu damğa» adlanan qədim işarənin Ψ semantikası ilə üst-üstə düşür. Bundan başqa, Çingiz xan və tarixi Azərbaycan ərazilərində qədim türk dövlət quruluşunu, xaqanlıq prinsipini bərpa edən Şah İsmayıl Xətayi də hakimiyyətə gəldikdən sonra bu ənənədən və həmin işarədən *(Səfəvi dövlətində – «quşlu tuğ»*

61 С.Крамер, «Шумеры. Первая цивилизация на Земле». М, 2002
62 С.Крамер. Göstərilən əsəri.

adlanırdı) yararlanmışlar. Bu damğa paralel olaraq «Togrul», «ikibaşlı qartal» anlamını verir, dövlət idarəçiliyində dini və dünyəvi hakimiyyətin birliyini ifadə edirdi**.**

Şumer rəvayətlərinə, xüsusilə, «Enmerkar və Aratta hökmdarı» dastanına əsasən, bu iki dövlət arasında siyasi rəqabətin kökündə məhz onlardan hansının ortaq dini mərkəz olması iddiaları dayanırdı. Belə ki, şumerlərin də tapındığı ali ilahənin – Yer üzündə bütün insanların protoanası sayılan İnannanın/Nananın *(qədim türklərin analoji ilahəsi olan Humay Ananın prototipi)* baş məbədi Arattada yerləşirdi. Uruk dövləti isə həmin ziyarətgahı öz ərazisinə köçürmək, nəzir və ianələrə yiyələnmək və bununla da Arattanı öz vassalı kimi görmək arzusunda idi. Dastanda Enmerkar ilahə İnannaya üz tutaraq deyir: **«Qoy Arattanın sakinləri mədənlərdən mənim üçün qızıl və gümüş çıxarsınlar, Urukda, açıq təpənin üzərində sənə möhtəşəm məbəd tiksinlər və onu bəzəsinlər».** Xüsusilə vurğulamaq istərdik ki, «Aratta» bu ölkənin həqiqi adı deyildir. Tanınmış gürcü alimi Georgi Melikişvili yazır ki, Urartu hökmdarı I Argiştinin daş kitabələrində, xüsusilə Manna dövlətinə hərbi yürüşlərindən bəhs edən hissələrdə «Alateye» *(Dağlıq ölkə)* adına rast gəlinir.[63] Bu gün nə qədər fantastik təsir bağışlasa da, mütəxəssislər «Alateye» sözü ilə Mərkəzi Asiyada Alatau dağının adı və semantikası arasında yaxınlığı xüsusi qeyd edirlər.

Tarixi Azərbaycan ərazilərində həm rəmz, həm də silah kimi istifadə olunan «üçdişli yabanın» digər adı **«seku»** *(sekü, sekuy)* olmuşdur. XVI əsrdə yaşamış böyük Azərbaycan şairi Yusif Məddahın «Vərqa və Gülşah» dastanında digər silahlar və hərbi rəmzlərlə yanaşı sekunun da adı çəkilir, onun təyinatları aydın göstərilir. Məsələn, şair döyüşün başlanğıcından bəhs edərkən yazır: **«Çalınır küsi** [64] **nəfirü kəranay,**[65] **Tuğu-seku**[66]**, sancaği-ələm başlay».** Burada üzərində «quşlu damğa» *(baltavar, seku)* olan **Ψ Ψ** tuğ başlığı təsvir olunur**.** Dastanın digər yerində isə üçdişli ucluğu *(seku)* olan hərbədən *(məsafədən atılan kiçik nizə, mizraq)* danışılır: **«Ol seku hərbə idi iyi, Urdu bağrından Gülşah od iyi».**[67]

63 Г.Меликишвили, «Урартские клинообразные надписи». М., 1960

64 Küs/kos - ağac toxmaqla çalınan, at və ya dəvə üzərində daşınan iri ölçülü hərbi təbil.

65 Nəfir və karanay/qaraney - Orta əsrlərdə Azərbaycanın hərbi orkestrlərində – nağaraxana və ya təbilxanalarda istifadə olunan nəfəsli musiqi alətləri.

66 Tuğu-seku – başlığı «üçdişli yaba» şəklində olan tuğ.

67 Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, III cild, Bakı, 1984.

Ardıcıllıqla: *Aratta dövlətinin himayəçisi ilahə İnanna öz rəmzi* Ψ *ilə. Ukrayna ərazisində tapılan və eramızdan əvvəl IV əsrə aid edilən saka-skif tuğ (bayraq) başlığında əski türklərin Tenqri-Qartal mifologemi əks olunmuşdur. Orta əsr uyğur şahzadəsinin başındakı tacda İnanna rəmzinin analoqunu görürük.*[68] *Çingiz xanın və Şah İsmayıl Xətayinin «quşlu» tuğ başlıqları.*[69] *Bu rəmz Qafqaz Albaniyasının maddi-mədəniyyət nümunələrinin üzərində, Qızıl Orda dövlətinə aid bayraq başlıqlarında da vardır. Səfəvilər dövləti dönəmindən etibarən «quşlu damğa» rəmzi «ələm», «pəncə» adları altında şiə məzhəbinin dini atributlarından birinə çevrilmişdir (Cənubi Azərbaycan, XX əsrin əvvəlləri, Rusiya Dövlət Din Tarixi Muzeyi).*

Beləliklə, Arattanın baş ilahəsi İnannanın rəmzinin Ψ yayılma marşrutunu izləsək, Altaylardan Şərqi Avropayadək uzanan geniş bir ərazidəki qədim və orta əsr türk dövlətlərinin və tayfalarının - kimer, saka/skif, sarmat, Hun, Xəzər,

68 Садри Максуди Арсал. «Уйгурская культура», http://uighur.narod.ru/book/sadri_maksudi_arsal4.html
69 Б.Ögel. «Türk kültür tarihinə giriş», VI cild. Ankara, 1991.

Avar, Qızıl Orda dövlətlərinin, Çingiz xanının imperiyasının, Eldəgiz, Səfəvi və Osmanlı xanədanlarının, Krım xanlığının, oğuz və qıpçaq boylarının və s. damğa işarələrində onun «daraq damğa», «xan damğası», «quşlu damğa», «baltavar» *(iltəbər, eltəbər),* «ikibaşlı qartal» və s. adlar altında müxtəlif forma və variantlarına  rast gələ bilərik. Bu qənaətdən göründüyü kimi, S.Kramerin prototürklərin miqrasiyasının Altaylardan qərbə və cənuba doğru deyil, əksinə, daha qədim dövrlərdən Ön Asiyadan şimal və şimal-qərb istiqamətində baş verməsi barədə elmi mülahizələri damğa işarələri vasitəsilə də öz təsdiqini tapmaqdadır. Belə olan təqdirdə damğaların aparıcı funksiyalarından biri, onların etnosiyasi proseslərin və türk xalqlarının məskunlaşma ərazilərinin göstəricisi kimi qəbul edilməsi mühüm əhəmiyyətə malikdir. Doğrudur, türk xalqlarının tarixən nomadlardan - köçəri həyat tərzi sürən və ortaq dəyərlərə, oturaq mədəniyyətə malik olmayan müxtəlif tayfalar əsasında formalaşmasını iddia edən və bununla da onların maddi-mənəvi irsinin mənimsənilməsinə tarixi-ideoloji zəmin yaradan bəzi Qərb və Rusiya alimləri damğaların bu funksiyasının qabardılmasının ciddi əleyhdarları kimi çıxış edirlər. Məsələn, türk xalqlarını vahid protovətənə, ortaq dil və mədəniyyətə malik superetnos deyil, qohum dillərdə danışan ayrı-ayrı toplumlar olduğunu iddia edən rusiyalı türkoloq Sergey Klyaştornı bu istiqamətdə aparılan araşdırmaları, eləcə də İsmayıl bəy Qaspirinskinin, Yusif Akçuranın və Ziya Göyalpın etnik birlik çağırışlarını «pantürkizm ideologiyasının təzahürləri» kimi dəyərləndirir. Onun fikrincə, hazırda türkdilli xalqların öz tarixlərini ayrı-ayrılıqda - məskunlaşdıqları ərazi çərçivəsində öyrənməsi «pantürkizm ideyasına qarşı təsirli cavab reaksiyasıdır». S.Klyaştornı yazır: **«1920-1930-cu illərdə avtoxtonizm ideyası hakimiyyət tərəfindən güclü siyasi dəstək almış və etnik mənsubiyyət əsasında müttəfiq və muxtar respublikalar yaradılmışdır. Məhz bu konsepsiya hər bir xalqın tarixinin əlahiddə xarakter daşımasının, ümumregional tarixi proseslərin «milli axınlara» bölünərək öyrənilməsinin ideoloji əsası olmuşdur»**.[70]

Ön Asiyada prototürk tayfalarının tarixən mövcudluğunu, xüsusilə də prototürklər və şumerlər arasında etnomədəni bağlılığı təsdiqləyən materialların obyektiv tədqiqini əngəlləyən başlıca amil etnosiyasi xarakterlidir. Məqsəd isə bu regionda ənənəvi avrosentrizm nəzəriyyəsinin tezislərini alt-üst edən

70 С.Кляшторный. «Симбиоз», журнал «Родина», № 2, 2004.

qabarıq türk mədəniyyəti izlərinin «irandilli xalqlar», «arilər» və «hind-Avropa sivilizasiyası» qatı altında gizlətməkdir. Çar Rusiyasında qərbmeyilli Romanovlar sülaləsinin taxta çıxması ilə başlayan, SSRİ dönəmində isə daha da inkişaf etdirilən həmin «etnosiyasi məqsədəuyğunluq» indi də öz ətaləti üzrə mövqelərini saxlamaqdadır. Hətta Altaylardakı etnik damğa işarələrində «hind-Avropa xalqlarının sivilizasiyasına» aid xüsusiyyətlər axtaran rusiyalı arxeoloq və etnoqraf Sergey Yasenko da etiraf edir ki, **«damğa işarələrinin obyektiv şəkildə öyrənilməsinə mane olan ən böyük təhlükə irandilli Osetiya və İran alimlərinin «vətənpərvərlik» fəaliyyətidir»**.[71] Şimali və Cənubi Qafqaz regionunda qədim türk tayfalarına və dövlətlərinə aid maddi-mədəni irs nümunələrinin, saka-skif mədəniyyətinin, eləcə də damğa işarələrinin «irandilli xalqlara» məxsusluğu iddiasında müstəsna canfəşanlıq etmiş mənşəcə osetin olan rusiyalı akademik Vasili Abayevin *(əsl adı - Vaso Abaytı)* və onun ardıcıllarının, eləcə də Azərbaycanda olan bəzi həmfikirlərinin səyləri sayəsində Şimali və Cənubi Qafqazda, o cümlədən tarixi Azərbaycan ərazilərində aşkar edilmiş qədim damğa işarələri, bir qayda olaraq, ya XIX əsrin siyasi mifologemi olan «monqol-tatar yürüşlərinin mədəni təsir qalıqları» elan olunur, ya da XVIII-XIX əsrlərdə «burada məskunlaşmış Dağıstan heyvandarlarının təsərrüfat fəaliyyətinin izləri» kimi təqdim edilirdi. Bu da son nəticədə regionun qədim etnotarixi mənzərəsini ciddi təhrif edir, qədim türk tayfalarının etnik mədəniyyətinin digər xalqlar tərəfindən mənimsənilməsinə əlverişli şərait yaradırdı. Bununla belə, sovet tarixşünaslığında siyasi prinsiplərin hökm etdiyi bir vaxtda Azərbaycan arxeoloqları Cəfər Cəfərov və Əbülfəz Hüseyni Qobustan və Gəmiqaya qayaüstü təsvirlərindəki işarələri tədqiq edərək, onların qədim türk damğalarının *(Cənubi Qafqaz, Mərkəzi Asiya, Altay)* prototipi olduqlarını cəsarətlə bildirmişlər. Professor C.Cəfərov hələ o dövrlərdə yazdığı elmi əsərlərində Azərbaycan xalqının etnogenezinin, tarixinin, maddi-mənəvi irsinin, bütövlükdə regionun qədim tarixinin obyektiv öyrənilməsində həmin rəmz və işarələrin *(o cümlədən damğaların)* müstəsna əhəmiyyətini xüsusi vurğulamışdır.[72]

Burada bir amili də diqqətə çatdırmaq istərdik. Belə ki, Azərbaycanın qədim silahları, milli geyimləri, bəzək əşyaları, xalçalar, tikililər, dövlətçilik atributları

71 С.Яценко. «Знаки-тамги ираноязычных народов древности и раннего средневековья». Москва: «Восточная литература», 2001.
72 C. Cəfərov. «Bəzi damğa və işarələrin etimoloji izahı»// Elmi əsərlərin tematik məcmuəsi, Bakı, ADU, 1984.

(bayraqlar, metal sikkələr və s.) üzərindəki damğa rəmzləri ilə əski keramika və misgərlik məmulatı, xüsusilə çox işlənən məişət qablarındakı işarələrin bir çoxunun məqsəd və təyinatları arasında funksional fərqlər mövcuddur. Bu fərqlərin nəzərə alınmaması, məsələn, dulus qabları üzərinə bəzək elementi kimi deyil, əşyanın görünməyən arxa hissələrinə basma və ya cızma üsulu ilə vurulmuş bəzi sadə nişanların *(o cümlədən* *və s.)* «damğa» və «rəmz» kimi təqdim edilməsi *(hətta onlardan biri Göytürk əlifba işarəsinə* *nisbətən bənzəsə də)* obyektiv tədqiqat işində müəyyən yanlışlıqlara səbəb ola bilər. Bir çox hallarda belə işarələrin əsl təyinatı barədə yekdil rəy olmasa da, mütəxəssislər tərəfindən irəli sürülən iki fərziyyə hələlik qüvvədədir. Tədqiqatçıların bir qismi onları peşəkar ustaların «müəlliflik şəhadətnaməsi» və ya müasir terminlərlə desək, ayrı-ayrı dulus emalatxanalarının «brend nişanı» kimi dəyərləndirir, digərləri isə işarələrin məhz sifarişçilərə aid olduğunu iddia edirlər. Lakin arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş eyni işarəli qablar içərisində yüksək səviyyədə hazırlanmış mürəkkəb ornamentli nümunələrlə yanaşı, çox aşağı keyfiyyətli məmulatın da olması[73] birinci fərziyyənin doğruluğunu şübhə altına alır. Tarix elmləri doktoru Qafar Cəbiyev kütləvi istifadə üçün nəzərdə tutulan saxsı məmulatın alt hissələrinə vurulan həmin nişanların əksər hissəsini haqlı olaraq damğa təsvirlərindən ayırır, onları mental xarakterli «texniki fərqləndirmə işarələri» adlandırır. Müəllif yazır: **«Etnoqrafik müşahidələr göstərir ki, məişətdə istifadə üçün nəzərdə tutulan saxsı qablar əsasən iki halda dəyişik düşə bilər. Onlardan birincisi məmulatın istehsal, yəni kürədə bişirilmə prosesi ilə əlaqəlidir. Aydındır ki, heç də bütün dulus emalatxanaları sobalara malik deyildilər. Arxeoloji tədqiqatların nəticələri göstərir ki, bəzən bir neçə emalatxana birləşib ortaq kürədən istifadə edirdi. Böyük ehtimalla deyə bilərik ki, bişirilmə prosesinin sonunda ayrı-ayrı emalatxanaların bir-birinə bənzər qabları dəyişik düşməsin deyə, onlara qabaqcadan fərqləndirici nişanlar vurulurdu».** Digər tərəfdən, həmin işarələr Azərbaycan xalqına xas qonşuluq, həmrəylik münasibətləri ilə də bağlı ola bilər. Q.Cəbiyevin başqa bir qənaətinə görə, **«Bir-birinin xeyir və şərində iştirak etimək, qəminə və sevincinə ortaq olmaq digər xalqlar kimi, azərbaycanlılar arasında da geniş yayılmış haldır. Aydındır ki, iri məclis və mərasimləri kənar yardım** *(qohum-qonşuların köməyi)* **olmadan təkcə bir ailəyə məxsus qab-qacaqla yola vermək mümkün deyildir. Odur ki,**

73 А.Якобсон. «Художественная керамика Байлакана (Оренкала)”, МИА СССР, № 67, М-Л., 1959.

həmin qab-qacaq kollektiv məclislərdə istifadə olunarkən itməsin, dəyişik düşməsin deyə, onların üzərinə bəsit fərqləndirmə işarələrinin vurulduğunu da güman etmək olar».[74] Yeri gəlmişkən, buna bənzər vərdiş – çox işlənən, toy və yas məclislərində istifadə edilən saxsı qab-qacağın alt hissəsinin rəngli boya ilə işarələnməsi ənənəsi Azərbaycanın bir çox kənd bölgələrində bu gün də qalmaqdadır. Bununla belə, məsələn, Qafqaz Albaniyasına aid edilən gündəlik məişət qabları üzərində də klassik türk damğa işarələrinə və s. rast gəlinir.[75] Xüsusilə vurğulamaq lazımdır ki, Qafqaz Albaniyası maddi-mədəniyyət nümunələrində daha çox təsadüf olunan damğa işarəsi Hun Konfederasiyasının aparıcı dulo və ya dulat tayfa birləşməsinin, hazırda Mərkəzi Asiyada məskunlaşan və təsdiqlənən ehtimallara görə, Qafqaz Albaniyasından köç etmiş suvarların törəməsi olan alban-suvan tayfasının fərqləndirmə nişanlarından biri sayılır.

Yuxarıda dəfələrlə xatırlandığı kimi, etnik damğa işarələri xalqın maddi-mədəni irsinin nümunələrindən biridir. Və o da məlumdur ki, türk xalqlarının etnogenezi, onların etnomədəni xüsusiyətləri, ortaq dövlətçilik ənənələri tarixşünaslığın az öyrənilən, bəlkə də, məhz siyasi amillər üzündən məhdudiyyətlərə məruz qalan sahələrindəndir. Odur ki, Ön Asiya, o cümlədən Qafqaz və Cənubi Qafqaz, Anadolu ərazilərinin tarixinin tədqiqində, qədim türklərin burada məskunlaşmasına dair qaranlıq məqamlara aydınlıq gətirilməsində, ayrı-ayrı xalqların, xüsusilə etnik mənşəyi hələ də mübahisələr doğuran xalq və tayfa birləşmələrinin *(kuti, kas, kimer, saka, massaget, sarmat, alban/alpan və s.)* etnogenezinin dəqiqləşdirilməsində digər maddi-mədəniyyət nümunələri ilə yanaşı damğa işarələrinin də əhəmiyyəti böyükdür. Tədqiqatların bu istiqamətdə aparılmasının vacibliyini qabardan amillərdən biri, yuxarıda dəfələrlə vurğulandığı kimi, Güney, Quzey və Qərbi Azərbaycan torpaqlarında, Şərqi Anadoluda, Yaxın Şərqdə, Balkanlarda aşkar edilən, eramızdan 4000-2000 il əvvəllərə aid edilən prototürk damğa işarələrinin və rəmzlərinin Şərqi Sibir və Mərkəzi Asiyadakı analoji nişanlardan xronoloji cəhətdən daha qədim olmasıdır. Bu isə türklərin protovətəni və miqrasiya istiqamətləri haqqında siyasi xarakterli stereotipin - «Altay nəzəriyyəsi»nin elmiliyini şübhə altına alır. Belə ki, qədim Şumer, Bibl *(Qubla, Finikiya)*, Kür-Araz, Vinça, Çatal Höyük, Aratta, Manna, Midiya, Pazırıq, Taşlıq, Afanasyev, Andronov, Sulek və s. arxeoloji

74 Q.Cəbiyev. "Azərbaycan keramikası. XIV-XVII əsrlər", Bakı, 2003.
75 Yenə orada.

mədəniyyətlərinə aid əşya və abidələr üzərindəki rəmz və damğaların, qayaüstü təsvirlərin identifikasiyası, onların müqayisəli təhlili, qrafika texnikası bu irsi yaradanlar arasında etnomədəni bağlılığın obyektiv şəkildə araşdırılmasının vacibliyini önə çəkməklə, Ön Asiyanın prototürklərin tarixi vətəni olmasını əminliklə söyləməyə əsas verir. Məsələn, aşağıdakı təsvirlərdə müxtəlif regionlarda aşkar edilən qayaüstü tur, keçi və maral rəsmləri arasında məkan və zaman fərqi olsa da, üslub bənzərliyi özünü qabarıq göstərir.



Ardıcıllıqla: *Qobustan, Göyçə (Azərbaycan); Saymalıtaş (Qırğızıstan);Yazgüləm (Türkmənistan) qayaüstü abidələrində eyini bədii üslubla çəkilmiş qoç, buğa və maral təsvirləri*



Ardıcıllıqla: *Qobustan, Gəmiqaya (Azərbaycan), Göyçə (Qərbi Azərbaycan), Qərbi Sibir, Saymalıtaş, Talas (Qırğızıstan), Tamqalıtas (Qazaxıstan) qayaüstü rəsmlərində qədim inanclardan doğan ortaq kosmoqonik motiv və rəmzlər təsvir olunmuşdur*

Tarixi-etnoqrafik sürprizlərlə zəngin olan Naxçıvanda eramızdan əvvəl IV-I minilliklərə aid Gəmiqaya qayaüstü təsvirləri arasında yer alan

işarəsi Əli Yazıçıoğlunun *(XV əsr)* «Təvarixi al-i Səlcuq» və Seyid Loğmanın «Hünərnamə» *(XVII əsr)* damğa təsnifatlarına görə, oğuzların bəydili tayfasının, rəmzi isə Mahmud Kaşğarinin *(XI əsr)* «Divani lüğət-it Türk» əsərinə əsasən, əfşar tayfasının tanınma-fərqləndirmə nişanıdır. Həmin qayaüstü təsvirlər arasında oğuzun alayundluq və salur tayfalarının boy damğalarına bənzər analoji işarələr də vardır.[76] Bu gün həmin rəmzlərə iddialı olan ermənilərin isə, ümumiyyətlə, damğa işarələri olmamışdır.

VIII-X əsrlərə aid edilən, «Vassal bəyliklərin at damğaları» adlanan Çin əlyazmasında bir sıra türk tayfalarının adları ilə yanaşı, nəsil və mülkiyyət nişanlarının təsvirləri də verilmişdir. Mətnə əsasən, əski türklərin Se-qu *(kirqut)* tayfası öz atlarına və ya damğalarını vururdular. Bu nişan Krımdakı Kırkor bəyliyinin rəsmi rəmzinin bənzəridir və ortaq türk simvolizmi ənənələrinə görə, işarənin üzünan aşağı çevrilməsi bu bəyliyin vassal statusuna malik olmasının göstəricisidir. Digər tayfalardan Tun-lo *(tonqra)* və Yan-to *(tardu)* - ; Pu-qu *(buqu)* - və ; A-de *(ediz)* - ; Tsi *(kubir)* - ; Huy-qe *(uyğur)* - ; Szyu- lo-le *(kurabor)* - və ; Yu-mey-hun *(yomut hun)* - ; Çi - ; A-şi-de *(aşide)* - ; Sı-tze *(suqir)*, Tu-syue *(türküt)* - ; Fu-li *(bokli)* - ; Si-tze *(aygir)* – ; Nu-la *(dulat)* - ; Bayan Aşide və Şe-li *(şarı)* - və ; A-şi-na – *(uşin)* - ; Qe-lo-çji *(alaçin)* - ; Kan-xe-li *(kankarlu/kəngərli və ya kanqlu)* - ; Şa-to *(sart)* - ; Çu-Bi - ; Xun *(kün)* - ; Si *(kayı)* - və s. damğalardan istifadə etmişlər.[77] Xüsusi araşdırma tələb edən məqam eramızın VIII-X əsrlərinə aid olan bu damğaların xronoloji baxımdan daha qədim tiplərinin Qobustan - ; Gəmiqaya - və Qərbi Azərbaycan (*Geğam və Abaran)* - qayaüstü təsvirləri arasında müəyyən olunmasıdır. Bundan başqa, həmin damğaların oxşarlarına oğuzun bayandur - ; bayat - ; alayuntlu - ; dögər - ; yıva - ; alkaevli - boylarının işarələrində də rast gəlirik.

Adı çəkilən Çin əlyazmasında maraq doğuran və tarixi Azərbaycan əraziləri ilə bağlı olan damğalardan biri Aşide tayfasının maral buynuzlarını xatırladan işarəsidir. Kitabın rus dilində tərtibçisi, qazaxıstanlı türkoloq Yuri Zuyev «aşide» etnonimini «asitək» kimi oxuyaraq, həmin tayfanın Şərqi Türk Xaqanlığının aparıcı boylarından biri olduğunu bildirir. Alman

76 C.Cəfərov. «Bəzi damğa və işarələrin etimoloji izahı». Türk dillərinə dair etimoloji və tarixi-morfoloji tədqiqatlar. Bakı, ADU-nun nəşriyyatı, 1987.

77 Ю.Зуев. «Тамги лошадей из вассальных княжеств». Перевод из Китайского, том 3. Алма-Ата, 1960.

tədqiqatçısı Fridrix Hirt isə *(1845-1927)* nədənsə bu tayfa adını «osset» *(osetin)* kimi yozmuş, onların irandilli olması barədə fikir irəli sürmüşdür.[78] Y.Zunev bu mülahizəni qətiyyətlə rədd edərək yazır**: «Bu fərziyyə çətin ki, qəbul olunsun. Çünki irandilli «ossetlərin» xan nəsli qismində Türk konfederasiyasında təmsil olunması qətiyyən inandırıcı deyildir. Hətta 697-ci ilə aid «Tzıçji tunsyan» adlı Çin salnaməsində də aşidelərin/ asiteklərın məhz türk mənşəli olması göstərilmişdir»**.[79]

Yuxarıda adı çəkilən «Qarqadaşı» *(Nüvədi)* üzərində aşide/asitəklərə məxsus «maral buynuzu» damğası da 𐰀 yer almışdır və onun semantikasının tarixi Azərbaycan torpaqlarında məskunlaşmış qədim türk tayfaları və xüsusilə saka-skiflərin etnik mənşəyi ilə bağlılığı diqqət çəkməyə bilməz. Qeyd edək ki, əski türk xalqlarının folklorunda, tətbiqi sənətində və dövlətçilik atributlarında geniş yayılmış Maral Ana, Dişi maral, daha doğrusu, *(Buqa-ene)* mifik obrazı həmişə dara düşən insanların xeyirxah yardımçısı, xilaskarı olmuşdur. Eyni zamanda, qədim dövrlərdə, o cümlədən saka-skif mədəniyyəti dönəmində maral təsvirləri solyar rəmz qismində Günəşi təcəssüm edirdi. Bunu Qobustan, Gəmiqaya və Qərbi Azərbaycan qayaüstü təsvirləri bir daha təsdiqləyir.

Ardıcıllıqla: *Qobustanda (Çinqirdağ, Yazılıtəpə) Tunc dövrünə aid maral (Buğa ana) təsviri;* [80] *Bürünc maral fiquru (Naxçıvan, e.ə. I minillik. Bakı Dövlət Universitetinin muzeyi);*[81] *Tunc dövrünə aid tuğ (bayraq) başlığı «Günəş (damğa işarəsi* O*) üzərində maral» mifinə söykənir (Şəmkir rayonu, Qaracəmirli kurqanı. Milli Azərbaycan Tarixi Muzeyi); Həmin mifoloji süjeti əks etdirən Pazırıq maralı (e.ə.V-III əsrlərə aid skif mədəniyyəti, Altay)*

Beləliklə, bu motivlər sonrakı minilliklərdə türklərin yayıldığı bütün bölgələrdə, yəni Avropanın içərilərindən uzaq Sibir, Altay və Qobi çollərinə

78 F. Hirth, Nachworte zur Inschrift des Tonjukuk, St. Pb. 1898.
79 Ю.Зуев. «Тамги лошадей из вассальных княжеств». Перевод из Китайского, том 3, Алма-Ата, 1960.
80 R.Əfəndi. «Azərbaycan incəsənəti». Bakı: "Şərq-Qərb", 2007,
81 «Azərbaycan tarixi» (yeddi cilddə), I cild, Bakı, 2007.

qədər yayılmış və elmi ədəbiyyata «skif maral daşları» adı altında düşmüş, daha sonra isə saka-skif zərgərlik və xalça sənətində *(Pazırıq xalçası)* yüzilliklər boyu davam edərək təkmilləşmişdir. Qobustan marallarının elmi baxımından əsas önəmi ondadır ki, bu təsvirlər qədim türk mədəniyyətinin köklərinin bilavasitə Azərbaycan ərazisi ilə bağlı olduğunu söyləməyə ciddi əsas verir. Onsuz da bu mədəniyyətin ən qədim nümunələri Cənubi Azərbaycan ərazisindəki Ziviyə kurqanından tapılmışdır və bu fakt istər-istəməz skif incəsənətinin ölkəmizlə bağlı olduğuna dəlalət edir.[82] Vaxtilə rus coğrafiyaşünası və etnoqrafı Georgi Potanin *(1835-1920)* folklor və xalq tətbiqi sənəti nümunələri əsasında müqəddəs maral obrazının qədim türklərin mifoloji təsəvvürlərində və kosmoqoniyasında mühüm yer tutduğunu müəyyənləşdirmişdir. O qeyd etmişdir ki, saka-skif və hun mədəniyyətlərindən başlayaraq, Asiya və Avropanın köçəri xalqlarının mifik düşüncəsində maral rəmzi özünün dayanıqlığı ilə seçilmişdir.[83] Bakı Dövlət Universitetindən tarix üzrə fəlsəfə doktoru İradə Avşarova bu barədə yazır: **«Marala sitayiş Azərbaycanda yaşayan qədim tayfalar arasında geniş yayılmışdır. Maralı dəfnetmə adəti indiki Xanlar rayonunun ərazisində Tunc dövrünə aid qəbirlərdən məlumdur. Tədqiqatçıların fikrincə, Azərbaycanda «maral» adını daşıyan tayfalar da yaşamışdır. Maral təsvirləri özündə müqəddəslik və nəsil artımı ideyasını simvollaşdırır»**.[84]

VI əsrdə yaşamış Bizans tarixçisi İordan hunların Qərbə doğru yürüşlərinə dair rəvayəti qələmə alaraq yazırdı ki, vəhşi heyvanları təqib edən hun ovçularının yolunu Meotis *(Azov)* dənizinin keçilməz bataqlıqları kəsir. Bu zaman qəflətən bir dişi maral irəli çıxaraq onlara bələdçilik edir, bataqlıqdan çıxarır və qeyb olur. Tanınmış türkoloq, Moskva Dövlət Universitetinin professoru Xalıq Koroğlu obraz fərqinə baxmayaraq, bu rəvayətin süjetinin bir çox detallarının «Oğuz xaqan» dastanında qorunub saxlanıldığını bildirir: **«Yeganə fərq oğuz rəvayətində türklərin totem canlısı olan boz qurdun dişi maralı əvəzləməsidir. Bu isə təbiidir. Çünki oğuzların hunlarla genetik qohumluğundan savayı, onların da miqrasiyası Şərqdən Qərbə doğru**

82 B.Tuncay. «Kür-Araz mədəniyyəti və erməni yalanları» (I məqalə), **KarabakhİNFO.com**
83 Н.Рзаев. «Искуство Кавказской Албании. IV в. До н.э. VII в. Н.э.». изд «Элм», 1976
84 İ.Avşarova. «Azərbaycan tayfalarının hərb işi (tunc dövrü)», http://carpetsmagazine.com/Azerbaycan-xalcalari/N3/files/assets/basic-html/page128.html

istiqamətlənmişdir. Onu da qeyd etmək lazımdır ki, hunların xilaskar maral haqqında əfsanəsi qırğızların «Buqa-ene» rəvayəti ilə səsləşir».[85] Maraqlıdır ki, qədim uyğurların hakim tayfası olan yaklakarlar *(cəlayirlər)* öz şəcərələrini totem əcdadları – qızıl buynuzlu Günəş maralı ilə bağlayırlar.

Gədvəl 2. Ortaq damğalara əsasən türk xalqlarının məskunlaşma arealı

Məkan	Damğa təsvirləri
Azərbaycan. Qobustan qayaüstü təsvirləri	
Azərbaycan. Gəmiqaya qayaüstü təsvirləri	
Qərbi Azərbaycan. Göyçə qayaüstü təsvirləri	
Xakasiya. Sulek qayaüstü təsvirləri (e.ə. II minillik)	
Tyan-Şan. Koçkor vadisində sak/skif işarələri (Tunc dövrü və e. ə. I minillik)	
Tripolye (Kukuteni) Eneolit arxeoloji mədəniyyəti (e.ə. VII -VI minilliklər)	
Qərbi Sibir və Şimali Qafqaz. «Ağac tikililər» arxeoloji mədəniyyəti (e.ə. XVIII-XII əsrlər)	
Şimali Qafqaz. Aşuy mədəniyyəti (Tunc dövrü)	
Midiya dövləti	
Yenisey daş kitabələrindəki damğalar	
Qafqaz Albaniyası	

85 Х.Короглы. «К тюркско-венгерским фольклорным связям» //*Советская тюркология. 1988. № 3.*

Qazaxıstan. Sidak qayaüstü təsvirləri V-VIII əsrlər	
Qızıl Orda dövləti	
Krım xanlığı	
Bolqarıstanda türk damğaları	
Rumıniya. Asançi və Omurçi məzarlıqlarındakı damğalar	
Polşa-Litva tatarları	
Kosova. Qora vilayəti. Restelitsa kəndi yaxınlığındakı qayaüstü təsvirlər	
Adıgey Respublikası. Maxoşkuşxa məntəqəsindəki çay daşları üzərində qədim türk işarələri	
Rusiya. Yemelyan Puqaçovun kəndli üsyanında iştirak etmiş başqırd və tatar nəsillərinin damğaları (1773-1775-ci illər)	
Latviya. Virtaki məntəqəsində türk petroqlifləri XVI-XVII əsrlər	
Tatarıstan. Sarman və Pestreçinsk rayonlarındakı Ləki, Yantsevar və Kreşennaya Serda kəndlərində xristian tatarlara aid məzarlıqlarda damğa işarələri	*(Aksakovlar), (Volkovlar) (Antonovlar), (Tazovlar), (Kustovskilər), (Babinlər), (Çurikovlar), (Saxurevlər), (Tixonovlar), (Qordeyevlər), (Osipovlar), (Nikitinlər), (Çukurovlar), (Talanovlar), (Tuqanovlar), (Dementyevlər), (İvanovlar)*

Cədvəl aşağıdakı elmi mənbələr əsasında tərtib olunmuşdur.[86]

86 V.Baxşəliyev. «Gəmiqaya təsvirləri». Bakı, 2003; M.Fərəcova. «Azərbaycan qayaüstü incəsənəti». Bakı, 2009; Q.Ваганян. «Каменная летопись цивилизации». Ереван, 1993; И.Кызласов. «Руническое пис-

İlkin ehtimallara görə, XVII əsrə aid edilən və anonim müəllif tərəfindən yazılan «Dəftəri-Çingiznamə» əsərində etnik damğalar, onların təsvir və adları ilə bağlı maraqlı, bəzən isə ortaq türk damğalarının semantikası baxımından ziddiyyətli məqamlara da rast gəlirik. Məsələn, Kazan tatarlarının *(bulqarların)* ləhcəsində qələmə alınan bu əsərdə türk xalqlarının tayfa-nəsil simvolizmində və hakimiyyət rəmzləri arasında «daraq damğa», «baltavar», «xan damğası» kimi tanınan işarə Ψ «sırğa» kimi təqdim edilmişdir. Bu məsələyə aydınlıq gətirən türkiyəli tədqiqatçı Funda Topraq həmin adın qadın bəzək əşyalarından biri ilə bağlılığı olmadığını bildirir. O, damğa adında omonim xarakterli bənzəməni ərəb əlifbasında «g» səsini bildirən qrafemin olmaması ilə izah edir. Nəticədə, «serge» və ya «sergeg» *(ayıq-sayıq)* tayfasının adı təhrif olunaraq «serqe» kimi yazılmış və sonralar «sırğa» şəklinə düşmüşdür. Əsərdə bir sıra damğa işarələrinin də qeyri-ənənəvi semantikası verilmişdir. Məsələn, oğuzun bəydili və dögər tayfalarının tanınma-fərqləndirmə nişanına bənzəyən Ƶ işarəsi «sinqli sənək tamqa» *(sınıq sənək, ikibaşlı nizə)* adlanır. Bundan başqa, ʃ - «Amza damğa» *(F.Topraq onun antroponim olduğunu və «Həmzə» adından yarandığını məqbul sayır)* işarəsinə oğuz damğaları və Dərbənd qala divarının daşları üzərindəki təsvirlərdə də rast gəlinir. «Dəftəri-Çingiznamə» əsərində ✱ - «Sərv damğa», ɗ - «çimiş» *(çömçə - düzgün etmiologiyası: «suya girənlər» və ya «çay keçənlər». «Abar»/»Avar» etnonimi də bu anlamı verir)* damğası, ◻ - «uy» *(ev)* damğası, ⅄ - «evime» damğası *(«aşamay» sözünün bir forması olduğu ehtimal edilir),* ortaq damğalar təsnifatında Günəş rəmzi kimi qəbul edilən işarə O burada «Ay damğası» adlanır. Görünür, bədirlənmiş Ay nəzərdə tutulur. Kitabda «kuş koburqa tamqa» ⊸ *(qoşa*

менности евразийских степей» Москва, РАН, 1994; К.Табалдинов, Ж.Йолдашев. «Образцы изобразительной деятельности древнетюркских племен Тенир-Тоо», изд. Унив. Манас, 2003; У.Паламарчук, И.Андриевский. «Зари Триплье», Винница, 2005; А.Формозов. «Сосуды срубной культуры с загадочными знаками», Вестник древней истории, № 1, 1953; Б. Режабек, Л. Регельсон, И. Хварцкия. «Кто изобрел «финикийскую» письменность?» http://www.apocalyptism.ru; И.Дяконов, «История Мидии», Москва, 1956; С.Яценко. «Знаки-тамги ираноязычных народов древности и раннего средневековья», Москва, «Восточная литература», 2001; Ə.Rəcəbli. «Qədim türk yazısı abidələri», II cild. Bakı, 2009; Л.И.Лавров. «Кавказская тамга», «Историко-этнографические очерки Кавказа». Ленинград, 1978; К.Алиев. «Тамга-знаки Дагестана. По материалам кумыков и их предков». КНКО: Вести. Махачкала, № 8-10, 2003; Е.Ямаева, «Родовые тамги Алтайских тюрок», Горно-Алтайск, 2004; Е.Смагулов, С.Яценко. «Святилище Сидак – один из религиозных центров доисламского севера Средней Азии». http://www.transoxiana.org; Э.Триярский. «Тамги тюркских племен из Болгарии», UAJG. 1975; Имре Баски. «Тамги и этнические названия. Вклад тамга-знаков в этногенез татар». // Татарская археология. 1997, №1; Ebubekir Sofuoğlu. «Qora-Restelisa abidesi: Şar dağlarının tepesindeki kaya» www.turuz.info; Valters Grivins. «Latvian rock art» mag. „At the Edge“ #8, 1997.

qabırğa damğası), «argak» *(iqrak – maşa)* , «taylak» *(Mərkəzi Asiyada «köşək» anlamında işlədilir)* və s. işarələrinə də rast gəlinir.[87]

Sovet hakimiyyəti illərində bəzi akademik nəşrlərdə Qobustanın «Yazılıtəpə» adlanan ərazisində 143 nömrəli daş üzərindəki damğa işarələrinin analoji təsvirlərinə Şimali Qafqazda da təsadüf olunması bir neçə yüz il bundan əvvəl Azərbaycana qışlağa gələn dağıstanlı maldarların «əl işləri» kimi izah edilmişdir. Çünki bu damğanın bənzərlərinə Şimali Qafqazdakı adıq xalqının işarələri arasında da rast gəlinir.[88] Onların isə indiki Adıgey Muxtar Vilayəti ərazisindən qoyun sürülərini Azərbaycana qışlağa gətirməsi qətiyyən inandırıcı görünmür. Bundan başqa, qədim damğa nişanları üzrə bir sıra nüfuzlu mütəxəssislərin (*İ.Baske, E.Triyarski, A.Canibekov, K.Əliyev və b.)* təsnifatlarına əsasən, həmin rəmzlərin türk tayfalarına məxsusluğu şəksizdir. Təqribən 25 il ərzində Qobustan qayaüstü təsvirlərini tədqiq edən Cəfərqulu Rüstəmov burada daha çox təsadüf olunan «**kiçik çevrədən aşağıya tərəf çəkilmiş üç şüavari xətt və ya əvvəl birxətt çəkilərək sonra onun yanlarından ayrılmış xətlərin əmələ gətirdiyi formaya malik işarələrin»** sakral xarakterə malik damğalar olmasına əmindir.[89] Professor Nəsir Rzayev isə təsvirlərin XIV-XIX əsrlərə aid olması qənaətinə gəlsə də, onların damğa xarakteri daşıması və semantikası haqqında bunları bildirirdi: **«Belə damğaların bir damğa kimi, şərti-rəmzi bir işarə kimi yox, bir təsvir motivi olmasını güman etmək istərdik. Onlar, bəlkə də, maldarların alaçıq və komalarının təsvirləridir».**[90] Həqiqətən də belədir. Maraqlıdır ki, bu damğaların ən qədim variantları Manna və Midiya dövlətlərinə aid maddi-mədəniyyət nümunələri üzərində də aşkar edilmişdir.[91] Bundan başqa, «köçəri maldarların damğa işarələrinin» eramızdan əvvəl və ilkin orta əsrlərə aid variantlarına Araz çayının şimal sahillərində məkunlaşmış massagetlərin rəmzlərində, Mərkəzi Asiyada, Şərqi Sibirdə, müasir Bolqarıstan, Macarıstan, Rumıniya və Ukrayna ərazilərində də geniş rast gəlinir. S.Yasenko regiondakı qədim rəmz və nişanlara həsr olunmuş kitabında bu işarələr də daxil olmaqla, əhəmənilərin və sasanilərin damğa işarələrinin geniş təsnifatını versə

87 F.Toprak. «Defter-i Cengiz-Nāme'de Boy Nişanları ve Damgalar», Turkish Studies International Periodical For the Languages, Literature and History of Turkish or Turkic Volume 6/1 Winter 2011

88 Х.Яхтанигов. «Северокавказские тамги». Нальчик: "Эльбрус", 1993.

89 C.Rüstəmov. «Qobustan dünyası». Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

90 N.Rzayev. «Daşlar danışır», Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu. Bakı: "Elm", 1985.

91 И.Дяконов. «История Мидии», Москва, 1956.

də, Mərkəzi Asiyada onların analoqlarının olmasını xatırlatsa da, təsvirlərin semantikası və etnik mənşəyi barədə susmuşdur. Lakin «irandillilərin» müəlliflik hüququna gəldikdə, Əhəməni *(e.ə. 558-330)* və Sasani *(226-651)* dövlətlərinin rəmzləri içərisində spesifik türk damğalarının da olması bu konfederasiyaları quran etnik tayfaların arasında türklərin də mövcudluğundan xəbər verir. Damğa işarələrinin etnik mənsubiyyətini müasir osetinlər, farslar və taciklərlə bağlamaq meylini gizlətməyən S.Yasenko, nəhayət, onu da etiraf edir ki, Mərkəzi və Ön Qafqazda yaşayan irandilli xalqlarda, taciklərdə və farslarda damğa işarələri türklərdə olduğu kimi xüsusi ada və sakral əhəmiyyətə malik deyildi. Onların qrafik təsviri konkret predmetlərin, təbiət hadisələrinin, inanc elementlərinin və s. obrazlarını əks etdirmirdi. Sadəcə olaraq, bu təsvirlər bütövlükdə tayfa və ya tayfa birliyinin deyil, ayrı-ayrı nəsillərin mülkiyyət nişanı kimi tanınırdı.[92] Ukraynalı arxeoloq Viktor Draçuk isə tədqiqatlarında müxtəlif etnoslarda damğaların statusları arasında fərqi xüsusi vurğulayaraq bildirir: **«İrandilli etnoslardan fərqli olaraq, türk xalqlarında nəsil rəmzlərindən savayı onları birləşdirən ortaq damğalar və xaqanın yanında onların qorunması üzrə xüsusi məmur – tamqaxan da mövcud idi. Yalnız türklərdə xaqan *(xan)* tayfa və nəsillər üçün damğa işarəsi təyin edə bilərdi».**[93]

Cədvəl 3. Əhəməni və sasani tayfa rəmzləri[94] içərisində etnik türk damğaları

Əhəməni (e.ə. 558-330-cu illər)	
Sasani (226-651-ci illər)	

Azərbaycanda qədim və ilkin orta əsr memarlığının, incəsənətinin öyrənilməsi üzrə elmi tədqiqatların əsasını qoymuş görkəmli alim, professor Davud Axundov Qobustan, Gəmiqaya, Geğam və Baykal gölünün şimalındakı Subuktuy qayaüstü təsvirlərindəki analoji işarələrin genezisini araşdıraraq onların vahid semiotikaya malik olduğunu bildirmişdir.

92 С.Яценко. «Знаки-тамги ираноязычных народов древности и раннего средневековья», Москва, «Восточная литература», 2001.

93 В.Драчук. «Системы знаков Северного Причерноморья». Киев, 1975.

94 С.Яценко. «Знаки-тамги ираноязычных народов древности и раннего средневековья». Москва: «Восточная литература», 2001.

D.Axundovun qənaətinə görə, yuxarıda adı çəkilən məntəqələrdəki oxşar piktoqramların həqiqi müəllifləri heç də XIV-XIX əsrlərdə Qafqazdan qoyun sürüləri ilə buraya qışlağa gəlmiş köçəri heyvandarlar deyildirlər.



Qobustandakı Cingirdağ və Baykal gölünün şimalındakı Subuktuy ərazisindəki qayaüstü təsvirlərdə yaşayış məntəqələri «sxemləri» arasında oxşar fraqmentlər[95]

lk dövrlərdə praktiki əhəmiyyət daşıyan, sonralar isə nəsil və tayfaların damğa işarələrinə çevrilən həmin nişanlar, əslində, daş və ya çiy kərpicdən tikilmiş qədim konusvari yaşayış evlərinin, anbar və məbədlərin, eləcə də onlara bitişik həyət divarlarının konturları, yəni plan təsvirləridir.[96] Məsələn, Altay və Mərkəzi Asiyadakı türk xalqlarının damğa təsnifatında «ev», «çadır», «alaçıq», «qapı», «alaçıq qapısı» anlamını verən □ ⌂ ▯ Λ işarələri kimi. Yeri gəlmişkən, Bakı ətrafındakı Kürdəxanı qəsəbəsinin adının etimoloji izahı da bu qənaəti təsdiqləməkdədir. Bəzi ehtimallara görə, yaşı iki min ildən çox olan həmin yaşayış məntəqəsinin adı «Girdə xanə» yəni «Dairəvi ev» kimi yozulur.

Ötən əsrin ortalarında Naxçıvanda Kültəpə məntəqəsində aparılmış arxeoloji tədqiqatlar nəticəsində Azərbaycanda ilk dəfə həmin «layihə» üzrə ucaldılmış tikililərin - eramızdan əvvəl dördüncü minilliyə aid dairəvi planlı ○ və daş hasarlarla sektorlara ⋔ Λ ⋔ bölünmüş həyəti olan yaşayış evlərinin bünövrələri aşkar edilmişdir. Daha sonra keçən əsrin 60-cı illərində Qazax rayonunun Şomutəpə, Töyrətəpə, Qarqartəpə, Füzuli rayonunun Qaraköpəktəpə, Ağdamın İlanlıtəpə ərazilərində, Abşeron yarımadasında - Mərdəkan, Zirə, Şüvəlan və s. məntəqələrdə də bu tipli dini tikililərin, yaşayış evlərinin qalıqları müəyyən olunmuşdur. Cənubi Qafqazda ən qədim yaşayış yerlərindən sayılan

95 Yenə orada

96 Д.Ахундов. «Архитектура древнего ранне-средневекового Азербайджана». Баку, 1986.

Şomutəpə məntəqəsi *(e.ə. V-IV minilliklər)* malikanə tipli *(yaşayış evi və bir neçə təsərrüfat tikilisi)* olmaqla yanaşı, daş hasarla əhatəyə alınmışdır. Ağdam rayonu ərazisində tapılan İlanlıtəpə malikanəsi eramızdan əvvəl beşinci minilliyin sonlarına, Qaraköpəktəpə, Mərdəkan, Şüvəlan və s. tikili qalıqları isə daha sonrakı dövrlərə aid edilsə də, onların eyni tipli olmaları müəyyənləşdirilmişdir. Müqayisəli təhlillər nəticəsində eyni tipli və eyni texnoloji üsullarla ucaldılmış belə tikililər təkcə Cənubi Qafqaz ərazilərində deyil, Türkmənistanda *(Qara Təpə, Çakmaklı Təpə, Göksür-1)* və Özbəkistanda da *(Yakke Parsan-2)* aşkar edilmişdir. Davud Axundov bu tikililərin prototiplərinin Şumer dövləti ərazisindəki qədim «Xanazir» və «Tell Qalini Aqha» yaşayış məntəqələrindəki evlərin planı ilə oxşar olduğunu və prototürklərin bir qolunun Dəclə və Fərat çayları arasında məskunlaşması və bu torpaqlardan şimala doğru miqrasiyası ehtimalını irəli sürmüşdür. [97]



D.Axundova görə, İlanlıtəpədəki (Eneolit dövrü, Ağdam rayonu, Orta Qərvənd kəndi) və Qobustandakı yaşayış evlərinin damğa-plan işarəsinə əsasən bərpa olunmuş təsvirləri [98]

Qobustanın petroqlifləri arasında qədim yaşayış məntəqələrinin sxematik təsvirlərinin də həkk olunmasına dair Davud Axundovun qənaətlərinin doğruluğunu digər bir misal da təsdiqləyir. Xatırladaq ki, 1987-ci ildə Ural-Qazaxıstan müştərək arxeoloji ekspedisiyası Rusiyanın Çelyabinsk *(qədim adı: «Çələbi»)* vilayətinin Kizil rayonunda, yerli əhalinin «Arkaim» *(əski türkcədə «Arqayım»/dağın arxası)* adlandırdıqları ərazidə qədim və unikal yaşayış məntəqəsinin qalıqlarını aşkar etmişlər. Elm aləmində sensassiya

97 Yenə orada
98 Yenə orada

doğurmuş bu tapıntı iç-içə iki dairəvi qala divarının əhatəsində radial şəkildə planlaşdırılmış tikililərdən ibarətdir. Tədqiqatlar nəticəsində Arkaim qala-dövlətinin Orta Tunc dövründə, eramızdan əvvəl III-II minilliklərdə salındığı və unikal mədəniyyət mərkəzi olduğu müəyyən edilmişdir. Arxeoloji qazıntılar zamanı burada hər biri bir neçə mənzildən ibarət xeyli birmərtəbəli yaşayış evləri ilə yanaşı, dəmirçi, dulusçu emalatxanalarının, ərzaq anbarlarının bünövrələri, saxsı kanalizasiya sistemi, qala divarlarından kənarda isə məzarlıqlar və mal-qara saxlamaq üçün tövlələrin qalıqları tapılmışdır. Rus xalqının genezisini saka-skiflərlə bağlamağa, perspektiv etnosiyasi məqsədləri hədəf götürərək Şərqi Sibirin və Altayları rusların tarixi vətəni elan etməyə çalışan bəzi Rusiya alimləri hələ SSRİ dönəmində ləngimədən Arkaimi «qədim ari-slavyan şəhər-dövləti», «rus mədəniyyətinin beşiyi», Yaxın və Orta Şərq, Misir, Aralıq dənizi sivilizasiyalarının ilkin mənbəyi elan etməyə başladılar. Tədqiqatçı Zira Novruzbayevanın yazdığı kimi **«Atın hələ əhliləşdirilmədiyi bir dövrdə guya sürətli döyüş arabaları ilə dünyanı fəht edən, Xəzər dənizinin sahilləri boyu irəliləyərək geridə qalmış xalqlara mədəniyyət bəxş edən fövqəlinsanların - ari-rusların missiyası haqqında qondarma nəzəriyyələr uydurulur və yayılırdı. Halbuki Orta əsrlərin sonuna kimi Ural dağlarından şərqə döğru uzanan ərazilərdə nə «rus», nə «slavyan», nə də «Rusiya» anlayışları yox idi. Dəgər tərəfdən, arxeoloji faktlar bu şəhərin Andronov** *(eramızdan 2000-1000 il əvvəl)* **və saka mədəniyyəti ilə üzvi şəkildə bağlılığını və onların prototip sivilizasiyası olduğunu sübuta yetirmişdir».**[99] Qazax alimi Amangəldi Narımbayeva da «Arkaim. Prototürklərin yaratdığı dünya sivilizasiysının ocağı» kitabında da adı çəkilən qala-dövlətin ərazisindən tapılan arxeoloji materialların, dəfn mərasimi atributlarının, rəmzlərin və ornamentlərin təhlili sayəsində saka-skif, Andronov, Pazırıq mədəniyyəti daşıyıcılarının, Şərqi Sibirin və Mərkəzi Asiyanın qədim türk xalqlarının birbaşa Arkaim mədəniyyətinin etnik varisləri olduğunu göstərmişdir.[100] Arkaimin maddi-mədəni irs nümunələrinə əsasən, tam yəqinliyi ilə demək olar ki, qədim türklərdə olduğu kimi, onun sakinləri arasında da at və qoç kultları yayılmış, dəfn mərasimləri, yaşam tərzləri, inancları Şimali və Cənubi Qafqazda, Mərkəzi Asiyada, Altaylarda yaşayan əski tayfaların adətləri ilə eyni olmuşdur.

99 З.Наурзбаева. «Да, скифы мы», http://www.press-uz.info/index.php?title=a...122007&st=6

100 А.Нарымбаева. «Аркаим – очаг мировой цивилизации, созданный прототюрками» Алматы, 2007



1.Arkaim qala-şəhərciyinin bərpa olunmuş maketi; 2. Arkaim şəhərinin yuxarıdan çəkilmiş planı; 3.Qobustan qayaüstü təsvirlərində (Böyükdaş) eyni tipli qədim yaşayış məntəqəsinin sxematik planı;[101] 4. Erkən Tunc dövrünə aid Dəmirçihüyük (Türkiyə, Əskişəhir) arxeoloji abidələri içərisində aşkar olunmuş qədim tikilinin planı;[102] 5. Şumer və Akkad hökmdarı Şulqanın (Şülga, Şülgir) eramızdan əvvəl 2094-cü ildə tikdirdiyi məbədin rekonstruksiyası; 6. Assuriya relyefinə əsasən Midiya qalası (eramızdan əvvəl VIII əsr);[103] 5.Midiya dövlətinin Kişessu qalasının rekonstruksiyasının eskiz-layihəsi (D.Axundova görə).[104]

Bütün bunlarla yanaşı, Arkaim və Xəzər dənizi sahillərində yaşayan qədim

101 И.Джафарзаде. «Гобустан. Наскальные изображения», Баку, 1973

102 Turan Efe. «Eskişehir bölgesi tarihöncesi dönem araştirmalari ve Önasya arkeolojisi içindeki yeri», http://kulluobakazisi.bilecik.edu.tr/Dosya/Arsiv/ara%C5%9Ft%C4%B1rma%20tarih%C3%A7esi2.pdf

103 И.Дяконов. «История Мидии», Москва, 1956

104 Д.Ахундов. «Архитектура древнего ранне-средневекового Азербайджана». Баку, 1986.

xalqların mədəniyyətləri arasında bağlılığın olmasına dair Rusiya alimlərinin qənaətlərində həqiqət vardır. Bu iddiaların gerçəkliyə uyğun olmasını təsdiqləyən amillərdən biri Qobustanın nadir qayaüstü təsvirləridir. Tanınmış Azərbaycan arxeoloqu, Qobustan təsvirlərinin tədqiqatçısı professor İshaq Cəfərzadə hələ ötən əsrin ortalarında aşkar etdiyi yüzlərlə unikal petroqlif içərisində «Böyükdaş» adlanan ərazidə, 99 saylı yazılı daş üzərindəki rəmzin uzaq keçmişdə Abşeron yarımadası ilə Ural dağlarının Şərq ətəkləri arasında genetik əlaqə qurmasına və Cənubi Qafqazda Arkaim qala-dövlətindən daha qədim olan prototip yaşayış məntəqəsinin mövcudluğuna dair ehtimallar irəli sürməyə imkan verir. Əlavə arxeoloji tədqiqatlar tələb edən bu ehtimalların sübuta yetirilməsi isə türklərin tarixi vətənləri, miqrasiya istiqamətləri və köç dövrləri haqqında qurama «Altay nəzəriyyəsinin» siyasi məqsədlər daşıdığını, tarixi faktlara söykənmədiyini göstərəcəkdir. Böyükdaşdakı «sxem» heyrətamiz dərəcədə Arkaim qalası planını xatırladır. Burada da iç-içə iki dairəvi qala divarları, radial şəkildə bölünmüş məhəllələr və yaşayış evləri, mərkəzi meydan və çevrə boyu paralel küçələr, qədim türklərin «temirkapu» *(dəmir qapı)* adlandırdıqları müdafiə xarakterli tələ-giriş hissələri həkk olunmuşdur. Kür-Araz mədəniyyətinə aid tikililərin təkcə regionda deyil, Xəzər dənizinin şərq sahillərində də yayılmasını nəzərə alsaq, Böyükdaş sxem-təsviri həmin çağlarda təkcə Cənubi Qafqazda deyil, digər Avrasiya ərazilərində yaşayış məntəqələrinin eyni tip üzrə salınmasına dair qənaətləri əsaslandırmağa şərait yaradacaqdır.

Qədim təsvirlərin təhlili bir daha təsdiqləyir ki, Midiya dövlətinin Xarxar şəhəri, eramızdan 2000-1000 il əvvələrə aid olan Naxçıvanın Oğlanqala abidəsi və digər tikililər də həmin planlaşdırma üsulu ilə inşa edilmişdir. İlkin ehtimallara əsasən, «Azərbaycan Arkaiminin» - ən qədim qala-şəhərinin qalıqlarını Böyükdaş abidəsi ilə coğrafi yaxınlığına və relyef şəraitinə görə Abşeron yarımadasında axtarmaq lazımdır. Belə namizədlər sırasında «Xəzər Atlandidasını» - Səbayıl qalasını və ya qədim dövrlərdə indiki Bakı şəhəri ərazisində, İçərişəhərin hududlarında salınmış yaşayış məskənini önə çəkmək olar. Bu sxemin qədim Bakıya aid olduğunu təsdiqləyən bir amil onun da bir tərəfinin giriş-çıxış məqsədilə açıq olmasıdır. Çox güman ki, həmin yer Xəzər dənizinin sahili, şəhər qala divarlarının ara hissəsi - Qız Qalasının yerləşdiyi ərazidir. Beləliklə, sonralar müstəqil damğa işarələrinə çevrilərək

«məskunlaşma» anlamını verən rəmzlərinin ilkin semantikasını *(yaşayış məskənləri planını)* əsas götürsək, «Çelyabinsk Arkaiminin» həmin tipli tikililər silsiləsinin davamı olması qənaətini irəli sürə bilərik.

İndi yenidən qədim türk yazı sisteminin qrafemlərinə və ortaq damğa işarələrinə qayıdaq. Qeyd olunduğu kimi, ortaq damğaların bir çoxunun qrafik variantlarına Orxon-Yenisey kitabələrində əlifba işarələri kimi rast gəlinir. Bununla da ibtidai rəmzlər əsasında yaranmış əlifbaların ilkin variantlarının dəqiq xronoloji ardıcıllığa əsasən yayılma areallarının öyrənilməsi tarixi və etnoqrafik araşdırmalarda pozitiv missiyaya çevrilməklə, əcdadların etnik mənşəyi, inancları, mədəni həyatı, məişəti, miqrasiyası, ən vacibi isə türk xalqlarının tarixi vətəni barədə əlavə məlumat mənbəyi kimi qiymətləndirilməlidir. Görkəmli Krım tatar maarifçisi, arxeoloq, etnoqraf Osman Akçokraklı təkcə Krım yarımadasındakı qayaüstü təsvirlərdə, məzar daşlarında, qədim tikililər və tətbiqi sənət əsərləri üzərində aşkar etdiyi işarələr içərisində 16 damğanın Orxon-Yenisey əlifbası qrafemlərinin analoqu olması qənaətinə gəlmişdir.[105] Təsadüfi deyildir ki, Göytürk abidələrinin tanınmış tədqiqatçısı Əbülfəz Rəcəbli həmin əlifba işarələri ilə yazılmış mətnləri «bütün türkdilli xalqların daşlara həkk edilmiş tarixi sənədləri» adlandırmışdır: **«Bu abidələr qədim türk qəbilələrinin daşlar üzərində yazılmış tarixidir, xaqanların, sərkərdələrin xalq qarşısında hesabatıdır, dövlətin və xalqın qarşısında duran vəzifələr haqqında türk elinin bəyannaməsidir, türk elinin, törüsünün (*qanununun*), yüksək şəkildə inkişaf etmiş türk mədəniyyətinin və türk hərb sənətinin nümunəsidir, türk ictimai-fəlsəfi fikrinin və türk bədii ədəbiyyatının ilk səhifəsidir».**[106]

Tarixin keşməkeşlərindən, ilk növbədə nəhəng Avrasiya regionunda yazı qrafikaları arasında rəqabətdən keçən qədim türk əlifbası müəyyən dəyişikliklərə məruz qalsa da, əsrlər boyu əhəmiyyətini itirməmişdir. Yalnız türk xalqlarının islam və xristian dinlərini qəbul etməsindən sonra onun tətbiq dairəsi sürətlə daralmağa başlamışdır. Tarixi mənbələrə əsasən, hətta ərəb əlifbasının yayılmasından sonra - XI-XII əsrlərdə də Volqaboyunda yaşayan bulqarlar Göytürk əlifbasından istifadə etmişlər. Maraqlıdır ki, XX əsrin əvvəllərində xakasların məskunlaşdığı bəzi bölgələrdə bu əlifba hələ də mövcudluğunu saxlamış, yalnız Sibirdə bolşevik hakimiyyəti qurulduqdan

105 О.Акчокраклы. «Татарские тамги в Крыму», http://crimeantatars.com.
106 Ə.Rəcəbli. «Qədim türk yazısı abidələri», I cild. Bakı, 2009.

sonra qadağan edilmişdir. 1924-cü ildə isə xakaslar üçün kiril əlifbası əsasında 36 hərfdən ibarət yeni yazı qrafikası yaradılmışdır.[107] Azərbaycan xalça ornamentləri arasında Göytürk hərfləri ilə damğa təsvirlərinin paralel istifadəsi islamdan sonrakı dövrlərdə də bu əlifbanın bir müddət aktuallığını saxlaması və tətbiqi barədə qənaətlər irəli sürməyə imkan verir.

Cədvəl 4. Orxon və Yenisey əlifbalarındakı bəzi işarələrin oxunuşu və damğa rəmzləri kimi izahı

№	İşarə	Oxunuşu	Damğa variantlarının adları	№	İşarə	Oxunuşu	Damğa variantlarının adları
1		İncə saitli sözlərdə titrək sonor **«r»** səsini bildirmək üçün istifadə edilir.	*Tenqri xanın sakral rəmzi, «er/ər» (insan, döyüşçü) bildirir.*	11		Sait **«a», «e»** səslərini ifadə edir. Bəzən işarəsi ilə əvəz olunur.	*«Qarmaq» işarəsi kimi də yozulur. Azərbaycan xalça naxışlarında bu işarənin* *variantı da geniş yayılmışdır.*
2		Mətnlərdə **«z»** samiti həm qalın, həm də incə saitli sözlərdə işlədilir.	*«təpə xaç», «subaş», «sarman», «dörd ünsür», «çərxi-fələk», «qaz», «qaz təpiyi», «şəmsi-gərdan»*	12		Dilarxası kar **«k»** samiti. Yalnız **«ı»** saiti ilə qonşuluqda işlədilir.	*«Pitik», «Tumar» (Humay Ananın rəmzi), «nəzərlik duası»*
3		Cingiltili **«b»** səsidir. İncə saitli sözlərdə oxunur.	*«Ev», «alaçıq», «məskunlaşmaq» anlamında istifadə olunur.*	13		Burun sonor **«m»** samiti kimi qalın və incə saitli sözlərdə işlədilir.	*«Qurd başı», «qurd ağzı», «İskəndər damğası»*
4		Cingiltili **«d»** samitidir. İncə saitli sözlərdə işlədilir.	*«haça», «aça», «aşa», «sarakay», «asa Umay», «aşamay» (Humay Ana haçası/xaçı)*	14		Mətnlərdə kar **«s»** samitini bildirir.	*«Süngü», «nizə», «bıçaq», «bir tayfa/nəsil»*
5		Cingiltili **«y»** samiti. Qalın saitli sözlərdə istifadə olunur.	*«Ay», «yay» (atıcı silah) mənasını verir.*	15		Qalın saitli sözlərdə kar **«t»** samitini ifadə etmək üçün işlədilir.	*«Atlı», «minici», «at» mənalarında işlədilir.*

107 Г.М. Давлетшин, Ф.Ш. Хузин. «Булгарская цивилизация на Волге», Татарское книжное издательство, 2011.

6		İşarənin **«baş»** və **«aş»** kimi oxu variantları vardır.	*«Art», «arta», «dərə», «iki dağ arasında vadi»*	**16**		Cingiltili **«d»** samiti. Tərkibində qalın saitlər olan sözlərdə işlədilir.	*«Ayaq», «dayaq»*
7		İşarə **«nt»,** bəzi hallarda isə «nd» kimi oxunur	*«and», «əhd», «qardaşlaşma», «sarsılmaz ittifaq» işarəsi*	**17**		Göytürk yazılı abidələrində **«iç», daxil»** sözlərini ifadə etmək üçün işlədilir.	*Evin, alaçığın mərkəzi dirəyi, «baytörə», «üstün», «baxan», «bakan»*
8		Kar **«ş»** samiti	*«eşik», «qapı», «qapı çatısı»*	**18**		↓ və ↑ **«k»** səsini bildirir, yalnız «o» və «u» saitləri ilə işlədilir	*«ox» damğasını ifadə edir.*
9		Sonor **«l»** samitidir.	*«qarmaq»*	**19**		Cingiltili **«l»** samitini ifadə edir.	*«hənək», «sənək», «durbaş», «ayır» (ikidişli döyüş yabası)*
10		Kipləşən dilortası kar **«k»** səsini bildirmək üçün istifadə edilir.	*«kuray», «ney»*	**20**		Göytürk mətnlərində kipləşən, qoşadodaq kar **«p»** samitidir	*və - «irqaq», kösöv/kösöv*

Qeyd: Orxon və Yenisey əlifba işarələrinin oxunuş qaydalarında Əbülfəz Rəcəblinin kitabından[108] istifadə edilmişdir.

Əski türklər damğa işarələrini döymə *(tatu)*, dağlama üsulu və ya boyaq vasitəsilə bədən üzərinə *(əl, qol, alın və sinəyə),* qazma, basma, yonma və toxuma yolu ilə yaşayış binalarının, alaçıqların və dini tikililərin, müdafiə qurğularının, ərzaq anbarlarının giriş hissəsinə, sütun və divarlarına, üst və baş geyimlərinə, sancaq və tuğların başlıqlarına, silah tiyəsinə, zireh, məişət *(qab-qacaq, çuval, heybə, süfrə, kilim, keçə, xalça)* və ziynət əşyalarının, məzar daşlarının üzərinə, yəhər və çullara, ev heyvanlarının bud, quyruq, qulaq və baş hissəsinə vururdular. Qızdırılmış dəmir basma-qəliblər vasitəsilə bədənə basılan nişanlama üsulu dilimizdə «damğa vurmaq», «damğa

108 Ə.Rəcəbli. «Qədim türk yazısı abidələri», I cild. Bakı, 2009.

basmaq», «damğa daşımaq», «damğalamaq», «dağlamaq», «dağ basmaq», «dağ çəkmək» kimi ideomatik ifadələrdə bu gün də qalmaqdadır.

Türk xalqlarının damğa işarələri tanınma-fərqləndirmə nişanları olmaqla yanaşı, həm də onların məskunlaşdıqları nəhəng ərazidə cərəyan etmiş etnogenetik prosesləri, xalqların inteqrasiyasını, etnik zəmində tayfa birliklərinin və saka-skif, hun, xəzər konfederasiyaların yaranma tarixini özündə aydın əks etdirən unikal etnoloji fenomendir. Etnogenezin müəyyən edilməsində müstəsna əhəmiyyət daşıyan, lakin diqqətdən kənarda qalan damğalar qədim və ya müasir etnosun, ayrı-ayrı tayfa və nəslin etnik mənsubiyyəti, onun etnogenezinin formalaşmasında iştirak payı haqqında məlumat mənbəyidirlər. Bu barədə kitabda az sonra söhbət getsə də, anons olaraq bir nümunə göstərmək istərdik. Müxtəlif xalqlara məxsus olan damğa işarələri özünün sadə və ya mürəkkəbliyi, qrafik təsviri ilə bir-birindən fərqlənir. Məsələn, sarmat tayfalar birliyinin -  ,[109] Əhəməni dövlətinin -  [110], Sasani imperiyasının - ,[111] tanınma-fərqləndirmə nişanları həm seqmentlərinin sayına, həm də semantikasına görə ortaq türk damğalarından - və s.[112] kəskin şəkildə fərqlənirlər. Bununla belə, L.Lavrov, E.Triarski, İ.Baski kimi mütəxəssislərin hazırladıqları təsnifatlarda sarmat, əhəməni və sasanilərə məxsus işarələr arasında tipik türk damğalarının xüsusi çəkisi *(ilkin qənaətə görə,35-40%-ə qədər)* ilk növbədə həmin dövlətlərin təşəkkülündə qədim türk tayfalarının da iştirakından xəbər verir. Başqa bir misal, Monqolustan ərazisində aşkar edilən bütün nişanlar, bir qayda olaraq, «monqol damğaları», onların sahibi olan etnik qruplar isə «monqol tayfaları» kimi təqdim olunmaqdadır. Halbuki, həqiqi monqol damğaları, məsələn,  və s.[113] qrafik təsvir baxımından türk tayfa-nəsil nişanlarından xeyli fərqlidir. Bundan başqa, Dağıstanda və Şimali Qafqazda yaşayan xalqların fərqləndirmə-tanınma işarələri arasında sırf türk damğaları da vardır və bu nişanlar həmin etnik qrupların etnogenezisinin müəyyən edilməsində ciddi əhəmiyyətə malikdirlər. Bu işarələrin müqayisəli təhlili göstərir ki, kabardinlər türk etnik elementi ilə

109 В.Ольховский. «Тамга (к функции знака)», Историко-археологический альманах, № 7, Армавир, 2001.
110 С.Яценко. «Знаки-тамги ираноязычных народов древности и раннего средневековья»
111 Yenə orada
112 И.Баски. «Тамги и этнические названия. Вклад тамга-знаков в этногенез татар». Татарская археология. 1997, №1.
113 Yenə orada

nə qədər sıx təmasda olsalar da, onların - [114] abazaların - [115] və osetinlərin - [116] damğa işarələri bu xalqların etnogenezinin formalaşmasında irandilli xalqların fəal iştirakını təsdiqləyir.

Damğaların başqa bir funksiyası onların dini məsubiyyət göstəricisi olmasıdır. Belə ki, damğa işarələrində magiya, fetişizm, totemizm, əcdad kultu, şamanizm, animizm, Günəş və Ay kultunun, tanrıçılığın aparıcı elementlərinin qrafik təzahürlərinə məsələn, - Dirilik Ağacı *(Qaba Ağac, Baytərək),* - qoç buynuzu, koçkar/qoşkar, - qurdağzı, - yırtıcı quş caynağı, - Günəş, - Ay, və ya - ayı başı və s. geniş rast gəlinir. Lakin insanların etiqadları dəyişdikcə bu damğaların semantikası da təhriflərə məruz qalmağa başlamışdır. Lakin türk xalqlarının böyük hissəsi islam dinini, bir hissəsi isə xristianlıq və iudaizmi qəbul etdikdən sonra damğa işarələrinin əksəriyyətinin əvvəlki yozumu bütpərəstliyin qalığı kimi qəbul edilmiş, bəzilərinin qrafik təsviri saxlanılsa da, semantikası zahiri bənzərliyinə əsasən neytral adlarla – «uşaq yəhəri», «çömçə», «qaz ayağı», «daraq», «kösov», «qapı», «dirək», «qarmaq», «dairə», «beşik», «quşqun» və s. əvəz olunmuşdur. İslam dininin, xüsusilə ərəb əlifbasının türk xalqları arasında yayılması nəticəsində isə bir sıra tayfaların, o cümlədən Mərkəzi Asiyadakı oğuz boylarının damğa işarələri prototipləri ilə müqayisədə tanınmaz vəziyyətə gətirilmişdir. Misal üçün, Mərkəzi Asiya və Krım damğalarına «süngü» və ya «çəkic» damğasının bir variantı olan «əlif» *(ərəb əlibasının ilk hərfi)* işarəsi də əlavə olunmuşdur.

Dünyanın ən qədim monoteist dinlərindən sayılan tanrıçılıq inancı damğa yaranışı prosesinə öz təsirini göstərmişdir. Bəzi mənbələrə əsasən, eramızdan əvvəl II-I minilliklərdə təşəkkül tapmış bu dinin xarakterik xüsusiyyətlərindən biri onun sinkretik mahiyyət daşıması, animizm, totemizm və qam-şaman inanclarının aparıcı elementlərini özündə qoruması, insanın ətraf aləmə, təbiətə üzvi bağlılığını saxlamasıdır. Yəni tanrıçı türklər təbiətə canlı varlıq kimi yanaşsalar da, suyun, torpağın, meşələrin, daşların, heyvanların və s. eyəsinin *(Azərbaycan dilində - əyəsi, yiyəsi),* gözəgörünməz sahiblərinin olmasına inansalar da, Tenri xana itaət edir, onu digər mifik qüvvələrin baş ilahisi hesab edirdilər. Çünki Tenqri xan *(Orxon-Yenisey abidələrində yazılışı -*

114 Яхтанигов Х. «Северекавказские тамги». Нальчик, 1993.
115 Yenə orada
116 Yenə orada

) təkdir, göydədir, əzəli və əbədidir, hökmlü, rəhmli və bağışlayandır. Onun bənzəri yoxdur, insanlara yol göstərir, alqışlarını *(dualarını)* qəbul edir, bilik verir, hər şeyi görür və yolunu azanları cəzalandırır. Tanrıçılıqda Səma və Günəş Tenqri xanın təcəssümü kimi qavranılır, bəzən «Göy Tanrı», «Gün Tanrı» kimi də adlandırılırdı. Uyğur alimi Abdüşükür Məhəmməd Emin də bildirir ki, türk, hun və uyğur xaqanlıqlarında Göy Tanrı türklərin baş ilahisi olmuşdur. Hətta şamanizmə tapınan insanlar da göy üzünü tanrılar məkanı, Tenqri xanı isə onların rəhbəri olduğunu qəbul etmişlər. Hər hansı vacib bir işə qərar verməzdən əvvəl Tanrının icazəsini almaq türklərin əski adətlərindən biri idi.

Qədim türklərin monoteist olmalarını, tək ilahiyə – Tanrıya sitayiş etmələrini qədim tarixçilər də vurğulamışlar. Məsələn, VII əsrdə yaşamış Bizans tarixçisi Feofilakt Simokatte göytürklərin müqəddəs saydıqları atəşə, suya, torpağa təzim etmələrinə baxmayaraq, yalnız Yerin və Göyün yaradıcısı olan Tanrıya tapındıqlarını bildirmişdir. Çin salnaməçisi Li Jin Xin isə qədim türklərin inandıqları Tanrının bütün kainatın sahibi olduğu barədə məlumat vermişdir.[117] Yeri gəlmişkən, məhz tanrıçılığın əsasını təşkil edən monoteizm prinsipi türklərin sonralar islam, xristianlıq və iudaizmi asanlıqla qəbul etmələrində əhəmiyyətli rol oynamışdır. Tanrıçılığın Altaylarda paralel olaraq «An» kimi adlandırılması və bəzi türk xalqlarında indi də bu kəlmənin «tanrıçılıq» sözünə sinonim kimi işlədilməsi onun köklərinin totemizmdən, prototürk mifologiyasından qaynaqlanmasından xəbər verir. Görkəmli xristian ilahiyyatçısı Aleksandr Men yazır: **«Şumerlərə görə, An bütün ilahilərin atası, göyün hakimi, dərk olunmayan və ələçatmaz varlıqdır. Görünür, o, daha qədim vaxtlarda şumerlərin əcdadları olmuş insanların baş ilahisi idi»**.[118] Etimoloji baxımdan «Tenqri» anlayışının kökündə «tan» *(dan yeri, Göy, sübh Günəşinin nuru)* və «ər» sözləri dayanır və «dan/tan əri», «Səma ilahisi» anlamını verir. Qədim şumerlər onun prototipinə «Dingir» deyir, qıpçaqlar «Tenqri», oğuzlar, o cümlədən azərbaycanlılar və Anadolu türkləri «Tanrı» və ya «Tarı», altaylılar, tatarlar «Tenqri» və ya «Tenqeri», saxa-yakutlar «Tanqara», kumıklar «Tengiri», qaraçay və balkarlar «Teyri», çuvaşlar isə «Tura» adlandırırdılar. Tarixin çeşidli dövrlərində ayrı-ayrı türk xalqları İslam, xristianlıq, iudaizm, tanrıçılıq, atəşpərəstlik, şamanizm,animizm kimi inancların sistemlərinə daxil olmuşdur. Lakin xüsusi olaraq vurğulanmalıdır

117 Bumairimu Abudukelimi. «Uygur türklerinin dinî inanişlari», Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara – 2006.

118 Мен А. «Магизм и единобожие», изд. «Слово», 1991.

ki, ən qədim dövrlərdən etibarən, türk xalqlarının monoteist dinlərə üstünlük verdikləri açıq bilinməkdədir. Zaman-zaman xarici müdaxilələr səbəbindən türklərin inanclarında fərqli təsirlər meydana çıxsa da, təktanrılıq onlar üçün həmişə xarakterik olmuş… onların islamlaşmasından sonra İslam dini ilə ahəngdarlıq təşkil etmişdir.[119]

İnsanlar Tenqri xana itaətlərini həm də damğalar ilə ifadə edir, onun rəmzlərini yaşayış məskənlərinə, silah, məişət əşyalarına həkk edir, boya və ya döymənaxışla *(tatu)* alınlarına çəkirdilər. Dərbənd yaxınlığındakı Biləncər şəhəri xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı tanrıçılıq məbədinin qalıqları və qədim Tenqri xan rəmzləri müəyyən edilmişdir. Belə rəmzlər  , o cümlədən bərabərtərəfli xaç işarələri  Baykal gölündən Dunay çayınadək uzanan nəhəng ərazidə - Dəşti-Qıpçaq çölündəki qədim məbəd xarabalıqlarında və məzar daşları üzərində də vardır.[120] Odur ki, Cənubi Qafqazda, xüsusilə Azərbaycanda xalçaçılıq, memarlıq, zərgərlik və daş üzərində oyma sənətlərində bu gün də istifadə olunan və qədim məzar daşlarındakı müxtəlif tipli bərabərtərəfli «xaç» işarələrinin böyük hissəsinin xristian dini ilə əlaqələndirilməsi tarixi, etnomədəni baxımdan yolverilməzdir və təkcə bilməməzliyin deyil, həm də milli-mədəni irsə hörmətsizliyin əlamətidir. Qazax, başqırd və tatar alimlərinin qənaətinə görə, tanrıçılıq dinini Avrasiyaya əslən Dərbənd şəhərindən olan tarixi şəxsiyyət - Qorqud Ata eramızın III əsrində gətirmişdir. Uşaq ikən valideynləri qam-şamanlığın sirlərini öyrənmək məqsədilə onu Altay dağlarına göndərmişdilər. Lakin eramızın 250-ci ilində Qorqud Tibetə gəlmiş, buradakı türk xalqlarının tanrıçılıq inancını qəbul etmiş, biliklərə yiyələndikdən sonra Tenqri xan təlimini yaymağa başlamışdır.[121] Yeri gəlmişkən, «Kitabi-Dədə Qorqud» dastanlarında islam layının örtə bilmədiyi tanrıçılıq elementləri bu ehtimalları təsdiqləməkdədir.

XATIRLATMA. Hunlar Tanrı/Tenqrini «Çen», «Çenli» *(«Tan Er» – Dan/Göy hakimi ifadəsinin sinonim variantı)* kimi tanıyır,[122] Günəşdə onun təcəssümünü görür, müqəddəs yerləri, xüsusilə uca dağları «Çiləntau», «Çilənşan» *(«şan» Çin dilində «dağ» deməkdir)* adlandırırdılar. Salnamələrdə

119 E.Habibbeyli, «Uyarlıqların Kavşağında Türk Dünyası», İstanbul, 2013

120 Про тенгрианство и крест животворящий. http://bulochnikov.livejournal.com/111404.html.

121 З.Наурзбаева. «Семь ипостасей Коркуда», http://www.otuken.kz.

122 «Казахская мифология и демонология», http://naturkaz.info.

hunların öz çadırlarını bərabərtərəfli Tanrı açası *(xaçı)* ✠ ilə yanaşı, Günəşi simvolizə edən «altun top», «qızıl alma», «döngələk» və s. adlandırılan qızılı dairə təsviri ilə ○ bəzədikləri, sübh tezdən əllərini Günəşə doğru açaraq alqış *(dua)* etdikləri qeyd olunur. Erməni tarixçisi M.Xorenatsi yazırdı: **«Sasanın oğlu Ərdəşirin ölümü ilə şahlıq oğlu Şapuxa qaldı. Onun zamanında Ermənistana şimal-şərq ölkəsindən, şimal xalqları içində birinci olan şanlı və böyük torpaqdan, mən ÇENLƏRİN torpağını deyirəm… Mamikonlar nəslinin əcdadı gəlir… Ərdəşirin ölümü ilində adı «Arbok Çenbakur», yəni onların dilində «dövlətin şərəfi» mənasını verən bir kəs** *(gəldi)*. **Onun Bxodox və Mamqun adlı iki süd qardaşı vardı,** *(hər ikisi)* **böyük satrap** *(vali, eltəbər)* **idi»[123].** VII əsrdə yaşamış erməni yepiskopu və tarixçisi Sebeosa aid edilən, əslində isə Q.Abqaryanın qənaətinə görə, həqiqi müəllifi bəlli olmayan və ən yaxşı halda XI ərin salnamələri əsasında XVIII-XIX yüzilliklərdə tərtib edilən əsərdən isə M.Xorenatsinin yazdıqlarından fərqli olaraq, Çen ölkəsindən «Ermənistana» satrap Mamqun deyil, Mamik və Konak adlı iki qardaşın gəldiyi bildirilir.[124]

Elə isə salnamələrdə adları çəkilən «çenlər» və ya «tçenlər» kimlərdir? Ksenofobiyadan əziyyət çəkən erməni tarixçiləri, o cümlədən M.Xorenatsinin əsərinə şərhlər yazan L.X.Ter-Mkrtıçyan bu toplumun etnik kimliyinin izahı zamanı iki «elmi qənaət» üzərində dayanır: **«Çen» sözünü «Çin» kimi oxuyaraq, onları ya etnik «çinli», ya da «bəzi mülahizələrə görə, Çinlə həmsərhəd bölgədə - Orta** *(Mərkəzi)* **Asiyada yaşayan və bu imperiya ilə hərbi münaqişə nəticəsində miqrasiya edən köçəri tayfalar» kimi təqdim edirlər».**[125] Təəssüf ki, «Çen» sözünün «Çin» kəlməsinə süni transformasiyasının etnosiyasi səbəbləri Azərbaycanda da diqqətdən kənarda qalmışdır. Nəticədə, bu toplumun guya eramızın III əsrində Şərqi Türküstandan *(müasir Çin Xalq Respublikasının ərazisindən)* köç etdiyinə görə «çinli» adlandırılmasına, tarixi Azərbaycan ərazilərində, o cümlədən Qərbi Azərbaycanda **«bu tayfa adının «çinli» etnoniminin toponimə transformasiyası kimi əks edilməsinə»,** Mamqunun guya «sinli tayfasının başçısı» (?) olmasına dair yanlış fikirlər elmi dövriyyəyə buraxılmışdır.[126]

123 Мовсес Хоренаци. «История Армении», перевод с древнеармянского языка, введение и примечания Гагика Саркисяна. Издательство: Ер., «Айастан», 1990

124 Г.Абгарян. «История Себеоса» и проблема Анонима. Ереван, 1965

125 Л.Тер-Мкртичян. «Армянские источники о Средней Азии, V-VII вв.», Москва, 1979.

126 B.Budaqov, Q.Qeybullayev. "Ermənistanda Azərbaycan mənşəli toponomlərin izahlı lüğəti». Bakı, 1998.

Halbuki, Şərqi Türküstandan Şərqi Avropayadək uzanan ərazidə nə «çenli», nə də «çinli» adları altında tanınan türk tayfası mövcud olmuşdur. Digər tərəfdən, məğlub tayfanın onu öz torpaqlarından çıxaran əzəli düşməninin adını götürüb şərəflə daşıması, açığı, inandırıcı deyildir. Bununla belə, erməni xristian mənbələrindəki «Çen» etnoniminin izahının «Çin» toponimi ilə deyil, məhz «kafir» dinin baş ilahisi Tanrı/Tenqrinin adlarından olan «Çen» və ya «Çenli» sözü ilə əlaqəli olması qənaətinin təsdiqinə yenə də Movses Xorenatsinin salnaməsində rast gəlirik. O, Mamikonun əcdadı olan Çen Bakurun adına «Dövlətin şərəfi» kimi izah verir. Akademik Yusif Yusifov «Bakur» sözünün əski türkcədə «böyük», «möhtəşəm» anlamında olduğunu bildirir.[127] Alman türkoloqu Yozef Makvart *(1864-1930)* «bakur» sözünün İran dilləri vasitəsilə yozumunu qətiyyətlə istisna edərək, onun etimologiyasını yenə də əski türk dilindəki «bakur», yəni «şərəf» kəlməsi ilə bağlayır.[128] Lakin hər iki sözün birləşməsinin «Çinlilərin şərəfi» kimi oxunması da qüsurludur.

«Çen» sözünün «Tanrı» kəlməsinin sinonimi olduğunu əsas götürərək, «Çen Bakur» adının «Tanrının şərəfi» kimi yozumunu daha düzgün və məntiqli hesab edir, Xorenatsi və Sebiosun xristian salnaməçiləri olaraq Mamiqunun mənsub olduğu tayfanın etnik mənşəyini deyil, məhz dini mənsubiyyətlərini, onların tanrıçılıq *(çenli)* inancına tapınmalarını vurğulamaları qənaətinə gəlirik. Bu baxımdan, Azərbaycanda və Türkiyədə yayılan yarımifik «Çənlibel» toponiminin etimoloji izahını da «Dumanlı dağ beli» kimi deyil, «Tanrı/Çen/Çenlinin yaşadığı yüksəklik» anlamında axtarmaq daha məntiqəuyğundur. Ehtimalın təsdiqi üçün Mirəli Seyidovun əsərlərinə müraciət edək. O yazırdı: **«Türk dillərində «bel» sözü ilkin olaraq dağ «dağ», «çevrə ruhu» sonra «tanrı» anlamını daşımışdır»**.[129] Təsadüfi deyildir ki, «Koroğlu» dastanında Alı kişi obrazına, xüsusilə onun və oğlu Rövşənin adlarının etimologiyasına *(al – qədim türk dillərində «uca», «müqəddəs»; Rövşən – farsca «işıq»)* toxunan alim Koroğlunu «Dağ tanrısının oğlu» kimi təqdim edir.[130]

Qədim türk dillərinin leksikasına söykənsək «Mamaqun», «Mamuxan», «Memuxan», «Mamikon», «Mamay», «Mamuk» kəlmələri və «Məmlük» sözü arasında təkcə fonetik yaxınlığı deyil, etimoloji eyniliyi də müşahidə

127 Ю.Юсифов. «Об актуальных проблемах этнической истории Азербайджана», http://myazerbaijan.org/index.php?p=history/46

128 J.Marquart. «Untersnchungen zur Geschichie von Iran», heft II, Leipzig, 1905.

129 M.Seyidov. «Azərbaycan xalqının soykökünü düşünərkən». Bakı: "Yazıçı", 1989.

130 Yenə orada

edə bilərik. Bəzi yozumlara əsasən, «mülk» kəlməsindən törənən «məmlük» sözü ərəblərdə «qul» mənasında işlədilirdi. Tanınmış qaraçay-balkar tarixçisi Nazir Budayev bu fikri haqlı olaraq rədd edir və məntiqini belə əsaslandırır: **«Məmlük» sözündə «-lük», «-luk» türk dili şəkilçiləri aydın şəkildə görünür. Qaraçay-balkar dilində «mamu» sözü sakral anlamda «canavar» bildirir. Türk döyüşçülərini «qurdlar»** *(canavarlar)* **adlandırmaq ənənəsinin isə qədim kökləri vardır. Çinlilərin zirehli türk süvarilərini «fuli»** *(canavarlar)* **adlandırmalarını da yada salaq. Qədim türklərin, eləcə də Atillanın bayrağını qızılı qurd başı təsviri bəzəyirdi».** N.Budayev əlavə olaraq qeyd edir ki, mifoloji canavar anlayışı qədim türklərin qurddan torənməsi haqqında əfsanə ilə əlaqəlidir. Bu əlaqə «bürüj», «börü», «aşina», Rusiyada «boriçeviçlər» kimi tayfaların adlarında da özünü birüzə verir. Orta əsrlərdə əsir götürülmüş türk yeniyetmələr Misirdə qapalı kazarmalarda yerləşdirilir, onlara gücləndirilmiş hərbi təlim keçirilir və hazırlıqlar bitənədək müəllimlərdən – veteran döyüşçülərdən savayı heç kəslə ünsiyyət saxlamırdılar. Bu gənclərə hərb sənətini öyrədən türk qvardiyaçıları gələcək döyüşçüləri «mamuluk» - «canavar balası» və ya «buzjigit» - «boz igid» adlandırırdılar: **«Diqqət yetirsək, atabəylər** *(gələcək hökmdar-döyüşçülərin hamiləri, müəllimləri)* **içərisində «Bozaba»** *(Boz canavar)***, «Börüxanəddin Musa», «İbrahim Börütekin» adlarına rast gələrik».**[131] Qazax araşdırmaçısı, «Məmlüklər» kitabının müəllifi Qayrat Beqalin də «məmlük» sözünün etimologiyasının «qul» kəlməsi ilə bağlanması yozumunu qətiyyətlə rədd edir və bildirir ki, heç kəs qurduğu dövləti «Qullar səltənəti», sultan taxtında əyləşdiyi halda isə özünü «abd» *(ərəb dilində – «Allahın qulu»)* əvəzinə, sadəcə olaraq «qul» adlandırmazdı. Q.Beqalin yazır: **«Sultan Baybars qul olmamışdır. İslam dinində müsəlmanın qul olması mümkünsüz idi. Onların bir çoxu hətta vilayətlərin əmiri olsalar da, ərəb dilini bilmir, türk dilində danışır və qvardiyaçılarını «mamuluk» və ya «mamuçuk» deyə çağırırdılar. Bu fikri dolayı yolla təsdiqləyən linqvistik amil isə qaraçaylarda və balkarlarda bugünədək «mamu» sözünün qurdun, canavarın totem adı kimi saxlanılmasıdır. Yeri gəlmişkən, Qızıl Orda sərkərdəsi Mamay xanın adı da «qurd balası»** *(ənik/anak – A.Q.)* **anlamını verirdi. Sibir xanlarından birinin – Mamçuk xanın adı da belə yozulurdu».**[132]

131 Н.Будаев. «Западные тюрки в странах Востока», Нальчик, 2002.

132 К.Бегалин. «Мамлюки», http://historylib.org/historybooks/Kayrat--Begalin_Mamlyuki/9

«Mamikon» və ya M.Xorenatsinin təbirincə «Mamqun», daha dəqiq desək, «Mamaqun» adı iki hissədən ibarətdir. Sözün birinci hissəsi olan «Mamaq» kəlməsinə «Kitabi-Dədə Qorqud» eposu personajlarından birinin - Dəmirdonlu Mamaqın, XV əsrdə şeybanilər sülaləsindən olan Kazan hökmdarı Mamaq xanın adında rast gəlirik. Bundan başqa, Türkiyədə, Ankara şəhərinin Mamak bölgəsi vardır. Krımda – 1948-ci il toponimika islahatlarınadək Simferopol rayonunun indiki «Stroqonovka» kəndi əvvəllər «Mamak» adı altında tanınırdı. Bu sözün etimologiyası qədim türk dillərində «tərifə layiq», «şanlı-şöhrətli» kimi yozulur. Yeri gəlmişkən, «Mamay» sözü də *(məsələn, Mamay xanın – XIV əsrdə Qızıl Orda dövlətində bəyələrbəyi, sərkərdəsinin adı)* bu anlamı verir. Adın ikinci hissəsi olan «qun» kəlməsi isə bir sıra elmi qənaətlərə görə, yüksək titul *(xan)* bildirir. Midiya sərkərdəsi Mamaqunun *(Memuxanın)* adı Tövratın «Esfir» kitabında da çəkilir: **«Onun** *(hökmdar Ərdəşirin/Artakserksin)* **yaxınları bunlar idilər: hökmdarın üzünü görə və şahlıqda birincilər sırasında əyləşə bilən - Kraşena, Şefar, Admarfa, Fareis, Meres, Marsena, MEMUXAN – parfların və midiyalıların yeddi hakimi».**[133] Erməni tarixçiləri isə bu iddialar azmış kimi, Səlcuq dövlətinin rəmzi olan ikibaşlı qartal təsvirini eyni ilə köçürərək, onun guya «erməni sülaləsi Mamikonların» gerbi kimi təqdim etməyə başlamışdır. Mamikonların türk mənşəli olduqlarını diqqətə alsaq, onların bu qənaətlərində müəyyən həqiqət payı vardır…

Bir sıra türk xalqlarının dillərində Orxon və Yenisey abidələrindəki qədim əlifba işarələri də «damğa» adlandırılır. Bu amil də damğaların daha qədim tarixə malik olduğunu, türk run hərflərinin nəsil, tayfa nişanları, kosmoqonik rəmzlər əsasında yaranması ideyasını təsdiqləməkdədir. Türkoloqlara yaxşı məlumdur ki, D əlifba işarəsinin «yay» və «Ay» kimi oxunması onun qrafik təsvir baxımından «yay» *(atıcı silah)* və «Ay» *(səma cismi)* bənzərində olmasıdır. Zahirən çadırı və ya Şərqi Sibir türklərinin ağac dirəklər üzərində qurulan taxta evlərini xatırladan ᛟ damğası run əlifbalarında da «b», «eb» *(ev)* kimi səslənir. Orxon əlifbasında «ok» kimi tələffüz olunan, eyni zamanda damğa kimi geniş yayılan ↑ və ya ↓ işarələrinin oxa bənzərliyi göz qabağındadır. Run əlifbasında «iç» şəklində səsləndirilən ᛉ qrafemi ideoqrafiyada əllərini qaldırıb Tanrıya dua edən bəndə və ya aman diləyən əsir anlamını verməkdədir. «At» mənasını verən ⌃ işarəsi S.Klyaştornıya

133 Тора, (Ефсир, 1-14), Иерусалим, изд. «Шамир», 1992

görə, yəhəri və minicinin ayaqlarını, «s» səsini bildirən nişanı damğalarda süngünü *(nizəni)*, təsviri *(art, arta)* iki dağ arasındakı dərəni, «ot» anlamını verən işarəsi torpaqdan baş qaldıran otu ifadə edir. «Bitik» *(əski türkcə: yazı),* «tumar» Azərbaycanın bəzi bölgələrində «pitik» *(metal, dəri və ya parçadan hazırlanmış üçkünc dua qabı)* adlanan işarəsi isə körpələri, ailəni, xəstələri, şəhid döyüşçülərin ruhlarını himayə edən Humay Ananın rəmzi sayılırdı. Buradan belə qənaətə gəlmək olar ki, Azərbaycan türkcəsində «sığallamaq», «nəvaziş göstərmək» anlamında işlədilən «başa tumar çəkmək», «tumarlamaq» ideomatik ifadələrinin etimoloji yozumu da məhz Humay Ananın qoruyucu funksiyasına söykənir. İki bitik damğasından ibarət işarə və onun çoxsaylı variantları Mərkəzi Asiyada «uyğur», «kos tumarşa» *(qoşa tumar*) kimi tanınır. Azərbaycanda və Anadoluda isə həm damğa, həm də nəzərlik xassəli xalça ornamenti kimi «saçbağı», müasir anlamda desək, «qız-gəlinlərin hörüklərinin ucuna vurulan bant» adlanır. Köçəri yaşam tərzi sürənlər bir sıra totem canlılara mistik keyfiyyətlər verirdilər. Məsələn, canavarın aşıq sümüyü *(diz qapaqlarından çıxan oynaq sümüyü)* sürünü canavar basqınlarından və oğrulardan qoruduğu üçün çobanlar onları yəhərdən asırdılar. Canavarın diz qapağı sümük xəstəliklərindən və nəzərdən, bayquşun caynaqları isə uşaqları bəd ruhlardan qoruyurdu.[134] Azərbaycanda «qarmaq», Anadoluda «qurd izi», noqaylarda «çapxanaçı» *(qılıncla döyüşən)*[135] adlanan damğa işarəsi də bir rəmz olaraq, xalçaçılıq ornamentləri sırasında nəzərlik xarakteri daşayırdı. «Qurd izinin» digər variantı isə sakral rəmz olaraq evi, təsərrüfatı yırtıcılardan hifz edirdi.

Bundan başqa, - oğuzların qayı, - dögər boylarını, - hunların aşina, - dulo tayfalarını, - suvarları, *(ama, ana, abak)* – Krımda türkmən, Qazaxıstanda abak tayfalarının, *(and)* - Əmir Teymurun damğasını, və rəmzləri Cənubi Qafqazda, Türkmənistanda, Qazaxıstanda, Özbəkistanda yaşamış alpan/alban tayfasının işarəsini və Çingiz xanın nəsil damğasını, burma qoç buynuzlarını xatırladan qrafik işarəsi kumukların qoçxar *(koçkar, qoçkar, qoşqar, koçkarok)* nəslini, - Krım tatarlarının və qazaxların jalayır *(cəlayir)* tayfalarını, - noqaylarda saraylar tayfasını və s. bildirir. Krım tarixçisi Həsən Ortəkinin qələmə aldığı qədim rəvayətə görə, əski türklərin

134 И.Богословская, «Зооморфные мотивы каракалпакского орнаментального искусства», http://www.sanat.orexca.com/rus/archive/2-09/irina_bogoslovskaya.shtml

135 Р.Керейтов, С.Червонная. «Эпиграфика Ногайской степи», Татарская археология. 2002-2003, №1-2(10-11) - http://tataroved.ru

Ulduz xan adlı hökmdarlarının nəvəsi Alanku xanın üç oğlu vardı. Krım türklərinin taraq/daraq damğasının hər dişi bu övladlardan birini təcəssüm etdirir. Daraq başdakı düzəni sahmanladığı kimi, bu damğa da türk tayfalarını birləşdirib araya gətirmişdir.[136] Tayfa damğalarının semantikasına gəldikdə isə Mahmud Kaşğarinin təsnifatına əsasən, oğuz tayfalarının çavuqlur boyunun fərqləndirmə nişanı «atlı» işarəsindən, qaraevli boyunun damğası, adından bəlli olduğu kimi, «ev» anlamı verən «qapı» və «atlı» rəmzlərinin birləşməsindən , salur boyunun damğası ox dəmrəsi və tayfanın onqonu olan qartal caynağının qrafik təsvirindən yaranmışdır.

Uzaq Şərqdən, Mərkəzi və Ön Asiyadan tutmuş Yaxın Şərqə, Avropanın içərilərinə doğru uzanan böyük bir coğrafi məkanda aparılan arxeoloji və etnoqrafik tədqiqatlar nəticəsində aşkar edilən qədim damğa işarələri prototürk və türk hüquq sisteminin genezisi barədə unikal informasiya mənbəyi olmaqla yanaşı, hərb sənətinə də nüfuz etmiş, tanınma və fərqləndirmə nişanları, mistik qoruyucu rəmzlər funksiyasını da daşımışdır. Türk xalqlarının məskunlaşdıqlara ərazilərdə, o cümlədən Ön və Mərkəzi Asiyada, Şimali Qafqazda, Çində bir sıra toponimlər, məsələn, «Tamqalı», «Tanbalı», «Damğalı», «Tamqalıtaş», «Nişanlı», «Nişantaş», «Yazılıdaş» və s. buradakı qayaüstü qədim damğa təsvirlərinə görə belə adlandırılmışdır. Müasir etnoqrafların və damğa tədqiqatçılarının ümumi qənaətinə görə, ilk dövrlərdə sakral əhəmiyyət daşıyan bu işarələr sonradan etnonimlərə *(sak, oğuz, qıpçaq, saxa, tirkeş və s.),* eləcə də tayfa və nəsil adlarına çevrilmişdir. Məsələn, Azərbaycan, Türkiyə, Şimali Qafqaz, Krım, Şərqi Avropa, Tatarıstan, Mərkəzi Asiya və Sibirdə yaşayan türk xalqlarında - «üç ox», - «on ox», - «baltalı», - «çemişli *(çömçəli),* - «abaklı», «yaylı», - «taraqlı» *(daraqlı),* - «koşqar», «koskar», «tumarlı», - «nayzalı» *(nizəli),* - «cəlayır» *(jalayır/yabalı*), - «bosaqalı» *(qapı çərçivəsi),* - «oxçulu», - «dəvəli» və s. nəsil və tayfaların adları məhz damğa təsvirlərindən götürülmüşdür.

Tayfa və nəsil adları ilə bağlı belə toponimikaya tarixi Azərbaycan ərazilərində də geniş rast gəlinir. Onların bəzilərinin adlarını və ənənəvi damğa işarələrini təqdim edirik.

Azərbaycan Respublikası ərazisində: ***Bəlkə*** - «nişan», «nişangah» anlamı verən «bəlgə», «bilgə» sözünün təhrif olunmuş forması - Naxçıvan

136 Ö.Ömer, Köstence, Romanya, http://www.yalquzaq.com/?p=1038.

Muxtar Respublikasında dağ; ***Yaycı*** – Naxçıvan MR-in Şərur və Culfa rayonlarında kəndlər; ***Qoşqar*** – Daşkəsən rayonunda dağ və çay; ***Qurdlar*** – Ağdam rayonu ərazisində kənd; ***İlanlı*** – Qobustan rayonunda kənd; ***Baltalı*** – Şəki rayonunda kənd və Qax rayonu ərazisində düzən; ***Oxçu*** – Zəngilan rayonu ərazisində çay və s.[137]

Qərbi Azərbaycanda, indiki Ermənistan Respublikasının ərazisində: ***Damğa*** *(1590-cı ildə Zar nahiyyəsində kənd);* ***Andi*** - and *(qədim türk dillərində «müdafiə etmək», «qorumaq»)* damğası, qardaşlaşma, nəsil, tayfa ittifaqı rəmzi - *(İrəvan xanlığının Vedibasar qəzasında kənd. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi çıxarılmış və dağıdılmışdır);* ***Andi*** *(Dərəçiçək mahalında kənd. XIX əsrin ortalarından sonra bu kəndin adı çəkilmir);* ***Yuxarı Andi*** *(Qafan rayonunda kənd);* ***Arıqlı*** (*1728-ci ildə Şirakel nahiyyəsində kənd),* ***Arıqlı*** - güman ki, «kösov» və «maşa» anlamı verən «irqak», «irqaklı» sözünün təhrif edilmiş formasıdır - *(Zəngəzur qəzasında kənd. Əhalisi 1918-ci ildə qovulmuşdur);* ***Aşağı Qamçı*** - *(Eçmiədzin qəzasında kənd, 1877-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi oradan çıxarılmışdır);* ***Çəmbərək*** - çəmbər, Gün damğası, altun top, dönbələk və s. - (*1946-cı ildən «Baqramabert» adlandırılır);* ***Yuxarı Çəmbərək, Aşağı Çəmbərək*** *(Qazax qəzasında, indiki Ermənistanın Krasnoselsk rayonunda kəndlər);* ***Çəmbərək*** *(XX əsrin 30-cu illərində rayon adı)*; ***Qayçı*** - *(Vedi nahiyəsində kənd);* ***Qapılı*** - *(Şirakel nahiyyəsində kənd);* ***Qarğılı*** – süngü, nizə damğası - *(1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd)*; ***Qılıclı*** - *(Dərələyəz qəzasında, Zəngəzur qəzasında kəndlər);* ***Qoçbaş*** - *(Sürməli qəzasında dağ və kənd adı);* ***Qoçqar qışlağı*** - *(Zarzəmin nahiyyəsində kənd);* ***Qurdlar*** – qurd başı damğası - *(indiki Sisyan rayonunda kənd. Əhalisi 1968-ci ildə qovulduqdan sonra dağıdılmışdır)*; ***Dirəkli, Dirəklər*** - Taraqlı/daraqlı türk tayfasının adı ilə bağlıdır. *(1728-ci ildə Şirakel nahiyyəsində və Aleksandropol qəzasında kənd adları).* Bəzi ehtimallara görə, semantika baxımından baytərək/baytörə, çadır, alıçıq dirəyi, Dirilik Ağacı anlamı verən işarə ilə də əlaqəli ola bilər*;* ***Yaycı*** - Yayçı, yay-ox damğası - *(Dərəçiçək, İqdır nahiyəsində, Zəngəzur qəzasında kənd adları)*; ***Yoncalı*** - əski türklərdə nəzərlik anlamında olan üçyarpaq yonca - *(1590-cı ilə Karpi nahiyəsində kənd)*; ***Günəşli*** - Gün damğası, Nurullah

137 Toponimikaya aid məlumat aşağıdakı mənbədən götürülmüşdür:
«Azərbaycan toponimləri. Ensiklopedik lüğət», Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, 1999.

- ○ *(Basarkeçər rayonunda kənd, Noyemberyan rayonunda qışlaq);* ***Oxçu*** - ox damğası - ↓↑ *(Zəngəzur qəzasında kənd. 1918-ci ildə əhalisi çıxarılmış və burada Türkiyədən gələn ermənilər yerləşdirilmişdir);* ***Tamartaş*** - tumar damğası, nəzərlik, pitik - △ *(1728-ci ilə aid mənbədə Şirakel nahiyəsində kənd, Aleksandropol qəzasında qışlaq);* **Təkərli** -Tenqri xan-Günəş, İkibaşlı qartal rəmzinin İslamdan sonrakı adı - ⊕⊛⊛ *(Eçmiədzin qəzasında kənd);* ***Xaçlı*** - aşamay, elşən, sarkay, bərabərtərəfli Tenqri və Humay Ana açası/xaçı - ✝ *(1728-ci ildə Karpi nahiyəsində kənd);* ***İlanlı*** -ilan damğa - ∽ *(Qırxbulaq, Şirakel, Mərzə nahiyələrində kəndlər)* və s. [138] Amma bəzi hallarda onların etimoloji izahında yanlışlığa yol verilir, etnonim kimi təqdim olunaraq mövcud olmayan xalq və tayfaların adları ilə bağlanır. Məsələn, toponimika ilə bağlı ədəbiyyatda dağlıq Kəlbəcər bölgəsində yerləşən Damğalı kəndinin etimologiyası nədənsə «monqolların Azərbaycana yürüşləri zamanı burada məskunlaşmış damğalı tayfasının» adı ilə yozulur.[139] Halbuki, yaşam tərzi açıq çöl şəraitinə uyğunlaşmış «monqolların» dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, sərt qayalar arasında məskən salması inandırıcı qənaət deyildir.

Bu ənənə digər türkdilli xalqlarda da geniş yayılmışdır. Dağıstan Respublikasının Babayurd *(Babayurtovsk)* bölgəsində yaşayan noqaylar damğa adlarına görə müxtəlif nəsillərə bölünmüşlər. Məsələn, Y işarəsini daşıyanlar «baqana nayman» *(dayaq neman)*, T - «ergenek nayman» *(damğa «balta», «çəkic» anlamını versə də, «ergen» sözü «düz» və ya «qoşa qapı çatısı» mənalarında işlədilir –* **A.Q.),** ✝ - «kires nayman» *(işarənin əsl adı «açа», «açamay», «erşən» olsa da, görünür, sonralar adı rus dilindəki «krest» - xaç sözü ilə əvəzlənmişdir).* Dağıstanın Kizlar, Tarum, Stavropol vilayətinin Neftekumsk rayonlarında isə ∩ – «bakay *(qovs)* nayman, X - «aşamaylı naman» nəsilləri yaşayırlar. Kubanda məskunlaşmış noqaylar arasında isə Ш - «daraq nayman», ⅄ - «kılış nayman» *(qılınc nayman),* T - «şuquş nayman» *(çəkic nayman)*, Ш - «xantamqalı nayman» və s. adlarına rast gəlinir.[140] Bundan başqa, Özbəkistanın Səmərqənd, Cizak və Daşkənd vilayətlərindəki «Aytamğali» toponimi özbəklərin kurama, dürmən, kunqrat tayfalarını

138 Yer adlarının müəyyən olunmasında B.Budaqov və Q.Qeybullayevin «Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti» (Bakı, 1998) kitabından istifadə edilmişdir.

139 «Azərbaycan toponimləri. Ensiklopedik lüğət», Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, 1999.

140 Р.Керейтов. «Найманский компонент в этногенезе ногайцев и его параллели у других народов», http://turkolog.narod.ru/info/I310.htm

birləşdirən ittifaqın rəmzi - Ay damğası ilə əlaqəlidir. Daşkənd vilayətindəki osamayli tayfasına isə, adından bəlli olduğu kimi, - açamay *(Humay açası/ xaçı)* işarəsi məxsusdur. Eyni zamanda, özbəklərdə - «balqalı» *(baltalı),* - «qoştamqalı» *(qoşa damğalı)*, - «sirqali» tayfaları da öz adlarını damğa təsvirlərindən götürmüşlər.[141]

Başqa bir misal. «Qıpçaq» etimologiyasına dair müxtəlif fikir və mülahizələr mövcudddur və onların bir çoxu qədim rəvayətlər üzərində qurulmuşdur. Fəzlullah Rəşidəddinin «Oğuznamə» əsərinə əsasən, bu kəlmə «kabuk» *(ağac qabığı)* sözündən yaranmışdır. Rəvayətə görə, qıpçaqların ulu babası körpə ikən ağac koğuşunda tapılmışdır. Digər tədqiqatçılar qıpçaqların böyük hissəsinin ağbəniz və açıq saçlı olduğu barədə mülahizələrə söykənərək, sözün kökündə «kuba», yəni «sarışın» kəlməsinin dayandığını iddia edirlər. Başqa bir qənaətə əsasən, etnonim qədim türk kəlməsi olan və sonralar hun hərb sənətində də yayılan «kapçaq» *(mühasirəyə alan, darmadağın edən)* sözündən törənmişdir. Oljas Suleymenov isə onun etimologiyasını bilavasitə damğa işarələri ilə əlaqələndirir. Məlumdur ki, «süngü» adlanan rəmz bir tayfa, iki nizə işarəsindən ibarət damğasının semantikası isə «iki tayfanın birliyi» kimi yozulur. Bu məntiqə əsaslansaq, Hun və Xəzər imperiyalarının tərkibində olan arqun tayfasının damğa işarələrindən birini «konfederasiya», «tayfa ittifaqı» kimi izah etmək mümkündür. Oğuzlar bu işarəni «qoşa ox» adlandırırlar. O.Suleymenov bu damğanın Mərkəzi Asiyada, Şimali Qafqazda, noqay çöllərində geniş yayılmış adını - «eki pşak» *(iki bıçaq)* ifadəsini əsas götürərək, tayfa birləşmələri əsasında yaranmış «qıpçaq» sözünü həmin işarə ilə bağlayır.[142]

Əcdad *(Atalar)* kultu, ulu babaların ruhuna ehtiram göstərmək, tapınmaq, onların adına qurbanlar kəsmək ənənəsi qədim türk inanclarının aparıcı elementlərindən biri idi. Mərkəzi Asiya və Şərqi Sibirin türk tayfaları arasında yayılmış adətə görə, keçə, parça və ya dəridən, ağacdan əcdadların fiqurları - uyuqlar düzəldilir, içərisi yun, at tükü ilə doldurulur, onların üzərinə tanınma və fərqləndirmə nişanları - mənsub olduqları tayfanın, nəslin damğa işarələri həkk olunurdu. Altaylarda və uyğurlarda belə fiqurlar *(uyuqlar)* «mənşə», «kök» anlamı verən «töz» və ya «tös», «tösün», «tanqara» *(damğa),*

141 «Топонимы Угам-Чаткальского Национального Парка», http://www.orexca.com/rus/toponyms_ty-an-shan.shtml

142 О.Сулейменов. «Аз и Я. Книга благонамеренного читателя». М., изд. Грифон, 2005.

«kuqurcaq» adlandırılır, evin yuxarı başından asılır, köç zamanı isə böyük ehtiramla xüsusi torbalarda daşınırdı. Əbülqazi Bahadur xan Xiveli *(1603-1664)* uyğurların bu adəti haqqında belə yazırdı: **«Bir kimsənin yaxını öldüyü zaman onun surətini düzəldər və evdə saxlardılar». Uyğur ova çıxarkən bu surətin önündə baş əyər, «əcdadların ruhları mənə kömək olsun» deyib, tösünün dodaqlarına yağ çəkərdi».** Nə qədər qəribə səslənsə də, bu gün bostan və meyvə bağlarında, tarlalarda uyuqların qoyulmasının ənənəsinin kökündə də həmin ayinin unudulmuş elementləri - məhsulun mühafizəsi üçün onu əcdadlara tapşırmaq istəyi dayanır. Bu inancın bəzi işartıları Azərbaycan xalçaçılıq sənətində istifadə olunan ornamentlərdə bu gün də qalmaqdadır.





1.Azərbaycan xalçaçılığında əcdad kultu elementi. Haşiyə ornamentində nəslin ulu əcdadı, baş hissəsində Qaba Ağacın (Dirilik ağacı, Həyat ağacı) rəmzinin stilizə olunmuş variantı, sinəsində isə mənsub olduğu tayfanın damğası («At» - yəhər+ minici) təsvir olunmuşdur. Bu işarə həm də oğuzların qaraevli tayfasına məxsus damğanın elementlərindən biridir. Aşağı hissədə nəslin törəmə qollarının sayını göstərən dörd bərabərtərəfli çəpəki açanın təsvirləri verilmişdir. 2.Azərbaycanın xalça sənətində əcdad kultuna dair daha bir ornament. Təsvirin mərkəzində Humay Ananın rəmzlərindən olan «tumar» və «daraq» damğa işarələri əks olunmuşdur.

Azərbaycanın Qobustan, Gəmiqaya, Kəlbəcər, Quşçu, Abşeron, Göyçə qayaüstü təsvirlərindən, qədim maddi-mədəniyyət nümunələrindən, Şərqi Sibir və Mərkəzi Asiya ərazilərindəki yazılı kitabələrdən, məzar daşlarından göründüyü kimi, ibtidai damğalar sadə həndəsi fiqurlar *(kəsişən və paralel xətlər, dairə, üçbucaq, dördbucaq və s.)* şəklində olmuş, zaman keçdikcə onların sırasına ezoterik məna daşıyan piktoqramlar – totem quş, heyvan və ağacların qrafik obrazları, silah və məişət əşyalarının, səma cisimlərinin, mifik canlıların təsvirləri və s. əlavə edilmişdir. Qeyd olunduğu kimi, damğa

işarələrinin semantik izahı tarixi və etnoqrafik araşdırmalar üçün zəngin və ən obyektiv məlumat qaynaqlarındandır. Şimali və Cənubi Qafqaz, Şərqi Anadolu ərazilərindəki qədim maddi-mədəniyyət nümunələri, qayaüstü təsvirlər üzərindəki damğa işarələri və Şərqi Avropa, Yaxın və Uzaq Şərq, Krım, Mərkəzi Asiya, Şərqi Sibirdəki petroqliflər arasında paralellər türk xalqlarının tarixən məskunlaşdığı nəhəng etnomədəni məkanın hüdudlarını göstərməkdədir. Eyni damğa tiplərinin fərqli regionlarda aşkar olunmasına və ya onların müxtəlif zaman kəsiklərində fərqli tayfaların və ya tayfa birliklərinin rəmzlərinə çevrilməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu, türk xalqlarının yaşayış məskənləri, onların miqrasiya istiqamətlərinin və ayrı-ayrı tarixi olayların – hərbi-siyasi məqsədlər naminə konfederasiyaların yaranması prosesinin göstəricisidir. Zaman keçdikcə bəzi sakral damğaların populyarlığı, mistik gücünə inam o dərəcədə artmışdır ki, hətta ayrı-ayrı nəsil və tayfalar onların adlarını daşımağa başlamışlar. Məsələn, Krım tatarlarının «caytamqalı» *(caytamqa/yay damğası* ⌓*),* noqaylarda «sırğalı» anlamını verən serkeli *(serke/sırğa* 𐌓*)*, toyirmalı *(toyirma/doyurma – iri qazanlarda aş/xörək bişirmək üçün əyri qulplu çömçə* ♀*),* qazaxlarda aşamay *(Humay Ananın açası/xaçı* ✝*)* və taraqlı *(taraq/daraq, dırmıx* ⊓ Ш*)* tayfalarının və s. adları məhz damğa işarələri əsasında yaranmışdır.

Qeyd edildiyi kimi, mnemonik rəmz kimi türk damğalarını digər xalqların tanınma-fərqləndirmə nişanlarından fərqləndirən əsas xüsusiyyət onların lakonikliyi, əksər hallarda bir və ya iki fraqmentdən ibarət olmasıdır. Bundan başqa, onların özəlliklərindən biri islam və xristianlığın türk xalqları arasında yayılmasından sonra semantikalarının dəyişməsi, əksər hallarda qrafik oxşarlığa görə ayrı-ayrı predmetlərin adlarını daşımalarıdır. Nəticədə, müxtəlif xalqlarda eyni damğa işarəsinə fərqli adların verilməsinin şahidi oluruq. Aşağıda geniş yayılmış türk damğa işarələrinin təsvirlərini, tiplərini, bəzilərinin isə oğuz və qıpçaq adlarını diqqətə çatdırırıq:

Kosmoqonik *(kainatın, dünyanın yaranışı)* **və dini inanclarla əlaqəli damğalar:** X + ✠ ✠ - Tenqri, Humay rəmzi, haça, aça, aşa, sarakay, haç, xaç, aşamay, sarakay, elşən; ✳ - Günəş; ○ ⌖ - Günəş, Nurullah, baybike, döngələk, domalaq, xalxa/halqa, altun top; ☽ ☾ ○ D - Ay; 5 ⌕ - quyruqlu Ay, ⊕ ⊗ ⊛ ⊛ - Günəş, təkər, batbay; ⚕ ⚕ ⚕ ⚕ ⚕ ⚕ - Dirilik/Həyat ağacı; ☪ ⚓ ⚓ ⚓ ⚓ ⚓ - Ay-Günəş *(Ay-ulduz);* ☪ - balalı Ay; Y - hörüklü Ay; ⛁

- ürəkli Ay; - dolanqaç *(kainat rəmzi, spiral)*; - təpə xaç, subaş, sarman, dörd ünsür, çərxi-fələk, qaz, qaz təpiyi, şəmsi-gərdan *(farsca: Günəşin bədəni);* - əl *(hz.Fatmeyi-Zəhranın rəmzi);* *- bitik, tumar (Humay Ananın rəmzi);* - koştumarşa *(qoşa tumar),* saçbağı və s.

Antropomorf *(stilizə olunmuş kişi və qadın fiqurları, bədən hissələri)* **rəmzlər:** - ər, döyüşçü, insan; - atlı; - Manas, ilk insan; - göz - barmaq; - amak *(qadın başlanğıcının rəmzi)* və s.

Zoomorf *(totem xarakterli real canlılar və mifik varlıqlarla bağlı)* **və nəbati işarələr:** - qoç, qoşqar/koçkar, koçkorok; - koskar, qoşqar; - ayı başı; - at; - atlar; - qarmaq, kumırska bel *(qarışqa beli),* «it quyruğu», «qaz moyın» *(qaz boynu),* «bota moyan» *(köşək boynu)*; - qurd izi; - tışkan iz *(tuşqan/ərəbdövşanı, siçan izi)*; - balıq; - qurd başı, «İskəndər damğası»; - ilan; - ittaban *(it dabanı)*; - balıq gözü - qaz ayağı; - ikibaşlı qartal, - ot; - at dırnağı, nal - sınıq buynuz, - qoşa buynuz və s.

Titul, ayin və hərəkətlərlə bağlı: - xan damğası, daraq, baltavar, yavlan; - and, qana and içmək; - en/enmək; - barxan *(qum təbəciyi),* məkunlaşmaq, çadır qurmaq, binə salmaq; - koşok/qoşa ox, iki bıçaq *(tayfa birliklərini bildirir),* iki qabırğa; - əlif-lam *(ərəb hərfləri);* - Novruz damğası və s.

Silah, məişət predmetləri - - ev; - yay *(atıcı silah növü)*; - ocaq; - balta; - yay-ox; - ox; - qayçı; - baytörə, üstün, başkan, baxan, bakan; - beşik; - hənək/sənək, durbaş, ayır, ikidişli döyüş yabası, hökm verən əl, hakimiyyət rəmzi; - eşik/qapı; - ev; - kuray/qarğı, ney; - ikiağızlı qartal, qazan; - eb/ev; - alban, çumiş/çömçə; - qumquma, dəridən su qabı, - yüyən; - və ya - irqaq, buzluqdan buz çıxarmaq üçün ucu əyri metal qarmaq, kösöy/kösöv; - qazan, çakçak; - bosaqa/qapı çatısı *(çərçivəsi);* - alaçıq qapısı; - aya *(ovuc içi, sapandın daş qoyulan dəri hissəsi)*; - üzəngi; - qarmaq; - qaşov; - çəkic, kərki, təbər, sakar *(ikiağızlı balta)*; - açar; - qılınc; - sadak, tirkeş, oxdan, oxçanta; - daraq, - ikiqat çəkic;

- oraq; - quşqun *(atın quyruğu altından bağlanan yəhər qayışı)*; - sınıq sənək, - ocaq və s.

Damğaların öyrənilməsində əsas şərtlərdən biri eyni işarənin eyni etnik qrup içərisində müxtəlif tarixi dövrlərdə baş vermiş etnomədəni prooseslərin və xüsusilə din amilinin nəzərə alınması, bunların nəticəsində onların adlarının dəyişdirilməsi, bəzən isə təhrif edilməsidir. Məsələn, qıpçaqlar arasında çoxsaylı boylarından olan dulat *(duqlat, dulu, dulo, doqlat)* tayfasının damğası və tanrıçılıq dinində Günəşin totem rəmzi sayılan işarə ilk vaxtlar ehtiramla «Gün belgisi» *(Günəşin nişanı)*, «Domalak ana», «Sarı baybişe» adlandırılır, özlərini isə qürurla «Gün tambalı dulat» çağırırdılar. Lakin islam dini qıpçaqlar arasında yayıldıqdan sonra damğanın ilk sakral əhəmiyyəti azalmış və sadəcə olaraq «domalak» *(yumru)* adlandırılmağa başlanmışdır. Domalak dulat tayfasının iri qollarından olan alban, botpay , seykim nəsillərinin fərqləndirmə nişanlarının əsas ünsürü idi. Qazax tədqiqatçısı Maxambet Auezov yazır ki, Monqolustan çöllərindən Şərqi Avropayadək yayılmış kirey tayfasının bir qolu XI əsrdə xristianlığı qəbul etsə də, xaç rəmzinə tapınmaq onlara qədim tanrıçılıq dinindən qalmışdır. Onlar əvvəl də, sonra da döyüşə gedərkən boya ilə alınlarına tayfa damğasının təsvirlərini Tenqri xan və Umay Ana işarələrini bərabərtərəfli açanı + və ya × çəkərdilər.[143]

Göründüyü kimi, konkret tarixi hadisələr - türk etnomədəni məkanında xristianlığın, maniliyin, buddizmin, islam dininin yayılması, ənənəvi inancları əvəzləməsi, bir mədəniyyətin digərini üstələməsi, kütləvi miqrasiya prosesləri, irimiqyaslı müharibələr və s. nəticəsində bir sıra damğaların həqiqi adları ya unudulmuş, ya təhrif olunmuş, ya da bilərəkdən dəyişdirilmişdir. Məsələn, tanrıçılıq dinində geniş yayılan bərabərtərəfli xaç işarələrindən birinin – Tenqri xanın, Günəşin, ilahə Humay Ananın *(Umay, May, Mayane və s.)* rəmzlərindən sayılan «açа May» *(açа Umay, Humay xaçı)* + × Mərkəzi və Ön Asiyada islam dininin möhkəmlənməsindən sonra özünün əvvəlki kult əhəmiyyətini tamamilə itirmiş, oğuz və qıpçaq tayfalarında sadə damğa nişanlarından biri olaraq qalmışdır. Qədim dövrlərdə Ön və Mərkəzi Asiya, Yaxın Şərq və Altay sakinlərinin müxtəlif adlarla tapındıqları bu ilahəyə şumerlər «Nana» *(türk dillərində «böyük ana» anlamını verən «nənə» sözü*

143 М.Ауэзов. «Казахские тамги – знак племени, или Печати времени», «Деловая неделя», 23.12.2005.

ilə səsləşir), skiflər «Api» *(əski türkcədə: apa, ana)* deyirdilər. Azərbaycanda o, «Nənə» və «Humay», Altaylarda və Mərkəzi Asiyada isə «Umay», «May Ana», «May», «Mayene» adlandırılırdı. Türk xalqlarının böyük hissəsinin islam dinini qəbul etdikdən sonra tanrıçılıq rəmzləri olan bir sıra damğa işarələri xristian dininin vizual atributları ilə eyniləşdirildiyindən Turan etnomədəni məkanının əksər ərazilərində onlar ya unudulmuş, ya adları və sakral təyinatları təhrif olunmuş, ən yaxşı halda isə milli tətbiqi sənətin bəzək elementi kimi qalmışdır. Bu ezoterik simvolin İsa Məsih təlimindən 4-5 min il əvvəl yaranmasına baxmayaraq, zahirən xristian dini rəmzinə *(Müqəddəs Andrey xaçına)* bənzədildiyi üçün onun adı «aşamay» şəklində təhrif edilmişdir. Nəticədə, orta əsrlərdə və elə müasir dövrümüzdə də Qazaxıstanda, Qırğızıstanda, Krımda «aşamay» dedikdə Humay Ananın xaç işarəsi deyil, uşaq və qadınlara at minməyi öyrətmək üçün yerdə X və ya + şəkilli bərabərtərəfli dayaqlar üzərinə bərkidilən təlim yəhərləri nəzərdə tutulur. Sözün etimologiyası isə daha «qoruyan» kimi deyil, «aşmayan», «yıxılmağa qoymayan» anlamında yozulmağa başlayır. Həmin damğa işarəsi X noqaylarda əsasən «aşamay» *(dəvə yəhəri)*, «çələk» *(talvar, çardaq)* kimi tanınsa da, digər variantı isə fonetik səsləndirilməsi qismən saxlanılmaqla «aş maylı» *(aş yeməyənlər, ac qalanlar)* tayfasının adı kimi yozulmuşdur.[144]

XVII əsrdə yaşamış naməlum müəllifin yazdığı «Dəftəri-Çingiznamə» əsərində isə X işarəsinin adı «aşamay» deyil, «Açamay» *(aça Umay)* kimi verilmişdir. Kitabda qeyd olunur: «**Tumavul Mergen söylədi ki, «Ey Ula Məlik, mənim sevgimin nişanı ağacım** *(töz – nəsil ağacı)* **karaqay** *(şam ağacı),* **quşum** *(onqon)* **Şonqar, başımı darayacaq** *(məni qoruyacaq)* **damğam isə Açamay olsun. O üzdən «Açamay damğa» dedilər».** Bununla belə, bəzi tədqiqatçılar «Dəftəri-Çingiznamə» əsərində verilmiş bir təsvirə əsasən, Açamay damğanı qüsurlu olaraq «ağac budağı» kimi təqdim edirlər.[145] Halbuki, salnamənin sonrakı mətnində aydın şəkildə bildirilir: «**Xan sözə başlayıb Buduncar oğlu Kıyata belə söylədi ki, sənin damğan Açmay, yəni Evirnə** *(bir-birinə çarpaz birləşdirilmiş iki ağac)* **damğa olsun. Görünüşü isə budur - ».**[146]

144 Р.Керейтов, С.Червонная. «Эпиграфика Ногайской степи», Татарская археология. 2002-2003, №1-2(10-11) - http://tataroved.ru

145 Tuncer Gülensoy, «Orhundan Anadoluya Türk damğaları». İstanbul, 1989.

146 F.Toprak. "Defter-i Cengiz-nāme"de boy nişanları ve damgalar", http://www.turkishstudies.net/Makaleler/1506334836_2toprakfunda.pdf

Bu gün Dağıstan və Krımdakı türk xalqlarının, Kuban kazaklarının qoyun dərisindən tikilmiş papaqlarının üst tərəfindəki *(səmadakı Tanrının öz döyüçüsünü fərqləndirməsi üçün)* «xaçvari» ornamentləri – Tenqri xan və Humay Ana rəmzləri ┼ ⊕ zaman keçdikcə xristianlaşdırılsa da, ilkin semantikalarını *(İsa Məsihin göydən öz sadiq bəndələrini müşahidə etməsini)* qoruyub saxlaya bilmişdir.

Rusiyalı tədqiqatçı Nikolay Mininkov Kuban kazaklarının etnik mənşəyi məsələsinə toxunmadan onların geyimlərində türk elementlərinin olması səbəblərini belə izah edir: «Onların paltarları, baş geyimləri və silahları digər tayfalara və xalqlara məxsus idi. Uzun müddət onların öz geyimləri olmayıb. Rus, türk, çərkəz, tatar geyimləri, bəzən isə müxtəlif xalqlara aid paltar elementlərinin məcmusu qəribə təəssürat oyadırdı».[147] XVIII əsrdə yaşamış etnoqraf İ.Georqi kazakların milli geyimlərini belə xarakterizə edirdi: **«Bütün kazaklar bəzən polşalılar sayağı, əksər hallarda isə tatarlar** *(türklər – A.Q.)* **kimi geyinirdilər… Başlarına qoyun dərisindən dəyirmi və kənarları hündür papaqlar qoyurdular».**[148] Tatar alimi, Sankt-Peterburq Universitetinin professoru Riza Bariyev isə Kuban kazaklarının milli kimliyi barədə bunları yazır: **«Kazakların etnik təməlini tarixən bu ərazilərdə yaşamış türk tayfaları təşkil edir. Əcdadlarımız monoteist dinlərə – xristianlıq və islama tapınandan sonra bölünmüş, onlar arasında dini birlik qan qohumluğunu üstələmiş, beləliklə, «rus kazaklarına» çevrilmişlər».**[149]

Onu da qeyd edək ki, ilk türk və ya prototürk tayfalarının, o cümlədən saka/skiflərin, sarmatların, massagetlərin Şimali və Cənubi Qafqaz ərazilərində, Qara dənizin şimal və şərq sahillərində məskunlaşması bu gün tarixçi və etnoqrafların, antropoloqların müzakirə mövzularından biridir. Vaxtilə Zelik Yampolski, Mirfatah Zəkiyev kimi alimlər türklərin bu torpaqlarda hələ bizim eradan əvvəl yaşamasını sübut etsələr də, məhz tarix elmini siyasiləşdirmək meyilləri bu tədqiqatların inkişafına ciddi əngəl olmuşdur. Məsələn, hələ 1966-cı ildə arxeoloji materiallar əsasında bu qənaətə gəlinmişdir ki, türklərin əcdadları Qafqazda, o cümlədən Azərbaycanda hələ miladdan əvvəl II-I minilliklərdə yaşamış, yarımköçəri həyat tərzi sürmüşlər. Bundan

147 Н.Миннников. «Донская казачество в эпохе позднего средневековья (до 1671 г.)». Ростов н/Д., 1998.
148 «Донской народный костюм» Ростов н/Д, 1986.
149 Р.Барийев. «Казаки – коренные жители юга Росии». http://passion-don.org/kazak/bariev_1.html.

başqa, eramızdan əvvəl XIV əsrə aid Assuriya mixi yazılarında Urmiyə gölü sahillərindəki «turukkular» barədə qeyd olunmuşdur.[150]

Şimali və Cənubi Qafqaz ərazilərində geniş yayılan türk işarələri hələ 1636-cı ildə burada səfərdə olmuş alman diplomatı və səyyahı Adam Olearinin də diqqətindən qaçmamışdır. Səyyah «Moskoviya və Moskoviyadan keçməklə İrana, oradan geriyə səyahətin təsviri» əsərində Azərbaycandakı «Barmak» *(Beşbarmaq)* dağı haqqında təəssüratlarını belə ifadə edirdi: **«Bu dağ Xəzər sahilindən iki muşket mənzili** *(güllə mənzili)* **məsafədə yerləşir. Uzaqdan görünən dağın əhatəsi dairəvi şəkildədir, yuxarı hissəsi isə getdikcə bütöv qayaya çevrilir... Qaya türkcə «Barmaq» adlanır. Sanki əlin açılmış barmaqları kimi dağlardan yüksəkliyə ucalır».**[151] Qolştiniyya elçisi bu dağın ətəyindəki qədim karvansaranın daş divarlarında gördüyü damğaların bəzilərinin təsvirlərini  öz gündəliyinə köçürmüş və səhvən onları «əlifba işarələri» adlandırmışdır. Olearinin haqqında bəhs etdiyi etnik türk işarələrinin müxtəlif variantları bu gün Azərbaycanın xalçaçılıq sənətində də geniş tətbiq olunur.

Azərbaycan ərazisindəki türk damğalarına maraq göstərənlər sırasında Çar Rusiyasının dövlət xadimi, I Pyotrun müstəmləkəçilik siyasətinin əsas ideoloqlarından sayılan Moldova knyazı Dmitri Qantemir *(1673-1723)* də vardır. Vaxtilə Osmanlı sarayı mühitində böyüyüb-tərbiyə alan, türk adət-ənənələrini, rəmzlərin daşıdığı mənaları gözəl mənimsəyən knyaz rus ordusunun 1722-ci il Qafqaz yürüşündə fəal iştirak etmişdir. D.Qantemir Dərbənd qala divarının Qiyamət qapısı üzərində həkk olunmuş işarələr haqqında bunları yazırdı: «**Əminliklə demək olar ki, bunlar tatar** *(oxu: türk* – **A.Q.) damğalarıdır»**.[152] Dağıstanlı etnoqraf, Kumık Elm-Mədəniyyət Cəmiyyətinin sədri Kamil Əliyev Şimali Qafqazda yaşayan türk xalqlarının həyatında damğaların əhəmiyyətindən bəhs edən «Dağıstandakı damğa nişanları» məqaləsində yazır: **«Balkarların, qaraçayların, noqayların və kumıkların döyüş sancaqlarında, matəm ələmlərində, toy mərasimləri bayraqlarında, bir qayda olaraq, nəsil damğaları həkk edilərdi. Hətta gəlin ər evinə köçürüləndə toy karvanının önündə qaldırılan bayraq üzərində oğlan evinin damğası qız ailəsinə aid nişandan yuxarıda təsvir edilərdi».** Müəllif haqlı olaraq Şimali Qafqazda yayılan qədim damğaları

150 «Вестник древней истории», 1952, № 2.
151 А.Олеарий. «Описание путешествия в Московию». М. «Русич». 2003.
152 Л.И.Лавров. «Историко-этнографические очерки Кавказа». Ленинград, 1978.

hazırda həmin regionda yaşayan ayrı-ayrı türk xalqlarının etnik mədəni irsi çərçivəsindən çıxararaq, onları vaxtilə mövcud olmuş vahid superetnosun, «Turan» etnomədəni məkanının ortaq dəyərlərindən biri kimi qiymətləndirir. Azərbaycan və kumık xalqlarının istifadə etdikləri damğalar arasında yaxınlığı vurğulayan K.Əliyev bildirir: **«Biz «kumık damğaları» dedikdə onları bir xalqın hüdudları ilə məhdudlaşdırmamalıyıq. Bu rəmzlər eyni zamanda kumıkların etnogenezinin formalaşmasında iştirak etmiş bütün türk tayfalarına da məxsusdur»**.[153]

Tanınmış macar etnoqrafı Jan-Şarl dö Bess *(Beş)* 1829-1830-cu illərdə Krımda, Şimali Qafqazın qaraçay və balkarların yaşadıqları ərazilərində apardığı etnoqrafik ekspedisiyalar zamanı Qafqazdakı türk xalqları ilə macarlar arasında etnomədəni bağlılığın olması qənaətinə gəlmişdir. Alim Fransada işıq üzü görən «Krım, Qafqaz, Gürcüstan, Ermənistan, Kiçik Asiya və İstanbula səyahət» əsərində qaraçay, balkar və macarların eyni etnik kökə malik olmasını bildirmişdir.[154] Türklərin Avropa və Asiyadakı məskunlaşma ərazilərini toponimlər vasitəsilə öyrənən dağıstanlı alim Şamil Badaxov yazır: **«Qədim mənbələrə görə, Şimali Qafqazda eramızdan əvvəl V minillikdən eramızın XIV əsrinin sonlarınadək xeyli sayda türk tayfaları və xalqları - sak və kimerlər, sarmatlar, hunlar, alanlar, aslar, bulqarlar, xəzərlər, kumanlar, barsillər, sabirlər, qıpçaqlar, utiqurlar, kutikurlar, onoqurlar, bitoqurlar, oqurlar, basillər, akasirlər, oğuzlar, çərkəzlər, kabarlar, macarlar, peçeneqlər, törkütlər, diqorlar, avarlar, tatarlar... yaşamışlar. Adı çəkilən xalq və tayfaların bir çoxu müxtəlif dövrlərdə Sak-skif, Hun, Kuman imperiyalarını, Böyük Bulqar, Alan dövlətlərini qurmuş, Xəzər xaqanlığının və s. təməlini qoymuşlar».** Ş.Badaxovun araşdırmalarına əsasən, eramızın əvvəllərində Qafqazda ümumtürk etnosunun 43%-ni alanlar, 31%-ni kumanlar, 9,4%-ni barsillər, 7,4%-ni xəzərlər, 7%-ni isə sabirlər təşkil etmişlər. Lakin Əmir Teymurun, Toxtamış xanın hərbi yürüşləri nəticəsində Şimali Qafqazda türk xalqları və tayfalarının kiçik bir qismi qala bilmişdir. Onların əsas hissəsi yurdlarını tərk edərək Qərbə doğru səmt götürmüş, Ukraynada, Balkanlarda, İtaliyada, Fransada, İspaniyada, Portuqaliyada və s. məskunlaşmışlar. Bu tarixi köçü

153 К.Алиев. «Тамга-знаки Дагестана. По материалам кумыков и их предков». КНКО: Вести. Махачкала, № 8-10, 2003.

154 Yenə orada.

həmin ərazilərdəki xeyli sayda türk toponimləri də sübut edir.[155]

Rusiyalı arxeoloq, tarixçi Mixail Rostovsev *(1870-1952)* Qafqaz dağlarından Avropaya köç etmiş xalqların tarixinin öyrənilməsinə biganə münasibət haqqında bunları bildirir: **«Xalqların köçü dövrünə həsr olunmuş tədqiqat işlərinin bir çoxunda Avropanın fəth olunmasında sarmat, alan tayfalarının roluna önəm verilməmişdir. Amma biz heç vaxt unutmamalıyıq ki, onlar uzun illər boyu Qalliyada *(Fransa)* yaşamış… İtaliyanı zəbt etmiş, vandallarla birlikdə İspaniyaya soxulmuş, sonra isə Afrikanı ələ keçirmişlər».** Bundan başqa, Türkiyə alimi Yusif Ayönlü Şərqi Avropa ərazisində on bir qıpçaq boyunun - yeddioba, doqquzoba, qarabörklu *(qarapapaqlar),* yortan *(cortan),* kulobaoğlu, kotan *(kutan)*, dörd *(dördlər)* ulaşoğlu, kəngəroğlu, elbörülü, bürcoğlu tayfalarının məskunlaşma izlərini müəyyən etmişdir.[156]

Şərqi Avropada Polşa-Litva tatarlarının damğa işarələrinin yaranma səbəbləri üzərində bir qədər dayanmağa ehtiyac vardır. Türklərin Baltikyanı dövlətlərin ərazilərində kütləvi şəkildə məskunlaşmaları haqqında ilk rəsmi məlumat XIV əsrin sonlarına təsadüf edir. Yazılı mənbələrdə göstərildiyi kimi, Böyük Litva knyazı Vitaustas ölkəsini yadellilərin basqınlarından qorumaq, sərhədlərini möhkəmləndirmək, əsgərlərinin hərbi təlimini yaxşılaşdırmaq məqsədilə öz elçisini Qızıl Ordaya göndərmiş və 600 mahir döyüşçünü şəxsi qvardiyasına dəvət etmişdir. Qızıl Orda dövləti süquta yetirildikdən sonra qıpçaqların Qərbə doğru miqrasiya axını artmış, knyaz Vitaustasın ordusu onların sayı və türk döyüş taktikası hesabına xeyli güclənmişdir. Məhz Toxtamış xanın böyük oğlu Cəlaləddin xanın başçılıq etdiyi atlı döyüşçülərin sağ cinahdan qəfil və sarsıdıcı hücumları nəticəsində məşhur Qrünvald döyüşündə *(1409-1411)* tarixi qələbə əldə olunmuş, Tefton ordeninin cəngavərləri ağır məğlubiyyətə uğramışlar. Knyaz Vitaustas döyüşdə fərqlənən qıpçaq döyüşçülərinin bir hissəsinə zadəgan rütbələri, xüsusi imtiyazlar vermiş, onlara iri torpaq sahələri bağışlamışdır. Onların ana dillərində danışmasına, dini etiqadlarına məhdudiyyət qoyulmamış, vergilərdən azad edilmişdilər. Tatar zadəganları Litva şlyaxtası əsilzadələri ilə eyni hüquqlara malik olmuşlar. XVI əsrin birinci yarısından etibarən Reç Pospolitanın - 1569-cu il Lublin

155 Ш.Бадахов. «По следам тюрков Северного Кавказа», Информационно-аналитический центр «Алан». Карачаевск, 2004.

156 Yusuf Ayönü. XII.YY'da Balkanlarda Bizans ve kuman (kıpçak) münasebetleri. Tarih semineri dersi. Ege Üniversitesi edebiyat fakültesi tarih bölümü. İzmir-Bornova, 2010.

uniyası nəticəsində Polşa Krallığı və Böyük Litva Knyazlığı əraziləri hesabına yaradılmış federasiyanın qıpçaq atlı döyüşçülərindən ibarət elitar dəstələr yaradılmış və onlar «ulan polkları» adlandırılmışdır. 1775-ci ildə Polşa seymi tatarların imtiyazlarını qanun çərçivəsində təsdiqləmişdir. Məzhəb etibarilə əksər hissəsi sünni olsa da, bayraq təsvirlərinə görə aralarında şiələr də vardı.



Lipkalara - qıpçaq süvari alaylarına məxsus bayraqlar (Varşava muzeyi).

Avropa mənbələrində «lipkovye», «lipçani» və ya «muslimi», türk salnamələri və sənədlərində «lehlilər» *(Leh, Lehistan – Polşanın islam dünyasında adı),* «lipkalar», «lipka tatarları» kimi adlandırılan Polşa-Litva tatarları, əslində, Qızıl Orda, Krım, Şimali Qafqaz türklərinin sələfləridir. Şərqi Avropada Litva ərazisindən yayıldıqları üçün özlərini «lupkalar», «lupka tatarları» adlandıran qıpçaqları birləşdirən ən mühüm amil ana dili və islam dini olmuşdur. 1557-1558-ci illərdə Osmanlı hökmdarı Sultan Süleymanın sifarişi ilə yazılmış anonim «Risaleyi tatari-Leh» *(«Polşa tatarları haqqında risalə»)* əsərində bu ölkədə tatarların məskunlaşdıqları 100 yaşayış məntəqəsi və onların hər birində məscid inşa edilməsi barədə məlumat vardır. Lakin sonralar Polşa-Litva tatarları tədricən ana dillərini unutmağa başlamışlar. Bununla belə, yazışmaları yad dildə də olsa, ərəb əlifbası ilə aparırdılar. Onlar latın əlifbasına yalnız 1930-cu ildə keçmişlər. Hazırda yer üzündə onların ümumi sayı təqribən 15 min nəfərə çatır.

Rus zadəgan heraldikası tədqiqatçısı Stanislav Duminin qənaətinə görə, həmin tatarların Böyük Litva Knyazlığının yuxarı təbəqəsinə sürətlə adaptasiya olunması prosesi yeni və ortaq litva-tatar gerblərinin yaranmasına

təkan vermişdir. Lakin həmin rəmzlər daha dərin köklərə malikdirlər: «Litva-tatar möhürlərindəki rəmzlər bu ailələrin Litva ərazisinə köçməsindən xeyli əvvəl onların əcdadlarına məxsus damğa nişanları, məsələn,  və s. olmuşdur.[157] Polşa alimi Stanislav Dzaduleviç isə «Polşada tatar nəsillərinin gerbləri» kitabında Şərqi Avropada, o cümlədən Litva və Rusiyada məskunlaşmış qıpçaqları iki qismə - «müsəlman olaraq qalanlara» və «xristian dinini qəbul edənlərə» bölməklə, bu fərqin təzahürlərini tayfa-nəsil damğalarında, zadəgan gerblərinin təsvirlərində axtarmışdır. S.Dzyaduleviçin fikrincə, əgər gerbdəki ayparanın *(hilal)* üzü yuxarı təsvir edilibsə  deməli, həmin nəsil xristian mühitində məskunlaşsa da, islam dininə mənsubiyyətini qoruyub-saxlamışdır. Gerblərdə ayparının uclarının aşağı olması isə tatar nəslinin islamdan imtinasına və xristianlığı qəbul etmələrinə bir işarədir. Məsələn, Litva və Polşada böyük nüfuz sahibi olan Vişnevski rus knyazları nəslinin «Karıbut» adı ilə tanınan gerbində üzü aşağıya doğru çevrilmiş ayparanın altında atıguşəli ulduz, üstündə isə xaç təsvir edilmişdir.[158] Yeri gəlmişkən, rəsmi mövqeyə əsasən, Vişnevskilər nəslinin təməlini qoyan Sultan Karibut Böyük Litva knyazı Keysutun oğlu olmuşdur. Stanislav Dimin isə fərqi fikirdədir. Onun araşdırmalarına əsasən, Sultan Karibut Qızıl Orda xanı Canıbəyin xristianlığı qəbul etmiş oğlu idi. Sonralar Dmitri Koribut Vişnevski Reç Pospolitanın tərkibində şimal torpaqlarının ilk böyük knyazı kimi tarixi salnamələrdə qalmışdır. Açığını deyək ki, qədim türk damğalarının genezisi ilə tanış olmayan Stanislav Dzaduleviçin aypara təsvirlərinin istiqamətinin tatarların dini etiqadları ilə əlaqələndirməsi cəhdi reallıqdan uzaqdır. Şimali Qafqaz, Krım, Kızıl Orda və Altay türklərində şərti olaraq «yay-ox» adlanan damğa işarələrində və s. həmin gerblərin konstruktiv elementlərinə təsadüf olunmaqdadır.

Həmin qıpçaqların varisləri bu gün də Litvada və Polşada yaşamaqdadırlar. Onlar doğma dillərini unutsalar da, özlərini «tatar» adlandırır, mənşələri ilə fəxr edir, islam dininə etiqadlarını qoruyub-saxlaya biliblər. Məsələn, Polşanın məşhur detektiv yazarı Yeji Ediqe öz təxəllüsünü əcdadı əmir Yedigeyin adından götürmüşdür. Maraqlıdır ki, Stanislav Dzyaduleviç özünün türk kökənli olduğunu gizlətmir. Damğa işarəsi şahin quşunun stilizə olunmuş

157 С.Думин. «Геральдика литовско-татарского дворянства XVI-XX вв» /Гербовед, М., 1996, №10.
158 «Herbarz rodzin tatarskich w Polsce», Vilno,1929.

təsviri olan Dzyaduleviçlər nəsli öz adını və kökünü XV əsrdə Litvaya köç etmiş Volqaboyu tatarı «Dzedulla»nın adından (*Zeydullah)* götürmüşdür. Zeydullahın oğlu Əhməd Dzedullin adı 1489-1500-cü illərə aid Litva saray sənədlərində «Əlahəzrət kralın mehtəri» kimi xatırlanır. Əhmədin oğlu Taktaş isə 1528-ci ildə Litva süvari ordusunda xidmət etmişdir.

XIX-XX əsrlərdə Rusiyanın yüksək dərəcəli masonlarından olan Baryatinski knyaz nəslinin nümayəndələri də qapalı təşkilat daxilində yazışmaların məxfiliyini qorumaq məqsədilə unikal şifrəli əlifba yaratmışdılar. Hətta müasir kriptoqrafiyanın texniki imkanlarına baxmayaraq, həmin əlifba işarələri ilə tərtib olunmuş mətnləri deşifrə etmək hələ də mümkün olmamışdır. Qeyd etmək lazımdır ki, Baryatinskilər yeni şifrə-əlifba üçün «velosiped icad etmək» fikrinə düşməmişdilər. Gizli əlifbanın əsasını təşkil edən işarələr Rusiya imperiyası ərazisində geniş yayılmış «qədim və naməlum ezoterik simvollardan» - türk damğalarının təsvirlərindən  götürülmüşdür. Hələ XIX əsrin sonlarında rus rəssamı V.Strukov Don çayı sahillərindəki qədim məbədlərdə elmə məlum olmayan qeyri-adi əlifba işarələri aşkar etmiş və bu barədə Rusiya Arxeologiya Cəmiyyətinə məlumat vermişdir. Rəssamın təqdim etdiyi eskizlər Rusiya ictimaiyyəti arasında «rusların ən qədim əlifbasının təsvirləri» kimi yayılaraq sensasiyaya səbəb olmuşdur. Lakin arxeoloji cəmiyyətin üzvü, professor A.Spitsın 1908-ci ilin may ayında «Rusların əlifbası haqqında» adlı geniş məruzə ilə çıxış edərək bu eyforiyaya son qoymuş, işarələrin slavyanlara deyil, alan və ya xəzər tayfalarına məxsus olduğunu bildirmişdir. Təqribən yarım əsr sonra, sovet hakimiyyəti illərində A.Spitsının mövqeyi Rusiyada sərt tənqidə məruz qalmışdır. Nikolay Konstantinov onu burjua kosmopolitizmində, rus xalqının milli mənafeyinə məqsədli şəkildə ziyan vurmaqda günahlandıraraq, həmin rəmzlərin, eləcə də Baryatinskilərin şifrə-əlifbasının məhz «sağdan-sola yazılan qədim slavyan runları» əsasında eramızdan əvvəl yaradıldığını iddia etsə də, nə onların qrafik semantikasını yoza, nə də mətnləri oxuya bilmişdir. N.Konstantinov işarələrin türk damğaları və Orxon-Yenisey runlarından qətiyyən fərqlənməməsi faktı üzərindən də dərin sükutla keçərək, onların **«Krit adası mənşəli olması və slavyanların ulu əcdadı olan skiflər tərəfindən qədim Yunanıstan ərazisindən Rusiyaya gətirilməsi»** ideyasını irəli sürmüşdür.[159]

159 Н.Константинов. «Скифо-сарматские знаки на памятниках Причерноморья», Крым, 1951, № 7.

Məsələyə türk xalqlarının birliyi kontekstindən yanaşılanda «Turan» anlayışı təkcə məhdud coğrafi ərazi ifadə etmir. O, daha geniş sahələri əhatə edən etnomədəni məkan kimi qəbul olunmalıdır. İranşünasların və avrosentrizm nəzəriyyəsi tərəfdarlarının formalaşdırdıqları mövqeyə görə, türklər Qafqazın, Ön Asiyanın avtoxton sakinləri deyil, yalnız eramızın ilk əsirlərində buraya işğalçı qismində gəlmiş və yerli mədəniyyətləri məhv etmiş köçəri tayfalar olmuşlar. SSRİ dönəmində də türk xalqlarının tarixinin obyektiv öyrənilməsinə və onların milli mədəniyyətlərinin təbliğinə qarşı yönəldilən ciddi maneələrin dərin siyasi kökləri vardır. Təməli hələ Çar Rusiyası tarixçiləri tərəfindən qoyulan belə münasibət, təəssüf ki, bu gün də davam etməkdədir. Məsələn, Rusiya İmperiyası Elmlər Akademiyasının 1855-ci ildə nəşr olunmuş illik hesabatında tədqiqatçılar üçün nəzərdə tutulmuş belə bir təlimat açıq şəkildə yer almışdır: «Türklər dünya tarixində heç vaxt yüksək mövqe tutmamalıdırlar».[160] Bu ənənə sovet hakimiyyəti illərində, xüsusilə SSRİ-nin süqutu ərəfəsində geniş vüsət almışdır.

Digər bir misal. Rusiyalı akademik B.Rıbakovun rəhbərliyi altında işıq üzü görmüş «SSRİ meşə zolağında tunc dövrü» əsərində burada qədim dövrlərdə məskunlaşmış etnik qruplar arasında türk tayfalarının nəinki adları çəkilmiş, hətta onların bu regionda tarixən mövcudluğuna da toxunulmamışdır. Kitabda bu «unutqanlığın» səbəbi belə izah olunur: **«Məlumdur ki, Tunc dövrü ərzində müasir türkdilli və monqoldilli xalqların əcdadları Şərqi Sibirin aşağı hissəsində, Baykal gölünün cənubunda məskunlaşdıqları üçün nə Sibirin, nə də Şərqi Avropanın etnik tarixində fəal rol oynamışlar»**.[161] Başqa bir əsərdə - T.Qamkerilidzenin və V.İvanovun SSRİ-nin ali - Lenin mükafatına layiq görülən «Hind-avropa dilləri və hind-avropalılar» kitabında da regionun qədim tarixi irandilli etnik qrupların xeyrinə məqsədli şəkildə saxtalaşdırılmışdır.[162] 1980-ci ildə Daşkənd şəhərində keçirilmiş III Ümumittifaq Türkoloji Konfransda tanınmış tatar türkoloqu Mirfatah Zəkiyev belə yanaşma tərzinə qəti etirazını bildirərək demişdir: **«Türk xalqlarının hunlara qədər olan dövrlərə – skif-saklara, sarmatlara, kuşanlara və digərlərinə aid olan linqvistik materiallarının etimologiyasının əsas etibarilə iranşünaslar tərəfindən**

160 «Ученые записки», СПб,1855.

161 «Эпоха бронзы лесной полосы СССР», изд.Институт Археологии АН СССР, 1987.

162 «Индоевропейский язык и индоевропейцы», Тбилиси, 1984.

öyrənilməsi nəticəsində həmin xalqlar məqsədli şəkildə «irandilli» elan edilmişlər. Nəticədə, Şimali Qafqazda, Volqaboyu və Uralda, Şərqi Sibirdə, Mərkəzi Asiyada, Qazaxıstanda aşkar edilmiş unikal arxeoloji mədəniyyətlər türk kontekstindən çıxarılaraq İran etnosuna aid edilmişdir». Dağıstan alimləri Qazi Laypanov və İsmayıl Miziyevin etnoqrafik tədqiqatlarının da əsas məqsədi Turan etnomədəni məkanının öyrənilməsində birtərəfli yanaşmaları, türkdilli xalqların tarixinin məqsədli şəkildə saxtalaşdırılmasını, onların maddi-mədəni irsini mənimsəmə səylərini ifşa etməkdir. Araşdırmalar zamanı süni maneələr və siyasi xarakterli təzyiqlərlə üzləşən «millətçi», «pantürkist» və «turançı» stereotip ittihamlarına məruz qalan tədqiqatçılar yazırlar: **«Bir çox tarixçi türklərin sosial-iqtisadi və mədəni inkişafını, onların dünya sivilizasiyasına töhfələrini məqsədli şəkildə inkar etməkdədir. Hətta eramızdan əvvəl I minillikdə Qazaxıstan, Mərkəzi Asiya ərazilərində yaşamış sakların mənşə etibarilə türk olmaları barədə mütəxəssislərin qənaəti hələ də müəyyən dairələrdə qıcıq oyatmaqdadır. Belələri türklərin yaradıcı deyil, dağıdıcı xalq olduğunu bəyan edir, Sibir, Altay, Mərkəzi Asiya və Qazaxıstandakı türk tayfalarının qədim mədəniyyət nümunələrini istisnasız olaraq irandilli qəbilələrin nailiyyətləri kimi tanıdırlar. Onların fikrincə, türklər bu torpaqlara yaxın dövrlərdə Şərqdən gəlmiş və «yerli İran tayfalarını» sıxışdırıb türkləşdirmişlər. Axı, o da yaxşı məlumdur ki, nə İranda yaşayan çoxsaylı azərbaycanlılar farsları, nə də Volqaboyu tatarları qonşu xalqları assimilyasiya etmişlər».**[163]

Digər saxtakarlıq səyləri türk xalqlarının etnogenezini bir xalq olaraq XI-XII əsrlərdə müxtəlif tayfalar əsasında formalaşan monqollarla bağlamaq, Avropanın tarix və mədəniyyətində, etnik mənzərəsində türk tayfalarının izlərini gizlətməkdir. Bu tipli səylərə, eləcə də Çingiz xanın yürüşlərini şərti «monqol-tatar basqınları» adlandırmaq cəhdlərinə qarşı çıxış etmiş görkəmli qazax maarifçisi, türkoloq Sarsen Amanjolov (*1903-1958)* vurğulayırdı: **«Bu gün hər kəsə yaxşı aydındır ki, tatarlar *(qıpçaqlar)* türk xalqıdır, onları monqollarla eyniləşdirmək düzgün deyildir. Onlar arasında qan qohumluğu yoxdur. Yəni biri türk, digəri isə monqol dilində danışır və bir-birilərini başa düşmürlər. Bununla**

163 К.Лайпанов, И. Мизиев. «О присхождении тюркских народов». Черкеск, 1993.

belə, hələ də onları bir xalq kimi təqdim etməyə çalışır, «tatar» əvəzinə «monqol» və ya əksini yazır, bəzən isə «monqol-tatar» və ya «tatar-monqol» kimi eyniləşdirirlər. Bu «birləşdirmə» halları artıq ənənə xarakterini almışdır. Ondan imtina edilməli, hər xalq öz adı ilə çağırılmalıdır». Vaxtilə akademik A.Qrekov və professor A.Yakubovski də təəssüflə bildirmişlər ki, Cənub Şərqi Avropanın, xüsusilə Çindən Əndəlisə *(İspaniyada Andaluziya vilayəti)* doğru uzanan Dəşti-Qıpçağın etnik mənzərəsi haqqında qüsurlu təsəvvürlər mövcuddur. Çoxları elə düşünür ki, Batı xanın ordusunun tərkibində xeyli monqol Dəşti-Qıpçağa gəlmiş və bu köçün içərisində həmin xalqın elementi üstünlük təşkil etmişdir. Halbuki, monqolların əksəriyyəti həmin yürüşlər zamanı vətənlərini tərk etmədiyi üçün fəth olunmuş ərazilərin, o cümlədən Qıpçaq çölünün «monqollaşdırılmasından» danışmağa dəyməz. Çünki Avropanın cənub-şərqində qədim türk elementləri son dərəcədə güclü və müqavimətə davamlı idi». S.Amanjolov onu da vurğulayır ki, bu gün tarixşünaslıqda və etnoqrafiyada ümumiləşdirilmiş «monqol» adı altında təqdim olunan tayfaların – cəlayir, tatar, tamqalıq, tamat, sünit, merkit, kurlut, tules, bulqaşin, kermuşin, telenqut, torqayt, koqor, sakait, oyrat, barqut, uryanxay, kurıkan və s. həmin xalqla heç bir etnik bağlılığı yoxdur, adları və etnik tərkibləri də sırf türk kökənlidir.[164]

Bununla belə, türk xalqlarının eramızdan əvvəl Avropa ərazilərində yaşaması barədə qədim salnamələrdə olan dəlilləri ilk dəfə görkəmli rus paleontoloqu, Kazan Universitetinin professoru Eduard Eyxvald *(1795-1876)* toplayaraq ümumiləşdirə bilmişdir. O yazırdı: «**Skiflərə müxtəlif türk tayfaları da aid edilir… «Skif» adı altında türk tayfalarının da nəzərdə tutulmasına dair çoxsaylı sübutlar vardır… Herodot əsərlərində turraqet və turkları xatırladır… Dnestr çayının yuxarı hissəsində ovçuluqla məşğul olan turkların yaşadığını qeyd edir… Tiras və ya Töras *(Dnestr)* çayını türklər indiyədək «Tur» adlandırırlar».**[165] Müxtəlif tarixi mənbələrə - Mahmud Kaşğarinin «Divani lüğət-it Türk», Fəzlullah Rəşidəddinin *(1247-1318)* «Cami ət-Təvarix» («*Səlnamələr toplusu*»), Əli Yazıçıoğlunun *(XV əsr)* «Təvarixi al-i Səlcuq», Əbülqazi Bahadur xan Xivəlinin *(1605-1663)*

164 С.Амонжолов. «Заметки о тюркском этноэенезе», http://dalaruh.kz/articles/view/253.
165 «Путешествия профессора Эйхвольда к Каспийскому морю и Кавказскому краю», Библиотека для чтения, СПб., 1838. Т. 26. № 2.

«Şəcəreyi-Tərakimə» və Seyid Loğmanın «Hünərnamə» *(XVII əsr)* əsərlərinə əsasən, oğuz boylarının damğa işarələri aşağıdakı kimi təsnif olunur.

Cədvəl 5. Oğuz boyları və damğaları

Oğuz boyları	«Divani lüğət-it Türk»	«Cami ət-Təvarix»	«Təvarixi al-i Səlcuq»	«Şəcəreyi-Tərakimə»	«Hünərnamə»
Bozoxlar *Gün xan oğulları*					
Qayı					
Bayat					
Alkaevli					
Qaraevli					
Ay xan oğulları					
Yazır					
Dögər					
Dodurğa					
Yaparlı	*yoxdur*				
Ulduz xan oğulları					
Əfşar					
Kizik	*yoxdur*				
Bəydili					
Karkın	*yoxdur*				
Üç oxlar *Göy xan oğulları*					
Bayandur					
Bəçənə					
Çavuldur					
Çəbni					

Dağ xan oğulları					
Salur					
Eymür					
Alayuntlu					
Ürəgir					
Dəniz xan oğulları					
İqdır					
Bügdüz					
Yıva					
Kınık					

Yuxarıdakı cədvəldən göründüyü kimi, ərəb əlifbasının təsiri nəticəsində «Cami ət-Təvarix» və «Şəcəreyi-Tərakimə» əsərlərində əks olunan oğuz damğaları daha çox dəyişikliklərə məruz qalmış, ərəb xətt qrafikasına uyğunlaşdırılmışdır. Bundan başqa, boyların ümumi damğalarından savayı, onların ayrı-ayrı qollarının və nəsillərinin də fərqləndirmə nişanları vardı. Məsələn, əfşarların müxtəlif dövrlərdə damğa işarələri olduğu halda *(eyni damğalara Dərbənd qala divarlarının VI əsrə aid hörgü daşlarında da rast gəlinir)*, boyun ayrı-ayrı qolları - bəy əfşarlar , toplular , İbrahimpaşalar , Hacı Mustafalar , Haloğullar , qıllılar , qoçanalılar , qarabudaqlılar , ağdəllər , qaradəllər öz nişanlarına malik idilər.[166] Diqqət yetirdikdə onların bəzilərinin vaxtilə bir siqmentdən ibarət olduğunu, zaman keçdikcə iki eyni və ya fərqli mənşəli nəsillər arasında ittifaqın yaranmasını müşahidə edirik. Bundan başqa, M.Kaşğarinin təsnifatına əsasən, oğuzların qayı VI və Fəzlullah Rəşidəddinin sıralamasında karkın VI boylarının damğaları arasında yaxınlıq birincinin formalaşmasında ikincinin müəyyən rol oynadığını ehtimal etməyə əsas verir. Eyni gümanı qaraevli və çuvaldur tayfaları haqqında da söyləmək olar. Bir vaxtlar Azərbaycan, İran, Gürcüstan, Türkiyə ərazilərində yayılan, Diyabəkir bəyliyini quran, iki il Qüds şəhərinə əmirlik

166 Tuncer Gülensoy. «Orhundan Anadoluya Türk damğaları». İstanbul, 1989.

edən artuklular *(artukoğulları)* tayfası oğuzun dögər boyunun və tərkibində olmuşdur. Lakin artuqlular Anadoluda yerləşdikdən sonra hakim qayı boyu ilə aralarında yaranmış yaxınlaşma yeni birliyə çevrilmişdir. Nəticədə, artuqlular qayı boyuna qoşulmuş və onun damğa işarəsini qəbul etmişlər.

Türk tayfaları arasında tarixi enomədəni və etnosiyasi proseslər – nəsil, tayfa ittifaqlarının yaranması və ya belə birliklərin ayrı-ayrı qollara parçalanması, bir tayfanın digərinin dominatlığını qəbul etməsi damğa işarələrinə də təsirsiz ötüşməmişdir. Belə ki, bəzi hallarda müəyyən rəmzlərin konkret olaraq hansı tayfaya məxsus olduğunu təyin etmək problemli məsələyə çevrilir. Məsələn, Mahmud Kaşğarinin təsnifatında oğuzların əfşar boyunun rəmzi kimi göstərilən damğa işarəsini görkəmli noqay etnoqrafı və maarifçisi Əbdülhəmid Canıbəyov *(1879-1955)* «bodrak» adı ilə noqayların kanqlı tayfasına aid edir.[167] Xatırladaq ki, «bodrak» etnonimi türkmənlərdə, qazax və başqırdlarda, noqay və ağnoqaylarda mövcud olmuş böyük tayfa-nəsil birliklərindən birinin adı idi. Dəqiq yozumu olmasa da, bəzi mənbələrdə «budrak» kəlməsi «azad», sərbəst», «müstəqil» kimi izah edilir.[168]

Belə damğa mübadilələrinin hansı etnosiyasi hadisələrin nəticəsi olduğunu göstərmək üçün yenidən oğuzların əfşar və qıpçaqlara aid olunan kanqlı boyları arasında tarixi münasibətlərə müraciət edək. Məlum olduğu kimi, müxtəlif mənbələrdə kanqlı «kanqha», «kanqdiz», Çin salnamələrində isə «kanqyuy» kimi qeyd olunan kanqarlar *(kəngərlər)* eramızdan əvvəl II əsrdən eramızın IV əsrinə kimi Mərkəzi Asiyada qüdrətli türk dövləti yaratmışlar. Onun paytaxtı olan Kanqşa şəhəri *(indiki Xarəzm)* «Avesta» kitabında Turanın paytaxtı kimi göstərilmiş, hökmdarları isə oğuzlarda olduğu kimi «yağbu» titulunu daşımışdılar. Bu dövlətin süqutundan təqribən 600 il sonra oğuz və qıpçaqlar Xarəzm şəhərindən Volqa çayınadək uzanan nəhəng ərazidə yenidən birləşərək XI-XII əsrlərədək mövcud olmuş Kanqlı tayfa ittifaqını qurmuşlar. Təbii ki, həmin tarixi birliklərə daxil olan əfşar və kanqlı tayfalarının eyni damğa işarəsinə malik olması aralarındakı etnomədəni və siyasi bağlılıqla izah edilə bilər. Osman Akçokraklının təqdim etdiyi Krım damğaları təsnifatında əksini tapan buyten, burlak, dair, caytamqalı *(yaydamğalı)* tayfalarının rəmzləri ilə

167 А.-Х. Ш. Джанибеков. «Очерки по Истории Ногайцев», 1935 г., Архив Даг НИИИЯЛ им Г. Цадасы, Ф 28, Оп. 1, Д. 2.

168 В.А.Бушаков. «Лексичний склад історичної топонімії Криму», Київ, 2003.

oğuzun avşar tayfasının tanınma-fərqləndirmə nişanı *(Əbdülqazi Bahadur xana görə)* eyni semantikaya malik işarələrdən və ibarətdir. «Ocaq» anlamı verən damğa həm Krımın qıpçaq tayfalarında, həm də oğuzun alayuntlu tayfasında *(yenə Əbülqazi Bahadur xanın təsnifatında)* vardır.[169] Bu yaxınlıq Azərbaycan xalça ornamentlərində də geniş yayılmışdır. Bundan başqa, oğuzların bayat - *(«Şəcərəye-Tərakimə»),* kizik- *(«Cami ət-Təvarix»),* əfşar - *(yenə orada),* çəbni - *(«Təvarixi al-i Səlcuq»)* boylarına məxsus damğalar paralel olaraq, noqayların manqıt, otar, uymaut, saray tayfalarının da rəmzləridir. Eyni ortaqlığa Şimali və Cənubi Qafqazın, Anadolunun, Mərkəzi Asiyanın, Volqaboyu türk tayfalarının işarələrində də təsadüf edilir. Bundan başqa, xalçalarımızda qazaxların sarıuysun tayfasının damğasına oxşar naxışlara da rast gəlinir.[170] Bütövlükdə, belə bənzərliyin əsas səbəbi türk tayfalarının ortaq inancları, həyat tərzləri və mifoloji təsəvvürləridir.

Oğuz tayfalarının damğa işarələrinin milli xalçaçılıq sənətində inikası ilə bağlı bir önəmli məsələni də diqqətə çatdırmaq istərdik. Qeyd olunduğu kimi, ötən əsrlərdə konkret ailəyə, nəslə və ya tayfaya mənsub olan xalça bu toplumun tarixi, mənşəyi, məskunlaşdığı ərazi, statusu, hətta müttəfiqləri, qohumlaşdığı analoji icmalar haqqında qısa ideoqrafik «anket məlumatı» verən mənbə olsa da, indi bu işarələri «sətiraltı oxumaq» ənənəsi tamamilə unudulmuş, xalça naxışlarının ad və təyinatları əsasən təhrif edilmiş, nəticədə estetik bəzək ünsürünə, ən yaxşı halda isə ziddiyyətli fərziyyələr yaradan mürəkkəb kriptoqramlara çevrilmişdir. Etiraf edək ki, qədim xalçaçılıq ənənələrinə malik Azərbaycanda belə «deşifrə» ənənələrinin yaddaşlardan silinməsi milli-mədəni irsin inkişaf etdirilməsi, eləcə də mənimsəmələrdən mühafizəsi baxımından da bağışlanılmazdır. Bu amil etnomədəni irsimizi dünyaya tanıtmaq, təbliğ etmək üçün onları öyrənmək, ortaya təkzibolunmaz sübutlar qoymaq üçün əvəzsizdir. Sübutlar isə onların etnomədəniyyətə, milli mifoloji təsəvvürlərə, yaşam tərzinə üzvi şəkildə bağlı olan damğa və rəmzlərin semantikasında, etimologiyasında, işlənmə və ya hazırlanma texnologiyasındadır. Məsələn, Azərbaycan xalqının maddi-mədəni irsini uğurla təbliğ edən nəşrlərin birində aşağıdakı Quba-Şirvan xalçası haqqında

169 О.Акчокраклы. «Старокрымские и отузские надписи 13 - 15 вв.» / / Известия Таврического общества истории, археологии и этнографии, 1927.

170 А.Е. Рогожинский. «Роль номадов в формировании культурного наследия Казахстана». Алматы, 2010.

yazılarkən kompozisiyanın mərkəzindəki Qaba Ağacın *(Dirilik Ağacı, Həyat Ağacı)* – qədim türk xalqlarının ortaq inancına görə, yaranışın mənbəyi hesab olunan müqəddəs bitkinin mifoloji mahiyyəti açılsa da, digər rəmz və işarələrin yozumunda müəyyən təhriflərə yol verilmişdir.

Quba-Şirvan xalçasında Qaba Ağac və rəmzlər

Məqalədə Qaba Ağacın aşağı hissəsindəki rəmzlər və **«ikiqanadlı əfsanəvi məxluqun - qoruyucu tanrıların təsviri»** kimi təqdim olunmuşdur. Üstəlik, həmin ideyanın İran mifologiyası ilə bağlanmasına cəhd edilərək **«Avestada rast gəlinən və Sasani dövrünün dekorativ sənətində geniş əks olunan qanadlı it - Saenomereq, Senmurv, Simurq obrazı»** kimi təqdim olunur. Halbuki, Qaba Ağac təsvirinin və xalçadakı digər «ornamentlərin» nə Sasani dövrünün mifik təsəvvürləri, nə də «qanadlı it obrazı» ilə əlaqəsi vardır. Bu rəmzlərin həqiqi semantikası tamamilə fərqli olan və əski türk inanclarına söykənən yozum üzərində qurulmuşdur. Birincisi, Əbülqazi Bahadur xan Xivəlinin «Şəcəreyi-Tərakimə» əsərindəki damğa, təsnifata

əsasən, içərisindən Qaba Ağac ucalan «naxış» nüfuzlu oğuz boylarından biri olan alayuntlu tayfasına məxsusdur. İlkin semantikası «baltavar» *(ikiağızlı balta, vassal titulu)*, «ikibaşlı qartal» olsa da, sonralar xarici bənzərliliyinə görə qıpçaq tayfaları *(noqaylar, Krım tatarları)* arasında «qazan» kimi izah olunub. Bu damğa işarəsi öz növbəsində müasir dövrümüzə gəlib çatan qədim xalça süjetinin həm etnik, həm də tayfa mənsubiyyətinin göstəricisidir. Digər tərəfdən, bu damğa qıpçaqlarda, məsələn, noqaylarda «qazan» adlansa da, onun semantikası islamaqədərki dini təsəvvürlərdən - Göytürk mifoloji baxışlarından irəli gələn ikibaşlı qartal *(Tenqri xanın hər iki dünyaya yayılan hökmü)* mifologeminin, Həyat-Ölüm, İşıqlı Dünya-Qaranlıq Dünya arxetipinin və qədim xaqanlıq prinsipinin – onun dünyəvi və dini hakimiyyəti öz əlində cəmləşdirməsinin xalça ilmələri ilə ifadə olunmuş vizual təzahürüdür. Yəni yozuma görə, xalça üzərində məhz alayuntlu tayfasının nəsil-şəcərə ağacı təsvir olunmuşdur. İkincisi, işarəsinin də abstrakt «ikiqanadlı əfsanəvi məxluqla» heç bir əlaqəsi yoxdur. Üç seqmentdən ibarət olan bu damğanın variantlarına hun, xəzər tayfa-nəsil nişanlarında, Qazaxıstandakı Sidak qayaüstü təsvirlərində də *(V-VIII əsrlər)* rast gəlinir. Seqmentlərdən biri Tenqri xanın rəmzlərindən olan və müxtəlif türk xalqlarında «gün», «çənbər», «Nurullah», «baybike», «döngələk», «domalaq», «halqa», «altun top» və «altun alma» adlandırılan Günəş damğasıdır. İkinci rəmz də tanrıçılıq dinində baş ilahi ilə bağlı olan və «qoçkar», «qoşqar», «koskar», «kaçkar», «koçmüyüz» *(qoç buynuzu)* adları altında tanınan işarədir.

Rəmzin bütövlükdə semantikası Tenqri xanın hər iki dünyaya yayılan hökmünü ifadə edir. Bu işarənin Mərkəzi Asiyada «aça» *(xaç),* «koçkar» və «tört kulaq» *(dörd qulaq)* adlanan təkmil tipləri, Azərbaycan xalça ornamentində çoxsaylı variantları vardır. Bundan başqa, xalça üzərində türk tayfalarına məxsus - «daraq», - «qoşa damğa» işarələri və Tenqri açasının *(xaçının)* stilizə edilmiş variantı da əks olunmuşdur. «Qanadlı it» təsvirinə gəldikdə isə burada da müəyyən yanlışlıq vardır. Məlumdur ki, oğuz tayalarında totem canlılardan biri qurd *(canavar),* qıpçaqlarda isə köpək olmuşdur. Hətta qırğızlar Qırmızı köpəyi özlərinin ulu əcdadı hesab etmişlər. «Kitabi-Dədə Qorqud» eposundan da məlumdur ki, oğuz tayfaları itə mifoloji rəmz kimi rəğbətlə yanaşmamış, başqa inanca tapınan qıpçaqların tayfa başçılarına *(Qıpçaq Məlik)* həqarətlə «Mərə köpək» deyə müraciət etmişlər. Bu baxımdan, oğuzlara məxsus xalça kompozisiyasında müqəddəs

Qaba Ağacın yanında itin təsviri süjetə sonralar əlavə olunmuş element kimi dəyərləndirilməlidir. Ya da xalça üzərindəki həmin canlı həqiqətən də oğuzların totem varlığının - qurdun stilizə olunmuş *(təhrif edilmiş)* təsviridir.

II HİSSƏ

Bəzi populyar türk damğa və rəmzlərinin semantikası

«Dünyanı ideya və fikirlər deyil, rəmz və işarələr idarə edir».
Konfutsi

Ortaq mifoloji təsəvvürlərdən, həyat tərzindən, dövlətçilik ənənələrindən, hərb sənətindən qaynaqlanan damğa işarələri qədim dövrlərdə qəbilənin, tayfanın, tayfa birləşmələrinin statusunun, onun müstəqillik və ya digərlərindən asılılıq rəmzinə etnik və dini identikasiyasının göstəricisi, fərqləndirmə və mülkiyyət nişanı, ən nəhayət, bu barədə qrafik informasiyanın mübadiləsi vasitəsi olmuşdur. Müasir türk xalqlarının heraldika rəmzlərində, tətbiqi sənət ornamentlərində bu gün də geniş istifadə edilən damğa işarələri zaman keçdikcə ilkin semantikasını, daşıdığı informasiya yükünü itirmiş, «milli naxışlar» kimi tanınmağa başlamışdır. Aşağıda bəzi qədim damğa təsvirlərinin semantik yozumunu təqdim edirik:

XAN DAMĞASI, ELTƏBƏR, BALTAVAR. Ümumtürk simvolizm ənənələrinin, milli ornamentlərin genezisinin öyrənilməsi, onların mənimsənilməsi səylərinin qarşısının alınması, etnik mənşəyi hələ də qızğın mübahisələr doğuran bir sıra qədim tayfaların mənşəyinin müəyyənləşdirilməsi, ortaq dövlətçilik atributlarının, titulların *(eltəbər/iltəbər, baltavar, elbəyi və s.),* hərb sənətinin tədqiqi kontekstindən əhəmiyyətli damğa işarələrindəndir. Bu damğa, eyni zamanda, müasir türk xalqlarının etnogenezini qədim tayfa və tayfa birləşmələri ilə *(məsələn, saka-skiflərlə)* bağlayan mühüm siyasi-mədəni irs nümunələrindən biri sayılmaqdadır. Xan damğasının tədqiqi qədim və orta əsrlər türk xalqlarının dövlətçiliyi, onun ənənələri barədə xeyli qaranlıq məqamlara aydınlıq gətirmək imkanına malikdir. Onun müxtəlif qrafik variantları olduğu qədər fərqli semantik yozumları da vardır. Bu müxtəliflik ayrı-ayrı tayfa və tayfa birləşmələrinin yaşam tərzi və mifik təsəvvürlərinin spesifik xüsusiyyətləri, statusu, iyerarxiya pillələri, hərb sənəti kimi etnomədəni və etnosiyasi amillərlə əlaqəlidir. Həmin səbəbləri bir-birinə bağlayan xüsusiyyət isə onun semantik izahında dayanan yay-ox, balta, aybalta, sənək/ayır *(ikidişli*

və üçdişli döyüş yabaları), süngü *(nizə),* Togrul qartal/ikibaşlı qartal, qoç/təkə buynuzu və s. anlayışlarının hər birinin qədim dövlətçilik rəmzləri olmasıdır. Bu işarə Qızıl Orda dövlətində «Böyük İskəndərin nişanı» da adlandırılır və bir sıra türk xalqlarının bayraqlarında altıguşəli ulduzla yanaşı təsvir olunurdu. **«Qədim bulqarlar bu rəmzi Hindistan və Fələstindən tutmuş Almaniya və İtaliyayadək nəhəng bir ərazidə yaymışlar»**.[1] Yeri gəlmişkən, xan damğasının Ψ üç aləmə, dörd stixiyaya *(torpaq, hava, su, od)* və ya dörd cəhətə *(şimal, cənub, şərq, qərb)* istiqamətlənmiş bərabərtərəfli Tenri xan rəmzi - açа *(haça, xaç)* ✝ ilə birliyinin qrafik təzahürü ☩ bu gün dini mənsubiyyətindən asılı olmayaraq, bütün türkdilli xalqların tətbiqi sənətində geniş yayılan etnik ornamentlərdəndir. Yalnız orta əsrlərdə xristian dininin rəmzlərindən birinə çevrilən həmin işarəyə Şərqi Avropanın pravoslav məbədlərində, məsələn, Bolqarıstandakı Müqəddəs Məryəm kilsəsinin *(XIV əsr)* daşları üzərində də rast gəlinir.[2] Azərbaycan, Anadolu, Mərkəzi Asiya, Krım, Tatarıstan xalçaçılıq sənətində «daraq» kimi tanınan işarənin həm də «xan damğası», «baltavar», «eltəbər», «daraq damğa», «quşlu damğa» *(ikibaşlı qartal)* adları altında tanınması onun digər damğa işarələri arasında üstün statusa malik olmasının göstəricisidir. Burada bir vacib məqamı vurğulamaq istərdik. Ortaq olaraq «xan damğası» adlandırılan və çoxsaylı variantları olan bu işarə Ψ qədim türk tayfalarında fərqli semantikaya malik idi. Məsələn, hun və xəzərlərdə, qıpçaqlarda vassallığı təcəssüm etdirirdisə, orta əsrlərdə oğuzlarda ali hakimiyyəti, dini və dünyəvi hakimiyyətin bir əldə cəmləşdirilməsini ***(bax: «Quşlu damğa»)*** bildirirdi.



Azərbaycanın Quba, Şirvan və Qarabağ xalçalarında «xan damğası», «daraq» və ya «baltavar» ornamenti [3]

1 «Древнобългарската митология», 4 част, http://atil.blog.bg/history/2012/01/20/drevnobylgarskata-mitologiia-4-chast.886479

2 Н.Соболева. «Очерки истории Российской символики: От тамги до символов государственного суверенитета», http://www.rumvi.com

3 «Azərbaycan xalçaları», cild 2, №4, 2012

Qədim türklərin dövlətçilik iyerarxiyasında mühüm yer tutan **«eltəbər»** titulu mərkəzi hakimiyyətə tam və ya qismən tabe olan vassal hakimlərə, məliklərə, müasir terminologiya ilə desək, «vali», «qubernator» funksiyalarını icra edən xan və sərkərdələrə verilən rütbə idi. Bəzi mənbələrdə onun **«iltəbər», «yaltavar», «ışbara»** kimi variantlarına da təsadüf olunur. Bu gün İranda yaşayan qaşqaylar *(etnik azərbaycanlılar)* arasında «tayfa başçısı», «nəslin ağsaqqalı» anlamında işlədilən və «eltəbər» sözünün törəməsi olan **«ilbəgi»** *(elbəyi)* titulu hələ də qalmaqdadır. Qədim Çin mənbələrinə görə, 648-ci ildə Xanbalıq *(Pekin)* şəhərinə göndərilən qırğız elçisi «eltəbər» titulunu daşıyırdı və bu, çinlilərin türk sərkərdələrinə ünvanladıqları «şe-li-fa» və ya «xsie-li-fa» kimi rütbələrin analoqu sayılırdı. Başqa bir qənaətə əsasən, eltəbər/baltavar titulu Atillanın qurduğu Hun imperiyası dönəmində də mövcud olmuş, sonralar Xəzər xaqanlığında da geniş yayılmışdır. Tarixi mənbələrdə Qafqaz hunlarının başçısı Alp İltəbər, Xarəzm xanı Xatimolteber (?), Volqaboyu Bulqar dövlətinin başçısı Baltavar haqqında məlumatlar vardır. VII əsrə aid qədim salnamələrdə uyğur hökmdarlarından Tumidu xaqanın *(Uluq Eltəbər),* Yabqu Eltəbərin adları çəkilir.[4] X əsrdə yaşamış ərəb səyyahı və diplomatı Əhməd ibn Fədlan Volqaboyunda olarkən buradakı bulqar-suvar tayfa birliyinin başçısı Eltebər Almuşda *(əl-Həsən ibn Baltavar)* haqqında da ətraflı söz açır. VII əsrdə yaşamış alban tarixçisi Musa Kağankatlı *(erm.*: «*Kaqankatvaüi», türkcə: «Xaqanın şəhərindən olan»)* «Alban ölkəsinin tarixi» əsərində Xəzər dövlətinin eltəbəri Alp İltəbərin də adını çəkir. Salnamənin erməni dilinə tərcüməsində onun titulu «iltuverutyun» şəklində qeyd olunur. Bildirilir ki, Xəzər xaqanı bu titulu ona «pativ» *(qədim İran dillərində olan «pati» sözündəndir və «başçı», «yüksək çin» anlamında işlədilirdi)* kimi vermişdir. Türk xalqlarında hökmdar öz adı ilə çağırılmadığı üçün ona «Alp İltəbər» deyirdilər. VII əsrdə Xəzər imperiyasının tabeliyinə keçən Qafqaz hunlarının ilk eltəbəri «Alp Bulu» kimi tanınan Bulu Şad *(«şad»: Türk və Xəzər xaqanlıqlarında varislik hüququ olmayan şahzadəyə verilən rütbə)* olmuşdur. O da məlumdur ki, Qafqaz Albaniyasının katalikosu Viro ölkəsini hunların basqınlarından qorumaq üçün 631-ci ildə onun hüzuruna gəlmiş və salnamədə **«yırtıcı aslan balası Şat»** kimi də xatırlanan Alp İltəbərə Albaniyanın tarixən hun əraziləri olduğunu bəyan etmişdir.[5]

4 А.Камалов. «Древние уйгуры. VIII-IX вв.». Алматы: «Наш мир». 2001.

5 К.Алиев. «Великий князь Алп-Илитвер. К эпической биографии правителя кавказских гуннов (гуннуг-ундуров) // газета «Ёлдаш/Времена», 22 июль 2011 г.

Bir sıra mülahizələrə əsasən, «eltəbər» kəlməsi «el» *(ölkə)*, gücləndirici «ta» və «bar» *(bütün)* sözlərinin birləşməsindən yaranmışdır. Macar linqvisti A.Bombaçi bunu əsas götürərək, «eltəbər» titulunun «xalqın, tayfanın başçısı» anlamı verməsi qənaətinə gəlmişdir.[6] Kül tigin mətnlərində **«eltəbərliğ bodun»** *(eltəbəri/rəhbəri olan xalq)* ifadəsinə rast gəlinir. Bu gün «vətən», «coğrafi mənşə ərazisi» anlamını verən «el» kəlməsi qədim türk dillərində «tayfa ittifaqı» mənasında işlədilirdi. Saka-skif dilinin daşıyıcılarından biri sayılan çuvaşların dilində «təbər» sözü indinin özündə də «başçı», «rəhbər» kimi izah olunur. Lakin titulun ilkin semantikasının qədim dövlətçilik atributları kontekstindən təhlili sözün kökündə fərqli mənanın dayandığını göstərir. Məsələn, damğa işarəsinin qrafik təsvirinin **Ψ** bəzi deşici və doğrayıcı silahlara bənzərliyinə söykəndiyini bildirən tatar tədqiqatçıları, zənnimizcə, haqlı olaraq «baltavar» sözünün qədim türk dövlətçilik rəmzlərinin adlarından - «balta» *(tək və ya ikiağızlı balta)* ilə «ber» *(yay-oxun nadir işlədilən etnik adı)* kəlmələrinin birləşməsindən yarandığını bildirirlər. Fikrimizcə, əgər bu titulun yay-oxla əlaqələndirilməsi istisna olunarsa, onun qədim sakral rəmzlərdən olan «balta» işarəsi ilə bağlanması həqiqətə uygun ola, bu rütbənin ilkin semantikasının bərpasında açar rolunu oynaya bilər.

Bu qənaəti - «eltəbər» və ya «iltəbər», «baltavar» titullarını **«el/il + təbər», «balta + ber/var»** söz birləşmələrindən yaranmasını əsaslandırmağa çalışaq. Dünyanın bir sıra qədim xalqlarında balta ilahilərin solyar rəmzlərindən biri kimi qəbul edilmişdir. Bu qorxunc silah bir tərəfdən ilahi qəzəbi, cəza atəşini, şimşəyi, digər tərəfdən isə mütləq gücü, hakimiyyəti, məhsuldarlığı və tanrıların insanlara yardımını təcəssüm etdirirdi. İkiağızlı *(ikibaşlı)* balta ilkin dövrlərdə Göy tanrısı və Yer ilahəsi arasında izdivacı, Yaranışı simvolizə etsə də, sonralar «ikibaşlı qartal» rəmzinin arxetiplərindən biri olaraq dövlət idarəçiliyində dini və dünyəvi hakimiyyətin vəhdətini ifadə etmişdir. O da maraqlıdır ki, türk xalqlarının damğa təsnifatında həmin semantikanı verən bir sıra damğa işarələrinin adları müxtəlif olsa da *(«qoşa balta», «baltavar», «ikibaşlı qartal», «Ay-Günəş»/»Ay-ulduz», «yay-ox» və s.),* təsvirləri eynidir. Əski türklərin qam-şaman oyunlarında *(ayin rəqslərində)* balta ilahi qüvvələr və ruhlarla ünsiyyət yaratmaq vasitələrindən biri sayılırdı.[7] Bu sakral silah vaxtilə Şumer, Hett, Akkad, Qədim Misir, Assuriya, Manna, Midiya, Urartu

6 Yenə orada
7 З.Наурзбаева. «Семь ипостасей Коркута», http://www.otuken.kz/index.php/mythzira/48-korkut

dövlətlərində, etrusklarda, türklərdə, çinlilərdə, eləcə də Misir sivilizasiyasının bazası əsasında qurulan Krit şahlığında da dini atributlardan biri olmuşdur. Amerikalı antropoloq Loriston Şarpın qənaətinə görə, baltanın mütləq hakimiyyət rəmzi kimi üstün statusunun təməli hələ ibtidai icma dövründə formalaşmağa başlamışdır. Belə ki, böyük zəhmət hesabına hazırlanan daş baltalar qəbilənin ümumi mülkiyyəti hesab olunur, onu saxlamaq, başqalarına «icarəyə vermək» hüququ yalnız icma başçısına verilirdi. Bununla da balta tədricən sosial əhəmiyyət kəsb etmiş və dini-mifoloji çalarlarla zənginləşərək hakimiyyətin *(tayfa başçısının, hökmdarın)* rəmzinə çevrilmişdir. L.Şarp fikirlərini təsdiqləmək üçün maraqlı bir misal çəkir: Avstraliya qitəsi kəşf olunduqdan sonra buraya ayaq açan xristian missionerlər hələ də Daş dövründə yaşayan Yir-Yoront qəbiləsini ələ almaq, «Məsihin yoluna yönəltmək» məqsədilə onun üzvlərinin hər birinə dəmir baltalar hədiyyə etmişlər. Nəticədə, az keçməmiş icma parçalanmış, onun strukturu və iyerarxiya pilləsi sürətlə dağılmağa başlamışdır.[8]

Saka-skiflərin mifoloji təsəvvürlərinə görə, tanrıların onlara göndərdiyi rəmzi hədiyyələr arasında balta da vardır. Herodot bu barədə yazır: «**Targitayın** *(skif panteonunda ilk insan, skiflərin əcdadı)* **üç oğlu vardı: Lipoksay, Arpoksay və Kolaksay. Targitayın Skif ölkəsində şahlıq etdiyi dönəmlərdə göydən yerə qızıl əşyalar düşmüşdü: kotan, boyunduruq, sakaris** *(balta)* **və şərab camı. Böyük oğul Lipoksay yaxınlaşıb onları qaldırmaq istəyəndə həmin əşyaları od bürüdü. İkinci oğul Arpoksay da yaxınlaşanda bu əşyalar yenidən alovlandılar. Lakin kiçik oğul Kolaksay onlara tərəf gedəndə alov söndü və o, həmin əşyaları evinə apardı. Buna görə də böyük oğul atasının şahlığını kiçik qardaşına verməyə razı oldu»**. Qeyd edək ki, yunanlar saka-skiflərdə din və hakimiyyət atributlarından olan döyüş baltasına, o cümlədən ikiağızlı baltaya «saqaris» deyirdilər. Herodot şişpapaq saklar *(tiqrahauda)* haqqında bunları yazırdı: «**Saklar - onlar həm də skiflərdir, başlarına düz şiş uclu papaqlar qoyar, …yay-ox, gödək qılınc** *(akinak)* **və balta-saqaris gəzdirirdilər»**.[9] Görkəmli alim, türk xalqlarının qədim tarix və mədəniyyətinin tədqiqatçısı olmuş Tamara Talbot Rays *(1904-1993)* skiflərin saqarisə verdikləri önəmi şərh edərək bildirir: **«Doğrudur,**

8 Sharp L. Steel Axes for Stone Age Australians // Steward J.C., Murphy R.F.: Evolution and ecology, Essays on Social Transformation by Julian H. Steward. University of Illinois Press, Urbana, Chicago, London, 1977.

9 Геродот. «История», ОЛМА-ПРЕСС Инвест, 2004

Herodot skiflər arasında yayılmış balta kultunu vurğulamışdır və qiymətli metallardan nəfis şəkildə hazırlanmış baltalar həqiqətən də hökmdarların müstəsna hakimiyyətinin simvolu olmuşdur. Lakin arxeoloji qazıntılar zamanı skif məzarlarında belə rəmzi baltalar adi baltalarla müqayisədə gözlənildiyindən az aşkar edilir. Onların ən yaxşısı Kelermesdən *(Rusiyanın Adıgey vilayətindəki Kelermes çayı sahilindəki skif məzarlığı, e.ə. VI əsr)* **tapılan qızıl işləməli baltadır».**[10] Xanım Raysın səmimi təəssüf hissinə isə sadə bir məntiqlə cavab verilə bilər: Şahların və rəiyyətin sayları bir ola bilməzdi...

Əslində, yunan dilində «sakaris» *(σαγαρι)* sözünün ilkin anlamı bu silahın daşıyıcıları olan tayfa birləşməsinə – sakalara verilən ad idi. «Saka» və «ar/ər» *(insan, döyüşçü)* kəlmələrinin birləşməsindən yaranan «sakar» etnoniminə yunan dilində kişi bildirən «is» şəkilçisinin əlavəsi nəticəsində «sakaris» həm sakaları, həm də onların qorxunc silahı olan baltanı ifadə edirdi. Qeyd edək ki, hazırda Türkmənistanda, Cərcov rayonunda sakar tayfasının törəmələri yaşamaqdadır. Etnoqrafik araşdırmalara əsasən, bu tayfa dörd iri uluqa *(tirəyə)* bölünmüşdür: Məryə, Kızan, Qara Mahmud və Siyədağ Sakar. Bundan başqa, sakarların içərisində Altın, Qurd, Pəttə Arıq, Yaycı, Ulu Arıq, Xəzərək nəsilləri də vardır.[11] Maraqlıdır ki, həmin sakar tirələrinə və nəsillərinə Azərbaycanda da rast gəlinir.

Eramızın VIII əsrində Xəzər dövlətində tayfalararası qarşıdurmalar nəticəsində müasir macarların etnogenezində fəal rol oynamış saka-skif mənşəli kabar *(kəvər)* tayfa birləşməsi Dnepr və Karpat dağlarının arasındakı «Etelgöz» adlanan ərazidə məskunlaşmışdır. IX əsrdə isə sekey *(sekeli, sekuy, sekier, sakar)* tayfası həmin birlikdən ayrılaraq, buradan Transilvaniyaya köç etmişdir.[12]

Aşağıdakı eyni süjetli şəkillərə diqqət yetirək. Onlardan birində – eramızdan əvvəl III minilliyin sonlarına aid olan barelyefin sxematik təsvirində (1) Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamış qədim etnoslardan olan kutilərin sərkərdəsi *(rəmzi yay və qurşağa keçirilmiş balta ilə)* təsvir edilmişdir.[13] Sərkərdənin boynundakı medalyon isə barəsində az sonra danışılacaq «abak» adlanan qədim türk damğasının ⊙ təsviridir. 1907-

10 Тамара Т. Райс. «Скифы. Строители степных пирамид», «Центрполиграф», 2004
11 Г.И. Карпов. «Родо-племенная структура Туркмен», turkmenhistory.narod.ru
12 Алексис Шнайдер, «Венгры (мадьяры)», http://www.randevu-zip.narod.ru/europe/east/hungary.htm
13 И.Дяконов. «История Мидии». Москва, 1956

ci ildə fransız alimi E.Ami təsvirdəki insanın antropoloji tipini Azərbaycanın Şuşa şəhərində yaşayan etnik azərbaycanlılarla eyniləşdirmişdir. Digər fraqmentdə isə (2) tarixi Azərbaycan ərazisində *(Urmiyə gölünün cənubunda)* ilkin etnosiyasi birliklərdən olan lullubi tayfa ittifaqının hökmdarı Anubaninin zəfər yürüşü əks etdirilmişdir *(e.ə II minilliyin ikinci yarısı)*[14] Rəqib dövlətin hökmdarını məğlub edən Anubani bir əlində balta, digər əlində ox tutmuş, çiyninə isə kaman keçirmişdir. Qədim türk dövlətçilik simvolizmində balta və yay «hökmdar», «hakimiyyət», ox isə «vassallıq», «tabeçilik» rəmzi sayılırdı. Hökmdarın əlində ox tutması məğlub tərəfə vassallıq təklifi kimi anlaşılmaqdadır. Sadakın *(yay-ox çantasının)* icad olunmadığı dönəmdə *(onu ilk dəfə regiona saka-skiflər gətirmişlər)* kamanın bu cür çiyində daşınması qaydası «Kitabi-Dədə Qorqud» dastanında «yayı qarusuna keçirmək» adlanır. Anubaninin başı üzərindəki ilahi rəmzə ✪ və onun sadələşdirilmiş variantına ⊕ Şumer simvolizmində *(Günəş),* Azərbaycanın Gəmiqaya, Göyçə, Mərkəzi Asiyanın və Şimali Qafqazın qayaüstü təsvirlərində, Manna, Midiya, saka-skiflərin, hun və xəzərlərin, qədim türk sakral işarələri sırasında *(Tenqri xan və Günəş rəmzi* kimi*)* geniş rast gəlinir.



Kuti sərkərdəsi və lullubilərin hökmdarı Anubani

Tanınmış fin diplomatı və linqvisti Qustav von Ramstedin *(1873-1955)* və alman türkoloqu Karl Henrix Mengesin *(1908-1999)* qənaətlərinə

14 Yenə orada

əsasən, müxtəlif türk dillərində bir sıra fonetik variantları *(balğa, balqa, baltu, baldu, balğu və s.)* olan «balta» sözünün vətəni Dəclə və Fərat çayları arasındakı qədim ərazilərdir. Şumerlər həmin silah və ya məişət alətinə «balaq» deyirdilər.[15] Onların yazılı mətnlərində sakral «balta» anlamı verən işarələrdən biri təkağızlı baltanın rəmzi idisə, digəri isə qoşaağızlı baltanı ifadə edirdi. Maraqlıdır ki, ikinci işarəyə «nəzərlik» ornamentinin bir variantı ximi Azərbaycan xalçaçılıq sənətində də rast gəlinir. Diqqət edin, türk damğa nişanları təsnifatında işarəsi də «balta» adlanır. Həmin nişan qrafem olaraq Göytürk əlifbasında *(Yenisey mətnlərində)* incə saitli sözlərdə **«u»** səsini bildirirdi. Cənubi Qafqazda, Anadoluda, Mərkəzi Asiyada, Krımda bu damğa işarəsini daşıyan bəzi tayfa və nəsillər «baltalı» adı ilə fərqləndirilirdilər. Qədim türk damğa təsnifatına əsasən, «çəkic» kimi tanınan işarənin başqa bir adı isə «balta» olmuşdur. Məsələn, qazaxların jetiru tayfasına daxil olan jaqabaylı nəslinin rəmzi kimi.[16] Görünür, bu, damğanın ya ilkin adı olmuş, ya da sonralar ikiağızlı baltaya bənzərliyi nəzərə alınmışdır. Mərkəzi Asiyada «baltalı» adını daşıyan bəzi nəsillərin tanınma-fərqləndirmə nişanının bərabərtərəfli «Tenqri açası» *(Tenqri haçası/xaçı)* olması da eyni yozuma – ikiağızlı baltaya söykənir. Yeri gəlmişkən, Azərbaycanda, o cümlədən Qərbi Azərbaycanda, «baltalı» nəsil/tayfaları da vardır. Borçalıda da «Baytalı» adında qışlaq olmuşdur. Bundan başqa, Anadoluda dəyirman daşının ortasındakı xaçşəkilli hissəyə indi də «baltacıq» deyirlər. Əski oğuz simvolizmində isə həmin ümumtürk rəmzləri ilə yanaşı işarəsi həm ikiağızlı baltanı, həm də eyni mifologemə söykənən ikibaşlı qartalı simvolizə edirdi. Yəni onun müxtəlif tərəflərə yönəlmiş başlıqları dünyəvi və dini hakimiyyətlərin bir liderin *(xaqan, xan, şah)* əlində cəmləşməsi anlamını ifadə edirdi. Əli Yazıçıoğlunun *(XV əsr)* «Təvarixi al-i Səlcuq» əsərindəki təsnifata görə, oğuzların alkaevli tayfası da bu damğanı daşıyırdı və ona Azərbaycanın xalça naxışları içərisində bu gün də rast gəlmək mümkündür.

Yuxarıda qeyd olunduğu kimi, bir çox hallarda həm «xan damğası *(baltavar)*, həm də «quşlu damğa *(ikibaşlı qartal)* müxtəlif adlar altında yayılsalar da, əsasən eyni şəkildə təsvir olunurdular. Məsələn: və s. Volqaboyu bulqarları «baltavar», «eltəbər»

15 K.Menges. Zwei mesopotamische Leimw. Srter., 1955

16 «Тамга (Родовой знак) и Уран (Родовой клич)», http://www.history.kz/ru.php

titullarından yararlansalar da, Qızıl Ordanın süqutundan sonrakı dönəmlərdə adı çəkilən damğa işarəsində Ψ ilahi baltanın deyil, üçdişli çəngəlin - döyüş yabasının əlamətlərini görürdülər. Və bu rəmz xalq arasında «baransar» *(qoç başı)*, «baysanak» *(böyük sənək)* və ya «xəzər» kimi də adlandırılırdı. Onlar bu işarənin semantikasında Tanrının gərilmiş yay-oxunu, Xəzər döyüşçülərinin dəbilqələrindəki təkə buynuzlarını, ayparanı və bunçuk *(hökmdar əsası)* başlığını görürdülər.[17] Mütəxəssislərin qənaətinə görə, istənilən damğanın, o cümlədən baltavar/quşlu damğasının üzüaşağı çevrilmiş təsviri ⋔ ⋓ ⋔ ⋓ ⋔ ⋔ bir siyasi məna olaraq, onun daşıyıcısı olan tayfanın *(dövlətin, xanlığın, bəyliyin)* digərinin hakimiyyəti altına keçməsinin, yəni vassallığının qrafik göstəricisi kimi qəbul edilirdi. Adətən, şahların tacqoyma mərasimlərində, rəsmi keçidlərdə vassal bəylərdən *(məliklərdən)* biri hökmdarın rəmzi baltasını daşıyırdı. Qeyd edək ki, orta əsrlərdə regionda əsasən Osmanlı, Azərbaycan və məmlük balta tipləri yayılmışdır. Dünyanın bir sıra muzeylərində, o cümlədən Milli Azərbaycan Tarixi Muzeyində onun müxtəlif nümunələri qorunub-saxlanılmaqdadır. Səfəvi və Osmanlı dövlətlərində atlı döyüşçülər üçün nəzərdə tutulmuş bir və ya ikiağızlı təbərlər kiçik ölçülü olub atın yəhərindən asılırdı. İkiağızlı baltaları zərbə zamanı əldə tarazlaşdırmaq çətin olduğu üçün hərb sənətində ondan o qədər də geniş istifadə olunmurdu. Ağqoyunlu və Səfəvi şahlarının piyada mühafizə korpusu – təbərçilər isə çiyinlərində uzunsaplı, enliağızlı, başlığı isə nizə ucluğunu xatırladan baltalar *(aybalta)* daşıyırdılar. Rəvayətə görə, Osmanlı ordusunda yeniçəri korpusunun təməlini və adını da sufi təriqəti olan bektaşilərin başçısı şeyx Timurtaş Dədə qoymuşdur. Bu orduda bektaşi dərvişlərin müasir terminologiya ilə desək, «ideoloji işçi» qismində xidmət göstərdikləri barədə xeyli tarixi qaynaqlar vardır.

Osmanlı yeniçəriləri arasında balta kultu ilə bağlı maraqlı bir adət də mövcud idi: Əgər yeniçəri döyüşçüsü tikilməkdə olan ev görsəydi və baltasını *(sultanın və şeyxin hakimiyyət rəmzini)* onun hazır divarından assaydı, bina sahibi tikintini dərhal dayandırmalı və balta sahibi üçün hədiyyə tədarükünə başlamalı idi. İnşaat işləri yalnız yeniçəri əsgəri hədiyyəni qəbul etdikdən və baltasını geri götürdükdən sonra davam etdirilə bilərdi.[18]

17 Ф.Г.-Х. Нурутдинов. «Важнейшие символы и гербы родов, городов и губерний булгар», http://atil.blog.bg

18 Г.Введенский. «Янычары». изд. Атлант, 2003.

Nizami Gəncəvinin «Sultan Səncər və qarı» əsərinə illüstrasiyada sultanın önündə gedən təbərçi təsvir olunmuşdur (Soltan Məhəmməd, XVI əsr, Təbriz miniatür məktəbi, Britaniya muzeyi)

Əslində, baltadan-baltaya da fərq var. Bu gün ümumiləşdirib «balta» adlandırdığımız məişət əşyası onun yalnız bir növü, görkəmcə saka-skif sakarisini xatırladanı, yəni ağzı düz və ensiz olanıdır. İkibaşlı, qövsvari iti ağzı ayparanı xatırladanlara isə əski türklər «baltay» *(balta+ay),* «aybalta» deyirdilər. Görkəmcə orta əsr Şərq döyüş vasitələrində ensiz ucluqlu döyüş baltalarını xatırladan sakaris yaxın təmas döyüşlərində düşmənin qalxan,

dəbilqə və zirehini dəlmək üçün effektiv silah sayılırdı. Təsadüfi deyildir ki, qədim silah mütəxəssisləri sakarisi türk savaş sənətində geniş populyarlıq qazanan, Yaxın və Orta Şərqə, Avropaya da yayılan «şekan» *(ruslarda: çekan),* «aybalta», «təbərzin», külüngə bənzəyən başlığı olan «bozdoğan» *(silahın içəriyə doğru əyilmiş iti ucluğu yırtıcı bozdoğan quşunun əyri dimdiyini xatırlatdığı üçün belə adlanır),* eləcə də ikiağızlı balta kimi silahların prototipi hesab edirlər. Yeri gəlmışkən, Azərbaycanın Laçın rayonunda Bozdoğan kəndi vardır. İkiağızlı saka-skif təbərzini sonralar ölçülərini və görkəmini bir qədər dəyişərək qədim Midiya, Parf və Sasani dövlətlərinin cəbbəxanasına «saqaris», orta əsrlərdə Rusiya knyazlıqlarının ordusuna isə «sekira» kimi daxil olmuşdur. Səlib yürüşlərindən sonra uzun saplı türk aybaltası Avropaya «alebarda» adı altında ayaq açmışdır. Arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş maddi nümunələr sakaris-təbərzinin tarixi Azərbaycan ərazilərində də hazırlanmasını və hərb sənətində geniş tətbiqini əyani şəkildə sübuta yetirir.

Hərb sənətindən fərqli olaraq, irfan fəlsəfəsində dərviş təbərzini tamamilə fərqli, dinc və sakral mahiyyət daşıyırdı. Hələ XX əsrin əvvəllərinə kimi Azərbaycanda təbərzin və kəşkül ilə gəzən dərvişlərə past gəlmək mümkün idi. Sufi dərvişlərinin rəmzi baltası da «kəsərli» idi, lakin məhz özünün ilkin, sakral təyinatını qoruyub saxlamış, Allah-Təalanın hər iki dünyaya yayılan hökmünün təcəssümünə transformasiya etmişdir. Digər tərəfdən isə o, tərki-dünya həyat tərzi sürən zahidin öz nəfsi, fani dünyanın nemət və həzləri üzərində qələbəsini simvolizə edirdi. Azərbaycanın böyük dövlət xadimi və sərkərdəsi, sufi şairi Şah İsmayıl Xətayinin yazdığı kimi:

Mürşid oldur talibini bişirə,
Əlin alıb azmaqlıqdan devşirə,
Gündə min gəz **təbər** vursa başinə,
«La» deməyə ver nəsibin alana.[19]

Şərti izahı: *«Əsl mürşid gərək tələbəsini (müridini) yetişdirə, onun əlindən tutub yolunu azmaqdan qoruya. Gündə başına min dəfə təbər (dərviş təbərzini) dəysə də, nəfsinə «yox» deməyi bacara».*

19 Şah İsmayıl Xətayi. Əsərləri. Bakı, 2005.

Ardıcıllıqla: Osmanlı dövlətinin yeniçəri ordusunda bektaşi dərvişi ikiağızlı aybalta/təbərzin və kəşkül ilə (Avropa rəssamının qravyurası);[20]
XVIII-XIX əsrlərdə və XX əsrin əvvəllərində Cənubi Azərbaycanda sufi dərvişlər.[21]

İlahə İnannanın rəmzinin dövlət atributu kimi ortaq türk arealında yayılmasına gəldikdə isə eramızdan 900-750 il əvvəllərə aid edilən kimer tayfalarının metal dəmrələrinin *(ox ucluqlarının)* üzərindəki damğa işarəsi onun çevrilmiş variantı olmaqla Mərkəzi və Ön Asiyanın, Şimali Qafqazın, Krımın, Azərbaycan və Anadolunun qədim və orta əsr dövlət atributlarında geniş rast gəlinir. Bu «ornamentin» müxtəlif qrafik tipləri qədim Midiya dövlətinin, Arsakilər sülaləsinin - ; Qafqaz Albaniyasının - ; Xəzər xaqanlığının - ; Çingiz xanın - *(bəzi mənbələrə əsasən, onun əcdadlarının nəsil damğası və ya şəklində olmuşdur);* Hülaki xanın - ; Krım xanlarından Dövlət Gireyin - ; Menqi Girey və Şahin Gireyin - ; Şadi xanın - ; XIII əsr Çağatay xanlığının - ; Qızıl Ordanın - ; Polşa-Litva tatarlarının - ; Səfəvi xanədanının - və s. möhür, sancaq və döyüş bayraqlarını bəzəmişdir. Bu işarənin bir variantına Qaraqoyunlu dövlətinin sikkələrində də təsadüf olunur və semantikası «bir tayfanın *(sülalənin)* hakimiyyəti» kimi yozulur. Digər varianta isə Qafqaz Albaniyasının əlifba işarələri arasında *(Matenedaran əlyazması),* «ç» səsini bildirən işarəsində rast gəlirik. 1960-1962-ci illərdə Şimali Qafqazda - Rusiyanın Qaraçay-Çərkəz Respublikası ərazisində yerləşən və VIII-XI əsrlərə aid olan Xumarin *(qədim*

20 А.Кныш. «Мусульманский мистицизм». Москва-С.П, 2004
21 http://www.darvishi.ru/index.php/kollektsiya-izobrazhenij-dervishej

türk dilində: xumaru – «irs», «vərəsə», «miras kimi verilmiş» anlamındadır)[22] şəhəri xarabalıqlarında aparılmış arxeoloji qazıntılar zamanı qala divarlarının daşları və buradan tapılan maddi-mədəniyyət nümunələri uzərində xeyli sayda analoji rəmz təsvirləri sırasında baltavar nümunələri də  aşkar edilmişdir. Rusiyalı arxeoloq Y.Alekseyeva onların vaxtilə Şimali Qafqazda məskunlaşmış bulqarlara və xəzərlərə məxsus damğa işarələri olması qənaətinə gəlmişdir.[23] Eyni tipli damğaların və onların variantlarının, məsələn,  müasir Bolqarıstan ərazisində də yayılması faktı[24] bu ərazidə nəinki türk tayfalarının məskunlaşmasını, eləcə də ölkənin adından göründüyü kimi, ilk bolqar dövlətçiliyinin məhz onlar tərəfindən yaradılmasını və bu dövlətlərin hüquqi vəziyyətini *(vassallığını)* bir daha təsdiq edir. Bolqarıstanda müxtəlif dövrlərdə hakimiyyətdə olmuş Asenilər, Terteroviç, Şişmanoviç çar və knyaz sülalələrinin bulqar-kuman mənşəli olmaları bu gün heç kəsə sirr deyildir. Misal üçün Şişmanlar sülaləsini götürək. Bolqar mənbələrinə görə, onun adı da türk mənşəlidir və knyaz sülaləsinin təməlini qoymuş Vidin despotu *(yunan dilində: «hakim»)* həddən ziyadə kök olduğuna görə bu ləqəbi daşımışdır. 1422-ci ildən etibarən Osmanlı dövlətinin vassalı *(baltavarı, eltəbəri)* olan Şişmanların sülalə rəmzləri də işarələri üzü aşağıya doğru çevrilmiş baltavar  idi. Yeri gəlmişkən, «Şişman» soyadı Krımda, analoji damğa işarələri  «xan damğası» adı ilə karaimlərin arasında da yayılmışdır.

Ukraynalı tarixçi V.Juk orta əsrlərdə baltavarın rus knyazlıqlarının rəmzinə  çevrilməsinin səbəblərini türk və slavyan tayfaları arasındakı tarixi əlaqələrdə axtarır. O yazır: **«Bizim torpaqlar** *(Ukrayna nəzərdə tutulur)* **Hun tayfa ittifaqının tərkibində olanda Dnepr çayının sol sahilləri Atillanın böyük qardaşı və «Bulut Şud» kimi də tanınan Bledin hökmranlığı altında idi. 434-cü ildə hər iki qardaş hun dövlətində hakimiyyəti ələ aldılar. Həmin il Bled indiki Poltava şəhərinin yerində şəhər-qala inşa etdirdi və adını «Baltavar» qoydu».**[25] Digər fərziyyəyə görə, Poltava-Baltavar şəhərinin təməlini VII əsrdə bulqar hökmdarı, dulo *(dulat)* tayfa birliyindən olan baltavar *(eltəbər)* Kubrat xan qoymuşdur. Xüsusilə qeyd edək ki, adı

22 «Древнетюркский словарь», под ред. Наделяева В.М., Насилова Д.М., Тенишева Э.Р., Щербака А.М. - Ленинград: Наука, 1969.

23 Е. Алексеева. «Древняя и средневековая Карачаево-Черкесия». М., 1971

24 Х.Биджиев, «Хумаринское городище». Черкесск, 1983.

25 В.Н. Жук. «Из седой древности. Очерки из истории Украины и Полтавщины (VII тс. до н.э. - XVI ст. н.э.)», http://sespel.com.ua/korni/trezub/

çəkilən birliyin rəmzlərindən biri baltavar - «aşağıya doğru yönəlmiş yay-ox» idi ⚲ və görünür, həmin nişan Kubrat xanın tayfasının damğası olmuşdur. Bu faktın özü də baltavar damğası və Baltavar *(Poltava)* şəhərinin adları arasında bağlılığı bir daha göstərir. Həmin damğa işarəsinin daha qədim variantlarına Krım xanlarından Hacı Gireyin, Menqli Gireyin *(Sultan Süleyman Qanuninin qayınatası),* Krım Gireyin, Şahin Gireyin - , Dövlət Gireyin - gerb və möhürlərində rast gəlinir. Tarixi mənbələrə əsasən, Krımda bu damğanı dövlət rəmzi olaraq ilk dəfə Hacı I Gəray xan qəbul etmişdir.Ukraynada, sonralar isə Rusiyada da «baltavar» kimi tanınan, əsrlər boyu knyaz və çarların sikkələri, bayraqları üzərində həkk olunan bu damğa rus knyazlıqlarının dövlətçilik atributları sırasında da mühüm yer tutmuşdur. Rusiyalı tədqiqatçı A.Qalanin «Üçdişli yaba hakimiyyət rəmzi kimi» məqaləsində damğanın daha geniş ərazilərə, o cümlədən müasir Rusiyanın cənubuna yayılmasının səbəblərini belə izah edir: «**X əsrdə Bulqar hökmdarları cənub ərazilərini – Krımı, Don çayı, Qafqaz və Volqa çayı arasında olan torpaqları müdafiə etmək məqsədilə muzdlu döyüşçülərdən ibarət dəstələr yaratmağa başladılar. Həmin döyüşçülər «çirkeş»** *(çərkəz)* **adlandırılırdılar. «Çir» bulqarca «azad», «keşi»** *(kişi)* **isə «insan» demək idi** *(fərqli yozuma görə, bu söz «ordu», «qoşun» anlamı verən «çəri» və «kişi» sölərinin birləşməsindən yaranmışdır və «qoşun adamı», «orduya qoşulan» mənasını daşımışdır* – **A.Q.). 1242-ci ildə Volqaboyu Bulqar dövlətinin cənub əraziləri monqollar tərəfindən işğal olunduqdan sonra çirkeşlər Noqay xanın xidmətinə keçdilər və tədricən kazaklarla birləşdilər. Ukraynadakı «üçdişli yaba» rəmzi isə onların da gerbinə çevrildi».**[26] Ukraynalı Aleksandr Maslov da bu damğanın türk kökənli olması və türk-slavyan birliyini təcəssüm etdirməsi qənaətindədir. Lakin o, xarici bənzərliyi əsas götürərək baltavarı qədim türklərin digər populyar damğası - «bakan», «baytörə», «bayterek» adlandırılan işarə ilə ⚲ eyniləşdirməklə, onun semantikasını üçdişli nizədə axtarmağa cəhd göstərir. A.Maslov damğanın slavyanlar tərəfindən mənimsənilməsi səbəblərini belə izah edir: «**Ukraynada iki türk tayfasının taraklı *(daraqlı)* və jalayırların *(cəlayirlərin)* nəsil nişanı «üçdişli yaba» olmuşdur. Hələ XIX əsrdə aydınlaşmışdır ki, adına görə daraq işarəsi ⚲ taraklı tayfasına, türklərin «ayır» adlandırdıqları üçdişli yaba damğası isə ⚲ jəlayirlərə məxsus idi. Ukraynada köçəri həyat tərzi sürən baqanqalıların** *(tayfa adı)* **da öz damğaları ⚲ vardı. Türk qvardiyası həmişə olmasa da, əksər dövrlərdə**

26 А.В. Галанин. «Трезубец как символ власти», http://ukhtoma.ru/traditions3.htm

rus knyazlarının, eləcə də çarların dayağı olmuşdur. O da sirr deyildir ki, qvardiya çox vaxt «süzrenlərinə» ***(xidmətində olduqları hökmdarlara)*** **öz «davranış qaydalarını», o cümlədən fərqləndirmə nişanlarını diktə edir».**[27]

Rus «baltavarının», eləcə də dövlətçilik ənənələrinin qalın türk layından «təmizlənməsi», daha doğrusu, «baltavar» işarəsinin birdən-birə «üçdişli yaba» kimi təqdim edilməsi «sirri» isə rus şair və tarixçisi Nikolay Karamzinin *(1766-1826)* adı ilə bağlıdır. Məhz onun tarixşünaslıq sahəsindəki səyləri nəticəsində «baltavar» anlayışı qəflətən Rusiya heraldikasından birdəfəlik götürülmüş, Rürixlər sülaləsi *(rus tarixşünaslığına əsasən, Kiyev Rus dövlətinin təməlini qoymuş norman konunqu Rürikin çar I Fyodoradək davam etmiş sülaləsi)* ilə əlaqələndirilmiş və «üçdişli yaba» anlamını verən **«trezubeü»** sözü ilə əvəzlənmişdir. Hələ sovetlər dönəmində N.Karamzinin kitabına yazılan öz sözdə müəmmalı şəkildə etiraf edilir: **«Beləliklə, N.Karamzinin səyləri ilə orta əsr rus sikkələrində, o cümlədən knyaz Yaroslav Vladimiroviçin gümüş pulu üzərindəki məlum damğa işarəsi Ψ adını və təyinatını dəyişmiş, tarixşünaslığa «üçdişli yaba» kimi düşmüşdür».**[28] Elə isə rus dövlətçilik simvolizmində «üçdişli yaba»nın ilkin təyinatı necə olmuşdur?

N.Karamzinin bu təşəbbüsü, bütövlükdə rus tarixşünaslığının «baltavar» adından imtina edərək damğa işarəsini mənimsəmək cəhdi heç də həmin dövrlərdə geniş vüsət almış ksenofobiya, velikorus millətçiliyi və ya milli tarixi öyrənmək səyləri ilə əlaqəli deyildir. Bu ideya ilk növbədə siyasi-tarixi məqsədlər daşıyırdı. Belə ki, əgər rus knyazları vaxtilə «baltavar» damğasını öz dövlət rəmzləri kimi qəbul etmişdilərsə, bu nişan onların sikkə və bayraqlarında əksini tapmışdısa, normal məntiqə görə, onların özləri də «baltavar» və ya «eltəbər» titulunu daşımış, Xəzər, Bulqar, Qızıl Orda dövlətlərinin təəbəsi və vassalları olmuşlar! Məlumdur ki, Kiyev knyazı Yuri Dolqorukinin *(1090-1157)* bayrağını və şəxsi möhürünü baltavar işarəsi Ψ bəzəmişdir. Bundan başqa, Rusiya imperiyasının ilk çarı, «Qroznı» ləqəbli IV İvanın *(1530-1584)* möhur və gerbində də qıpçaq kökənli Qlinski zadəgan sülaləsinin baltavarından 卐 istifadə olunmuşdur. Səbəbi isə bir tərəfdən çarın etnik kökü, digər tərəfdən isə babalarının əsrlər boyu baltavar statusu daşıması ilə əlaqəlidir. Xatırladaq ki, Kulikov döyüşünün iştirakçısı Mamay xanın və

27 А.Маслов. «Что формировало Украину: Славяне и тюрки», http://rusmir.in.ua/ist/935-iz-cikla-chto-formirovalo-ukrainu-slavyane-i.html

28 Н.Карамзин. «История государства Российского». Т. 2. Москва, 1988

digər qıpçaq xanı Aepanın nəslindən olan İvan Qroznının babası Oleksa Mamay 1421-ci ildə xristian dinini qəbul etdikdən sonra «knyaz Aleksey Qlinski» adını almışdır. O da maraqlıdır ki, Oleksa Qlinski sonralar Poltava *(Baltavar)* şəhərinin knyazı olmuşdur. Bundan başqa, Böyük Vladimirin *(Svyatopolk, 1015-1019),* Yaroslav Mudrının *(1019-1054),* İzyaslav Yaroslaviçin *(1054-1078),* Svyatopolk II İzyaslaviçin *(1093-1113)* və digər knyazların damğaları da onların statusunun göstəricisi olmuşdur. Bu baxımdan, sovet dönəmində rus arxeoloqu Boris Rıbakovun cidd-cəhdlə həmin işarələri «slavyanlaşdırmaq» cəhdləri anlaşılandır. Alim Volqa çayının sağ qolu olan Okanın yuxarı sahillərində və Dnepr çayı kənarında tapılan və eramızın VI-VII əsrlərinə aid edilən metal boyunbağılar üzərindəki «yaba» təsvirlərini «damğa» adlandırsa da, onların «nədənsə» məhz «slavyan tayfa başçılarına» məxsus olduğunu bildirmişdir. Lakin eyni zamanda bu iddiasını, xüsusilə həmin nişanların X-XII əsrlərdəki rus knyaz «damğaları» ilə vahid sistem daxilində birləşdirilməsinin hələ də faktoloji materiallara əsaslanmadığını ehtiyatla etiraf etmişdir.[29]

Rusiya Elmlər Akademiyası Tarixi İnstitutunun əməkdaşı, tarix elmləri doktoru Nadejda Soboleva əvvəllər belə səylərin əleyhinə çıxmış, **«XX əsrin ilk onilliyində və indiki zamanda «yaba» rəmzinin siyasiləşdirilməsi nəticəsində orijinal tədqiqat istiqamətlərinin, eləcə də həmin işarənin Rüriklər sülaləsi ilə bağlanması kimi fantastik yozumların meydana gəlməsini»** tarixin obyektiv araşdırılması üçün ciddi maneə kimi dəyərləndirmişdir.[30] Bununla belə, sonrakı tədqiqatlarda «tarixi-siyasi səhv» etdiyini anlamış, işarələrinin həqiqi etnik mənşəyi və ilkin variantları barədə susmağı üstün tutaraq, onları ən yaxşı halda «Rusiya tarixinin ağ səhifəsi», «sirli rəmz» adlandırmış, hətta baltavarın rus dövlətçiliyinin rəmzi olmadığını sübuta yetirməyə çalışmışdır. Məsələn, N.Soboleva yazır: **«Təəssüf ki, hətta müasir tədqiqatlarda da bu emblem «gerb» adlandırılır və əvvəllər olduğu kimi bu işarəni «X-XI əsrlər Kiyev Rus dövlətinin heraldikası» kontekstindən dərk etməyə səy göstərilir. Belə yanaşma isə semiotika, heraldika sahəsində müasir elmi nailiyyətlər, milli və xarici işarələr haqqında çoxsaylı tədqiqatlar müstəvisində arxaik**

29 Б.Рыбаков. «Знаки собственности в княжеском хозяйстве Киевской Руси X-XIIвв.»// Советская археология. 1940.

30 Н.Соболева. «О загадочном знаке первых русских монет», http://www.staraya-moneta.ru/lib/721/

görünməkdədir».[31] Üstəlik, N.Soboleva digər məqaləsində XIII–XIV əsrlərə aid etnoqrafik və arxeoloji materialları təhrif edərək, **«türklərin, xüsusilə Qızıl Ordanın da məhz həmin nişandan istifadə etdiklərini»** (?) bildirirdi.



Kiyev şəhərində inşa olunmuş (986-996) kilsələr üzərində «ikidişli» baltavar təsvirli kaşı plitələr indi də qalmaqdadır[32]

Odur ki, məhz Rusiya alimlərinin araşdırmalarına istinadən xatırladaq ki, IX əsrdə Şərqi Bulqar ölkəsi iki hissəyə – mərkəzi Kiyev olan Kiyev Bulqar dövlətinə *(sonralar «Kiyev Rus dövləti»)* və Volqaboyu Bulqariyasına *(Ak Bulqar)* parçalanmışdır. Ak Bulqar 922-ci ildə islam dinini qəbul etdikdən sonra «bütpərəstliklə» bağlı bütün ayin və rəmzləri qadağan edilmiş, lakin baltavar rəmzi Ш Ψ ərəb əlifbasında «ba» hərfinə ب bənzədiyi üçün bu bəhanə altında X əsrin sonunadək ölkənin rəmzi olmuşdur. Rusiyalı tədqiqatçı Aleksey Qalanin araşdırmalarında göstərir ki, Kiyev Rus dövlətində hakimiyyət Alp Birgünə *(ruslarda: «Perun»)* sitayiş edən tanrıçı bulqarların əlində idi. Bu dövlətin hakimləri XII əsrə kimi baltavarı özlərinin dövlət rəmzi kimi qoruyub-saxlaya bilmişlər. Hətta bulqar hökmdarı Laçın xaqanın nəticəsi knyaz Vladimir də babalarının ənənələrinə sadiq qalmış, 988-ci ildə xristianlığı qəbul etməsinə baxmayaraq, üzərində həmin rəmz olan sikkələr kəsdirmişdir. Üstəlik, IX-XI əsrlərə aid salnamələrə əsasən, Kiyev hökmdarları türk titullarından da geniş istifadə etmişlər. Məsələn: «Xaqan Vladimir», «Xaqan Yaroslav *(Mudrı)* və s. Bununla belə, XII əsrdə Kiyevdə

31 Н.Соболева. «Очерки истории российской символики. От тамги до символов государственного суверенитета», Знак, 2006.

32 Н.Соболева. «О загадочном знаке первых русских монет», http://www.staraya-moneta.ru/lib/721/

türk mədəniyyətinin izlərinin silinməsinə nail olan qrekofil *(yunanmeyilli)* knyaz Vladimir Monomax nəinki «üçdişli yaba» təsvirlərini qadağan etmiş, hətta salnaməçilərə Kiyev knyazlarının şəcərəsini də dəyişməyi əmr etmişdir. Nəticədə, Laçın xaqan «Rürixə», onun oğlu Uger isə «İqora» çevrilmişdir.[33]

Belə olan təqdirdə, digər Rusiya alimi - arxeoloq və slavyanşünas, akademik Valentin Sedov türk və slavyan mədəniyyətləri üçün yeni «ortaq və barışdırıcı» konsepsiyanın elmi dövriyyəyə buraxılması təşəbbüsü ilə çıxış etmişdir. Onun qənaətinə görə, qədim rus dövlətçiliyi haqqında mövcud təsəvvürlər, «avtoxton Rusiyanın» axtarışına yönəldilmiş təşəbbüslər guya IX əsrdə mövcud olmuş «Rus xaqanlığına» (?), Xəzər dövləti ilə slavyan tayfaları arasında qarşılıqlı əlaqələrə dair konsepsiyanı getdikcə daha fəal şəkildə aktuallaşdırmaqdadır. **«Yeni məlumatların əldə edilməsi və məlum faktların təkrar təhlili tarixşünaslıqda ənənəvi fikirlərə alternativ olan fərziyyələrin, o cümlədən Kiyev dövlətinin təməlinin xəzərlər tərəfindən qoyulması, rusların ilk dövlətlərindən olan Rus xaqanlığının yaranması və ərazisi barədə ideyaların meydana gəlməsinə səbəb olmuşdur»**. V.Sedov bu fikirdədir ki, «Rus xaqanlığı» Şərqi Avropanın şimal-şərqindən Dnepr və Don çayları regionunadək böyük bir ərazini əhatə etmiş və onun inzibati mərkəzi Kiyev şəhəri olmuşdur.[34]

TOGRUL, QUŞLU DAMĞA/İKİBAŞLI QARTAL. Qədim türk xalqlarının mifologiyasında alıcı quşlara xüsusi mistik anlam verilirdi. Onların lələkləri döyüşçülərin tuğulğalarının *(dəbilqələrinin)* yuxarı hissəsinə taxılır, caynaqları isə nəzərlik kimi yaxadan asılırdı. Əski türklərə aid edilən qiymətli artefaktlarda da bu quşların təsvirlərinə rast gəlinir. Məsələn, indiki Mərkəzi Monqolustan ərazisində, Orxon çayının sahilində yerləşən Kül tikin kompleksindəki *(VII əsr)* təsvirdə böyük sərkərdənin baş geyimində qartal lələyi həkk olunmuşdur. Bu rəmzə Bilgə xaqanın xatirəsinə ucaldılmış kompleksdə, Qazaxıstan və Qırğızıstandakı «Altın tamqa tarxan», «Kuli-çur», «Elgene bulaq», «Anonim-4» kimi arxeoloji abidələrdə də təsadüf olunur. Qədim türk mifologiyasında azad və qüvvətli olan alıcı quşların, xüsusilə onların alisi sayılan qartalın sxematik təsvirləri damğa işarələrində, eləcə də

33 *А.Галанин. «*Арийские традиции. Трезубец как символ власти», http://ukhtoma.ru/traditions3.htm
34 В.Седов. «Русский каганат IX в.», Отечественная история,1998. № 4.

bəzi türkdilli ölkələrin dövlət rəmzlərində öz əksini tapmışdır. Əski türklərin inanclarına əsasən, dünyanın mərkəzində ucalan nəhəng Dirilik Ağacının zirvəsində yuva quran qartal Tenqri xanın Orta Dünyaya, insanlara nəzarət edən keşikçisi, baxan gözləridir.[35] Odur ki, təkcə mif və rəvayətlərdə deyil, damğa işarələrində də bu quş ilahi və Günəşlə ortaq rəmzlərə malikdir. Məsələn, yuxarıda qeyd olunduğu kimi, ✝ nişanı Tenqri xan açası/xaçı olmaqla həm də qartalı, ✳ və ✳ işarələri isə Günəş və Tenqridən savayı ikibaşlı qartalı da simvolizə edir. Bəzi hallarda Günəşin rəmzi - «çərxi-fələk» kimi izah olunan damğa işarəsini səmada qanad süzən qartalın sxematik təsviri kimi də izah edirlər. Qədim və orta əsr yazılı mənbələrində alıcı quş adları ilə bağlı olan «toğrul», «toyan», «çağrıbəy», «tuyqun eltəbər», «turqak» kimi etnonim və titulların adları qorunub saxlanılmışdır. Yeri gəlmişkən, Çingiz xanın nəslinin totem quşu ağsunqur *(ağ şahin)* olmuşdur.[36]



Azərbaycan xalçalarında Tanrı-Günəş-qartal(Toğrul) rəmzləri[37]

Oğuz tayfalarının da hər birinin alıcı quş onqonları – Tanrı ilə aralarında daimi vasitəçiləri və himayədarları vardı. Məsələn, qayı və bayandur boylarında – şahin (*şonqar)*, bayat boyunda - kökənək *(bayquş, hazırda bəzi dialektlərdə bayquşun tük tökməmiş balası),* bəydili boyunda – quzğun, salur və iğdır boylarında – qartal, kınık boyunda - ağ qartal, dodurğa boyunda – qızıl qartal, karkın boyunda – berkut və s. Ağ *(albinos)* quşlar daha müqəddəs sayılırdı. Məsələn, «Kitabi-Dədə Qorqud» eposunda adı keçən ağ sunqur *(şonqar)* quşu kimi. «Kitabi-Dədə Qorqud» dastanında işlədilən «çal qaraquş» *(bozumtul böyük quş)* ifadəsi oğuzların müqəddəs hesab etdikləri iri alıcı quşa – qartala verdikləri adlardan biridir. O, oğuz tayfalarının əski inanclarında da bütün

35 А.Бисенбаев. «Мифы древних тюрков». Алматы: «Ан-Арыс», 2008
36 Н.Базылхан. «От двуглавого орла до аристократического аксункара», http://kyrgyztoday.kg
37 «Azərbaycan xalçaları», cild 2, №4, 2012.

quşların hakimi, Tanrıya ən yaxın varlıqlardan biri sayılır. Mərkəzi Asiyada isə «qaraquş» dedikdə berkut nəzərdə tutulur. Dastanda qartal/qaraquşun mifik qüdrəti belə tərif olunur: **«Qab qayalar başında yuva tutan, Qadir, Ulu Tanrıya yaqın** *(yaxın)* **uçan…»**[38]

Bundan başqa, «Qırğız» etnoniminin elmi dairələrdə qüvvədə olan yozumlarından biri də qartal mifologemi ilə bağlıdır. Yeni etimoloji izahın müəlliflərindən olan qazaxıstanlı türkoloq Yuri Zuev «qırğız» sözünü qızılquşkimilər dəstəsinin qırğılar fəsiləsinə aid olan və "Avesta"dakı «kahrkasa» adı ilə keçən yartıcı quşla *(Azərbaycan dilində: «kərkəs», «ağbaba»)* əlaqələndirmişdir.[39] Xatırladaq ki, Qərbi Azərbaycan torpaqlarında tarixən Ağbaba bölgəsi mövcud olmuş və 1930-cu ildə toponim dəyişdirilmiş, həmin ərazisdə Amasiya rayonu yaradılmışdır. Onu da vurğulayaq ki, şaman oyunlarının *(rəqslərində),* eləcə də türk xalqlarının məskunlaşdığı geniş ərazilərdə yayılan solo kişi rəqslərinin əsasında da mifik qartal obrazının məğrur hərəkətləri *(alıcı quşun gərilmiş qanadlarını xatırladan yana açılan qollar)* dayanır. Bu sıraya qazaxların «burkit bi» *(berkut)* rəqsini də əlavə etmək olar. Qadın rəqsləri isə *(qollar çiyindən yuxarı qalxmamaq şərti ilə)* Humay Ananın rəmzi olan qu quşunun *(ak kaz, ak kuş, su gəlini və s.)* yerişini xatırladır. Zorxana oyunlarına, milli güləş yarışlarına başlamazdan əvvəl pəhləvanların qol hərəkətləri ilə meydan boyu gərdiş etmələri də qartal obrazı ilə bağlıdır.

Tarixi Azərbaycan torpaqlarında yaşamış maqların və kaspların da mifik təsəvvürlərində alıcı quşlar mühüm yer tuturdular. Onların inancına görə, bu quşlar Orta Dünya ilə İlahilərin Dünyası arasında vasitəçi olaraq, ölən insanların ruhlarını qaranlıq dünyaya çatdırırdılar. Strabon yazırdı ki, maqlar və kasplar cənazələri uzaq çöldə torpağın üzərinə qoyub kənardan müşahidə edərdilər: Əgər yırtıcı quşlar onun üzərinə qonarlarsa, deməli, ölənin ruhu o dünyada rahatlıq tapacaqdır. Cənazənin vəhşi heyvanlar və itlər tərəfindən didilməsi də yaxşı əlamət idi, lakin o qədər də hörmətli sayılmırdı. Yox əgər, ümumiyyətlə, qurd-quş meyidə yaxın gəlməzsə, həm ölən insan, həm də onun ruhu bədbəxt hesab edilirdi. Türkmənistan Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini, professor Ovez Gündoğdıyev türkmənlərin *(həm də azərbaycanlıların)* dilində geniş yayılmış və «lazımsız», «hörmətsiz», «murdarlanmış» anlamlarını verən

38 «Kitabi-dədə Qorqud», əsil və sadələşdirilmiş mətnlər, Bakı, Öndər, 2004

39 Ю.Зуев. «Кыргызы-буруты» // Советская этнография, 1970, № 4.

«it-quş yeməz» ideomatik ifadəsini məhz Xəzər sahillərində yaşamış qədim tayfaların bu dini ayini ilə izah edir.[40] Yeri gəlmişkən, «Avesta»da da Saena *(Simurq, kərkəs, ağbaba)*, Arazifya *(qartal)* və Varegena *(berkut)* adlı yırtıcı quşlardan bəhs olunur.

Almatadakı R.Süleymenov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı Napil Bazılxan qədim türk tayfalarında alıcı quş onqonlarının rəmzi təsvirlərinin ortaq damğa süjetləri arasında üstün mövqeyini vurğulayaraq, bunu mifoloji baxışların, əski inanc və adət-ənənələrin qrafik inikası kimi dəyərləndirir. Qeyd edir ki, mənbəyini tanrıçılıq inancının «Tenqri-İnsan-Torpaq» modelindən götürən bu təsəvvürlərə əsasən, alıcı quşlar Göyün ali qatını – Tenqri xan məskənini təcəssüm etdirməklə, onunla Orta Dünya, insanlar arasında vasitəçilik missiyasını da yerinə yetirirdilər.[41] Maraqlıdır ki, qədim şumerlərdə oluğu kimi Sibir xalqlarında da bu nəcib quş həm də ildırımın, göy gurultusunun hakimi hesab olunur. Şumer-akkad təsəvvürlərinə görə, qartal Baş ilahinin, Günəşin, müharibə ilahisi Ninurtanın *(Nigirsu)* rəmzi, Assuriyada isə ildırım və məhsuldarlıq tanrısı sayılan Aşşurun yaxın köməkçisi olmuşdur. Altay xalqlarında qartal gələcəkdə qam-şaman olacaq körpənin ruhunu müqəddəs Dirilik Ağacındakı yuvasına gətirərək burada onlara təlimlər keçirdi. Saxa-yakutlarda bu quş şamanların ulu əcdadı hesab olunurdu. Qədim qam-şamanların qaftanlarının enli qolları, ətəklərindəki uzun saçaqlar qartalın qanadlarını və ləələklərini təcəssüm etdirirdi. Bir qayda olaraq, şaman dəfi qartal ləələkləri ilə bəzədilirdi.[42]

Qartal arxetipinin heraldik nişanlarda təzahürlərindən olan ikibaşlı qartal rəmzi də qədim tarixə malikdir. Ehtimallara görə, sakral xarakterli bu təsvirin 3-4 min il yaşı vardır. Onun yayıldığı ərazilər yaxşı məlum olsa da, etnik mənşəyi barədə yalnız mülahizələr mövcuddur. Tədqiqatların nəticələri göstərir ki, ikibaşlı qartal Şumer, Akkad, Assuriya mədəniyyətlərində hakimiyyət rəmzlərindən biri olmuşdur. Heraldika üzrə mütəxəssislər ikibaşlı qartal təsvirinin hələ eramızdan əvvəl VII-VI əsrlərdə qədim Midiya dövləti ərazisində geniş yayıldığını, hökmdarların bayraqlarını bəzədiyini bildirirlər. Antik yunan

40 О.Гундогдыев. «С крыльями сокола, с сердцем льва...» // газета «Нейтральный Туркменистан».21.02.02

41 Н.Базылхан. «От двуглавого орла до аристократіческого аксункара. Этносимволы древних тюрков», http://kyrgyztoday.kg

42 «Синкретизм образов солярных богов и божеств в образах: орёл, конь и олень у якутов», http://bibliofond.ru

tarixçisi Ksenofont *(e.ə. IV əsr)* bu rəmzdən sonralar sasani hökmdarlarının da istifadə etdiklərini bildirir.[43] Türkmənistan alimlərinin ümumi qənaətinə görə isə oğuz xalqlarının ulu əcdadı sayılan Oğuz xaqanın dövlət atributlarından biri də ikibaşlı qartal təsviri olmuşdur. Bununla belə, gərgin etnoqrafik və arxeoloji araşdırmalara baxmayaraq, onun ilkin təsviri hələ də əldə edilməmişdir. Lakin həmin tədqiqatların uğursuzluğuna məhz damğa işarələri kontekstindən yanaşsaq, yarımifik-yarıtarixi şəxsiyyət olan Oğuz xaqanın rəmzinin görüntüsünə dair fərqli mövqe irəli sürə bilərik. Yuxarıda qeyd olunduğu kimi, təkcə ✳ damğa nişanı deyil, bərabərtərəfli, səkkizqollu açaxaç işarəsi ✳ də paralel olaraq, Tanrını, Günəşi, qartalı və o cümlədən ikibaşlı qartalı *(qollardan biri qartalın bədənini, digəri quyruğunu, qalanları isə iki başı, iki caynağı və iki qanadı)* simvolizə edirdi. Belə olan təqdirdə, Oğuz xaqanın dövlət rəmzi kimi həmin damğa işarəsini və ya onun əsasında yaradılan səkkizguşəli Günəş *(ulduz)* variantını ✹ növbəti fərziyə qismində təqdim etmək olar. Yeri gəlmişkən, 1996-cı ildə sabiq Türkmənistan prezidenti Saparmurad Niyazov prezident bayrağına rəmz seçimində Oğuz xandan daha irəliyə getmiş, ştandart üzərində iki deyil, beşbaşlı qartal *(türkmən xalqını təşkil edən beş tayfanın təcəssümü)* təsvirini təsdiqləmişdir. Yaşıl fon üzərindəki qartalın caynaqlarında tutduğu ikibaşlı ilan isə daxili və xarici düşmənlər üzərində tam və qəti qələbəni simvolizə edir.[44]

Tatar alimi Farqat Nuritdinov XIII əsrdə yaşamış Qazi Baracın «Qazi Barac tarixi», Məhəmməd Əminin *(XIV əsr)* «Bulqar şeyxlərinin imanlı yolu və şərafətli əməlləri» əsərlərinə istinadən qədim bulqarların ilk damğa təsvirlərini müəyyənləşdirə bilmişdir. Onun araşdırmalarına əsasən, Tenqri xana tapınan bulqar tayfalarının ilkin fərqlənmə nişanı ikibaşlı qartalı xatırladan altı qolu açaxaç olmuşdur. Bulqarların digər damğalarında da belə xaç elementləri özünü aydın göstərməkdədir.[45] Yeri gəlmişkən, səlib yürüşlərindən sonra xristian dünyasında populyarlaşan «ikiqat xaç» və ya «səkkizqollu xaç» - iki bərabərtərəfli xaçdan ✝ ibarət rəmz ✳ öncə Misir məmlüklərinin damğası olmuş və sonralar həmin nişan əsasında yaranan səkkizguşəli ulduzla - ✹ əvəzlənmişdir.

Həmin prinsip qədim türklərin «sənək», «baltavar», «daraq» kimi damğa işarələrində ⅄ ⅄ Ψ və s. əksini tapmışdır. Aran dövlətinin *(Qafqaz Albaniyasında)* hökmdarı Asvagenin *(IV əsrin sonu, V əsrin əvvəlləri)*

43 *А.Самсонов.* «11 апреля 1857 г. Александр II утвердил государственный герб России – двуглавого орла», http://topwar.ru/

44 Эмблема президента Туркменистана, http://www.heraldicum.ru/turkmen/presid.htm

45 Ф.Г.-Х.Нурутдинов. «Важнейшие символы и гербы родов, городов губерний булгар». bulgarlar.ru

möhüründəki damğa təsvirinə ikibaşlı qartalın stilizə olunmuş variantı kimi də yanaşmaq olar. Xəzər xaqanlığının Kuban çayının sahilindəki forpostu olan Xumarin şəhərinin *(IX-X əsrlər)* qalıqlarında aparılan arxeoloji qazıntılar nəticəsində tikili divarları üzərində analoji damğa işarələri də aşkar olunmuşdur.[46] Azərbaycan hökmdarları arasında ilk dəfə olaraq dövlət quruculuğunda qədim oğuz ənənələrini - xaqanlıq prinsipi əsasında dünyəvi və dini hakimiyyəti bir əldə cəmləşdirən Səfəvi Şah İsmayıl Xətayinin də «quşlu» adlandırılan tuğ başlığı həmin semantikanın qızılbaş dövlət rəmzlərində ifadəsidir.



1.Şumer ikibaşlı qartalı. 2.Hett dövlətinin rəmzi. Midiya (3) və Atabəylər (4) dövlətlərinin bayraqlarında ikibaşlı qartal təsviri. 5.Səlcuq dövlətinin rəmzi (XIII əsr. Konya, İncə Minarə Muzeyi). 6.Özbək xanın (Krım, 1312-1339) misdən basılmış sikkəsi. 8. Zveniqorod kilsə zəngi (XVII əsr) üzərində həkk olunmuş ikibaşlı qartalın təsviri

Bizans imperiyası xristian dinini qəbul etdikdən sonra bu rəmz İsa Məsih ilə əlaqələndirilmişdir. Lakin onun semantikasında da əski türk miflərinin işartıları aydın hiss olunmaqdadır. Belə ki, qartal başlarından biri məsihin ilahi *(ruhani),* digəri isə insani mahiyyətinin təcəssümü kimi qəbul edilmişdir. Səlcuq imperiyasında bu təsvir həm də Allahın rəmzi idi. Təsadüfi deyildir ki, həmin dövrə aid ikibaşlı qartal təsvirlərinin bir çoxunda mifik

46 А.Леонов, «Из глубины веков под знаком трезубца», http://megamatrix.ru/simbol/trid/trident.htm

quşun sinəsində ərəb əlifbası ilə Allahın gözəl adlarından biri – «əl-Əzim» *(«Əzəmətli»)* sözü yazılmışdır.[47] Məsələn, XIX əsrin ortalarında yaşamış rus tarixçisi Aleksandr Lakier ilk dəfə olaraq «Rus heraldikası» kitabında *(1855-ci il)* ikibaşlı qartal rəmzinə belə yozum vermişdir: **«Hökmdarın *(qartalın)* nəzərləri Şərqə və Qərbə doğru dikilmişdir. Əmrləri isə vahid bədən verir».**[48] Müstəmləkəçilik ideologiyasına sədaqətdən irəli gələn bu fikir sonralar geniş yayılmış və müasir Rusiyanın özündə ikibaşlı qartalın nə vaxt və kim tərəfindən gətirilməsi, ölkənin hakimiyyət rəmzinə çevrilməsi haqqında hələ də dəqiq qənaət yoxdur. Bəzi mənbələr təsvirin ilk dəfə çar İvan Qroznı dönəmində – 1447-ci ildə Moskva knyazlığının möhüründə əks olunduğunu,[49] digərləri Aleksey Mixayloviçin 1667-ci il tarixli fərmanı ilə rəsmi rəmz kimi qəbul edildiyini[50] bir başqaları isə II Aleksandrın hakimiyyətdə olduğu dövrdə - 1855-1857-ci illərdə imperiyanın dövlət atributuna çevrildiyini bildirirlər.[51] Bundan başqa, ikibaşlı qartal təsvirinin Bizans dövlətinin Paleoloqlar [52] sülaləsinin gerbi olaraq Moskva knyazı III İvanın arvadı – XI Konstantin Paleoloqun qardaşı qızı şahzadə Sofiya tərəfindən Rusiyaya gətirildiyi və 1497-ci ildə çar möhürü üzərində həkk edilməsi[53] barədə də fərqli fikirlər vardır. Lakin rusiyalı tədqiqatçıların iddialarına baxmayaraq, ikibaşlı qartal təsvirinin guya hələ XIII əsrdə Rus knyazlıqlarında yayılması barədə tutarlı fakt yoxdur. Onun şahzadə Sofya Poleoloq vasitəsilə Bizansdan «mədəni ixrac» olunması barədə mülahizələr isə hələ də təsdiqini tapmır. Əksinə, bu rəmz Rusiya knyazlıqları ilə sıx təmasda olan və bir çox hallarda onları himayə edən Qızıl Orda vasitəsilə yayılmışdır**.**

---

47 Н. Ранчугова. «Децствительно ли двухглавый орел – средневековый монархический символ?» http://omskmark.moy.su/publ/essayclub/symbols_russia/2012

48 А.Б. Лакиер. «Русская геральдика», http://www.heraldrybooks.ru/book.php?id=1

49 Yenə orada

50 Д. Хайретдинов, «Государственные символы и регалии Руси-России мусульманского происхождения», http://www.idmedina.ru/

51 А.Самсонов. «11 апреля 1857 г. Александр II утвердил государственный герб России – двуглавого орла», Военная обозрения, http://topwar.ru/

52 Bizans imperiyasının 1261-ci ildən hakimiyyətdə olan son sülaləsi. 1453-cü ildə İstanbulun Sultan Mehmet tərəfindən fəthindən sonra onun hakimiyyətinə son qoyulmuşdur.

53 «Двуглавый орел Софьи Палеолог». Календарь «Святая Русь», http://www.rusidea.org/?a=25042001



1. Astara rayonunun Şiyəkəran kəndində (talış dilindən tərcüməsi «Şiələr yaşayan» deməkdir. Bölgə əhalisinin böyük hissəsi sünni məzhəbinə tapındığı üçün bu kənd belə adlandırılmışdır) aşkar olunmuş qızılbaş döyüş hissələrinə məxsus metal tuğ (bayraq) başlığı. Başlığın mərkəz hissəsində ərəb əlifbası ilə «Allah» və «Məhəmməd» sözləri yazılmışdır. Həmin başlıq eyni zamanda «xan damğası», «baltavar»Ψ Ψ işarələrini və «quşlu damğa» rəmzini, ikibaşlı qartal rəmzini Ψ özündə birləşdirir. 2. XX əsrə aid Şirvan kilimində «xan damğası» ornamenti. 3. 1524-cü ilə aid Təbriz miniatüründə səfəvilərin döyüş bayrağındakı «quşlu damğa» başlığı (Sankt-Peterburq Şərq Xalqları İnstitutu). [54]

Nizami Gəncəvinin «Xəmsə» əsərinə illüstrasiyadan fraqment. Qırmızı bayraq başlığında ikibaşlı qartal rəmzi (Təbriz, XVI əsrin 70-ci illəri)[55]

Tatar etnoloqu Dəmir Xayreddinovun fikrincə, hətta Qızıl Orda dövlətinin zəifləməsindən və süqutundan sonra da onun pulları Rusiyada dövriyyədə olmuşdur. Hətta **«Tver knyazlığı öz pullarını tədavülə buraxarkən əhalini onların legitimliyinə inandırmaq üçün üzərinə Qızıl Ordanın**

54 K.Kərimov. «Azərbaycan miniatürləri». Bakı, 1980.
55 Yenə orada

rəmzlərindən birini – ikibaşlı qartal təsvirini həkk etmişdir. İvan Qroznı da öz pullarını kəsərkən bu üsuldan istifadə etmişdir».[56] İkibaşlı qartal rəmzinin Rusiya heraldikasına nüfuz etdirilməsinin səbəblərini təhlil edən numizmat alim V.Potinin fikirləri də maraqlıdır: «**Əldə olunan faktlar göstərir ki, 1472-ci ilə kimi həqiqi rus pulları üzərində ikibaşlı qartal təsviri olmayıb. Şərqi Avropanın əhalisi bu təsvirlə hələ XIV əsrdə - Canibəy xanın** *(Qızıl Orda)* **sikkələri vasitəsilə tanış idi. Canibəy xanın pullarının onun ölümündən sonra da Rusiya ərazisində dövriyyədə olması həmin sikkələrin populyarlığının göstəricisidir. İkibaşlı qartal təsvirli rus metal pullarının tədavülə buraxılması ilə Qızıl Orda sikkələri arasında isə az qala yüz il fərq vardır».**[57] O da maraqlıdır ki, rəmzin müasir yozumu qədim türklərin xaqanlıq təsisatının prinsiplərinə tam cavab verir: **«Rusiya gerbi üzərindəki ikibaşlı qartal təsvirinin məna yükü rəmzi xarakter daşıyır. Belə ki, qartalın başlarından biri hakimin** *(çarın, daha doğrusu, ali dövlət hakimiyyətinin)* **rəmzidir. Digəri isə dini – kilsə hakimiyyətini ifadə edir»**.[58]

Rusiyada alternativ tarix nəzəriyyəsinin tərəfdarlarından olan akademik Anatoli Fomenko və Qleb Nasovski bu mülahizəni əsas götürərək aşağıdakı mövqeyə gəliblər: Həqiqətən də müasir Rusiya ərazisində ikibaşlı qartal rəmzinə ilk dəfə olaraq XIV əsrdə Qızıl Ordanın metal pulları üzərində rast gəlinmişdir. Lakin onların «tarixi həqiqətləri bərpa edən" növbəti elmi qənaəti isə heyrət doğurmaya bilməz: **«Araşdırmalardan sonra bu nəticəyə gəlmişik ki, ikibaşlı qartal rəmzi hazırda həm Qızıl Orda, həm də rus pulları kimi təqdim olunan sikkələrin üzərində həkk edilmişdir. Bizim fikrimizcə, Qızıl Orda, əslində, elə Böyük Rus dövlətidir. «Qızıl Orda» dedikdə Volqa çarlığına *(Bulqar dövləti)* aid Vladimir-Suzdal knyazlığı nəzərdə tutulmalıdır»**.[59]

Təbii ki, hər yerdə erməni başmağının izlərini axtaran Yerevan tarixçiləri də ikibaşlı qartala iddiaçılar sırasından geri qala, bu rəmzi sahibsiz qoya, «bəşər sivilizasiyasının bünövrəsini ucaltmış əzabkeş xalqı» belə ali hakimiyyət

56 Д. Хайретдинов, «Государственные символы и регалии Руси-России мусульманского происхождения», http://www.idmedina.ru/

57 В.Потин. «Монеты, клады, коллекции». Саннкт-Питербург: "Искуство", 1993.

58 Двухглавый орёл – символ РФ http://gordo-orel.com/dvuglavii.html

59 А.Фоменко, Г.Носовский. «Империя. Русь, Турция, Китай, Европа, Египет. Новая математическая хронология древности». Москва 1995.

rəmzindən məhrum edə bilməzdilər. Odur ki, uzun illər davam etmiş gərgin araşdırmalardan sonra, nəhayət ki, «qədim erməni sülaləsi»nin - Mamikonların gerb və bayraqlarında da ikibaşlı qartal təsvirinin olduğunu bəyan etmişlər. Kütləvi informasiya vasitələrində yayılan məlumata görə, tədqiqatçılar erməni tarixçisi Favtos Buzandın *(V əsr)* salnaməsindəki kiçik xatırlatmalar əsasında bu qənaətə gəlmiş və onun ilkin görkəmini bərpa edə bilmişlər. Təbii ki, təsvirdəki «erməni milli qartalı» da digər ikibaşlı həmcinslərindən fərqlənməli idi. Belə ki, «bərpa» olunan «qədim erməni rəmzində» mifik varlıq başqaları ilə müqayisədə caynaqlarında toğlu tutmuşdur.[60] Aşağıdakı təsvirlərdə - Səlcuq dövlətinin *(XI əsr)* rəmzi və «Ermənistanın ilk gerbi» arasındakı aşkar oxşarlıq həm də müasir erməni plagiatçılığının növbəti parlaq nümunəsidir.

1-2.Konya şəhərinin memarlıq abidələrində Səlcuq dövlətinin ikibaşlı qartal rəmzinin variantları (Türkiyə, Konya keramika muzeyi). Kaşı lövhədəki qartalın sinəsi üzərində Allahın müqəddəs adlarından biri yazılmışdır. 3. Erməni saxtakarlığının nümunəsi: Mamikonların «qədim erməni gerbi» kimi tanıtdırdıqları plagiat təsvir

Saxtakarlığın elementləri göz qabağında olsa da, tədqiqatın obyektivliyi barədə mübahisə etməkdən uzağıq. Çünki erməni tarixçiləri bu «kəşfləri» ilə Mamikonların türk mənşəli olmasını bir daha təsdiqləyir, digər tərəfdən isə «erməni dövlətçiliyi rəmzlərinin» hansı etnomədəni mənbədən qaynaqlandığını əyani şəkildə sübuta yetirirlər.

AY-ULDUZ, *GÜNƏŞ-AY (ŞƏMS-QƏMƏR).* Bu rəmz orta əsrlərdə «Ay-ulduz» kimi populyarlaşsa da, əslində, bu ad təsvir oxşarlığından, damğalar arasında geniş yayılan beşqollu, altıqollu və səkkizqollu Günəş *(eləcə də ikibaşlı qartal)* nişanlarının sonralar stilizə olunaraq, beşguşəli

60 Исторические флаги Армени, http://www.armeniatravel.ru/flags.htm

★, altıguşəli ✱ və səkkizguşəli ✹ ulduzlar kimi təqdim olunmasından irəli gəlir. Onu da qeyd edək ki, bu rəmzlərin prototiplərinə Qobustan, Gəmiqaya, Qərbi Azərbaycan petroqlifləri, qutilərin, mannalıların və midiyalıların maddi-mədəniyyət nümunələri arasında geniş təsadüf olunması uzaq keçmişdə bu torpaqlarda yaşamış əhalinin Ay və Günəşə etiqad etməsindən, onların kosmoqonik təsəvvürlərində həmin səma cisimlərinin aparıcı obrazlar kimi özünəməxsus yer tutmasından xəbər verir. Qədim miflərdə Günəş qadın, Ay kişi başlanğıcını, Günəş ananı, Ay isə atanı, Günəş istini, Ay soyuğu, Günəş cənubu, Ay şimalı və s. təcəssüm etdirirdi. Əski türklər qoruyuculuq funksiyasının Tanrı tərəfindən Günəşə və xaqanlara verildiyinə inanmış, onların rəmzlərini eyniləşdirmiş və müqəddəsləşdirmişlər.[61] "Oğuz xaqan" dastanına diqqət yetirək: Burada Oğuzun anası Ay xaqan, oğlanlarından ikisinin adları isə Gün xan və Ay xandır. Bu mifoloji yanaşma təkcə Ay-Günəş rəmzində deyil, haqqında az sonra bəhs olunacaq ikibaşlı qartal simvolunda da əksini tapmışdır.

XIII əsrə aid Avropa miniatürü. 1299-cu ildə monqolların məmlüklər üzərində qələbəsinin təsviri. Məmlük bayrağı üzərində Ay-Günəş rəmzi. Xovlu «Nadir şah» xalçasından (Təbriz qrupu, 1870-ci il) fraqment. Nadir şah Əfşarın taxtında Ay-Günəş rəmzi ✱[62]

Dünyanın bir sıra xalqlarının mifik təfəkküründən, bu baxışların qrafik inikası olan damğa işarələrindən, ideoqrafik təsvirlərdən qaynaqlanan aypara-ulduz rəmzi bu gün bir sıra müsəlman dövlətlərinin bayraq və gerblərini bəzəsə də, onun yaranışı islamaqədərki dövrlərə təsadüf edir. Ay-Günəş rəmzinin türk

61 B.Ögel. «Türk Mitolojisi», cild 2. Ankara, 1995.
62 «Azərbaycan xalçaları. Təbriz qrupu». Bakı: «Elm», 2013.

tayfaları arasında da özünəməxsus yeri vardır. Mərkəzi Asiyada aparılmış arxeoloji qazıntılar zamanı tapılan və eramızın VI-VII əsrlərinə aid olunan Göytürk sikkələrinin üzərində xaqanın təsviri ilə yanaşı üç belə qoruyucu rəmz həkk edilmişdir.[63] Həmin təsvirlərdə diqqəti cəlb edən amil «Günəş» anlamı verən «ulduzların» altıqollu ✱ olmasıdır.



Türk xalqlarının məskunlaşdıqları ərazilərdəki qayaüstü təsvirlərdə bəzi ortaq damğa işarələrinin ⊕⊛○⊙✝✞✟卐 prototiplərinə - Tanrı/Günəş rəmzlərinə əsasən asa/xaç rəmzinin genezisini və semantikasını müəyyənləşdirmək mümkündür: 1-3.Azərbaycan - Qobustan (Cingirdağ), Cəmiqaya və Kəlbəcər petroqlifləri. Petroqriflərdən biri (3) islamdan sonrakı dövrlərdə «qayçı» adlanan və eyni semantika daşıyan damğa işarəsini ✂ xatırladır. 4.Tanrının dörd tərəfə yayılan hökmü. (Qərbi Azərbaycan, Göyçə qayaüstü təsvirlərindən fraqment) 5-6. Tenqri-Günəş mifologeminin təsviri (Qazaxıstan. Tamqalı-tas). 7. Şumerlərin solyar rəmzlərindən biri. Bu işarə qazax milli ornamentləri arsında «dan yerinin sökülməsi», «sübh şəfəqi» anlamlarını verən «Ay işığı» adlanır.[64] 8.Manna mədəniyyətinə aid qızıl cam (Urmiyə, Hasanlu) üzərində eynitipli təsvir. 9. İbrahim Peyğəmbərin vətəni və Ay tanrısı Sinin baş ziyarətgahı olan Harran şəhərində (indiki Şanlı Urfa) aparılan qazıntılar zamanı aşkar olunmuş metal sikkə üzərində «Ay-Günəş» rəmzi. 10.Dərbənd qalasının daş kitabələrində ornament.

Qeyd olunduğu kimi, sonralar stilizə edilərək müasir «ulduzlara» çevrilən və eyni zamanda semantik izahı da tamamilə dəyişən «Günəş-Ay» sakral təsvirlərinin ən müxtəlif variantlarının ümumiləşdirilmiş ilkin yozumlarının arxasında Tenqri xanın rəmzləri - «Günəş» və ya «Qartal» *(ikibaşlı qartal)*,

63 Göktürk Sikkelerinde Ay Yıldız. Türkler ay-yıldız motifini İslamiyetten önce de kullanıyormuş. // TRT-Haber, 2005.

64 А.Мукаева. «Казахский национальный орнамент», http://www.rusnauka.com/11_EISN_2011/Tecnic/12_84935.doc.htm

«Qoç» *(dağ keçisi, dağ qoçu/arxar, koçkar, qoşqar),* «Yay-ox» kimi mifik obrazlar dayanmaqdadır. Məsələn:

Tanrı/Günəş - ✝ ✕ ✖ ✳ ✳ ✳ ✳ 卐
Günəş/Tanrı - ○ ⊕ ⊗ ⊗ ⊗ ⊕
Günəş *(Tanrı)*/Ay - ⚓ ⚓ ⚓ ⚓ ⚓
Tanrı/Qoç - ♂ ✣
Tanrı/Yay-ox - ♂ ♂ ✣ və s.

Mövzuya ortaq türk maddi-mədəni irsinin başqaları tərəfindən mənimsənilməsi müstəvisindən yanaşsaq, yuxarıdakı damğa və rəmzlərdə geniş yer alan dağ keçisi buynuzu ♈ və burma qoç buynuzu ♈ ♈ təsvirləri üzərində bir qədər dayanmağa zərurət vardır. Xatırladaq ki, ilkin dövrlərdə əski türklər «qoçkar», «koçkar», «kuçkar», «kaçkar» və ya «qoşqar» dedikdə, əsas etibarilə, qoyunu deyil, zoologiya elmində «arxar*» (lat. Ovis ammon)* adlandırılan dağ qoçunu nəzərdə tuturdular. Bu ad erməni dilinə «kaçkar» kimi keçmiş və sonralar «xaçkar» *(erməni etimologiyasına görə: xaç-daş)* şəklində təhrif olunmuşdur. Halbuki, Tenqri xan açalarında *(xaçlarında)* ✝ «koçkar» nişanı ümumi təsvirin deyil, yalnız onun bir seqmentinin - çarpaz xətlərin uc hissəsindəki buynuz işarəsinin ♈ adı olmuşdur. Bu qənaət Qobustan petroqlifləri arasındakı sakral dağ keçisi təsvirində *(1)* də öz illüstrativ təsdiqini tapmışdır. Ümumiyyətlə, həmin qayaüstü rəsm dünyanın ən qədim Tanrı/Qoç rəmzinin təsviridir.

İndi isə Ay-Günəş rəmzinin qədim semantikası əsasında onun şumer-türk mədəni irsi ilə bağlılığına diqqət yetirək. Qədim şumerlərin mifoloji təsəvvürlərinə əsasən, dəfn olunmayan insanların ruhları hər iki dünyada sakitlik, rahatlıq tapa bilmədikləri üçün ətrafdakılara bədbəxtlik gətirirlər. Dini ayinlərlə torpağa tapşırılanların ruhları isə Orta Dünya və Ruhlar Dünyası arasındakı sərhəddə olan çayı qayıqla keçərək əcdadlarına qovuşurlar. Odur ki, Günəş ilahisi Uti *(akkadlarda – Şamaş)* ✳ Ayı ☾ özünə qayıq edərək hər səhər Şərqdən Qərbə doğru səmt götürüb mərhumların ruhlarını qarşı taya çatdırır və yol boyu Orta Dünyanı işıqlandırırdı. Axşamlar isə yenidən dağların arxasına çəkilərdi. Gecələr Utu Ay-qayıq vasitəsilə Yeraltı Dünyaya – qaranlıq ruhlar səltənətinə enərək, buradakı ruhlara işıq, su, qida çatdırar, onların əzablarını azaldardı. Azərbaycanın qayaüstü rəsmlərinə istinadən cəsarətlə belə bir fikir irəli sürmək olar ki, şumerlərin bu mifi qədim Aratta

dövləti vasitəsilə Azərbaycan ərazilərinə də yayılmışdır. Məsələn, ruhları Ay-qayıqla daşıyan Günəş ilahəsi haqqında rəvayət Qobustan qayalarındakı *(Böyükdaş)* eramızdan əvvəl III minilliyə aid edilən gəmi təsvirində özünün dəqiq illüstrativ həllini tapmışdır. Qayaüstü rəsmdəki Ay-gəminin baş tərəfindəki səkkizqollu Günəş rəmzi məzmun və kompozisiya baxımından qədim türklərin Günəş-Ay təsvirli damğasının semantikası ilə tamamilə səsləşir. Təsvirdəki qayığın «sərnişinləri» isə Qaranlıq Dünyaya köç edən kişi, uşaq və qadın ruhlarıdır. Təsadüfi deyildir ki, Qobustanı «qədim insanların bacarıq və düşüncəsini rəsmlər vasitəsilə bizə çatdıran məkan» adlandıran norveç alimi, ibtidai sivilizasiyaların tanınmış tədqiqatçısı Tur Heyerdal bu sujetli təsvirin məhz şumer mifologiyasından qaynaqlanan ən qədim gəmi illüstrasiyası olduğunu bildirmişdir. Digər yaxınlığı isə qədim Yaxın Şərq dilləri üzrə tanınmış mütəxəssis, çex alimi Bedrjik Qroznı göstərir: **«Şumer dili bir tərəfdən Altay, türk-tatar, digər tərəfdən bəzi hind-Avropa dillərinin cizgilərini özündə əks etdirirdi».**[65]

Qobustan qayalarındakı (Böyükdaş dağının yuxarı səkisi) rəsmdə Günəş-Tanrı, Ay/qayıq rəmzləri və Qaranlıq dünyaya köç edən ruhların təsvirləri.

Digər maraq doğuran, şumer dini təsəvvürləri ilə paralellik təşkil edən məqamlardan biri Qobustandakı gəmi-qayıq məzmunlu petroqliflərin qadın *(ilahə, protoana)* təsvirləri ilə yanaşı olmasıdır.[66] Heç də təsadüf xarakteri daşımayan bu yaxınlıq yenə də öz izahını şumer mifologiyasında və ideoqramlarında tapır. Belə ki, protoşumer ideoqrafik təsvirləri təsnifatında Dingir *(Tenqri)* rəmzinin ilkin variantı işarəsi olmuş və sonralar «Ay rəmzi» kimi tanınmışdır. Həmin rəmzin daha mükəmməl variantı isə təkcə Ayı deyil, həm də bu səma cismini özündə təcəssüm etdirən ilahə İnannanı

65 З.Мирфатахов. Курс лекций по истории татарского народа. Лекция 3, Происхождение етнонима «булгары», http://s155239215.onlinehome.us

66 M.Fərəcova. «Azərbaycan qayaüstü incəsənəti». Bakı: «Aspolqraf», 2009.

(Nanna, protoana, qədim türklərdə Humay Ana) simvolizə edirdi. Fonetik baxımdan ilahənin adı tam şəkildə **NA-AN-NA** kimi oxunur və «Ay», «səma cismi», «səma daşı», «səma varlığı», «səmadan gələn» anlamlarını verirdi.[67] Onu da qeyd edək ki, şumer gil kitabələrində digər rəmzlərin - «yay-ox» və «həyat» sözlərinin həm fonetik səsləndirilməsi, həm də qrafik təsvirləri demək olar ki, eynidir. Yəni əski türk damğaları içərisində də geniş yer alan və işarəsi və ya səkkizqollu xaç *(Günəş)* nişanı «ti», «tir» və «tiri» kimi oxunurdu. Bu sözlərin ortaq türk dillərindəki «diri», «tiri» *(canlı),* «tir» *(ox),* «tirkeş» *(oxçu, sadaq)* kəlmələri, eləcə də Mərkəzi Asiyada, Qafqaz və Cənubi Qafqazda, Anadoluda, Krım və Altaydakı damğa işarələrinin yozumu ilə yaxınlığı göz qabağındadır. Həmin mifoloji sistem əsasında qurulan, şumerlərdə Günəşi, sübhü, sökülən dan yerini bildirən «tin» kəlməsini *(türk dillərində – tan, dan)* özündə əks etdirən işarəsi, əslində, qədim və müasir türk dövlətlərinin «ay-ulduz» rəmzinin, eləcə də xristian dinində eyni təsvirli «qayıq» *(İsa Məsihin həvariləri ilə mindiyi qayıq)*, «lövbərli xaç» nişanlarının prototipi sayıla bilər. Şumerlərdən sonra Babil və Assuriyanın simvolizmində baş ilahi Şamaşın *(Günəşin)* rəmzi bərabərtərəfli xaç və onun stilizə olunmuş variantı - dördguşəli «ulduz» idi. Daha sonra bu təsvir akkad mifologiyasında da geniş yer alaraq, eramızdan əvvəl 559-cu ilə kimi Günəş ilahisi Aşşurun və onun xatunu olan Ay ilahisinin - Sinin birliyinin rəmzinə çevrilmişdi. Göründüyü kimi, bu gün xristianlıq və islam dininin simvolikası ilə bağlanan həmin universal işarələrin tarixi daha qədim dövrlər ilə bağlıdır. Qədim Zəngəzurda, o cümdədən Laçındakı qədim qəbirüstü daşların üzərinə həkk olunmuş Günəş və aypara təsvirləri bu fikri təsdiqləyir. Strabon da yazırdı ki, albanlar Zevsə, Heliosa *(Günəşə)* və Selenyaya *(Ay)* sitayiş edirlər.

Azərbaycanda Səfəvi dövlətinin təşəkkülü ilə iki təsvir – yaşıl və qırmızı bayraqların üzərindəki Ay və səkkizguşəli «ulduz», döyüş tuğlarının ucluqlarındakı ikibaşlı qartal nişanları da dövlət rəmzləri kimi qəbul edilmişdir. 1524-cü ildə qələmə alınmış «Cahanarayi-Şah İsmayıl Səfəvi» salnaməsində Şah İsmayılın 1508-ci ildə Bağdada daxil olması təsvir edilərkən bildirilir: **«Şah İsmayıl ay-ulduzlu bayrağı altında Bağdada yaxınlaşdı. İraq əhalisi yüyrək addımlarla onu qarşılamağa çıxdı».** Mənbələrə əsasən, bu rəmz Şah I Təhmasibin hakimiyyət illərinə kimi dövlət bayrağı üzərində qalmış, sonralar yaşıl parça üzərində qızıl qoç və arxasında səkkizşüalı Günəş təsviri

67 Т.Гудава. «До і после Бібліі», http://www.netslova.ru/gudava/sumer/gl16.html

ilə əvəz olunmuşdur.[68] Bu faktın özu də tarixi Azərbaycan ərazilərində ✳ və ✹ işarələrinin semantikasının «Günəş» mifologemi ilə bilavasitə bağlı olduğunu təsdiqləyir. İslam dininin beş və səkkizguşəli «ulduzları» qəbul etməsinin səbəbi isə onların alleqorik şəkildə səma cisimləri ilə əlaqələndirilməsindən savayı, dini ehkamlar və hədislərlə bağlanmasıdır. Məsələn, beşguşəli «ulduzun» qolları islamın beş şərtini, səkkizguşəli işarə isə mömin müsəlmanın səkkiz əməlini, cənnətin səkkiz qapısını və Əhli-Beyt üzvlərini təcəssüm etdirir. Şah Xətayi də əslində bu rəmzi «Ay-ulduz» ittifaqı kimi deyil, qədim oğuzların dövlətçilik ənənələri və kosmoqonik təsəvvürlərindən qaynaqlanan «Ay-Günəş» birliyi şəklində təqdim edir, bəlkə də, o dövrün siyasi mülahizələrinə görə həmin təsvirə Məhəmməd Peyğəmbər *(s.ə.s.)* və Həzrət Əli *(ə)* ilə bağlı yeni yozum verirdi. O, şeirlərinin birində rəmzin daşıdığı mənanı belə açıqlayır:

Xətai der: rəhm etməzəm yalana,
Özün təslim edər özü gələnə,
Ay Əlidir, Gün Mühəmməd bilənə,
Bax, nəzər eylə də, həmən arif ol.[69]

Əslində, bu şeir parçasını səfəvilərin dövlət bayrağındakı rəmzin «poetik obrazlarla kodlaşdırılmış təsviri» də adlandırmaq olar. Yəni Şah İsmayılın təbirincə desək, «Həqiqət bir gizli sirdir, açа bilirsən gəl bəri». Yuxarıdakı şeir parçası bir tərəfdən orta əsr Azərbaycanında «Ay-ulduz» təsvirindən istifadə olunmasını bir daha təsdiqləyir, digər tərəfdən isə psevdodini hərəkatlara yarınmaq istəyən bəzi üzdəniraq tarixçilərin və siyasətçilərin din amilini qabardaraq, guya Şah İsmayılın «İslam qaydalarına zidd məzhəb xanədanı», «teokratik məmləkət» qurması barədə əsassız iddialarını heçə endirir. Halbuki, Şah İsmayıl region tarixində ilk dəfə və Osmanlı imperiyasından fərqli olaraq, qədim Göytürk, oğuz dəyərlərinə, dövlətçilik ənənələrinə söykənən dövlət quruluşunu bərpa etmişdir. Fikirlərimizi arqumentləşdirməyə çalışaq. Əvvəla, yuxarıdakı şeir bəndindən də aydın görünür ki, Göytürk simvolizmi ənənələrinə sadiq qalan Səfəvi hökmdarı rəmzin semantikasının ilkin məzmununu özünə qaytarmış, onu «Ay-Ulduz» birliyi ilə deyil, daha qədim və daha dəqiq olan «Ay-Günəş» mifologemi ilə əlaqələndirmişdir. İkincisi, həmin artefaktın islam

68 C.Bayramlı. «Qızılbaşlıq və ay-ulduz təsviri», http://www.yenicag.az
69 Şah İsmayıl Xətayi. Əsərləri. «Şərq-Qərb», Bakı-2005

müstəvisində poetik yozumuna diqqət yetirsək, Səfəvi bayrağındakı Ay-Günəş təsviri və qızılbaşların ideologiyasının dini əsasları arasında bağlılıq haqqında da müəyyən qənaətə gələ bilərik. Belə ki, Şah İsmayılın şeirin sonunda onu «dini-islam yolunu azmaqda» ittiham edən opponentlərinə cavab olaraq ünvanladığı «Bax, nəzər eylə də, həmən arif ol» deməsi heç də təsadüf xarakteri daşımır. Xətayi bu ifadə ilə bayrağdakı Ay-Günəş rəmzinə verdiyi dini yozumu önə çəkməklə antisəfəvi mövqeyində dayanan, qızılbaş ideologiyasını məqsədli şəkildə təhrif edən, onların Həzrət Əlini *(ə.s.)* Məhəmməd peyğəmbərdən *(s.ə.s.)* üstün tutmaları barədə mənasız fikirlərini puça çıxarır. Şah İsmayıl Rəsuli-əkrəmi Günəş, İmam Əlini isə Ay obrazı ilə təcəssüm etdirməklə nəinki onları eyniləşdirmir, əksinə İslam peyğəmbərinin hər hansı bir müqayisədən kənar, daha uca məqamda olduğunu xüsusi vurğulayır. Belə nəticəyə gəlmək olar ki, Səfəvi dövlətinin qırmızı və yaşıl bayraqları üzərindəki Ay və Günəş obrazları Osmanlının ay-ulduzlu rəmzində olduğu kimi yanaşı ☪ deyil, əksinə, islam dininin, sufi təsəvvürlərinin iyearxiyasına uyğun şəkildə – Peyğəmbəri üstün, ali mövqedə ☀ təsvir edilmişdir. Maraqlıdır ki, bu forma Göytürk dövlətindəki xaqanlıq institutunun qrafik inikasının - Ay-Günəş rəmzinin təkrarıdır və onun ilkin tiplərinə qədim türk damğa işarələrində ⚓ ⚓ ⚓ ⚓ və s. rast gəlinir. Bu isə bir daha Səfəvi dövlətinin qədim türk dövlətçiliyi – xaqanlıq prinsipləri üzərində yarandığını aydın şəkildə göstərir. Bütün bunlara əsasən, aşağıdakı bayraq təsviri variantlarını Şah İsmayılın dövlət rəmzi kimi nəzərdən keçirmək mümkündür.

Şah İsmayıl Xətayinin qurduğu Səfəvi dövlətinin «Ay-Günəş» bayrağı (müəllifin təxmin etdiyi təsvirlər) Azərbaycan Respublikasının ay-ulduzlu Dövlət bayrağının prototiplərindən biridir.

XATIRLATMA. Təkcə Azərbaycanın deyil, türk xalqlarının dövlətçilik tarixində silinməz iz qoymuş Şah İsmayıl Xətayinin türk etnik mədəniyyətinin intibahında və qorunmasında, milli özünüdərk hissinin inkişafında, xalqımızın ictimai-siyasi və mədəni yüksəlişində müstəsna xidmətləri olmuşdur. Onun hakimiyyətdə olduğu illər ərzində Azərbaycan dövlətinin hüdudları

Qaraqoyunlu və Ağqoyunlu dövründəki sərhədləri aşıb keçmiş, Səfəvi xanədanı Avropanın tarixi qaynaqlarında «Qızılbaş-Midiya dövləti» kimi tanınmışdır. Qərb salnaməçilərinin bu etirafları Şah İsmayıl ilə başlanan Səfəvi dövlətinin tarixi Azərbaycan torpaqlarında Midiyadan sonra yaranan ən qüdrətli dövlət olduğunu təsdiq edir.[70] Türkiyənin bəzi üzdəniraq tarixçilərinin Şah İsmayılın fəaliyyətini din amili, məzhəb ədavəti ilə bağlamaq cəhdləri isə primitiv qısqanclıq hissindən, məlumatsızlıqdan qaynaqlanmaqla, müasir türkdilli xalqlar arasında dostluq və qardaşlıq tellərinin zəiflədilməsinə yönəldilmişdir. Qədim oğuz dövlətçilik ənənələrinin bərpasına dair digər sübuta gəldikdə isə Şah İsmayıl dünyəvi və dini hakimiyyəti öz əlində cəmləşdirməklə xaqanlıq prinsipini möhkəmləndirmiş və bu təsisatın vizual atributlarından olan ikibaşlı qartal təsvirini dövlət rəmzlərindən biri kimi qəbul etmişdir ***(bax: «Quşlu damğa»)***. O, Azərbaycan hərb sənətində qədim oğuz ordu prinsiplərinə tamamilə cavab verən qızılbaşlar institutunu təsis etmişdir. Bu baxımdan, qızılbaşları da din, məzhəb amili ilə bağlamaq böyük yanlışlıqdır. Türkdilli xalqların hərb tarixində qızılbaşların - mobil, peşəkar hərbi hissələrin prototiplərinə saka-skif dönəmindəki atlı döyüşçülərin - xorsarların *(farsca: qızılbaşlar)*, Mərkəzi Asiyadakı qızılbaş, qızılbörklü, konurbörklü, konurbaş *(qonurbaşlar)* və sarıbaşların, sarmatların *(V.Abayevə görə, «qara başlılar»),* qarapapaqların, qaraqalpaqların, «Kitabi-Dədə Qorqud» eposunda adları çəkilən qarabörklülərin timsalında rast gəlirik. Odur ki, birmənalı şəkildə dərk olunmalıdır ki, Şah Xətayi haqqında süni mənfi münasibəti formalaşdıran məşum Çaldıran döyüşündə nə Sultan Səlim qalib gəlmiş, nə də Şah İsmayıl məğlub olmuşdur. Məğlub olan, zəifləyən Osmanlı və Səfəvi dövlətləri, türk xalqları arasındakı bağlar idi. Qardaş savaşında qalib gələn isə bu dövlətlər arasında hərbi-siyasi müttəfiqliyin qarşısını almaq üçün ən müxtəlif vasitələrə əl atan Avropa olmuşdur. Səfəvi dövləti tərəfindən təməli qoyulan oğuz intibahı haqqında indi müxtəlif və bəzən ziddiyyətli fikirlər səslənsə də, onun ən dəqiq və ən səmimi qiymətini Şah İsmayılın müasiri və müridi olmuş aşıq Qurbani vermişdir:

Bu dünyada bir haq divan,
O dünyada cənnətməkan,
Qoy var olsun türki-zəban *(türk dili),*
Şah Xətayi, Şah Xətayi! [71]

70 Yenə orada
71 Qurbani. Bakı Universitetinin nəşriyyatı, 1990.

Ay-Günəş işarəsinə qayıdaq. Xüsusilə vurğulamaq lazımdır ki, «Ay-Günəş» rəmzinin tarixən islam dininin ehkamları ilə əlaqəsi barədə hələ də birmənalı rəy yoxdur. Qərb alimləri müsəlmanların bu sakral rəmzin bizanslılardan götürdüklərini iddia etsələr də, Mərkəzi Asiyada və Monqolustanda aşkar olunmuş maddi-mədəniyyət nümunələri – bəzək əşyaları, qayaüstü təsvirlər, sikkələr, dini atributlar və s. həmin rəmzin türk tayfalarına islamdan əvvəlki dövrlərdə də məlum olduğunu təsdiqləyir. Görkəmli Rusiya şərqşünası Vasili Bartold *(1860-1930)* «Ayparanın islam rəmzi olması məsələsi haqqında» məqaləsində yazır ki, «İslam dininin bu rəmzi erkən qəbul etməsinə dair faktlara baxmayaraq, ayparanın məscid gümbəzlərinə taxılması və xristian xaçına qarşı qoyulması sonrakı dövrlərə aiddir və geniş yayılmamışdır». Alim xəlifə I Ömərin Məkkəyə göndərdiyi iki aypara rəmzinə də toxunaraq, bunun həmin dövrdə dini mahiyyət daşımadığını da bildirir.[72] Əksinə, islamiyyətin ilk illərində Ayın təsvirinə tapınmaq bütpərəstliyin, kafir inanclarının əlamətlərindən sayılırdı. Cahiliyyə dövründə ərəblərin, o cümlədən qureyşilərin bir hissəsi əl-Lat, əl-Uzza və Mənat kimi bütlərə tapınırdılar. Digər hissəsi isə *(Məhəmməd peyğəmbərin ailəsi də daxil olmaqla)* hənəf idilər və Allaha şərik qoşmurdular. Əl-Lat *(Herodot onun adını «Alilat» kimi yazırdı)* torpağın, məhsuldarlığın hakimi olmaqla ali ilahə hesab olunurdu. Ay təsviri bu ilahənin rəmzi sayılırdı. Təsadüfi deyildir ki, sonralar islam peyğəmbəri sərkərdəsi əl-Müğir ibn Şübabı Məkkənin 70 kilometrliyindəki Taif şəhərinə göndərmiş, burada əl-Latın əsas bütünün və məbədinin dağıdılması əmrini vermişdir. O da məlumdur ki, islamiyyətin ilk illərində müsəlmanların qoşun və karvanlarının başı üzərində saya parçalardan ağ, qara və yaşıl bayraqlar dalğalanırdı. Qurani-Kərimdən götürülmüş aşağıdakı ayələr isə əl-Lata – Ay təsvirinə və digər bütlərə tapınmağa mənfi münasibəti göstərir:

- *«(Ya Rəsulum!)* **Həqiqətən, əgər** *(Məkkə müşriklərindən):* **«Göyləri və yeri kim yaratmış, Günəşi və Ayı kim ram** *(öz əmrinə, insanların mənafeyinə kim tabe)* etmişdir?» – **deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər. Elə isə onlar** *(tövhiddən, yalnız Allaha ibadət etməkdən)* **niyə döndərilirlər?»**.[73]
- **«Gördüyünüz göyləri dirəksiz yüksəldən, sonra da Ərşə ucalan, müəyyən vaxta qədər** ***(göydə)*** **hərəkət edən Günəşi və Ayı** *(əmrinə)* **tabe**

72 Бартольд В.В. К вопросу о полумесяце как символе ислама.// Бартольд В.В. Работы по истории ислама и Арабского халифата. – М.: «Восточная литература» РАН, 2002.
73 Quran. 29:61

edən Allahdır. O, işləri yoluna qoyur və ayələrini *(belə)* **izah edir ki, bəlkə, Rəbbinizlə qarşılaşacağınıza yəqinliklə inanasınız».**[74]

- **«Ən gözəl adlar** *(əsmayi-hüsna)* **Allahındır. Onu bu adlarla çağırıb dua edin. Onun adları barəsində küfr edənləri** *(«əziz» sözündən «Uzza», «Allah» sözündən «əl-Lat», «mənnan» sözündən «Mənat» kimi adlar düzəldib haqq yoldan azanları)* **tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar!»**[75]
- **«Gecə və gündüz, Günəş və Ay Onun əlamətlərindəndir. Günəşə və Aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin! Əgər Ona ibadət edirsinizsə** *(heç bir şərik qoşmadan ibadət edin)*![76]
- *«(Ey müşriklər!)* **Bir deyin görək** *(sizin ibadət etdiyiniz)* **Lat və Uzza nəyə qadirdirlər?! Digər üçüncü** *(büt)* **olan Mənat da həmçinin?! Məgər oğlanlar sizin,** *(bəyənmədiyiniz*) **qızlar Onundurmu?!** *(Allahındırmı*?!*)*».[77]

Bundan başqa, Qurani-Kərimdəki «Qəmər» surəsində təsvir olunan hadisə - Məhəmməd peyğəmbər tərəfindən Ayın parçalanması *(şəqqül-qəmər),* əslində, Yerin təbii peykinin fiziki olaraq ikiyə bölünməsi kimi deyil, məhz Aya – əl-Lata tapınan bütpərəst icmanın parçalanması, onların islam dininə dəvət olunması kimi başa düşülməlidir.

Ay təsvirinin xristian simvolizminə daxil olmasına gəldikdə isə bu, həmin dinin sinkretik mahiyyətindən, onun daha əski inanclardan, o cümlədən qədim yunan panteonundan geniş bəhrələnməsinin bariz nümunəsidir. İş burasındadır ki, Ay *(Aypara)* Yunanıstanda Olimp ilahələrindən biri - ovçuların, hamilə qadınların, amazonların himayəçisi sayılan bakirə Artemidanın *(onun qardaşı Apollon Günəşi təcəssüm etdirirdi)* rəmzi olmuşdur. Eramızdan əvvəl 339-cu ildə isə Aypara təsviri Vizanti *(Bizans, indiki İstanbul)* şəhərinin rəmzinə çevrilmişdir. Rəvayətə görə, həmin il Makedoniya hökmdarı Filipin *(Böyük İskəndərin atası)* qoşunları gecə vaxtı səssizcə Vizantiyə yaxınlaşarkən, qəflətən buludların arxasından çıxan bədirlənmiş Ay ətrafı işıqlandırmış və keşikçilər düşmən hücumunun qarşısını ala bilmişlər. Eramızın 330-cu ilində imperator Konstantin şəhərin adını «Konstantinopol»a dəyişmiş, onun

74 Гуран. 13:2
75 Гуран. 7:180
76 Гуран. 41:37
77 Гуран. 53:19-21

himayəçisinin Artemida deyil, Məryəm Ana olduğunu elan etmişdir. Eyni zamanda, antik ilahənin bəzi xüsusiyyətləri ilə yanaşı, Aypara rəmzi də İsa Məsihin anasına aid edilmişdir. O da xüsusi vurğulanmalıdır ki, milli, dini qarşıdurmanı, irqi ayrı-seçkiliyi təbliğ edən xristian ədəbiyyatında «lövbəli xaç» işarəsi ⚓ və ya ☩ əksər hallarda «İsa Məsihin, yəni xaçın ✝ islam *(Ay)* ☽ üzərində qələbəsi» və ya «İsa tərəfdarları ilə Məhəmməd hümməti arasında barışmaz mübarizənin təcəssümü» kimi yozulur. Halbuki, obyektiv xristian simvolikası bunu dini düşmənçilikdən kənar şəkildə, Ayın - Məryəm Ananın bətnindən doğulan xaçın – İsa Məsihin rəmzi kimi izah edir. Onu da xüsusi vurğulayaq ki, Avropada ilk xristian kilsəsi sayılan Kiş məbədi *(Azərbaycan, Şəki)* qədim Ay ilahəsinə aid ziyarətgahın təməli üzərində inşa edilmişdir.

 **AND.** Türk dillərində, o cümlədən Azərbaycan türkcəsində bu gün də geniş istifadə edilən elə qədim ideomatik ifadələr var ki, müasir yozumda «məntiqsizlik» təsirini bağışlayır. Onlardan biri də orta statistik vətəndaşda «Axı, and maye deyil!» təbii etirazını doğuran **«and içmək»** ifadəsidir. Bu söz birləşməsinin etimoloji izahı qədim türk tayfalarında «and» adlandırılan ortaq qardaşlaşma, əbədi müttəfiqlik mərasimi ilə bağlıdır. Onun qrafik təzahürü olan *(dairə içərisində üç nöqtə)* eyni adlı damğa işarəsi mərasimdə istifadə edilən əsas atributları - süd *(qımız, şərab)* dolu kasanı və içərisindəki andlıların *(and içənlərin)* qan damlalarını ⦿ ifadə edir. Qədim türk damğa işarələri təsnifatında bu nişan «qan qardaşı olmaq», «qana and ismək», «əhd etmək», bütövlükdə «qanla müqavilə bağlamaq» - ayrı-ayrı insanların, qəbilə və tayfaların sarsılmaz birliyinin təməlinin qoyulması kimi yozulurdu. Nöqtələrin üçbucaq təşkil etmələrini isə, əski türk mifik təsəvvürlərinə əsasən, sakral işarə - Humay Ananın – döyüşçü ruhlarının, ailə və körpələrin himayəçisi olan ilahənin «tumar» △ rəmzi ilə əlaqələndirilir. Belə hesab edilirdi ki, and mərasimi nəticəsində qazanılan yeni qohumluq genetik yaxınlıqdan daha möhkəmdir. Ortaq türk etnomədəniyyətinin varisləri olan bütün xalqlarda bu müqəddəs ayinin leksik elementləri, adət və ənənələrdə izləri bu gün də qalmaqdadır. Diqqət çəkən məqamlardan biri də müasir qaraçay dilində qardaşlaşmaya «ant» deyilməsidir. Akademik Zelik Yampolski Azərbaycan xalqının mental xüsusiyyətləri içərisində «qana and içmək» mərasimini vurğulayaraq qeyd edir**: «Bu baxımdan insanların doğmalaşması *(qardaşlaşması, himayəyə götürülməsi)* adəti xüsusi önəm**

kəsb edir. İki nəfər əllərini çərtərək qanlarını qarışdırır, bir-birinə etibar nişanəsi olaraq silahlarını dəyişir və özlərini qardaş elan edirdilər».[78]

XVI əsrə aid saxsı qab üzərində and damğası ⊛ (Türkiyə, İznik muzeyi)[79]

Qədim inanclara görə, hər bir canlının ruhu onun damarlarında axan qanda yaşayır. Hətta islam və iudaizm dinlərində heyvan qanı və onunla bişirilən qidaların haram elan olunması bu mifdən qaynaqlanır. Maraqlıdır ki, Tövratda Nuh peyğəmbərin Tufandan sonra qurban kəsib tonqalda yandırmasının və islam dinində İbrahim peyğəmbərin Allaha qoç qurbanı kəsməsinin kökündə də bəndə ilə Rəbb arasında əhd bağlamaq, bu birliyi qanla möhkəmləndirmək fəlsəfəsi dayanmaqdadır. İslamın və iudaizmin vacib buyurduğu əməl – oğlan uşaqlarının sünnət olunması *(ivr. - brit-mala)* ayini də bir tərəfdən onun dini icmaya daxil olunmasının tam təsdiqi, digər tərəfdən isə əməli-saleh bəndə olması barədə Yaradanla qan vasitəsilə bağlanan əhdi kimi dəyərləndirilir. Maraqlıdır ki, Tövratda Rəbb-bəndə ittifaqı «brit» *(ivr.- qan çıxanadək kəsmək)* adlanır. Orta əsr türk dövlətlərində hökmdar ailəsinə mənsub şəxslərin

78 Я.Ямпольский, «О древнейших исторических свидетельствах обычая побратимствакровью и оружием на Кавказе» // Известия Азерб. Филиала АН СССР, № 1-2. Баку, 1944.
79 «Osmanlı uyarlığı». İstanbul, 2002.

edam cəzası zamanı **«qanın yerə tökülməməsi»** *(bu gün də yaşayan daha bir ideomatik ifadə)* və ruhun bədəni sərbəst tərk edə bilməsi üçün boynu vurulmur, kiriş və ya çilə *(dəri, heyvan bağırsağı, yaxud ipək saplardan hörülmüş yay qaytanı)* ilə boğdurulurdu. Qədim türk savaş sənətində, o cümlədən sak-skif, massaget tayfalarında qatı düşmənin **«qanını içmək»** *(növbəti ideomatik ifadə)* onun ruhunun əbədi məkanında dinclik tapmasını əngəlləmək, **«qan qarışdırmaq»** isə indiki kimi insanlar arasında bədən, ruh və əcdad birliyinə nail olmaq demək idi.

Sak/skiflərin andiçmə mərasimi. Küloba, Krım

Hələ qədim sak və hunlardan qalan «and içmək» mərasimi zamanı tərəflər bir-bir ovuclarını çərtib qanını kasadakı at, inək, dəvə südünə, qımıza və ya şəraba damızdırır, ağaqqallardan ibarət şahidlərin iştirakı ilə «qan qardaşı» kimi bağlanmış əhdə əbədi sadiq qalacaqlarını bəyan edərək, növbə ilə ondan içirdilər. Belə hesab edilirdi ki, and içməklə yaranan qohumluq bağları daha möhkəm və qırılmazdır. Həmin mərasimdə içilən süd ortaq ana südünün rəmzi olduğu üçün yeni qan-süd qardaşlarının ailələri arasında nigah halları yolverilməz idi və böyük günah sayılırdı. İstənilən halda andı pozanı,

ona xəyanət edəni ən ağır cəza - ölüm hökmü, «qanının yerə tökülməsi» gözləyirdi. Bu hökm isə məhz digər andlılar tərəfindən icra olunurdu. Heredot sak-skiflərin andiçmə mərasimini belə təsvir edir: **«Böyük gil qaba müqavilə iştirakçılarının qanı ilə qarışdırılmış şərab tökülür. Sonra həmin qabın içərisinə hərə öz döyüş silahını – qılıncını, oxu, baltanı və mizrağını qoyur. Daha sonra uzun-uzadı dualar oxunur və iştirakçılar - müqavilə bağlayanlar, mərasimdə olan ağsaqqallar o şərabdan içirdilər».**[80] Ak/skiflərin andiçmə mərasimi Krımdakı Küloba skif kurqanında *(e.ə. IV əsr)* aşkar olunmuş qızıl lövhə üzərində də təsvir olunmuşdur.

Elə isə mərasim zamanı silahlarının kəsici-deşici hissələrini südün və ya şərabın içərisinə batırıb and içərkən, görəsən, nə deyirdilər? Sak-skiflərin söylədikləri and mətni qorunub-saxlanılmasa da, onun variantlarından, daha dəqiq desək, deyim tərzlərindən birinə «Kitabi-Dədə Qorqud» eposunda rast gəlirik. «Uşun Qoca oğlu Səgrək boyu»nda silah və andlı arasında yaranan bağlılıq, şəxsi silahın şahid və cəza vasitəsi kimi göstərilməsi belə ifadə olunur: **«Mən qılıncıma doğranayım, oxuma sancılayım! Oğlum doğmasun, doğarsa, on yaşına varmasun…»**. Qılıncla bağlı and dastanın «Qanlı Qoca oğlu Qanturalı boyu»nda da vardır.[81] Amerikalı türkoloq Piter Qolden əski türklərin və irandilli xalqların analoji andiçmə mərasimləri arasında fərqi belə izah edir: **«And içməyə fars dilində «sokand xurdan» deyilir. Bu, daha qədim olan «sovkand xvartan» *(kükürd yemək)* ifadəsinin törəməsidir. Görünür, qədim iranlıların adətinə görə, əhd bağlanarkən bəzi acı maddələr yeyilərdi. Türklər isə əhdi *(andı)* bilavasitə içirdilər»**.[82] P.Qoldenin bu fikirləri sak-skif mərasimlərinin kökündə qədim türk adət-ənənələrinin dayandığını bir daha göstərir.

Cənubi Azərbaycandakı «Qızqapan» mağara-məbədindəki barelyef tarixi Azərbaycan torpaqlarında andın, xüsusilə silaha and içmənin qədim tarixi köklərə malik olduğunu əyani şəkildə göstərir. Barelyefdə Midiya və skif-sak hökmdarlarının qədim türk ənənələrinə uyğun andiçmə və silah *(yay-ox)* mübadiləsi mərasimi təsvir olunmuşdur. Maraqlıdır ki, hər iki hökmdar əllərində kompozit *(qatı)* saka yayı tutmuşdur. Qeyd edək ki, Heredot Araz çayı sahillərində yaşayan massagetləri skiflərlə eyniləşdirmiş, onların bir çox adət və ənənələrinin

80 Геродот. «История», ОЛМА-ПРЕСС Инвест, 2004

81 «Dədə Qorqud Kitabı. Ensiklopedik lüğət». Bakı, 2004.

82 П.Голден. «Религия кипчаков средневековой Евразии. Степы Европы в эпохи Средневековья», Т.6. Донецк, 2008.

ortaq olduğunu bildirmişdir. Strabon isə «Coğrafiya» əsərində sak və massagetlərin «kobud, döyüşkən, lakin təmizqəlbli və anda sədaqətli» olduqlarını yazırdı.



Cənubi Azərbaycandakı «Qızqapan» mağara-məbədindəki barelyefin sxematik təsviri

Başqa bir misal. XII əsrin sonlarında yəhudi səyyahı Regensburqlu Petaxiya Dnepr çayı sahillərində qıpçaqların bəzi adət-ənənələri, eləcə də onların «yadellilər» - digər xalqların nümayəndələri ilə bağladıqları and müqavilələrini təsvir etmişdir. Səyyah belə müqavilələrlə özünə yerli bələdçi seçərkən tanış olmuşdur: **«Bu ölkədə heç kəs bələdçisiz gəzmir. Bələdçi tutarkən aralarında belə bir müqavilə bağlanır. Yola çıxan kəs iynə ilə barmağını qan çıxanadək deşib bələdçisinə uzadır. O isə barmaqdan qanı sormaqla sahibi ilə qan qardaşı olur. Bu xalqın başqa bir andiçmə adəti də vardır. İnsan sifəti görkəmində olan mis və ya dəmir qab maye ilə doldurulur. Səyyah və bələdçi növbə ilə həmin qabdan içirlər. Bundan sonra bələdçi heç vaxt sahibinə xəyanət etməyəcəkdir»**.[83] Qeyd edək ki, skiflərdə müxtəlif mərasimlər zamanı insanın *(qatı düşmənin)* kəllə sümüyündən hazırlanmış piyalələrdən də istifadə edilərdi.

Semantika baxımından «müttəfiqlik» bildirən «qoşa ox» ǁ damğa

83 А.Юрченко. «Клятва на золоте: тюркский вклад в монгольскую дипломатию» // Тюркологический сборник, 2007–2008. М., 2009.

işarəsindən fərqli olaraq, «əbədi birlik» kimi yozulan «and» ☘ damğasının sadə variantları - ♣ ♧ işarələrinə Qərbi Azərbaycandakı Göyçə *(Geğam)* qayaüstü təsvirlərində, hun, sarmat, qazax, özbək, krım tatarlarının damğa nişanlarında da geniş rast gəlinir. Bu gün də Azərbaycanın cənub hissəsində - Muğan düzündə yaşayan, eləcə də Qərbi Azərbaycan mənşəli olan yaşlı qadınların alın, bilək və qollarında bu damğanın döymə təsvirlərinə ♣ hələ də təsadüf olunmaqdadır. Yaşlı insanlar onu «Allahın nəzəri həmişə üstümüzdə olsun» kimi yozurlar.

Qədim türklərdə and mərasiminin sadələşdirilmiş, insan qanı ilə deyil, qurbanlıq heyvanların kəsilməsi ilə kifayətlənən variantları da mövcud idi. XII-XIII əsrlərə aid olan «Yuan-çao bi-şi» *(«Monqolların gizli tarixi»)* Çin salnaməsində türk tayfalarında bu mərasimin icrası haqqında bildirilir: **«Xan Tuğrul özü ilə yüz döyüşçü götürüb kereylərin yaxşı tanıdıqları Yesukey bahadırın düşərgəsinə yollandı. Onlar Tula çayının sahilində, Tünek meşəsində ayğır kəsdilər, bir-biri ilə əbədi dost olacaqlarına and içdilər. Beləliklə, And** *(andı, andlı)* **oldular»**.[84] Yuxarıdakı sitat «and» kəlməsinin etimoloji izahına da müəyyən aydınlıq gətirir, məhz qardaşlaşan, qanla möhkəmlənən müttəfiq tərəflərin belə adlandırıldıqlarını göstərir. Qurban kəsib *(qan töküb)* ətini şahidlərə paylamaqla müşayiət edilən «qan qardaşı olmaq» mərasimi Azərbaycan, Anadolu, kumık, qaraçay və balkar türklərində bugünədək qorunub-saxlanılmışdır.

İbtidai hüquq sistemi ənənələri və əski inanclar əsasında yaranmış bu işarənin tərsinə çevrilmiş variantı Mərv hakimi Arqun xanın şəxsi damğası olmuşdur. Sonralar türk tayfalarının birgə andı – sarsılmaz birliyi sayəsində böyük zəfərlər qazanmış Əmir Teymurun möhür və bayrağını da bəzəmişdir. 1403-cü ildə Kastiliya və Leon kralı III Henrixin səfiri Rui de Klavixo Teymurun sarayında olarkən bu rəmzi görmüş və onu belə şərh etmişdir: **«Möhürdəki hər bir dairə dünyanın tərəflərini, onun sahibinin həmin torpaqlara hökmranlığını bildirir».** Macar alimi Armini Vamberi *(1832-1913)* «Əmir Teymur» əsərində hökmdarın bayrağı üzərində həmin damğanın təsvir olunduğunu və altında «Güc ədalətdədir» sözlərinin yazıldığını qeyd etmişdir. Sonralar bu damğanın tərs çevirilmiş variantı Səmərqənd şəhərinin gerbi ♣ olmuşdur.[85] «And» işarəsinin daşıdığı sakral məna görkəmli rus

84 И.Кабышлы. «Тюркский мир. История тюрко-монголских народов». Алматы, 2007.
85 «Гералдика Самарканда», http://www.e-samarkand.narod.ru/gerb.htm.

rəssamı və ezoteriki Nikolay Rerixin *(1874-1947)* də diqqətini cəlb etmiş, «Sülhün bayrağı» əsərində həmin damğanın təsvirini vermişdir. Görünür, rəssam bu işarə ilə Mərkəzi Asiyaya və Tibetə ekspedisiyaları zamanı tanış olmuşdur.



1. Səmərqənd şəhərinin gerbində and damğası (1890-cı il).
2.Nikolay Rerix. «Sülhün bayrağı». 1931-ci il.

Qədim türk dillərində kökündə «and» sözü dayanan və onun etimologiyası ilə əlaqəli olan «anta», «anda», «andi», «andı» kəlmələri «qorumaq», «mühafizə etmək», «keşik çəkmək» anlamlarını verir.[86] Qərbi Azərbaycan ərazisindəki çoxlu sayda türk toponimləri arasında kökündə «and» kəlməsi dayanan yer adları da vardır. Tarixi Azərbaycan torpaqlarında «and» mərasimi ilə əlaqəli toponim haqqında ilk məlumata Assuriya hökmdarı II Sarqonun *(e.ə. 720-705-ci illər)* kitabələrində rast gəlirik. Burada Cənubi Azərbaycanda, indiki Qızılüzən çayı hövzəsində Andiya əyalətinin adı çəkilir. Erməni tarixçisi Favst Buzand *(V əsr)* Alagöz dağının ətəklərində Andzin kəndinin olduğunu bildirir. Naxçıvandakı Əndəmic *(And-Əmiç)* kəndinin adının yozumunda da «and» sözü dayanır. Qərbi Azərbaycanın Vedibasar və Dərəçiçək mahallarında da Andi kəndləri mövcud olmuşdur.[87]

And damğa işarəsinə xristian dini rəmzləri içərisində ☘ və ♣ şəklində rast gəlinir. Maraqlıdır ki, onların kilsə yozumları işarənin qədim türk semantikasına çox yaxındır və «Ata, Oğul, Müqəddəs ruh» *(üç unqum)* arasında əbədi ittifaqın simvolu» kimi izah edilir. Bundan başqa, xristianlığın əsas kilsə

86 Э.Севортян. «Этимологический словарь тюркских языков», том I. Москва, 1974.
87 B.Budaqov, Q.Qeybullayev. «Ermənistanda Azərbaycan mənşəli toponomlərin izahlı lüğəti». Bakı, 1998.

ayinlərindən olan efxaristiya *(yun.- minnətdarlıq)* zamanı dindarların çörək və şərab dadması da and ittifaqını - «İsa Məsihin bədəni və qanı ilə mənəvi birləşməni» təcəssüm etdirir.

△ **BİTİK *(PİTİK)*, TUMAR, NƏZƏRLİK, TİLSİM.** Bu gün Mərkəzi Asiya ölkələrində və Qafqazda ortaq türk etnomədəniyyəti ilə əlaqəli olan, sovet dönəmində isə unutdurulan qədim kult elementləri, o cümlədən bitik-tumarlar – üçkünc bəzək əşyaları şəklində hazırlanmış nəzərliklər yenə də dəbdədir. Çin istehsalçılarının fərasəti sayəsində içərisində müxtəlif təyinatlı dualar çap olunmuş vərəqələr qoyulan metal, dəri və plastik tumarları indi hətta qəzet köşklərindən də əldə etmək mümkündür. Kənd yerlərində isə paltarın iç tərəfinə sancaqla bərkidilən, boyundan asılan, yaxaya, körpənin yastığına tikilən və içərisinə çox vaxt Allahın müqəddəs adları, Quran ayələri yazılmış vərəqlər qoyulan, bəzən isə maral, pişik tükü, üzərlik toxumu, dağdağan yonqarı və kim bilir daha nələr doldurulan üçkünc parça pitiklərə hələ də rast gəlmək mümkündür. Bunu xurafatın yeni dalğasının sağlam dini təsəvvürləri üstələməsi kimi qavrayanlar da, onu keçmişin milli ənənələrinə qayıdış kimi dəyərləndirənlər də haqlıdırlar. Əslində, bu nəzərliklərin islam dini ilə elə bir əlaqəsi yoxdur və qədim türklərin tanrıçılıq inancının dövrümüzə gəlib çatan əks-sədasıdır. O da maraqlıdır ki, Yaxın və Orta Şərq ölkələrində də yayılan bu «bütpərəstlik təzahürü» - dua yazdırıb onu yaxada, qolbağ, qolçaq *(bazubənd)* içərisində gəzdirmək ənənəsi ərəb və farslara məhz türklərdən keçmişdir. İslam dininin qaydalarına əsasən, bu, küfrün çirkin bir formasıdır. Din yalnız bir halda müsəlmanın tumar gəzdirməsinə göz yuma bilər: o şərtlə ki, həmin insan yardım istəyəndə onu nəzərlikdən deyil, rəhmli və mərhəmətli Allahdan diləsin.

Yüksək keyfiyyətli dəridən, ipək parçadan tikilən, qızıl və gümüşdən hazırlanan tumar-pitiklər, adətən, üçkünc formada olsalar da, onların dördkünc, kvadrat və silindrvari variantları da yayılmışdır. Əvvəllər bu qabların içərisinə savaşa gedən döyüşçüləri, körpələri, hamilə qadınları ev və alaçıqları şər ruhlardan qoruyan «alqışlar» *(dualar)* qoyulardu. Tumar ənənəsi vaxtilə Çində də geniş yayılmışdır. Məsələn, çinlilərin «san tzyao-fu» adlandırdıqları nəzərlik üzərinə dua mətni də üçkünc şəkildə qatlanan kağız vərəqdən ibarət idi. Aşağı hissəsindən «qılınclar» asılan tumar

ortaq türk xalça sənətində təsirli nəzərlik *(«bəd nəzərə şiş batsın» ideomatik ifadəni yada salaq)* təsviri kimi yozulsa da, Çində qiyam rəmzi sayılırdı. Azərbaycan, Anadolu, Şimali Qafqaz, Dağıstan, Krım, Mərkəzi Asiya nəzərlikləri bir-birindən yalnız forma, işlənmə üsulları və adları ilə fərqlənir. Ona «nəzərlik», «tumar», «baytumar», «həmayıl», «bitik» və ya «pitik» deyirdilər. Son dövrlərədək özbəklər arasında tumarın içərisinə dua əvəzinə quru ilan qabığı qoyub tikmək və uşağın yaxasından asmaq adəti qalmışdı. Bu, onu bəd nəzərdən qorumalı idi.[88] Bununla belə, türk xalqları arasında islam dini yayıldıqdan sonra digər sakral rəmzlər kimi bitik-tumar nəzərlik xassəsini saxlasa da, onun bəzi variantları yozum dəyişikliyinə məruz qalmışdır. Məsələn, Azərbaycan və Mərkəzi Asiya xalçaçılıq sənətində beş «qılıncı» yuxarıya doğru istiqamətlənən tumar «Fatimei-Zəhranın əli» *(İslam peyğəmbərinin sevimli qızı)* adı altında tanınmışdır. Əgər beş qılınc və ya yuxarıya qaldırılan əlin beş barmağı sünni məzhəbində islamın beş vacib şərti *(şəhadət kəlməsi, namaz, oruc, Həcc ziyarəti və zəkat)* ilə əlaqələndirilirdisə, şiə məzhəbində əlavə olaraq, Hz. Məhəmmədi *(s.ə.s.)* və Əhli-beyt üzvlərini – Hz.Əlini *(ə.s.)*, Hz.Fatiməni *(ə.s.),* Hz.Həsəni *(ə.s.)* və Hz.Hüseyni *(ə.s.)* də təcəssüm etdirirdi.[89]

Bununla belə, ötən əsrin 30-cu illərindən etibarən, bitik/tumar gəzdirmək ənənəsi tədricən unudulmuş, yalnız keçmiş Sovetlər Birliyinin türkdilli respublikaları dövlət müstəqilliyini bərpa etdikdən sonra yenidən gündəmə gəlmişdir.[90] Məsələn, son illər Qazaxıstanda görünməmiş tumar bumu yaşanmaqdadır. Evdə, avtomobildə, iş otağında, hətta yaxada açıq şəkildə tumar asmaq ucqar dağ kəndlərindən tutmuş, mərkəzi dövlət idarələrini də əhatə etmişdir. Qazaxlar tumarın artan populyarlığını ilk növbədə milli özünüdərk hissinin kütləviliyi, qədim türk adətlərini və atributlarını bərpa etmək, etnik mədəniyyətin təbliğində yararlanmaq istəyi ilə izah edirlər. Hətta Qazaxıstan prezidenti Nursultan Nazarbayev də amerikalı həmkarı Barak Obama ilə görüşü zamanı onu bəd nəzərlərdən qorumaq üçün tumar təsviri bağışlamışdır.

88 Н.Рзаев. «Искуство Кавказской Албании. IV в. до н.э. VII в. Н.э.». изд «Элм», 1976
89 «Символика изображений на коврах», http://www.art-carpets.ru/part/izocarpets.html
90 Л.Чвырь. «Сравнительный очерк традиционных украшений уйгуров и соседних народов Средней Азии // Восточный Туркестан и Средняя Азия в системе культур древнего и средневекового Востока». Москва, 1986.

Bu nəzərliklərin ilkin ümumtürk adı «bitik» olmuşdur. Göytürk *(Kül tigin)* mətnlərində 𐰃𐰼𐰃𐰀 kimi həkk olunan «bitik» sözü qədim türk dillərində ilkin olaraq «yazı», «məktub» anlamını vermiş, sonralar isə «yazılı kağız», «dua», «kitab», «fərman» mənalarında da işlədilmişdir. Bu sözə Azərbaycan klassik poeziyasında və aşıq ədəbiyyatında da rast gəlinir və Qafqazın, Krımın türk mənşəli xalqlarının dillərində bu gün də işlədilir. Məsələn, Kül tigin abidəsində yazılır: **«Bengü taş togitdim bitidim»** *(Mən daş qoydurdum və yazdım)*. Turfan yazılarında isə əski uyğur dilində belə bildirilirdi: **«Qutliy bolzun bu bitik idisi»** *(Bu yazının/bitiyin sahibi xoşbəxt olsun)*. Bu gün «yazıçı» dediyimiz kəsləri isə qədim dövrlərdə «bitikçi» adlandırırdılar.[91] Dilləri Azərbaycan türkçəsinə daha yaxın olan Krım karaimləri *(kara və ya karaylar)* bu gün də «kitab» sözü əvəzinə «bitik» kəlməsindən istifadə edirlər. 1916-cı ildə Yevpatoriyada açılmış ilk karaim kitabxanası da «Karay Bitikliyi» adlanırdı.[92] Azərbaycanın müxtəlif bölgələrində bu gün də işlədilən «pitik» kəlməsi, əslində, «bitik» sözünün fonetik təhrif olunmuş formasıdır. Şah İsmayıl poeziyasına müraciət edək: «Yazdım ***bitiki,*** «əlif», «hey» yazdım». Və ya «Öz halımı ərzü faş qıldım, Yaşımca ***bitigi*** yaş qıldım».[93]

Dünyanın bir çox qədim xalqlarının rəmzləri sırasında sadəliyi qədər sakral məna daşıyan həndəsi fiqur - bərabərtərəfli üçbucaq işarəsi də vardır. Bir qayda olaraq, uc hissəsi yuxarıya istiqamətlənən üçbucaq △ müqəddəs dağ, qadın başlanğıcı, mükəmməl ideya anlamını verən Məhəbbət-Həqiqət-Müdriklik, Yer-Göy-İnsan, Ata-Ana-Övlad, Can-Ruh-Cəsəd, Ata-Oğul-Müqəddəs Ruh və bu kimi triadaların təcəssümü, əks istiqamətə yönələn fiqur isə △ kişilik simvolu hesab edilir. Qeyd edək ki, ortaq türk mifik təsəvvürlərində də yuxarıya baxan üçbucaq qrafem Yaranışı hifz edən ilahənin - Humay Ananın rəmzlərindən biri kimi damğa işarələri içərisində də geniş yer almışdır. Onun antipodu △ isə qoruyucu mahiyyətini saxlayaraq, «qalxan» rəmzi kimi yozulur. Yeri gəlmişkən, antik salnamələrə və təsvirlərə əsasən, Qafqaz Albaniyasının atlı döyüşçüləri bu tipli qalxanlardan istifadə etmişlər. Qədim Şumer və Aratta dövlətlərinin qadın ilahəsinin - İnannanın əski türk variantı olan Humay Ana *(Umay Xatun, Umay ene, May enesi, May Ana və s.),* inanclara görə, Tanrı/Tenqri xanın ömür-gün yoldaşıdır və körpələri, döyüşçüləri, ailəni, eləcə də İlahinin Yer üzündə təcəssümü olan

91 Н.Дмитриев. «О тюркских элементах русского словаря». Лексикографический сборник. Москва, 1958.
92 О.Прик. «Очерк грамматики караимского языка (крымский диалект)». Махачкала, 1976.
93 Xətai. Seçilmiş əsərləri. Bakı, 2005

xaqan xatunlarını himayə edən xeyirxah ilahədir. Miflərə əsasən, dünyanın yaranışı da Humay Ananın adı ilə bağlıdır.



Ardıcıllıqla: Müasir metal tumar; Mingəçevirdə arxeoloji ekspedisiya zamanı aşkar olunmuş «tumar» formalı qızıl sırğa (Qafqaz Albaniyası, e.ə. VII – V əsrlər). Azərbaycan alimi Nəsir Rzayev bu bəzək əşyası haqqında yazırdı: «Şimali Qafqazdakı xəzər türkləri də analoji sırğalar hazırlayırdılar»;[94] Dördkünc tumar - Quran qabı ilə sinə bəzəyi (Şirvan, XIX əsr. Milli Azərbaycan Tarixi Muzeyinin fondundan); Xarəzm sırğa-tumarı (XIX əsr);[95] Türkmən nəzərliyi:[96] Qazax tumarı

Qədim zamanlarda bütün Yer üzü suya qərq olanda ağ quş *(qu quşu, akkuş, su gəlini, ak kaz)* cildində olan Humay Ana nəhayətsiz dənizin dərinliyinə baş vuraraq dimdiyi ilə onun dibindən torpaq götürmüşdür. Sonralar həmin torpaq parçası üzərində dağlar, çaylar, meşələr yaranmışdır. Digər qədim rəvayətdə

94 Н.Рзаев. «Искуство Кавказской Албании. IV в. до н.э. VII в. Н.э.». изд «Элм», 1976
95Э. Гюль. «К вопросу о генезисе амулетниц-тумаров», http://www.kyrgyz.ru/?page=309
96 http://www.turkmenistan.gov.tm/photo/culture/2013/261013-1.jpg

isə bildirilir ki, bütün dünya Humay adlı qu quşunun yumurtasından çıxmışdır. Başqa əsatir variantına görə, insanın ruhu *(kut)* dünyaya gəlməmişdən öncə Tanrı məkanında – göyün dördüncü qatında dolaşır. Bu ruh ana bətnindəki körpənin bədəninə uca qayın ağacının zirvəsində yaşayan Humay Ana vasitəsilə gətirilir. Bəzi Altay xalqlarında uşağın hələ «kuta» çevrilməmiş körpə ruhuna da «humay» deyilir. Əgər «ruhun humay dövründə» uşaq xəstələnərsə, qamşaman bədəni tərk edən humayın geri dönməsi üçün xəstənin olduğu evin və ya çadırın önünə qayın ağacı budağı basdırır, dibinə süd tökür və Humay Anaya alqışlar *(dualar)* edirdi. Bu baxımdan, indi «əzizləmək», «nəvaziş göstərmək» kimi yozulan «başa tumar çəkmək», «tumarlamaq» ifadələri ilkin anlamda sakral xarakter kəsb etmiş, «bədnəzərdən qorumaq», «xeyir-dua vermək» mənalarını daşımışdır.

Ağ paltarlı, gümüşü saçları yerədək uzanan, yaşı bilinməyən və Dirilik Ağacının *(Qaba Ağacın)* əbədi sahibi olan Humay Ananın başını üç ədəd iri üçbucaqdan ibarət sehirli tac bəzəyir. Leonid Kızlasov həmin üç ucluqlu tacın qədim türk dini ayinlərində tanrıların və şamanların başlıca fərqləndirmə atributu olması qənaətindədir.[97] Buna əsasən, tumarın üçbucaq formasının məhz həmin tacı simvolizə etdiyini düşünmək olar. Başqa bir fərziyyəyə əsasən, tumarın üçbucaq forması özündə ocağın arxaik görkəmini və üzərinə qazan qoyulan metal üçayağı əks etdirir. Türk xalqlarında ocaq evin müqəddəs, sakral guşələrindən sayılırdı. Məsələn, «Kitabi-Dədə Qorqud» dastanının söz dünyasında «ocaq» kəlməsi ailə, el-oba, tayfa, nəsil anlamlarında da işlədilirdi. Bu məna bu gün də qalmaqdadır. Humay Ananın digər rəmzlərinin - *(Ay),* *(qayçı),* *(açamay/haça Umay),* *(yay-ox)*, *(ox),* *(yoncalı xaç/aça)* hər birinin öz təyinatı olsa da, onların içərisində tumar özünün universal xarakteri ilə seçilir.[98] Türk dillərində «tumar» kəlməsi ilkin olaraq «xan fərmanı», «fərmanla verilmiş torpaq sahəsi» *(məsələn, Van gölündəki Ağtomar adası),* «kitab», «üçkünc şəkildə bükülmüş vərəq» və ən nəhayət, «nəzərlik» anlamında işlədilirdi. Bu gün də əhali arasında nəzərlik, nəzər duası kimi qalan bu qoruyucu elementin stilizə olunmuş təsvirlərinə Azərbaycanın, Anadolunun, Qafqazın, Mərkəzi Asiyanın xalça məmulatlarında, bəzək əşyalarında rast gəlinir.

Monoteist dinlərin, o cümlədən islamın türk xalqları arasında yayılmasından sonra, təbii ki, onların Humay Ana haqqındakı təsəvvürləri də dəyişilmiş,

97 К.Кызласов. «К истории шаманских верований на Алтае». КСИИМК, вып. XXIX, 1949.
98 А.Бисенбаев. «Мифы древних тюрков». Алматы, «Ан-Арыс», 2008

yeni dinin elementləri ilə zənginləşmişdir. Tanrıçılıq ilahəsinin ilkin obrazı, rolu, hətta onun rəmz və atributları tədricən mifoloji əhəmiyyətini itirərək öz yerini yeni dini obrazlara İslam peyğəmbərinin sevimli qızı Fatimeyi-Zəhraya və Məryəm Anaya vermişdir. Eyni zamanda, müsəlman və xristian türklər vasitəsilə nəzərlik-tumar, eləcə də Humay Ananın digər rəmzləri də tədricən həmin dinlərə transformasiya edilmişdir.

İslamın yayılmasından, eləcə də türk tayfalarının Yaxın Şərqdə geniş məskunlaşmasından sonra dua-bitik gəzdirmək ənənəsi ərəblər arasında da yayılmış və onlar nəzərliyin adını kalka şəklində dəyişərək «tumar» *(ərəbcə - yazı)* kəlməsinə çevirmişlər. Məsələn, Məhəmməd Füzuli deyir: «**Yazanda Vamiqü Fərhadü-Məcnun vəsfin əhli-dərd, Füzuli adını, gördüm, səri-tumarə yazmışlar».** Burada «tumar» sözü «yazı», «səri-tumar» isə mətnin başlığını bildirir. Orta əsr xəttatlıq sənətinə görə, yazının başlığı xüsusi tərtibatı ilə seçilirdi. Bu gün Mərkəzi Asiya xalqlarında nəzərliyin «bakıt tümarı» *(bəxt tumarı)* və «boy tümar» *(boylu, hamilə qadınlar üçün yazılan dua)* növləri daha geniş yayılmışdır. Tədricən «tumar» sözü ilkin adı üstələmiş və nəzərliklər türk xalqları arasında da belə adlandırılmışdır. Orta əsrlərdə döyüşçülər belə nəzərlikləri boyunlarından asar və bir qayda olaraq, onun içərisinə «Cövşəni-Kəbir» *(Böyük/Ali/Möhkəm Zireh, Zireh duası)* duası yazılmış vərəqəni qoyardılar. İnsanı pisliklərdən, xəstəliklərdən, cəhənnəm atəşindən, düşmən məkrindən qoruyan, lakin «əməli-hökm» olmayan bu duanı oxumaq və ya gəzdirmək fərz sayılırdı. Əhli-Beyt rəvayətlərinə görə, Rəsuli-Əkrəm *(s.ə.s.)* döyüşlərdə ağır və bədənini rahatsız edən zireh geyinərdi. Günlərin birində Mələk Cəbrayıl *(ə.s.)* nazil olaraq İslam Peyğəmbərinə demişdir**: «Ey Məhəmməd, Rəbbin sənə salamı var. O, əynindəki zirehi çıxarıb bu duanı oxumağı buyurur. Bu dua səni və ümmətini qoruyacaqdır».** Onu da xatırlamaq yerinə düşərdi ki, Şah İsmayıl Xətayinin qızılbaş döyüşçülərinin bir çoxu şahın iştirak etdiyi döyüşlərdə zireh geyməzdilər.

ϒ QABA AĞAC, TÖZ AĞAC, BAYTEREK, BAYTÖRƏ. Qədim türklər totem saydıqları ağacları ulu əcdadlarının anası bilir, onlara sitayiş edirdilər. Tarixi mənbələrə görə, hunlar da belə ağaclara tapınır, onlara qurban kəsirdilər. Ağac kultu oğuz boyları arasında da geniş yayılmış, bu inanc müəyyən damğa işarələrinin  və s. yaranmasına və yayılmasına öz təsirini göstərmişdir. Tanrıçılıq inancında qismən totem çərçivəsindən

çıxan Dirilik Ağacı arxetipi kosmoqonik məzmun baxımından daha da inkişaf etdirilmiş və paralel olaraq Tenqri xanın səlahiyyətlərini nümayiş etdirən simvola çevrilmişdir. Belə ki, işarənin ᛘ digər semantik yozumlarına görə, onun üç qolu Tenqrinin üç stixiyaya – Suya, Torpağa və Havaya, eləcə də üç məkana – Göyə, Orta Dünyaya və qaranlıq Ruhlar Dünyasına olan hökmünü bildirir və bərabərtərəfli Tenqri xan açasının *(xaçının)* ✝ bir variantıdır. Həmin işarənin bərabərtərəfli Tenqri açası *(xaçı)* ilə birləşdirilməsi isə Tenqri xanın təkcə üç stixiya və məkana deyil, həm də dünyanın dörd tərəfinə yayılan iradəsinin təcəssümüdür.

İslamaqədərki ortaq türk mifik təsəvvürlərinə əsasən, Tenqri məkanı olan Göy, Orta Dünya və Yeraltı Dünya bir-biri ilə həmişəyaşar ağacın budaqları, gövdəsi və kökləri ilə bağlıdır. «Bayterek» adlandırılan bu möhtəşəm ağac insanları Tanrı məkanına aparan, körpə ruhlarını – kutları ana bətninə çatdıran müqəddəs körpü funksiyasını daşıyırdı. Tanrıçılıq dininə şamanizmdən nüfuz olunan inanca görə, bütün Yer üzünün Baytereki Altaylarda, Göytəpə dağının zirvəsində qol-budaq atmışdır. Məhz buna görə türklər onlara Dünya Ağacını - Baytereki xatırladan əzəmətli ağaclara həmişə sitayiş etmişlər.[99] Bu ağacın hər yarpağı bir körpənin, bir canlı varlığın ruhudur. Vaxtı çatanda budaqlardan ayrılaraq parlaq ulduzlara çevrilir və Humay Ananın vasitəsilə Ruhlar dünyasından Orta dünyaya gətirilir. Ağacın dibindən axan bol sulu bulaqlar dünyanın nəhəng çaylarını cana gətirir. Lakin şimala doğru səmt götürən çayların missiyası isə ağırdır. Onlar ölmüş insanların ruhlarını soyuq və qaranlıq səltənətə aparırlar. Bayterekin sıx budaqları arasında isə müdrik qarğa gələcək qam-şamanların körpə rühlarına müdriklik dərsi keçir. Ağacın zirvəsinə qonmuş nəhəng qartal isə iti gözləri ilə insanların Tenqri xanın əmrlərinə necə riayət etdiklərini diqqətlə izləyir. Azərbaycanın müxtəlif bölgələrində islam dini ilə «ortaq məxrəc tapmış» ağac kultu, müqəddəs sayılan ağac pirlərinə inam bu günədək qalmaqdadır.

Əski inanclara əsasən, hər bir tayfanın, nəslin öz müqəddəs ağacı vardır. Eramızın 587-ci ilinə aid edilən Çin yazılı mənbələrindən birində Göytürk xaqanlarının soy-kökü möhtəşəm ağaca bənzədilmişdir: Böyüklər bu ağacın gövdəsi, gənclər isə onun budaqları və yarpaqlarıdır.[100] Qədim uyğurlar ağacı əcdadlarını dünyaya gətirən ilahi bir varlıq kimi təsəvvür edirdilər. O həm də

99 А.Бисенбаев. «Мифы древних тюрков», http://www.eurasica.ru.
100 E.Esin. «Ötüken Yıs», «Türk Sanatında ikonografik motifler». İstanbul, 2004.

qəbilə üzvlərinin rifahının, sağlamlığının qoruyucusu sayılırdı. Töz *(totem)* sayılan ağacın kökünü qəsdən qurutmaq öz soylarını ona bağlayan insanları labüd ölümə məhkum etmək kimi dərk edilirdi. Övladı olmayan qadınlar nəsil ağaclarının altına ağ at dərisi sərərək üzərində dua edər, niyyətlərini diləyər, nəzir deyərdilər.[101] Movses Kağankatlı salnamələrində Alban hökmdarlarının xristianlığı yaymaq üçün bütpərəstliyə qarşı çağırış edikləri, ağac totemləri kəsib atmaları barədə məlumat verirdi. Bu qədim inancın işartıları təkcə xalça naxışlarımızda deyil, Azərbaycan şifahi xalq ədəbiyyatında hələ də qalmaqdadır. Ötən əsrdə Azərbaycan folklorçularının Qubadlı bölgəsinə ekspedisiyası zamanı topladıqları miflərin birində deyilir: «O dünyada bir ağac var. Onun hər bir yarpağı bu dünyadakı bir adamındır. O yarpaq saralıb yerə düşəndə adam ölür. Yarpaq düşəndə başqa yarpaqlara dəyib onları tərpədirsə, bu dünyadakı yarpaq sahiblərinin qulağı cingildəyir».[102] Totemizm, şamanizm, tanrıçılıq və islam dininin qeyri-adi şəkildə vəhdət təşkil etdiyi «Kitabi-Dədə Qorqud» dastanının əksər boylarının sonunda ağzı dualı ulu ozanın dilindən belə bir alqış səslənirdi: **«Kölgəlicə Qaba Ağacın kəsilməsin!».** Yəni kölgəsini nəslin, tayfanın üzərinə salan, onu himayə edən Qaba Ağac məhv olmasın, soy kəsilməsin. Bu mifoloji ideya eposun «Qam Börənin oğlu Bamsı Beyrək» boyunda özünü daha qabarıq göstərir. Kafir əsarətindən qurtulan Bamsı Beyrək yurduna qayıdanda bacısı əvvəlcə onu tanımır, qardaşının öldüyünü belə xəbər verir: **«Kölgəlicə Qaba Ağacım kəsilibdir, ozan, sənin xəbərin yox».** Elə həmin boyda Banuçiçək nişanlısı Beyrəyin sağ qayıtması xəbərini onun atasına çatdıranda nəsil ağacının yenidən canlanmasını belə ifadə edir: **«Qaba Ağacın qurumuşdu, yaşardı axır!»**. Eposun «Qazan xanın bəy oğlu Uruz bəyin dustaq olması» boyunda Boyu uzun Burla xatun oğlunu ölmüş bilib Qazan xana tənə ilə belə deyir: **«Kölgəsincə Qaba Ağacımı kəsən Qazan»**. Başqa bir misal, «Uşun Qoca oğlu Səgrək» boyunda illər uzunu kafir qalasında əsir saxlanılan oğlunun evə dönməsi xəbərini eşidən ana sevincini belə bildirir: **«Qaba Ağacda tal-budağın qırılmışdı, yaşarıb göyərdi axır»**.[103]

Qeyd edək ki, qıpçaqların əsasən «Bayterek», oğuzların isə «Qaba Ağac» adlandırdıqları totem *(palıd, şam, çinar, dağdağan, qayınağacı, qovaq, ardıc və s.)* kultunun qədim elementləri dini etiqadından asılı olmayaraq, türk xalqları

101 A.İnan, «Müslüman Türklerde Samanizm Kalıntıları». Ankara 1952.
102 «Azərbaycan mifoloji mətnləri». Bakı: «Elm», 1988.
103 «Dədə Qorqud Kitabı. Ensiklopedik lüğət». Bakı, 2004.

arasında bu gün də yaşamaqdadır. Azərbaycanda da müqəddəs ağaclarla bağlı xalq deyimləri və əlamətləri, ölkənin müxtəlif bölgələrindəki ziyarətgahlar həmin inancın kollektiv yaddaş səviyyəsində qorunub saxlanılmasından xəbər verir. Bu ağacları qırmaq, yandırmaq, susuz qoymaq böyük günah hesab edilir, onların budaqlarından düzəldilmiş nəzərliklər isə qadın və uşaqları bədbəxlikdən qoruyur. Böyük Azərbaycan alimi Mirəli Seyidov bu barədə yazır: **«Son vaxtlara qədər Azərbaycanın bir çox yerlərində ağac pirləri olmuşdur. Həmin pirlər əsasən uşaq, doğum pirləri kimi də məşhurdur. Buraya doğmayan qadınlar övlad arzusu ilə gəlib tapınar, səcdəyə düşərmişlər. Ağacın doğum piri olması onun həm dünya ağacının atributu olmasına işarədir, həm də bu inamın Umayla mifoloji əlaqəsinin təzahürüdür».**[104]

Əski türk mifoloji təsəvvürlərində «Dünya Ağacı» anlayışı özündə qadın və kişi başlanğıclarını əks etdirən iki ayrı-ayrı ağacı birləşdirir. Belə ki, qovaq ağacı Ata - kişi başlanğıcı olduğu halda, qayın ağacı Ananı təcəssüm etdirir. Rəvayətə görə, Humay Ana Göydən enərkən əllərində iki qayın ağacı tutmuşdur.[105] Misal üçün, Altay türklərində müqəddəs dayə-qayın ağacı haqqında rəvayətlər mövcuddur. Bu ağac meşəyə atılmış körpələri himayəsinə götürərək, gövdəsinin şirəsi-südü ilə onları ölümün cəngindən qurtarır. XVI əsrdə yaşamış qazax küyçüsü *(dombranın müşayiəti ilə dastan ifaçısı)* Bayjiqitin «Kayın sauqan» *(«Qayın ağacının sağılması»)* adlanan küyündə də bu motivə toxunmuşdur. Maraqlıdır ki, «tor» *(törə)* kəlməsi qədim türklərdə təkcə «dövlət», «hakimiyyət», «qanun-qayda» deyil, həm də «Dünya Ağacı» və kainatdakı «Süd Yolu» *(Kəhkəşan)* anlamını verir. Bəzi türk dillərində «nəsil ağacı» ifadəsinin qədim sinonimi olan «tos», «töz» və ya «tös» kəlməsi, eyni zamanda, «qadın sinəsi» kimi izah olunur. O da maraqlıdır ki, Azərbaycan dilində «qayın ağacı» sözünün sinonimi olan «toz ağacı» kəlməsinin ilkin variantı kimi «töz ağacı» *(nəsil ağacı və ya dayə ağacı)* yozumu da nəzərdən keçirilə bilər. Hətta XI əsrdə yaşamış Mahmud Kaşğari də «qayın» kəlməsinin həm ağac, həm də qadın tərəfdən qohum – həyat yoldaşının qardaşı mənalarında işlənməsinə diqqət yetirmişdir.[106] Azərbaycan ərazisində qədim türklərin Qaba Ağac kultu ilə bağlı xeyli etnonim, hidronim və oykonimlər

104 M.Seyidov. «Azərbaycan mifik təfəkkürünün qaynaqları». Bakı: «Yazıçı», 1983.
105 «Энциклопедия символов, знаков, эмблем».Авт.-сост. В. Андреева и др. М., 2002.
106 З.Наурзбаева. «Архетип женщины – медиатора в традиционной и современной казахской литературе», http://www.otuken.kz.

mövcuddur. Məsələn, Sabirabad bölgəsindəki Qalaqayın kəndinin etimologiyası totemi qayın ağacı olan qayın tayfasının adı ilə bağlıdır. Mahmud Kaşğarinin «Divani lüğət-it-Türk» əsərindəki atalar sözlərində qayın ağacına insanlara xas xüsusiyyətlər verilir: «Kayınq kasınqa» *(Ciddilik qayın ağacının xasiyyətidir)*. Ağacəri dağı *(Tovuz bölgəsi)* oronimi isə qədim ağacəri tayfasının adından *(«ağac» + «ər»)* götürülmüşdür və Şərqi Sibirdə yaşayan meşer tatarlarının etnonimi ilə eyni mənanı verir. Bizans mənbələrinə görə, hələ eramızın V-VI əsrlərində Azərbaycan ərazisində «akasir» hun tayfası yaşamışdır. «Akasir» etnonimi orta əsr rus salnamələrində hərfi tərcümə olunaraq, **«древляне»** *(ağac/meşə adamları)* kimi qeyd edilmişdir. Azərbaycanın Qubadlı, Tərtər, Cəlilabad, Masallı, Salyan bölgələrindəki «Qızılağac» oykonim və hidronimləri isə ağaca tapınan qızılağac tayfasının adı ilə əlaqələndirilir. Bu adı daşıyan nəsillər *(kızılağacı)* Türkiyənin Antalya, İsparta, Budur bölgələrində indi də yaşamaqdadırlar.[107] «Kitabi-Dədə Qorqud» dastanlarında qəhrəmanlardan birinin – Basatın dilindən səslənən sözlər oğuzlarda Qaba Ağaca – Ulu Anaya verilən dəyərin əlamətidir: «Anam adın sorar olsan,- Qaba Ağac! Atam adın dersən, - Qağan Aslan! *(Tenqri/Günəş)*».

1.Azərbaycan xalça ornamentlərində Bayterek/Dirilik Ağacı.
2. Qazaxıstanın paytaxtı Astana şəhərində hündürlüyü 105 metrə çatan Bayterek monumenti. 3.Çuvaşıstan Respublikasının Dövlət bayrağında Bayterekin stilizə olunmuş təsviri

107 А.Таптыгов. «Мифологические топрнимы, сформировавщиеся на основе культов дерева и горы на территории Азербайджана», science.crimea.edu.

«Bayterek» sözünün etimologiyası haqqında müxtəlif elmi mülahizələr mövcuddur. Mərkəzi Asiyanın və Volqaboyunun qıpçaq kökənli türk xalqlarının folklorunda «bayterek» dedikdə «Dünya Ağacı», «qovaq ağacı», «evi, çadırın tavanını saxlayan mərkəzi dirək» nəzərdə tutulur.[108] Altaylılar, xakaslar, tuvalar, qazax və qırğızlarda bu kəlmə «bay*» (dövlət)* və «terek» *(qovaq ağacı)* sözlərinin birləşməsindən yaranmışdır. Bu gün də Mərkəzi Asiyada qovaq ağacının bir növü *(piramida şəkilli)* «bayterek» adlanır. Anadolu türklərində isə analoji məna verən «baytörə» sözü vardır. Zənnimizcə, «baytörə» sözü əski türklərdə şam, qayın, palıd ağacları kimi töz *(totem)* ağaclardan birini - «qovaq» anlamını verməzdən əvvəl «bay/bəy» *(ali, böyük)* və «törə» *(nəsil)* sözlərinin birləşməsindən yaranaraq, tam halında «nəslin müqəddəs ağacı» mənasında işlənirdi. Onu da qeyd edək ki, Mərkəzi Asiyada yaşayan türk xalqlarında «Baytörə» şəxs adı da vardır.

GÜN RƏMZİ, QIZIL ALMA. Bu solyar işarə dünyanın əksər xalqlarında, o cümlədən türklərdə Günəşin və Tanrının rəmzlərindən biri sayılmaqdadır**.** Qədim türklər «Tenqri xan» dedikdə Göyü və Günəşi dərk edirdilər. Onlar inanırdılar ki, insanın ruhu Tenqriyə *(Günəşə),* cismi – bədəni isə müqəddəs Yer-Suya məxsusdur. Qədim mənbələrə görə, hunlar dan yeri söküləndə əllərini günəşə doğru açaraq onu salamlayır, sübh dualarını edirdilər. Bu ayinin bənzərinə bəzi dinlərdə, eləcə də sinkretik din olan yezidilikdə bu gün də rast gəlinməkdədir. Günəş şamanizm və tanrıçılıq dinlərində əsas kult elementlərindən biri olmuşdur. XVI əsrdə yaşamış İran tarixçisi Ruzbexan «Mehmanameyi-Buxara» əsərində müsəlman qazaxların Günəşə sitayiş ayini barədə bunları yazır: «**Yaz gələndə qazax at südünü** *(kumısı)* **içməzdən əvvəl üzünü günəşə sarı tutub südün bir qurtumunu Şərqə doğru yerə dağıdır və Günəşə təzim edir. Güman ki, bununla yaşıl ot bitirdiyinə, atın onu yediyinə və süd verdiyinə görə ona minnətdarlığını bildirir**».

Tarixi Azərbaycan əraziləri Günəşə sitayişin ən çox yayıldığı yerlərdən biridir. Əski mənbələrə əsasən, Midiya dövlətində və Qafqaz Albaniyasında Günəşə sitayiş kultu geniş yayılmışdır. Hələ eramızdan əvvəl V əsrdə yaşamış yunan tarixçisi Herodot burada məskunlaşmış massagetlərin dini inanclarından bəhs edərkən yazmışdır: «**Onların tapındıqları yeganə ilahi Günəşdir. Onlar ən sürətli ilahiyə ən sürətli canlını – atı qurban**

108 Р.Ахметьянов. «Общая лексика духовной культуры народов Среднего Поволжья». М., 1981.

kəsirlər»[109] Qədim Tunc dövründən etibarən Qobustan, Gəmiqaya və Göyçə qayaüstü təsvirlərində Günəş ilahisinin rəmzlərinə ┼ 卐 ⊕, o cümlədən dairə işarəsinə ○ rast gəlinir. Bundan başqa, Qız qalasının, əslində, müdafiə tikilisi deyil, qədim Günəş məbədi olması barədə elmi mülahizələr də getdikcə öz təsdiqini tapmaqdadır. Altay dağlarından Balkanlaradək uzanan nəhəng ərazidə geniş yayılmış bu damğa işarəsinin «on», «döngələk», «domalaq», «Gün belgisi» *(Gün nişanı*), «Domalaq ana», «Gün domalaq», «Sarı baybişe», «Baybike», «Nurullah», «Altun top», «Altun alma» kimi adları vardır. Onun digər semantikası isə bədirlənmiş Ay ilə bağlıdır və bəzi türk xalqlarında bu işarəyə «Aydamğa» da deyilməkdədir. «Dəftəri-Çingiznamə» əsərində bu ad haqqında belə yazılır: **«Sonra Çingiz xan Konrat bəyin oğlu Sengdeyə dedi ki, ey Sengde, qoy sənin ağacın *(tös, totem)* alma ağacı olsun, quşun laçın olsun, uranın *(nəsil çağırışın)* «Konrat» olsun, damğan Ay damğa olsun, şəkili də budur - ○».**[110] Əbu Əli Əhməd ibn Rusta *(IX əsrin sonu - X əsrin əvvəlləri)* «əl-Əlak ən-Nəfisa» əsərində Xəzər ordusunun rəsmi keçidini təsvir edərkən ucunda qızıl kürə olan tuğ *(bayraq)* barədə yazırdı: **«Qoşundan xeyli irəlidə hökmdar gedirdi. Onun önündə isə atlılar bəzilərinin «çətir», «dəf», «dairə» adlandırdıqları və bizə dəqiq məlum olmayan bir qurğu aparırdılar»**.[111] Orta əsr mənbələrinə əsasən, Xəzər xaqanının ipək çadırının üzərini də qızılı dairə rəmzi bəzəyirdi. Adam Oleari Şimali Qafqazda olarkən buradakı türklərin *(kumıkların)* qızıl alma vasitəsilə özlərinə şamxal seçdiklərindən yazırdı. Tanınmış türkiyəli alim Fəxrəddin Kırzıoğlu isə yazır ki, xəzərlər qızıl alma vasitəsilə seçilən şahlarını «altın alma padşahları» adlandırırdılar.[112] Qeyd edək ki, siqmentlərindən biri dairə ○ olan damğaların bir çoxunun məhz Günəş-Alma rəmzindən törəndiyi ehtimal edilir. Türk xalqlarının rəsmi simvolizminə, nağıl və dastanlarına nüfuz edən «qızıl alma» mifoloji obrazı kök etibarilə əski inanclara – totemizmə söykənməkdədir. Belə ki, mifik təsəvvürlərə görə, alma bəd ruhu olmayan, insanlara yardım göstərən sehirli ağacdır. İlkin orta əsrlərdə uyğurlarda tuğ *(bayraq)* başlıqlarına alma budağı asardılar. Bir qayda olaraq, baxşilərin *(baxıcıların, dini həkimlərin)*

109 Геродот. «История в девяти книгах». Ленинград: «Наука», 1972.

110 F.Toprak. «Defter-i Çengiz-nāme'de boy nişanlari ve damgalar», Turkish Studies- International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 6/1 Winter 2011.

111 Ибн Руста. «Ал-Алак ан-нафиса», пер. В.Минорского. 1963.

112 К.Алиев. «Тамга-знаки Дагестана. По материалам кумыков и их предков». // КНКО: Вести. Махачкала, № 8-10, 2003.

əlində də alma ağacından əsa olardı.[113] Türkiyəli professor Əsma Şimşək (Fırat Universiteti) yazır ki, **«Bir çox dastan, rəvayət və məsəllərdə Xızır peyğəmbər *(pir, dərviş)* tərəfindən butalılara verilən alma «övlad motivi», «nəslin davamlı olması» kimi dəyərləndirilirdi. Bəzi bölgələrdə bəyin gəlinin başı üzərinə atdığı alma şəfa diləyi ilə övladı olmayan qadınlar tərəfindən yeyilirdi. Yeri gəlmişkən, bu adət, eləcə də gəlin ata evindən köçərkən şah bəzəmək və ona alma taxmaq Azərbaycanda, Ərzurumda, Ərzincanda, Tuncəlidə, Elazığda bu gün də qalmaqdadır».**[114]

Lakin Günəş rəmzi xəzərlərdən xeyli əvvəl hun hökmdarı Atillanın və oğlu Ərnakın *(İrnik)* damğası ○ olmuşdur. Atillanın mənsub olduğu dulo *(Mərkəzi Asiyada «dulat» və ya «dulu», «tulu»)* tayfalar ittifaqına daxil olan digər boyların fərqləndirmə işarələri də türklərin damğayaratma iyearxiyasına uyğun olaraq, onun aparıcı seqmenti – dairə əsasında yaradılmışdır. Məsələn, batbayların - ⊕⊕, albanların *(adbanların)* və suvanların *(suan, suvar)* ♀♀ ♁♉ və s. tayfaların damğaları kimi.[115] Qədim mənbələrdə «dulu», «dulo», bəzən isə «tulu», Çin salnamələrində isə «tu-li» kimi qeyd olunan tayfanın adı türk mənşəlidir və «cəsur», «dəliqanlı» kimi izah olunur. «Koroğlu» dastanında qəhrəmanlara verilən «dəli» ayamasının və Azərbaycan dilindəki «dəli-dolu» ifadəsinin kökündə də həmin semantik yozum dayanır. Azərbaycanın Ağsu, Balakən, Saatlı, Şəmkir və Göygöl bölgələrindəki Dəllər, Tulu, Tullar kəndlərinin adları da dulo etnonimi ilə bağlıdır. Dulo/dulatların etnik mənşəyi dəfələrlə elmi müzakirələrə səbəb olsa da, tanınmış tarixçi-türkoloqlar Nikoloy Aristov və Sarsen Amanjolov onların türk kökənli olmasını sübuta yetirmişlər. Qədim yazılı mənbələrin tədqiqi nəticəsində bu tayfa Qərbi Türk Xaqanlığına *(VI əsr)* daxil olmuş beş boyun ittifaqından yaranmışdır. Tatarıstanda nəşr edilmiş «Bulqar xalqının xəzinəsi» kitabında yazılır: **«Atilla dulo tayfasındandır. Bu tayfanın törəmələri V-VII əsrlərdə Bulqar dövlətinin xanları olmuşlar. Onların arasından Kubrat, Bat-Boyan, Şambat və Asparux kimi hökmdarlar çıxmış, Qara Bulqar, Volqa Bulqar, Dunay Bulqar və Kiyev Rus dövləti kimi güclü türk-slavyan məmləkətlərini qurmuşlar»**[116] Hər şeydən bir pay

113 Abdulkerim Rahman. «Uygur Folkloru», çev. Soner Yalçın-Erkin Emet, Kültür. Bakanlığı Yayınları, Ankara, 1996

114 E.Şimşek. Ölümsüzlük ilâci elma", Turkish Studies International Periodical For the Languages, Literature and History of Turkish or Turkic Volume 3/5 Fall 2008

115 С.Плетнева. «Древние болгары в восточноевропейских степях»// Татарская археология, 1997, №1.

116 «Сокровиша булгарского народа», Вып. 1, Этногенез, История. Культура. Под редакцией академика Ю.Вегунова. Санкт-Питербург, 2007.

uman ermənilər bu dəfə də həmin hökmdarlardan birinin – Şambat xanın guya «hay mənşəli sərkərdə Smbat Bakratuni» olması iddiasındadırlar.[117] Yuxarıda deyilənlərə əsasən, Azərbaycanın bəzi bölgələrindəki, məsələn, Neftçala rayonundakı Beşdəli kəndinin adının mənasını folklor səviyyəsində olan «Behişt əhli» və ya «Beş dəli» yozumunda deyil, türk tayfalarının məskunlaşma tarixi ilə bağlı olaraq «Baş dulo» və yaxud «Baş tele» etnonimlərində axtarmaq daha məqsədəuyğundur.

ABAK, AMA, ANA. Mahmud Kaşğarinin lüğətinə əsasən, «abak» kəlməsi «mühafizə edən», qoruyan anlamını verir.[118] Qədim türklər insan şəkilli nəzərliyə, bütə, uyuğa da «abak» deyirdilər. Bu anlam karayların *(karaimlərin)* ləhcəsində indi də qalmaqdadır. Damğa semantikası üzrə mütəxəssislərin bir çoxu bu işarəni mifoloji «Dünya yaranışı»nın, «Ana və bətnindəki övlad» anlamının qrafik təzahürü kimi yozurlar. Məsələn, Oljas Süleymenova görə, *abak/ama* damğasının ilkin adı «munk» olmuş, müqəddəs canlının *(inək, öküz)* və yeni doğulan körpənin çıxardığı səslərin təqlidindən yaranmışdır. Onun qənaətinə əsasən, «mu» səsi dairəni, dünyanı, mərkəzdəki nöqtəni ifadə edən «nq» isə ana bətnini, həyatın yaranışını, embrionu bildirir.[119] Digər qazax alimi Serikbol Kondıbay bu ideyanı daha da inkişaf etdirərək, həmin damğa təsvirini və səs təqlidini «ilkin qrafik və linqvistik material» adlandırmışdır. Tədqiqatçı sonralar işarənin yeni mifik yozumlarla zənginləşməsi, «abak» şəklində etnonimə transformasiya olunması, dairə-nöqtə birliyinin qazax nəsil-tayfa ittifaqlarını *(juz)* bildirməsi qənaətindədir. Belə ki, qədim türk xalqlarının ortaq mifoloji təsəvvürləri əsasında dairə ana bətnini *(ama, ana)* simvolizə edən mağaranın, «nq» və ya «anq» kimi oxunan nöqtə işarəsi isə dünyaya gələn varlığın təcəssümüdür. Təsadüfi deyildir ki, qazax tayfalarının ilk birliyini yaradan Alaşa xan oğlunun adını «Abak» qoymuşdur.[120] Bu sözün müxtəlif tarixi dövrlərdə sinonim və ya omonim olaraq digər mənaları da vardır. Məsələn, sarmat tayfa birliyinə daxil olan sirakların *(çirak, şirak)* eltəbərlərindən biri «Abeak» və ya «Obak» adını daşıyırdı. Tayfa birliklərini ənənəvi olaraq bu gün də yaşadan qazaxlarda Böyük juza *(ittifaqa)* daxil olan 12 nəsil «abak» adlanır. Qırğızlar arasında da bu adda tayfalar vardır.

117 С. Айвазян. «История России. Армянский след». Москва, 1998.
118 «Divanü Lugat'it-Türk Dizin», TDK, Ankara, 1972.
119 О.Сулейменов. «Язык письма. Взгляд в доисторию–о происхождении письменности и языка малого человечества». Алматы-Рим, 1998.
120 С.Кондыбай. «Казахская мифология. Краткий словарь». Алматы, 2005.

«Amaq» isə eramızdan əvvəl II əsrdə yaşamış sarmat qadın hökmdarlarının da adı olmuşdur. 1727-ci ilə aid «Naxçıvan sancağının müfəssəl dəftəri»ndə *(vergi dəftərində)* İrəvan əyalətinin Dərələyəz nahiyəsində «Amaqu» *(Amaqlu, Amaklı)* kəndi haqqında məlumat vardır.[121] Onun etnik azərbaycanlılardan ibarət əhalisi 1988-ci ildə ermənilər tərəfindən tarixi torpaqlarından qovulmuşdur. V əsrdə yaşamış erməni tarixçisi Favst Buzand Ağrı dağı vadisində «Amok» adlı kəndin mövcudluğunu qeyd etmişdir. Şimali Qafqazda Amaqu-Kor, Dağıstanda «Amoki» kəndi, Gürcüstanda isə Amuqo dağı vardır.[122] Qədim türk dillərində «amak/omak/apaq» sözü «gözəl», «gümrah», «sağlam» anlamını verirdi.[123] Bundan başqa, «abak» sözü həm də «əmi» *(atanın qardaşı)* anlamında da işlədilirdi. Fonetik cəhətdən ona yaxın olan «Abak»/»Appak» kəlməsi omonim olaraq «ağappaq» kimi də yozulurdu. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat yoldaşı, qıpçaq qızı Appağın adının izahını yada salaq. Nikolay Aristov qazax və qırğızlarda «abak» işarəsinin damğa və rəmz kimi daha bir təsvirinin ❁ də yayılmasını bildirmişdir.[124] Bu ornamentə Azərbaycanın tətbiqi sənətində də geniş rast gəlinir.

Türk xalqlarının mifologiyasında «mağara» anlamının digər sakral təyinatı haqqında Rusiya Türkoloqlar Komitəsinin üzvü, arxeoloji tipologiya və arxeoloji türkologiya üzrə tanınmış mütəxəssis İqor Kızlasovun gəldiyi qənaət abak damğasının yuxarıdakı semantik yozumunu müəyyən qədər təsdiqləməkdədir. Altaylardakı qədim yaşayış məskənlərində, xüsusilə kult xarakterli mağaraların içərisində aparılan arxeoloji qazıntılar nəticəsində tapılan xeyli rəmzi *(döyüşə yararsız olan)* metal və sümük ox dəmrələri *(ucluqları)* burada ən qədim nikah mərasimlərinin icra olunduğunu ehtimal etməyə əsas vermişdir. Tədqiqatçı onu da vurğulayır ki, matriarxat dövrünün mifologemi olan müqəddəs mağaralar ananı, ox isə kişi başlanğıcını simvolizə edirdi. Mağara İlahə-Ananın məskəni, qadın bətninin rəmzi sayıldığı üçün evlənmə mərasimində bəy Tanrıdan övlad niyyət edib oraya ox atardı. Məsələn, Alatau ətəklərində, eramızdan əvvəl 2300-2400-cü illərə aid edilən

121 Naxçıvan sancağının müfəssəl dəftəri (27 avqust, 1727). Bakı, 1997.

122 B.Budaqov, Q.Qeybullayev. «Ermənistanda Azərbaycan mənşəli toponomlərin izahlı lüğəti». Bakı, 1998.

123 «Древнетюркский словарь». изд. «Наука», 1969.

124 Н.Аристов. «Опыт выяснения этнического состава киргиз-казаков Большой Орды и кара-киргизов на основании родословных сказаний и сведений о существующих родовых делениях и о родовых тамгах, а также исторических данных и начинающихся антропологических исследований", http://bizdin.kg.

qədim yaşayış məskəni yaxınlığındakı Aydaşı mağarasında aparılmış arxeoloji qazıntılar zamanı döyüş təyinatı olmayan 300-dək rəmzi ox dəmrəsi aşkar olunmuşdur .[125]



Azərbaycan (1) və qırğız (2) xalçaçılıq sənətində və Çinin Sintsyan-Uyğur muxtar rayonundakı Xoca Abax (Abak) türbəsinin divarındakı kaşı üzərində (3) nəzərlik – abak ⊙ rəmzinin variantları;[126] İsmayıllı rayonunun Molla İsaqlı kəndindən tapılmış məhsuldarlıq, ailə ilahəsinin fiquru (Qafqaz Albaniyası, eramızdan əvvəl I əsr - eramızın I əsri). Nəzərlik xarakteri daşıyan və hündürluyu 9 santimetr olan heykəlciyin üzərində (4) əski türklərin abak rəmzi həkk olunmuşdur.[127] Qədim ipək parça üzərində (5)tikmə vasitəsilə azərbaycanlı ustalar ortaq türk damğa işarələrini ☘ (and), ☾ (Günəş-Ay/Ay-ulduz) və ⊙ (abak, ama) təsvir etmişlər.[128] Yakut (saxa) qızlarının gəlinlik baş geyimlərindəki «tuosaxta» adlanan ornament (6) baş ilahinin rəmzi olmaqla, onların ailə səadətini və gələcək övladlarını şər ruhlardan qoruyurdu.[129]

Ərəb səyyahı və diplomatı Əhməd ibn Fədlan *(X əsr)* Volqa boyunda yaşayan türklərin yaşayışını təsvir edərkən bu işarəni ⊙ «iki dünya sahibi olan peyğəmbərlərin və rəsulullahın möhürü» adlandırırdı.[130] Bununla

125 И.Кызласов, «Камень дыроватый (символика пешерных святилищ и культовой стрельбы из лука)». // Этнографическое обозрения, 1999, № 4.

126 «Azərbaycan xalçaları», cild 2, №4, 2012. «Azərbaycan xalçaları», cild 2, №5, 2012. «Azerbaijan Capert», Ministry of Culture and Tourizm of Azerbaijan, Pəncərə ltd.

127 Н.Рзаев. «Искуства Кавказской Албании. IV в.до н. э.VII в. н. э.». Баку, 1976

128 http://photo.azerbaijans.com/tikmeler/tikmeler.html

129 С.Петрова. «Традиционное якутское шитье и вышивка», http://www.olonkho.info /ru /

130 «Путиществие Ибн-Фаддлана на Волгу» /Перевод и комментарии А.Ковалевского/. М.-Л.: Изд. АН СССР, 1939.

belə, abak damğa işarəsinin ⊙ qədim türk oxçuluq sənəti və mifoloji təsəvvürlərlə bağlılığına dair bir məqama diqqət yetirək. **«Amac»** sözü müasir türk dilində «məqsəd» anlamını versə də, qədim dövrlərdə onun ilkin semantik yozumu «oxçuluq hədəfi» olmuşdur. Amacın orta əsr Şərq oxçuluq sənətində və müasir stend atıcılığı idmanında «nişan», «hədəf», «buta/puta» adlandırılan ◎ təsvirə zahiri bənzərliyi bu barədə də müəyyən fərdi mülahizələr söyləməyə əsas verir. Məlumdur ki, Azərbaycan və Anadolu oğuzları el şənliklərində, oxçuluq təlimlərində və yarışlarında oxu məhz «buta» və ya «puta» adlanan hədəfə atırdılar. O da məlumdur ki, islam dininin yayılmasından xeyli əvvəl «buta» kəlməsi oğuz türklərində paralel olaraq «hədəf» anlamında da işlədilirdi. Sonralar bu söz fars mənşəli «nişan», «nişangah» kəlmələri ilə əvəzlənsə də, folklorda, milli adətlərdə ilkin məna yükünü qoruyub saxlaya bilmişdir ***(bax: «Buta»).*** Qeyd olunduğu kimi, türk xalqlarının mifik təsəvvüründə bir-biri ilə əlaqəli buta və ox-yay kultunun dərin kökləri vardır. Tanrıçılıqda yeni doğulan körpəni bəd qüvvələrdən, xəstəliklərdən qorumaq, Humay Ananın himayəsində saxlamaq üçün beşik başında rəmzi yay-ox asardılar. Ox ailədə kişilik, ərlik, igidlik simvolu, yay qadın başlanğıcının rəmzi, buta isə «müqəddəs mağara» anlayışı ilə paralel olaraq ailənin himayəçisi və artımının mənbəyi sayılırdı. Azərbaycan xalqının məhəbbət dastanlarında «buta» anlayışı bir-birini sevən iki gənc arasında xəyali körpü anlayışını, bu izdivaca Yaradan tərəfindən xeyr-dua verilməsini təcəssüm etdirir. «Kitabi-Dədə Qorqud» eposuna əsasən, evlənmək arzusunda olan gənc Tanrıdan xoşbəxtlik diləmək üçün yay çəkib butaya ox göndərərdi. Məsələn, dastanın «Salur Qazanın evinin yağmalanması» boyunda «Oğlum Uruz ox atanda puta qalmış» arxaik ifadəsi Uruzun evlənmədiyinə, niyyət oxunu butaya ata bilməməsinə bir işarədir.

Görünür, eposun daha sonrakı zamanlara aid boylarında hədəf-buta anlayışına sinonim olaraq «nişan» kəlməsi də işlədilmişdir. O da bildirilir ki, oğuz elinin adətinə görə, toy şənliklərində «puta atışı», «nişan atmaq» adlandırılan oxçuluq yarışlarında «putanı» sərrast vuran igidə alqış, oxu hədəfdən yayınana isə qarğış edərdilər. «Bayburanın oğlu Bamsı Beyrək» boyunda qeyd olunur ki: «Oğuz zamanında bir yigit evlənsə, ox atardı. Oxu nə yerdə düşsə, gərdək tikərdi». Dastanın «Qazan bəyin oğlu Uruz bəyin dustaq olunduğu» boyunda da «tale», «qismət» oxunun atılması mərasimi

təsvir edilmişdir: «Otuz doqquz taleli taleyinə birər ox atdı. Otuz doqquz igid oxunun ardınca getdi».[131]

Xocavənd rayonunun Nərgiztəpə qədim yaşayış məntəqəsində (e.ə. III minillik) aşkar olunmuş qab üzərində abak ⊙ və «məskunlaşma» anlamı verən barxan ⋀ damğa işarələri (müəllifin şəxsi kolleksiyasından).

Polşalı alim E.Triyarski bu nişanı qədim türklərin əsas damğalarından biri hesab edir. Türk qrafik rəmzləri içərisində geniş yayılan bu işarə arqun tayfa birləşməsinin, Krım tatarlarının türkmən qolunun və qıpçaqların bayqulu tayfasının damğaları kimi də tanınır. Lakin qədim Xarəzm *(e.ə. IV-II əsrlər),* Baktriya *(e.ə. I əsr)* mədəniyyətlərinə aid arxeoloji materiallar, Krımdakı Ak Kaya *(I-II əsrlər),* Belbek *(IV əsr),* Sablı, Ust-Alma *(I-III əsrlər)* tapıntıları və Şimali Qafqazdakı tarix-memarlıq abidələri üzərində həmin işarəyə və onun müxtəlif variantlarının təsvirlərinə ⊙ ◎ ◎ təsadüf olunmaqdadır. Fəzlullah Rəşidəddin işarəni qədim türklərin «kuran» *(çağatay dilində: «tayfa», «döyüş dəstəsi», «tikili» və s. Sonralar «qərargah» anlamında da işlədilmişdir)* sözü ilə əlaqələndirir. «Keçmişdə çöldə düşərgə salınarkən arabalar dairə şəklində düzülər, başçının arabası isə dairənin içərisindəki nöqtə kimi mərkəzdə olardı».[132]

131 «Kitabi-Dədə Qorqud», əsl və sadələşdirilmiş mətnlər. Bakı: "Öndər", 2004.
132 Ф.Рашидаддин. «Сборник летописей». М.-Л., 1952.

Bayramlarda, toy şənliklərində süfrəyə qoyulan şorqoğalını (Quba qoğalı şirin içliklə doldurulur) xarici görünüşünə görə Günəşin rəmzinə bənzədirlər. Bu bənzətmədə həqiqət payı olsa da, onunilkin olaraq toy şənliklərində abak Yaranışın -Qadın başlanğıcının simvolu ⊙ kimi hazırlanması ehtimalı da diqqətdən qaçmamalıdır.

Bu damğa işarəsinə Azərbaycan ərazisində və Şimali Qafqazda da geniş rast gəlinir. Qafqaz Albaniyasına aid saxsı qablar üzərindəki ⊙ təsviri buraya yürüş etmiş bulqar tayfalarının bir qoluna - arqun tayfasına məxsus olmuşdur. Tatar alimi Şamil Minqazov Bulqar konfederasiyasında aparıcı mövqe tutmuş arqunların *(arqınlar)* Şərqdən Qərbə və Qafqaza miqrasiyası barədə bunları yazır: «Təqribən eramızın 155-ci ilində Syanbi dövlətinə tabe olmaq istəməyən türk tayfaları - hunnular Asiya çöllərindən İdel/İtil *(Volqa)* çayına doğru sıxışdırıldılar. Sonralar bu tayfaları Avropa «hunlar» kimi tanıdı... Türk etnonimlərinin taleyi qeyri-adi mövzudur. Vahid ittifaqa daxil olan ayrı-ayrı xalqlar dominant tayfanın adını götürür, daimi miqrasiya və xalqların parçalanması nəticəsində bəzən bir tayfanın ayrı-ayrı hissələri bir-birindən xeyli aralı olan müxtəlif ittifaqlara qoşulurdular. Məsələn, Baykal gölü yaxınlığında və Şimali Qafqazdakı *(Çeçenistanda)* «Arqun» hidronimi eyni adlı türk tafasının yayılma arealının göstəricilərindəndir».[133] Xristian salnaməçiləri - Suriyalı Mixail *(1126-1199)* və islam aləmində «Əbu ül-Fərəc ben əl-Harun» kimi tanınan Qriqori Bar-Gebrey *(1226-1286)* VI əsrdə yaşamış Efesli İohanın «Kilsə tarixi» əsərinə istinadən, bulqarların Qafqaza və Cənubi Qafqaza miqrasiyasının səbəblərini antik rəvayətlə bağlayırlar.

133 Ш.Мингазов. «О происхождении народа Болгары» // «Татарские новости», № 3-4 (176-177), 2009.

Həmin rəvayətə görə, otuz minlik sak *(skif)* ordusunun başında duran üç qardaşdan biri öz qoşunları ilə Roma imperiyası ərazisində qalır, digərləri isə Qafqazdakı Barsiliyaya *(V-VII əsrlərdə «barsil» və ya «barsula» türk tayfa birləşməsinin ərazisi. Toponim əksər elmi ədəbiyyatda türk mənşəli «Bars eli» və ya «Börü eli» kimi yozulur. «Borçalı» toponimi ilə eyni etimoloji izaha malikdir),* dəniz sahilindəki Kaspi şəhərinə və Turaye qapısına *(Dərbənd keçidinə)* doğru üz tuturlar. Suriyalı Mixail vurğulayır: «Burada *(Barsiliyada)* böyük qardaş Xazarikin adını daşıyan başqa xalq – xəzərlər hakim oldular».[134] Bizans tarixçisi Qeysəriyyəli Prokopi *(təqribən 490-565-ci illər)* isə daha dərinə gedərək, onların «hun», keçmişdə isə «kimerlər» adlandırıldığını bildirir.[135] Qafqaz Albaniyasının etnomədəni həyatında silinməz iz qoyan, burada dominant mədəniyyətin formalaşmasında fəal iştirak edən arqun etnoniminin izahına gəldikdə isə kumık alimi Kamil Əliyevin araşdırmaları, xüsusilə «hun» superetnosu adının yeni etimoloji yozumu olduqca maraqlıdır. Müəllif qeyd edir: «Arqunların ilkin damğası iki dairə şəklində - ◎ olmuşdur. Onlardan biri «ar», «aru» *(təmiz, parlaq),* digəri isə «Günəş/Qun» *(Gün)* anlamlarını verir və bütövlükdə «parlaq Günəş», «Günəşə tapınanların tayfası» şəklində oxunur. Prototürk dilində «aru», «aruq» kəlmələri «Günəş», «təmiz» mənasında işlənirdi. Qazaxlarda «arı gün» *(aydın gün)* deyimi bu gün də qorunub saxlanılmışdır».[136] Azərbaycan dilindəki «aydan arı, sudan duru» ideomatik ifadəsi, «arıtlamaq» *(təmizləmək)* sözü də bu fikri təsdiqləyir.

♀♂ **ALBAN *(ATBAN).*** Solyar rəmz kimi Tenri xanı *(Günəşi)* simvolizə edən, maraqlı tarixçəyə malik olan və genezisi hələ də mübahisələr doğuran damğa işarələrindəndir. Hazırda Altay və Mərkəzi Asiyadakı türk xalqlarının damğa təsnifatında «alban», «alban-suan» adlanan bu rəmz Krım və Şimali Qafqazın qıpçaq mənşəli tayfalarında zahiri bənzərliyinə görə «sırğa», «çömçə» kimi tanınır. Qeyd edildiyi kimi, Hun imperiyasının hökmdarı Atillanın mənsub olduğu dulo *(dulu, dulat)* tayfalar ittifaqına daxil olan bəzi boyların, Qazaxıstandakı alban, Altaylardakı todoş, Krımdakı manqıt

134 М.Артомонов. «История хазар», 2-е издание, СПб, ГУ, 2002.
135 Прокопий Кесарийский. «Война с готами. О постройках».М.: «Аркос», 1996.
136 К.Алиев. «Тамга-знаки Дагестана. По материалам кумыков и их предков».// КНКО: Вести. Махачкала, № 8-10, 2003.

tayfasının və ondan törəmə kirkız, kyirk nəsillərinin rəmzi olan bu işarəyə[137] XVII əsrdə oğuz nişanları arasında da rast gəlinir. Əbülqazi Bahadur xan Xivəlinin «Şəcəreyi-Tərakimə» əsərindəki təsnifatında ♀ damğası bayat boyunun fərqləndirmə işarəsi kimi göstərilmişdir.

Qazax və qırğız tarixçi-etnoqraflarının damğa tənifatlarında bu rəmz həm albanların, həm də onların bir qolu olan suanların *(suvarların)* fərqləndirmə nişanı kimi göstərilməkdədir. Bununla belə, onların yaranmasını xronoloji ardıcıllıqla izləsək, ○ işarəsinin həm Cənubi Qafqazda, həm də Mərkəzi Asiyada ilkin nümunə olduğunu, ♀ və ♁ nişanlarının dairə - Tenqri/Günəş rəmzi əsasında meydana gəldiyini görərik. Bundan başqa, Hun imperiyasında hakim tayfa statusuna malik dulonun formalaşdırdığı hərbi-siyasi ittifaqda albanların damğa təsvirlərində ♀ ♀ işarələri üstünlük təşkil edirdi. Lakin zaman keçdikcə, görünür, Hun imperiyasının süqutundan sonra alban-suvarların yeni tayfa birlikləri yaratması və Mərkəzi Asiyaya köç etməsi nəticəsində dulo damğasının dominantlığı arxa plana keçmiş, «sırğa» işarəsi ənənəvi Qoç-Günəş anlamı verən rəmz ilə ♁ əvəz olunmuşdur. Daha sonralar Qoç-Günəş işarəsi Qazaxıstanda yaşayan dulatların da damğasına çevrilmişdir. A.Roqojinski Qazaxıstan Respublikası Mərkəzi Dövlət Arxivində saxlanılan XIX əsrə aid sənədlərdə alban, suan, dulat tayfalarının və onlardan törəmə nəsillərin damğa təsvirlərini aşkar etmişdir. Bu materiallara əsasən, hələ 100-200 il bundan əvvəl də Baş Jüzdə – qazaxların ən böyük tayfa birliyində albanlar üstün statuslarını qoruyub-saxlamış, adı çəkilən digər tayfalar isə onların tabeliyinə keçərək damğa işarələri əsasında öz rəmz variantlarını ♁ ♀ ♁ ♀ ☿ ♀ ♁ yaratmışlar.[138]

Ortaq damğa təsnifatlarında bənzərliyinə görə «sırğa» kimi tanınan ♀ işarəsinin ilkin semantikası məlum olmasa da, təkcə Mərkəzi Asiyada deyil, Azərbaycanda, Anadoluda, Qafqazda tarixən geniş yayılmış ♁ nişanı «Qoç-Günəş» adı altında tanınmaqdadır. Altaylarda yaşayan todoş xalqının folkloruna əsasən, ♀ damğasının «sirke» *(sırğa)* adlandırılmasına səbəb onun yazın gəlişi və torpağın qış yuxusundan oyanışı ilə bağlı olmasıdır. Bu baxımdan, işarə «yeniləşmək», «canlanmaq» və «birlik yaratmaq» kimi yozulur. Əfsanəyə görə, «Dilkayak» adlanan yaz bayramından sonra torpaq silkənərək oyanır, canlanır, soyuq qış aylarında qapanmış qulaqları yenidən açılır. Bu zaman müqəddəs torpaq insanların arzularını və niyyətlərini

137 О.Акчокраклы. «Татарские тамги в Крыму», http://crimeantatars.com

138 А.Рогожинский. «Роль номадов в формировании культурного наследия Казахыстана». Алматы, 2010.

dinləyir, bol məhsul, yaşıl otlaqlar bəxş edir, onların əcdadlar məkanı, ruhlar dünyası ilə əlaqələndiricisinə çevrilir. Qam-şaman ayinlərində bu mərasim «Dyerdin kulaqı açılıp dyat» *(Yerin qulağının açılması)* kimi tanınır.[139]

Qeyd olunduğu kimi, Alban damğası ♁ Tenqri - Günəşi təcəssüm etdirən dairənin ○ və müqəddəs qoç başı süluetini ♈ xatırladan «qoşqar» *(qoçqar, koçkar, kaçkar, koçxar)* rəmzinin birləşməsindən yaranmışdır. Türklərin tarixən məskunlaşdıqları ərazilərdə bu damğanın yay, ox təsvirlərinə və digər qoç buynuzu formaları əsasında yaradılmış tiplərinə də ♁♁♁♁♁♁ rast gəlinir. Bəzi damğa nişanlarında isə qoç rəmzi Tenqri xan-Günəş məna birliyinin əlaməti kimi dairənin içərisinə həkk edilmişdir. Belə damğalara ⊕⊕ Azərbaycan xalça ornamentlərində və qədim Midiya dövlətinə, Qafqaz Albaniyasına aid maddi-mədəniyyət nümunələrinin üzərində də təsadüf olunur. Bundan başqa, qədim türk damğaları arasında eyni ilahi anlamı verən, lakin Ay motivi ☾ əsasında yaradılan damğa işarələrinə də ♁♁♁♁♁ geniş rast gəlinir.

Tarixi materiallara əsasən, Çingiz xanın damğa işarələri də ♀ və ya ♀ rəmzləri olmuşdur. Bu rəmz damğa təsnifatlarında «alban» və ya «adban» adlanır. Çingizilər sülaləsinin digər nümayəndələrindən Cuci xan, Batı xan, Berke xan, Mengi Tumur, Taqabuğa damğa təsnifatlarında «türk işarələri» kimi təqdim olunan tanınma nişanlarından ♀♀♀♀♀♀ istifadə etmişlər.[140] Moqolşünas alim, akademik Boris Vladimirov «alban» sözünün monqol mənşəli olduğunu və «xidmət edən» anlamında işlənildiyini iddia edir. Halbuki, Cənubi Qafqazda «alban», «ağvan» toponimi və ya etnonimi «monqol-tatar» yürüşlərindən min il əvvəl formalaşmış və yayılmışdır. V.Vostrov və M.Mukanov «Qazaxların nəsil-tayfa tərkibi və onların məskunlaşdığı ərazilər» kitabında alban və suan tayfalarının eyni kökə malik olmasını bildirir və öz qənaətlərini onların ortaq damğa işarələri daşımaları ilə təsdiqləyirlər. Belə ki, XIX əsrə aid olan materiallara əsasən, həmin dövrdə Mərkəzi Asiya albanlarının *(bəzən «atban», «albandar» da adlanırdılar)* seqqiz sarı, alcan, aytbozim, ağqıstıq, qaraqıstıq, qıstıq, kurman, qonurbörük, qızılbörük, suanların isə saqarstan, baytügey, baqız, cesegir nəsillərinin eyni və ya oxşar damğalardan istifadə etdikləri müəyyən edilmişdir. [141] Yeri gəlmişkən,

139 Е.Ямаева. «Родовые тамги Алтайских тюрок», Горно-Алтайск, 2004.

140 П.Петров, Я.Студитский, П.Сердюков. «Проводилась ли Токтой общегосударственная реформа 710 г.х. Кубанский клад времени Узбек хана», Труды международных нумизматических конференций. Монеты и денежное обращение в монгольских государствах XIII-XV веков. I МНК - Саратов 2001 и II МНК – Муром 2003.

141 В.Востров, М.Муканов. «Родоплеменной состав и расселение казахов». Алма-Ата, 1968.

qırğızların jolboldı, kangeldi, çıbil, özbəklərin kataqan, sakay, qaraqalpaqların kalqman nəsilləri də özlərini alban tayfasının nümayəndələri hesab edirlər. Bəzi elmi qənaətlərə görə, Mərkəzi Asiyada məskunlaşmış albanlar qaraqalpaq xalqının etnogenezinin formalaşmasında fəal iştirak etmişlər.[142] Onu da əlavə edək ki, qaraqalpaq dilinin kumık, noqay, balkar dilləri ilə qohumluğu onun Qafqaz regionu, qaraların *(karaimlərin),* Krım tatarlarının dilləri ilə bənzərliyi isə dolayı yolla da olsa, Azərbaycan dilinə yaxınlığını təsdiqləyir.



1.Azərbaycan xalçaçılıq sənətində bərabərtərəfli Tenqri açalarından ibarət buta ornamenti. Ornamentin daxilində damğa işarələri - ᚸᛟᚢᛟ təsvir olunmuşdur. 2.Buta içərisində «qoç buynuzu» damğası və uc hissədə hunların səkkizguşəli Tenqri açası. 3-4. Xalçalarda Günəş-Qoç damğasının stilizə olunmuş variantları[143]

Rusiya ərazisində – türk xalqlarının tarixən yaşadıqları regionlarda məzar daşları, qədim tikililər, bəzək ornamentləri arasında geniş yayılmış bu rəmzə xristian ilahiyyatçıları da iddialıdırlar. Onların yozumuna görə, iki komponentdən ibarət bu işarələrdəki ⊕ ⊕ dairə O Yer planetini, bərabərtərəfli xaç + isə xristian dinini təcəssüm edir. Bütövlükdə isə həmin rəmzi «Zühur etdikdən sonra İsa Məsihin Yer üzünün mütləq hökmdarı olacağı» kimi mənalandırırlar. Radikal xristian mistikləri isə onu xristianlığın digər dinlər üzərində tam qələbəsindən sonra dünyanı bürüyəcək Məsih nurun işarəsi kimi yozurlar.[144] Əlbəttə, tolerant mövqeyində dayanıb kilsə xadimlərinin və xristian simvoloqlarının bu iddiasına göz yummaq, üstünü vurmamaq da olardı. Lakin «kiçicik» bir fakt, tarixi bir

142 А.Галиев. «Иран-наме», 3 (7) 2008

143 «Azərbaycan xalçaları», cild 2, №4, 2012. «Azərbaycan xalçaları», cild 2, №5, 2012. «Azerbaijan Capert», Ministry of Culture and Tourizm of Azerbaijan, Pəncərə ltd.

144 И.Смирноваş. «Тайная история креста. Все о древнем мистическом символе человечества». Москва: «GKSMO» 2006.

detal onların niyyətlərini tamamilə alt-üst edir. Yəqin, unudublar ki, ilkin orta əsrlərdə Yerin kürə şəklində olması hələ məlum deyildi. Orta əsrlərdə bu gerçəkliyi sübut edən alimlər isə məhz kilsənin təqiblərinə, inkvizisiyanın amansız işkəncələrinə məruz qalırdılar. Üstəlik, rəsmi Vatikan yalnız 1992-ci ildə dünya katoliklərinin rəhbəri Papa II Yohanın simasında Yerin kürə şəklində olduğunu etiraf etmiş, heliosentrik nəzəriyyənin banilərindən olan Nikolay Kopernik və Halileo Halileyə qarşı məhkəmələrdə kilsəni təqsirkar bilərək üzr istəmiş və az qala dörd əsr sonra onlara bəraət qazandırmışdır.

XVII-XVIII əsrin əvvəllərinə aid Azərbaycan xəncərinin (Muğan bölgəsi) tiyəsi üzərində «alban» damğası işarəsi (müəllifin şəxsi kolleksiyasından).

İndi isə albanlar və suvarlar haqqında. Bəzən «albandar», «atban» kimi də tanınan albanlar özbəklərin, qaraqalpaqların, qazax və qırğızların etnogenezinin formalaşmasında fəal iştirak etmiş türk tayfalarındandırlar.[145] Çokan Vəlixanov yazırdı ki, albanlar iki qanada – sarı və çibil tayfalarına bölünmüş və qızılbörik *(qırmızı papaqlı /qızılbaş),* konurbörik *(qonur papaqlı),* aytbozim, seqiz sarı *(səkkiz sarı),* kurman, aljan, kıstık kimi iri nəsillərdən ibarət olmuşlar.[146] 1911-ci il əhalinin siyahıya alınmasına görə, Qazaxıstanın Semireçensk vilayətində albanların ümumi sayı təqribən 81,1 nəfərə, o cümlədən Carkent qəzasında 65,5 min nəfərə, Vernensk qəzasında

145 А.Галиев. «Иран-наме», 3 (7), 2008.
146 Ч.Валиханов. «О киргиз-кайсакской Большой орде», Собрание сочинений в 5 т. А, 1985.

15,5 min nəfərə çatırdı.[147] Rusiyalı alim N.İzraztsov 1897-ci ildə qələmə aldığı «Semireçensk vilayətində qırğızların adətləri» əsərində bildirirdi ki, buradakı albanların əksəriyyəti eyni damğa işarəsinə ♀ malikdirlər. Yalnız iyirmi ailədən ibarət alacan nəslinin öz damğası ♂ vardır.[148]

«Alban» sözünün etimologiyasına gəldikdə isə qeyd edilməlidir ki, bu söz birmənalı şəkildə türk mənşəlidir və bu gün də xakas dilində «bac verən», «xərac verən» anlamında işlədilir.[149] Alban etnosunun adı ilk dəfə eramızdan əvvəl 331-ci ildə Əhəməni dövləti və Makedoniyalı İskəndər arasında baş vermiş Qavqamel döyüşü ilə əlaqədar çəkilmişdir. II əsrdə yaşamış tarixçi Arrian Əhəməni ordusunun tərkibində albanların da olmasını qeyd etmişdir. Alban və suvar tayfalarının eyni etnik qrupa aid olmalarını onların ortaq damğa işarələrindən istifadə etmələri də təsdiqləyir. Oljas Süleymenov Qazaxıstanda «Şərqdən gəlmələr» sayılan albanları və suvarları sonralar iki yerə bölünmüş vahid tayfanın nümayəndələri sayaraq, onları Qafqaz Albaniyasından köç etmiş «Alban suvarları» və ya «alban-suanlar» *(alban-suvarlar)* kimi təqdim etməyi daha doğru hesab edir. Mərkəzi Asiyada həm albanlara, həm də suan/suvarlara aid damğaların eyniliyi bu ehtimalı təsdiqləməkdədir. Mahmud Kaşğari *(XI əsr)* suvarların türk dilində danışdığını və Rum elinədək yayıldığını bildirmişdir. Rusiyalı alim D.Yeremeyev isə yazır: **«V-VI əsrlərdə Kiçik Asiyada və Qafqazda baş vermiş bir sıra hadisələr savirlərin *(suvar, subar, sibir)* adı ilə bağlıdır. VII əsrdə yaşamış Bizans tarixçisi Feofilakt Simokatta onları Şimali Qafqazdakı hun tayfalarına aid edirdi. Eramızın 568-ci ilində avar tayfaları suvarları məğlubiyyətə uğratdıqdan sonra onların əsas kütləsi Qafqaz Albaniyasına *(Azərbaycana)* köç etmişdi. Digər Bizans tarixçisi Menandr Protektorun *(VI əsr)* məlumatına görə, Xosrov Ənuşirəvan suvarların böyük hissəsini məhv etmiş, qalan 10 min nəfər isə Araz və Kür çayları arasındakı ərazidə məskunlaşmışlar»**.[150] Nəhayət, Oljas Süleymenov təqribən 1500 il əvvəl baş vermiş həmin hadisə ətrafında araşdırmalar apararaq aşağıdakı qənaətə gəlmişdir: «**Çox güman ki, Xosrovun törətdiyi qırğından sonra suvarların bir hissəsi Albaniyadan *(Qafqaz Albaniyasından)* Mərkəzi Asiyaya gəlmiş və qazax xalqının**

147 В.Востров, М.Муканов. «Родоплеменной состав и расселение казахов (конец XIX, начало XX вв.). Алма-Ата, 1968.
148 А.Рогожинский. «Роль номадов в формировании культурного наследия Казахыстана». Алматы, 2010.
149 В.Бутанаев. «Русско-хакасский словарь». Астана, 2011.
150 В.Еремеев. «Этногенез турок». Москва, 1970.

tərkibinə qatılmışdır. Qazaxlar onlara yad olan termini *(etnonimi)* «suan» və «suvan» kimi qəbul etmişlər. Beləliklə, Alatau dağının ətəklərində Alban-suan *(yəni «Alban suvarları»)* tayfası məskunlaşmışdır».[151] Yeri gəlmişkən, İbn Fədlan da səyahətnaməsinin Məşhəd nüsxəsində suvarları «suan» adlandırmışdır və bu, orfoqrafik səhv deyildir.

YAY-OX. Bu damğa işarəsi də qədim türklərin mifoloji təsəvvürləri, mülkiyyət hüquqları, səlahiyyət bölgüləri və hərb sənətindən savayı, həm də onların dövlətçilik tarixi və ənənələri ilə də sıx şəkildə bağlıdır. Görkəmli rus arxeoloqu və şərqşünası, Mərkəzi Asiya xalqlarının tarixi üzrə mütəxəssis, professor Nikolay Veselovskinin fikrincə, türk xalqlarında iynə, ox, bıçaq, balta, qılınc, nizə kimi iti uclu əşyalar, hətta tikanlı bitkilər də şər qüvvələri vahiməyə salan mistik vasitələr hesab edilirdi. Lakin zaman keçdikcə onların, o cümlədən yay-oxun daşıdığı mifik mahiyyətə yeni praktiki çalarlar əlavə olunmuşdur. Məsələn, yay hökmdarın rəmzinə, ox isə *(xüsusilə qızıl və ya gümüş dəmrəli oxlar)* onun vassallarının, elçilərinin səlahiyyət göstəricisinə, eyni zamanda birgə savaşa çağıran dəvət «məktubuna» çevrilmişdir.[152] Oxçuluq qədim türklərin təkcə hərb sənətilə deyil, onların mənəviyyatı, yaşam tərzi ilə sıx şəkildə ədaqəli olmuşdur. Təsadüfi deyildir ki, Məhəmməd peyğəmbərin oxçuluğa dair hədislərindən biri *(«Övladlarınıza Quran oxumağı, ox atmağı və üzməyi öyrədin»)* tarixi Azərbaycan ərazisində oğuzların zərb-məsəlinə çevrilmişdir:

Oq *(ox)* atmaq, yazu yazmaq, suda üzmək
Gərəkdir bu üçü hər şəxsə düzmək.[153]

Əslində, yay və oxun ayrı-ayrı silahlar kimi təqdim edilməsi qüsurludur. Onlar vahid silah dəstinin ayrılmaz hissələridir. Təbii ki, «yay çəkmək» dedikdə ox, «ox atmaq» ifadəsini işlətdikdə isə yay da nəzərdə tutulur. Azərbaycan dilində qədim ənənəyə uyğun olaraq, bu silah dəstinə «ox-yay» və ya «yay-ox» deyilir. Eramızın əvvəllərindən etibarən, türk dillərində «döyüş və müdafiə

151 О.Сулейменов. «АЗ и Я: Книга благонамеренного читателья». «Грифон М», 2005.
152 Н. Веселовский. «Роль стрелы в обрядах и ее символическое значение» // Зап. Восточного отделения Русского археологического общества. Т. XXV. Вып. 1-4. Пг., 1921.
153 «Oğuznamə» (Əmsali-Məhəmmədəli). Bakı: «Yazıçı», 1987.

vasitələri kompleksi» anlamında işlədilən qədim «yaraq» və ya «yar-yaraq» *(Mərkəzi Asiya xalqlarında «bar-jarak», «joo-jaraq» və s.)* sözləri öz kökünü «yay» və «ox» kəlmələrinin tandemindən götürmüşdür. Bu baxımdan, **«yay-ox»** kəlməsi qədim atıcı silahın tam adıdır və digər türk dillərində – Altay xalqlarında **«saak», «saok»** *(yay+ox)*, qazax və başqırdlarda - **«zaq»** və ya **«jaq»,** özbəklərdə **«oq-yoy»,** qaraqalpaqlarda **«oq-zay»**, uyğurlarda **«oqiya»** *(ox+yay)*, xakaslarda **«oksa», «iksa»** və s. şəklində işlədilir.

«Yay» sözünün etimoloji yozumunda ortaq qənaət yoxdur. Rusiya alimi Tanem Loseva-Baxtiyarova belə ehtimal edir ki, bu kəlmə «getmək», «yaxınlaşmaq» anlamı verən «yay» felindən törəmişdir.[154] N.Poppe isə «ja» *(yay)* sözünün etimologiyasını tunqus-mancur dillərindəki «nay» *(paya, nizə sapı)* kəlməsi ilə bağlayır. Güman ki, silahın adı onun ağac gövdəsinin fiziki xüsusiyyətindən - elastikliyindən *(yay kimi dartınmaq, əyilmək)* götürülmüşdür. Bir sıra türk dillərinin VII-XIII əsrlərə aid leksikasında «yay» sözü həm də «dağıtmaq», «yaymaq», «əsmək», «titrəmək», «silkələmək» mənalarında *(Azərbaycan dilindəki «yayğın» kəlməsi)* da işlədilib.[155]

Yay-ox vasitəsilə hakimiyyət bölgüsündə statusun müəyyənləşdirilməsi oğuzların damğa işarələrində, mif və rəvayətlərində geniş əks olunmuşdur. Məsələn, oğuz konfederasiyasına daxil olan 24 boy *(tayfa birləşmələri)* arasındakı səlahiyyət bölgüsü həm də onların damğalarındakı yay və oxun qrafik təsvirlərinə görə müəyyən edilirdi. Məsələn, Mahmud Kaşğarinin *(«Divani- lüğət-it Türk»),* Fəzlullah Rəşidəddinin *(«Cami ət-Təvarix»)* və Əli Yazıçıoğlunun *(«Tarixi ül-Səlcuq»)* təsnifatlarında bəzi oğuz boylarının damğa işarələrində yay və ox tiplərinin təsvirlərinə də rast gəlinir: bayat - ; bəydili - *(yandırıcı oxlar üçün haça dəmrəli ucluq, düşmən atlarının yaralanması üçün də istifadə edilir)*; ürəgir - *(bozox və üçox boylarının birliyi);* kınık - *(bədəndə ilişib qalan qarmaqlı ox dəmrəsi)*; Eymür - *(bu işarə Azərbaycanda, Türkiyədə, Gürcüstanda və İranda yaşayan qarapapaqlar tayfasının da damğası olmuşdur)* və s. Türk xalqlarının epik yaradıcılığında, o cümlədən «Kitabi-Dədə Qorqud» dastanlarında da yay hakimiyyəti, ox isə and yerini, pozulan anda görə Tanrının göndərəcəyi

154 *Т.Лосева-Бахтийарова. «Военная лексика тюркских языков»,* http://cheloveknauka.com/voenna-ya-leksika-tyurkskih-yazykov

155 «Древнетюркский словарь». Изд. «Наука», 1969

cəzanı simvolizə edirdi. Bu ənənə dastandakı «Öz oxuma sancılım!» ifadəsində qalmışdır. Qədim türk runlarındakı ox təsvirli bəzi işarələrin *(məsələn:* ⇧*)* şumer mixi yazıları əsasında yaranması fikrini irəli sürən türkiyəli alim A.Əmrə bu əlifba varisliyini Göytürk əlifbasındakı ↑↓ *(oq/ox)* ideoqrafik təsvirin genezisində görür.[156] Bundan başqa, ↓ işarəsi etrusk əlifbasında da eyni səsi və mənanı daşıyırdı. Həmin rəmz ilkin olaraq şumer panteonunda «ilahilər atası» adlandırılan, eramızdan əvvəl III minilliyə kimi «dini hakimiyyətini» qoruyub-saxlayan **An** və ya **Anu** *(Göy)* ilə Yer ilahisi **Ki** arasında birliyi, eyni zamanda, Anın qüdrətli silahını - yay-oxunu simvolizə edirdi. Yeri gəlmişkən, bir çox xalqların inanclarında yay-ox sakral xarakter daşımaqla yanaşı, ilahilərin *(İştar, Humay, Erlik, Tenqri, Artemida, Diana, Erot, Orion, Kali, Del, Odin, Skadi və s.)* atributlarına, hərb, ədalət, qisas, nəsil, tayfa, nikah və sevgi rəmzlərinə çevrilmişdir. Qədim türk mifologiyasına əsasən, insanlara ilk dəfə yay-ox düzəltməyi, ov etməyi Tenqri öyrətmişdir. Görkəmli Azərbaycan alimi, akademik Mirəli Seyidov bu fetişizmin səbəblərini belə açıqlayırdı: «**Əski, lap əski insanın yaşayışında, ölüm-dirim məsələsində ovun, oxun, yayın, dəmirin xüsusi rolu olmuşdur. Məhz buna görə əcdadlarla bağlı olan nəhənglər, totemlər, ilahilər ox və yayla təsvir edilirlər. Buna görə də bir çox xalqların əcdadlarında ov, yay, ox kultu vardı. Biz bunun əlamətlərinə Oğuznamələrdə rast gəlirik. Yay-ox hakimiyyət, həm də ailə qurmaq, müstəqil ev-ocaq sahibi olmaq üçün bir rəmzdir. Əfsanədən göründüyü kimi, Oğuz xaqan oğlanlarını yay çəkib ox atdıqdan sonra ev-eşik sahibi edir. Həmin adət bəzi türk qəbilələrinin, tayfa birləşmələrinin adlarının yaranma səbəblərini aydınlaşdırır**».[157]

Əski türklərdə yay-oxun daşıdığı rəmzi xarakterə dair xeyli misallar çəkmək olar. Eramızın 610-cu ilində Tan sülaləsindən olan imperator Qərbi Türk dövlətinin xaqanı Çulo xan Tamanı devirmək, onu Şequy xanla əvəz etmək niyyətinə düşür. Bu məqsədlə ağ yeləkli ox hazırlatdırıb səfir vasitəsilə Şequy xana göndərir. İmperatorun məqsədindən duyuq düşən Çulo xan səfiri yarı yolda haqlayıb həmin oxu ələ keçirir. Lakin imperator elçisi ozünü Şequy xana çatdıraraq vəziyyəti ona danışır. Oxa sahib olmaq uğrunda başlanan

156 A.Emre. «Eski türk yazisinin menşegi». İstanbul, 1938.
157 M.Seyidov. «Azərbaycan mifik təfəkkürünün qaynaqları». Bakı, 1983.

müharibədə Çulo xan məğlub olur. Şequy xan isə ağ yeləkli oxa yiyələnərək xaqan taxtında əyləşir.[158]

Sibir hökmdarı Kuçum xan Yermakın yürüşünə qarşı qoşun toplamaq üçün təbəələrinə qızıl oxlar göndərmişdi. Əski türklərin bu ənənəsindən vaxtılə Çin imperatorları da yararlanmışlar. Salnamələrə görə, Sultan Mahmud Qəznəvi *(971-1030)* samanilərlə apardığı müharibədə Mərkəzi Asiyadakı oğuz tayfalarının hərbi yardımı sayəsində qələbə qazansa da, onların əzmindən, döyüş məharətindən xeyli çəkinirdi. Xüsusilə, oğuzların başçısını – kınık boyundan olan *(F.Rəşidəddinə görə, damğa işarəsi -* ↑*)* və «mərd, döyüşkən, ildırım sürəti ilə düşməni məğlub edən sərkərdə» adlandırdığı Arslan Yabqunu *(yabqu və ya bayqu - ali hökmdar titulu)* Qəznəvilər xanədanı üçün başlıca təhlükə hesab edirdi. Odur ki, oğuz tayfaları arasında böyük nüfuza malik sülalənin nümayəndəsini, «Temir-yalıq» *(Dəmir yaylı)* ləqəbi ilə tanınan Dukakın nəslindən olan sübaşı *(komandan, «sü» əski türk dilində «qoşun» deməkdir)* Səlcuq bəyin nəvəsini - Arslan bəyi təkləyib aradan götürməklə tayfa birliyini pozmaq məqsədilə 1025-ci ildə onu Səmərqəndə, ziyafətə dəvət edir. Zahirəddin Nişapurinin salnaməsində, Nasir ibn Əli əl-Hüseyninin «Ahbarüd dövləti-Səlcuqiyyə», Əbu Faiz Beyhakinin «Tarixi-Beyhaki» əsərində həmin ziyafətdə baş vermiş hadisələr barədə yazılır ki, Sultan Mahmud üzünü Arslan Yabquya tutaraq savaş zamanı ehtiyac olarsa, ona neçə döyüşçü göndərə biləcəyini soruşur. Sadəlövh oğuz sərkərdəsi qürurla üstündəki yay və üç oxu oğuz tayfalarına yollayarsa, 440 min döyüşçünün köməyə gələcəyini deyir. Bunları eşidən Sultan Mahmud «üç ox və bir yayla bu qədər ordu yığa bilən kəs taxt-tacıma təhlükədir» deyib, Arslan Yabqunu və oğlu Qutlamışı həbs etdirərək Hindistandakı Kalincar qalasına göndərir. Sonra isə oğuz oxçuları yay çəkə bilməsinlər deyə onların sağ əlinin baş barmağının kəsilməsi barədə fərman verir.

Yay-ox mifologemi türk təsəvvüf fəlsəfəsində də iz qoymuşdur. Sufi rəmzləri arasında qurulu yay tam halında islam dinini, onun iki qolu Allah-Təalanı və Məhəmməd peyğəmbəri *(s.ə.s.)*, hər iki hissəni özündə möhkəm birləşdirən qəbzə isə bu vəhdətdən yaranan imanı simvolizə edirdi. Orta əsr irfan poeziyasında yay Allahın adlarından birinin *(Səbr)* təcəssümü, ox *(tir)* isə «kamil insan» anlamını verən «İtaət» anlayışlarının daşıyıcısı olmuşdur.

158 Н.Бичурин. «Собрание сведеней о народах, обитавщих в Средней Азии в древние времена», Ч.1, М.; Л., 1950.

İmadəddin Nəsimi bu ideyanı qədim türklərin yay-ox mifologemi ilə zənginləşdirərək kamil insanın daxili dünyasında Allah və bəndənin, hökmdar və vassalın, Səbr və İtaətin vəhdətini belə ifadə edirdi:

Tir *(ox)* mənəm, **Kaman** mənəm, pir mənəm, cavan mənəm,
Dövlət-i Cavidan *(Əbədiyyət)* mənəm, ayinedanə sığmazam.

Dünya hərb tarixində mahir atıcılar, xüsusilə «atlı oxçular» kimi şərəfli iz qoymuş türk tayfa və tayfa birləşmələrinin, qədim dövlətlərinin bəzilərinin – «*on ok budun» (on ox xalqı), «on ok eli» (on ox eli/dövləti)*, «oğuz», «türkeş» *(tirkeş),* «sak» kimi etnonimlərin yozumunda da yay-oxun rəmzi mənası özünü qabarıq büruzə verir. Məsələn, bir sıra türkoloqlar, o cümlədən tanınmış macar alimi G.Emez «oğuz» etnoniminin «ox/ok/oq» sözündən və «uz» cəm şəkilçisindən yarandığını, bütövlükdə «oxçular» anlamı verdiyini bildirir. Türkiyəli tədqiqatçı A.Kaya «Əfşar türkmənləri» əsərində bu izahı dəstəkləyərək, qədim dövrlərdə «oğuz» və «oxçular» kəlmələrinin eyni mənalı olduğunu, sonralar təhrif edildiyini, lakin oğuz boylarının əcdadı sayılan Oğuz xanın adı ilə ilkin anlamına qayıtdığını vurğulayır. Yeri gəlmişkən, Qızıl Orda dövlətinin hərb sənətində kəşfiyyat və diversiya *(akınçılıq)* xarakterli əməliyyatları yerinə yetirən elitar oxçu dəstələr də «oğuz» adlandırılırdı. Onu da xatırladaq ki, «ox» kəlməsi qədim türklərdə həm də «boy», «nəsil» anlamlarında işlədilirdi. Tarixi mənbələrə əsasən, təqribən 630-cu ildə Qərbi Göytürk dövlətində baş qaldırmış qarışıqlıqlar nəticəsində türk boyları parçalanmış və yenidən öz aralarında on qrup halında təşkilatlanmışlar. Həmin qrupların hər birinə «ok/ox» adı verilmişdir. Türkiyəli professor Umay Türkeş-Günay bu barədə yazır: «On oxların bir hissəsi «türgiş», «türkiş» və ya «türkeş» adı altında hərbi-siyasi mübarizədə önə çıxaraq, geniş bir ərazidə hakim olmuşlar. Türkişlər 766-cı ildə İli çayı sahillərindəki yurdlarını tərk edərək şimala və qərbə köç etmiş, Sır-Dərya *(Seyhun)* çayı ətrafındakı ərazilərdə məskunlaşmışlar. Məhz bu dönəmdə «türgit» etnonimi qəflətən qeyb olmuş və onun yerinə «oğuz» kəlməsi işlənməyə başlanmışdır».[159] Oljas Süleymenovun araşdırmalarına əsasən, şumer mənşəli olan «tir», «til» və ya «ti» sözü eyni vaxtda «ox» və «həyat» *(türk dillərində «diri» və ya «tiri»)* bildirirdi.

159 U.Türkeş-Günay. «Türklerin Tarihi. Keçmişden geleceğe». Aksağ Uayınları, Ankara, 2006.

Qədim şumer əlfbasında həmin kəlmə işarəsi ilə *(həyat - yay və oxun birliyi)* ifadə olunurdu. Bu təsviri tərsinə çevirdikdə isə «sadak» *(oxdan, ox çantası)* anlamını verirdi. [160] Diqqət yetirdikdə şumer işarələri ilə eyni mənalı və iki seqmentli *(yay-ox)* türk damğalarının semantik izahında  oxşar cəhətlər müşahidə olunmaqdadır. Bütün bunlar daha qədim olan «sak/saka» etnoniminin yozumunu yenidən nəzərdən keçirməyə, onun türk dillərindəki «yay-ox» sözündən yaranması barədə ehtimal irəli sürməyə əsas verir. Bu ehtimalı gerçəkliyə yaxınlaşdıran amillərdən biri sakalardan, onların savaş sənətindən bəhs edən antik müəlliflərin öz əsərlərində «sak» kəlməsinin «iranlıların» dilində «oxatanlar» mənasını verməsini qeyd etmələri, digəri isə bəzi Altay və Mərkəzi Asiya türklərində, o cümlədən saxa dilində «yay-ox» silahının «sa-oq» və ya «saa-ok» kimi adlandırılmasıdır. Yeri gəlmişkən, antik mənbələrdə oxun qədim sak/skiflərdə «siyasi əhəmiyyətinə» dair də xeyli məlumat vardır. Məsələn, Herodotun «Tarix» əsərində qeyd olunur ki, İran şahı I Dara Gistapsın qoşunları skif toraqlarına soxularkən skif hökmdarı ona quş, siçan, qurbağa və beş oxdan ibarət ultimatum göndərir. Yəni quş olub göyə uçsan da, siçan kimi yer altında, qurbağa kimi su altında gizlənsən də oxlarımdan *(tabeliyimdəki beş tayfadan ibarət seçmə döyüşçülərimdən)* yayına bilməzsən.[161] Digər rəvayətə görə, skif sərkərdəsinin Daraya göndərdiyi sərt yayı *(sarsılmaz hakimiyyət rəmzini)* iranlı döyüşçülərin heç biri əyib qıra bilməmişdir.

Rəvayətlərə görə, oğuz xalqlarının ulu əcdadı, Günəş nurundan doğulan, 116 il ömür sürən Oğuz xan 75 illik hakimiyyəti ərzində türk dövlətini qüdrətli imperiyaya çevirə bilmişdir. Türk dastan tarixinin yazılı abidələrinin – "Oğuznamələr"in baş qəhrəmanı olan Oğuz xan səltənətini övladları arasında bölərkən məhz yay və oxun daşıdığı qədim rəmzi mənadan bəhrələnmişdir. Belə ki, xaqan üç böyük övladının - Gün xan, Ay xan və Ulduz xanın tapdığı qızıl yayı üç hissəyə bölərək qardaşlar arasında paylamış və onların yeni birliyini «bozok» *(pozan, dağıdan, hissələrə bölən ox)* adlandırmışdır: **«Ey böyük qardaşlar, qoy yay sizin olsun, yay kimi siz də oxlarınızı** *(vassallarınızı)* **göyə atın** *(irəliyə göndərin)***!»** Üç gümüş dəmrəli *(ucluqlu)*

160 О.Сулейменов, «Язык письма. Взгляд в доисторию – о происхождении письменности и языка малого человечества». Алматы-Рим,1998.

161 Геродот. История в девяти книгах. Ленинград: «Наука», 1972.

oxla atalarının yanına qayıdan kiçik oğlanların - Göy xan, Dağ xan və Dəniz xanın hər birinə isə ox verib onların ittifaqına «üçok» adını qoymuşdu: «**Ey kiçik qardaşlar, qoy bu oxlar sizin olsun. Yay oxları buraxdı, siz də ox kimi olun!»** *(hökmdarlarınızın iradəsindən çıxmayın* – **A.Q.).** Bu hadisədən sonra oğuzlar 24 boya bölünərək ətrafa yayılmışlar. Xivə hökmdarı Əbdülqazi Bahadur xanın *(XVII əsr)* qələmə aldığı «Səcəreyi-Tərakimə» əsərində həmin rəvayətə islam dininin çalarları vurulsa da, yay-oxun ilkin rəmzi mənası qorunub-saxlanılmışdır: «**Sizin tapdığınız yay-ox Tanrı *(Allah)* tərəfindən göndərilib. Bizdən əvvəl yaşayanlar yayı – şah, oxu isə onun elçisi sayırdılar. Çünki yay oxu haraya göndərsə, o tərəfə uçacaq».** Beləliklə, Oğuz xandan qaynaqlanan bu hakimiyyət rəmzinin *(yay və üç ox)* müxtəlif variantları sonralar qədim türk tayfalarının, o cümlədən oğuzların damğa işarələrində də öz əksini tapmışdır.

Qədim türk mifoloji təsəvvürlərindən, dövlətçilik ənənələrindən qaynaqlanan yay-ox mifologemi Azərbaycanda da geniş yayılmış, hərb sənətində, saray mərasimlərində, xüsusilə rəsmi keçidlərdə istifadə olunmuşdur. Aşağıdakı digər Təbriz miniatüründən göründüyü kimi, hökmdarın rəsmi keçidi zamanı onun önündə təntənəli şəkildə hakimiyyət rəmzi olan qurulu yay aparılır.

Mahmud Kaşğarinin «Divani lüğət-it-Türk», Fəzlullah Rəşidəddinin «Cami ət-Təvarix», Əli Yazıçıoğlunun «Tarixi-Səlcuq» əsərlərindəki damğa işarələrinə əsasən, Dağ xanın törəmələrindən olan yüregir boyunun damğası bozok və üçokların birliyi kimi təsvir olunmuşdur. Lakin XVII əsrdə cərəyan edən siyasi proseslər nəticəsində tayfalar arasında olan iyerarxiyanın – səlahiyyət bölgüsünin zəifləməsi yüregirlərin damğa işarəsinə də təsir göstərmiş, nəticədə həmin rəmz Xivəli Əbdülqazi Bahadur xanın təsnifatında ـــ şəklini almışdır. Yeri gəlmişkən, Azərbaycanın görkəmli sərkərdəsi, Ağqoyunlu dövlətinin banisi və hökmdarı, «Uzun Həsən» ləqəbi ilə tanınan Həsən bəy Bayandurlu da *(1423-1478)* öz nəsil şəcərəsinin Oğuz xandan qaynaqlandığını qürurla bəyan edirdi. Salnamələrə görə, Oğuz Ağqoyunlu hökmdarının sayca 51-ci ulu babası olmuşdur. Üstəlik, Ağqoyunlu dövlətinin mavi rəngli bayrağını, sikkə və silahlarını, möhürlərini də bayandur tayfasının (*Oğuz xanın şəcərəsinə əsasən, bozokların sol qolu, Göy xanın*

törəməsi olan boy. Etimoloji izahı: «dünya nemətlərinə sahib olan») damğası bəzəyirdi. Həmin boy işarəsinin semantikasında da yay və üç ox birliyinin stilizə olunmuş cizgilərini müşahidə etmək mümkündür. Əbu-Bəkr Tehraninin 1470-1471-ci illərdə qələmə aldığı «Kitabi-Diyarbəkiriyyə» əsərində göstərilir ki, ağqoyunlulara babalarının adı ilə «Bayandur xan oğulları», «Ali Bayanduriyyə», «bayandurlular» da deyirdilər.

Şah döyüşdən qayıdarkən. Təbriz miniatürü, 1524-cü il.
(Sankt-Peterburq, Şərq Xalqları İnstitutu). [162]

Oğuz xanla bağlı əfsanədə qədim türk oxçuluq sənəti ilə bağlı bir məqam xüsusilə diqqət çəkir: Böyük qardaşlar arasında bölünən qızıl Tanrı yayı konstruksiyasını təşkil edən üç əsas hissəyə *(qəbzə və iki qollara)* görə dünyada saka-hun-türk kamanları kimi tanınan qədim kompozit *(çoxtərkibli)* və retrofleks *(tərs, geriyə əyilən)* atıcılıq silahının epik xatırlatmasıdır. Damğadakı yay işarəsində də yalnız qədim türk yaylarına xas fərqləndirici xüsusiyyətlərdən biri – qollarının ucunda olan və silahın dartqı qüvvəsini artıran *(80 kiloqramadək)* «qulaqlar» təsvir edilmişdir. Bu tipli yaylara kimer, saka, hun və xəzər mədəniyyətini əks etdirən maddi mədəniyyət nümunələrində, Cənubi və Şimali Qafqazın, Mərkəzi Asiyanın, Şərqi Sibirin

162 K.Kərimov. «Azərbaycan miniatürləri». Bakı, «İşıq», 1980

qayaüstü təsvirlərində, Manna, Midiya dövlətinə, Qafqaz Albaniyasına *(Aran dövləti)* aid abidələrdə, Azərbaycan, Türkiyə və Mərkəzi Asiyanın hərb sənətində geniş rast gəlinir. Bu silahı birmənalı şəkildə «Kitabi-Dədə Qorqud» eposunda adı çəkilən «qatı yayların» əcdadı saymaq olar. Eramızdan əvvəl 550-490-cı illərdə yaşamış qədim yunan tarixçisi Miletli Hekatey «Coğrafiya» əsərində Qara dənizin şimal sahillərinin konturunu sərt skif/saka yaylarına bənzədirdi. Qədim türklərin inancına görə, yayın gövdəsi adi halda *(kirişsiz)* «batan Ayı», geri qatlanıb qurulduqda isə «doğulan Ayı» təcəssüm etdirir. Ortaq türk damğalarında, eləcə də Orxon-Yenisey əlifbasında D işarəsi və onun çoxsaylı variasiyaları «yay» kimi oxunsa da, qrafik təsvir baxımından həm atıcı silahı, həm də səma cismini – Ayı» ifadə edirdi.

Bir linqvistik məqama da diqqət yetirək. Oğuz xandan övladlarına miras qalan «yay və üç ox» mifologemi hökmdar-vassal münasibətlərinin rəmzlərindən birinə çevrilməklə yanaşı, oğuzların dilinə də təsirsiz ötüşməmişdir. Hərbi yürüşə çıxan xanın tabeçiliyində olan tayfalara ox *(adətən, qızıl və ya gümüş dəmrəli)* göndərməsi onları savaşa çağırması demək idi. O da maraqlıdır ki, oğuz türklərinin dilində «oxumaq» sözü indiki anlamdan fərqli olaraq, «dəvət etmək», «oxuntu» kəlməsi isə «dəvət üçün göndərilən ox» anlamında işlədilirdi. Bir tayfadan digərinə məktub, ox çatdıran çaparların da özlərinə məxsus adları var idi. Onlara «yazıçı» və ya «yazıqçı» deyirdilər. Tanınmış tədqiqatçı Faruq Sümər də «Oğuzlar» kitabında «yay və üç ox» vəhdətinin oğuzlarda hökmdar rəmzlərindən biri olduğunu xüsusi qeyd edir. Müəllif XI-XII əsrlərdə yaşamış erməni tarixçisi Urfalı Matveyə istinadən yazır ki, Səlcuq dövlətinin banisi Toğrul bəy 1038-ci ildə Nişapura gedərkən başında kətandan sarıq, əynində gözəl qumaşdan tikilmiş uzun qollu, uzun ətəkli, qabaqdan düyməli paltar, ayağında keçə çəkmələr, qolunda gərilmiş *(qurulu)* yay vardı. Kəmərində isə üç ox vardı».[163] «Kitabi-Dədə Qorqud» dastanında yayın bu tərzdə – çiyin və ya qolda daşınması «yayı qaruya keçirmək» adlanırdı.

OĞUZLARIN QAYI BOYUNUN DAMĞASI. Dərin köklərə malik bu rəmzin ən qədim nümunələrinə və onun stilizə olunmuş variantlarına Okunev arxeoloji mədəniyyətinə *(Cənubi Sibir, eramızdan III min il əvvəl)* aid qayaüstü təsvirlərdə – qədim ilahinin başındakı tac formasında rast gəlinir. Saka/skif

163 F.Sümər. «Oğuzlar». Bakı: «Yazıçı», 1992.

inanclarında da bu işarə dini xarakter daşıyırdı. Onu odpüskürən əjdaha-ilanın, çox güman ki, sakaların ulu anaları sayılan ilahə Apinin *(qədim türkcədə «apa» - ana)* qrafik təcəssümü hasab edirdilər. Hətta XX əsrin əvvəllərinədək Sibirdəki bəzi türk xalqlarında – saxa və dolqanlarda ᛘ işarəsinin Tanrının Yer üzündəki mütləq hakimiyyətinin, onun cəza silahının təsviri olması barədə mifik təsəvvürlər vardı. Tarixi Azərbaycan ərazisində, o cümlədən Qərbi və Cənubi Azərbaycanda, Anadoluda, Şimali Qafqazda, Mərkəzi Asiya və Qərbi Sibirdə, Mərkəzi və Cənubi Rusiyada, Ukraynada geniş yayılan, Moldovada, Bolqarıstanda, Rumıniyada, Macarıstanda, Yunanıstanda, Serbiya və Makedoniyada iz qoyan həmin damğa təsvirləri qədim silah və dəbilqələrin, bəzək əşyalarının, məişət avadanlığının, bişmiş kərpic və saxsı su borularının üzərində aşkar edilmişdir. Mahmud Kaşğari, Fəzlullah Rəşidəddin və Əli Yazıçıoğluna görə, bu işarə oğuz elinin aparıcı, üstün statusa malik tayfalarından olan qayı boyunun damğası idi. Bu, həmin qayı boyudur ki, «Kitabi- Dədə Qorqud» eposunda adı çəkilmiş, Səlcuq konfederasiyasının formalaşmasında fəal iştirak etmiş və Osmanlı sülaləsinin təməlini qoymuşdir. Maraqlıdır ki, Türkiyənin Topqapı sarayındakı Müqəddəs əmanətlər arasında saxlanılan və xəlifə Osmana aid edilən iki tiqdən *(tiyəsi düz və hər iki tərəfi kəsici olan iri qılınc)* birinin qını üzərində qayı boyu damğasının ᛘ həkk olunması Məhəmməd peyğəmbər *(s.ə.s.)* dönəmində türk silahlarının Yaxın Şərqdə yayılmasından və yüksək dəyərləndirilməsindən xəbər verir. Rəvayətə görə, XII əsrdə həmin tiq görkəmli ilahiyyatçı və mütəfəkkir Xoca Əhməd Yasəviyə *(1103-1166)* əmanət edilmiş, sonralar isə onu qorumaq şərəfi Osmanlı dövlətinin təşəbbüskarlarından Şeyx Ədəbalıya *(1206 - 1326)* nəsib olmuşdur. Şeyx öz növbəsində müqəddəs əmanəti kürəkəninə - Osmanlı dövlətinin banisi Orkun bəyə *(1258-1324)* vermiş və silahın ilk sahibinin şərəfinə onun adını «Osman Qazi» qoymuşdur.

İki komponentdən ibarət olan bu işarədə ᛉ təsviri Ağqoyunlu və Səfəvi dövlətlərində «sənək», «durbaş» *(fars dilində: «kənara çəkil»),* Mərkəzi Asiyada «aça» *(haça),* «ayır» *(«ayrılan» sözündən)* adlandırılan hakimiyyət rəmzini – qoşadilli bayraq başlığını və nizə ucluğunu, «qoşa ox» kimi tanınan rəmz ᛁᛁ isə tayfa və nəsillərin ittifaqını ifadə edir. Azərbaycan memarlıq abidələrində və məzar daşları üzərində həmin damğanın variantına ᛘᛉᛁ rast gəlinir. Onun semantik yozumu isə «bir tayfanın hakimiyyəti ətrafında

birləşmək» anlamını verir. Mütəxəssislərin ümumi qənaətinə əsasən, həmin rəmzin stilizə olunmuş variantına bəzi sasani hökmdarlarının də rəmzlərində rast gəlinir. Aşağıdakı ardıcıllığa əsasən, həmin nişan sonralar bir çox türk xalqlarında ali hakimiyyət rəmzinə çevrilmiş, «baltavar», «iltəbər» və ya «daraq» adlandırılan damğaların prototipi olmuşdur. Lakin araşdırmalarımız və işarələrinin, əslində, qədim ikibaşlı qartal mifologeminin sadələşdirilmiş qrafik təsviri olması ehtimalını irəli sürməyə imkan verir.



Ağqoyunlu dövlətinin «çalmalı» tipli döyüşçü dəbilqəsi (XV əsr, Güney Azərbaycan). Dəbilqənin üzərində oğuz elinin qayı boyunun və ustanın damğa işarələri (oğuzların bəydili tayfasının rəmzinə bənzəyir) həkk olunmuşdur.[164] Anadolunun Güdül Salihlər kəndi yaxınlığındakı qaya üzərində qayı boyu damğası[165]

Bolqarıstanlı alim Jivko Voynikovun araşdırmalarına görə, həmin «protobolqar» işarəsi XX əsrin əvvəllərinədək xristian rəmzlərindən biri kimi məşhur olmuş, dini bayramlar üçün xüsusi olaraq bişirilən mərasim çörəklərinin – kuliçlərin üzərini bəzəmişdir. Xristian dininin Bolqarıstanda yayılmasından sonra bu damğanın semantikası ilkin mahiyyətini itirmiş və «qoşa sütunlu ipsilon» *(yunan əlifbasında «Y» hərfi)* adlandırılmış, mərkəzi fraqmenti olan ϒ işarəsi isə qolları bir kökdən qaynaqlanan üç uqnumu *(Ata, Oğul, Müqəddəs Ruh)* təcəssüm etdirən «ikidişli xaça» çevrilmişdir. 1944-cü il əlifba islahatlarına kimi Bolqarıstanda istifadə edilən və «on» səsi kimi tələffüz olunan hərf işarəsinin kökündə də həmin damğa təsviri dayanır.[166]

164 https://www.facebook.com/media/set/?set=a.628267480531933.1073741897.565674410124574&type=3
165 M.Aksoy. «Milattan Önce Anadolu'da Türk İzleri». Tarix. Nisan, 2011.
166 Ж. Войников. «Алано-Древнеболгарское письмо», http://iriston.com.

Yeri gəlmişkən, ᛗ işarəsi xristian rəmzlərindən birinə çevrilməzdən əvvəl, 1371-1395-ci illərdə hakimiyyətdə olmuş və həddən artıq köklüyü üzündən türkcə «şişman» ləqəbi daşımış bolqar çarı İvanın şəxsi damğası idi. Arxeoloji qazıntılar nəticəsində Ukrayna və Rusiya ərazilərində aşkar olunan, nədənsə «orta əsr rus knyazlarına» aid edilən türk damğa nümunələri  və onların həqiqi sahiblərinin kimliyi barədə qərəzsiz məlumat verilməkdədir.[167]

Ksenofobiyadan doğan bu saxtakarlıq ənənəsinin əsasını hələ XIX əsrdə Rusiya Arxeologiya Cəmiyyətinin katibi qraf İvan Tolstoy qoymuşdur. Romanovlar sülaləsinin siyasi sifarişi əsasında Rusiya tarixində və milli mədəniyyətində, dövlətçilik ənənələrinin formalaşmasında türk təsirinin gizlədilməsi kampaniyasının fəal iştirakçısı olmuş qraf qədim rus numizmatikasından bəhs edən kitabında Kiyev knyazlarının metal sikkələri üzərindəki «müəmmalı» adlandırdığı nişanları xristianlıqla bağlamağa, ona «Rəbb göyərçininin - İsa Məsih ruhunun təcəssümü», «kilsə şamdanı», «məbədin giriş qapısı», «dinin lövbəri» və s. bu kimi qondarma adlar qoymağa səy göstərsə də, onların «Rusiyaya Şərqdən gətirildiyini», «İlk rus gerbinin Şərq xalqlarından mənimsənildiyini» etiraf etməli olmuşdur.[168] Qraf Tolstoyun müasirlərindən olan Aleksandr Oreşnikov isə həmin damğanı görkəmcə qoşabuynuzlu norman *(vikinq)* dəbilqəsinə bənzətsə də, o da son nəticədə analoji işarələrə saka *(skif)* kurqanlarında təsadüf etdiyini vurğulamışdır.[169]

BUTA *(PUTA).* Birmənalı olaraq, «buğa/puta» sözünün ilkin mənası qədim türk xalqlarının mifoloji təsəvvürlərində sakral xarakter daşıyan rəmzlə bağlıdır. Zərdüşt təliminə əsasən, buta Günəşin, müqəddəs odun rəmzi, insanı bədnəzərdən, xəstəliklərdən qoruyan pak alov dilinin stilizə olunmuş təsviridir. Azərbaycanın toponimikasında, folklorunda, tətbiqi sənətində, memarlığında bu arxetipin forma və varianları ilə bağlı çoxsaylı misallar çəkmək olar: Misir ehramlarının yaşıdı sayılan Qız qalasının konturları yüksəklikdən butaya bənzəyir. Bakı şəhərinin heraldik rəmzində də buta təsvir olunmuşdur. Xəzərin Abşeron sahillərində, zəngin

167 Силаев А.Г. «Исток ирусской ге\ральдики», ФАИР-ПРЕСС. 2003.
168 И.Толстой. «Древнейшие русские монеты великого княжества Киевского». СПб., 1882.
169 А.Орешников. «Древнейщие русские монеты» // Русские монеты до 1547 года, М., 1996.

neft-qaz yataqlarının üzərində Puta *(Buta)* qışlağı və Puta qəsəbəsi vardır. Buta xalçaların, ipək parçaların, qadın geyimləri və baş örtüklərinin bəzək elementi, Azərbaycan etnomədəniyyətinin vizit vərəqəsidir.



Azərbaycan xalçalarında bəzi buta təsvirləri [170]

Tətbiqi sənətdə üz-üzə dayanan butalar qarşılıqlı sevginin, əks istiqamətlərə baxan ornamentlər isə ayrılıq və hicranın rəmzi sayılmışdır. Əgər xalça üzərindəki naxışlarda böyük butanın içərisində daha kiçiyi həkk edilmişdirsə *(balalı buta)*, bu, nəslin davamlı və möhkəm olmasına, övlad arzusuna işarədir. Azərbaycan xalçaçılıq sənətində onun «Hilə-buta», «Muğan-buta», «Bakı-buta», «Naxçıvan-buta», «Şirvan-buta», «Sarabi-buta», «Gəncə-buta», «Salyan-buta», «həmli-buta», «saya-buta», «əyri-buta», «dilikli-buta», «qıvrım-buta», «şabalıd-buta», «zərxara-buta», «badamı-buta», «qotazlı-buta», «çiçəkli-buta», «yanar-buta», «şabalıd buta», «badam buta», «evli buta», «baba buta» və s. kimi bir sıra forma və növlərindən bu gün də istifadə edilməkdədir.

Səfəvi dövləti dönəmində – regionda oğuz mədəniyyətinin, incəsənətinin, adət və ənənələrinin, mifoloji təsəvvürlərinin, türk dilinin, qədim hərb sənətinin bərpası və intibahı dövründə buta təsvirləri memarlıqda, rəngkarlıqda, zərgərlikdə, xalçaçılıqda daha geniş yayılmağa başlamışdır. Şəki, Təbriz, Naxçıvan və Şamaxıdan Qərb ölkələrinə ixrac edilən ipək parçaların üzərindəki heyrətamiz naxışlar Avropanın kübar xanımlarının o dərəcədə

170 «Azərbaycan xalçaları», cild 2, №4, 2012.«Azərbaycan xalçaları», cild 2, №5, 2012. «Azerbaijan Capert», Ministry of Culture and Tourizm of Azerbaijan, Pəncərə ltd.

zövqünü oxşamışdır ki, hətta 1800-cü ildə artan tələbatı ödəmək məqsədilə Şotlandiyanın Peysli şəhərinin toxuculuq fabriklərində üzərində Azərbaycan butaları olan parçaların sənaye üsulu ilə istehsalına başlanılmışdır. Nəticədə, bu Azərbaycan brendinin adı Qərb dünyasında təhrif olunaraq «peysli» kimi tanınmışdır…



Tac-Heydəri - qızılbaş əsilzadələrinin rəsmi baş geyimi üzərində lələk li buta (Təbriz, Soltan Məhəmməd məktəbi. XVI əsrin 40-cı illəri)[171]

Orta əsrlər Azərbaycanında, xüsusilə Səfəvi xanədanı dövrünə aid baş geyimlərində də butanın özünəməxsus yeri vardır. Şahların, xanların tac və papaqlarını «caqqa-buta*» (tac buta)* bəzəyərdi. Caqqa-buta şahlığın əsas atributlarından biri sayılırdı. Məsələn, Səfəvi hökmdarlarının tacqoyma mərasimi zamanı Gürcüstan valisi onun qılıncını, Luristan hakimi tacını, Ərəbistan valisi isə caqqa-butasını tutmalı idi. Qoşun başçıları arasında baş geyiminə «man-buta» taxmaq hüququ yalnız xanədan qarşısında müstəsna xidmətlərə, hərbi nailiyyətlərə görə verilərdi. «Lələk-buta» - quş tükü, qiymətli daşlarla süslənmiş metal butalar Azərbaycan və Anadolu

171 K.Kərimov. «Azərbaycan miniatürləri». Bakı: «İşıq», 1980.

türklərində fərqləndirici nişan, rəşadət rəmzi olmuş, qalib döyüşçülərin baş geyimlərinə sancılmışdır. Nadir şah Əfşarın hərbi yürüşlərini qələmə alan erməni katalikosu Abram Tekirdağlı *(Abram Kretasi)* qeyd edir ki, hökmdarı mühafizə edən naçaxçılar *(dəbərçilər, baltaçılar)* rəisinin lələk-butasına və papağına üç lələk sancılmışdı.[172] «Koroğlu» dastanının müxtəlif qollarında Çənlibel igidləri papaqlarındakı butaları bəzəmək üçün durna teli ardınca təhlükəli səfərlərə çıxmışlar. XVIII əsrdə Avropa ordularında da dəbə minən lələk-buta müasir hərbi baş geyimlərinin vacib aksessuarı olan kokardanın da əcdadı sayılır. Belə ki, «kokarda» sözü fransız dilində «xoruz lələyi» anlamını verir.

İlkin orta əsrlərdən etibarən, Azərbaycanda və Anadoluda bayram günlərində keçirilən atıcılıq yarışlarında, oxçuların təlimləri zamanı istifadə olunan hədəf «nişan» və ya «puta» adlandırılırdı. Övliya Çələbi *(1611—1682)* «Səyahətnamə» əsərində «puta» kəlməsinin etimologiyasına orta əsrlərin xristian-islam münasibətləri, daha doğrusu, Qərb-Şərq ziddiyyətləri müstəvisindən yanaşaraq, yaşadığı dövrün hərbi-siyasi vəziyyətinə uyğun yozum vermişdir. Səyyah yazırdı ki, İstanbul şəhəri Sultan Mehmet tərəfindən alındıqdan sonra *(1453-cü il)* guya Ayasofya kilsəsində və digər xristian məbədlərində olan «bütlər» «Ox» meydanına gətirilərək hədəf kimi düzülmüş və burada tarixi zəfər şərəfinə oxatma yarışları keçirilmişdir. Və sonradan bir ənənə olaraq, həmin yarışların adı «puta atışı», yəni «bütə ox atma» kimi qalmışdır. Gerçəklikdən uzaq olan bu rəvayətin bu gün də «tarixi əsas» kimi elmi dövriyyədə saxlanılması türk xalqlarının tolerantlığı, islam dininin ehkamları ilə qətiyyən uzlaşmadığı aydındır. Əvvəla, türklər İstanbulu fəth etdikdən sonra məhz Sultan Mehmetin fərmanı ilə şəhərdəki bütün xristianlara dini etiqad azadlığı verilmiş, onların ibadətinə şərait yaradılmış, inanc yerlərinə toxunulmamışdır. Digər tərəfdən, xristian dinində antik yunan politeizminin və İran mehraniliyinin kult elementləri saxlanılsa da, ona etiqad edənlər bütlərə tapınmağı böyük günah, Yaradana şirk qoşmaq kimi dəyərləndirirlər.[173] Xristianlığa münasibətdə «büt» anlayışına iddialı ola biləcək yeganə dini atribut isə xaç və çarmıxa çəkilmiş İsa Məsihin təsvir və heykəlləridir. Bununla belə, hər hansı bir müsəlmanın Allahın

172 Авраам Кретаци. «Краткое повествование о начале (царствования) Надир-шаха, сочиненное нашим Абраамом Текирдагци», http://www.vostlit.info

173 Тора. Брейшит. «Шамир». Иерусалим, 1992.

sevimli peyğəmbərindən olan İsa Ruhullahın təsvirinə yay çəkib ox atması, onu aşağılaması inanılmazdır və islam dininin mahiyyətinə zidddir. Kiçik bir xatırlatma: Bu gün Yunanıstanda, Balkanlarda fəaliyyətdə olan kilsələrin böyük hissəsi məhz Osmanlı dövləti dönəmində, sultanların vəsaiti hesabına ucaldılmışdır. Tiflisi alan I Şah Abbas da ilk növbədə buradakı xristian kilsələrini bərpa etdirmişdir. Deməli, «puta» kəlməsinin etimologiyasının kökü nə xristian dinində, nə də bütpərəstlikdə axtarılmamalıdır. Elə isə nə üçün Azərbaycan və Anadolu oğuzları mərasimlərdə və daha sonralar atıcılıq yarışlarında oxu məhz buta-putaya atırdılar?

İslam dininin yayılmasından xeyli əvvəl əski «buta» və ya «puta» kəlməsi oğuz türklərində paralel olaraq «hədəf» anlamında da işlədilirdi. Sonralar bu söz fars mənşəli «nişan», «nişangah» sözü ilə əvəz edilsə də, folklorda, milli adətlərdə ilkin məna yükünü qoruyub saxlaya bilmişdir. Türk xalqlarının mifik təsəvvüründə bir-biri ilə əlaqəli olan buta və ox-yay kultunun dərin kökləri vardır. Tanrıçılıqda yeni doğulan körpəni bəd qüvvələrdən, xəstəliklərdən qorumaq, mərhəmətli Humay ananın himayəsinə vermək üçün beşik başında rəmzi yay-ox asardılar. Ox kişilik, igidlik simvolu, yay qadın başlanğıcının rəmzi, buta isə ailənin himayəçisi sayılırdı. Qədim türk tayfalarının təsəvvürlərində ox paralel olaraq, qadının dünyaya övlad gətirmək istəyinin rəmzi ifadəsi hesab edilirdi. Qırğız və qazaxların qədim toy adətinə görə, əgər bəy hansısa səbəb üzündən toy karvanına qoşula bilməyibsə, onu gəlinin sağ əlində tutduğu ox əvəz edə bilərdi. İqor Kızlasov isə bu qənaəti daha da inkişaf etdirərək bildirir ki, sak/skif tayfalarının dövlətçilik atributları təsnifatında da yay mütləq hakimiyyətin, hökmdar iradəsinin rəmzi sayılırdı: **«Kirişdən ayrılan ox yaydan asılıdır. Bu baxımdan, hökmdarın *(yayın)* xidmətində olan vassal *(ox)* da öz ətrafını onun iradəsinə tabe etdirməli, nizam, qayda-qanun yaratmalı idi».** Digər tərəfdən, matriarxat dövrünün mifologemi olan yay həm də həyatın mənbəyini, Ana bətnini, ox isə kişi başlanğıcını simvolizə edirdi».[174] İ.Kızlasov bu qənaətdədir ki, qədim inanc yeri olan mağaralarda xeyli ox ucluqlarının tapılması qədim şaman ayinləri, yay-ox kultu ilə bağlıdır. Bir çox xalqlarda əskidən mağara İlahə-Ananın məskəni, qadın bətninin rəmzi, yaranışın başlanğıcı sayıldığı üçün evlənmə mərasimində bəy niyyət tutub oraya ox atardı. Bu mərasim Altaylarda

174 И.Кызласов. «Гора-прародительница в фольклоре хакасов» // Сов. этнография, 1982

da geniş yayılmışdı. Məsələn, Alatau ətəklərində, eramızdan əvvəl 2300-2400-cü illərə aid edilən qədim yaşayış məskəni yaxınlığındakı Aydaşı mağarasında aparılmış arxeoloji qazıntılar zamanı döyüş təyinatı olmayan 300-dək rəmzi ox dəmrəsi aşkar olunmuşdur.

Beləliklə, buta da ailə səadətinin, xoşbəxi izdivacın, nəslin davamlı olmasının rəmzlərindən biridir. Azərbaycan dastanlarında «buta» anlayışı bir-birini sevən iki gənc arasında ruhani körpü anlayışını, bu izdivaca Tanrı tərəfindən xeyr-dua verilməsini təcəssüm etdirir. «Kitabi-Dədə Qorqud» eposuna əsasən, evlənmək arzusunda olan gənc Tanrıdan xoşbəxtlik diləmək üçün yay çəkib butaya ox göndərərdi. Məsələn, dastanın «Salur Qazanın evinin yağmalanması» boyunda «Oğlum Uruz ox atanda puta qalmış» arxaik ifadəsi Uruzun evlənməməsinə, niyyət oxunun butaya ata bilməməsinə bir işarədir. Eposun, görünür, daha sonrakı zamanlara aid olan boylarında hədəf-buta anlayışına sinonim olaraq «nişan» kəlməsi də işlədilmişdir. Dastan mətnindən o da məlum olur ki, oğuz elinin adətinə görə, toy şənliklərində «puta atışı», «nişan atmaq» adlandırılan oxçuluq yarışlarında «putanı» sərrast vuran igidə alqış, oxu hədəfdən yayınana isə qarğış deyərdilər. «Bayburanın oğlu Bamsı Beyrək» boyuna əsasən: «Oğuz zamanında bir yigit evlənsə, ox atardı. Oxu nə yerdə düşsə, gərdək tikərdi». Dastanın «Qazan bəyin oğlu Uruz bəyin dustaq olunduğu» boyunda da «tale», «qismət» oxunun atılması mərasimi təsvir edilmişdir: «Otuz doqquz taleli taleyinə birər ox atdı. Otuz doqquz yigit oxunun ardınca getdi».[175] Türk xalqlarına xas olan qız və oğlan uşaqlarını körpə ikən «ad eləmək», «adaxlamaq» adəti Azərbaycanda ötən əsrin ortalarınadək qalmışdı. Anadoluda isə bu günün özündə belə bu adət hətta nikah əvəzi sayılacaq qədər güclüdür.[176] Xalq arasında bu adətə qədim adı ilə həm də «beşikkəsdi» və ya «beşikkərtmə» də deyərdilər. Məsələn, «Kitabi-Dədə Qorqud» dastanının «Bayburanın oğlu Bamsı Beyrək boyu»nda Baybican bəyin dilindən deyilir: **«Allah-Təala mənə bir qız verəcək olursa, siz tanıq olun: mənim qızım Baybörə bəy oğluna beşikkərtmə yavuqlu** *(nişanlı)* **olsun!»** [177]

Buta oxlarının dəmrəsi döyüşə yaramırdı. Onlar incə naxışlarla işlənər, üzərinə nəslin damğası vurular, gövdəsi, lələk və «ayaqları» boyanardı. Qədim türk ayinlərinin tədqiqatçısı M.Kenin-Lopsanın fikrincə, kişi rəmzi

175 «Kitabi-Dədə Qorqud», əsil və sadələşdirilmiş mətnlər, Bakı, Öndər, 2004
176 O.Gökyay. «Dedem Korqudun Kitabı», İst., 1973.
177 «Kitabi-Dədə Qorqud», əsil və sadələşdirilmiş mətnlər, Bakı, Öndər, 2004

sayılan oxun qadın simvoluna - yaya qoyulub atılması, oxların işarələnməsi və bəzədilməsində iki məqsəd vardı. Birincisi, Tanrının ox vasitəsilə niyyət sahibini tanıması və onun indiyədək olan bütün günahlarının bağışlanması.[178] Çuvaş türklərinin qədim adətlərinə görə isə gəlini bəy deyil, atdığı niyyət oxu *(buta oxu)* seçir. Çuvaşların toy mahnılarının birində bəyin adından oxunur: **«Oxu göyə atdım. Haraya düşəcəyini bilmədən. Urtük kəndinə düşdü. Yalvardım, geri qaytarmadılar. Dedilər: «Gözlə, özü gələcək *(oxu gəlin gətirəcək)*».** Oğuz və qıpçaq türklərinin bu adəti sonralar rus xalqının folklorunda, məsələn, «Şahzadə qurbağa» nağılının məlum süjetində də yer almışdır. Çarın *(xaqanın)* üç oğlu özlərinə ömür-gün yoldaşı axtarmaq üçün niyyət edib ox atmışlar. Böyük qardaşlar özlərinə bab gəlin tapsalar da, şahzadə İvanın göndərdiyi ox qurbağa cildinə girmiş gözələ qismət olmuşdur.

Azərbaycan aşıq sənətində *(«Əsli və Kərəm», «Tahir və Zöhrə», «Aşıq Qərib və Şahsənəm», «Qurbani», «Abbas və Gülgəz» və s. dastanlarda)* də yer alan hədəf-butanın əski türk inanclarındakı buta təsəvvürləri ilə tam eyniyyət təşkil etməsi özünü daha qabarıq büruzə verir. Boz atlı Xızır İlyasın aşiqlərə «buta verməsi», əslində, onları bir-birinə nişan, daha dəqiq desək, «eşqin niyyət oxuna» hədəf kimi göstərməsi məhz buta mifologemi ilə əlaqəlidir. Məsələn, «Aşıq Qərib» dastanında deyilir: **«Rəsul *(Qərib)* yatmışdı, yuxuda gördü ki, göy libaslı bir dərviş behişt misalı bir qızın əlini ona uzadıb deyir: Bu qız tiflisli Xacə Sənanın qızı Şahsənəmdir, bunu sənə buta *(nişan)* verirəm, çox çəkməz bir-birinizə çatarsınız».** XV əsrin sonları və XVI əsrdə yaşayıb-yaratmış aşıq Qurbani yaradıcılığında butanın məhz «ox hədəfi» anlamında işlənməsini görürük:

Qaşı kaman, sinəm onun **butası**,
Qatı yay çəkilər qollara doğru.
və ya
Qurbani gül dəstə bağlar oxuna,
Sinəm **buta** yarın müjgan oxuna.[179]

«Qurbani» dastanında isə Xızır İlyas Gəncə şəhərində Ziyad xanın qızı Pəri xanımı və Qurbanini bir-birinə buta *(nişan, hədəf)* edir.

178 М.Кенин-Лопсан. «Обрядовая практика и фольклор тувинского шаманства». Новосибирск, 1987.
179 Qurbani, Bakı Universitetinin nəşriyyatı, 1990

Nəticədə, tam əminliklə demək olar ki, «buta *(puta)* atışı», «buta vurmaq», «buta vermək», «buta göstərmək», «nişanlanmaq», «nişan taxmaq», «nişanlı olmaq», «ad eləmək» kimi arxaik ifadələr qədim dini inancların, o cümlədən ox-yay kultunun və hərb sənətinin sintezi kimi yaranan mərasimlərin günümüzə gəlib çatmış işartılarıdır.

Bu fikri təsdiqləyən amillərdən biri də bu dastanların yarandığı dönəmlərdə, eləcə də ondan əvvəlki və sonrakı dövrlərdə Azərbaycanda, Türkiyədə oxçuların təlim məşqləri zamanı hədəf-putanın məhz butaya – türk xalqlarında sakral xarakter daşıyan qədim ornamentə bənzəməsidir. Oxatma yarışlarında istifadə edilən buta-puta XVIII əsrin sonlarına, Şərq hərb sənətində odlu silahların geniş tətbiqinədək özünün ilkin görkəmini əsasən qoruyub saxlamışdır.

Oxçuluq yarışlarında istifadə olunan dəri puta

Oxçuluq butası uzunluğu 110, eni isə 70 santimetrə çatan yastı tuluqdur. Göndən tikilən tuluğun içərisi pambıq çiyidi və ya ağac yonqarı ilə doldurular, atıcıdan maksimum 350 addım məsafədə üçayaqdan, yerdən təqribən 50 santimetr yüksəklikdən asılardı. Butanın aşağı hissəsindəki halqalara taxılmış mis zınqırovlar isə cingiltili səslə oxun hədəfə dəyməsini bildirərdi. Bəzən yarışlarda butanı kasa, fincan, şüşə bardaq, balqabaq və ya papaq əvəz edərdi. Türk oxçuluq sənətində butanın digər növü «zərb butası» adlanırdı. Bu hədəf

mis və ya büründcdən tökülərdi. Oxçuların zireh dəlmək məharətlərini sınamaq məqsədilə putanın üzərindəki mildən dairəvi «aynalar» - parlaq dəmir və ya bürünc lövhələr asılardı. Atıcı ya piyada, ya da dördnala çapan at üzərində ox atmaqla onları deşməli idi.

III HİSSƏ

Damğa işarələri. Etnogenez, təhriflər və mənimsəmələr

«Bu dünyada nəyi görmək çox çətin?
Gözümüzün qarşısında olanı».
Yohan Volfqanq Göte

Vaxtilə görkəmli ərəb filosofu və tarixçisi, sosiologiya elminin banisi sayılan Əbdürrəhman ibn Haldun *(1332-1406)* «Tarix elminin üstünlükləri haqqında müqəddimə» əsərində müasiri olan bəzi salnaməçilərin ötənlərdə baş vermiş hadisələri qərəzli şəkildə təhrif etmək istəyi haqqında bunları yazırdı: «**Bil ki, həqiqi tarix** *(həqiqət* ət-*tarix)* **insanların birgə yaşayışı, yəni dünyanın** əzəli **quruluşu və bu quruluşun təbiətindən irəli gələn nadanlıq və mədəniyyət haqqında, bəzi insanların digərlərindən üstün keyfiyyətlərinə, insanların həmin üstünlüyü sayəsində hansı dövlətlərin yaranmasına, hansı sərvətlərinin toplanmasına…, əhalinin hansı elm və ya sənətlərdən bəhrələnməsinə və həyatın digər xüsusiyyətlərinə dair verilən xəbərdir… Lakin bu xəbərin** *(tarixin)* **bir mahiyyəti odur ki, onu daim saxtakarlıq müşayiət edir. Bunun da səbəblərindən biri tarixçilərin müxtəlif baxışlara, təlimlərə aludə olması və uydurmalara inanmalarıdır**».[1]

Türk xalqlarının etnogenezi, onların ortaq etnomədəniyyəti, məskunlaşdıqları ərazilər müasir tarixşünaslığın və etnoqrafiyanın geosiyasi maraqlara, etnik və dini mənafelərdən irəli gələn saxtakarlıqlara daha çox məruz qalmış sahələrindəndir. Bu tarixin məqsədli şəkildə təhrifinə və siyasiləşdirilməsinə, yanlış istiqamətlərə yönəldilməsinə xidmət edən belə fəaliyyət Avropa, Rusiya, Ermənistan və İran tarixşünaslığında hakim mövqe tutan rəsmi konsepsiyadan qaynaqlanmaqdadır. Həmin konsepsiya isə obyektiv tarixi-arxeoloji, antropoloji, etnoloji araşdırmaların nəticələrini bir kənara qoyaraq, «qədim yaşayış məskənləri Şərqi Sibir və Monqolustanın bozqır çölləri ilə məhdudlaşan köçəri türklərin» Ön Asiyaya, Avropaya yalnız ilkin orta əsrlərdə «dağıdıcı sel», «yarımvəhşi tayfalar» qismində ayaq basdıqlarını, yerli xalqların ali sivilizasiyasını süquta yetirdiklərini və onun

1 Ибн Халдун. «Введение к истории», PAX ISLAMICA, 1/2008.

xarabalıqları üzərində özlərinin «qarışıq» mədəniyyətlərini yaratdıqlarını təlqin etməkdədir. Bu tipli yanaşmaların ötəri qısqanclıqdan, tarixi hadisələri bilməməkdən və ya milli natamamlıq kompleksindən bəhrələndiyini söyləmək naşılıq olardı. Tarixin ibrət dərsləri öyrədir ki, zahirən «zərərsiz» görünən belə iddialar əslində, qalın siyasi pərdə arxasında qalan etnosiyasi maraqların ödənilməsinə yönəldilən fəaliyyətin ideoloji təminatına xidmət edir. Həmin pereventiv səylərin Ön və Mərkəzi Asiyadakı türk dövlətləri arasında iqtisadi-siyasi və mədəni əlaqələrin genişləndirilməsinə, ortaq geosiyasi, geoiqtisadi və geomədəni məkanın formalaşmasına qarşı istiqamətlənməsi şübhəsizdir. Müasir beynəlxalq təcrübə belə təbliğatın dövlət siyasəti səviyyəsinə qaldırılmasını gələcək geosiyasi, o cümlədən ərazi iddiaları üçün bəraətverici ideoloji təminat əldə etmək məqsədi daşıdığını təsdiqləyir.

Bu gün Ön və Mərkəzi Asiyada, milli özünüdərk prosesi «etnik münaqişə» pərdəsi altında davam edən, fövqəloyunçuların geosiyasi mənafelərinin ödənilməsinə yönəldilən hərbi-siyasi qarşıdurmaların ideoloji təminatında bu əzəmətin möhkəmləndirilməməsi, tarixi gerçəkliklərin saxtalaşdırılması müşayiət olunur. Nəticədə, tarix nəcib elm çərçivəsindən çıxaraq özünün mənəvi-etik prinsiplərini, obyektivliyini itirir, siyasi maraqların girovu olan subyektiv ideoloji vasitəyə çevrilir. Dünya tarixşünaslığında dominant siyasi mövqeyə malik Avrosentrizm nəzəriyyəsinin - Qərb xalqlarının, xüsusilə xristian mədəniyyətinin digər sivilizasiyalardan üstünlüyünə və «insanlıq tarixində müstəsna roluna» dair ideoloji konsepsiyanın, «Hind-Avropa sivilizasiyası», «üstün ari xalqları» kimi siyasi miflərin də kökündə tarixin təhrif olunması dayınır. Bu fəaliyyətin sadə icra formulu isə belədir: Kimsə hər hansı bir ərazinin qədim sakinlərinin maddi-mədəni irsini mənimsəyə və özünün «varislik hüququnu» təsdiqləyə bilirsə, deməli, həmin torpaqların həqiqi sahibi də odur!

Bəri başdan qeyd edək ki, ermənilərin Türkiyə, Azərbaycan və Gürcüstana qarşı irəli sürdükləri əsassız ərazi iddiaları, Qərbi Azərbaycan ərazisində etnik türklərə məxsus qədim tarix-mədəniyyət abidələrinin kütləvi şəkildə məhv edilməsi, yüzlərlə toponim və etnonimin dəyişdirilməsi, Azərbaycan xalqının etnik mədəniyyət nümunələrinin *(tətbiqi sənət, müsiqi, mətbəx, dövlətçilik tarixi və s.)* ermənilərdirilməsinin ideoloji bazası da bu model əsasında qurulmuşdur. Avrosentrizm nəzəriyyəsinin «üstün xristian sivilizasiyası - geridə qalmış köçəri tayfalar» siyasi mifologemlərinə söykənən marionet Ermənistanın saxtakarlıq səyləri bir məqsədə - hayları həmin torpaqların yeganə avtoxton sakinləri kimi tanıdılmasına, qondarma «tarixi sübutların» əldə olunmasına

yönəldilmişdir. Halbuki, hayların Cənubi Qafqaz ərazilərinə kütləvi şəkildə yalnız XIX əsrin əvvəllərində köçürülməsi, tarixdə ilk erməni dövlətinin isə 1918-ci ildə məhz tarixi Azərbaycan torpaqları hesabına yaradılması barədə səslənən arqumentlər adekvat təbliğat fəaliyyətinə deyil, qədim salnamələrə, ötən yüzilliklərin rəsmi materiallarına, kilsə sənədlərinə, arxeoloji, etnoloji, antropoloji, linqvistik, hətta genetik tədqiqatların nəticəsinə əsaslanır. Bu tədqiqatlar isə «erməni» kəlməsinin etnonim kimi formalaşmasından xeyli əvvəl müasir Ermənistan Respublikası ilə heç bir əlaqəsi olmayan coğrafi məkanda yaşayan etnik toplumların ərazi mənsubiyyətini ifadə etdiyini, burada qriqorian məzhəbinin yayılmasından sonra yeni dini icmanın adına çevrilməsini, son nəticədə «ermənilik» müxtəlif regional etnik elementləri vahid məzhəb ətrafında bir araya gətirən etnokorporasiya olduğunu əminliklə sübuta yetirir. Odur ki, Avropanın bu məsələlərlə bağlı susqunluğunu, bəzən isə birtərəfli münasibətini «Qərbin məlumatsızlığı» kimi dəyərləndirib özümüzü aldatmamalıyıq. Avropa həqiqətin nə olduğunu yaxşı bilir, lakin bir çox hallarda bu həqiqət onun geosiyasi maraqları ilə uzlaşmır.

Son illər dünyada qayaüstü təsvirlərin öyrənilməsinə maraq xeyli artmaqdadır. Bunun səbəblərindən biri arxeoloji, tarixi, etnoqrafik, sənətşünaslıq və s. araşdırma mənbəyi olan digər maddi irs nümunələri ilə müqayisədə petroqliflərin konkret coğrafi əraziyə, inanclara bağlılığı üzündən onların mənimsənilməsinin çətin olmasıdır. Əgər müxtəlif ərazilərdə eyni bədii üsullarla çəkilmiş qayaüstü rəsmlər müəyyən edilirsə, bu, təkcə həmin təsvir müəlliflərinin yer dəyişməsi, yəni miqrasiyası ilə izah olunmur, həm də etnomədəni məkanın vahidliyindən xəbər verir. **Aşağıdakı cədvəllərdə Gəmiqaya, Qobustan qayaüstü təsvirlərindəki rəmzlər və Midiya dövlətinə aid bəzi nəsil-tayfa nişanları ilə türk damğalarının müqayisəsi, onlar arasındakı paralellər qədim dövrlərdə tarixi Azərbaycan ərazilərində prototürk tayfalarının mövcudluğunu əyani şəkildə göstərir.**

Cədvəl 6. Qobustan işarələri[2] və türk damğaları

Qobustan															
Türk damğaları															

2 M.Fərəcova. «Azərbaycan qayaüstü incəsənəti». Bakı, 2009.

Cədvəl 7. Gəmiqaya rəmzləri[3] və türk damğaları

Gəmiqaya rəmzləri													
Türk damğaları													

Cədvəl 8. Manna rəmzləri[4] və türk damğaları

Manna rəmzləri														
Türk damğaları														

Cədvəl 9. Midiya dövlətinə aid rəmzlər[5] və türk damğaları

Midiya									
Türk damğaları									

Antik dövrlərdə saka-skif konfederasiyasına daxil olan tayfalar yaşam tərzlərinə, inanclarına görə aşağıdakı iri qruplara bölünürdülər: *«***tiqrahaudalar***» (şişpapaqlılar), «***haomvarqalar***» (haoma içkisini hazırlayanlar), «***paradayaralar***» (çayın qarşı sahilində yaşayanlar)* və «***rimasplar***» *(ağbaba/kərkəslərin qızılını qoruyanlar)*. Bununla belə, saka-skiflərin etnik mənşəyinin öyrənilməsi lokal ərazilər və ayrı-ayrı etnik qruplar çərçivəsində aparılan tədqiqat mövzusu deyildir. Araşdırmaların əhatə dairəsi olduqca genişdir, Mərkəzi Asiyanı, Rusiyanı, Ukraynanı, Çini, Şərqi Avropanı, Monqolustanı, Şimali və Cənubi Qafqazı, İranı, Türkiyəni və bu ərazilərdə yaşayan xalqların etnik tarixini əhatə edir. Hələlik isə nə tarixçilər, nə etnoqraflar, nə linqvistlər, nə də antropoloqlar saka-skiflərin etnik mənşəyi haqqında yekdil rəyə gələ biliblər. Bu məsələni araşdırma obyektinə çevirənlər əsasən iki qrupa bölünüblər: sakaların irandilli və ya türk olmasını iddia edən «radikallar» və nisbətən «barışdırıcı» mövqe tutanlar. Radikal skif-İran istiqaməti tərəfdarlarının, məsələn, rusiyalı akademik Vasili Abayev kimilərin xarakterik xüsusiyyəti onların fikirləri ilə razılaşmayanlara qarşı aqressiv olmaları,

3 V.Baxşəliyev, «Gəmiqaya təsvirləri». Bakı, 2003.
4 M.Rəhbəri. «2800 il öncəyə aid yazı nümunəsi», qafqazalbaniyasi.az/?p=4701
5 И.Дяконов. «История Мидии». Москва,1956.

«panturanizmdə», «millətçilikdə» ittiham etmələridir. Lakin ikincilərin – barışdırıcı qrupun daxilində də parçalanma vardır. Onların bir qismi «irandilli saka-skiflərin tərkibində türk tayfalarının da olduğuna» dair mövqelərini müdafiə edir, digərləri isə əksinə, «etnik baxımdan türk olan saka-skiflərin konfederasiyasında irandilli qəbilələrin də qoşulduğunu» bildirirlər. Reallıqda isə sakaların və ya skiflərin «vahid etnos» və ya «subetnos» deyil, «müxtəlif mənşəli xalqların koalisiyası» adlandırılması daha düzgündür. Məsələnin məğzi həmin etnik rəngarəngliyin hansı etnos və dominat mədəniyyət ətrafında birləşməsidir. Saka-skif mədəniyyəti bəşər sivilizasiyasına böyük töhfələrini vermişdir və bu gün bir sıra xalqlar, xüsusilə türk xalqları bu mədəniyyətin daşıyıcılarıdırlar. O da təsadüfi deyildir ki, Q.Qeybullayev, N.Aristov, A.Lızlov, M.Zəkiyev, V.Latışev, F.Bruskus, P.Karalkin, İ.Miziev, F.Qaripov, Q.Laypanov və K.Əliyev kimi alimlər də skif tayfalarının böyük hissəsinin etnik türklərdən ibarət olduğuna əmindirlər və öz iddialarını linqvistik, toponimik, etnoqrafik, arxeoloji materiallarla əsaslandıra bilmişlər. Əslində, kimer, saka-skif və sarmatlar, hətta hunlar və avarlar vahid etnos və ya subetnik qrup deyil, polietnik toplum olmuşlar. Məhz buna görə onların nəhəng tayfa birlikləri, imperiyaları «konfederasiya» adlandırılır. Hind-Arvopa təmayüllü tədqiqatçılarda müqavimət, qıcıq yaradan amil isə bu konfederasiyaların tərkibində türk etnosunun xüsusi çəkisinin slavyan və irandillilərdə çox olması, türk etnomədəniyyətinin, mifoloji təsəvvürlərinin, adət və ənənələrinin qabarıq şəkildə dominat mövqe tutmasıdır. Qeyri-ciddi, hətta tibbi diaqnoza ehtiyacı olan mövqelər də vardır. Məsələn, erməni akademiki Suren Ayvazyan bu mözuya da müdaxilə edərək, saka-skiflərin etnik mənşəyini qeydşərtsiz erməni xalqının ayağına yazır. Hətta iddia edir ki, barbar skiflər zərif zərgərlik məmulatı, silahlar hazırlamaq, xalça toxumaq qabiliyyətinə malik deyildilər. Bu sənəti yalnız ermənilərdən öyrənə bilərdilər. Üstəlik, «**Sankt-Peterburqdakı Ermitaj Muzeyində «skif bəzək əşyaları» adı altında nümayiş etdirilən eksponatlar qədim erməni xalqına məxsusdur**».[6]

Tarixi təcrübə göstərir ki, qədim Misir, Assuriya, Babil dönəmlərindən etibarən, dünyanın bütün hökmdarları siyasi iddialarını əsaslandırmaq məqsədilə şəcərələrini peyğəmbərlərə, övliyalara, tanrılara, böyük ərazilər fəth edən sərkərdələrə, hətta əfsanəvi qəhrəmanlara bağlamağa çalışmışlar. Qonşu dövlətlər və xalqlar üzərində üstünlük qazanmaq səyləri Rusiyanın knyaz və çarlarına da xas olan ənənəyə çevrilmişdir. Məsələyə bu kontekstdən yanaşanda rusiyalı tarixçi Dmitri Verxoturovun rus mllətçiliyinin yaranma səbəbləri

6 С.Айвазян. «История России. Армянский след». Москва, 1998.

haqqında fikirləri maraq doğurmaya bilməz: **«XV əsrin sonunda, Moskva knyazları vaxtilə Qızıl Orda dövlətinin vassalları olan Şərqi Rus knyazları üzərində üstünlük qazananda onların bütün rus və qeyri-rus torpaqlarına hakimiyyət iddiaları üçün yeni siyasi mifin yaradılmasına başlanıldı… 1674-cü ildə Kiyev-Peçora monastrının arximandriti İnnokenti Gizelin xeyir-duası ilə slavyan xalqı üçün uzun-uzadı ada malik rəvayət hazırlandı. «Slavyan-rus xalqının əvvəli və Rəbbin xilas etdiyi Kiyev şəhərinin ilk knyazları, Kiyevin və Rusiyanın Böyük knyazı şərafətli ilk hökmdar Vladimir və hökmdarımız, Bütün Böyük Rusiya, Kiçik Rusiya və Ağ Rusiya (Belorus) çarı Aleksey Mixayloviç haqqında Sinopsis və ya müxtəlif salnaməçilərin əsərlərindən qısa seçmələr» adlı əsərdə slavyan xalqlarının şəcərəsi uzaq keçmişə yönəldilərək skif və sarmatlara bağlanırdı. Kitab 1836-cı ilədək düz 30 dəfə işıq üzü görmüş və Moskva mifinin, rus milli özünüdərkinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Əsər M.Lomonosov, V.Tatişev və digərləri üçün göydəndüşmə olmuşdur. Rus xalqının şəcərəsini skiflərlə bağlamaq onlar üçün əsl tapıntı idi. Halbuki, XVIII əsrin əvvəllərinə aid olan ədəbiyyatda skifləri məhz türklərin əcdadları hesab edirdilər»**.[7] Bununla belə, skif-sarmat tarixinə siyasi yanaşmanın, daha doğrusu, Rusiya imperiyasının Avropada nüfuzunun artırılması məqsədilə tarixi miflərdən geniş istifadə edilməsinin təməli I Pyotr tərəfindən qoyulmuşdur. Məhz onun tapşırığına və vəsaitinə əsasən, Avropa tarixçiləri rus xalqının şəcərəsini saka-skiflərlə, sarmatlarla bağlamağa, türk xalqlarının izlərini bu tarixdən silməyə başladılar. Bu təşəbbüsə birincilər sırasında I Pyotrun köhnə tanışı, alman alimi Qotfrid Vilhelm Leybnis qoşulmuş və nəhayət, 1708-ci ildə bu sözləri yazmışdır: **«Mən «sarmat» deyəndə bütün slavyan xalqlarını nəzərdə tuturam. Əvvəllər onları «sarmat» çağırırdılar».** Lakin bu sözlər imperatorun siyasi iddialarının reallaşması üçün kifayət deyildi.[8]

Yəqin ki, 1713-1722-ci illərdə Sibirdə sürgün həyatı yaşayan əsir İsveç zabiti Filip Yohan Tabbert-Stralenberqin (1676-1747) və çar I Pyotrun tövsiyəsi ilə Rusiya arxeologiyasının əsasını qoyan alman alimi Daniel Qotlib Messerşmidtin (1685-1735) təsadüfi görüşü və bu görüşün nəticəsində birgə ekspedisiyaları olmasaydı, skifşünaslıq elmi, bəlkə də, indi türk xalqlarının qədim tarixinin öyrənilməsinin bir qoluna çevrilərdi. Bu həmin F.Tabbert-Stralenberqdir ki, sonralar türk xalqlarının tarixi barədə dolaşıq fikirlərin,

7 Д.Верхотуров. «Скифы между тюрками и славянами» // алманах «Лебедь», № 408, 09 января 2005 г. http://www.lebed.com/2005/art4029.htm

8 М.Закиев. «Происхождение тюрков и татар». М.: “ИНСАН”, 2003

xüsusilə Altay nəzəriyyəsinin müəlliflərindən biri kimi tanınacaqdır. İxtisasca həkim və botanik olan D.Messerşmidtin üzərinə düşən missiya, daha doğrusu, I Pyotrun məsul tapşırığı isə skiflərin rus xalqının ulu əcdadı olması barədə «təkzibolunmaz» faktlar toplamaq, slavyanların avropalılardan da qədim etnos olmasını Avropa elmi ictimayyətinə çatdırmaq idi. Bu total siyasi saxtakarlığın səbəbi isə XVII əsrin əvvəllərində Rusiyanın iqtisadi, siyasi və mədəni tənəzzülü ilə bağlı idi. Belə ki, XVIII əsrin əvvəllərindən etibarən özünə qapanan Avropa əhalisinin təfəkküründə yeni özünüdərk ideyası - avrosentrizm baxışları formalaşmağa başlamışdır. Nəticədə, Avropa məkanından və avrosentrizm çərçivəsindən kənarda qalan xalqlara, eləcə də slavyanlara «vəhşi barbarlar», «sivilizasiyaları məhv edən insan toplumları» kimi yanaşılırdı. Belə münasibət Rusiyaya da aid edilirdi. Qərb hələ də Rusiyanı «Tatariya», ən yaxşı halda «yarı Şərq, yarı Qərb meyilli yarımvəhşi batil xristian dövlət» kimi dərk edirdi. Qollarını çırmalayıb «balta ilə Avropaya pəncərə açan» (*məcazi mənada da olsa, bu,həqiqətdir*) çar I Pyotrun məqsədlərindən biri yüz illər boyu dayanıqlılığını göstərən bu münasibəti dəyişmək, Rusiyanı Avropa mədəni məkanının bir hissəsi kimi təqdim etmək idi. Pyotrun bu cəhdləri barədə bir qədər sonra əhatəli bəhs olunacaqdır. Hələlik isə onu deyə bilərik ki, imperatorun rus xalqının etnogenezini qədim və döyüşkən, hətta Avropaya da meydan oxuyan skiflərlə bağlamaq təşəbbüsü bir tərəfdən rusların soyunu süni surətdə qədimləşdirmək, yeni milli özünüdərk mifini yaratmaq (yeri gəlmişkən, əcdad axtarışı prosesi bu gün də davam etməkdədir), digər tərəfdən isə Rusiyanın Şərqlə siyasi əlaqələrini saxlamaqla, onu arzuolunmaz bağlardan, xüsusilə bu ölkənin formalaşmasında mühüm rol oynayan türk dünyasının etnosiyasi məkanından ayırmaq məqsədi daşıyırdı. Skif Rusiyanın yeni millətçilik və vətənpərvərlik simvolu olmalı idi.

Beləliklə, Daniel Qotlib Messerşmidtin və Filip Yohan Tabbert-Stralenberqin başladığı etnosiyasi avantüranın estafeti bu günə kimi davam etməkdədir. Halbuki, rus tarixçisi və tərcüməçisi Andrey Lızlov 1692-ci ildə «Skifiya tarixi» kitabını yazmış və burada rusların və Avropa xalqlarının Xəzər, Qızıl Orda və Türkiyə dövlətlərinə münasibəti məsələlərinə toxunmuş, türk və tatarların skiflərin törəmələri olduqlarını sübuta yetirmişdir. Bununla belə, XVIII **əsrin əvvəllərinə** kimi türk xalqları skiflərin törəməsi kimi qəbul edilmişdir.[9] A.Lızlov yazırdı: **«Skifiyanın** *(Skif ölkəsinin)* **sərhədləri Volqa çayından Don çayına kimi uzanır… Bu xalq heç vaxt məğlub olmayıb, həmişə qələbələr qazanıb. Onlar İran şahı Daranı Skifiyadan qovmuş,**

9 М.Закиев. «Происхождение тюрков и татар». М.: «ИНСАН», 2003.

Kiri öldürmüş *(söhbət massaget hökmdarı Tomrisin Araz çayı yaxınlığında Kir ilə qanlı döyüşündən gedir – A.Q.),* **Böyük İskəndərin «Zopirion» adlı getmanını** *(sərkərdəsini)* **məğlubiyyətə uğratmış, Baktriya və Parfiya taxt-tacının əsasını qoymuşlar… Türklər, parflar, macarlar, iranlılar** *(burada Azərbaycan türkləri nəzərdə tutulur)* **bu xalqdan törəmişlər… Qədim tarixçilər onları «skiflər» və «sarmatlar» adlandırmışlar… Bu xalqın qonşuluğunda isə həmişə bizim əcdadlarımız – slavyanlar və başqaları yaşamışlar».** Tarixçi maraqlı bir məqama da toxunur: **«Skifiyanın yarısından kiçik olan və As dənizinin** *(Azov dənizinin – A.Q.*) **yuxarı hissəsində yerləşən hissəsi «Tatariya» adlanır və aşağıdan Xvalın** *(Xəzər)* **dənizinin yaxınlığındakı böyük və məşhur Qafqaz dağlarına kimi uzanır. O biri tərəfdən – Şərqdə latınca «Mons Taurus» dağı** *(Ağrı dağı)* **ilə iki yerə bölünür. Nuhun gəmisi bu dağa yan almışdır»**.[10] Alman alimi Eduard Eynxvald *(1795—1876)* da türk tayfalarının eramızdan xeyli əvvəl Avropada məsunlaşmaları barədə qənaətlərini əsaslandıra bilmişdir. O bildirirdi: **«Bəzən müxtəlif türk tayfalarını da skiflərə aid edirlər. «Skiflər» dedikdə türk tayfalarının nəzərdə tutulması haqqında çoxsaylı sübutlar vardır. Heradot əsərlərində türragetləri, turkları… qeyd edir. «Türk», «türraget» tayfası haqqında Plini, Pomponi, Strabon da yazır».**

Burada maraqlı bir siyasi məqamı da xatırlatmaq istərdik. XX əsrin əvvəllərində Avropadan yenidən tədric olunan Rusiya imperiyasını iqtisadi və siyasi böhran çuğlamışdı. Rusiya hələ də avropalıların gözündə «barbar dövlət» olaraq qalırdı. Eyni zamanda, imperiya ərazisində artmaqda olan sosial narazılığı daxili problemlərdən yayındırmaq məqsədilə ictimai şüura, ksenofobiyadan əziyyət çəkən bir sıra rus ziyalılarının təfəkkürünə «İsa Məsih Şərqinin» - Böyük Rusiyanın «ilahi missiyasına» dair yeni maniakal ideya - «onun Avropanı və bütövlükdə xristian dünyasını süqut təhlükəsi qarşısında qoyan növbəti «monqol-tatar ordularının basqınlarından xilas etmək» vəzifəsi nüfuz etdirilmişdir. Əslində, bu, Qərbə ünvanlanmış aqressiv mesaj idi. Hakimiyyət tərəfindən açıq dəstəklənən bu ideya Rusiyada yeni millətçilik, qaraguruh dalğasının yaranmasına, digər xalqların nümayəndələrinə qarşı kütləvi iğtişaşların baş verməsinə səbəb olmuşdur. Məhz belə bir vəziyyətdə yəhudi mənşəli «rus şairi» Aleksandr Blok Avropaya xitabən qəzəb dolu məşhur şeirini yazmışdır. Şeirdə deyilir: **«Sizin sayınız milyonlarladır. Biz isə sonsuz saydayıq. Döyüşmək istəyirsinizsə, gəlin! Bəli, biz skiflərik! Gözüqıyıq qəddarlarıq!»**. Maraqlıdır ki, «gözüqıyıq rusların» saka-skif mənşəli

10 А.Лызлов. «Скифская история». М.: «Наука», 1990.

olması ideyası bu gün də Rusiyanın siyasi gündəminə gətirilmişdir.

İstənilən xalqın etnogenezinin tədqiqində linqvistik materialların xüsusi əhəmiyyətini vurğulayan məşhur tatar alimi Mirfatax Zəkiyev linqvoarxeoloji tədqiqatları nəticəsində müəyyən etmişdir ki, «ənənəvi» tarixşünaslığın iddialarının əksinə olaraq, **ar/ir** *(ari)*, **as/**əs, **sak/saka, skd** *(skif)*, **soqdak/soqdlar, sün/hun, bi/bay/bard/pard** (*parf*), **ok/ak, min/mi/mide, kusön/kosan/kuşan, toxar/daqar** kimi qədim etnonimlər sırf türk mənşəlidir və «IV-V əsrlərdə türklərin Altaylardan böyük köçü» konsepsiyasının çərçivələrinə sığmır. M.Zəkiyev tarixşünaslığa məqsədli şəkildə nüfuz etdirilmiş həmin etnosiyasi konsepsiyanı qüsurlu sayır və nə tarixi, nə də linqvistik dəlillərə söykənmədiyini bildirir: «**Türk dilinin linqvoarxeologiyası sübut etmişdir ki, qədim türklər hələ eramızdan bir neçə min il** əvvəl **hətta Qara dənizin ətraf sahillərində də məskunlaşmışdılar**».[11] Görkəmli tatar maarifçisi Hadi Atlasi hələ 1911-ci ildə nəşr etdirdiyi «Seber tarixi» *(«Sibir tarixi»)* kitabında vurğulayırdı ki, «**Qədim yunanların** «**Skifiya**» **adlandırdıqları regionlar Türküstan ərazisi ilə üst-üstə düşür və iranlıların** «**Turan**» **adlandırdıqları torpaqlar oturaq türklərin ölkəsi olmuşdur**».[12] Azərbaycan alimi Qiyasəddin Qeybullayev isə saka-skiflərin və midiyalıların qədim türk dilinin müxtəlif ləhcələrində danışdıqları qənaətinə gəlmişdir. Türkiyəli alim İlhami Durmuş da 1993-cü ildə nəşr olunmuş «İskitlər *(Sakalar)*» əsərində linqvistik, arxeoloji, etnoloji müqayisələr nəticəsində saka-skiflərin türkdilli olmasını sübuta yetirmişdir.[13] O da məlumdur ki, XIX əsrdə yaşamış ingilis tarixçisi, Mançestr Universitetinin professoru Eduard Parkerin 1875-ci ildə işıq üzü görmüş «Tatarların tarixindən min il» kitabında qədim türk və skifləri nəinki bir-birindən fərqləndirmir, əksinə skif, hun və türkləri eyni etnik kökə malik olan tayfaların müxtəlif inkişaf mərhələsi kimi identifikasiya edir.[14] Macar alimi Yulius Nemet isə bunları yazırdı: «**Türklərin yaşadıqları qədim əraziləri, adətən, Mərkəzi və Şərqi Asiyaya aid edirlər. Mənim fikrimcə, eləcə də linqvistik materiallara görə, türklərin ən qədim məskənlərini Qərbi Asiyada axtarmaq lazımdır».**[15] Qeyd edək ki, nüfuzlu türkoloq və şərqşünaslardan Geza Kuun, Sədri Məsudi Arsal, Əhmədzəki Toğan və başqalarının da elmi qənaəti belə olmuşdur. Qaraqalpaq alimi Daulen Aytmuratov

11 М.Закиев. «Тюркская лингвистическая археология», miraska.narod.ru/miras/history/m.zak_etn.htm

12 Х.Атласи. «История Сибири», http://protatar.narod.ru/Kitaplar/HadiAtlasi/SibHis.html

13 İ.Durmuş. "İskitler (Sakalar)", Genelkurmay Askerî Tarih ve Stratejik Etüt Başkanlığı Yayınları, Ankara Genelkurmay Basimevi, 2008

14 В.Мирзаянов. «Фальсификаторы науки за работой», http://ufa.tatar.info/pubs/wilmir-001_langrus.html

15 К.Лайпанов, И.Мизиев. «О происхождении тюркских народов Черкесск. Изд. ПАО «ПУЛ». 1993

«Türk etnonimləri: «qaraqalpaq», «çornıye klobuki», «çərkəz», «başqurd», «qırğız», «uyğur», «türk», «peçeneq», «sak», «massaget» və «skiflər» adlı kitabında tarixi materiallara istinad edərək, nəhəng coğrafi əraziyə – Altay, Qazaxıstan, Cənubi Ural, Monqolustan, Qara dəniz sahilləri, Qafqaz və Dunay çayı ətrafına yayılmış saka-skiflərin böyük hissəsinin məhz türk tayfalarından təşkil olunduğu qənaətinə gəlmişdir: «**Qədim yazılı mənbələrə** əsasən**, onların ilkin tarixi Aral dənizi regionu, qazaxların** «**Yetısu**» *(Yeddi su, Yeddi* çay*)* **adlandırdığı və Tyan-Şan dağlarından Balxaş gölünədək uzanan ərazilər və Altay dağları silsiləsi ilə sıx bağlıdır. Bu torpaqlarda isə irandilli tayfaların nə vaxtsa mövcudluğu qeydə alınmamışdır. Bundan başqa, həmin ərazilərdəki saka-skif məzarlıqları və aşkar olunmuş maddimədəni nümunələr də bu fikri təsdiqləməkdədir**.[16] Rusiya Arxeologiya və Etnoqrafiya İnstitutundan V.Kubarev də Pazırıq mədəniyyəti və Altay dağlarındakı qayaüstü təsvirlərin bir-biri ilə üzvi şəkildə bağlı olması qənaətindədir. Alim təəssüf hissi ilə bildirir ki, dinamik Pazırıq incəsənətinə aid olan maddi nümunələr praktiki olaraq indiyədək Altay dağlarındakı təsvirlərlə müqayisə edilməmişdir. Halbuki, qədim saka kurqanlarında aşkar olunmuş təsvirlərin Altay qayalarında analoqları mövcuddur.[17]

Qədim Çin yazılı mənbələrində «sak» etnonimi «sai» adlanırdı. Nikolay Aristov da «sak»/»saka» və onun təhrif edilmiş törəməsi sayılan «skif» kəlməsinin ilkin variantının məhz «sa» sözü olduğunu, «k» şəkilçisinin isə cəmlik bildirdiyini qeyd etmişdir. Onun fikrincə, **«bir vaxtlar Qərbi Tyan-Şan ərazilərində yaşayan «saka», «sa» və ya «se» adlanan türk tayfası sonralar Hindistana köç etmiş və burada yerli əhaliyə qarışaraq itmişdir. Lakin onun izləri qara kırğızların sayak, qırğızların soltı və Yeniseydəki saqay tayfalarının adlarında qalmaqdadır. Soltı qırğızların bir nəsli isə «çaqa» adlanır».**[18] Qafqazın əski türklərin vətəni olduğunu bildirən Pavel Nazarova görə, «skif» kəlməsi qədim türklərin antik adıdır. Tədqiqatçı yazır ki, «**yəhudilər, yunanlar, romalılar** «**türk**» **sözünü deyil,** «**skif**» **sözünü işlədirdilər və bu kəlmə** *(skit, skut, aşkuz, aşkez)* «**As kişi**», **yəni** «**As** *(Az)* **adamı**» **ifadəsinin təhrif olunmuş formasıdır. Herodotda skif sözləri -** «**jun**» *(yun)*, **oyr** *(*ər*),* «**asxi**» *(acı)* **sadalanır və onlar türkcədir. Bizans**

16 Д.Аймуратов. «Тюркские этнонимы: каракалпак, чёрные клобуки, черкес, башкурт, кыргыз, уйгур, тюрк, печенег, сак, массагет, скиф». Нукус, 1986,

17 В.Кубарев. «Пазырыкские сюжеты в петроглифах Алтая», http://new.hist.asu.ru/skif/pub/skep/kuba.html

18 Н.Аристов . Заметки об этническом составе тюркских племён и народнойстей и сведения об их численности//Живая старина. СПб., 1896

müəllifləri isə bu sıraya «balıq» kəlməsini də əlavə edirlər».[19] Rusiya Elmlər Akademiyası Böyük Pyotr adına Antropologiya Muzeyinin elektron kitabxanasının saytında R.Rassudova belə bir fantastik fərziyyənin sahibidir. Onun qənaətinə əsasən, «sak» etnonimi «sart» sözünün təhrif olunmuş variantıdır və qazax dilində «sarı it» anlamını verir. Yəni «**köçəri maldar olan qazaxlar oturaq həyat tərzi keçənləri belə adlandırırdılar. Sartlar bu** ərazidə **eramızdan** əvvəl **VII–VI** əsrlərdən **etibarən yaşayırlar və onlar «sak», «massaget» və s. adlarla da tanınırdılar»**.[20]

Normal məntiqə əsasən, əgər iki tədqiqat obyekti arasında Binar Oxşarlıq Əmsalı göstəriciləri, yəni eyni elementlərin sistemli şəkildə çoxluğu müəyyən edilirsə, bu, artıq «bənzərlik» və ya «təsadüf» xarakteri daşımayan «qanuna-uyğunluq» hesab olunur. Bir çox elm sahələrində, o cümlədən sosiologiyada da tətbiq olunan bu metod sayəsində tanınmış balkar alimləri İsmayıl Miziyev və Qazi Laypanov qədim saka-skif və türk etnik mədəniyyətləri arasında çox-saylı paralellər aşkarlaya bilmişlər. Məsələn:

- *Ortaq ənənələr, inanclar, tanrılar və mifoloji obrazlar arasında oxşarlıq;*
- *Çoxsaylı linqvistik elementlər;*
- *Köçəri maldarlıq;*
- *Məzarlara mərhumlara məxsusu atların və qurbanlıq heyvanların cəsədlərinin, silahların qoyulması, cənazələrin altına həsir və ya keçə alt-lıqların döşənməsi;*
- *Keçədən dairəvi və alaçıq tipli müvəqqəti yaşayış evlərinin tikilməsi;*
- *Qida rasionunda at əti və südündən, kumıs və ayrandan, tez hazırlanan ət və xəmir xörəklərdən geniş istifadə olunması;*
- *Kurqan məzarlıqları və s.*[21]

  Lakin həmin etnomədəniyyətlər arasında Oxşarlıq Əmsalı göstəriciləri bununla kifayətlənmir. Son illərdə aparılan tədqiqatların nəticələrinə görə yuxarıdakı siyahıya digər ortaq xarakterli amilləri də əlavə etmək olar:
- *Ortaq rəmz və damğa işarələri;*
- *Orduda eyni təşkilat prinsiplərindən və döyüş qaydalarından (dördnala çapan vəziyyətdə arxaya ox atmaq, «qurd oyunu» taktikası və s.) istifadə olunması;*

19 Paul Nazaroff \"Hunted Through Central Asia\" Oxford University Press 1993 First published 1932

20 Р. Я. Рассудова, «Желтая собака (к истории этнонимов населения Северной Сырдарьи и Южного Казахстана)», Электронная библиотека Музея антропологии и этнографии им. Петра Великого (Кунсткамера) РАН http://www.kunstkamera.ru/lib/rubrikator/03/03

21 К.Лайпанов, И.Мизиев. «О происхождении тюркских народов Черкесск. Изд. ПАО «ПУЛ», 1993.

- *Ordunun aparıcı qüvvəsinin atlı döyüşçülərdən və xüsusilə atlı oxçulardan təşkil edilməsi;*
- *Qədim atıcı silah təsnifatlarında «türk yayı» adlandırılan kompozit (mürəkkəb, çoxtərkibli) sərt yayların yaradılması və istifadəsi;*
- *Ortaq toxuculuq üslubuna və bəzək ünsürlərinə söykənən xalçaçılıq və keçəçilik sənəti;*
- *Atçılıq ənənələri və ləvazimatı;*
- *Ortaq kulinariya nümunələri. Herodot yazırdı ki, «Skifin əlinin altında qazan olmayanda əti belə bişirir: Əti sümükdən aralayır və təmizlənmiş heyvan qarnının içərisinə yığır. Sonra həmin heyvanın «sümuklərindən ocaq qalayır və beləliklə, öküz özü-özünü bişirirdi». Ətin bu üsulla hazırlanması qaydası türk xalqlarının etnik mətbəxində (Azərbaycanda: «dəri kababı», «qarın kababı», «çoban kababı») indi də qalmaqdadır.*

Sözün qısası, bəzi tarixçilərin bütün səylərinə baxmayaraq, saka-skif sivilizasiyası, onların maddi-mənəvi irsi əsas etibarilə türk xalqlarının etnik mədəniyyətində qorunub-saxlanılmış və inkişaf etdirilmişdir. Lakin saka-skif konfederasiyasında türk tayfalarının fəal iştirakını təsdiqləyən dəlillərdən biri də həmin dövrlərdə mövcud olmuş qədim dövlətlərə və tayfa birliklərinə aid rəmz və damğa işarələridir. Eramızdan əvvəl V-IV əsrlərə aid olan Pazırıq *(basırıq – əski türkcədə «dəfn yeri», «məzarlıq»)* arxeoloji abidələri bir vaxtlar Altay, Ön Asiya, Mərkəzi Asiya və Cənubi Avropanı əhatə etmiş qədim saka-skif mədəniyyətinin bir nümunəsidir.

Cədvəl 10. Bəzi Pazırıq işarələrinin[22] və ortaq türk damğalarının[23] identikliyi

Pazırıq	
Ortaq türk damğaları	

İkinci məqam. Pazırıqdakı beşinci kurqandan tapılan süjetli mərasim xalçası isə bugünədək dünyanın ən qədim xalı nümunəsi hesab edilir. Onun üzərindəki həndəsi naxışlar, quyruğu düyünlənmiş at, döyüşçü, müqəddəs maral təsvirləri və damğa işarələri unikal xalçanın etnik mənşəyi

22 С.Яценко. «Знаки-тамги ираноязычных народов древности и раннего средневековья». Москва: «Восточная литература», 2001.
23 И. Баски. «Тамги и этнические названия (Вклад тамга-знаков в этногенез татар)»// Татарская археология, 1997, №1.

barədə gərgin müzakirələrə səbəb olmuşdur. Doğrudur, tarixən xalçaçılıq ənənələrinə malik olmayan ermənilər də bu xalçaya iddialılar sırasına qoşulsalar da, toxunuş üsulu, üzərindəki rəmz və ornamentlər onun Azərbaycan ərazisində hazırlanmasına və ortaq türk mədəniyyəti nümunəsi olmasına şübhə yeri qoymur. Azərbaycan alimləri - professor Firudin Ağasıoğlu, İlqar Hüseynov və Nigar Əfəndiyeva, türkmən araşdırmaçısı Əhməd Bekmuratov, türkiyəli Fuad Tekce və Fəxrəddin Kırzıoğlu birmənalı olaraq onun toxunma üslubuna, damğa işarələri təsvirlərinə görə 24 oğuz boyunu simvolizə etdiyini və əski türk xalçası olduğunu sübuta yetirmişlər. Onların qənaətinə görə, skif tayfa başçısının dəfn mərasimində istifadə olunmuş Pazırıq xalçası eramızdan əvvəl V əsrdə Azərbaycanda, Qarabağ ərazisində toxunmuşdur. İ.Hüseynov və N.Əfəndiyeva öz fikirlərini belə əsaslandırırlar: **«Azərbaycanda dövlət quran saqa boyu oğuz türkləri idi. Çünki antik çağ yazarlarının qələmə aldıqları elbəyi saqaların** *(çar skiflərin)* **şəcərə və mifologiyasında keçən adlar oğuz türkcəsində olub, sonrakı Oğuznamələrdə də təkrar olunur. Qafqaz Albaniyasında Sakasena bölgəsi onların adı ilə bağlı idi. Şəki, Şağan, Pir-Saqat və xeyli sayda Saqatlı** *(Sahatlı, Saatlı)* **yer adları atlı saqa boylarından qalmadır. Beləliklə, e.ə. VII əsrdə Quzey Azərbaycanda hakimiyyətdə olan saqa (oğuz) boyları buradakı xalçaçılıq sənətinin, mərasim xalçaları üzərində oğuz boylarının rəmzləri** *(yabanı heyvanların stilizə olunmuş təsvirləri)* **saqaların tətbiqi sənətində «heyvan stilinin» inkişafına təkan vermişdir».**[24] Professor Firudin Ağasıoğlu isə bildirir: **«Şəhid olmuş türk döyüşçüsünü atı ilə birlikdə basdırmaq gələnəyi Azərbaycanda hələ e.ə. II minilliyin son əsrlərinə aid Şahtaxtı və Xaçbulaq kurqanlarında görünməkdədir. Orta əsrlərdə artıq atı deyil, onun daşdan yonulmuş heykəlini qəbrin üzərinə qoyurdular. Belə adət oğuzlarda da geniş yayılmışdır».** Pazırıq xalçası üzərindəki Tenqri-Günəş rəmzinin ✱ ən müxtəlif variantlarından bu gün də oğuz *(Azərbaycan, Anadolu, Türkmənistan)* xalçaçılıq sənətində geniş istifadə olunur. Maraqlı bir cəhət diqqət çəkməyə bilməz. Pazırıq məzarlığında aşkar olunmuş keçə ilə müasir qırğız, qazax, özbək, kumık, qaraçay, hətta çeçenlərin keçə məmulatının hazırlanma texnologiyaları və ornamentləri arasında genetik yaxınlığı müşahidə edən E.Maxova və N.Çerkasova onların ortaq mənbədən qaynaqlanması qənaətindədirlər.[25]

24 İ.Hüseynov, N.Əfəndiyeva. «Qədim dünya mədəniyyəti». Bakı, 2009.

25 Е.Махова, Н.Черкасова. «Орнаментированные изделия из войлока» //Народное декоративно-прикладное искусство киргизов.М., 1968.

Pazırıq xalçası (1) üzərində Tenqri-Günəş rəmzi; 2- 3. Anadolu və Qarabağ xalçalarında analoji ornament; Quba məktəbinə aid «Qollu-çiçi» xalçasından fraqment; 5. «1850-ci ildə toxunmuş erməni xalçası»[26] kimi təqdim olunan Qarabağ xalçasında həmin rəmzdən savayı, türk tayfalarına aid olan damğa işarələri *onların iddialarının əsassızlığını sübuta yetirir; 6.Ərdəbil xalçasında damğa işarəsi.*

Türkiyəli alim, türk xalçaları üzrə I Beynəlxalq Konqresin prezidenti Necat Diyarbəkrli də həmin xalçanın «İran mənşəli» olması barədə Qərb və Rusiya tarixçilərinin iddialarını rədd edərək, bu qənaətin regiondakı xalça toxunuşu texnologiyaları barədə məlumatsızlıqdan irəli gəldiyini bildirmişdir. Belə ki, Pazırıq xalçası fars asimmetrik üsulu ilə deyil, simmetrik türk ilmələri ilə toxunmuş və həmin üslub Azərbaycan, türkmən, qaraqalpaq, Anadolu və Qafqaz türklərinin xalçaçılıq sənətində bu gün də qalmışdır. Hər üç tədqiqatçı belə hesab edir ki, Pazırıq xalçasının mərkəzindəki 24 ornament hun bölgüsünün, o cümlədən oğuzların 24 boyunun rəmzidir. Təbii ki, ermənilərin bu unikal sənət əsərini də mənimsəməyi unutmaları onların «Böyük Ermənistan» xülyasına «bağışlanılmaz xəyanəti» olardı. Lakin ermənilərin Cənubi Qafqazın «ən qədim sakinləri» olması xülyası-

26 http://commons.wikimedia.org/wiki/File:Armenian_rug-7_Artsakh_Ani.jpg?uselang=ru

na təmənnalı xidmət edən Ulrix Şürman *(xalça ticarətində onun* şərikləri *ermənilər idilər),* Volkmar Qanthorn kimi tədqiqatçılar onun «Ermənistan ərazisində yerləşən Qarabağda» və tarixən xalçaçılıq ənənələri olmayan haylar tərəfindən toxunması fikrini ortaya atmışlar. Halbuki, Midiyanın, Qafqaz Albaniyasının, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin ayrılmaz hissəsi olan Qarabağın «Ərməniyyə» adlandırılan coğrafi məkanla heç bir əlaqəsi olmamışdır. Digər tərəfdən, haylar kütləvi şəkildə buraya ilk dəfə XIX əsrin əvvəllərində Rusiya imperiyasının işğalçılıq siyasəti nəticəsində İrandan köçürülmüşlər. Onlar Pazırıq irsini «Qarabağda toxunmuş erməni xalçası» adlandırsalar da, dünya xalçaçılıq sənətində, hətta bu sərsəm iddianın müəllifləri olan Yerevan alimlərinin leksikasında hələlik nə «erməni damğası», nə də «erməni xalça ilmələri» terminləri mövcuddur…

Üçüncü məqam. 1993-cü ildə Altay Respublikasının Ak Alaka *(Ağ axın)* çayı sahilində, Ukok yaylasındakı saka-skif məzarlıqlarında aparılmış arxeoloji qazıntılar nəticəsində unikal qadın mumiyası aşkar olunmuşdur. Heyrətamiz dərəcədə yaxşı saxlanılmış və şərti olaraq, «Ukok şahzadəsi», «Oçı Bala» *(Altay miflərində* əfsanəvi *gözəl qızın adı),* «Altay şahzadəsi» adları verilən cəsədin qadın şamana və ya hökmdar sülaləsindən olan xatuna aid edildiyi barədə ehtimallar vardır. Onun eramızdan əvvəl təqribən VI əsrdə dəfn olunduğu güman edilir. Hazırda Qorno-Altaysk şəhərindəki A.Anoxin adına Milli Muzeydə saxlanılan mumiya üzərindəki döymənaxış *(tatu)* üsulu ilə vurulmuş çoxsaylı sakral təsvirlər arasındakı bir sıra rəmzlər ortaq türk damğalarından fərqlənmir və tətbiqi sənətdə bu gün də istifadə olunur.



Pazırıq qurqanındakı insan cəsədi üzərində döymənaxış (tatu) üsulu ilə çəkilmiş rəmz.[27]

27 С.И. Руденко. «Горноалтайские находки и скифы» / Итоги и проблемы современной науки. М.-Л.: 1952.



Həmin rəmzin Azərbaycan xalçalarında (1-2),[28] qazaxların keçə məmulatında (3) [29] başqırd tikmələrində (4), [30] Dağıstan (kumık, qaraçay)[31] (5) və Anadolu kilim naxışlarında (6)[32] bəzi variantları.

Bir qədər də sarmat işarələri barədə. Herodot yazırdı ki, skiflər və sarmatlar *(savromatlar)* qohumdurlar. Çünki skiflərlə amazon qadınların izdivacından yaranmışlar. Sarmatların midiyalılarla yaxınlığı haqqında isə Roma salnaməçisi, «şərəfli yaddaş haqqında» coğrafiya əsərinin müəllifi Qay Yuli Solinus *(eramızın III* əsri*)* yazırdı: «**Asiyada yaşayan savromatlar midiyalıların törəmələridir və** Şərqdə**, Xəzər dənizi sahillərində yaşayan tayfalarla qonşudurlar**».[33] Elmi ədəbiyyatda qeyd edilir ki, sarmatların tərkibində Qərbi Sibirdə, Mərkəzi Asiyada yaşayan tayfalar da vardır. Eramızdan əvvəl IV əsrdən eramızın IV əsrinə kimi olan dövrdə sarmatlar Qazaxıstanın qərb hissəsindən, Cənubi Uraldan tutumuş Qafqaza və Şərqi Avropayadək yayılmışlar. Onlar əvvəllər bolluq rəmzi olan qoça *(qoçqara)* tapınmış, sonralar isə sakalar kimi müharibə ilahisinə və qılınca sitayiş etmişlər. Əsas silahı yay-ox olan sarmat qoşunları saka hərb sənəti əsasında qurulmuşdur. Qoşunun avanqard hissəsi atlılardan, xüsusilə ağır zirehli atlı döyüşçülərdən ibarət idi.

Saka-skif və sarmat damğa işarələri arasında oxşar elementlər çox olsa da, onları bir-birindən fərqləndirən cəhətlər də vardır. Məsələn, saka-skif işarələrinin böyük hissəsi türk damğaları kimi xarakterik üsluba malikdir. Bu

28 «Azərbaycan xalçaları», cild 2, №4, 2012.

29 http://hameleons.com/kazakhstan-design/24498-kazaxskie-ornamenty.html

30 «Башкирский народный костюм», http://900igr.net/prezentatsii/geografija/Bashkirskij-narodnyj-kostjum/014-Bashkirskij-narodnyj-kostjum.html

31 «Дагестанские ковры», http://articles.agronationale.ru/pigs/1907-dagestanskie_kovry

32 «Halı Motif Özellikleri Desen Hazırlama», http://www.halidesenmodel.com/2012/04/hali-motif-ozellikleri-desen-hazirlama.html

33 Г.Гейбуллаев. «К этногенезу азербайджанцев», Баку, 1991.

damğalar əsasən bir neçə seqmentdən – sınıq və kəsişən xətlərdən, iti, düz və kor bucaqlardan, dairələrdən ibarətdir. Eyni damğalar və oxşar semantika saka-skif konfederasiyasında türk tayfalarının dominant rolunu təsdiqləməkdədir. Türk damğaları təsnifatına əsasən, bir sıra sarmat tayfa işarələrinə  və s. [34] hun, xəzər, Bulqar, Qızıl Orda, Altay, Krım, Qafqaz, Cənubi Qafqaz, Anadolu və Mərkəzi Asiyadakı türk xalqlarının tanınma-fərqləndirmə nişanları arasında rast gəlirik. Lakin spesifik sarmat damğaları arasında iran-dilli xalqlara aid işarələr də çoxdur[35]. Məsələn:   və s. O da maraqlıdır ki, sarmat damğalarına əhəməni və sasani damğaları arasında deyil, kabardinlərin, irandilli osetinlərin nəsil-tayfa nişanları içərisində daha çox rast gəlirik. Eyni zamanda, osetin işarələri içərisində spesifik türk damğaları da vardır.[36] Bu isə o deməkdir ki, sarmat konfederasiyası etnik baxımdan yekcins olmamış, həqiqətən də türk və iran-dilli tayfaların ittifaqı xarakterini daşımışdır.

Vasili Abayev mənsub olduğu osetin xalqının maraqlarından çıxış edərək «sarmat» etnonimini İran dilləri vasitəsilə «qarasaçlılar», «qarapapaqlılar» və ya «qarabaşlılar» kimi izah etmişdir. Bu subyektiv fikir geniş elmi təsdiqini tap-masa da, əks mövqedə dayananlar üçün vacib «ipucu» verməkdədir. Məlumdur ki, sarmatların hun, oğuz və qıpçaqlarda xüsusi təlim görmüş peşəkar döyüş-çü zümrələri həm də papaqlarının forması və rəngləri ilə seçilmişlər. Məsələn, «qızılbaşlar», «qonurbaşlar», «qarapapaqlar», «qaraqalpaklar», «qarabörklülər» və s. Bu baxımdan, sarmatların irandillilər tərəfindən «qarabaşlılar» adlandı-rılması məhz əski türk hərb sənəti və etnonimlər baxımından tamamilə izaho-lunandır. «Kitabi-Dədə Qorqud» dastanındakı «**qarğa dilli, üzəngisiz ipdən olan qarabörklülər**» ifadəsini xatırlatmaq yerinə düşər. Onu da xatırladaq ki, hazırda Gürcüstanda, Türkiyədə və İranda yaşayan qarapapaqların – etnik azərbaycanlıların aparıcı qollarından biri «çirak» *(qədim mənbələrdə «şirak», «sirak» kimi də işlənir)* adlanır. «Çirak» və «Şirak» adlarını daşıyan tayfalar bu gün Mərkəzi Asiyada da vardır. Dağıstan alimlərindən Qazi Laypanov və İsma-yıl Miziyev etnoqrafik və antropoloji əlamətlərin müqayisəli təhlili nəticəsində sarmatların türk etnosuna aid olduğunu bildirmişlər. Məsələn, antik tarixçilər, o cümlədən Strabon *(e.ə. I əsr)* Qafqazda olarkən sarmatların qidalarında at ətinin,

34 Л.Лавров. «Историко-географические очерки Кавказа». Л.,1978.
35 В.С. Ольховский, «ТАМГА (к функции знака)»// Историко-археологический альманах, No 7, Армавир, 2001
36 Yenə orada

təzə və «turşumuş» südün *(kumıs)* əsas yer tutduğunu qeyd etmişdir. Bundan başqa, Avropa ərazisindəki sarmat məzarlıqlarından tapılmış kəllə sümüklərinin Pazırıq kurqanlarındakı analoji sümüklərlə müqayisəsi bu xalqın türk mənşəli olduğunu sübuta yetirir. Sarmat və hunlar Şərqi Sibirdə və Baykal gölü sahillərində sıx təmasda yaşamış, vahid etnomədəni məkan formalaşdırmışlar.[37]

Hazırda qaraqalpaqlar, qazaxlar və qırğızlar arasında «sarmat», «şermet» etnik qrupları vardır. Şimali və Cənubi Qafqazda, Mərkəzi Asiyada sarmatların əsas qolları sayılan «sirak» *(çirak),* «aors» *(aruz),* «basil» *(barsil – bars eli və ya baş il/el),* «yazıq» türk tayfalarının adlarını əks etdirən yer adları indiyədək qorunub-saxlanılmışdır**.**

Etnik qrup kimi qəbul olunan siraklar çoxsaylı olmamışlar. Strabon yazır ki, sirak hökmdarı Abeak *(Abak - qədim türk dillərində «gümrah», «sağlam»,eləcə də «əmi»)* Bosfor hakimi Farnakın dövründə *(e.ə.63-47-ci illər)* yalnız iyirmi minlik qoşun toplaya bilmişdir. Onlar bütövlükdə oturaq olsalar da, zadəganları yarımköçəri həyat tərzi sürürdülər. Siraklardan şimalda və şərqdə isə digər türkdilli sarmat tayfaları – aorslar yaşayırdılar. Strabon aorsları iki qismə bölürdü: onların bir hissəsi Qara dəniz sahillərində, digəri isə Xəzər dənizi yaxınlığında məskunlaşıblar.

Təqibdən yayınan kimer (saka-skif) atlıları (e.ə. VII əsrə aid Assuriya barelyefindən fraqment). Yəhərin üzəngisiz olması nəzərə alınmazsa, atlıların geyimi və papaqları XVI-XVIII əsr Azərbaycan döyüşçülərindən seçilmir. Bəlkə də, bu yaxınlığa əsasən sarmatların (qarabaşların) qarapapaqların, qaraqalpaqların etnogenezinin köklərini daha qədimlərdə axtarmaq lazımdır.

37 К.Лайпанов, И.Мизиев. «О происхождении тюркских народов Черкесск. Изд. ПАО «ПУЛ», 1993.

Erməni saxtakarlığı. Abidələr, xalçalar, qayaüstü təsvirlər və rəmzlər

Azərbaycan və Anadolu türklərinə məxsus milli mədəniyyətin «qədim erməni sivilizasiyasından» qaynaqlanması barədə Yerevan tarixçilərinin iddiaları əsassız olduğu qədər anlaşılandır. Gerçəkliklərin məqsədli şəkildə saxtalaşdırılmasında bədnam tarixçilərin oynadıqları siyasi rolu polşalı şair və dramaturq Zbiqnev Yejina dəqiqliklə belə qiymətləndirmişdir: **«Hər şey Rəbbin əlindədir. Yalnız Tarix onun nəzarətindən çıxa bilmişdir»**. Mənimsəmələrin tamamilə əks proses olduğunu, ermənilərin daim türk superetnosunun, ortaq türk mədəniyyətinin himayəsində olduğunu görmək üçün Movses Xorenatsinin, Koryunun, Ohanes Drazxanakertsinin, Aprakel Təbrizinin *(Davrijetsi)* əsərləri və erməni katolikosunun I Şah Abbasa ünvanladığı minnətdarlıq məktubları ilə tanış olmaq kifayətdir. Üstəlik, erməni alimi Levon Dabeqyan etiraf edir ki, **«Ermənilər öz milli varlıqları üçün məhz türklərə borcludurlar. Əgər biz bizanslılar və ya digər avropalılar arasında yaşasaydıq, «erməni» adı yalnız tarix kitablarının səhifələrində qala bilərdi».**[38] Erməni yazıçısı Xaçatur Abovyan isə yazırdı: **«Türk dilini lənətə gəlsin! Lakin bu dil Rəbbin xeyir-duasını alıb... Bütün şənliklərdə və toy məclislərində biz türkcə oxuyuruq».**[39] Bu tipli etirafların sayını xeyli artırmaq olar.

Ermənilərin, daha doğrusu, hayların «oturaq yaşam tərzi» haqqında isə hətta özlərinin qəti elmi qənaətləri yoxdur. Gerçəklik kimi təqdim olunan müasir rəvayətlər isə Nuh peyğəmbərin Ağrı dağına ayaq basdıqdan sonra qəflətən ermənicə dil açıb çaylara, yüksəkliklərə, ulduzlara erməni adları verdiyini deyir.[40] Ən mötəbər etiraf isə tanınmış erməni alimi Manuq Abeqyana məxsusdur: «**Erməni xalqının kökləri haradadır? Buraya necə, nə vaxt, haradan və hansı yolla gəlib?... Bizim bu barədə dəqiq və aydın sübutlarımız yoxdur**».[41] Erməni tarixinin patriarxı sayılan Movses Xorenatsi qədim yəhudi mifologiyasındakı olayları məharətlə mənimsəyərək, müasir hüquqi anlamda desək, «Tövratın müəlliflik hüququnu kobud şəkildə pozaraq» Musa peyğəmbər və yəhudilərin Misirdən köç etməsi ilə bağlı məlum rəvayətin remeyk variantını işləyib hazırlamış, mifik personaj olan «proto erməni» Haykı və onun cəmi 300 nəfərlik köçəri qövmünün şəcərəsini cidd-cəhdlə yəhudilərə

38 «Gəldim, gördüm... mənimsədim (Azərbaycan mədəni ənənələrinin mənimsənilməsinin erməni ənənəsi haqqında)». Bakı, 2010.

39 Х.Абовян. «Раны Армении». Ереван, 1955.

40 З.Балаян. «Оджаг». Ереван, 1984.

41 М.Абегян. «История армянской литературы». Ереван, 1975.

və İncildə adları çəkilən Yəhuda şahlarına bağlamağa çalışmışdır. Nəhayət, adı olmayan 300 nəfərlik «zavallı qövmün» *(Xorenatsiyə görə, «hay» etnonimi əfsanəvi Haykın şərəfinə götürülmüşdür)* qəddar Babilistan hökmdarı Belin zülmündən qaçaraq Ağrı dağının ətəklərinə sığındığını bildirmişir.[42]

Yəhudilərin Babilistan dövlətinə mənfi münasibətlərinin tarixi kökləri aydındır. Lakin erməni salnaməçisinin göstərdiyi səylərin də məntiqi izahı vardır: Müəllifi başa düşmək olar. Özünün etiraf etdiyi kimi, kitabın sifarişini Şmbat yəhudi nəslindən olan işxan Saak Baqrat *(İshak Baqratuni)* vermişdir. Yəhudi dini ədəbiyyatında Babilistana potoloji qəzəb hissini ustalıqla nəzərə alan Xorenatsi də sifarişçinin könlü xoş olsun deyə, bu nifrəti öz salnaməsində kəskin şəkildə qabartmışdır. Bu səylərin Xorenatsinin qonorarına nə dərəcədə təsir etməsi barədə isə tarix hələ də susur. Qeyd edək ki, Babil hökmdarı Novuxodnosor *(e.ə. 634-562-ci illər)* Yerusəlimi işğal etdikdən sonra buradakı yəhudi məbədlərini dağıdıb talamış, təqribən 40 min insanı əsir götürmüşdür. Bu hadisə yəhudi xalqının etnik tarixində və milli yaddaşında silinməz iz buraxmışdır. Əhəməni hökmdarı II Kir *(e.ə. 559-530-ci illər)* Babilistanı bir dövlət kimi tarix səhnəsindən sildikdən sonra yəhudilərin təqribən 50 illik əsarəti sona yetmişdir. Bununla da hökmdar Kir iudaizm dininin müqəddəsləşdirdiyi ilk iranlı *(sırada ikinci hökmdar Artaksersdir)* olmuşdur. Lakin əsirlikdə məruz qaldıqları məhrumiyyətlər yəhudilərin dini təsəvvürlərində, sonralar isə xristianlıqda dərin iz qoyaraq, Babilistana və onunla əlaqəli olan hər bir anlayışa dərin nifrətə çevrilmişdir. Bəşər sivilizasiyasına misilsiz töhfələrini vermiş bu dövlət Tövratın ayrı-ayrı kitablarında günah, rəzalət və ədalətsizlik rəmzinə çevrilmişdir. Hətta xristian dinində də bu qərəzli münasibətin elementləri, məsələn, «pozğun Babilistan» ifadəsi saxlanılmışdır. Həvari Yəhyanın Müjdəsində deyildiyi kimi: «**Mən sənə dünyadakı bütün murdarlıqların anası olan… böyük Babilistan üzərində məhkəməni göstərərəm**» *(17:1-5)*.

M.Xorenatsinin qənaətinə əsasən, ermənilər, daha doğrusu, köçəri haylar əslində Ağrı dağının ətəklərinə sürgün edilərək buradakı yerli əhaliyə qarışmış yəhudilərdir. O da məlumdur ki, eramızdan əvvəl 719-cu ildə romalılar İsrail şahlığını tam süquta yetirdikdən, əhalisini isə «vəd olunmuş torpaqlardan» çıxardıqdan sonra yəhudi nəsillərinin bir qismi Assuriya, Midiya torpaqlarına köç etmiş, yerli əhaliyə qarışmışdır. Tövrata daxil olan Yirmeyahunun kitabında yazılır ki, həmin əhali şimaldakı dağlıq ərazilərə aparılmışdır: **«Onların üzəri göydən enən buludlarla örtüldü, arxalarında isə qara dağlar ucaldı».**[43] XI

42 М.Хоренаци. «История Армении». Москва, 1893.

43 Tora.

əsrdə yaşamış gürcü tarixçisi Leonti Mroveli də «Kartli hökmdarlarının həyatı» əsərində ermənilərin Babilistan kökənli olmasını, Rəbbin məqamına çatmaq niyyəti ilə Babil qülləsinin tikintisində iştirak etdiklərini, Yaradanın yolunu azmış bəndələrə göndərdiyi cəzadan sonra sərgərdan olub Ağrı dağı ətrafına köç etdiklərini yazır.[44] Ön Asiyaya sürgün edilmiş yəhudilər xristianlığı zorən qəbul etdikdən sonra erməni mədəniyyətinin və qriqorian məzhəbinin formalaşmasında yaxından iştirak etmişdilər. Belə ki, erməni folklorunda, memarlığında yəhudi etnik mədəniyyətinin elementləri özünü qabarıq göstərməkdədir. Məsələn, Ağtomar adasındakı *(Türkiyə, Van gölü)* qriqorian kilsəsinin üzərindəki barelyeflərin əksər hissəsi nədənsə İsa Məsihlə əlaqəli olayları deyil, məhz Tövrat rəvayətlərini əks etdirir. Burada baş daşı kimi qoyulmuş xaçların böyük hissəsi və ən qədimləri isə erməni-qriqorian «xaçkarlarından» fərqli olaraq bərabərtərəflidir. Maraqlıdır ki, hansısa «naməlum qüvvələr» məhz həmin xaçların aşağı hissələrini, onları erməni dini atributundan fərqləndirən seqmentləri sındırmışlar. Təsadüfi deyildir ki, yəhudi mədəniyyətinin görkəmli nümayəndələrindən biri - bəstəkar, musiqi nəzəriyyəçisi Avraam Svi İdelson XIX əsrin əvvəllərinə kimi erməni-qriqorian kilsəsində dini ayinlərin icrası zamanı Babil və Yəmən yəhudilərinin kantilyasiyalarından *(müqəddəs mətnlərin avazla qiraəti üçün vəznlərdən)* istifadə olunduğunu bildirirdi. Ötən əsrin əvvəllərində rus dilində nəşr edilmiş «Yəhudi ensiklopediyası» məlumat toplusunda yazılır ki, «**Bəzi ermənilər öz xalqlarının yəhudi nəsillərindən törəndiyini bildirir və adətləri arasında oxşar cəhətləri sübut kimi göstərirlər… Van vilayətində yaşayan 5000 yəhudidən yalnız 360-ı iudaizmə sadiq qalmış, qalanları isə erməni dinini qəbul etmişdir**». Hazırda Türkiyədəki ermənilərin «pakardons» adlanan dini icmasının yaşam tərzi və ənənələri bu mülahizələri təsdiqləməkdədir. Onlar özlərini «xristian» adlandırsalar da, Şabata *(Şabbata – dünyanın yaranışının yeddinci günü. Tövrata əsasən, Rəbb həmin gün bəndələrinə istirahət etməyi buyurmuşdur)* və iudaizmdən irəli gələn digər adətlərə dəqiq riayət edirlər.[45]

Erməni mənşəli amerikalı tədqiqatçı R.Ovanesyan isə Xorenatsidən fərqli düşünür. O, Los-Anjelesdə işıq üzü görmüş «Ermənistan müstəqillik yollarında» kitabında hayların regiona miqrasiyasının «Babilistan marşrutunu» qeyri-məqbul sayır. Yazır ki, bu xalq Ön Asiyaya «hind-avropalı fatehlər» kimi şimaldan ayaq basmış, buradakı yerli əhalini ram edərək etnik assimilyasiyaya məruz qoymuş, yəni «ermənileşdirmişdir». Bu fikri erməni akademiki Suren Ayvazyan belə inkişaf etdirir: «**Ruslarla eyni kökdən olan ari-ermənilər eramızdan əvvəl XV əsrdə öz zəngin dillərini hətta farslara və hindlilərə də ötürmüşlər.**

44 М.Леонти. «Жизнь картлийских царей». М.: «Наука», 1979.

45 А.Зелев. «Армяне потомки десяти колен Израиля», www.Druzya.com.

Bu mədəniyyətin daşıyıcıları aborigenlər üçün kosmosdan enən yadplanetli elçilər idilər».[46] Necə deyərlər, «əlavə diaqnoza ehtiyac yoxdur». Siyahıya erməni mənşəli İran tarixçiləri də qoşulurlar. Qrant Pasdırmaçyan and içir ki, ermənilərin tarixi vətəni Şərqi Sibirdir. Onlar Altay dağlarının ətəklərindən köç edərək əvvəlcə Balkanları ələ keçirmiş, oradan da Ön Asiyaya gəlmişlər. Onun həmyerlisi Andronik Xoyan müəmmalı ulu əcdadlarının mənşəyi barədə daha bir «kəşfin» müəllifidir. Kimerlərin, saka-skiflərin, sarmatların da əslində «qədim ermənilər» olduqlarına eyham vuran «alim» bunları bildirir: **«Əsl arilər olan hayların protovətəni «Böyük Üçbucaq» - Aral gölü, Amudərya çayı və İranın Mazandaran vilayəti arasında olan geniş ərazilərdir»**. Bu siyahını başqa bir səbirsiz erməni «müdriki» qapayır. Görünür, ufologiyaya dair qorxulu filmlərin təsirindən rühi sarsıntılar keçirən Ruben Kuryan «erməni» kəlməsinin türk mənşəli olmasını təsdiqləyir, amma Adəm peyğəmbərin etnik mənşəyinə iddiasını da gizlətməyərək, bunun «Yer + man», yəni «Yer planetinin köklü sakini», «Yer kürəsinin ilk adamı» anlamını verdiyini bəyan edir. Rubenin «məntiqindən» belə qənaətə gəlmək olar ki, dünyanın digər xalq və millətləri bu planetə «Yer adamlarından» sonra ayaq basmışlar. Onun fikrincə, ermənilərin yadplanetli kimi ilk məskunlaşdıqları torpaq müasir İsveç ərazisi olmuşdur *(növbəti ərazi iddiaları üçün yaxşı zəmindir)*. Rubenin qovluğunda bu barədə «təkzibolunmaz» sübutlar da var: **«Çünki İsveç dilində «vent» kəlməsi «küləк» bildirir. Məlumdur ki, coğrafi adı bu sözdən törəyə bilən Van gölünün də üzərində arabir güclü küləklər əsir»**. Elm bu cür məntiq qarşısında yalnız başını aşağı sala bilər!

Məlumdur ki, erməni tarixçiləri öz paranoik ideyalarını gerçəkləşdirmək, ermənilərin Cənubi Qafqaz regionunda məskunlaşmasını az qala Nuh peyğəmbərin dövrü ilə bağlamaq üçün ən müxtəlif üsullara əl atırlar. Məsələn, Ermənistan Milli Elmlər Akademiyasının Tarix İnstitutu Göyçə, Geğam, Dəvəboynu *(indiki «Uxtasar»)* piktoqrafik rəsmlərini vaxt itirmədən ermənilərə şdirmək, onları «erməni xalqının qədim maddi-mənəvi irs nümunəsi kimi» qələmə verib UNESCO-nun siyahısına daxil etmək məqsədilə «ARARAT» adlı yeni ictimai təşkilat *(Qayaüstü Təsvirlərin Öyrənilməsi üzrə Erməni Birliyi)* yaratmışdır. İnstitutun əməkdaşı və bu birliyin sədri Karen Toxatyan bildirir: **«Ermənistan yaylasının qayaüstü incəsənətinin ənənələri, semantikası və təkrarolunmazlığı bu ərazinin qədim sivilizasiya mərkəzi olmasını və mədəniyyətlərin həmin mərkəzdən ətrafa yayılmasını təsdiqləyir. Çoxsaylı arxeoloji, etnoqrafik, astronomik və kulturoloji faktlar qədim dünyanın sivilizasiyalarının təşəkkülündə erməni**

46 С.Айвазян. «История России. Армянский след». Москва, 1998.

mədəniyyətinin aparıcı rolunu göstərir».[47] Bu qurumla əməkdaşlıq edən alimlər, məsələn, tarix elmləri doktoru, professor V.Vaqanyan sanballı ada malik «Qədim ermənilərin digər xalqların – iranlıların, hindlilərin misirlilərin və Köhnə Avropanın sakinləri ilə dünyagörüşü mübadiləsi və mədəni əlaqələri» məqaləsində Geğam qayaüstü rəsmlərinin birində mifik Haykın Babil hökmdarı Bel üzərində qələbəsinin təsvir olunduğunu iddia edir. Halbuki, qaya üzərində iki insanın - qadın və kişinin rəqsi həkk olunmuş bu təsvir adı bəlli, soyu naməlum Haykın öz tayfasının Babilistan ərazisindən Ağrı dağı ətəklərinə gətirməsindən ən azı 2500 il əvvəl çəkilmişdir. Əlbəttə, belə «xırda xronoloji detal» məhdud erməni fantaziyası üçün ciddi maneə ola bilməzdi! Ona görə «məhdud» deyirik ki, Vaqanyan kimilər əllərinə düşmüş real şansı - həmin təsviri «dünyanın ilk ermənilər», yəni Adəm və Həvva ilə bağlamaq imkanını əllərindən qaçırmışlar. V.Vaqanyan sonra yazır: **«Döyüş səhnəsini canlandıran təsvirdə qəbilə başçısı (***hökmdar***) nəhəng oxunu nəhəng yayına qoyaraq düşmən üzərinə atır. Yay çox böyük olduğu üçün aşağı hissəsi ştativə (***?***) bərkidilmişdir. Bu qədim dövr üçün qeyri-adi olan mühəndis yanaşması idi. Solda isə «müqəddəs kərtənkələnin» (***Belin rəmzinin***) təsvirini görürük».**[48] Beləliklə, qəhrəman Hayk erməni dilində «laynaliç», yəni «göl kimi geniş» adlandırılan və təbii ki, dünyada analoqu olmayan yayının bir ucunu «müqəddəs erməni torpağına» dayayaraq əzazil Beli nişan alır, onu məhv edir və bununla da erməni xalqının özgə torpaqlarında xoşbəxt və firavan gələcəyinin təməlini qoyur.





Ardıcıllıqla: Geğam petroqliflərindəki rəqs edən insanların və ya «ştativli yayı çəkən Haykın» təsviri: Pazırıq xalçasındakı yəhər təsvirində analoji rəmz. Bu işarə qırğız xalçaçılığında «kosmüyiz» (qoşa buynuz) adlanır.[49]
Başqırd xalq tətbiqi sənətində «kuçkar» ornamenti [50]

47 «Мессиджи далеких предков», «Голос Армении», 6 ноябрь, 2011, No 127
48 В. Ваганян. «О мировоззренческих и культурных связях древних армян с предками иранцев и индийцев, египтян и жителями Старой Европы (о рождении мотива борьбы Митры с быком)», http://grishashax.livejournal.com/31874.html
49 И.Раимбердиева. «Таинственный мир кыргызских узоров», http://www.akipress.org/comments/news
50 http://www.myshared.ru/slide/400487/#

İndi isə erməni salnaməçilərinə müraciət edək. Movses Xorenatsiyə *(yaşadığı dövr də yaradıcılığı kimi müəmmalıdır: VI əsrdən IX əsrə kimi)* görə, igid Hayk zavallı erməni xalqının düşməni olan Belə üçyeləkli *(dəmrəsi/ucluğu üçpərli olan)* ox atmışdır. Bu ox Babil hökmdarının çiynini deşib keçərək yerə sancılmışdır. Yepiskop Sebeos *(VII əsr)* isə Movsesin bəsit fantaziyası ilə razılaşmır və and içir ki, **«Bir ucu yerə bərkidilmiş nəhəng yaydan çıxan dəmrəsi ÜÇPƏRLI ox əvvəlcə Belin mis qalxanını, sonra DƏMİR ZİREHİNİ, daha sonra isə bədənini də deşib keçmiş və xeyli aralıda yerə düşmüşdür».** Burada diqqəti qədim atıcı silahların təsnifatı baxımından bir neçə məqam cəlb edir. Əvvəla, İ.Dyakonov, M.Piatrovski, E.Tompson, O.Maenxen-Gelfe, Y.Xudyakov kimi nüfuzlu alimlər arxeoloji materiallar və qədim mətnlər əsasında müəyyən etmişlər ki, mifik Haykın yaya qoyub atdığı üçyeləkli və ya ***dəmrəsi*** üçpərli ***ox*** tarixən saka-skiflərə, samatlara və kimerlərə məxsusdur, onlar tərəfindən regiona gətirilib və absurd «erməni oxçuluq sənəti» ilə heç bir əlaqəsi yoxdur. Bu isə erməni mətnlərinə inansaq, «babilistanlı Heraklın» - Haykın qəhrəmanlığından nə az, nə də çox – düz 3.500 - 4 min il sonra baş vermişdir. Bundan başqa, «Kitabi-Dədə Qorqud» dastanında «üçyeləkli» adlandırılan belə oxlar oğuz və qıpçaq tayfaları arasında da geniş yayılmışdır. Digər tərəfdən, həmin dövrlərdə dəmir nadir və qızıla bərabər tutulan metal olduğu üçün hətta hökmdarların zirehli geyimləri mis və bürüncdən olurdu, ən yaxşı halda isə qızıl təbəqə ilə örtülürdü. Bunu Yaxın Şərqdə, Ön Asiyada aparılmış arxeoloji qazıntıların nəticələri də təsdiq edir. Üçüncü məqam isə «etnik erməni yayının» forma və ölçüləri, ox atışı texnikası ilə əlaqədardır. Müasir erməni alimləri «laynaliçin» ölçülərini reallıqla bağlamaq üçün onu kiçildib-kiçildib hündürlüyünü 2 metr səviyyəsində saxlamaqla kifayətlənmişdilər. Əvəzinə isə heç bir tarixi mənbəyə istinad etmədən oxun ölçülərini artırmışdılar: «**Erməni oxları o dərəcədə böyük idi ki, düşmən onları yerdən yığaraq nizə kimi istifadə edirdi».**[51] Qədim silahlar üzrə ixtisaslaşmış mütəxəssislər və tarixçilər bu iddia ilə razı deyillər. Əvvəla, silahşünaslıqda «erməni yayı» və ya «erməni oxu» deyilən anlayışlar yoxdur. Dünya oxçuluq sənətində tarixən ən hündür yayların ölçüləri isə belədir: Qərbdə - ingilis yayı *(lonqbou)* - 2 metr; Orta əsr alman piyada oxçusunun yayı – 2 metr; Yapon yayı *(yumi)* – 2 - 2,2 metr. Ən nəhayət, Volqaboyu qıpçaq piyada oxçularının yayı - 1,8 metr. İlkin orta əsrlərə təsadüf edən qıpçaq yayının dartım qüvvəsi zəif, cəmi 13-14 kiloqram *(Azərbaycan və Osmanlı yaylarında – 80 kiloqram),* oxun uçuş məsafəsi isə 90 metr *(ana-*

51 В.Ваганян. «Каменная летопись цивилизации». Ереван, Нжар, 2006

loji olaraq, 350-800 metr) olduğu üçün geniş yayılmamış və hərb sənətindən çıxarılmışdır. Bir «xırda» məsələni də vurğulayaq. Professor Vaqanyan proto-ustadları M.Xorenatsi və yepiskop Sebiosun yazdıqlarından fərqli olaraq, Haykın elmi-texniki tərəqqinin nailiyyətlərindən bəhrələnərək daha innovativ yol seçməsini, «yayın ucunu üçayağa – ştativə» bərkitdiyini bildirmişdir. Əgər «təkrarolunmaz erməni oxatma üsulu» budursa, onun geniş şərhə ehtiyacı yoxdur. Tarix və qədim atıcılıq vasitələrindən, elementar fizika qanunlarından məlumatsız olan, qaya üzərindəki ibtidai kişi təsvirini «yay+ştativ» kimi yozmağa çalışan professor V.Vaqanyan bu iddiaları ilə nəinki Geğam qayaüstü təsvirlərinin ermənisayağı semantikası, o cümlədən «erməni oxçuluq sənəti» üzərindən qalın xətt çəkir. Çünki kirişin dartılması nəticəsində istər yayın, istərsə də arbaletin qollarına fiziki enerjinin bərabər şəkildə toplanması və oxa ötürülməsi üçün ən vacib şərtlərdən biri həmin qolların tamamilə sərbəst, maneəsiz və dayaqsız olmasıdır. Əks-təqdirdə, belə silahdan, xüsusilə «erməni yayından» ox atmaq qeyri-mümkündür.

Ermənistan tarixşünaslığında saxtakarlığın paranoya həddinə çatdırılmasına dair başqa bir misal. Bir vaxtlar hətta Ayın görünməyən tərəfinin və Mars səthinin ən qədim xəritələrinin Matenadaran kitabxanasında və Eçmiədzin arxivlərində saxlanıldığını iddia edən akademik Suren Ayvazyanın həmkarları tarixi Azərbaycan torpaqları – Göyçə və Zəngəzur ərazilərindəki qayaüstü təsvirlərin mənimsənilməsi üçün bu gün dəbdə olan paleoəlaqələr – yadplanetlilərlə qədim əlaqələr mövzusundan da bəhrələnməkdədirlər. Belələri Göyçə, Geğam, Dəvəboynu piktoqrafik rəsmlərinin semantikasının erməni mifləri çərçivəsində yozumunun mümkünsüzlüyünü nəzərə alaraq, onları hətta uzaq keçmişdə ulduzlardan gəlmiş astronavtların elmi təsəvvürləri ilə əlaqələndirməyə cəhdlər göstərirlər. Bu tipli «elmi məqalələrin birində bildirilir: **«Geoloqlar Q.Vartanov və O.Azizbekov bir sıra qayaüstü təsvirlərdə canlı materiya, həyatın yaranışı və dezoksiribonuklein turşusu (DNT) haqqında məlumatlara rast gəlmişlər. Təsvirlərin isə yeddi min il yaşı vardır. Əlbəttə, o dövrdə «Ararat yaylasının» sakinləri belə biliklərə malik ola bilməzdilər… Geğam dağlarının yamaclarında robotları xatırladan qayaüstü təsvirlər vardır. Onların hətta skafandrları da dəqiq görünür. Digər təsvirdəki robotun sinəsində isə monitor vardır. Bir neçə il bundan əvvəl erməni məktəbliləri Ararat dağının ətraflarında sinəsində ekran olan robotları və kosmik gəmiləri görmüşlər»**.[52] Erməni alimlərinin

52 М.Троицына. «У инопланетян время разбрасывать камни», http://othereal.ru/u-inoplanetyan-vremya-razbrasyvat-kamni/

paleoəlaqələrə misal olaraq göstərdikləri təsvirlərdən biri də Zəngəzurda, müasir Ermənistan Respublikasında, ötən əsrin 80-ci illərinin sonlarınadək etnik azərbaycanlıların tarixən məskunlaşdıqları Sisyan rayonunun Şəki kəndi yaxınlığındadır. Dəvəboynu (*indiki «Uxtasar»*) dağındakı qayaüstü təsvirlər eradan əvvəl III-I minilliklərə aid edilir. Mütəxəssislər onların üslub tərzini Qobustan, Gəmiqaya, Kəlbəcər, Urmiyə rəsmlərinin analoqu kimi dəyərləndirir və bəzi semantik elementlərini Kerç ətrafındakı Küloba arxeoloji mədəniyyəti, Qazaxıstan və Altay piktoqrafik rəsmləri ilə eyniləşdirirlər.[53] Həmin oxşarlıq, xüsusilə qaya təsvirlərinin yaxınlığındakı Şəki kəndinin adının «saka» etnonimi ilə bilavasitə bağlılığı, bu ərazinin Sünik vilayəti kimi Qafqaz Albaniyası ərazisinə daxil olması, rəsmlərdə saka-türk mifik təsəvvürlərinin və yaşam tərzlərinin inikası, arxeoloji qazıntılar zamanı tapılan etnik maddi-mədəniyyət nümunələri, eləcə də üçyeləkli dəmrələr erməni tarixçilərini çətin vəziyyətə salsa da, çıxış yolu tapmaq üçün yenə də yadplanetlilərə üz tutmuşlar. Yeri gəlmişkən, qədim və orta əsr mənbələrində ermənilərin dəvəçiliklə məşğul olması haqqında məlumata rast gəlməzsiniz. Odur ki, ötən əsrin sonlarında Dəvəboynu dağının adının kalka şəklində «Uxtasar» *(ermənicə: «Dəvə dağı»)* şəklində dəyişdirilməsi erməni məntiqsizliyinin və xəstə təfəkkürünün növbəti nümunəsidir.

Dəvəboynu təsvirlərindən birinə diqqət yetirək. Ortaq türk rəmzləri və damğaları kontekstində ⊕ ⊗ ⊛ işarələri ayrı-ayrılıqda Tanrı *(Tenqri)*-Günəş vəhdətini təcəssüm etdirsə də, qaya üzərində bu semantikanın deyil, adi təsərrüfat vasitəsinin – boyunduruqlu öküz arabasının təsvirini görürük. Əski mifik təsəvvürlərdəki Tenqri, Ana və Günəş obrazları isə araba təsvirindən aşağıdakı rəmz/damğa işarələri ilə ✚ ✳ göstərilmişdir. Saka-skiflərdə və qədim türklərdə müqəddəs varlıq, totem sayılan təkə *(koçkar, kaçkar, qoçqar, qoşqar və s.)* erməni miflərində yeri olmayan varlıqdır.

1961-ci ildə Azərbaycan alimi Məşədixanım Nemət Qərbi Azərbaycanda - Zəngəzurun Qarakilsə *(indiki «Sisyan»)* rayonunun Urud kəndində apardığı araşdırmalar zamanı burada orta əsrlərə aid edilən sənduqə tipli və qoç heykəlli türk məzar daşları üzərində damğa işarələri, totem təsvirləri ilə yanaşı, «min evladi ağvan» *(alban övladı, alban nəslindən)* sözlərini də aşkar etmişdir. Tədqiqatçı Vəfa Quliyeva həmin yazını şərh edərək bildirir: **«İndiyə kimi elmi ədəbiyyatda belə bir fikir hökm sürürdü ki, guya islam dini buraya nüfuz edildikdə dini etiqad baxımından xristian olan alban tayfaları gürcüləşmiş və ya ermənilərləşmişdilər. Urud abidələri**

53 M. Urud. «Zəngəzur». Bakı, 2005

isə albanların hələ islamdan öncə türk etnomədəni məkanına daxil olmasını əyani şəkildə göstərir. Bu nadir tapıntı erməni tarixşünaslığında formalaşan və türk elementinin Qafqaza gəlmə oldugunu iddia edən konsepsiyasını alt-üst edir və azərbaycanlıların *(etnik türklərin – A.Q.)* **Qafqazın avtoxton əhalisi olduğunu sübuta yetirirdi. Ermənilər buna cavab olaraq həmin nekropolu məhv etmiş, 1988-ci ildə bütün azərbaycanlıları bu ərazilərdən didərgin salmış, dağıda bilmədiklərini isə ermənileşdirmişlər».**[54]



Ardıcıllıqla: Zəngəzurda, Dəvəboynu dağındakı bu təsviri erməni tarixçiləri qədim «ulduz müharibələri» ilə əlaqələndirirlər; Qobustandakı Yazılıdaş ərazisindəki 55-ci daş üzərində araba rəsmi;[55] *Qazaxıstanın Eşkiölmes dağ silsiləsində saka-skiflərin at arabası təsviri (e.ə.VII–VI əsrlər);*[56] *3.Saymalıtaş Qırğızıstan) - eramızdan əvvəl III minilliyə və II minilliyin əvvəllərinə aid edilən araba rəsmi.*[57]

Bütün bunlara baxmayaraq, erməni həmkarı akademik Suren Ayvazyanın «elmi axtarışlarından» bəhrələnən ukraynalı Anatoli İvanov «Qədim əcdadların mesajları» məqaləsində yuxarıda göstərilən Dəvəboynu qayaüstü təsvirini «qədim ermənilərin bəşər tarixində kosmosdan gəlmiş yadplanetlilərlə ilk əlaqə qurmasının qrafik təcəssümü» kimi dəyərləndirir. O yazır: **«Ermənistan qədim dövrlərdə «Nemizida» adlanan qoşa ulduz sistemindən uçub gələn astronavtların Yer üzündə yaratdıqları ən qədim sivilizasiyanın bizə gəlib çatan bir parçasıdır. Ermənistanın müxtəlif guşələrində aşkar olunmuş on minlərlə qayaüstü təsvir ulduzlararası səfərlər edən astronavtların planetimizə enmələrinin sübutlarıdır. Qədim rəssamlar - ermənilərin əcdadları qayalar üzərində çəkilmiş bu təsvirlərlə həmin ulduz sistemlərinin, qalaktikaların funksiyaları, orada gedən fiziki proseslərlə bağla elmi informasiyanı gələcək nəsillərə**

54 V.Quliyeva. «Azərbaycan memarliğinin şah əsərlərinin durumu», Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi Sayı: 1/4 2012.

55 И.Джафарзаде. «Гобустан. Наскальные изображения». Баку, 1973.

56 http://www.uralrockart.ru/p1_gl4_1.html#

57 А.Мартынов. «Археология» // Искусство бронзового века Евразии, М., 2013.

çatdırmağa çalışmışlar. Onların bu proseslər haqqında məlumatları müasir elmin bilgilərindən qat-qat çox idi». Sonra A.İvanov Hollivudun məşhur «Ulduz müharibələri» üslubunda Dəvəboynu təsvirinə belə dramatik şərh verir: «**Burada** *(araba təsviri nəzərdə tutulur - **A.Q.**)* **qədim rəssam Nemezida qoşa ulduz sistemini həkk etmişdir. Ulduzların arasından start götürən kosmik gəmi Günəş sisteminə doğru səmt götürmüşdür. Qoşa ulduzların qarşılıqlı fiziki əlaqələrini qədim rəssamlar həmişə düz xətlə** *(şəkildə: araba oxu və qolu)* **təsvir etmişlər. Bundan başqa, Ermənistanın qədim sakinləri kosmik gəmiləri, adətən, oval** şəklində **təsvir etmişlər** *(şəkildə: boyundurq və ya xamut).* **Gəmi ulduzların cazibə qüvvəsindən uzaqlaşmaq** üçün **böyük enerji sərf edir. Qayaüstü rəsmdə Günəş çoxqollu rəmz, Yer planeti isə xaç kimi göstərilmişdir. Günəş sisteminin yanındakı keçilər isə xaçın həqiqətən də Yer planeti olduğunu təsdiqləmək üçün çəkilmişdir**».[58]

Ermənilərin abidələr vasitəsilə əcdad axtarışını daha bir sensasiyalı «faktla» zənginləşdirmək istərdik. Ötən əsrin ortalarında erməni antropoloqu Andronik Caqayan Qərbi Azərbaycan – indiki Ermənistan Respublikası ərazisindəki köhnə məzarlıqda guya yaşı iki min ilə çatan insan kəlləsi aşkar etmişdir. İxtisasca plastik cərrahlıq üzrə mütəxəssis olan A.Caqayan kəlləni «armenoid» tipi adlandırdıqdan sonra doktor Frankenşteyn məharəti ilə «ermənilərin ulu əcdadının» xarici görkəmini bərpa etməyə çalışmışdır. Alınan portret dünya anropoloqlarının gülüşünə səbəb olmuşdur. Bərpaçı bütün istəyinə baxmayaraq, sanballı erməni burnunu qıpçaq türkünün almacıqlı sifətinə qətiyyən uyğunlaşdıra bilməmişdir.[59]

Aşağıda erməni saxtakarlığının daha bir klassik nümunəsini təqdim edirik. Van gölündəki Ağtomar adasındakı məbəd üzərindəki bir barelyef *(1)* haqqında erməni tarixçiləri bilərəkdən susmağı üstün tuturlar. Onun təsvirlərinə «qədim erməni memarlığına» dair kitablarda da rast gəlməzsiniz. Əslən istanbullu olan tarixçi Sirapi Ter-Nersesyan «Ermənistan, məişəti, dini, mədəniyyəti» adlı əsərində barelyefdəki atlı döyüşçü təsvirinin ünvanını göstərmədən onu **«XIV əsrdə yaşamış erməni əmiri II Asanın»** *(Həsənin - **A.Q.**)* **barelyefi**» olduğunu iddia edir.[60] Burada istənilən oxucunun diqqətini çəkən məqam müəllifdə «vicdan hissinin» oyanması, «Ermənistanın əmiri» ifadəsini işlətməkdən çəkinməsidir.

58 А.Иванов. «Армения – наследница древних цивилизаций», http://voskanapat.info/?p=4293
59 А.Гурбанов. «Сказки армянских мудрецов». Баку, 2005.
60 С.Тер-Нерсесян. «Армения, быт, религия, культура». М., Центрополиграф, 2008.

1. 2.

Ağtomar məbədinədə «erməni əmiri II Asanın» təsviri (Foto İ.Heydərlinindir). Orijinalı (1) və Yerevan tarixçilərinin qəsdən təhrif etdikləri variant (2).

Həmin kitabdakı qrafik şəkildə isə *(2)* orijinal təsvirə ciddi və kobud düzəlişlər edilmiş, qıpçaq döyüşçüsünün qıyıq gözləri, almacıq sümükləri, yəhərin quşqunundan *(atın quyruğunun altından keçən qayış)* asılan aypara ornamenti, uzunboğaz çəkmələri, kiriş çəkən barmaqlarının vəziyyəti, ən nəhayət, qədim türk savaş sənətində şəhidlik rəmzi sayılan düyünlənmiş at quyruğu *(qədim türk hərb ənənələrində ölümə hazır olan döyüşçünün rəmzi, buna «atı çərlətmək» deyirdilər)* tamamilə silinmişdir. Bundan başqa, at quyruğu ilə bəzədilmiş tuğulğası *(dəbilqəsi)* Avropa tacı, üstü metal lövhəli zirehli sırıqlısı rahib çuxası ilə əvəz olunmuş, kompozit saka-hun yayı isə Avropa tipli kamana dəyişdirilmişdir. Bununla belə, hətta S.Ter-Nersesyanın saxtalaşdırdığı təsvirin əsas elementləri - qədim silahlar üzrə ekspertlərin «türk qaydası» adlandırdıqları yayçəkmə tərzi *(kirişi baş barmaqla dartmaq),* xüsusilə mütəxəssislər arasında «skif metodu», «türk oxçuluq qaydası» kimi tanınan arxaya ox atma üsulu («*Koroğlu*» *dastanında - «qıyqacı*») Ağtomar məbədi qurucularının «erməni mənşəyi» barədə mifi şübhə altına alır. Maraqlıdır ki, ermənilərin bu cür sərsəm fikirləri avrosentrizm tərəfdarları üçün keçərlidir.

Beləliklə, türk xalqlarının bu ərazilərdə tarixən yaşamış əcdadları ilə genetik rabitəsi məqsədli şəkildə kəsilir, sahibsiz qalan zəngin maddi-mədəni irsin iddialılar tərəfindən mənimsənilməsinə başlanılır. Lakin arxeoloq və etnoloqlara tədqiqat istiqamətlərini və metodologiyaları təkidlə diqtə edən avrosentrizm nəzəriyyəsinin, Hind-Avropa xalqlarının «mədəni üstünlüyü» konsepsiyasının bütün imkanlarına baxmayaraq, onun da həssas cəhətləri vardır. Onların ən başlıcası maddi-mədəni irsin mənimsənilməsi səylərinin obyek-

tiv və hamı tərəfindən qəbul edilən elmi bazaya söykənməməsidir. Belə olan təqdirdə, arxeoloji və etnoqrafik materiallar arasında yer alan etnik rəmz və damğa işarələri daha güclü toxunulmazlıq immunitetinə, kompilyasiyaya qarşı ciddi müqavimətə malikdirlər. Və bu işarələri özünküləşdirmədən bütöv etnik mədəniyyət qatını, onun daşıyıcılarının etnomədəni xüsusiyyətlərini, inanclarını, adət və ənənələrini mənimsəmək mümkün deyildir. Belə olan təqdirdə iddiaçıların çıxış yolu ya həmin sübutları gizlətmək, ya da məhv etməkdir.



Ardıcıllıqla: Ərzincanın (Türkiyə) Kamaliyyə bölgəsi Dilli vadisindəki qayaüstü təsvirdə geriyə ox atan döyüşçü.[61] Kimer oxçusu (antik qab üzərində təsvir); Qədim türk döyüşçüsü (Sülek, Altay); Xakasiyanın Konen kəndində tapılmış Saka oxçusunun metal təsviri;[62] Avar imperiyasının bayrağı; Çin rəsmində Göytürk atlı oxçusu; Avropa qravyürasında hun oxçusu;[63] Qıyqacı ox atan səfəvi oxçusu «hilal» tipli yay ilə (XVII əsr miniatürlərindən fraqmentlər).

Yuxarıdakı təsvirləri Ağtomar barelyefi ilə müqayisə edin. Ortaq türk hərb sənətinin ayrı-ayrı dövrlərini əhatə edən rəsmlərlə «erməni əmiri II Asanın»

61 Osman Mert. «Kemaliye'de eski türk izleri: Dilli vadisindeki petroglif ve damgalar», A.Ü. Türkiyat AraştırmalarıEnstitüsü Dergisi Sayı 34 Erzurum, 2007.

62 Т. Гриц. «Меткие стрелки», Москва, 1956.

63 А. Баяр. «Тайная история татар», http://kitap.net.ru/bayar4.php

təsviri arasında süjet və kompozisiya eyniliyi ilk baxışdan nəzərə çarpır. Onların arasında konstruktiv fərq yoxdur. Məsələn, bütün rəsmlərdə kompozit türk yayı, bir çoxunda atların düyünlənmiş və ya hörülmüş quyruqları yer almışdır. Bundan başqa, antik qab üzərindəki kimer atlısı ilə XVII **əsr** qızılbaş oxçusu təsvirləri sanki eyni süjetdən qaynaqlanmışdır.

Xalça sənətinin və ornamentlərin mənimsənilməsi. Arxeoloji materiallara və qədim yazılı mənbələrə əsasən, tarixi Azərbaycan ərazilərində xalçaçılıq sənəti hələ Tunc dövründə - eramızdan əvvəl II minilliyin sonu I minilliyin əvvəllərində inkişaf etmişdir. Eramızdan əvvəl V əsrdə yunan tarixçisi Ksenofont yazırdı ki, farslar xalça toxumağı midiyalılardan öyrənmişlər.[64] Alban salnaməçisi Moisey Kağankatlı isə bildirirdi ki, Azərbaycanın şimal hissəsi naxışlı ipək parçaları və xalçaları ilə məşhur idi.[65] Lakin ədalət naminə onu da qeyd edək ki, ermənilərin də xalça toxuma ənənəsi vardır və bunu heç kəs inkar etmir. Lakin Azərbaycan, İran, Şimali Qafqaz, Dağıstan, Mərkəzi Asiya xalçaçılıq sənətləri ilə müqayisədə erməni xalçaçılığı zəif inkişaf etmiş, əlahiddə üsluba, ornamentlərə, rəng çalarlarına və s. malik məktəb kimi formalaşa bilməmişdir. Təsadüfi deyildir ki, tanınmış xalçaçı ekspert Raymond Bernaudut «Qafqaz xalçaları» *(Caucasian Ruqs)* əsərində əsaslı olaraq, erməni xalçaçılığını müstəqil qrup kimi təqdim etməmişdir. Kitabdakı 66 illüstrativ materialın 56-da Azərbaycan, cəmi iki nümunədə isə dini motivli erməni xalçalarının təsvirləri verilmişdir. Başqa bir misal: 1952-ci ildə Moskvada nəşr edilən «Ermənistan SSR-in xalçaları» kitab-kataloqundakı bir məlumat diqqət çəkməyə bilməz. Belə ki, həmin dövrlərdə Ermənistanda toxunan 8 xalça tipindən 5-i *(adları saxlanılmaqla)* Azərbaycanın «Quba», «Şirvan», «Gəncə», «Qazax», «Qarabağ» qruplarına aiddir.[66] Hətta bəzi erməni mütəxəssisləri də etiraf edirlər ki, xalçaçılıq onların etnik sənəti olmamış, qonşu xalqlardan mənimsənilmişdir. O da yaxşı məlumdur ki, hələ XIX əsrin sonları, XX əsrin əvvəllərində ermənilər xalçaçılıq üzrə deyil, xalça ticarəti üzrə ixtisaslaşmışdılar. Onlar Şirvanda, Bakıda, Qubada, Muğanda, Qarabağda, Qazaxda, Gəncədə, Salyanda və s. toxunmuş xovlu və xovsuz xalçaları Rusiya, İran, Türkiyə və Avropa bazarlarında satışa çıxarırdılar.

Lakin bu gün Ermənistanda «milli xalçaçılıq» anlayışı xalq tətbiqi sənəti çərçivəsindən kənara çıxaraq zorən siyasiləşdirilmiş, «ermənilərin Cənubi Qafqazda avtoxton etnos olmalarına», qondarma «Böyük Ermənistan» dövlətinin

64 Ксенофонт. «Киропедия», Т VIII, Москва, 1976.
65 М.Каланкатуйский. «История Агван». СПб, 1861.
66 К.Иманов. «Армянские (и) на(о)родные сказки», Баку, 2008

mövcudluğuna dair saxta sübutların əldə olunmasına, «erməni sivilizasiyasının» region xalqlarının etnik mədəniyyətləri üzərində dominantlığı iddiasının təsdiqinə yönəldilmiş vasitəyə çevrilmişdir. Məhz Azərbaycan xalqının zəngin maddi-mədəni irsinin, ortaq türk etnomədəniyyəti nümunələrinin, o cümlədən xalçaçılıq sənətinin mənimsənilmədən qorunması, tədqiqi və təbliği məqsədilə 1967-ci ildə Azərbaycan Xalçası Muzeyi *(hazırda Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi*) yaradılmışdır. SSRİ-də «beynəlmiləlçilik ideyalarının», «ortaq sovet mədəniyyəti» ənənələrinin hakim olduğu bir dövrdə türk və müsəlman respublikasının belə bir addım atması, əlbəttə, böyük cəsarət və siyasətin nümunəsi idi. Bu gün həmin muzeydə Azərbaycan xalqının qədim milli mədəniyyətinin, estetik baxışlarının daşıyıcısı olan xeyli sayda nadir nümunə toplanmışdır. Həmin illərdə Azərbaycan SSR-in belə gözlənilməz gedişi erməni tarixçilərini və sənətşünaslarını həqiqətən də şok vəziyyətinə salmışdır. Və o da təsadüfi deyildir ki, onlar özlərinin uzun illərdən bəri törətdikləri genişmiqyaslı mənimsəmə aktlarına bəraət qazandırmaq, digər tərəfdən Azərbaycanın öz milli mədəni irsinin qorunmasına yönəldilən hərəkətini qaralamaq niyyətilə ən müxtəlif bəhanələrə və böhtanlara əl atmaqdan çəkinməmişlər. Guya ötən əsrin yalnız 70-80-ci illəri ərzində Azərbaycan ən müxtəlif yollarla Ermənistanda, Qarabağda, Şirvanda, Qubada erməni kəndlərindən 60 mindən çox (!) erməni xalçasını almış və dünyaya Azərbaycan xalqının maddi-mədəni irs nümunələri kimi təqdim etmişdir.[67] Ermənistan Tarixi Muzeyinin elmi işçisi Anjela Teryan erməni mənimsəmələrinin qarşısına sədd çəkən həmin «dramatik hadisələri» həyasızlıqla *(qoy qadın oxucular məndən inciməsinlər, daha yumşaq söz tapa bilmədim)* belə «xatırladır»: **«XX əsrin ortalarından başlayaraq, əsasən Azərbaycan arxeoloqları tərəfindən Mingəçevir, Gəncə, Xanlar (Samux), Şəmkir, Qazax, Xaçbulaq ərazilərində yenidən «erməni mədəniyyəti izlərinin» silinməsinə başlanılmış, aşkar olunmuş arxeoloji materiallar Bakı muzeylərinə daşınmışdır... Hələ 1950-1960-cı illərdə azərbaycanlılar uzaqgörənliklə Girdmana** *(Azərbaycan ərazisində VII əsrin əvvəllərindən 705-ci ilə qədər mövcud olmuş dövlət. Hökmdar Cavanşirin dövründə bütün Qafqaz Albaniyasını əhatə etmişdir)* və **Arsaka** *(Qarabağa)* **aid erməni kəndlərində nadir erməni xalçalarını alır və ya fabrik məhsullarına dəyişirdilər. Nəticədə, digər arxeoloji materiallar kimi əl ilə toxunmuş erməni xalçaları da Azərbaycan muzeylərinə gətirlmişdir. Sonra isə Bakıda xalçaçılıq muzeyi yaradılmış və xalçaçılıq Azərbaycan mədəniyyətinin**

67 Yenə orada

tərkib hissəsi elan olunmuşdur».[68] Azərbaycan xalqının öz tarixinə, milli mədəniyyətinə sahib çıxmasından dərin hüzn hissi keçirən digər erməni tarixçisi Samvel Karapetyan isə isterik vəziyyətdə yazır ki, XIX əsrdə və XX əsrin əvvəllərində «erməni şəhəri Girdmanda» aparılmış arxeoloji qazıntılar zamanı qədim erməni mədəniyyətinə aid zəngin materialların üzərində nəfis şəkildə həndəsi fiqurlar *(xaç, dairə, svastika),* nəbati rəmzlər *(Dirilik Ağacı),* zoomorf obrazlar *(təkə, maral, at, it, ilan)* və insan təsvirləri həkk olunmuş bürünc və gil məişət qabları, silahlar, bəzək əşyaları tapılmışdır. Onların böyük hissəsi «itirilmiş», yerdə qalanları isə Peterburq, Moskva və Tiflis muzeylərinə, əsasən də Tiflisdəki Qafqaz muzeyinə göndərilmişdir.[69] Real vəziyyət isə tamamilə fərqli idi. O dövrlərdə Azərbaycanın hüquq mühafizə orqanlarında çalışanlara yaxşı məlumdur ki, həmin illərdə məhz erməni xalça dəllalları özlərini «xalça muzeyinin əməkdaşları» kimi təqdim edərək ölkəni qarış-qarış gəzir, hətta ən ucqar kəndlərə də gedib çıxır, qədim xalçaları alaraq İrəvana daşıyırdılar. Bu sətirlərin müəllifinin də yaxşı yadındadır ki, Ermənistandan gəlmiş «Volodya» adlı «sənətşünas» XX əsrin əvvəllərinə aid innabı rəngli Muğan xalçasını almaq və «Bakı muzeylərində sərgiləmək» üçün dəfələrlə evin kandarını döymüş, şirniklendirici vədlər vermiş və hər gəlişi zamanı xalçanın qiymətini həmin dövrün pulu ilə 300 rubl qaldırmışdır. Lakin «itə ataram, yada satmaram» prinsipini üstün sayan valideynlər xalçanı mərhum Lətif Kərimovun vasitəsilə Azərbaycan Dövlət Xalça Muzeyinə təqdim etmişdilər.

Ermənilərin iddialarını təkzib edən digər sübutları isə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi dünyanın bir sıra beynəlxalq təşkilatlarına ünvanlamışdır. Belə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ərzində qəsb edilmiş Azərbaycan ərazilərində 40 mindən çox nadir muzey eksponatları, o cümlədən minlərlə xalça qarət yolu ilə Ermənistana aparılmışdır. Bu gün Ermənistan Respublikası «Hərbi münaqişələr dövründə mədəni dəyərlərin qorunmasını dair» Haaqa Konvensiyasının və «Mədəni dəyərlərin qeyri-qanuni dövriyyəsi haqqında» Paris Konvensiyasının tələblərini kobud şəkildə pozaraq, nəinki Ermənistanda azərbaycanlıların tarixən yaşadıqları ərazilərdə, eləcə də işğal altında olan Azərbaycan torpaqlarında xalqımıza məxsus maddi-mədəni irs nümunələrinin məhvinə, onların etnik mənşəyinin saxtalaşdırılmasına və mənimsənilməsinə yönəldilmiş fəaliyyətini davam etdirməkdədir. Məsələn, «erməni xalça sənətinə» dair kitab və saytlarda orta

68 А.Терян. «История Восточной Части Армении /Агванк, Гардман, Утик/ или кто такие албаны?», http://angelateryan.wordpress.com

69 С. Карапетян. «Армянская коллекция Кавказского музея». Ереван, 2004

əsrlərdə Qarabağda toxunmuş xalçalardan biri qondarma «Vişapqork» adı altında «erməni mərasim xalçası» kimi təqdim olunur. Bu azmış kimi qeyd olunur ki, «ermənilər Qars, Sürməli, Gümrü, Tiflis, Borçalı, Naxçıvan, Gəncə, Bərdə, Quba və Şuşada xalçaçılıq ənənələrinin təməlini qoymuşlar».[70] Onu da xüsusi vurğulayaq ki, bu yaxınlarda Ermənistan Tarixi Muzeyində «erməni xalçalarından» ibarət ilk daimi ekspozisiya açılmış, onun fonduna müxtəlif yollarla *(eləcə də qarət yolu ilə)* əldə edilmiş 1400-ədək xalça toplanmışdır.[71]

Ermənistan alimləri Avropada «karpet» kimi yayılan və «xalça» anlamını verən sözün də məhz erməni kökənli olduğunu iddia etsələr də, indiyədək nə onun etimologiyasını və etnik mənşəyini, nə düzgün yazılışını *(«karpet», yoxsa* «k*apet»),* nə də təyinatını, yəni bu kəlmənin konkret olaraq xovlu və ya xovsuz *(kilim, palaz* v*ə s.)* xalçalara aid edilməsini hələ də dəqiqləşdirə biliblər. Eyni zamanda, elmi və təbliğat xarakteri daşıyan materiallarda da «erməni xalçaçılıq sənətinin» tarixi ilə bağlı ortaq mövqeləri yoxdur. Nəticədə, sosial şəbəkələrdə erməni xalçalarından bəhs edən məqalələr, bir qayda olaraq, bu tipli yayğın girişlərlə başlanır: «**Xalça erməni xalqının məişətində ən zəruri əşyadır. Xalçaçılıq ermənilərin qədim tətbiqi sənəti sayılır. Arxeoloji qazıntılar zamanı** *(nə vaxt, harada və kimlər tərəfindən aparıldığı göstərilmir)* **aşkar edilmiş ən qədim erməni xalçaları eramızdan əvvəl II-I minilliklərə aid olunur** *(Mingəçevirdə tapılmış xalça-palaz qalıqları və sakaskiflərə məxsus Pazırıq/Altay xalçası nəzərdə tutulur - **A.Q**.).* **Qədim yunan, roma, fars, ərəb, Bizans yazılı mənbələrində** *(buraya Nizami Gəncəvinin, Əfzələddin Xaqaninin və Qətran Təbrizinin əsərləri də daxil edilir)* **qədim və orta əsr erməni xalçalarından və karpetlərindən** (!) **geniş bəhs olunur».**[72]

Qərb dillərində olan sözlərin izahlı lüğətlərinə görə, orta əsrlərdə yayılan «karpet» sözü latın mənşəlidir və «qalın yun parça» anlamını verən «carpita» kəlməsinin törəməsidir.[73] Erməni alimi Aleksey Sukiasyan Qərb alimlərinin qənaəti ilə razılaşmır. Onun fikrincə, **«XIII əsrdə Avropa xalqları bu sözü erməni dilindən mənimsəmişlər»**.[74] Akademik Suren Ayvazyan isə erməni xalqının mədəni hüquqlarını «mənimsəmələrdən» qorumaq iddiası ilə Avropa linqvistlərinə qarşı daha radikal mövqe nümayiş etdirir. O, Mosk-

70 http://www.armsite.com/rugs/rshow.phtml?slide=2

71 «Достояние республики», http://www.express.am/article/8_1007/view/dostojanie-respubliki.html

72 «Армянские ковры», http://hayodz.blogspot.com/2012/05/100-110.html

73 Etymology: Middle English, from Middle French carpite, from Old Italian carpita, from carpire to pluck, modification of Latin carpere to pluck — more at harvest; Date: 15th century, http://www.merriam-webster.com/dictionary/carpet

74 А. Сукиасян. «История Киликийского армянского государства и права (XI—XIV вв.)». Митк, 1969.

vada nəşr etdirdiyi «Rusiya tarixində erməni izləri» kitabında bildirir ki, orta əsrlərdə Ermənistan xalçalarını ilk dəfə dünya bazarına çıxaran və tanıdan, mədəni inkişaf sarıdan geridə qalmış Avropanı Ararat vadisinin xalça sənəti ilə tanış edən şəxs Karapet adlı erməni taciri olmuşdur. Və bu gün Qərb dünyasında «xalça» anlamında işlədilən «karpet» sözü bu nəcib insanın tarixin yaddaşında qalan adı ilə bağlıdır.[75] Sənətşünas Manya Kazaryan da «bəşər sivilizasiyasının təməlini qoymuş ermənilərin» geridə qalmış xalqlardan nəsə götürə biləcəyini qəti inkar edir. Əlbəttə, indiyədək baş vermiş «mədəni oğurluq» və mənimsəmə» faktları nəzərə alınmazsa! Odur ki, «Erməni xalçaları» kitab-albomunda o, karpet və ya kapeti xristian dini ilə bağlamağa çalışaraq, bunları yazır: **«Qədim erməni sözü olan «kapet» kəlməsi nə vaxtsa xovlu erməni xalçalarına aid edilmişdir. Bu sözə hələ V əsrə aid İncil tərcümələrində də rast gəlinir».**[76] Gəlin, əlavə polemika açmamaq üçün İncilin erməni dilinə V əsrdə deyil, VII-VIII əsrlərdə yunan dilindən çevrilməsi faktını da onların üzünə vurmayaq. Ermənilər ənənəvi olaraq «karpet» və ya «kapet» deyəndə yalnız xovsuz xalçaları nəzərdə tuturdular. Bu məsələyə aydınlıq gətirən görkəmli Azərbaycan alimi, dünya şöhrətli xalçaçı-ekspert Lətif Kərimov həmin sözün etnik mənşəyi və etimoloji yozumu haqqında yazırdı ki, Azərbaycanda köçəri həyat sürən oğuz tayfalarının – tərəkəmələrin deyimində palaz və kilimin qarışığına «karvud» deyirdilər. Bu söz Ağcabədi xalça ustalarının dilində «karpud» kimi qalmışdır. Mürəkkəb tərkibli sözün birinci hissəsinə - «kar» kəlməsinə XI-XII əsrlərdə yaşamış Mahmud Kaşğarinin «Divanü-lüğət-it Türk» əsərində də rast gəlinir.[77] Bu söz qədim türk dillərində «qarışdırmaq», «birləşdirmək» anlamını verirdi. Tanınmış rus türkoloqu və etnoqrafı Vasili Radlovun *(1837-1918)* «Türk ləhcələri lüğətinin təcrübəsi» adlı kitabında isə qədim türklərin «put» və ya «pot» kəlməsinin «üçqat və dördqat əyrilmiş iplik» mənasında işlədildiyi göstərilir. Mədəni əlaqələr nəticəsində erməni dilinə keçən «karpet» sözü də ilkin dövrlərdə məhz bu anlamı verirdi. Başqa bir yozuma görə, «karpet» sözü fars-türk mənşəlidir. Belə ki, «kar» sözü fars dilində «iş», «sənət» deməkdir, «peş» və ya «bet» kəlməsi isə türk tayfalarında keçi tükündən palaz üsulu ilə toxunan iri şallara deyilirdi.[78]

O da maraqlıdır ki, «karpet» haqqında iddialara baxmayaraq, ermənilərin özləri xovlu xalçalara «qork» deyir və onun da yozumunu açmaqda ciddi

75 С.Айвазян. «История России. Армянский след». Москва, 1997

76 М.Казарян. «Армянские ковры». Москва, «Советский художник», 1985.

77 M.Kaşğari. «Divanü lüğat-it-Türk». Bakı: «Ozan», 2006.

78 Л.Керимов. «Азербайджанский ковер», Том 2. Баку: «Гянджлик», 1983

çətinlik çəkirlər.[79] Akademik Qriqor Kapanyanın fikrincə, «qork» kəlməsi Tunc dövründə yaşamış xett tayfalarına məxsusdur və erməni dilinin lüğət tərkibinə XIII-XIV əsrlərdə daxil olmuşdur (?). Bu sözə ilk dəfə olaraq Qarabağ ərazisindəki erməni *(oxu: alban)* kilsəsinin 1242-1243-cü illərə aid divar yazılarında rast gəlinmişdir. Q.Kapanyan və ardıcılları onu «atın boynundan asılmış qotaz» anlamı verən «xett-erməni mənşəli» söz kimi qəbul etsələr də, bu kəlmənin birdən-birə erməni dilinə orta əsrlərdə və məhz Qarabağda nüfuz etməsinin səbəbləri, «qotazın» xalçalara aid olunmasının məntiqi izahı və etimologiyası barədə susurlar.[80] Elə isə ermənilərin bu kəlməni Azərbaycan ərazisindəki kilsə divarlarındakı yazıdan götürmələri və nəfis xalçalara aid etmələri «linqvistik təsadüf» sayıla bilməz. Bu kəlmənin türk dilləri kontekstindən yozumu yenə də onu ortaq türk simvolizmi və sakral rəmzlərlə bağlayır, digər tərəfdən Qafqaz Albaniyasında hansı etnomədəniyyətin dominant xarakter daşıdığını göstərir.

Bu gün yalnız Azərbaycan dilində «görkəmli», «görkəm» sözlərinin kökündə dayanan «görk» *(körk)* kəlməsi ilkin semantikasını dəyişərək «fövqəlnümunə», «misal» mənalarında işlədilsə də, əski türk mifoloji təfəkküründə sakral xarakter daşımış, «Tanrının təcəssümü», «Tanrı rəmzi», «ilahi gözəllik», «Tanrıya xas olan keyfiyyətlər» anlamını vermişdir**.** Qədim türk yazılı mətnlərinə əsasən, bu kəlmə paralel olaraq, həm də daxili və xarici gözəlliyin vəhdətini, mənəvi zənginliyi, ilahi keyfiyyətlərin insanda təzahürünü, sakral simvolizmi ifadə etmişdir. Fikrimizi tamamlamaq üçün SSRİ Elmlər Akademiyası Dilçilik İnstitutunun 1969-cu ildə nəşr etdirdiyi «Qədim türk sözləri lüğəti» kitabını vərəqləyək. Burada **«körk»** *(görk, körg)* sözünü dini təsəvvürlərlə bağlayın aşağıdakı yozumları verilmişdir: «ilahi obraz», «təsvir», «gözəllik». Lüğətdə misal qismində göstərilən cümlə həmin kəlmənin dini mahiyyət daşıdığını bir daha təsdiqləyir: **«Meninq körkümkə tapığ uduğ qılsun»** *(«Qoy mənim təsvirimə tapınsın/səcdə etsin»).* Qədim türklərin «körk menqiz» ifadəsi isə «Tanrının təcəllası» anlamında işlədilirdi.[81] Yeri gəlmişkən, yuxarıda adı çəkilən lüğətə əsasən, «körk» sözündən yaranan «körkit»[82] kəlməsi də qam-şamanlara aid olunmuş və «göstərən» anlamını vermişdir. Bu isə «Qorqud», «Korqut» antroponiminin yeni yozum variantı kimi dəyərləndirilə bilər.

79 «Армянско-русский словарь». Ереван: Издательство АН Армянской ССР, 1987.

80 «Этимология слов «карпет» (carpet) и «кали/хали» (kali/khali)», http://www.any-goods.ru/articlematerial1

81 «Древнетюркский словарь». Ленинград: «Наука»,1969.

82 Yenə orada.

Onu da vurğulayaq ki, dünyanın ilk monoteist dinlərindən sayılan tanrıçılığı islam dininin ehkamları ilə bağlayan tellərdən biri də məhz «görk» sözüdür. Əgər islam dinində «Əsmaül-Hüsna» *(Gözəl adlar)* anlayışı Allah-Təalanın 99 gözəl sifətini *(əlamətlərini)* özündə ehtiva edirsə, tanrıçılıqda bu xassəni «görk» *(görklü üz)* kəlməsi daşıyırdı. Təsadüfi deyildir ki, türk xalqları islam dinini qəbul etdikdən sonra həmin ifadə əsas etibarilə Allah-Təalaya şamil olunmağa başlanmışdır. «Kitabi-Dədə Qorqud» eposuna diqqət yetirək. Dastanda 95 yerdə işlədilən «görk» sözü 82 dəfə ilahi mahiyyəti, 13 dəfə isə mənəvi və əxlaqi gözəlliyi, halallığı ifadə etmişdir. Məsələn, Rəbbə münasibətdə: **«Ucalardan ucasan, kimsə bilməz necəsən, görklü Tanrı!»; «Ucaltdığını göyə qaldıran görklü Tanrı!»; «Cümlə aləmləri yaradan Allah-Tanrı görklü».** Qurani-Kərimə dair: «**Tanrı elmi Quran görklü».** Məkkəyə aid: «**Tanrı evi Məkkə görklü».** Hz. Məhəmməd *(s.ə.s.)* barədə: «**Ağız açıb ögər olsam, üstümüzdə Tanrı görkü, Tanrı dostu, din sərvəri Məhəmməd görklü»; «Adı görklü Məhəmmədə salavat gətirdilər».** Bundan başqa, «görklü» sözü Hz.Əliyə *(ə.s.)*, Hz. Əbubəkrə *(ə.s.),* Hz.Həsənə *(ə.s.),* Hz.Hüseynə *(ə.s.),* Həcc ziyarətinə, azana, sonra isə ataya, anaya, sadiq qardaşa, vəfalı ömür-gün yoldaşına, Günəşə, torpağa, suya aid edilmişdir. Misal üçün**: «Daim axan görklü suyun qurumasın!»; «Ulu oğluna, görklü gəlin getirdi»; «Ağız-dildən görklü salam verdi»; «Görklü çəmənə çadır otaq tikdirdi»; «Aydan-arı, Gündən görklü qız qardaşın Banuçiçək»** və s.[83] XIII-XIV əsrlərdə yaşamış sufi şair Yunus Əmrənin əsərlərində də «görk» kəlməsi ilahi anlamda işlədilmişdir:

Salacamı götürdülər,
Müsallaya gətirdilər,
Görklü təkbir yetirdilər
Allah sana sundum əlim.[84]

Erməni dilində və etnomədəniyyətində yer alan «görk» anlayışı ilə əlaqəli daha bir mühüm məqama – «vişap» *(su əjdəhası)* anlayışına və «Vişapqork» xalçalarının adına da diqqət yetirək. Xatırladaq ki, ermənilərin «vişap» adlandırdıqları bu daş sütunlar, bir qayda olaraq, köçəri maldarların yaylaqlarında, şirin su mənbələrinin yaxınlığında aşkar olunmuşdur. Suyun qarşısını kəsən əjdəhalar və onları öldürərək əhalini və gözəl qızları zülmdən xilas

83 «Kitabi-Dədə Qorqud, Əsl və sadələşdirilmiş mətnlər». Bakı: «Öndər», 2004.
84 http://hasturkce.blogspot.com/2013/05/gork-sozcugu-uzerine.html

edən qəhrəmanlar haqqında nağıllar Ön və Mərkəzi Asiyanın bütün xalqlarında mövcuddur və hətta xristian dinində əzabkeş Georgi *(Qalibiyyətli Georgi, Kappadokiyalı Georgi, islam dinində - Cərcis peyğəmbər)* barədə rəvayətin süjetinə çevrilmişdir. Lakin Yerevan alimlərinin səyləri nəticəsində «vişap» «qədim erməni brendi» kimi tanıdılsa da, sübutları olduqca kövrəkdir. Onlarla əlaqəli bəzi erməni rəvayətlərinə əsasən, bu monumental abidələrin «Ermənistana yürüşlər etmiş midiyalılar və iranlılarla əlaqəli olduğu» ötəri bildirilsə də, bu obrazın mənşəyi barədə susmağı üstün tutur, «vişap» sözünü isə «qədim erməni dilində «əjdəha» anlamı verdiyini bildirirlər. Bircə o məlumdur ki, vaxtilə xeyirxah «su tanrısı» olan bu obraz ermənilərin xristian dinini qəbul etməsindən sonra nəcib mahiyyətini tamamilə itirmiş, xaotik təbiət qüvvələrinə hakim olan şər varlığa, qorxunc əjdəhaya çevrilmişdir.[85] Bununla belə, «vişap» sözünün eramızdan 2-3 min il əvvəllə aid erməni kəlməsi olması və ya «qədim farslardan ermənilərə keçməsi» *(vəhş/vəhşi + ab/su)* barədə leksik iddialar da heç bir sübuta söykənmir. Onun linqvistik təhlili də bu fikri təsdiqləyir. Əvvəla, «vəşh» sözü fars deyil, ərəb mənşəlidir və «vəhşi», «qorxunc varlıq», «bədheybət canlı» kimi tərcümə olunur. Onun fars dilindəki «ab» kəlməsi ilə birləşməsindən yaranan ifadə isə həqiqətən də bütövlükdə «su əjdəhası» anlamı verir. Lakin ərəb dilinin regiona Xilafət ordusunun yürüşləri zamanı nüfuz etdiyini nəzərə alsaq, «vişap» sözünün heç də eramızdan əvvəlki dövrlərə deyil, çox-çox gənc olduğunu, ilkin orta əsrlərdə yarandığını görərik. Azərbaycanlı alim Mübariz Xəlilovun «vişap» kəlməsi haqqında fikirləri də erməni iddialarının qarşısına məhz erməni mənbələri vasitəsilə sədd çəkir: «Bu söz *(vişap)* **arxeologiya terminləri sırasına daxil olsa da, ermənilər, gürcülər, yunanlar, adətən, həmin abidələri Azərbaycan dilində «tikmədaş», «tikildaş» adlandırırdılar»**. M.Xəlilov buna misal olaraq erməni alimi Levon Melikset-Bekovun 1947-ci ildə Moskvada nəşr olunmuş məqaləsini[86] oxumağı tövsiyə edir.[87] Qeyd edək ki, əski türklər bu sütunları «balbal» adlandırardılar. Cənubi Qafqazda *(Qərbi Azərbaycanda, Naxçıvanda)* və Anadoluda isə «çobandaşı», «hörükdaş», «başara» *(əzəli, ilkin),* «daşbalıq», «daşmaral», «qoşun daşı», «daşbaba» və s. adlarla da tanınırdı. Ermənilər Qərbi Azərbaycanda və Naxçıvanda olan bu qədim abidələrin bir hissəsini dağıtmış, qalanlarını isə gizli şəkildə

85 «Армянские ковры», http://hayodz.blogspot.com/2012/05/100-110.html
86 Л.Меликсет-Беков. «Вишапы и вишапоиды Грузии». - КСИИМК, вып. XV. Москва, 1947.
87 М.Халилов. «Древние каменные изваяния Южного Кавказа», http://www.az.ee/tkrea/rus/irs-200416.shtml

Ermənistana aparmışlar. Məsələn, Naxçıvanın Batabat yaylağındakı abidənin taleyi də belə acınacaqlı olmuşdur.

Ermənistan Respublikası ərazisində aşkar olunmuş vişapların bir hissəsi sal daşlardan yonulmuş balıq *(naqqa balığı)* təsvirləridir. Bunun da öz izahı vardır. Uzunluğu bəzən 5 metrə, çəkisi isə 400 kiloqrama çatan naqqa balığı şirin su hövzələrinin ən qorxulu yırtıcı canlısı sayılır. Günü bu gün də nəhəng naqqa balıqlarının ev heyvanlarını, hətta insanları yaxalayıb su altına çəkmələri barədə qorxunc faktlar vardır. Baykal gölünün sahillərində yaşayan bəzi xalqlarda bu balıq əcdad, totem varlıq hesab olunmaqdadır.[88]

Ermənilərin «vişap» adı altında təqdim etdikləri digər abidələr isə əsas etibarilə öküz, at və qoç heykəllləridir. Bu isə regionda türk etnosunun mövcudluğunun izlərini gizlətmək, o cümlədən Qaraqoyunlu, Ağqoyunlu dövlətlərinə aid qədim məzar daşlarını ermənilləşdirmək məqsədilə edilən növbəti saxtakarlıq səyidir. Təsadüfi deyildir ki, tanınmış şərqşünas və arxeoloq Nikoloy Marr 1910-cu ildə Alagöz dağındakı «Əjdəha yurdu» deyilən ərazidə yerli əhalinin *(etnik azərbaycanlıların)* vişapları «oğuz qəbrləri» adlandırdığını qeyd etmişdir.[89]

Hündürlüyü *(əslində, uzunluğu)* bəzən üç-dörd metrə çatan, uzunsov sal qaya daşlarından müxtəlif canlılar, o cümlədən balıq şəklində yonulan həmin sütunlar eramızdan əvvəl II minilliyə - Kür-Araz mədəniyyətinə aid edilsə də, zənnimizcə, onların bir hissəsi bilavasitə saka-skif, digərləri isə türk tayfalarının mədəniyyəti və mifik təsəvvürləri ilə əlaqəlidir. Antik müəlliflər saka-skiflərin yer altında yaşayan, torpağı bellərində saxlayan nəhəng əjdahalara *(əjdaha-balıqlara)* sitayiş etdiklərini, sancaq və bayraqlarını onun təsvirləri ilə bəzədiklərini bildirmişlər. Saka-skiflərin inanclarına əsasən, onların ilkin anaları torpaq ilahəsi, ilan quyruqlu Api *(əski türk dillərində: api, ama – ana)* olmuşdur. Heredot da skiflərin əjdaha-ilahə Ari və Herakl arasında izdivacdan törəndiyini yazırdı. Su əjdahası obrazı türk xalqlarının, o cümlədən azərbaycanlıların xalça motivlərində və folklorunda özünə möhkəm yer tutmuşdur.

Qaraçay-Çərkəz Dövlət Texnoloji İnstitutunun professoru Qazi Laypanov və tanınmış balkar alimi İsmayıl Miziyevin birgə qənaətinə görə, «nəhəng balıqlar haqqında rəvayətləri eramızdan əvvəl VII əsrdə regiona – Ön Asiyaya, Cənubi Qafqaza, o cümlədən onlaradək ayrı-ayrı türk tayfalarının yaşadıqları Qafqaz Albaniyasına yürüşlər etmiş saka-skiflər gətirmişdir. XII əsrdə yaşamış yunan filoloqu İoan Setses yazır ki, skiflər Azov dənizini *(digər ehtimallara görə,*

88 А.Бисенбаев. «Мифы древних тюрков», http://libbabr.com/?book=4872
89 http://ru.wikipedia.org/wiki/Вишапы

*Qara dənizi – **A.Q.**)* **«Karbalıq» adlandırırdılar. Bundan başqa, rusların «polovets» adlandırdıqları qıpçaq tayfalarının nüfuzlu nəsillərindən biri də belə adlanırdı. Bu söz qədim və müasir türk dillərində «böyük, güclü, nəhəng balıq» kimi izah olunur. Əksər türk xalqlarının, o cümlədən Sayan-Altay türklərinin mifoloji təsəvvürlərinə əsasən, Torpaq *(Yer)* üç nəhəng balığın – «karbalıqların» belində qərar tutmuşdur».**[90] Əlavə edək ki, əski türklərdə «balıq» sözü həm də «şəhər», «əsas», «baş» anlamını verirdi. Bu baxımdan, Çinin Yuan imperiyasının paytaxtının, indiki Pekin şəhərinin qədim adının «Xanbalıq» olduğunu yada salmaq kifayətdir. Yeri gəlmişkən, hazırda Qazaxıstanın Kostanay vilayətində Karabalık rayonu, Rusiyanın Kemerovo vilayətinin Taştaqol rayonunda eyni adlı göl və qəsəbə vardır.



Göyçə dağlarındakı İmirzək düşərgəsində aşkar olunmuş balıq-vişap.



Altaydakı İkinci Pazırıq kurqanında (e.ə. IV əsr) tapılmış saka tayfa başçısı mumiyasının sağ ayağındakı döymənaxış (tatu) təsviri vişap – su əjdahası haqqında miflərin həqiqi etnik mənşəyinin göstəricisidir.

90 К.Лайпанов, И.Мизиев. «О происхождении тюркских народов», http://do.rulitru.ru

Həmin saka-skif rəvayətinin işartılarına bəzi Altay xalqlarının, xakasların şamanizmə və tanrıçılığa söykənən miflərində də rast gəlirik. Onlardan birində Humay Ananın və ya Ak Enenin *(Ağ Ana)* hökmü ilə baş ilahi Tenqri xan və ya Ülgen *(Azərbaycan mifologiyasında – «Öləng»)* sonsuz dənizin ortasında Yeri xəlq edir. Torpağın yenidən dənizin dibinə batmaması üçün onu «ker palıq» adlandırılan üç nəhəng balığın belləri üzərinə qoyur. Noqay və tatarların «Temir biy» qəhrəmanlıq eposunda bu balıqlar buludları su yerinə içir, nəfəs aldıqca Yer üzünə qışda şaxtalı havanı, yayda isə bürküləri göndərirdilər. Balıqlar başlarını tərpədəndə Yer titrəyir, zəlzələ və subasmalar baş verirdi. Lakin nəhəng varlıqlar daim Tenqri xanın *(Ülgenin)* iradəsi altında idilər. Dünyanı bellərində daşıyan valıqlardan birinin başına keçirilmiş kəməndin ucu Göydə, baş ilahinin əlində idi. «Maaday Kara» dastanında deyilir: «**Yerin və Göyün qovuşduğu məkanda, yetmiş çayın mənbəyində, Toybodım** *(əski türkcə – «Doymayan»)* **körfəzində, doxsan arşın dərinlikdə Yeri bellərində saxlayan iki nəhəng balıq yaşayır».** Tanrıçılıq inancının təsəvvürlərinə əsasən, ruhlar dünyasının hakimi Erliyin *(Yer xan)* səltənəti yerin altında, qara suları olan dibsiz gölün qarşı tayındadır. Ölmüş insanların ruhları oraya çatmaq üçün at tükündən nazik olan körpünü keçməlidirlər. Körpünü isə nəhəng əjdaha-balıqlar qoruyur. Bu rəvayətdə ruhlar dünyası haqqında Şumer əsatirinin və islam dinində Sirat körpüsünün mötivləri aydın şəkildə hiss olunmaqdadır. Onu da xatırladaq ki, saka-skiflərin tarixi Azərbaycan torpaqlarına yürüşlərindən sonra bu inanc midiyalılar arasında da geniş yayılmışdır. Erməni tarixçisi Movses Xorenatsi də Midiya dövlətinin sonuncu hökmdarı Astiaq *(e.ə. 585-550-ci illər)* haqqında yazarkən midiyalıların ilana *(əjdahaya)* sitayiş etdiklərini xüsusi qeyd etmişdir. Tanınmış rus linqvisti, arxeoloqu İvan Meşaninov «Qafqazda və bəzi əski türk tayfalarının məskunlaşdığı Şimali Monqolustanda daş balıq heykəlləri – vişaplar» adlı məqaləsində həmin monumental abidələr arasında bənzərlik olduğunu qeyd edir.[91] Maraqlı məqam budur ki, Altay və Mərkəzi Asiyada yaşayan türk xalqlarının «maral daşları» adlandırdıqları bu monumental abidələrə Azərbaycan, Anadolu və indiki Ermənistan ərazilərindən savayı, Gürcüstanda, İranda və Şimali Qafqazda *(Armavir, Qızburun)*, Rusiyanın

91 В.Мещанинов. «Каменные статуи рыб — вишапы на Кавказе и в Северной Монголии», Записки Коллегии Востоковедов, I, Ленинград, 1926

cənub hissəsində, Şərqi Sibirdə, Şərqi Qazaxıstanda, Qırğızıstanda, Monqolustanda və s. rast gəlinir.[92] Tuva Arxeologiya və Etnoqrafiya İnstitutunun professoru və Tuva Hökuməti yanında Humanitar Tədqiqatlar İnstitutunun qocaman əməkdaşı, tanınmış arxeoloq və etnoqraf Monquş Mannay-ool kimi alimlər birmənalı olaraq, vişap/maral daşlarını Qafqaz və Altay-Sayan regionlarını vahid etnomədəni məkan çərçvəsində bir-birinə bağlayan skif-Altay mənşəli monumental əsərlər olduqlarına əmindirlər.Burada erməni saxtakarlıqları ilə bağlı bir məqama xüsusilə toxunmaq istərdik. Belə ki, erməni mənbələrinə istinadən, Qərbi Azərbaycan, Anadolu ərazilərindəki bütün meqalit abidələr – daş sütunlar məlum səbəblər üzündən «ajdaxak» *(əjdaha),* «vişap» adları altında birləşdirilərək, «erməni xalqının maddi-mədəni irsinin nümunələri», hətta «xristian abidələri» kimi təqdim olunur. Lakin bir sıra tədqiqatçılar*,* xüsusilə qədim region dövlətlərinin tarixi üzrə mütəxəssislər *(onların arasında erməni alimləri də vardır)* fərqli düşünürlər. Onların qənaətlərinə əsasən, «vişap» kəlməsi yalnız üfiqi vəziyyətdə qoyulan balıq təsvirli qədim abidələrə şamil edilməlidir və «vişapların» erməni etnik mədəniyyəti ilə heç bir əlaqəsi yoxdur.

Daha bir sübut: Ermənilərin kollektiv yaddaşının təzahürü olan salnamə və kilsə ədəbiyyatında insanlıq iki qismə – «nəcib özününkülərə» və «düşmən özgələrə» bölünür. Vaxtilə «əzabkeş xalqın» özünə əcdad saydığı mifik Haykı Babilistandan didərgin salan qəddar hökmdar Bel və digər mifik qəhrəmanın - Tiqranın döyüşdüyü «işğalçı» Midiya hökmdarı erməni rəvayətlərində «Əjdaha» adı ilə xatırlanır.[93] Belə olan təqdirdə, ermənilərin «düşmən özgələrə» abidə ucaltmaları hansı məntiqə sığır? Bundan başqa, vişaplarla bağlı əfsanələrə «vişapsəng» *(farsca: vişap daşı)* deyilməsi də bəzi qaranlıq mətləblərə işıq salır. Belə əfsanələrin birində «erməni» epik qəhəmanı **ASLAN AĞA** (!) insanlara ölməzlik bəxş etmək üçün əzazil vişapların hakimi mələk Cəbrayıl *(Qabriel Xreştak)* ilə vuruşur və məğlub olur. O da maraqlıdır ki, «Vişapsəng»in bu süjeti eynilə «Kitabi-Dədə Qorqud» eposundakı beşinci boyun qəhrəmanı Duxa Qoca oğlu Dəli Domrulun mələk Əzrayıl ilə görüşməsi və onunla ölüm-dirim savaşına çıxması süjetini heyrətamiz şəkildə xatırladır.

92 Д.Савинов. «Оленные камни в культуре кочевников Евразии».// СПб: СПбГУ. 1994.

93 «Армянская мифология», http://www.simbolarium.ru/simbolarium/sym-uk-cyr/cyr-a/ar/armian-mith.htm

Fərqləri müəyyən edə bilərsinizmi? (ardıcıllıqla): Tuvada, Qırğızıstanın Çu vadisində, Altaydakı Arkamjı yaylasında, Krımdakı Baydar uva vadisində maral daş (daş maral) abidələri, İranın Ərdəbil ostanının Meşkin şəhəri yaxınlığındakı Şəhriyar kurqanlar düzündə Kür-Araz mədəniyyətinə aid daş sütunlar[94] və nəhayət, Qərbi Azərbaycanda, Göyçə dağlarındakı «çoban daşları» (vişaplar).

Azərbaycan alimi Mübariz Xəlilov da bildirir ki, bir sıra «vişap» sütunlarının məhz kilsələrdə salamat saxlanılması onların sonralar buraya daşınmasını və üzərlərinə xaç işarələrinin əlavə olunmasını təsdiqləyir. Məntiqi olaraq, xristianlığın bütpərəst inanclarla amansız mübarizə apardığı dövrlərdə «batil dinlərərə» aid elementlərin kilsələrdə qorunub-saxlanılması qətiyyən inandırıcı deyildir. M.Xəlilov yazır: **«Qədim abidələrə göstərilən belə «qayğı», görünür, başqa maraqlara söykənir. Diqqət yetirsək, bu abidələrin etnik azərbaycanlıların yaylaq yeri olan və toponimi Azərbaycan dili mənşəli bölgələrdə – Əjdaha yurdu, Göl yurd, Təkməqan göl, Cahangir ağa və s. aşkar edildiyini müəyyənləşdirə bilərik».[95] Gürcüstandakı erməni, yunan kilsələrinin həyətlərinə qoyulan «vişapların» - şaquli sütunların üzərindəki xristian xaçlarını, erməni və gürcü əlifba işarələrini və epiqrafik mətnləri öyrənən akademik Boris Piotrovski və professor Levon Melikset-Bekov bu qənaətə gəlmişlər ki, həmin abidələr süni şəkildə ermənilərşdirilmiş, xristianlaşdırılmış və onlara yeni ornamentlər, yazılar əlavə olunmuşdur.** B.Piotrovski bu barədə yazır: **«Açıq şəkildə görünür ki, Əjdaha yurdunda** *(Qərbi Azərbaycanda yaylaq adı)* **tapılmış vişaplar-**

94 M.Azarnoush, BHelwing . "Recent Archaeological Research in Iran – Prehistory to Iron Age", 2005
95 M.Халилов. «Древние каменные изваяния Южного Кавказа», http://www.az.ee/tkrea/rus/irs-200416.shtml

dakı xaç və erməni əlifba işarələri sonrakı dövrlərə aiddir».[96] Yerevan sənətşünaslarının materiallarına görə, «erməni xalçalarında» vişapı təsvir etmək üçün müəyyən «etnik» rəmzlərdən, məsələn, və s. işarələrdən istifadə olnmuşdur. Həmin işarələrin mənşəyi və semantikası haqqında bir qədər sonra ətraflı bəhs olunacaqdır. Hələlik isə erməni xalçaçılıq sənətinə dair materialların təhlilinə əsasən, onu deyə bilərik ki, «Vişapqork» ifadəsi ilkin olaraq xalçalara deyil, ornamentlərə şamil edilmiş və «Vişap rəmzi» anlamını vermişdir.

«Ermənilərin» XVIII əsrdə toxuduqları «Vişapqork» - mənimsənilmiş Malıbəyli (Azərbaycan, Qarabağ) xalçası.

Yuxarıda təsviri verilən «Vişapqorq» xalçasının toxunuşu və üzərindəki «qədim erməni ornamentlərinin» semantikası ermənilərin mənimsəmə iddialarının əsassızlığını göstərir. Xalçadakı naxışlara etnik yozum verə bilməyən, bəlkə də, bunu istəməyən, bəzi hallarda isə çıxış yolu kimi bu təsvirləri xristian dini ilə bağlamağa cəhd edən erməni etnoqraflarının əksinə olaraq, həmin işarələri ortaq türk mifik təfəkkürü, damğa və rəmzləri, Göytürk əlifbası qrafemləri kontekstində izah edək:

- Ermənilər bu işarəyə də «vişap» desələr də, ilkin «kaçkar/xaçkar təsviri olaraq, qriqorian məzhəbinin kilsə rəmzlərindən biri sayılır. Lakin ermənilər onun qədim türk inancları və simvolizmi ilə təkzibolunmaz bağ-

96 Yenə orada

lılığını nəzərə alaraq, bu barədə susmağı üstün tuturlar. Halbuki, xristian dini işarələri təsnifatında «erməni xaçı milrayn» adı ilə də tanınır.[97] Digər tərəfdən, vişapın - şər qüvvələrin təcəssümünün dini rəmz kimi qəbul edilməsi məntiqə sığmır. Bu işarə xristianlıqdan öncəki ortaq türk damğa və rəmzləri sırasında Tenqri xan açası *(koçkar, kaçkar, koçkarok, qoçkar, qoşqar və s.)* kimi məlumdur. Erməni-qriqorian kilsəsində bərabərtərəfli xaçın olmamasını nəzərə alsaq, analoji açа *(xaç)* işarəsi ✝ və Göytürk əlifbasında «ər» kimi oxunan, damğa qismində ilahi rəmzi sayılan ♈ nişanının birləşməsindən yaranmışdır. Tenqri xanın dörd istiqamətə, dörd dünyaya yayılan hökmünü və ya iradəsi altında olan dörd ünsürü *(torpaq, su, hava və od)* simvolizə edir. Bu rəmzə Pazırıq kurqanında aşkar olunmuş cəsəd üzərindəki döymənaxış *(tatu)* təsvirlərində də rast gəlinir. Azərbaycan və Türkiyə əraziləri daxil olmaqla Ön və Mərkəzi Asiyada, Altaylarda, Tatarıstan və Başqırdıstanda, Krımda həmin sakral rəmz geniş yayılmışdır.[98]

və - Bu işarənin də erməni və xristian simvolizmində semantikası yoxdur. Yozumunu qədim türk mifik təsəvvürləri arasında tapır. Azərbaycanda, Qafqazda, Mərkəzi Asiyada, Altaylarda «bitik» *(yazı, dua),* «tumar», «tumarça», «tumarşa», «nəzərlik», «tilsim» kimi tanınır. İslamdan əvvəlki inanclarla bağlı olan bu rəmz körpələrin, qadınların, döyüşçülərin himayəçisi olan Humay Ananın rəmzidir. Türk xalqlarının xalçalarında ən sox işlənən bəzək elementlərindəndir;

- Damğa işarəsi kimi «ney», «kuray» adlanır. Əsas etibarilə qıpçaq tayfaları arasında yayılmışdır;

✳ - Naxçıvanın Gəmiqaya, Qərbi Azərbaycanın Abaran, Dəvəboynu, Mərkəzi Asiyanın Saymalıtaş, Tamqalıtaş qayaüstü təsvirlərində, Krım, Volqaboyu tayfalarının tanınma-fərqləndirmə nişanları arasında geniş rast gəlinir. Ortaq türk simvolizminə əsasən, solyar işarə olaraq, «Tanrı-Günəş», «ikibaşlı qartal» anlamını verən qədim dövlətçilik rəmzlərindəndir. Azərbaycan, kumık, balkar, türkmən, başqırd, tatar və Krım xalçalarının populyar ornamentlərindəndir;

- Hun və xəzərlərə məxsus damğalardandır. Qafqaz Albaniyası, Qızıl Orda nəsil-tayfa işarələri kimi maddi irs nümunələri üzərində rast gəlinir. Məskunlaşmanı, binə salmağı, çadır qurmağı simvolizə edir. Mərkəzi Asiyada

97 О.Ширяев. « Крест – знак знаков», http://www.protos7.ru/Forma/Glava07.pdf ; И.Смирнова. « Тайная история креста. Все о древнем мистическом символе человечества». Москва: «ЭКСМО», 2006.
98 А. Мальчик. «Роль орнамента в формировании архитектуры Кыргызстана (Генезис, эволюция, национальные традиции)». Бишкек, 2010.

«barxan» adı ilə də tanınır;

- Oğuzun bəydili boyunun damğasıdır. Türk tayfalarının rəmzləri arasında onun müxtəlif variantları vardır. E.Triarskinin damğa təsnifatında sırf türk tanınma-fərqləndirmə nişanı kimi təqdim edilir;[99]

- Oğuzların əfşar boyuna daxil olan nəslin damğası, həm də Göytürk əlifbasında «d» səsini ifadə edir;

- Xristianlıqdan öncəki rəmzdir. Qədim türk mifik təfəkküründə bərabərtərəfli xaç Tenqri xan və Humay Ana obrazları ilə bağlıdır. Qədim adları «aça» *(haça, xaç),* «açamay» *(aça Umay)*, «elşən», «sarkay», «koçkar», «qoşqar» və s.-dir. Azərbaycan xalça ornamentləri arasında «göz» adlanır və nəzərlik xarakteri daşıyır. Krım xalq tətbiqi sənətində «qabaq tumu» kimi də tanınır;

- Tanrı-Günəş rəmzinin stilizə olunmuş variantlarındandır. Xalçaçılıqda «gül» ornamenti kimi tanınsa da, ilkin semantikası səkkizguşəli ulduz *(Günəş)* işarəsi ilə bağlıdır. İslam simvolizmində müsəlmanın səkkiz əməlinin, cənnətin səkkiz qapısının və Əhli-Beytin təcəssümüdür.

Beləliklə, qeyd olunduğu kimi, Azərbaycan, Anadolu, Dağıstan, turkmən, özbək, qaşqay, kumık, qazax, qırğız, uyğur xalçaçılıq məktəblərinin fonunda erməni xalça sənəti, təbii olaraq, öz yerini və etnik simasını tapa bilmirdi. Əsas səbəb isə sənətşünaslıqda «erməni xalçaçılığı» adlanan müstəqil cərəyanın və ya üslubun olmaması, dini mövzularda toxunmuş təsvirlər istisna edilərsə, erməni ustalarının əl işi olan xalçaların süjet, rəng seçimi və ornament baxımından Azərbaycan, Anadolu və Qafqaz xalçalarını birə-bir təkrarlamasıdır. Belə olan təqdirdə etnik natamamlıq kompleksindən əziyyət çəkən Ermənistan sənətşünasları və tarixçiləri erməni xalçaçılığının əhəmiyyətini qaldırmaq və əlahiddə məktəb, «xalçaçılıq sənətinin tarixi vətəni» kimi tanıtmaq məqsədilə strategiya hazırlamış və onun mərhələli tətbiqinə başlamışlar. Ötən əsrin 80-ci illərinin əvvəllərinədək bu mövzuda dərc olunan materialların təhlilinə əsasən, bu strategiya ikili xarakter daşıyırdı. Yəni bütün səylər bir tərəfdən region xalqlarının xalçaçılıq ənənələrinin simasızlaşdırılmasına, bu sənətin etnik mənsubiyyət, milli mədəniyyət üzrə bölünməsinə yol verilməməsinə, digər tərəfdən isə yaranmış boşluqdan bəhrələnərək «Ermənistanın ən qədim xalçaçılıq mərkəzi olmasına» dair iddiaların, saxtalaşdırılmış materialların

99 И.Баски. «Тамги и этнические названия. Вклад тамга-знаков в этногенез татар». // Татарская археология, 1997, №1.

ictimai rəyə nüfuz edilməsinə yönəldilmişdir. Məsələn, sənətşünas Manya Kazaryan təkidlə bildirirdi ki, xalçaçılıq sənəti ümumbəşəri dəyərdir və ayrı-ayrı xalqların etnik mədəniyyət nümunəsi kimi öyrənilməməli, müxtəlif millətlərin, o cümlədən ermənilərin də daxil olduğu «subetnik tarixi-mədəni rayonların» maddi-mədəni irsi çərçivəsində tədqiq olunmalıdır. Xalçaçılığın bəşər mədəniyyətinin bir parçası olmasına heç kəsin etirazı yoxdur. Lakin nədənsə M.Kazaryanın təkidlə tövsiyə etdiyi regional «subetnik rayonlar» əsas etibarilə Azərbaycan və Türkiyə ərazilərini, ermənilərin iddia irəli sürdükləri torpaqları əhatə edirdi. Ötən illərin təcrübəsi göstərdi ki, belə psevdokosmopolit yanaşma taktikası təkcə ayrı-ayrı xalqların xalçaçılıq sənətini milli köklərdən ayırmaq cəhdləri ilə kifayətlənməmişdir. Paralel olaraq, milli mədəni irs nümunələrinin kütləvi ermənilərşdirilməsi son nəticədə qonşu dövlətlərə ərazi iddialarının ödənilməsinə yönəldilən separatçı fəaliyyət, işğal aktları üçün bəraətverici «tarixi sübutların» uydurulmasına şərait yaratmışdır. Eyni zamanda, akademik səviyyələrdə xalçaçılıq sənətinin yalnız oturaq əkinçiliklə məşğul olan xalqlara aid olan məşğuliyyət olduğu bildirilir və mənimsəmələr üçün zəmin hazırlanır: **«Çünki köçəri xalqların həyat tərzi onlara bir yerdə çox qalmağa, beləliklə, xalça toxumaq üçün vaxt ayırmağa imkan vermir. Bundan başqa**, **ağır dəzgahı** *(hana)* **bir yerdən başqa yerə daşımaq da çətindir. Ən qədim erməni xalçalarından biri 1202-ci ildə Qanzak** *(Gəncə)* **vilayətində toxunmuşdur».**[100]

M.Kazaryan «subetnik rayonların» vacibliyi və xalçaçılıq sənətinin etnik köklərdən ayrılmasının əhəmiyyəti haqqında 1983-cü ildə dərc etdiyi məqalədə bunları etiraf edirdi: **«Problemin** *(xalçaçılıq sənətinin milli qruplara bölünməsinin – **A.Q.**)* **mürəkkəbliyinə baxmayaraq, «erməni xalçası» və «ermənilərin toxuduqları xalçalar» anlayışları arasında olan fərqlər mütləq nəzərə alınmalıdır. Ermənilər Quba, Nuxa, İkoniya** *(Konya),* **Trabzon, İstanbul, Ankara və İspartada, Kappadokiyanın şəhərlərində, İranın müxtəlif mərkəzlərində həmişə xalçaçılıqla məşğul olmuşlar. Amma bu əl işlərini «erməni xalçaları» adlandırmaq olmaz. Çünki onların kompozisiyası fərqli tipologiya üzərində qurulmuşdur»**.[101] Lakin cəmi iki il sonra – Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının gerçəkləşdirilməsi istiqamətində fəaliyyət ərəfəsində Manya Kazaryan taktikanı dəyişmiş, Yerevan sənətşünaslarının əsl məqsədlərini göstərərək, Türkiyəni, Cənubi Qafqazı

100 «Ковры (армянские)», http://www.khachkar.ru/encyclopedia/?id=148

101 «Культура, жизнеобеспечения и этнос. Опыт этнокультурного исследования (на матариалах армянской сельской культуры)». Отв. ред. С.Арютунов, Э.Маркарян. Ер., 1983

və Dağıstanı açıq şəkildə «erməni xalqının tarixi etnomədəni məkanı» elan etmişdir. Belə ki, o, 1985-ci ildə Moskvada geniş tirajla rus və ingilis dillərində nəşr etdirdiyi «Erməni xalçaları» albomunda «kosmopolitizm» ideyalarını bir kənara qoyaraq bildirirdi: **«Öz milli mədəni dəyərlərini yaradan ermənilər qonşu xalqların incəsənətinə biganə qala bilməzdilər. Bu xalqlar** *(Anadolu və Azərbaycan türkləri, gürcülər, Qafqaz xalqları və s.)* **təkcə Şərqi Ermənistan torpaqlarında** *(Azərbaycan Respublikası əraziləri nəzərdə tutulur*) **deyil, bütün Qafqazda – Tiflisdə, Qoridə, Kaxetiyanın kəndlərində, Dağıstanda, Şirvanda, Qazaxda da yaşayırdılar. Bu siyahıya erməni xalça ustalarının çalışdığı Kiçik Asiyanın – Anadolunun ərazilərini də daxil etmək olar».**[102]

Milli ənənə xarakteri almış erməni saxtakarlığının mexanizmi olduqca sadədir. Əslində, İncil mətnlərini istədikləri kimi dəyişən, Hz.Musanı, Hz.İsanı, Misir fironlarını, Makedoniyalı İskəndəri, Spartakı, Ömər Xəyyamı, Leonardo da Vinçini, Xristofor Kolumbu «etnik erməni» elan edənlərdən orijinal təbliğat ssenarisi gözəmək çətindir. Belə ki, ilk mərhələdə konkret mövzu, məsələn, xalçaçılıq üzrə tarixi materiallar saxtalaşdırılır, sitatlar təhrif olunur, elmə məlum olmayan «qədim salnaməçilər», «müasir Qərb tədqiqatçıları» və onların erməni xalçalarından bəhs edən əsərləri uydurulur və s. Daha sonra bu materiallar akademik nəşrlər səviyyəsində əvvəlcə Ermənistan çərçivəsində elmi dövriyyəyə buraxılaraq, onların ictimai rəyə təsir imkanları sınaqdan çıxarılır. İkinci mərhələdə isə muzdla tutulan xarici müəlliflər vasitəsilə həmin saxtakarlıq nümunələrinə istinad edilən fundamental nəşrlər işıq üzü görür, elmi tədqiqatlar aparılır. Məsələn, moskvalı tədqiqatçı Yelena Larinanın M.Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsinin qərarı ilə 2007-ci ildə çap etdirdiyi «Rusiya imperiyası xalqlarının xalçaçılıq sənəti» adlı kitabı erməni saxtakarlığının «akademik nəşr» adı altında gizləldilməsinin və «Qafqazda tarixən dominant mövqe tutmuş erməni mədəniyyətinin» təbliğinin bariz nümunəsidir. Onu da vurğulayaq ki, erməni alimlərinin yazı və araşdırma üslubunun aydın şəkildə hiss olunduğu bu əsərdə heç də Rusiya imperiyasının deyil, məhz SSRİ-nin tərkibində olan xalqların xalçaçılıq sənətindən bəhs edilir. Sovet dövrünə nostalji hissi ilə yazılan kitabda «erməni xalqının və erməni xalça sənətinin Azərbaycan mədəniyyətinə əhəmiyyətli təsirinə» geniş yer verilmiş və bu, xalçaçılıqla məşğul olan ərazilərdə ermənilərin sayca üstünlüyü ilə izah edilmişdir. Kitaba erməni təsirini təsdiqləyən məqamlardan biri də Ermənistanda

102 М.Казарян. «Армянские ковры». Москва: «Советский художник», 1985.

tarixən azərbaycanlıların yaşaması və xalçaçılıqla məşğul olmaları, İrəvan və Qarabağ xalçaçılıq məktəbləri barədə müəllifin təkidlə susması, Ermənistanda ötən əsrin 90-cı illərindən sonra dəyişən toponimlərin verilməsi, əvəzində isə Azərbaycanın bölgələrinin, Gürcüstanda və Ermənistanda azərbaycanlıların məskunlaşdıqları kəndlərin adlarının və yerləşdiyi məkanların ciddi şəkildə təhrif edilməsi, elmi istinad kimi M.Kazaryanın əsərlərinin göstərilməsidir. Y.Larinanın qənaətinə görə, Gəncə və Kirovabad, Samux və Xanlar fərqli şəhər və bölgələrdir. Faxralı kəndi, sən demə, Gürcüstanda deyil, Azərbaycanda, Gəncə yaxınlığında yerləşir. Kirovabad isə Dağlıq Qarabağ ərazisindədir. Faxralı, Qaraçöp *(Gürcüstan)*, Şuşanın Malıbəyli kəndi, Bərdə, Quba, Şəki, Naxçıvan, Culfa, Şahbuz rayonlarında əsasən ermənilər yaşayırlar. Azərbaycanda Qaryagin *(indiki Füzuli rayonu),* Nuxa *(Şəki),* Mirbəşir *(Tərtər)*, Şaumyan və Qasım İsmayılov *(Goranboy)*, Şamxor, Səfərəliyev rayonları hələ də qalmaqdadır və s. Yelena Larina bunlarla kifayətlənməmiş, üzərində ortaq türk damğa işarələri və rəmzləri , hətta Qaraqoyunlu dövlətinin rəmzi olan və XIX əsrə aid edilən xovlu İrəvan xalçalarını «Sevan» adı altında «erməni etnik sənət nümunələri» kimi göstərmişdir.

Manya Kazaryanın «Erməni xalçaları» kitabı Azərbaycan milli mədəniyyət nümunələrinin mənimsənilməsinə yönəldilən təbliğat vasitəsi olmaqla yanaşı, həm də plagiatın, sərsəm millətçiliyin elmə təcavüzünün və saxtakarlığın parlaq nümunəsi sayıla bilər. Müqayisəli təhlil göstərdi ki, buradakı sitat və fotoşəkillərin, elmi qənaətlərin, xalça illüstrasiyalarının bir çoxu dünya şöhrətli xalçaçı-alim və ekpert, professor Lətif Kərimovun 1983-cü ildə nəşr olunmuş «Azərbaycan xalçaları» kitabından götürülmüşdür. Lakin Manya Kazaryan erməni alimi olduğunu unutmamış, plagiatlığa da yaradıcılıqla yanaşmış, Azərbaycan xalçalarının adlarını, etnik və regional mənşəyini, bir çox yerdə isə L.Kərimovun fikirlərini saxlamaqla «Azərbaycan» və «azərbaycanlılar» sözlərini «Ermənistan» və «ermənilərlə» kəlmələrinə dəyişməkdən, «Xətayi» xalçasından fraqmenti kitabın üz qabığına çıxartmaqdan utanmamış, orta əsr salnaməçilərinin qeydlərini ciddi redaktə etmiş, hətta iddialarını nə yolla olursa-olsun əsaslandırmaq üçün heç vaxt mövcud olmayan ərəb səyyahlarını dünyaya gətirmişdir.

Saxtakarlığa əyani misal qismində aşağıdakı xalça illüstasiyalarını göstərmək olar. Gəncə-Qazax xalçaçılıq sənətinin nümunəsi olan Qaraqoyunlu xalçası *(XV əsr)* «Erməni xalçaları» kitabında «Marbi» *(guya həmin xalça vaxtilə isveçin Marbi kəndindəki kilsədə tapılmışdır)* adı altında daxil edilsə də, müəllif onun süjetini nə erməni mifologiyası, nə də «erməni simvolizmi»

əsasında açа bilmiş, qoşa quş təsvirlərini «ermənilərə yaxın olan obraz» adlandırmaqla kifayətlənmişdir. Halbuki, həmin təsvir yalnız ortaq türk mifoloji təsəvvürləri və obrazları, xüsusilə Dünyanın Yaranışı mifi üzərində öz yozumunu tapır. Xatırladaq ki, Ön və Mərkəzi Asiyada, Qafqaz və Cənubi Qafqazda yaşayan türk xalqlarının mif və rəvayətlərində «Ağ quş», «Kuqu», «Su gəlini», «Kaz/Qaz», «Ak kaz» və s. adarla tanınan qu quşu Humay Ananın təcəssümlərindən biri olmaqla, ailənin, nəslin, kökün davamı, ilahi gözəllik rəmzi sayılırdı. Təsadüfi deyildir ki, hətta islam dininin qəbul olunmasından sonra da qu quşu öz müqəddəsliyini saxlamış, onun ovlanması Tanrı qarşısında böyük günahlardan biri hesab edilmişdir. Əski türklərin inancına görə, insanların yaşadığı Orta Dünyanın, ailənin, körpələrin, xaqan xatunlarının və döyüşçü ruhlarının himayəçisi olan Humay Ana Ağ quş obrazında *dünyanın yaranışında iştirak etmiş, dəryaya baş vuraraq dimdiyi ilə onun dibindən torpağı yuxarı qaldırmış və onun üzərində meşələr, dağlar, çaylar yaranmışdır. Xalçadakı qoşa quş təsvirlərinin də* erməni mifoloji aləmi ilə əlaqəsi yoxdur. Altaylardan gələn və islam dinində «Cənnət», «Tuba Ağacı» anlayışları ilə səsləşən qədim rəvayətə görə, yetmiş çayı bir yerə qovuşduran müqəddəs məkanın mərkəzində yarpaqları *(insan ruhları)* qızıl və gümüşdən tökülmüş əbədi Qovaq ağacı *(Dirilik Ağacı, Qaba Ağac, Bayterek)* ucalır. Onun ölçüləri o qədər böyükdür ki, nəhəng bir ilxı onun çətiri altında gizlənə bilər. Ağacın zirvəsində yuva salan iki müqəddəs qu quşu isə Orta Dünyadakı insanlara, yenicə ailə quranlara gələcəyi, aqibətlərini söyləyirlər. Bu mifin təzahürlərinə təkcə Azərbaycanın, Anadolunun, Şimali Qafqazın, Mərkəzi Asiyanın, Volqaboyunun, Şərqi Sibirin xalq tətbiqi sənətində, eləcə də memarlıq elementlərində bu gün də geniş rast gəlinir. Quş həm də ailə xoşbəxtliyi və sevginin rəmzidir. İslam mifologiyasında Allah-Təalanın yaratdığı ən mükəmməl varlıqlardan biri olan Anka quşudur. Qaf (Qafqaz) dağında yuva quran bu quş, rəvayətə görə, 1700 il yaşayır. Anadolu və Azərbaycan xalçalarında əjdaha ilə döyüşən və ona qalib gələn Anka quşu soyuq qışın başa çatmasının təcəssümü, baharın müjdəçisi sayılıb.[103] M.Kazaryan xalça üzərindəki digər damğa işarələrinin semantikasını verməkdən məqsədli *şəkildə çəkinmişdir*. *Çünki* onların yozumu Ağ quş və qu quşları haqqında miflərin süjetini tamamlayır. Məsələn, - bitik, tumar – Humay Ananın nəzərliyi, - damğa işarəsi kimi «qoştumarşa» - qoşa tumar, «saçbağı», «uyğur» adlansa da, ilkin olaraq, Yaranışı, qadın və kişi başlanğıclarının vəhdətini

103 Şerare Yetkin. **«Halı Sanatı»,** http://www.msxlabs.org/forum/guzel-sanatlar/22349-el-sanatlari-hali-sanati.html

bildirir, - qoç, qoçkar, koçkar, kaçkar – «bolluq», «bərəkət» anlamını verir, Qaraqoyunlu dövlətinin rəmzi olmuşdur və s.

1. XV əsrin əvvəllərinə aid olan Qaraqoyunlu xalçası (Gəncə-Qazax qrupu). Hazırda Berlin İncəsənət Muzeyində saxlanılır. Xalça üzərində qədim türklərin Dünyanın yaranışı və Dirilik Ağacı mifi əks olunmuşdur. M.Kazaryan onu «erməni xalçası «Marbi» kimi təqdim edir. 2. «Əjdaha və Simurq» xalçası (XV əsr, Gəncə-Qazax tipi. Berlin İncəsənət Muzeyi). Ermənilər onu «Əjdaha xalçası» adı altında mənimsəməyə səy göstərirlər. 3. Xətayi kompozisiyalı Şirvan xalçasından fraqment. XVII əsrdə toxunmuşdur. Hazırda 7940 inventar nömrəsi altında Budapeşt Dekorativ Sənət Muzeyində saxlanılır. Erməni mənbələrində bu xalçaya da qondarma «Vişapqork» adı verilmişdir

İkinci xalça üzərində əjdaha və quşun mübarizəsi təsvir olunmuşdur. Əjdaha *(Anadoluda ona «əjdər» də deyirlər*) aslan ayaqlı, ilan quyruqlu mifoloji varlıq olaraq havanın və suyun yeyəsi *(yiyəsi)*, tanrıçası hesab olunur. O həm də yaranış gücünün təcəssümü, dünyanın bütün sirlərini, xəzinələrin yerini bilən ilanabənzər əfsanəvi canlıdır. Azərbaycan və Anadolu xalçaçılıq sənətində «əjdaha» onramentinin əsasən «bulud» adlandırılması da bu obrazın hava və su ilə bağlılığını göstərir. Onun bu xüsusiyyətləri ilə saka-skiflərin mifik Anası - yer altında, dərin mağaralarda yaşayan ilahə Apinin xarici görkəmi *(əjdaha-ilan)* və funksiyaları arasında yaxınlıq olduğu nəzərə çarpmaqdadır. Əjdaha yeraltı dünyada, ruhlar aləmində yaşadığından qədim türklərin əcdad kultu ilə də əlaqəlidir.

Erməni saxtakarlığına başqa bir misal. Lətif Kərimov «Azərbaycan xalçaları» *(II cild)* kitabında yazır: «İranın baş arxeoloqu Seyid Məhəmmədtağı Mostafevi və İranın qədim tarixi muzeyinin direktoru Samani İran xalçala-

rının tarixini izləyərək öz qənaətlərini «Nəqşo-Negar» məcmuəsinin birinci sayında *(Tehran, 1955)* bölüşmüş və bildirmişlər ki, **«Qali»** *(xalı)* **sözü qədim dövrlərdə öz xalçaları ilə məşhur olan və xalçaçılıq sənətini bütün İran ərazisində yayan Qaliqala şəhərinin** (*Ərzurum vilayətində indiki Qaligilə yaşayış məntəqəsi*) **adından götürmüşdür».**[104] Təbii ki, bu fikirlər Manya Kazaryanı razı salmamış, sitatı əsaslı şəkildə dəyişdirmək, ona erməni çalarları vermək və ən nəhayət, qondarma «Böyük Ermənistan» əraziləri ilə bağlamaq fürsətini qaçırmamışdır. Odur ki, elm aləmi üçün təcili şəkildə «Əbu Avn» adlı məchul ərəb səyyah doğurmuş, iranlı mütəxəssislərin fikirləri üzərində əl gəzdirərək belə təhrif etmişdir: «Ermənilər xalçanı «xali» və ya «xaliça» adlandırırlar. IX əsrdə yaşamış ərəb səyyahı Əbu Avn bildirirdi: **«Xali» sözü QƏRBİ ERMƏNİSTANDAKI KARIN - İNDİKİ ƏRZURUM ŞƏHƏRİNİN adından götürülüb. Ərəblər bu şəhərə «Kaliqala»** *(Xalı şəhəri)* **deyirdilər. Belə bir fikir də var ki, ərəb və türk dillərində işlədilən «xalı» sözü ermənicə «xav» (?), yəni «xov» sözündən yaranıb».**[105]

Lətif Kərimov «Azərbaycan xalçaları» kitabında xalçaçılıqla əlaqəli olan boyaqçılıq sənətinə toxunarkən bunları qeyd edirdi: **«Mötəbər mənbələrə görə, qədim dövrlərdə Azərbaycan ərazilərində «qırmız» adlanan və palıd yarpaqları ilə qidalanan qırmızı rəngli həşəratlar olmuşdur. Xalçaçılar boyaq almaq üçün bu həşəratlardan da istifadə etmişlər. Alınan boya ilə yun və parçalar rənglənirdi. X əsrdə yaşamış ərəb coğrafiyaşünası İbn Qovxal yazırdı ki, bu həşərat ipəkqurduna bənzəyirdi. Onun müasiri olan Müqəddəsi isə aşağıdakıları qeyd edir: «Həmin qurd torpaqda yaşayır, qadınlar onları toplayır, təndirdə qurudur, sonra da yun, kətan və ipəyi boyayırdılar. «Nüzhətil-qülub» kitabının müəllifi Həmidullah Qəzvini isə yazırdı ki, Mərənd** *(Güney Azərbaycan)* **şəhərindən cənubda «qırmız» adlı bir qurd var. Onu yalnız yayın başlanmasına bir həftə qalmış tutmaq olar».**[106] M.Kazaryan yenə də öz ampuluasındadır və «cavab atəşini» gecikdirmək istəmir. İndi onun vəzifəsi nə yolla olursa-olsun zavallı qırmızı həşəratı da ermənileşdirmək, ona «tarixi Ermənistan torpaqlarında» sığınacaq verməkdir. Buna elmi-iqtisadi əsası da vardı! Hələ sovet dönəmində Ermənistan SSR-in Nazirlər Soveti «vordan karmir» adlı

104 Л.Керимов. «Азербайджанский ковер» Том 2. Баку: «Гянджлик», 1983.
105 М.Казарян. «Армянские ковры». Москва: «Советский художник», 1985.
106 Л.Керимов. «Азербайджанский ковер» Том 2. Баку: «Гянджлик», 1983.

«qədim erməni boyasını» milli brend elan edib geniş istehsalına başlamaq üçün ərazi, vəsait və laboratoriya ayırmışdı. Lakin sonralar müəyyən edilib ki, bu qurd Ermənistan faunasına xas həşərat deyil və nəsli kəsilməkdə olan canlıdır. Bütün bunlara baxmayaraq, Manya Kazaryan ruhdan düşməmiş, qırmızı böcəyi nəinki indiki Ermənistan ərazisində yerləşdirmiş, hətta «Balzori» adlı növbəti «orta əsr ərəb səyyahının» dünyaya gətirilməsini özünün vətəndaşlıq borcu olaraq qəbul etmişdir. O yazır: **«Erməni milli boyaq maddələri (?) içərisində «vordan karmirin», yəni «qurddan alınan qırmızı rəngin» müstəsna yeri vardır. Bu böcək yalnız Ararat vadisində olur. Təsadüfi deyildir ki, ərəb coğrafiyaşünası Balzori qədim erməni şəhəri olan Artaşata «Karyət əl-Qırmızı» deyirdi».**[107] Sual yaranır: Əgər bütün bunlar həqiqətdirsə, görəsən, nə üçün məchul «ərəb səyyahı Balzori» Vedibasardakı «erməni şəhərini» türkcə adlandırmışdır?

Erməni sənətşünası Liliya Avanesyan isə «əzabkeş» hay xislətinə tamamilə uyğun gələn pessimist mövzuda - «Erməni xalçalarının dəfn mərasimləri ilə əlaqəsi» adlı məqaləsində bunları yazır: **«Ölən insanın xatirəsini əbədiləşdirmək üçün onun adına xalça toxumaq ermənilərin qədim adətidir. Qədim erməni inanclarına görə, xalça kult predmeti kimi mərhumun axirətə çatdırılmasında körpü rolunu oynayır. Hələ XX əsrin əvvəllərində erməni kəndlərində cənazəni xovsuz xalçaya büküb, başqa bir xalçanın üzərinə qoyub, üzərinə xalça naxışları ilə bəzədilmiş örtük çəkərək məzarlığa aparırdılar»**. Müəllif dediklərinə misal qismində bunları bildirir: **«Belə xalçalardan biri XIX ƏSRDƏ SİSİYANDAKI SPANDARYAN KƏNDİNDƏ toxunmuşdur».**[108] Və çətin ki, ermənilərin absurd məntiqlərindən xəbərsiz hər hansı bir əcnəbinin hələ XIX əsrin birinci yarısında erməni-rus bolşeviki Suren Spandaryanın *(1882-ci ildə Tiflisdə doğulub, 1916-cı ildə Krasnoyarskda öldürülüb)* doğumundan xeyli əvvəl onun adını daşıya bilən «erməni» kəndinin mövcudluğu barədə məlumatı olsun! Halbuki, vaxtilə Yelizavetpol *(Gəncə)* quberniyasının Zəngəzur qəzasına daxil olan bu kəndin əsl adı «Məliklər» olmuş və Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 1939-cu il tarixli fərmanı ilə dəyişdirilmişdir. XIX-XX əsrin əvvəllərinə aid statistikaya əsasən, Məliklər kəndinin əhalisi tamamilə azərbaycanlılardan ibarət olmuşdur *(1831-ci ildə*

107 М.Казарян. «Армянские ковры». Москва, «Советский художник», 1985.
108 Л.Аванесян. «Связь изображений армянских ковров с погребальными обрядами», журн. «Анив», №3 (42).

22 nəfər, 1873-cü ildə 112 nəfər, 1886-cı ildə 209 nəfər, 1897-ci ildə 230 nəfər, 1908-ci ildə 318 nəfər, 1914-cü ildə 249 nəfər). 1923-cü ildən sonra azərbaycanlılar zorən buradan köçürülmüş, kənddə Türkiyədən gəlmiş ermənilər məskunlaşmışlar.[109] Nəticədə məlum olur ki, L.Avanesyanın iddialarının əksinə olaraq, XIX əsrdə bu kənddə ermənilər yaşamamışlar və həmin xalçanın həqiqi müəllifləri də məhz azərbaycanlılardır. Digər tərəfdən, Liliya Avanesyanın məqaləsindən belə məlum olur ki, ermənilər insan sağ ikən mütləq onun adına xalça toxuyurdular ki, ölən kimi dərhal ona büküb torpağa tapşırsınlar. Xalçanın türk kökənli olmasına növbəti təkzibedilməz sübut isə onun üzərindəki əsas rəmz - sırf türk tayfalarına məxsus olan damğa işarəsi ♈ əsasında yaradılmış *(Tenqri/Tanrı açası)* təsviridir. Aşağıda həmin «erməni xalçası» və müxtəlif türk xalqlarına məxsus ortaq rəmz - xaç/açа naxışları arasında eyniliyi təqdim edirik. Bu həm də erməni sənətşünaslarına həmin etnik mədəniyyətləri də mənimsəmək üçün «səmimi tövsiyədir».

İndi isə Manya Kazaryanın «Erməni xalçaları» kitabında təsvirlərini verdiyi, lakin semantikasını açıqlamaqdan çəkindiyi «erməni xalça ornamentlərinin» həqiqi yozumunu və təsvirin mənbəyini nəzərdən keçirək. Bəri başdan onu da bildirək ki, naxışların semantikasında Ermənistan Respublikasından xeyli uzaqda olan və erməni alimlərinin «tənbəlliyi» üzündən hələ də torpaqları qondarma «Böyük Ermənistan ərazilərinə» daxil olunmayan digər türk xalqlarının etnik ornament və damğa işarələrinə məqsədli şəkildə üstünlük verilmişdir.



XIX əsrdə Qərbi Azərbaycanın Məliklər kəndində azərbaycanlıların toxuduqları «erməni xalçası» üzərində Tenqri xan açası fraqmenti

109 İ. Bayramov. «Qərbi Azərbaycanin türk mənşəli toponimləri», http://www.karabakh-doc.azerall.info/ru/azerpeople/ap069az-2.php



Azərbaycan (1-3), qırğız (4), türkmən (5-6), qazax (7), özbək (8), tuva (9), başqırd (10), çuvaş (11), yakut (12), balkar (13), qaraçay (14), xakas (15) və Ukrayna kazaklarının (16) xalça, keçə və tikmə naxışlarında Tenqri xan açalarının rəmzi variantları

- Bu təsvir və onun çoxsaylı variantları türk xalqlarının tətbiqi sənətində «Ağ quş», «Qu quşu», «Su sonası», «Kuqu», «Su gəlini», «Ak kaz», «Kaz» və s. adlar altında tanınır. Qədim türk mifoloji təsəvvürlərində qu quşu Dünyanın Yaranışının iştirakçısı, ailənin, körpələrin, döyüşçü ruhlarının himayəçisi olan Humay Ananın xeyrxah zoomorf obrazıdır. Bir sıra türk xalqlarının rəvayət və dastanlarında, qu quşu qadınların totem canlısı kimi təqdim olunur. Məsələn, qırğızların «Semetey» eposunun qəhrəmanlarından Ayçürek qu quşuna çevrilir. «Kitabi-Dədə Qorqud» dastanlarında qu quşu *(qaz)* qadın gözəlliyinin, qadın zərifliyinin rəmzi sayılır. Ortaq damğa nişanları arasında bu quşla əlaqəli çoxsaylı işarələr vardır.

- Azərbaycan xalçalarında xüsusilə Şirvan və Bakı məktəblərində geniş istifadə edilən «xoruz» təsviri zoomorf obraz kimi öz kökünü saka-skiflərin mifoloji təsəvvürlərindən götürür. Qoşa xoruz ornamenti Xeyir və Şər, gecə və gündüz arasında təmasların, tək xoruz isə sübhün rəmzi hesab edilir. Eyni zamanda, zərdüştilik dinində xoruza Həyatın oyanışının rəmzi olmaqla nəzərlik, ev və insanları bəd ruhlardan qorumaq kimi keyfiyyətlər verilmişdir. Bəzən xalçalardakı xoruz rəmzləri üzərində tayfa və nəsillərin damğa işarələrinin həkk olunması məhz onun qoruyucu funksiyası ilə əlaqəlidir. Xoruz islam dinində də müsbət obrazdır. Əbu Hüreyrədən gəlib çatan hədisdə islam peyğəmbəri *(s.ə.s.)* buyurmuşdu: **«Xoruz banı eşitsəniz, Allahdan fəzilət diləyin, o mələk görüb»**.

- Türk xalqlarında «Dirilik Ağacı», «Qaba Ağac» *(«Kitabi-Dədə Qorqud»),* «Baterek» *(Mərkəzi Asiya)*, «Dilək Ağacı» və s. adlarla tanınır. Pazırıq kurqanında *(saka-skiflər)* aşkar olunmuş dəri uşaq önlüyü, süjetli mərasim keçəsinin üzərində də onun təsvirləri vardır. Qədim mifoloji təsəvvürlərə görə, onun budaqları üzərindəki yarpaqlar şamanların və doğulmamış körpələrin ruhlarıdır. İslam təsəvvürlərində bu rəmz - Yer üzü ilə cənnəti birləşdirən ağac bəzən cənnətin mərkəzindəki Tuba ağacının təcəssümü kimi də dəyərləndirilir. Hayat ağacının yarpaqları doğulacaq insanların ruhlarıdır.

- Əski türk mifoloji təsəvvürlərində sakral canlı olan qoçun buynuzlarının qrafik təsviridir. Damğa işarəsi kimi Anadoluda, Cənubi və Şimali Qafqazda, Mərkəzi Asiyada, Krımda, Volqaboyunda, Şərqi Sibirdə «qoşqar», «qoçqar», «koçkar», «qoç müyüz» *(qoç buynuzu),* «koçkarok», «kayabaran» *(qaya baranı/qoçu)* və s. adlanır. Xalçaçılıqda və damğa təsnifatında çoxsaylı variantları və s. vardır. Bundan başqa, işarəsi damğa və dövlətçilik rəmzi olmaqla Qaraqoyunlu dövlətinin bayrağında təsvir edilmişdir. Həmin işarə Qarabağ xalçalarında *(Malıbəyli)* daha geniş yayılmışdır. Qeyd edək ki, ornamenti ağqoyunluların dövlət rəmzi ehtimalını yaratmaqla, etnik naxış qismində ona Azərbaycan, Anadolu, türkmən, qaraqalpaq, eləcə də Dağıstan, xüsusilə Tabasaran xalçalarında rast gəlinir.

- Azərbaycan və Anadolu xalça naxışları içərisinə bu ornament də aslan ayaqlı, ilan quyruqlu və quş qanadlı mifik varlığın, su mənbələrinin hamisi və keşikçisi əjdahanın orazıdır. Əjdahanın buludlar arasında uçuşu torpağa bol bərəkət, yaz yağışları gətirir. O həm də qartal kimi Dirilik Ağacının əbədi

qoruyucusudur. Odur ki, erməni sənətşünaslarının bu təsviri deyil, *(qoç buynuzu)* işarəsini «vişap» adlandırmaları məntiqdən uzaqdır. Ermənilərin mənimsəmə iddialarına baxmayaraq, bu ornament də təkcə Cənubi və Şimali Qafqazda deyil, Mərkəzi Asiyada da geniş yayılmışdır. Qazax xalçaçılığında «on eki müyiz» *(on iki buynuz)* adlanır. Ornamentin kökündə özbək və qaraqalpaqların «balıq gözü» adlandırdıqları damğa işarəsi dayanır. Lakin digər variantlarda «ocaq» damğasının da stilizə olunmuş təsvirlərini görürük. Lətif Kərimova görə, damğanın ətrafındakı on iki qarmaq isə əski türk təqviminə görə, on iki illik dövrü ifadə edir.[110] Qeyd edək ki, işarəsi Anadoluda «qurd izi», «qurd ağzı» və «canavar ayağı» adları ilə də tanınır.

- Mənbəyini saka-skif mifik təsəvvürlərindən götürən əjdaha *(əjdər)* arxetipi, o cümlədən su üstündə oturan əjdaha obrazı sonralar türk xalqları arasında yeni əfsanəvi keyfiyyətlərlə zənginləşmiş, Yaranışın, Tenqri xan-Humay tandeminin təcəssümlərindən birinə çevrilmişdir. Yeni xassələrə malik olan əjahalar iki tipə ayrılmışdır. Onlardan birincisi Göyü *(səmanı),* kişi başlanğıcını təcəssüm etdirir, dekorativ tətbiqi sənətdə, xalçaçılıqda qanadlı, saqqallı və buynuzlu şəkildə təsvir olunurdu. Torpağı və qadın başlanğıcını simvolizə edən ikinci tip isə mifik varlıq olaraq bu zahiri atributlardan məhrum idi. Hər iki tipin stilizə olunmuş variantlarına Qarabağ, Naxçıvan, Qazax və Cənubi Azərbaycanın xovsuz xalçalarında – vərnilərində daha çox rast gəlinir.[111]

- Azərbaycanda bu işarə «qarmaq», Anadoluda isə «çəngəl» adlanır. İlkin damğa adı «qarmaq» olan işarənin yanaşı variantları həm də «axar su» adı ilə Azərbaycan etnik xalça ornamentlərində qalmaqdadır. Azərbaycan və Anadolu xalça simvolizmində insanı təhlükədən, bəd nəzərdən qurtarmaq üçün işlədilən motivdir. Mərkəzi Asiyada damğa işarəsi kimi bir sıra adları vardır. Məsələn, qazaxlarda «bota moyın» *(köşək boynu)*, «qaz moyın» *(qaz boynu)*, qırğızlarda «it quyruqşa» (it quyruğu) kimi də tanınır. Özbək və qaraqalpaqlar ona «qumırska beli» *(qarışqa beli)* deyirlər. Çuvaşlar onu səma nurunun, Günəş işığının təcəssümü hesab edirlər.[112] Mahmud Kaşğarinin «Divani-lüğət-it Türk» əsərinə görə, işarəsi oğuzun iqdır tayfasının damğasıdır. Bundan başqa, nişanı qazaxların Böyük Juzuna *(Birliyinə)* daxil olan kanlı tayfasının şılbır nəslinin də damğası sayılır. «Şəcəreyi-

110 Л.Керимов. «Азербайджанский ковер», в 3-х т. Т. III. Баку, 1983.
111 Г.Гафарова. «Элементы тюркской культуры на азербайджанских памятниках», http://strategiya.az/old/?m=xeber&id=20370
112 И.Богословская. «Зооморфные мотивы каракалпакского орнаментального искусства», http://www.sanat.orexca.com/rus/archive/2-09/irina_bogoslovskaya.shtml

Tərakimə» əsərində bu işarənin üfiqi variantı oğuzun iqdır və kızık boylarına aiddir. Bu ornamentə skiflərin apasiak tayfasının metal məmulatında *(e.ə. VI—IV əsrlər)*, Özbəkistanın Qaraqalpaq vilayətindəki Anşka-Kalı adlanan ərazidə tapılmış metal dəvə fiquru üzərində (*e.ə. I əsr – eramızın I əsri)*, Sır-Dərya çayı sahillərindəki Çirik-Rəbat mədəniyyətinə aid saxsı qablarda, eramızın II əsrinə aid Xarəzm sikkələrində, Cənubi Türkmənistanın memarlıq elementlərində *(X-XI əsrlər)* rast gəlinmişdir.[113]

- Ruhun ölməzliyi, onun ölümdən sonra reinkarnasiyası – yeni doğulan körpənin bədəninə köç etməsi fəlsəfəsi əcdad *(ata)* kultunun, şamanizmin qalığı olsa da, tanrıçılıq inancında qorunub-saxlanılmış və onun elementləri hətta islam dininin yayılmasından sonra türk etnik təfəkküründə mifoloji işartı şəklində qalmışdır. Azərbaycan, Anadolu, Şimali Qafqaz və Mərkəzi Asiyada müxtəlif nəsil-tayfa damğalarının sakral rəmzlərlə kombinasiyası nəticəsində yaranan və «əlibelində» adı verilən *(islam dininə əsasən, insan təsvirləri çəkmək yasaqdır)* ornamentlər məhz qədim inancların monoteist dinlə uzlaşmasının və ehkamlara etnik çalar verilməsinin nəticəsidir. Türk xalqlarının xalça motivlərində geniş yayılan və müxtəlif variasiyaları olan həmin ornament bir çox hallarda nəsil şəcərəsinin davamlılığının, ailədə arzu olunan və ya gözlənilən oğlan və qız uşaqlarının rəmzləri xarakterini daşıyır. İnsan *(əcdad)* fiqurunun mərkəzində yerləşən bərabərtərəfli üçbucaq işarəsi nəzərlik - Humay Ananın rəmzlərindən biri *(bitik, tumar)* olmaqla, həm də, görünür, xalça sahibinin mənsub damğa işarəsidir. Belə ornamentlər Azərbaycan, Anadolu və Türkmənistan xalçaçılıq sənətində «əlibelində» kimi təsnif olunur.

Manya Kazaryan bu təsviri də Lətif Kərimovun «Azərbaycan xalçaları» kitabından mənimsəsə də, nə «əlibelində», nə də «bitik» damğa-rəmzlərinə erməni mifik təsəvvürləri kontekstində yozum verə bilmişdir.

- Azərbaycan, Türkiyə, Mərkəzi Asiya xalçaçılıq sənətində **«göl»** ornamenti olaraq, nəzərlik kimi tanınan bu işarə və onun çoxsaylı variantları Anadoluda «damğa im» adlanır. Bütövlükdə, müxtəlif nəzərlik və tayfa, nəsil damğa işarələrindən ibarət olan həmin kompozisiyalar ailənin, elin qoruyucu rəmzləri xarakterini daşıyırlar.

- Yenə də Lətif Kərimovun «Azərbaycan xalçaları» kitabından götürülərək «erməni etnik naxışları» kimi təqdim olunan ortaq türk rəmzidir. Nəzərlik xarakterli milli ornament olaraq, təkcə Azərbaycan və Anadolu xalq

113 А.Алламуратов. «Каракалпакская народная вышивка». Нукус, 1977.

tətbiqi sənətində deyil, başqırd tikmələrində,[114] kumık, qaraçay,[115] qazax, qırğız, türkmən,[116] xakas, Volqaboyu tatarlarının *(bulqarların),* Krım tatarlarının xalça və kilim ornamentləri sırasında yayılmışdır. Onun ən qədim variantlarına Pazırıq kurqanlarındakı insan cəsədi üzərindəki döymənaxışlar *(tatu)* arasında və Taqar arxeoloji mədəniyyətinə *(e.ə. IX-III əsrlər, indiki Xakasiya Respublikasının ərazisi)* aid bürünc kəmər toqqası üzərində rast gəlinir. Xakaslar bu gün də bu təsvirə «koçot öyüm» deyirlər.[117] Bundan başqa, Şərqi Türküstandakı türkeşlərin metal sikkələrinə də həmin rəmzin fraqmenti basılmışdır[118]. Bu ornament əski Azərbaycan və Anadolu xalçaçılığında «qoç buynuzu», hazırda isə həm də «əlibelində» adlanır**.** Qeyd edək ki, həmin nişan hazırda Başqırdıstanın Askins rayonunun gerbidir. Ornament iki seqmentdən - bolluq rəmzi olan qoç buynuzu təsvirindən və torpaq, vətən anlamı verən romb işarəsindən ibarətdir. Ermənistandan çox-çox uzaqda yaşayan Arxangelsk rusları bu işarədən tikmə ornamenti kimi də istifadə edirlər.[119] İki «qoç buynuzu» damğasının vəhdətindən və ya «sınıq buynuz» kimi təfsir olunan işarələr və «köşək gözü» anlamını verən nişanın birliyindən yaranan ornament Azərbaycan, Türkiyə, qaraqalpaq və Krım tatarlarının xalçaçılıq sənətində «əlibelində» ornamenti adlanır. Ona qazaxların keçə məmulatında,[120] başqırd tikmələrində,[121] kumık, qaraçay[122] və Anadolu kilim naxışlarında[123] da rast gəlirik. Çuvaş xalqının bəzək ünsürləri sırasında isə qadın və kişi başlanğıclarının vəhdətini, ailə birliyini təcəssüm etdirən rəmzlərdən sayılır.[124]

Manya Kazaryan məlum səbəbdən ortaq türk ornamentini erməni simvolizmi müstəvisində yoza bilməmiş, əvəzində isə yan fraqmentlərini semantikası

114 «Башкирский народный костюм», http://900igr.net/prezentatsii/geografija/Bashkirskij-narodnyj-kostjum/014-Bashkirskij-narodnyj-kostjum.html

115 «Дагестанские ковры», http://articles.agronationale.ru/pigs/1907-dagestanskie_kovry

116 Г. Бердымухамедов. «Живая легенда. Книга о вечной красоте туркменских ковров». Ашхабад, 2011

117 А.Абдысадыр уулу. «Мир узоров. Кыргызское великодержавие: Культура. Металлообработка», http://www.jyrgalizm.kg/index.php?option=com_content&view=article&id=205&Itemid=85

118 А.Досымбаева. «Археологические источники в этнографических реконструкциях истории тюрков», Вестник Томского государственного университета. История. 2013, №3 (23)

119 «Использование ромбического орнамента Архангельской области в современном трикотаже», http://artzentr.narod.ru/sdpt/rombarch.htm

120 http://hameleons.com/kazakhstan-design/24498-kazaxskie-ornamenty.html

121 «Башкирский народный костюм», http://900igr.net/prezentatsii/geografija/Bashkirskij-narodnyj-kostjum/014-Bashkirskij-narodnyj-kostjum.html

122 «Дагестанские ковры», http://articles.agronationale.ru/pigs/1907-dagestanskie_kovry

123 «Halı Motif Özellikleri Desen Hazırlama», http://www.halidesenmodel.com/2012/04/hali-motif-ozellikleri-desen-hazirlama.html

124 Ф.Искандеров, И.Искандеров, Е.Костина. «Азбука чувашских орнаментов и эмблем», festival.1 september.ru/articles/57111/pril1.ppt

məlum olmayan «erməni simvolu» kimi təqdim etməklə kifayətlənmişdir. Halbuki, işarəsi damğa nişanı kimi bütün türk xalqlarında «qoç buynuzu», qazaxlarda isə «qosmüyüz» adlanır, başqırdlar onu tək halda sədaqət və məhəbbət rəmzi hesab edirlər.

- Yuxarıda qeyd olunduğu kimi, «səkkizguşəli ulduz» təsviri türk xalqlarının xalçaçılıq sənətində «gül» ornamenti kimi tanınır. Günəşin ibtidai rəmzlərindən sayılan bu işarə dünyanın qədim mədəniyyətlərində, o cümlədən zərdüştilikdə, ortaq türk mifoloji təsəvvürlərində Baş ilahinin *(Tenqri xanın)* astral rəmzlərindən biri sayılır.[125] İslam dininin yayılmasından sonra bu obraz yeni fəlsəfi məna kəsb etmiş, şüaları *(qolları)* müsəlmanın səkkiz savab əməlini, şiəlik təriqətində, xüsusilə səfəvi simvolizmində Əhli-Beyti simvolizə etmişdir. İslam simvolizmində müsəlmanın səkkiz əməlinin və cənnətin səkkiz qapısının təcəssümüdür. Qazaxıstan xalçaçılığında ona «juldız gül», «juldız örnek», «top juldız», «seqiz kırlı örnek» deyirlər.

- buta (*buta, puta*) – qönçə; badamabənzər naxış növüdür. Azərbaycan ornament sənətinin çox yayılmış bəzək elementlərindən biridir. Bakı, Gəncə, Ərdəbil, Təbriz, Naxçıvan, Salyan, Muğan xalçalarında bu motivdən geniş istifadə edilmişdir. Buta Mərkəzi Asiya, Krım, Volqaboyu dekorativ və tətbiqi sənətində də yayılmışdır.

- «Əqrəb» adlanan bu ornament qoruyucu, nəzərlik xarakterlidir. Əvvəllər bu təsvirdən əqrəb sancmasına qarşı tilsim qismində də istifadə edərdilər. Türkiyəli tədqiqatçı Mine Erbekin qənaətinə görə, əqrəb ornamenti şeytanın ruhunu təcəssüm etdirir. Bir əfsanəyə əsasən, əqrəb deyir: «Mən nə təbii ruham, nə də şeytan. Mənə toxunanlara ölüm gətirirəm. İki buynuzum, bir quyruğum var. Buynuzlarımın adı «Ümidsizlik» və «Nifrətdir». Quyruğum isə iti xəncərdir. Mən bir dəfə dünyaya gəlirəm. Digər canlılar üçün bərəkət nişanı mənim üçün ölüm işarəsidir».[126] Anadolu xalçalarında əqrəb motivinin kimi variantları da vardır. Bu rəmzlərə Anadolu xaçaçılığında «toyuq» da deyirdilər.

- Erməni simvolizmində semantikası olmayan bu işarə Azərbaycan və Anadolu xalçalarında «ulduz» və «göz» adlandırılır, bir tərəfdən məhsuldarlığın rəmzi, digər tərəfdən isə qoruyucu funksiyalara malik nəzərliyi bildirir. Ulduz

125 Қазақстан тарихы | История Казахстана. https://vk.com/wall-38304529_29088
126 Mine Erbek. «Çatalhöyük'ten Bugüne Anadolu Motifleri», http://dipnotkitap.net/DENEME/Anadolu_Motifleri.htm

həm də qaranlıqda işığın, ümidin simvoludur. Qazax mifik təfəkküründə bu işarə insan ruhunun inikasıdır.

- Bərabərtərəfli xaç işarəsi. Azərbaycan, Anadolu xalça ornamentləri içərisində «göz», qazaxlarda isə «törtqulaq», *(dördqulaq)* «aşamay» və «bestamba» deyirlər. Qoruyucu rəmz funksiyasını daşıyır. Bu isə onun qədim semantikasından - Tanrı işarəsi + olmasından irəli gəlir. Bədnəzərə qarşı olan göz motivi əsasən qoçqar *(qoç buynuzu),* əlibelində *(bərəkət)* işarələrinin ətrafında toxunur.[127]

Türk xalqlarının xalçaçılıq sənətində «gül» motivi sevgini, sədaqəti, ailə xoşbəxtliyi arzusunu, eləcə də Adəm və Həvvanın cənnət bağçasını bildirir. Azərbaycan xalçalarında əlavə olaraq ilahi eşqi, həsrəti simvolizə edir. Anadoluda isə lalə təsviri nənənin nəvə və ya ananın oğlan övladı istəyinin əlaməti sayılır.

Qərbi Azərbaycan qayaüstü təsvirlərindəki işarələrin etnik mənşəyi

Məlumdur ki, başlanğıcını və elmi adını tarixi Azərbaycan ərazilərindən götürən Kür-Araz arxeoloji mədəniyyəti şaxələnərək Şimali Qafqaza, Mesopotamiyaya, Şərqi Anadoluya, Mərkəzi Asiyaya yayılmış, vahid etnomədəni məkan kimi formalaşmışdır. Son eneolit və Erkən tunc dövrlərinə *(e.ə. IV minilliyin sonu – III minilliyin* əvvəlləri*)* təsadüf olunan bu unikal mədəniyyətə aid qədim yaşayış məskənləri Azərbaycanın Naxçıvan, Qazax, Füzuli, Şabran, Beyləqan, Cəlilabad, Xaçmaz, Ağdam, Bərdə, Ağcabədi bölgələrində *(Kültəpə, Ovçular təpəsi, Babadərviş, Günəştəpə, Qaraköpəktəpə, Sərkərtəpə, Mişarçay, Qəflə təpələri, Qarahacı,* Şortəpə*, Cüttəpə və s.),* eləcə də Güney Azərbaycanda *(Göytəpə, Yanıqtəpə)* aşkar edilmişdir. Həmin mədəniyyətin daşıyıcıları çiy kərpicdən tikilmiş alaçıq tipli konusvari evlərdə yaşayır, metal emal edərək silah və kənd təsərrüfatı alətləri hazırlayır, əkinçilik və heyvandarlıqla məşğul olurdular. Ermənilərin «regionun ən qədim xalqı» olduğunu, «armenoid tipli müdrik insanların» Qərbi Azərbaycan və Anadolu ərazilərində hələ Nuh tufanından əvvəl məskunlaşdığını (!) elm aləminə sübuta yetirmək səyləri Yerevan alimlərini hətta run işarələri və damğalarını da mənimsəməyə sövq etmişdir. Bununla belə, Ermənistan alimlərinin bütün cəhdlərinə bax-

127 Mine Erbek. «Çatalhöyük'ten Bugüne Anadolu Motifleri», http://dipnotkitap.net/DENEME/Anadolu_Motifleri.htm

mayaraq, indiyədək cəmi iki «erməni rəmzi» müəyyən edilmişdir. Onlardan biri «xaçkar» *(erm.:*Խաչքար - *«xaç-daş»* ✠*),* digəri isə «Arevaxaç» *(erm:*Արևախաչ - «*Günəş xaçı*») və ya «Ker xaç» *(*Կեռխաչ - *«*əyri *xaç*») adlandırılan Hindistan mənşəli sakral işarələrdir *(erməni akademiki S.Ayvazyan hind mədəniyyətinin də erməni sivilizasiyasından bəhrələndiyini iddia edir)*.

Digər işarə - «Günəş xaçı» bu rəmz svastikanın - 卐 *(çərxi-fələk, dörd ünsür, oz damğası və s.)* sonsuz variantlarından biri kimi Hindistan mənşəlidir və bu ərazidən Altaya, Aralıq dənizinə, Yaxın Şərqə, Şərqi Avropayadək uzanan nəhəng bir ərazidə geniş yayılmışdır. Günəşin şərqdən qərbə *(soldan sağa)* hərəkətini simvolizə edən, türk damğa təsnifatında «çarx», «təkər» adları ilə tanınan variantları olan bu işarəyə Ön və Mərkəzi Asiya xalqlarının, o cümlədən azərbaycanlıların maddi-mədəni irs nümunələrində və etnik ornamentləri içərisində geniş rast gəlinir.

Yerevan tarixçiləri ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsindən təqribən 5 min il əvvəl mövcud olmuş bütöv Kür-Araz mədəniyyətini və onun maddi-mədəni irsini mənimsəmək istəkləri ilə hamilərindən çox-çox irəliyə getmişlər. Lakin tarixi gerçəkliyi bir daha vurğulayırıq. Hər hansı bir xalqın rəmz və ya damğa işarəsi varsa, bu, onun dövlətçilik ənənələrinə malik olmasının göstəricisidir. Daha sadə dillə desək, damğa işarələri milli dövlətçiliyin mövcudluğunun sübutu və qədimliyinin əsas atributlarındandır. Lakin tarixdə «erməni damğaları» anlayışı mövcud deyildir. Odur ki, cin «Bismillah» kəlməsindən qorxduğu kimi, erməni tarixçiləri də damğa mözusundan həmişə kənara qaçmışlar. Yerevan alimləri indiki Ermənistan Respublikası ərazisindəki qayaüstü təsvirlərdə aşkar edilən damğa işarələrini indi ciddcəhdlə «qədim yazı nümunələri» kimi təqdim etməyi üstün tuturlar. Məsələn, Qriqori Vaqanyan və Vaqan Vaqanyan cütlüyünün yazdığı «Sivilizasiyanın daş salnaməsi» adlı kitabda Naxçıvanın Gəmiqaya piktoqrafik abidələri ilə birlikdə Kür-Araz arxeoloji mədəniyyətinə aid olan Göyçə (*Geğam, Abaran*) qayaüstü təsvirlərindəki işarələr nəinki «mükəmməl erməni heroqlifləri» adlandırılmış, üstəlik, «bu mütərəqqi yazı sistemi vasitəsilə erməni mədəniyyətinin Ön Asiya, Fələstin, Mesopotamiya, Avropa, Hindistan, Mərkəzi Asiya ərazilərindəki qədim sivilizasiyaların yaranmasına və inkişafına birbaşa təsir göstərməsi» iddia edilmişdir. Onlar yazırlar: «**Bu təsvirlərdən belə nəticəyə gəlmək olar ki, qədim Misir, xett, hind və Urartu ideoqramlarının və heroqliflərinin kökünü erməni qayaüstü incəsənətinin artefaktları təşkil edir. Dünyanın ən qədim yazı formasının yaradıcıları və onların varisləri davamlı olaraq**

bəşəriyyətin intellektual kapitalını zənginləşdirmişlər». Bu azmış kimi təkcə regionda deyil, Mərkəzi Asiyada, Qərbi Sibirdə, Ukrayna, Rusiya, Bolqarıstan, Macarıstan və Rumıniya ərazilərində geniş yayılan və elm aləmində qədim türk damğaları kimi məlum olan işarələrin bir çoxuna qondarma adlar verməklə onları müasir erməni dilində oxumaqdan da çəkinməmişlər. Məsələn, dünyanın tanınmış damğa mütəxəssislərinin (*E.Triyarski, İ.Baske, A.Amanjolov və b.*) təsnifatlarında türk rəmzləri kimi təqdim olunan işarələrə hətta Salvador Dali və Pikassonu heyrətləndirə biləcək məntiqsiz adlar verilmişdir. Bu abstrakt adlar və təsvirlər arasındakı fərq isə Rorşaxın məşhur psixodiaqnostika testlərinin nəticələrini də geridə qoya bilər. Məsələn: - qardaş (?), - baxmaq, - məhəbbət, - falçı (?!), - varis, - paltar, - nökər (?), - məzarlıq (?!), - obraz (*görünür, Maleviçin «Qara kvadrat» əsərinin prototipidir*), - ulduz, - meyvələr, - kasıb adam (?), - xarab olmuş (?!), - yol, - sehrbaz (?), - solmaz çiçəyi, - müti olmaq, - Dolça bürcü, - yenə də yol, - oxçu və s.[128] Bundan başqa, uzaqgörən qədim ermənilərin bəsirətlə hələ qədim dövrlərdə qriqorian məzhəbi təəssübünü çəkərək İsa Məsihin mövludundan təqribən 4 min il əvvəl bəzi «milli heroqlif işarələrinin» xristian dini ilə əlaqələndirmələri də xüsusi psixiatriya diaqnozunu zəruri edir: - peyğəmbər, - prosvira (kilsədə ibadət vaxtı yeyilən fətir), - İblis, - sekta, - cənnət, - mömin, rahib, doğru danışan, - mələk, - Həzrət İsanın silinməz xatirəsi, - Nuhun gəmisi (peyğəmbərin üzən nəqliyyat vasitəsinin nə səbəbə üzü aşağı çevrilməsi hələ də erməni sirri olaraq qalır)[129] və s. Razılaşın ki, bütün bunları «normal alim təfəkkürünün bəhrəsi» adlandırmaq çətindir.

Vaqanyan duetinin cızmaqarasını geniş təhlil etmək fikrindən uzağıq. Erməni akademiki Suren Ayvazyanın «Rusiya tarixində erməni izləri» kitabından götürülmüş bir sitat həmin üzdəniraq «alimlərin» həm etnik natamamlıq komplekslərini, həm də araşdırmalarının elmi dəyərini açıq göstərir: **«Erməni xalqı hələ eramızdan III-II min il əvvəl dünya tarixinə misilsiz töhfələr vermişdir. Daş, mis, bürünc və dəmir dövrlərinin formalaşması, atın əhliləşdirilməsi, dünyada ilk heroqlif əlifbanın, arabanın, təkərin, onluq say sisteminin və sıfırın - «0» icadı, kainatın bürclərə və zodiak işarələrinə bölünməsi, Pifaqor qanununun, eramızdan əvvəl elektrik enerjisinin kəşfi, Günəş və Ay tutulmasının səbəblərinin elmi**

128 Г.Ваганян, В.Ваганян. «Каменная летопись цивилизации». Ереван, 2006.

129 Г.Ваганян, В.Блеян, Л.Кочарян. «Наскальные рисунки Армянского нагорья - первоисточники армянских, египетских, индийских и хеттских идеограмм (а также иероглифов употребляемых в греческой и латинской письменности)», http://novarm.narod.ru/arch082006/mois.htm

izahı, xalça toxunuşu, buğda və arpa əkini, üzüm, ərik, nar, alma bağlarının salınması və s. məhz «fövqəldahi» ermənilərin adı ilə bağlıdır».[130] Patoloji şizofreniyadan**,** «ümummilli dahilik sindromundan» əziyyət çəkən Yerevan alimlərinin bu tipli fikirləri istər-istəməz məşhur bir deyimi yada salır: «Erməni müdrikləri həqiqətən də taxta araba təkərini icad etmişlər. Lakin onlar təkər layihəsi üzərində baş sındırarkən digər xalqlar reaktorda nüvəni parçalayırdılar»...

Qeyd edək ki, «fundamental tədqiqatlarında» ruslar istisna olunmaqla, bütün qeyri-erməni xalqlara, xüsusilə gürcülərə və türklərə patoloji nifrəti şizofreniya həddinə çatdıran akademik Suren Ayvazyanın «akademik» düşüncəsinə əsasən *(əgər onun fikirlərini belə adlandırmaq mümkündürsə)*, ruslar və ermənilər nəinki qohum xalq, hətta həmyerlidirlər. Rusların tarixi vətəni Van gölünün sahilləri olmuşdur. «Bu gölün adı onların «İvan» kəlməsində qalmışdır. Bundan əlavə, rus dilində gürcülərə şamil edilən «qruzin» sözü slavyan mənşəli olub «qruzçik», yəni «hambal» kəlməsinin törəməsidir: **«Çünki gürcülər tarix boyu rusların yüklərini daşımışlar».** Türklərə gəldikdə isə, ermənilərin qanına hopmuş patoloji türk fobiyası burada da özünü aydın büruzə verməkdədir: «**Onlar psixi cəhətdən anormal və genlərində barbarlığa, psixopatlığa və patoloji sadizmə meyil olan xalqdırlar**».[131]

Ayvazyanın həmfikri - tarix elmləri doktoru A.Martirosyan isə «Ermənistanın ibtidai heroqlifləri və onların Urartu-erməni bənzərləri» məqaləsində həmin qayaüstü təsvirlər haqqında oxuculara bunları təlqin edir: **«Deşifrə olunmuş və hələ oxunmamış onlarca işarələr aydın şəkildə göstərir ki, eramızdan əvvəl III minillikdən etibarən ibtidai Ermənistanda heroqlif işarələrindən istifadə edilmişdir və bu da Ermənistanın Şərq sivilizasiyasının əsas mərkəzlərindən biri olduğunu göstərir. Qədim ermənilərin yüksək səviyyəyə malik olmasını çoxsaylı kosmik və zodiak işarələri də təsdiqləyir. Bu ölkə astronomiya elminin beşiyidir».**[132] Onun «kosmik işarələr» adlandırdığı təsvirlərə isə *(qoç, qoç buynuzu, bərəkət rəmzi),* *(yay-ox)* etnik ornament kimi bu gün təkcə Azərbaycanda deyil, türk xalqlarının yaşadıqları bütün region-

130 С.Айвазян. «История России. Армянский след». Москва, 1998.
131 *С.Айвазйан. «* История России. Армянский след». Москва: «Крон-Пресс», 2000.
132 А.Мартиросян. «Первобытные иероглифы Армении и их Урарто-армянские двопники», http://lraber.asj-oa.am/2335/1/64.pdf

larda rast gəlirik. Heç də təsadüfi deyildir ki, SSRİ Elmlər Akademiyasının akademiki, tanınmış arxeoloq və şərqşünas, Dövlət Ermitaj Muzeyinin direktoru Boris Piotrovski *(1908-1990)* ermənilər qədim qayaüstü işarələri özününküləşdirmək, onlara inanılmaz yozumlar vermək və bu işarələri «bütün əlifbaların anası» kimi tanıtmaq səylərindən hiddətlənərək Ermənistan Elmlər Akademiyası Rəyasət Heyətindəki çıxışında bunları bildirmişdir: **«Mesamor hay heroqlifləri haqqında geniş reklam olunan və təəssüf ki, mötəbər elmi jurnalların da səhifələrinə çıxarılan mif dağılmışdır. Halbuki, Mesamor petroqliflərinin «deşifrəsi» əsasında guya dünyanın bütün əlifbalarının mesamor-giksos-qədim erməni yazılarından törənməsi barədə məsuliyyətsiz qənaətlər irəli sürülürdü».**[133] O, indiki Ermənistan ərazisində orta əsrlərə aid məzar daşları üzərindəki epiqrafik yazıları, məsələn, «Əli... Qasım xan» sözlərini «qədim erməni əlifbası və mətni nümunələri» kimi təqdim edən və onları «… sonra Od evi. İki dəfə xeyir-dua alan və bulaqlı torpaqların əbədi sahibi olan Akop» kimi yozan Suren Ayvazyana xitabən ərəb əlifbası ilə yazılmış mətnləri soldan-sağa deyil, sağdan-sola oxunmasını tövsiyə etmişdir. B.Piatrovski sonra demişdir: **«Ayvazyan kufi xətti ilə DAMĞA NİŞANLARINA bənzəyən işarələrlə yazılmış «Məhəmməd», «Həsən», «Əli» sözlərini və buynuzlu heyvanların təsvirlərini də «hay heroqlifləri» adlandırmış və belə bir yozum vermişdir: «Yay çölü… dövlətlilər gəldi-gedərdi… əsas zəngin binalar… buynuzlu heyvanlar qurban kəsilmişdir… Qoy zəngin evlər cəhənnəmin yolunu bağlasınlar».**[134] B.Piotrovskinin son qənaəti, daha doğrusu, Ayvazyan saxtakarlığına diaqnozu isə belə idi: «**Onun ortaya atdığı fərziyyələrin *çərçivəsi* və dəhşətli savadsızlığın əlamətləri heyrət doğurmaya bilməz».**

İndi isə Kür-Araz mədəniyyətinin hələ də cavabsız qoyduğu suallarla tanış olaq. Məlumdur ki, bu mədəniyyət Erkən Tunc dövrünə, yəni tuncun metal xəlitə olaraq qədim insanların təsərrüfat fəaliyyətinə daxil olduğu çağlara *(e.ə. IV minilliyin sonu – III minillik)* təsadüf edir. Məlumdur ki, tunc misin, qalayın və sürmənin qatışığından alınan möhkəm metaldır. Ötən əsrin 50-ci illərində alimlərimizin apardığı arxeoloji qazıntılar nəticəsində sübut olunmuşdur ki, təkcə tarixi Azərbaycan ərazilərində deyil, ümumiyyətlə, Qafqaz və Cənubi Qafqazda Erkən Tunc dövrü eramızdan əvvəl III minillikdə başlanmışdı. İndiyədək tuncdan hansı ölkədə ilk dəfə istifadə edilməsi dəqiq

133 Ф.Ахундов. «Разрушители фалсификаций», http://nofalsify.com/.
134 Изв. АН Арм.ССР, Науки о Земле, XVII, 6

müəyyən edilməsə də, bu bir həqiqətdir ki, məhz mis və qalay yataqlarının yaxın olduğu region Tunc dövrünün ilk vətənidir. Qafqaz və Cənubi Qafqaz ərazilərində isə qədim qalay mədənləri olmamışdır! Lakin bu, hələ də elmi müzakirələr mövzusu olsa da, arxeoloji materiallar, qədim metal əşya nümunələrinin analizləri həmin qənaəti təsdiqləməkdədir. Qeyd etmək lazımdır ki, Tunc dövründə Qafqazda qalay xüsusi qiymətə malik idi. Məsələn, regionda aşkar olunmuş tunc əşyaların tərkibində qalayın miqdarı nadir hallarda 10%-i keçirdi. Bu faktın özü də qalayın regionda az tapılan metal olduğunu və kənardan gətirildiyini təsdiqləyir.[135] Tanınmış arxeoloq, professor İ.Səlimxanov Azərbaycanda metallurgiyanın və metalişləmənin məhz yerli zəmin əsasında təşəkkül tapdığını bildirsə də, bütövlükdə Qafqaz regionunda metallurgiya dövrünün xəlitələrdən başladığını sübuta yetirmişdir. Yəni tuncun hazırlanmasında istifadə edilən qalay buraya kənardan gətirilmişdir. Lakin haradan? Tunc istehsalını yerli əhaliyə öyrədənlər kimlər olmuşlar?

Azərbaycan ərazisində qalayın olmamasını vurğulayan digər azərbaycanlı arxeoloq Yusif Səfərov bu qənaəti bölüşərək, qalayın Ön Asiyadan daşınması fikrindədir.[136] Akademik Boris Piotrovski isə Qafqazda qədim qalay yataqlarının mövcud olmamasına dair rəylərlə razılaşmayaraq, bu metalın qədim dövrlərdə kassiterit mineralından alınmasını və qədim Urartu dövlətinə Urmiyə gölünün şərq sahilindən gətirilməsini iddia etmişdir.[137] Lakin kassiterit emalı texnologiyasının mürəkkəbliyi səbəbindən bu ideya hətta ehtimal səviyyəsində təsdiqini tapmamışdır. Bu fikri dağıstanlı alim Ömər Davudov dağınıq şəkildə olsa da, bölüşür: «Məlumdur ki, o dövrdə də Dağıstanda kassiterit mineralı vardı, lakin açıq qalay yataqları haqqında məlumat yoxdur. Qalay buraya kənardan, məsələn, Böyük Britaniya, İtaliya, İspaniya (?) və ya Qazaxıstan ərazilərindəki mədənlərdən çatdırıla bilərdi».[138] Tunc dövrü mədəniyyətinin konkret ünvanını, ilkin mənbəyini isə təqribən 110 il bundan əvvəl Praqa Universitetinin professoru, arxeoloq, etnoqraf, Çex Elmlər Akademiyasının üzvü Lübor Niderle *(1885-1944)* göstərmişdir. Avropada Tunc dövrü mədəniyyəti haqqında nəzəriyyələri dərindən təhlil edən alim özünün yeni nəzəriyyəsini irəli sürərək bunları yazırdı: **«İlk növbədə**

135 А.Мнацаканян, И.Селимханов. «Исследование некоторых оловянных предметов, наиденных в Армении», http://hpj.asj-oa.am/1633/1/1971-1(285).pdf

136 Y.Səfərov. «Qədim Azərbaycan: nə bilirik», Bakı, 1989.

137 Б.Б.Пиотровский. «История и культура Урарту». Ереван, 1944.

138 О.Давудов. «Прикаспийская торговая дорога и археологические материалы», http://dagistanhistory.livejournal.com/11308.html

qeyd etmək lazımdır ki, mövcud elmi nəzəriyyələrin heç biri Tunc dövrünün beşiyini Avropa ərazilərindən kənarda axtarmır. Dəqiq tipoloji tədqiqatların nəticələri bu beşiyin Şərqdə, Asiyada olduğunu göstərir. Çox böyük ehtimallara görə, bu yeni mədəniyyət məhz orada yaranmış və bir neçə marşrut üzrə Avropaya çataraq burada yayılmışdır».[139]

L.Niderle qənaətlərini təsdiqləmək üçün görkəmli alman alimi Rudolf Virxovun *(1821-1902)* Qafqaz ərazisindəki arxeoloji araşdırmalarının nəticələrinə də müraciət etmiş, öz nəzəriyyəsi üçün əlavə təsdiqləyici sübutlar müəyyənləşdirmişdir. Belə ki, R.Vixrovun qənaətinə görə, Qafqaz yeganə və əsas səbəb üzündən Tunc dövrünün vətəni sayıla bilməz: Bu ərazidə qalay yoxdur. Buradakı məzarlıqlardan aşkar olunan tunc əşyalar tamamilə fərqli xarakteristikaya malikdir və onların mənşəyini Asiyanın içərilərində axtarmaq lazımdır: «**Tunc dövrü mədəniyyəti Qərbə iki istiqamət** üzrə **daxil olmuşdur. Birincisi, Ural dağlarından səmt götürmüş, digəri isə Xəzər dənizinin cənub sahilləri ilə Kiçik Asiyaya gətirilmiş və oradan** *(tarixi Azərbaycan* ərazilərindən – ***A.Q.)*** **Avropaya yayılmışdır. Bu marşrutlardan** ən əhəmiyyətlisi **və təsirlisi ikinci yol olmuşdur**».[140] Macarıstanda və Sibirdə tapılmış tunc əşyalar arasındakı yaxınlıq vaxtilə danimarkalı arxeoloq Safus Otto Mülleri də *(1846-1934)* ciddi maraqlandırmışdır. Bu fakt hər iki ərazi arasında qədim mədəni bağlılığın mövcudluğundan xəbər verir. Lübor Niderle bu barədə bildirir: «**Avropada Tunc dövrünə aid silah və məişət alətlərinin böyük hissəsi yalnız Sibir və Macarıstana aiddir. Onların içərisində ikiağızlı baltalara** *(təbərzin, sakaris)*, **çəkic-baltalara** *(bozdoğan,* çomak*),* **oraqlara və s.** ən çox **Sibirdə, Rusiyanın cənubunda, sonra isə Macarıstanda və digər Avropa ərazilərində rast gəlinir. Bu marşrutun özü Tunc dövrü mədəniyyətinin harada formalaşmasından və necə yayılmasından xəbər verir**». Və alimin son qənaəti belə olmuşdur: **«Beləliklə, bu mədəniyyət Mərkəzi Asiyada yaranmış, Sibirdə yüksək inkişaf səviyyəsinə çatdırılmış və oradan Qərbə, Avropaya doğru səmt götürmüşdür».**[141]

139 Л.Нидерле. «Человечество в доисторические времена» (доисторическая археология Европы и славянских земель). Санкт-Петербург, 1898.
140 Yenə orada.
141 Л.Нидерле. «Человечество в доисторические времена» (доисторическая археология Европы и славянских земель). Санкт-Петербург, 1898.

Cədvəl 11. Qərbi Azərbaycan ərazisindəki «erməni heroqliflərinin» ortaq türk damğa işarələri və Göytürk hərfləri vasitəsilə semantik izahı

№	Qərbi Azərbaycan işarələri	Mərkəzi, Ön Asiya və Avropadakı türk damğaları	Damğa semantikası və Göytürk əlifbası ilə müqayisəsi	№	Qərbi Azərbaycan işarələri	Mərkəzi, Ön Asiya və Avropadakı türk damğaları	Damğa semantikası və Göytürk əlifbası ilə müqayisəsi
1			*Damğa adları: «Qaba Ağac», «Dirilik Ağacı», «Töz Ağac», «bayterek», «baytöra», «dirək» və s. «Şəcəreyi-Tərakimə» əsərinə görə, bu işarə Oğuzun salur boyunun da damğası olmuşdur. Göytürk yazılı mətnlərində yalnız «iç» (daxili) sözünü bildirmək üçün istifadə edilir.*	27			*Damğa adları: «balta», «çəkic», «kərki», «təbər», «sakar» (ikiağızlı saka-skif baltası). Mərkəzi Asiyanın, Şimali Qafqazın və Krımın qıpçaq tayfaları arasında daha çox yayılmışdır. «Təvarixi al-i Səlcuq» əsərinə əsasən, oğuzların çəbni tayfasının da damğası olmuşdur.*
2			*Türk damğa işarələri təsnifatında «sənək» (qoşa ucluqlu nizə, ikidişli döyüş yabası) adını daşıyır. «Cami ət-Təvarix» əsərində oğuzların yazar boyunun damğası* *kimi göstərilir. Səfəvi xanədanında «durbaş» (kənara çəkil) kimi də tanınmışdır. Etnik rəmz olaraq, Qızıl Orda dövlətində və Krım xanlığında, karalar (karaimlər) arasında daha geniş yayılmışdır. Qədim türk əlifbasında cingiltili «l» samitini bildirir.*	28			*Damğa adı: «and» (qardaşlaşmaq, qana and içmək). Müxtəlif variantları* *Mərkəzi və Ön Asiyada, Cənubi Qafqazda geniş yayılmışdır. Əmir Teymurun dövlət rəmzi olmuşdur. Onun dairə və ya yarımdairə daxilində olan təsvirindən* *Göytürk əlifbasında «nt» və «nd» səs birləşməsini göstərmək üçün istifadə edilmişdir.*
3			*Qədim türk damğalarından, qoruyucu sakral işarələrdən (nəzərlik), ilahi rəmzlərdən sayılır. Semantikasını tiyəsi düz qılınc (tiq) kimi də yozmaq olar. Qobustan, Gəmiqaya təsvirlərində, Midiya. Manna işarələrində, Tyan-Şan, Saymalıtaş, Tamqalıtaş, Sülek qayaüstü rəsmlərində də rast gəlinir. Oğuzun əfşar tayfasının damğası («Cami ət-Təvarix»).*	29			*Bu işarənin xristian dini ilə əlaqəsi yoxdur. İlahi qüdrət, Yaranış, bolluq anlamlarını daşıyır. Damğa adları: «Dirilik Ağacı», «Qaba Ağac», «Həyat Ağacı». Türk xalqlarının yaşadıqları ərazilərdə etnik damğa işarələri və tətbiqi sənət ornamentləri kimi tanınır.*

4			*Damğa adı: «Qılınc». Qoruyucu rəmz xarakteri daşıyır. Göyçə qayaüstü yazılarında onun kimi variantı da vardır. «Şəcəreyi-Tərakimə» əsərində həmin işarənin həm də oğuzun yıva boyunun damğası olduğu bildirilir.*	30			*Qobustan, Gəmiqaya və Baykal gölünün şimalındakı Subuktuy qayaüstü təsvirlərində, Midiya dövlətinə aid maddi-mədəniyyət nümunələri üzərində rast gəlinir. E.Triyarskiyə görə, tipik türk damğalarından biridir. Damğa semantikası «ev» kimi yozulur. «Məskunlaşmaq», «binə salmaq» bildirir.*
5			*Dünyanın bir sıra qədim xalqlarında solyar rəmzdir. Qədim türk simvolizmində «Tanrı-Günəş» vəhdətini ifadə edir. Damğa adı: «Günəş», «təkər»*	31			*Damğa təsnifatında «baltavar», «xan damğası», etnik xalça ornamentlərində isə «daraq» adlandırılan işarənin variantlarından biridir. Mərkəzi Asiyada «at damğası» da deyilir.*
6			*Qədim tanrıçılıq dininə əsasən, Humay Ananın rəmzlərindən sayılır. Türk xalqlarının xalçaçılıq sənətində nəzərlik xarakterli ornamentlərdəndir. Damğa adı: «bitik», «pitik», «tumar», «tumarça», «tumarca» və s.*	32			*Dövlətçilik rəmzi olaraq, tipik türk damğalarından sayılır (İ.Baski, E.Triyarski). «Yay» hakimiyyəti, «ox» isə onun vassallarını bildirir. Damğa adı: «Yay-ox», «saok», «yay» və s. Damğa işarəsi kimi müxtəlif variantları türk xalqlarının yaşadıqları bütün ərazilərdə yayılmışdır.*
7			*«Ox» damğası. Qədim türk tayfaları arasında ən populyar rəmzlərdən biri sayılır. «Təvarixi əl-Səlcuq» əsərinə əsasən, oğuzların bayat boyunun, «Cami ət-Təvarix» mətninə görə isə kınık boyunun damğasıdır. Göytürk əlifbasında dilarxası kar «k» samitini ifadə edir.*	33			*Damğa adı: «abak», «ama», «ana». Bir sıra türk xalqlarının gəlinlik geyimlərində və zinyət əşyalarında, toy şirniyyatlarının, gəlin otaqlarının bəzədilməsində indi də istifadə olunur. Qadın başlanğıcının, həyatın yaranışının, nəsil artımının rəmzidir. «Ana və bətnindəki övlad» anlamının qrafik təzahürüdür. kimi variantları da vardır. Əlifbada işarəsi də «nt» və «nd» səs birləşməsini bildirir.*

8			*Bu işarə Yenisey və Talas kitabələrində dil-diş cingiltili «d» samitini bildirir.*	*34*			*Damğa adı: «yüyən», «qoşa göz», «buxov».*
9			*Damğa adı: «kuray» (qarğı ney) Göytürk əlifbasında kipləşən dilortası «k» samiti kimi incə saitlərlə işlənir.*	*35*			*Damğa adı: «qaz ayağı», «qaz təriyi». Oğuz elinin bir sıra damğa işarələrində tayfanın onqonu olan quşun caynağının təsviridir.*
10			*Damğa adı: «bucaq». İşarənin variantı alaçığın və ya çadırın qapısını bildirir. Göytürk əlifbasında dodaqlanan «o» və qapalı «ı» saitlərini ifadə edir.*	*36*			*Damğa adı: «beşik». Altaylarda «ev» anlamını da verir. Azərbaycanda Cəlairlər dövlətinin rəmzi olmuşdur. Göytürk əlifbasında kar «ş» samitidir.*
11			*Damğa adı: «Barxan» (qum təpəciyi). Mərkəzi Asiya, Azərbaycan, Anadolu, kumık, qaraçay-balkar nəsil-tayfa işarələri, Qafqaz Albaniyasının maddi-mədəniyyət nümunələri, ortaq xalça ornamentləri arasında geniş rast gəlinir. «Məskunlaşmaq», «binə salmaq» kimi izah olunur. Oğuzun döğər boyunun damğası ilə eyni semantikaya malikdir.*	*37*			*Damğa adı: «qoşa tumar» (qoşa nəzərlik), «uyğur». Anadoluda «saçbağı» (saçın ücuna vurulan lent) adlanır. Damğa işarələri arasında (dərə, dağlar arasında vadi) kimi variantı da vardır. Ortaq türk xalçaçılıq sənətində nəzərlik xarakterli əsas işarələrdəndir. Göytürk yazılarında «bş» səs birləşməsini bildirir və «baş» kimi oxunur.*
12			*«Daraq damğa»nın qrafik variantlarından biridir. Azərbaycan, Anadolu, Şimali Qafqaz, Türkmənistan xalçaçılıq sənətinin haşiyə elementi kimi geniş yayılmışdır.*	*38*			*«Ev» anlamını verən damğa işarəsidir. Cingiltili «b» səsi kimi oxunur. İncə saitlərin işləndiyi sözlərdə istifadə edilir.*
13			*Damğa təsnifatında «oz damğa», «təpə xaç», «subaş», «sarman», «dörd ünsür», «çərxi-fələk», «qaz», «qaz təpiyi», «şəmsi-gərdan» (farsca: Günəşin bədəni) adları ilə tanınır. Nəzərlik xarakterlidir.*	*39*			*Mərkəzi Asiyada «batbay» adlanan bu işarə «Tanrı-Günəş» rəmzinin variantlarındandır. Azərbaycanda ən qədim təsviri Qobustan qayaüstü rəsmlərindədir. Xalça ornamenti kimi geniş istifadə edilir.*
14			*Damğası «sənək» olan nəsil və ya tayfanın açası/xaçı.*	*40*			*Yenisey abidələrinin mətnlərində həm «e» səsini, həm də incə əsaslı sözlərdə «b» səsini bildirir.*

15			*Damğası «Dirilik Ağacı»* ✝ *olan nəslin asası/xaçı.*	*41*			*Damğa adı: «ilan». «Şəcərəyi-Tərakimə» mətninə görə, oğuzun yaparlı boyunun rəmzi.*
16			*Damğa adı: «Qalxan». Nəzərlik funksiyasını daşıyan «tumar»* △ *damğasının şərti variantı sayılır. Qədim salnamələrə və təsvirlərə əsasən, Hun və Xəzər dövlətlərinin, Mərkəzi Asiya və Qafqaz Albaniyasının atlı döyüşçüləri üçkünc qalxanlardan istifadə etmişlər.* *Göytürk əlifbasında* ∇ *işarəsi «kosmos», «klub» sözlərinin ilk samiti kimi «k» səsini bildirir.*	*42*			*Damğa adları: «Döngələk», «domalaq», «Gün belgisi» (Gün nişanı), «Domalaq ana», «Gün domalaq», «Nurullah», «Sarı baybişe», «Baybike», «Nurullah», «Altun top», «Altun alma», «şəmbər» (çəmbər), və s. Günəşin rəmzidir. «Şəcərəyi-Tərakimə» əsərinə görə, oğuzların alkaevli tayfasının damğasıdır. Səfəvi hökmdarı II Təhmasibin bayrağını bəzəmişdir.*
17			*Damğa adları: «Günəş», «şonqar», «hunqar» (şahin), «ikibaşlı qartal» və s. Nadir Şah Əfşarın taxtında Aypara ilə yanaşı olan bəzək ünsürlərindən biri. İslam dinində cənnətin səkkiz qapısını, müsəlmanın səkkiz əmələni, Əhli-Beyti simvolizə edir. Ortaq türk mifologiyasında Günəş-Tanrının, onun dünyəvi və dini hakimiyyətlərinin birliyinin simvoludur.*	*43*			*Damğa adları: «süngü», «nizə», «qarğı», «hərbə». Tək halda bir tayfanı, qoşa şəkildə isə* ‖ *tayfalar birliyini ifadə edir. Göytürk əlifbasında novlu kar «s» samitini bildirir.*
18			*Damğa adı: «sarkay», «aşamay» (Humay Ananın açası/xaçı). «Təvarixi əl-Səlcuq» əsərinə görə, oğuzların avşar boyunun, «Hünərnamə» mətnlərinə əsasən isə kızık boyunun damğasıdır. Göytürk əlifbasında cingiltili «d» samitini ifadə edir. Xalça naxışlarında nəzərlik anlamını verir.*	*44*			*Damğa adı: «qurd başı», «qurd ağzı». Tatarıstanda «İskəndər damğası» da deyilir. Azərbaycan xalça naxışları arasında da geniş yayılmışdır.*
19			*«Təvarixi əl-Səlcuq» və «Hünərnamə» əsərlərindəki təsnifata görə, oğuzların yazır tayfasının damğasıdır. Mərkəzi Asiyada bu tipli damğalar «qarğa izi» adlanır.*	*45*			*Oğuzların kızık boyunun damğası* ⅄ *bu işarənin variantlarından («Hünərnamə») sayılır. Əlifbada dilarxası, burunda tələffüz edilən «n» səsini göstərmək üçün istifalə edilir.*

20			*Damğa adı: «ocaq». Azərbaycan, Anadolu, Şimali Qafqaz, Mərkəzi Asiyada həm damğa işarəsi, həm də ornament kimi geniş yayılmışdır. «Şəcəreyi-Tərakimə» əsərinə əsasən, oğuzun alayuntlu boyunun damğasıdır.*	*46*			*Damğa adı: «bosaqa» (qapı çatısı, çərçivəsi). Yenisey və Talas kitabələrində dil-diş cingiltili «d» samitini bildirir. Azərbaycan xalça naxışlarında da istifadə olunan motivdir.*
21			*Damğa adı: «Alban». Solyar rəmz kimi Tenri xanı (Günəşi) simvolizə edir. «Şəcəreyi-Tərakimə» əsərinə görə, oğuzun bayat tayfasının damğası olmuşdur. Bundan başqa, Çingiz xanın atasının nəsil damğasıdır.*	*47*			*Damğa adı: «Ay», «yay» (atıcı silah). Göytürk yazılarında bu işarə novlu (dilortası) cingiltili «y» samitini ifadə edir. «Ay» damğasının digər bir variantıdır. Göytürk əlifbasında ⊃ işarəsi «n» samitini bildirmək üçün istifadə edilir.*
22			*Solyar rəmzdir. Yazılı mətnlərdə «z» samitinin işarəsi. İncə və qalın saitli sözlərdə işlədilir.*	*48*			*Damğa işarələri arasında «atlı» (yəhər və minicinin ayaqları) kimi tanınır. Göytürk əlifbasında «t» səsini bildirir.*
23			*Damğası «çəkic»* T *olan tayfanın açası.* .	*49*			*Volqaboyu tatarlarında və başqırdlarda «ayı başı» damğası.*
24			*«Sənək» damğasının bir variantıdır. Təsvir baxımından oğuzların bəydili tayfasının damğasına* Y *yaxındır.*	*50*			*Göytürk əlifbasında liqatür işarə kimi «lt» səsini ifadə edir.*
25			*Oğuz elinin bəydili, bayandur (Şəcəreyi-Tərakimə) və eymür boyunun («Hünərnamə») damğası.*	*51*			*Damğa adı: «daraq», «baltavar», «yavlan», «xan damğası» və s. «İkibaşlı qartal» mifologeminin qrafik təzahürlərindəndir.*
26			*Damğa adı: «Açar». Şimali və Cənubi Qafqaz, Krım, Tatarıstan və Mərkəzi Asiyada yayılmış «alban»* ♀♀ *və «quyruqlu Ay»* ♀ *damğalarının törəməsidir.*	*52*			*«Təvarixi al-i Səlcuq», «Hünərnamə» mətnlərində göstərildiyi kimi, oğuzların yaparlı boyunun damğasıdır.*

Lakin ayvazyanların, vaqanyanların saxtakarlıq fəaliyyətlərinə rəğmən, onlara ortaq türk mədəniyyətinə istər-istəməz göstərdikləri böyük xidmətə - Göyçə qayaüstü rəsmlərindəki «qədim erməni əlifbası» işarələri təvirlərini kitablarında dərc etdirdiklərinə görə səmimi minnətdarlığımızı bildiririk. Çünki məhz həmin təsvirlərə əsaslanaraq qədim türk və Göyçə rəmzlərinin

müqayisəli təhlilini aparmaqla, bu nişanların müəlliflərinin etnik mənşəyi haqqında tamamilə fərqli fikir söyləmək, erməni «müdriklərinin» iddiaları üzərindən xətt çəkmək mümkündür.

Qafqaz Albaniyası işarələri. Dominant etnomədəniyyətin izləri

«Babasının qəbrini bilməyən, balasının qədrini bilməz».
Qədim oğuz məsəli

Qafqaz Albaniyasının maddi-mənəvi irsi, dominant etnik mənsubiyyəti, dövlətçilik ənənəsi, dili və nəhayət, əlifbası ətrafında illər uzunu davam edən müzakirələr həqiqət axtarışında olan müdrik korların mübahisəsi haqqında hind rəvayətini xatırladır. Rəvayətə görə, qədim zamanlarda bir şəhərə görünməmiş canlı - fil gətirirlər. Onunla maraqlananlar arasında şəhərin altı müdrik şəxsi də vardı. Lakin onlar kor idilər və heç vaxt fil görməmişdilər. «Bunu necə edək?» - deyə düşünürlər. Çox fikirləşib bu qənaətə gəlirlər ki, fil haqqında aydın təsəvvür almaq üçün gərək ona əlləri ilə toxunsunlar. Birinci müdrik filin iri, yastı qulaqlarından tutur: «Bu heyvan yelpiyə oxşayır», - deyir. İkinci kor filin ayağından yapışır və əvvəlkinə etiraz edir: «Elə deyil, ağaca bənzəyir!» - deyir. Nəhəng canlının quyruğuna toxunan üçüncü müdrik bir qədər fikirləşib filin qalın ip olduğunu söyləyir. Sonra filin uzun, əyri dişindən yapışan, gövdəsinə toxunan, xortumundan tutan dördüncü, beşinci və altıncı müdriklər onun nizəyə, hündür divara və ilana bənzədiyini deyirlər. Mübahisə uzanır və kor müdriklər nə inadlarından dönürlər, nə də ki filin necə canlı olduğunu öyrənə bilirlər… Əslində, onların hər biri öz məntiqində haqlı idi. Yaratdıqları problemin isə olduqca sadə çıxış yolu var idi. O da həqiqətin təkcə mübahisədə deyil, həm də müqayisədə yarana bilməsidir. Altı kor fərdi analizdən sintezə doğru irəliləməli, gəldikləri qənaətləri tam halında birləşdirməli və bundan sonra özlərində fil haqqında aydın təsəvvür yaratmalı idilər. Lakin onların arasındakı daxili ziddiyyət, fikir, mövqe ayrılığı ortaq məxrəcə gəlməyə, mübahisəni sağlam müzakirəyə, dialoqa çevirməyə mane oldu. Nəticədə altı kor və inadkar müdrikin tarixə düşən mübahisəsi isə bu günədək elm aləmində bir örnək olaraq qaldı. İrandilli alimlər Qafqaz Albaniyasını «qədim İran ölkəsi», ləzgi tədqiqatçıları «Ləzgistan», etnik baxımdan türk olan tarixçilər «türklərin qurduğu dövlət», təbii ki, hər yerə və hər şeyə iddialı olan ermənilər isə qondarma «Böyük Ermənistan ərazilərinə daxil olan

erməni vilayəti» kimi görürlər. Və hind rəvayətindəki kor müdriklər kimi onlar da hələ də bir araya gəlib mübahisələrini təmkinlə həll edə bilməyiblər.

Qafqazın və Cənubi Qafqazın etnik mənzərəsi onun unikal təbiəti qədər zəngindir. Ərazi etibarilə kiçik, lakin etnomədəni müxtəliflik baxımın rəngarəngliyi ilə seçilən bu regionda fərqli dillərdə danışan və fərqli mədəniyyətlərin daşayıcıları olan yüzdən çox xalqın nümayəndələri yaşayırlar. Bununla belə, Qafqazda tarixən formalaşmış endemik birgəyaşayış prinsipləri həssas olduğu qədər xarici zərərli təsirlərə dayanıqlı deyildir. Təhlilçilərin ümumi qənaətinə görə, regiona kənardan nüfuz etdirilən və ayrı-ayrı geosiyasi maraqların təminatına xidmət edən aqressiv separatizm, milli ayrı-seçkilik meyillərinin gücləndirilməsi, qarşılıqlı ərazi iddialarının baş qaldırması daxili müqaviməti zəif olan Qafqazı «problemli regiona» çevirməyə, etnik, dini və gözlənilən ərazi münaqişələrinin «barıt çəlləyinə» bənzətməyə əsas verir.

Bu regionda tarixən yaşayan türk xalqlarının etnogenezi, onların ortaq etnomədəniyyəti, maddi-mədəni irsi siyasiləşdirilmiş tarixşünaslığın və etnoqrafiyanın geosiyasi maraqlara, etnik və dini mənafelərə xidmət edən və saxtakarlıqlara daha çox məruz qalan sahələrindəndir. Tarixi gerçəkliklərin məqsədli şəkildə təhrif olunmasına yönəldilən belə fəaliyyət Avropa, Rusiya, Ermənistan və İran tarixşünaslığında hakim mövqe tutan rəsmi konsepsiyadan qaynaqlanmaqdadır. Həmin konsepsiya isə obyektiv tarixi-arxeoloji, antropoloji, etnoloji araşdırmaların nəticələrini bir kənara qoyaraq, «qədim yaşayış məskənləri Şərqi Sibir və Monqolustanın bozqır çölləri ilə məhdudlaşan köçəri türklərin» Ön Asiyaya, Avropaya yalnız orta əsrlərdə «yarımvəhşi vandal tayfalar» qismində ayaq basdıqlarını, yerli xalqların ali sivilizasiyalarını süquta yetirdiklərini və onun xarabaları üzərində özlərinin «qarışıq» mədəniyyətlərini yaratdıqlarını təlqin etməkdədir. Bu tipli yanaşmaların ötəri qısqanclıqdan, tarixi hadisələri bilməməkdən və ya milli natamamlıq kompleksindən bəhrələndiyini söyləmək ən azı naşılıq olardı. Tarixin ibrət dərsləri öyrədir ki, zahirən «zərərsiz» görünən belə iddialar, əslində, qalın siyasi pərdə arxasında gizlənən etnosiyasi maraqların ideoloji təminatına xidmət edir. Müasir beynəlxalq təcrübə isə ayrı-ayrı ölkələrdə belə təbliğatın dövlət siyasəti səviyyəsinə qaldırılmasını gələcək geosiyasi tələblər, o cümlədən ərazi iddiaları üçün bəraətverici təminat əldə etmək məqsədi daşıdığını təsdiqləyir. Bu gün Qafqaz regionunda «etnik münaqişə» pərdəsi altında davam edən hərbi-siyasi qarşıdurmaların ideoloji təminatında tarixi gerçəkliklərin məqsədli şəkildə saxtalaşdırılması mühüm rol oynamaqdadır. Nəticədə, tarix nəcib elm çərçivəsindən çıxaraq özünün mənəvi-etik prinsiplərini, obyektivliyini itirir,

siyasi maraqların girovu olan subyektiv ideoloji vasitəyə çevrilir.

Həqiqətən də, tarix vicdanlı alimlərin axtardıqları irfani yoldur. Onun da **öz «övliyaları»**, «pirləri», hətta «iblisləri» var. «Nəzarətdən **çıxan»**, saxtalaşdır**ı**lan tarix isə məkrli siyasətçilərin əlində təsirli silahıdır. Rusiya və Ermənistanda isə bu silah Azərbaycanın tarixi torpaqlarına iddiaların formalaşmasına, o cümlədən Qafqaz Albaniyasının maddi-mənəvi irsinin, dövlətçilik **ənənələrinin** mənimsənilməsinə yönəldilmişdir. **Şərti** olaraq «Qafqaz Albaniyası» adlandırılan dövlət eramızdan əvvəl təqribən IV-III əsrlərdən eramızın VIII əsrinədək tarixi Azərbaycan ərazilərində mövcud olmuş və müasir Ermənistan Respublikasını, Gürcüstanın və Dağıstanın cənub hissələrini əhatə etmişdir. Qafqaz Albaniyasının etnik mənsubiyyəti və inancları ətrafında müzakirələr bu gün obyektiv elmi araşdırma çərçivəsindən kənara çıxaraq, geosiyasi və etnosiyasi maraqlar səviyyəsinə qalxmışdır. Bu günün geosiyasi reallıqları bu mövzunun həm də xarici qüvvələrin əlində Azərbaycana qarşı separatçılıq və əsassız ərazi iddialarının ödənilməsi vasitəsi olduğunu göstərir. Antik tarixçi Strabonun məlumatına görə, Qafqaz Albaniyasının əhalisi 26 dildə danışan tayfalardan ibarət idi. Eramızın ilk əsrlərindən başlayaraq, sasani hökmdarlarının göstərişi ilə əraziyə bir sıra irandilli tayfalar köçürülmüş və elə həmin ərəfədə isə şimaldan - Dərbənd keçidindən hunların, subarların, xəzərlərin, barsillərin və digər türkdilli xalq və tayfaların cənuba doğru növbəti miqrasiyası başlanmışdır. Xüsusən də, döyüşkən subar *(suvar)* tayfaları Albaniyanın içərilərinə doğru irəliləyərək, onun qədim paytaxtı Qəbələ şəhəri ətrafında məskunlaşmışdılar. Buna görə də ilkin orta əsrlərə aid mənbələrdə bu şəhər «Qəbələ-Subar» da adlandırılırdı. Ərəblərin regiona yürüşünə qədər ölkə əhalisi üç etnik qrupdan – türkdilli, qafqazdilli və irandilli əhalidən ibarət idi. Buna baxmayaraq, S.Yeremyan, A.Mnasatakanyan, A.Babaxanyan kimi erməni tarixçilərinin iddialarına görə, guya V əsrin sonlarından etibarən ölkə əhalisinin böyük hissəsi ermənileşmiş, «işğalçı türk tayfaları» isə Qafqaza və Cənubi Qafqaza ən yaxşı halda VIII əsrdə ayaq basmışlar.

Əbülqazi Bahadur xan Xiveli «Şəcərəyi-Tərakimə» əsərində *(1660-cı il)* yazırdı: «**Oğuz xan dövründən Çingiz xan zamanına kimi Tın** *(Don),* **İdil** *(*İtil*, Volqa)* **və Yaik çayları arasında yerləşən Qıpçaq ölkəsindən başqa diyar yox idi. Onlar bu ölkədə dörd min il yaşamışlar. Buna görə də bu torpaq** «**Dəşti-Qıpçaq**» *(Qıpçaq* çölü*)* **adlanır».** Bir sıra qədim və orta əsr müəlliflərinin əsərlərində, o cümlədən Fəzlullah Rəşidəddinin «Oğuznamə», Müslihiddin Larinin 1566-cı ildə qələmə aldığı «Miratül-Ədvar və Mürkatül Əxbar» salnamələrində qədim türklərin sasanilərdən təqribən bir əsr əvvəl *(177-*

ci il) Qafqazda, eləcə də Dərbənd və Dərbənd ətrafında məskunlaşmasından bəhs olunur.[142]

Ermənistanın və Rusiyanın bəzi siyasi dairələrinin fitvası ilə hərəkət edən Dağıstan separatçıları isə arqumentsiz-filansız Qafqaz Albaniyasını «müasir Rusiyanın tarixi torpaqları» kimi görmək niyyətindədirlər. Məsələn, erməni «tarixçiləri» Vladimir Barxudaryan və Suren Ayvazyan həyasızcasına Azərbaycanı «ermənilərə aid olan tarixi faktları siyasi məqsədlər naminə saxtalaşdırmaqda» ittiham edirlər. Qafqaz Albaniyası ətrafında mübahisələrdə özünə yer edən və Rusiyada etnik separatizmi və Azərbaycana qarşı ərazi iddialarını rəsmi dövlət səviyyəsinə qaldıran «Federal Ləzgi Milli-Mədəni Muxtariyyətı» adlı qondarma qurumun təşəbbüsü ilə 2008-ci ilin may ayında Moskvada «Qafqaz Albaniyası və ***ləzgidilli xalqlar*** *(kursiv bizimdir – **A.Q**.):* tarixi-mədəni irs və müasirlik» mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Rusiyanın Regionların İnkişafı və Xarici İşlər nazirliklərinin, Dövlət Dumasının və Rusiya Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən və siyasi təyinatını gizlətməyən bu psevdoelmi tədbir, əslində, Azərbaycana qarşı ərazi iddialarının təkcə Ermənistan tərəfindən dəstəklənmədiyini açıq şəkildə göstərir. Lakin hər iki separatçı qrup arasındakı simbiozun özü də şərtidir. Misal üçün, Rusiyadakı ləzgi separatçıları Qafqaz Albaniyasının ərazilərini tarixdə mövcud olmayan və XXI əsrin antiazərbaycan yönümlü geosiyasi iddialarının nəticəsində dövriyyəyə buraxılan qondarma «Ləzgistan dövləti»nin şəriksiz «tarixi əraziləri» hesab edirlər. Ermənilər isə öz növbələrində Qafqaz Albaniyasını uydurma «Böyük Ermənistan»ın bir parçası olmasına, buradakı maddi-mənəvi irsin şəriksiz ermənileşdirilməsinə iddialıdırlar. Lakin bu sərsəm ideya müəllifləri Azərbaycan əleyhinə istənilən kampaniyada bir araya gələn kimi müvəqqəti atəşkəs elan edir, «ortaq məxrəc» tapmağa çalışır və Qafqaz Albaniyasını «tarixdə erməni-ləzgi dövlətçiliyinin nümunəsi» qismində tanıtmağa çalışırlar. Bu yerdə ixtisasca yarımçıq fizik olan psevdoalbanşünas, millətçilik hissləri paranoya xarakteri almış Hacı Abdurəhimovun «Qafqaz Albaniyası-Ləzgistan: tarix və müasirlik» adlı «monoqrafiyasını» *(Dağıstan Dövl*ət *Universiteti nəşriyyatı, 1995-ci il)* xatırlamaq yerinə düşər. Suren Ayvazyan və Zori Balayanın üslubu ilə yazılan kağız yığnağında heç bir tarixi fakta və maddi sübutlara söykənmədən Qafqaz Albaniyası dövlətinin yaranması, maddi-mədəni irsi, hətta əlifbası yalnız «ləzgi tayfalarının» adı ilə bağlanır, Bakıya, Şamaxıya, Şəki və Qəbələyə, Qusara ərazi iddiaları edilir, Nizami Gəncəvi, Abbasqulu ağa Bakıxanov, Uzeyir Hacıbəyov «et-

142 К.Алиев. «Кипчаки на Кавказе до и после нашей эры», газета «Ёлдаш/Времена», 28-03-2008

nik ləzgi» elan olunur, «qeyri-ləzgi xalqları» aşağılanır, hətta regionda mövcudluqları şübhə altına alınır. Avar alimi, professor Murad Maqomedov isə Hacı Abdurəhimovun sayıqlamaları ilə qətiyyən razılaşmır, Dağıstan Dövlət Universitetinin növbəti nəşri olan «Avarların tarixi» kitabında onu qatı millətçilikdə və avar xalqının dövlətçilik ənənələrini, maddi-mənəvi irsini, o cümlədən Qafqaz Albaniyasını ləzgiləşdirməkdə ittiham edir, digər tərəfdən hətta Avar imperiyasını müasir avarların *(maarulal)* qədim dövləti adlandırır.[143] Erməni professurası - B.Arutonyan, P.Muradyan, L.Xurşudyan, E.Zohrabyan, A.Anasyan, A.Papazyan, A.Mnasakanyan B.Ulubabyan, Q.Arakelyan *(siyahını artırmaq da olar)* isə hər ikisini saxtakarlıqda günahlandıraraq, nəinki Qafqaz Albaniyasını, hətta Dağıstan ərazilərini də «qədim erməni torpaqları» elan edirlər...

Onlardan biri - Ermənistanın populyar tarixçilərindən olan Yerevan Dövlət Tarix İnstitutunun əməkdaşı Anjela Teryan müəllifi olduğu «Ermənistanın şərq hissəsinin (Ağvəng, Girdman, Utik) tarixi və ya albanlar kimlərdir?» adlı məqaləsində təkcə Kür-Araz mədəniyyətini deyil, Midiya, Qafqaz Albaniyası dövlətlərini, Şimali Qafqazı, Gürcüstanı da «qədim ari-erməni sivilizasiyasının tarixi əraziləri» olduğunu sübuta yetirmək üçün qeyri-adi linqvistik gözbağlayıcılardan istifadə etməkdən belə çəkinməmişdir. A.Teryan, rəvayətlərə görə, erməni xalqının əcdadı mifik Haykın Babilistandan Ağrı dağı ətəklərinə köç etməsindən az qala dörd min əvvəl mövcud olmuş «Kür-Araz mədəniyyətinin» adını «Erməni yaylası mədəniyyətinə» dəyişmiş və tədricən onun əhatə etdiyi əraziləri qondarma «Böyük Ermənistanın» torpaqları kimi təqdim etmişdir. O yazır: **«Arxeoloji materiallara söykənərək deyə bilərik ki, Qafqaz Albaniyasının Qardman-Utik ərazilərinin mədəniyyəti Ermənistan yaylasının digər mədəniyyətləri ilə sıx şəkildə bağlıdır. «Kür-Araz mədəniyyəti» isə Ermənistan yaylasının köklü tayfalarının** *(qədim ermənilərin)* **həyat tərzi üçün xarakterik idi. ...Naxçıvan isə hətta Qazaxın qədim yaşayış məntəqələrini – Şomutəpə, Qarğalartəpə, Baba dərviş və s. birləşdirən Ararat vadisinin coğrafi davamıdır». «**Alpan», «Albaniya» kəlmələrinin etnonim kimi dəyərləndirilməsi nəticəsində onun erməni mənimsəmələri cəhdlərindən uzaqlaşdırılması da Suren Ayvazyanın qadın variantını **çox** rahatsız etmişdir: **«Aqvanq/Albaniya» etnonim deyildir, Ermənistanın şərq hissəsini - Kürün sol sahillərini, Qardmanı** *(Girdmanı)***, Utiki, Arsakı, Paytakaranı əhatə edən əyalətin adıdır. Buranın əhalisi ermənilərdən ibarət olmuş, ərazi erməni şahlığına tabe edilmiş, mədəni,**

143 М.Магомедов. «История аварцев». Махачкала, 2005

dini, iqtisadi aspektlərdən Ermənistana bağlı olmuşdur». «Ağvəng**»** sözünün *(türk dillərində – Ağ kilsə.* **«***Ağ***»** *sözü aşağı statuslu məbədlərə aid edilirdi)* etimologiyasına gəldiklə isə A.Teryanın onu erməni antroponiminə (insan adına) çevirmək, M.Xorenatsiyə istinad edərək Haykın «sakit və məzlum» olan və buna görə də «aqu», yəni «şirin» kimi tanınan oğlu Sisakın adı ilə bağlamaq istəyi orijinal söz oyunu ilə nəticələnmişdir. Əvvəla, əgər A.Teryan hədəf kimi «Ağvəng» sözünü deyil, «Aquan» etnonimini götürsəydi, yəqin ki, bu yalana kimlərisə inandıra bilərdi. Lakin tanınmış erməni filoloqu Qraçiya Açaryanın etirafına görə, «aqu» sözü erməni leksikasına türk dilindən keçmişdir. Qədim «aqu/eqi/eyqi» sözü əski türklərdə «şirin» anlamını verirdi.[144] Beləliklə, «Ağvəng» sözü türk mənşəli olduğu üçün erməni dilinin kontekstindən kənara çıxır. Digər tərəfdən, erməni dilində də «vəng» (kilsə, monastr) sözünün olduğunu nəzərə alsaq, «Ağvəng» kəlməsini «Şirin kilsə» kimi yozmaq hətta xristian əxlaqına zidd əməldir.

A.Teryanın «linqvistik kəşflərinə» dair başqa bir misal. O da məlumdur ki, eramızdan əvvəl VIII əsrin sonu - VII əsrin əvvəllərində Dərbənd istiqamətindən Cənubi Qafqaza daxil olan saka-skif tayfaları burada öz bəyliklərini – antik tarixçilərin mənbələrinə «Sakasena» *(Sakların yeri/məskəni)* kimi düşən dövləti qurmuşlar. Vaxtilə Strabon «sakların kimmerlər və trerlər kimi çapqınlıq etmələrindən» bəhs edərkən yazırdı ki, «onlar tutduqları ərazini «Sakasena» adlandırmışlar». Həmin ərazi sonralar Qafqaz Albaniyasının vilayətlərindən biri olmuşdur. A.Teryan bu bəyliyi ermənilərləşdirmək üçün «Sakasena» toponimini «Şekaşen» kimi təqdim edərək bildirir ki, **«bu söz erməni mənşəlidir, çünki «şek» sözü ermənicə «kürən» deməkdir. Yəni «Sakasena» «kürənlərin ölkəsi» mənasını verir.»**[145] Üstəlik, «Girdman» vilayəti də qədim ermənilərə məxsusdur. Ona görə ki, «**Qardman**» **kəlməsi iki erməni sözünün birləşməsindən yaranmışdır.** «**Qard**» **sözü** «**silah**», «**man**» **isə** «**insan**» **anlamını verir. Bu mənqtiqlə vilayətin adı erməni dilindən** «**silahlı insanların** ölkəsi» **kimi tərcümə olunur**».[146] Sözsüz ki, inandırıcıdır. Lakin erməni leksikasını bilməyənlər və soyuq silahların etimologiyasından məlumatı olmayanlar üçün... Əvvəla, Anjela Teryana məlum olsun ki, «qard» nə qədim, nə də müasir soyuq silah adıdır, üstəlik ermənilərlə əlaqəsi yoxdur. «Qard» fransız dilində «mühafizə edən» deməkdir, döyüşçünün əlini qorumaq üçün silahın tiyəsi və qəbzəsi *(sapı)* arasındakı

144 Г. Ачарян. «Этимологический словарь армянского языка», I (на арм. языке). Ереван, 1971.
145 А.Терян. «История Восточной Части Армении /Агванк, Гардман, Утик/ или кто такие албаны?», http://angelateryan.wordpress.com
146 Yenə orada

üfiqi hissəyə orta əsrlərdə verilən addır. İkincisi, belə məlum olur ki, A.Teryan «gorda» adlı Şərq silahını – uzunluğu bəzi hallarda 90-93 santimetrə çatan, əksər hallarda tiyəsi nisbətən əyri olan, yatağanın sələfi sayılan kəsici silahı nəzərdə tutmuşdur. Uzun, birağızlı, ensiz bıçağı xatırladan, qoruyucu hissəsi – qardası olmayan bu silah Mərkəzi Asiya və Şimali Qafqazın türk xalqlarında «saplı» *(ruslarda – «sablya»)*, çərkəzlərdə «iri bıçaq» anlamını verən «şaşka» adlanır. V.Abayev «Osetin dilinin tarixi-etimoloji lüğəti» əsərində «korda» sözünün Avestada keçən «kərata» sözündən törəndiyini, fars dilindəki «gurd» *(qəhrəman)* kəlməsi ilə əlaqəli olduğunu bildirir. Çeçenlər isə onu türkcə «qurd» adlandırırlar. Bəzi yozumlara görə, bu ad bir qayda olaraq silahın tiyəsinə həkk olunan qurd təsvirləri ilə bağlıdır.

Etnosiyasi polemikalardan bir qədər uzaqlaşıb Qafqazda və Qafqaz Albaniyasında qədim türk tayfalarının məskunlaşmasına və bu ərazidə hansı etnomədəniyyətin dominant mövqeyə malik olmasına qədim rəmzlər və tanınma-fərqləndirmə nişanları *(damğalar)* kontekstindən yanaşaq. Şimali Qafqazdan olan tədqiqatçı Həsən Yaxtaniqov da öz əsərlərində müasir Dağıstanda *(Qafqaz Albaniyasına aid şimal əraziləri daxil edilməklə)* yaşayan yerli xalqlara məxsus olan, eləcə də arxeoloji araşdırmalar nəticəsində tapılan tanınma-fərqləndirmə işarələri arasında ortaq türk damğaları kimi tanınan nişanları saka, hun, avar *(Avar xaqanlığı),* xəzər, bulqar, suvar və s. etnomədəni məkanından ayırmaq, ən yaxşı halda onları orta əsrlərə bağlamaq niyyətini gizlətmir. Lakin onu da etiraf edir ki, həmin damğa işarələri Dağıstan və Şimali Qafqazın qeyri-türk xalqlarının sosial-iqtisadi həyatına yalnız XVI əsrdə geniş daxil olmuş və nəsil-tayfa rəmzləri, mülkiyyət huqqunu təsdiqləyən nişanlar kimi XX əsrin əvvəllərinədək istifadə edilmişdir. Bu ərazilərdə qeyri-türk xalqların damğa işarələri haqqında ilk məlumata isə yalnız XVII əsrdə təsadüf olunur. Belə ki, **«1630-cu ilə aid səndlərdə ilk dəfə olaraq kabardin knyazı Şolox Sunçaleyeviçin rus çarı Mixail Romanova göndərdiyi atın üzərində damğa işarəsinin olduğu göstərilmişdir».**[147] H.Yaxtaniqov həmin damğanın təsvirini verməsə də, digər əsərində - «Dağıstan damğaları» kitabında Şimali Qafqaz və Dağıstan knyazlarının nişanları içərisində ortaq türk işarələrindən birinin – vassallıq rəmzi sayılan «baltavarın» çoxsaylı variantlarının olduğunu xüsusi qeyd edir. Türk simvolizmində «xan damğası», «daraq damğa», «quşlu damğa» adları ilə də tanınan həmin işarələrin semantikası isə yalnız türk xalqlarının ortaq mifik təsəvvürləri, dövlətçilik ənənələri və hərb sənəti kontekstindən izah olunur.

147 Х.Яхтанигов. «Адыгские тамги», http://diplomrus.ru/raboti/23713?mod=dissertations

1907-ci ildə Qafqaz və Cənubi Qafqazın tarixi, etnoqrafiyası üzrə mütəxəssis, general Nikolay Karaulov da balkar zadəgan təbəqəsinin damğaları ilə Krım xanlarının baltavar rəmzinin ortaq xarakter daşıdıqlarını müəyyən etmişdir. Bundan başqa, kabardin xalqının şifahi xalq ədəbiyyatına əsasən, onların məşhur knyaz nəsillərinin – Kudenetovların və Tambiyevlərin də noqay və Krım kökənli olduğu bildirilir. H.Yaxtaniqov «baltavarın» Şimali Qafqaza «miqrasiyasının» səbəblərini belə izah edir: **«XVII əsrin sonu XVIII əsrin əvvəllərində Krım xanlığında baş vermiş saray çəkişmələri üzündən şahzadə Sultan İslam Gəray Adıgey ərazisinə köç etmişdir. Adıqlar və Krım xanlığı sülalələri arasında tarixən siyasi əlaqələr olmuş, şahzadənin burada məskunlaşması isə adıq mühitində «sultan», «gəray», «xan» titul kompanentinin yaranması ilə nəticələnmişdir. Çünki adıqlar formal da olsa «tatarlara» tabe idilər və Kabarda ərazisi «tatar vilayəti» sayılırdı. Krım xanlığına siyasi meyil edən adıq knyazları da Gəray sülaləsinin damğalarını özlərinə rəmz götürmüşdülər»**.[148] Həmin damğalar isə bunlardır: ⲧⲓ ⲣⲁ ⲙⲉ ⲩⲓ ⲗⲓ ⲧⲩⲣ ⲑ və s. Lakin digər Qafqaz xalqlarındakı tanınma-fərqləndirmə işarələri sırasında konkret rəmzlərin, məsələn: ⲗⲓ ⲗⲓ ⲟⲩ ⲗⲓ *(çeçenlərdə),* ⲧⲧ ⲧⲓ *(abxazlarda),* ⲟⲩ ⲧⲓ *(abazalarda),* ⲧ ⲧⲓ *(çərkəzlərdə)*[149] olması onların ortaq türk dünyası ilə əlaqələrinin qədimliyindən xəbər verir. Bundan başqa, Şimali Qafqaz və Dağıstanda tanınma-fərqləndirmə nişanları əsasən türk dilində, bəzən kiçik fonetik təhriflə adlandırılır: «damğa», «tura» *(tuğra),* «damıge» və s. Müəyyən populyar damğaların isə qeyri-türk xalqlarının dillərində etnik adları yoxdur. Məsələn, qədim türklərin «aça», «aşamay», «elşən», «sarkay», «xaç» və s. adlandırdıqları damğa işarəsinə ✝ ✕ rus dilindən götürülmə olan «krest» *(xaç),* «kirest», «çirest» deyilir. Bununla belə, Qafqaz Albaniyasının varislərindən olan türk xalqlarında - azərbaycanlılarda, kumıklarda, qaraçaylarda, balkarlarda etnik damğa işarələri daha çoxdur və hər birinin ortaq türk etnomədəni məkanı kontekstində etimoloji yozumu və təyinatı vardır. Odur ki, vaxtilə akademik Nikolay Marr tərəfindən siyasi meydana atılan ideya – azərbaycanlıların «türkləşmiş farslar», kumıkların isə «türkləşmiş ləzgilər» kimi qələmə verilməsi müasir etnosiyasi proseslər müstəvisində də əsl siyasi səbəblərini tapır.

Vaxtilə akademik Zelik Yampolski «Böyük Sovet Ensiklopediyası»nın nəşri üçün yazdığı məqalədə bildirirdi ki, Qafqaz Albaniyası Şərqi Zaqafqa-

148 Х.Яхтанигов. «Северокавказские тамги». Нальчик, 1993.
149 Yenə orada.

ziyanın *(Cənubi Qafqazın)* ən qədim dövlətlərindən biridir. Burada müxtəlif tayfa və xalqlar, o cümlədən albanlar yaşamışlar və müasir azərbaycanlılar bu qədim əhalinin sələfləridirlər. Bunu Qafqaz Albaniyasına, türkdilli xalqlara, o cümlədən Azərbaycanlılara məxsus olan ortaq damğa işarələri də təsdiqləyir. Bu səbəbdən bəzi Rusiya tədqiqatçıları Dərbənd şəhərinin tarixini lokallaşdıraraq, yalnız Qafqaz Albaniyasının xristianlıq dövrü ilə məhdudlaşdırır, burada aşkar olunan qədim damğa işarələrinin və rəmzlərinin semantikasını ya İsa Məsih dini çərçivəsində yozur, ya da onların irandilli və ya qafqazdilli xalqlara məxsus olduqlarını iddia edirlər. Bu iddialar Dərbənd qala divarlarındakı, o cümlədən Qiyamət qapısı üzərindəki damğa işarələrini də əhatə edir. Kumık alimi Kamil Əliyev Dağıstan ərazisindəki türk damğalarına həsr olunmuş məqaləsində həmin işarələrə toxunarkən onların analoqlarına Şimali Qafqazdakı Macar şəhəri *(XIII—XVI əsrlər, Qızıl Orda)* xarabalıqlarında da rast gəlindiyini bildirir. Bu damğanın türk mənşəli olmasını təsdiqləyən faktlar onların çoxsaylı nümunələrinin Mərkəzi Asiya xalqları  ,[150] Polşa-Litva tatarları ,[151] Şimali Qafqazdakı qaraçaylar , balkarlar ,[152] noqaylar ,[153] Kazan tatarları [154] arasında daha geniş yayılması, hətta Qızıl Ordanın sikkələri üzərində [155] həkk edilməsidir.

Tanınmış tarixçi Kamilla Trever yazırdı ki, «**Birmənalı olaraq, Albaniyanın ilk hökmdarları yerli zadəganların, güclü tayfa başçılarının içərisindən çıxmışlar**».[156] Diqqət çəkən məqamlardan biri Qafqaz Albaniyasında əlifba islahatı aparan hökmdar Asvagenin *(IV əsrin sonu, V əsrin əvvəlləri)* damğa işarəsi vasitəsilə onun etnik kökəninə müəyyən aydınlıq gətirilməsinin mümkünlüyüdür. Ortaq türk damğaları içərisində ilkin olaraq «aybulat» *(Aypolad, Ay qılıncı, hilal, Qərb və rus mənbələrində «Ay arabası»)* kimi tanınan bu işarənin digər variantları, məsələn, damğada hilalın bədirlənmiş Ayla və ya Günəşlə əvəz oluması Qızıl Orda dövlətinin və Krım xanlığının metal sikkələri üzərində yer almışdır. Dağıstan Respublikası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı Murtazəli Hacıyev möhürdə həmin damğa ətrafındakı yazıları «Azvahen Aran şah» *(Azvahen Aranın/Albaniyanın şahı)*

150 Е.Ямаева. «Родовые тамги алтайских тюрок (XIX-XX вв.)». Горно-Алтайск, 2004.

151 Я.Гришин. «Польско-литовские татары (Наследники Золотой Орды). Казань, 1995.

152 Х.Яхтанигов. «*Северокавказские тамги*». Нальчик, 1993.

153 А.-Х. ***Щ***. Джанибеков, «Очерки по истории ногайцев», 1935 г., Архив Даг. НИИЯЛ

154 http://kazan-tatar.narod.ru/tamga.htm

155 «Монеты Золотой Орды и Крымского ханства», Одесский музей нумизматики, http://www.museum.com.ua

156 К.Тревер. «Очерки по истории и культуре Кавказской Албании. IV в. до н. э. – VII в. н. э.». М. – Л., 1959.

kimi oxumuşdur.[157] Bu rəmzin prototiplərinə və bənzərlərinə Qobustan ,[158] Qərbi Azərbaycan ,[159] sarmat , [160] Bolqarıstan ərazisindəki türk ,[161] Krım tatarları ,[162] qaraçay ,[163] Altay damğa nişanları arasında rast gəlirik. Maraqlıdır ki, tarixşünaslıqda Asvagen Arşakilər sülaləsinin nümayəndəsi kimi tanınsa da, həmin sülalənin rəmzləri arasında bu işarə yoxdur. Lakin Sasani xanədanının son dövrlərinə aid olan və Turanla etnomədəni inteqrasiya, xüsusilə Qafqaza və Cənubi Qafqaza gəlib çatan ağ hunlarla *(eftalitlər, abdallar)* hərbi-siyasi təmaslar nəticəsində burada yayılan türk tanınma-fərqləndirmə nişanları sırasında Aybulat işarəsinə də təsadüf edirik.[164]




Ardıcıllıqla: Eramızın birinci əsrinə aid Xarəzm mis sikkəsində Aybalta işarəsi (sxematik təsvir).[165] Qafqaz Albaniyası hökmdarı Asvageninmöhürü və Abdal şahı (xaqanı) Lahanın sikkəsi üzərində Aybulat damğası.

Analoji hal kimi onu da misal çəkə bilərik ki, sasanilərin son hökmdarlarından olan II Xosrov Pərvizin *(591-628-ci illərdə hakimiyyətdə olmuşdur)* damğası da qədim türklərin «and» işarəsi olmuşdur. S.Yasenko sasani damğaları təsnifatına sonradan daxil olmuş bu rəmzin etnik mənşəyinin fərqinə

157 М. С. Гаджиев. «Гемма-печать царя Албании Асвагена», Вестник древней истории. – 2003.
158 M.Fərəcova. «Azərbaycan qayaüstü incəsənəti». Bakı, 2009.
159 Г.Ваганян, В.Ваганян. «Каменная летопись цивилизации». Ереван, 2006.
160 Л. Лавров. «Кавказские тамги» // Историко-этнографические очерки Кавказа. Л.,1978,
161 Э.Триярский. «Тамги тюркских племен Болгарии» // UAJG. 47 (1975),
162 О.Акчокраклы. «Татарские тамги в Крыму», http://crimeantatars.com
163 Н.Будаев. «Западные тюрки в странах Востока», http://buday.narod.ru.
164 С. Яценко. «Знаки-тамги ираноязычных народов древности и раннего средневековья», Российская Академия Наук, Москва Издательская фирма ”Восточная литература”, РАН 2001.
165 Б.Вайнберг. «Монеты древнего Хорезма». Москва, 1977.

varmadan onu «olduqca nadir damğa tipi» adlandırmışdır.[166] Məlumdur ki, sasani ordusunun aparıcı hissəsi «eftalitlər» və «abdallar» adlandırılan ağ hunlardan ibarət olmuşdur. Eftalit-abdalların damğa işarələrindən biri isə Aybulat rəmzi olmuşdur. Dünyanın bir sıra nüfuzlu şərqşünasları və türkoloqları, o cümlədən Mançestr Universitetinin professoru Eduard Parker eftalit/abdalların birmənalı olaraq qədim türk tayfalarından biri olduğunu bildirir.[167] Abdallar eramızın IV-VI əsrlərində güclü tayfalar ittifaqı yaradaraq, Mərkəzi Asiyanı, Əfqanıstanı və Hindistanın şimal hissələrini əhatə edən güclü dövlət qurmuş, dəfələrlə sasani ordularını ağır məğlubiyyətə uğratmış, Ərəb xilafətinə qarşı döyüşmüş, hakim sülalələr qurmuşlar. Sonralar onların bir hissəsi Ön və Mərkəzi Asiya tarixində «xələclər» adı ilə qalmışdır. Məsələn, Səfəvilər dövrü tarixçilərinin görkəmli nümayəndələrindən olan İsgəndər bəy Münşi 1629-cu ildə tamamladığı «Tarixi-aləm-arayi Abbasi» əsərində yazırdı: «**Şamlı elinin abdallu oymağından olan adlı-sanlı əmir Həsən xan atası Hüseyn xanın yerinə Xorasan bəylərbəyidir**». Yeri gəlmişkən, tarixi Azərbaycan torpaqlarında, o cümlədən Şimali və Cənubi Azərbaycanda, Qərbi Azərbaycanda, Gürcüstanda, Qafqazda, Anadoluda «abdal» etnonimi ilə əlaqəli toponimlər çoxdur. Xatırladaq ki, Azərbaycanın Tovuz rayonunda «Abdal» adı ilə çay, Orbubadda dağ, Oğuz, Qubadlı və Ağdam bölgələrində kəndlər vardır. Bundan başqa, Laçın rayonunun keçmiş adı «Abdallar» olmuşdur. Belə olduğu halda, Rusiyanın və Ermənistanın müəyyən dairələri tərəfindən idarə olunan separatçı «Federal Ləzgi Milli Mədəni Muxtariyyəti» təşkilatının abdallar tayfasının damğa işarəsini öz bayrağı üzərində yerləşdirməsi absurd, lakin izah olunan hərəkətdir. Axı, Qafqazın və Cənubi Qafqazın qədim fərqləndirmətanınma nişanları təsnifatlarında «ləzgi damğaları» anlayışı yoxdur. Digər tərəfdən, Dağıstan ərazisində bu damğaların ən çox yayıldığı Dərbənd şəhərinə ləzgilərin kütləvi köçü yalnız XIX əsrin sonlarına təsadüf edir.

Qafqaz Albaniyası ərazisində geniş yayılan, vaxtilə Hun imperiyasında hakim zümrənin, Atillanın da mənsub oduğu dulo tayfasının etnik damğa işarələrindən olan ♁ ♀ və onların müxtəlif variantları Xəzər dənizinin qarşı tayında - Mərkəzi Asiyada da «alban» adı ilə yayılmışdır. Burada həmin damğanın daşıyıcıları isə çoxsaylı və nüfuzlu alban-suan tayfasıdır. Oljas Süleymenov «alban-suan» etnonimini «alban-suvar», daha doğrusu, «Albaniya suvarları» ifadəsinin qazax dilinə uyğunlaşdırılmış variantı olmasının

166 Yenə orada.

167 Е.Паркер. «Тысяча лет из истории татар», http://www.mirzayanov.com/images/TisjachaletfFebr14.pdf

qənaətindədir. Onun fikrincə, vaxtilə Qafqaz Albaniyası ərazisində yaşayan suvar tayfasının bir hissəsi müharibələr nəticəsində bu torpaqları tərk etmiş və Qazaxıstanda məskunlaşmışdır. Belə ad və rəmz oxşarlığını təsadüf adlandırmaq olarmı? Axı vaxtilə Hun konfederasiyasının tərkibində şərqdən-qərbə və cənuba köç etmiş suvarlar geri qayıdan zaman özləri ilə rəmzlərini və adət-ənənələrini də gətirmişlər. Azərbaycan tədqiqatçısı Rauf Hüseynov «Rusiya, Avropa və digər mənbələr Böyük Azərbaycan haqqında» adlı məqaləsində Çin salnamələrində və Çin dilinin leksikasında yer alan maraqlı bir məqama toxunur: **«Çin Xalq Respublikası ərazisində yaşayan qazaxların alban tayfası burada «azebajen» kimi tanınır».**[168] Tarixi Azərbaycan torpaqları ilə bağlı növbəti etnonim bənzərliyi Oljas Süleymenovun da diqqətindən kənarda qalmamışdır. O bu barədə yazır**: «Rus-Çin sözlüyündə rast gəldim ki, çinlilər «alban» sözünü «azebajen»** *(Çin dilində «r» və «c» səsləri yoxdur)* **kimi tələffüz edirlər. Türkdilli xalqın adı ilə belə bənzərlik təsadüfidirmi? Axı eramızın əvvəllərində, vaxtilə Böyük İpək Yolunun keçdiyi Şimali Azərbaycan əraziləri o dövrlərdə «Albaniya» adlanırdı. … Uzaq keçmişdən etibarən Tyan-Şan dağlarının ətəklərində qazaxların alban tayfası məskunlaşmışdır. Çinlilər bu gün də onlara «azebajen» deyirlər. Onlar vaxtilə həmin Albaniyadan qopub Mərkəzi Asiyaya gəlmişlər».**[169]

Azərbaycanın qədim və tarixi şəhərlərindən olan Dərbənd geosiyasi maraqların və siyasi doktrinaların hədəfindədir. Bu gün Dərbənd Azərbaycan Respublikasının şimal qonşusu olan Rusiya Federasiyasının inzibati ərazisinə daxil olsa da, rusiyalılara olduğu qədər, hər bir azərbaycanlı üçün də doğmadır. Buradakı arxeoloji və etnoqrafik laylarda skif, sarmat, hun, xəzər, oğuz, qıpçaq mədəniyyətlərinin izləri aydın görünməkdədir. Stəkanda fırtına yaradan separatçı qurumlar Azərbaycanı heç bir əsas olmadan guya «Dağıstan xalqlarının tarixi irsini mənimsəməkdə», Rusiyaya qarşı «ərazi iddialarında», «Rusiyanın daxili işlərinə qarışmaqda» təqsirləndirir, Rusiyanın şəhərlərində uğursuz siyasi şoular keçirir, tarixi Azərbaycan dövləti olan Qafqaz Albaniyasının maddi-mədəni irsini mənimsəməyə, həm Dağıstanda, həm də Azərbaycanda etnik zəmində qarşıdurmalar yaratmağa cəhdlər göstərir, hətta «1934-cü ilədək Dağıstanda azərbaycanlıların yaşamaması» haqqında sərsəm bəyanatlar verirlər. Tarixi sübutlar isə bunların əksini söyləyir.

---

168 Р.Гусейнов. «Большой Азербайджан в российских, европейских и иных источниках»,XIII часть, «Что понимали под словом Азербайджан в средневековом Китае?», http://www erevangala500.com/?direct=news_page&id=160

169 О.Сулейменов. «Литература - это жизнь: о литературе и литераторах». Алматы, 2011.

Dərbəndin qala divarları.

Dərbənd şəhərinin etnik mənzərəsi tarixən indiki kimi rəngarəng olmamışdır. Alman coğrafiyaşünası Adam Oleari 1638-ci ildə Dərbənddə olarkən şəhərin mərkəzi hissəsində qızılbaşların *(azərbaycanlıların),* yuxarı hissəsində ayrumların *(Azərbaycan tayfalarından biri),* aşağı məhəllələrdə isə yunanların məskunlaşdığını bildirirdi. Çar Rusiyasının statistik məlumatlarına görə, 1824-cü ildə Dərbənd şəhəri əhalisinin mütləq əksəriyyəti – 93%-i, yəni 10377 nəfəri azərbaycanlılardan, o dövrün mənbələrində yazıldığı kimi «şiə tatarlardan» ibarət olmuşdur. Tanınmış rus alimi Eduard Eyxvald bir il sonra Dərbənddə olarkən burada əhalinin böyük hissəsinin azərbaycanlılar təşkil etdiyini bildirmişdir. 1830-cu ildə Dərbəndin əhalisi və etnik tərkibi haqqında şəhərin komendantı polkovnik Rozenfeldin tərtib etdiyi cədvəldə də köklu sakinlərin aşkar say üstünlüyü xüsusi qeyd olunmuşdur. 1830-1834-cü illərdə Dərbənddə yaşamış Aleksandr Bestujev-Marlinsiki şəhəri «tatarların», yəni azərbaycanlıların Afinası» adlandırmış, Qafqazda Azərbaycan dilinin əsas ünsiyyət vasitəsi olmasını, onun öyrənilməsinin əhəmiyyətini vurğulamışdır. 1832-ci ildə keçirilmiş kameral siyahıyaalınmanın nəticələrinə əsasən, Dərbənddə kişi cinsindən olan 4741 azərbaycanlı, 256 yəhudi və 142 erməni yaşayırdı. 1843-cü ildə də şəhər əhalisi əsasən azərbaycanlılardan – 9572 nəfər, yəhudilərdən – 871 nəfər, ermənilərdən – 284 nəfər, alman və yunanlardan – cəmi 5 nəfər ibarət idi. Hələ 1796-cı ildə Dərbənddə 2189 ev, 450 dükan, 15 məscid, 6 karvansara, 50 emalatxana, 30 ipəkçilik və 113 kağız istehsalı müəssisəsi olduğu halda, burada ilk erməni kilsəsinin yalnız 1860-cı ildə inşa edilməsi Ermənistan tarixçilərinin Dərbəndə olan iddialarını əsaslı şəkildə rədd edir. Qırx iki il sonra – 1886-cı ildə keçirilmiş növbəti siyahıyalmaya dair rəsmi materiallarda azərbaycanlılar sayca üstünlüklərini *(58%)*

qoruyub-saxlasalar da, burada rus, polyak, yəhudi, tatar və Dağıstan xalqlarından ilk dəfə avarların məskunlaşdıqlarının şahidi oluruq. 1897-ci il Ümumrusiya siyahıya alınmasının nəticələri isə Dərbənd şəhərinin etnik mənzərəsinin sürətlə dəyişməsini, şəhərə latışların, tatların, finlərin və ləzgilərin köç etdiyini göstərir. Bununla belə, əhalinin 9767 nəfərini, yəni 66,6%-ni yenə də onun köklü sakinləri - azərbaycanlılar təşkil edirdi.

XIX əsrin əvvəllərindən Dərbəndin Rusiyaya birləşdirilməsindən sonra burada həyata keçirilən müstəmləkəçilik siyasəti XX əsrin 20-ci illərindən başqa bir adla - bolşevizmin psevdobeynəlmiləl şüarları altında davam etdirilmişdir. Belə ki, 1926-cı ilin statistik materiallarına əsasən, Dağıstan ərazisində sovet hakimiyyətinin qurulmasından sonra regionda sosial-siyasi problemlərin gərginləşməsi, əhalinin, xüsusilə Dağıstanın ucqar kəndlərində yaşayan sakinlərin yaşayış səviyyəsinin kəskin şəkildə pisləşməsi və iqtisadi çətinliklər üzündən şəhərə rusların, ukraynalıların, Qafqaz xalqlarından darginlərin, kumıkların, lakların, ləzgilərin, avarların kütləvi miqrasiyası başlamış, Dərbəndin ilkin etnik mənzərəsi sürətlə dəyişmişdir. Nəticədə, azərbaycanlılar şəhər əhalisinin ümumi sayının 33,9%-ni təşkil etmişlər. 1959-cu il siyahıya alınması da bu tendensiyanın davam etdirilməsindən, şəhərə Dağıstan xalqlarından saxurların, çeçenlərin, rutulların, tabasaranların, lakların, aqulların, noqayların, xüsusilə ləzgilərin və s. kütləvi miqrasiyasından xəbər verir. Azərbaycan öz dövlət mıstəqilliyini bərpa etdikdən sonra, məlum səbəblər üzündən Dağıstanda yaşayan azərbaycanlılar süni maneələrlə, bir sıra sosial-siyasi problemlərlə üzləşmişlər. Nəticədə, hələ 2002-ci ildə Dərbənd şəhəri əhalisinin siyahıya alınmasına dair materiallarda azərbaycanlıların xüsusi çəkisi 31,7%-ə enmişdir.

Dərbəndin «naməlum» olan məlum işarələri

Rəsul Həmzətovun «Mənim Dağıstanım» kitabında bir deyim yer almışdır: «Aşıq səsindən, nəqqaş naxışından tanınır». Dərbənd şəhərinin etnik mənşəyi onun arxitekturasından, ornamentlərindən, xalça naxışlarından və qala divarlarının daşları üzərindəki damğa işarələrindən tanınan kimi. Hər bir xalqın yazı işarələri onun tarixi və mədəniyyyəti ilə sıx şəkildə bağlıdır, sosial-iqtisadi və mədəni inkişafının əsas əlamətlərindən biridir. Məhz qədim yazılı abidələrin, damğa və rəmzlərin öyrənilməsi sayəsində tarix səhnəsindən silinmiş xalq və tayfaların etnik mənşəyi, yaşam tərzi, dövlətçilik ənənəsi, dini təsəvvürləri, mədəniyyətləri haqqında silinmiş təsəvvürləri bərpa edə bilirik. Məsələn, görkəmli alim, türk xalqlarının tarix və etnoqrafiyasının ta-

nınmış araşdırmaçısı, professor Bahəddin Ögəl «Türk mədəniyyəti tarixinə giriş» əsərində Mərkəzi Asiyada, Altaylarda aşkar olunmuş qədim maddi-mədəniyyət nümunələri **üzərində** ortaq türk dam**ğa** işarələrinin təsvirlərinə  və onların yayılma arealına, tətbiqi xüsusiyyətlərinə də geniş yer vermişdir.[170] O da maraqlıdır ki, həmin işarələrin analoqlarına Qafqaz Albaniyası dövlətinin maddi-mədəni irs nümunələrində də rast gəlinir.

Avar alimi Paruk Dibirov 2001-ci idə Moskvada nəşr etdirdiyi «Dağıstan ornamentlərinin tarixi» kitabında Dərbənd işarələri və naxışlarına, onların semantikasına və mənşəyinə geniş yer vermişdir. Məsələn, Dərbəndin və müasir Azərbaycan Respublikası ərazisindəki qədim tikililərin, məzar daşlarının bəzək ünsürlərinin eyniliyini vurğulayan müəllif qeyd edir: **«Dərbənddə sənduqə tipli qədim məzar daşları Azərbaycanda - Şirvan ərazisində, Mərkəzi Asiyada, İranda qəbirüstü abidələrin eynidir. Lakin ornamentlərin işlənməsi baxımından daha zəngindir... Dərbənd tikililəri və Bakıdakı Şirvanşahlar sarayı eyni üslubda inşa edilmişdir».** [171] P.Dibirov burada toxunan xalça tiplərində Azərbaycana xas olan spesifik naxışların – «Dirilik Ağacı», «xərçəng», «yerpənək», «tapança», «dolanqaç» *(spiral),* «qarmaq» və s. yayıldığını vurğulayaraq Dərbənddə xalçaçılıq sənətinin təməlinin VII əsrdə qoyulduğunu, hətta «Dərbənd» xalça tipinin tarixən «Köhnə Quba» adını daşıdığını bildirir.

Dərbənd yazılarını erməniləşdirmək səylərində Ermənistanın «Qolos Armenii» qəzetinin Dərbəndə ezam olunmuş müxbiri Meri Çollakyan nəinki qala divarları üzərində yazı və rəmzlərin, hətta bu şəhərin bütövlükdə ermənilərə məxsus olduğunu belə ifadə edir: **«Qədim mənbələrə əsasən, bu ərazilər paytaxtı Dərbənd olan erməni-aqvan şahlığına aid idi. Maarifçi Qriqorinin nəvəsi, sonralar Aqvanın katalikosu olmuş Qriqoris burada xristianlığı yaymağa başlamış və Dərbənddə öldürülmüşdür. Böyük Mesrop Maştos Dərbənddə yerli tayfaları maarifləndirir, onun xristian dəyərlərini isə erməni sərkərdəsi Vardan Mamikonyan qoruyurdu».**[172] Məsələn, Qafqaz Albaniyasına aid rəmz və damğaların, yazı işarələrinin erməni etnik mədəniyyəti kontekstində araşdırılmasının təməlini qoyanlardan biri olan yepiskop Makar Barxudaryan 1889-1892-ci illərdə Dərbənd şəhərində olarkən

170 B.Ögel.

171 П.Дибиров. «История орнамента Дагестана (Возникновение и развитие основных мотивов)», Москва, Наука, 2001

172 М.Чолакян. «Армянские знаки на скрижалях Дербента», http://forum.hayastan.com/lofiversion/index.php/t39799.html

«Qala divarlarının «B» qülləsi üzərində, P.Zakaryanın bağında» bu qədim yazıları görmüş, «Aluyanq diyarı və onun qonşuları» (1893) kitbında onların təsvirini vermişdir. Beləliklə, M.Barxudaryanın təşəbbüsü nəticəsində **«şərti olaraq, «Dərbənd yazıları» adlandırılan «alban yazı nümunələrinin Mesrop Maştosun yaratdığı əlifba ilə formaca əlaqəsi sübuta yetirilmişdir».** Halbuki, professor R.Açaryan hələ 1928-ci ildə bu yazıların alban əlifbası ilə eyniləşdirilməsinin əleyhinə çıxmış, onların zaman keçdikcə ilkin görkəmini itirən kufi xətt yazısı olduğunu bildirmişdir. Daha sonra, 1935-ci ildə linqvist D.Karbelaşvili bir tərəfdən həmin işarələrin «naməlum dildə yazılmış mətn olduğunu» etiraf etsə də, digər tərəfdən burada «gürcü və erməni hərflərinin əlamətlərinin» mövcudluğunu vurğulamışdır. Professor A.Şanidze isə Dərbənd yazılarının oxunuşu cəhdlərində saxtakarlıq meyillərinə, onların ermənileşdirilməsinə qarşı çıxaraq bildirirdi: **«Eçmiədzində saxlanılan 7117 nömrəli əlyazmadakı alban əlifbası literləri ilə Dərbənd yazılarındakı hərflər arasında fərqlər o dərəcədə qabarıqdır ki, onları identikləşdirmək, «oxşar» adlandırmaq olmaz».**[173]



M. Barxudaryanın «tapdığı» Dərbənd yazısı.

Maraqlıdır ki, qeyri-erməni alimləri həmin yazıları öyrənməyə hazırlaşanda daş kitabə qəflətən müəmmalı şəkildə yoxa çıxmışdır. S.Muravyova Dərbənddə olarkən Barxudaryanın nişan verdiyi yazılı lövhəni tapa bilməmişdir. Tədqiqatçı bu barədə yazır: **«Axtarışlarımız uğursuz nəticə verdi. Şimal divarlarının ikinci qülləsində, o cümlədən Narınqalada onu müəyyən edə bilmədik… Qüllənin bir hissəsi indi meyvə şirələri zavodunun ərazisindədir. Əvvəllər burada bağ olmuşdur. Zavodun yaşlı fəhlələrindən biri isə bildirdi ki, nə vaxtsa belə bir yazılı daş görmüşdür».** Qeybə çəkilmiş kitabənin həqiqiliyinə gəldikdə isə S.Muravyova şübhələrini belə ifadə etmişdir: «**M.Barxudaryanın**

173 М.Гаджиев, В.Юсуфов. «Тайна Дербентской надписи», http://www.arhiv.ndelo.ru/one_stat.php?id=6147#

və M.Smbatyanın təqdim etdikləri təsvirlər heyrət doğuran cəhətlərdən bir-birinə bənzəyir. M.Smbatyan kitabəni görməyə də *(Barxudaryanın* çəkdiyi *rəsmi təkrarlaya –A.Q.)* **bilərdi. Digər tərəfdən, bu yazının həddən ziyadə tərtibatlı olması və ötən min il ərzində bütün meteroloji təsirlərə baxmayaraq əla vəziyyətdə saxlanılması şübhə doğurmaya bilməz**».[174]

Yujdaq İnstitutunun professoru Yarəli Yarəliyev Dərbənd yazılarının Mingəçevirdə aşkar olunmuş alban əlifbası ilə yazıldığını bildirsə də, sonda onları həmin mətni «ləzgi dilində yazılmış mətnlərin qalıqları» elan etmişdir. Lakin Y.Yarəliyev bununla kifayətlənməyərək, «yolüstü» toponimikaya dair biliklərini də nümayiş etdirmiş, «Albaniya» sözünün izahına da müdaxilə etməyi unutmamışdır. Onun qənaətinə görə, guya qədim dövrlərdə ləzgilərin «Alpan» adlı ildırım tanrısı mövcud olmuşdur və məlum toponim onun adını daşımaqdadır. Əgər bu, həqiqətən də belədirsə, Azərbaycanın Quba bölgəsində və Dərbənddə «Alpan» adlanan xalça tipinin Dağıstanın cənub hissəsində yaşayan ləzgilərin nə səbəbə «yerpənək» (türk sözüdür, xiyarın səthi hamar olan yerli sortunun adıdır) adlandırmaları sual doğurmaya bilməz.[175] Dağıstan Elm Mərkəzi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları - professor Murtazəli Hacıyev və baş elmi işçi Vəli Yusifov, nəhayət ki, təməli yepiskop Makar tərəfindən qoyulan bu mənasız polemikaya son qoymağa çalışmış, alimləri etnosiyasi maraqlara xidmət etməməyə çağırmış, qala qapısı üzərindəki mətnin kufi əlifbası ilə ərəb dilində mətn olduğunu, burada Quran-Kərimin «əl-Bəqərə» surəsindəki 225-ci ayənin yazıldığını bildirmişlər. Onların qənaətinə əsasən, «Dərbəndin alban əlifbası» isteriyası erməni yepiskopu Makar Barxudaryanın zəngin təxəyyülünün, ən əsası isə ərəb əlifbasını bilməməsinin nəticəsidir.[176]

Dağıstan ərazisində, xüsusilə Dərbənd şəhərində tapılmış yazı nümunələrinin, damğa və rəmzlərin, leksik, etnoqrafik, arxeoloji materialların ortaq türk etnomədəni məkanından çıxarılmasına yönəldilən cəhdlərdən biri də qədim maddi-mədəniyyət nümunələrinin «İran-Dağıstan əlaqələrinin inikası» kimi dəyərləndirilməsi, Azərbaycanın tarixi ərazilərinə yeni iddiaların irəli sürülməsidir. Məsələn, sosial şəbəkədə yayılan məqalələrin birində eramızdan əvvəl III-II minilliklərdə **«indiki İran Azərbaycanı ərazisində**

174 Р.Лолуа. «Кавказско-албанская эпиграфика»/«Восточные общества: традиции и современность», Материалы II Съезда молодых востоковедов стран СНГ, Баку, 11-14 ноябрь, 2013 года», Москва-Баку, 2014

175 П.Дибиров. «История орнамента Дагестана (Возникновение и развитие основных мотивов)», Москва, Наука, 2001

176 М.Гаджиев, В.Юсуфов. «Тайна Дербентской надписи», http://www.arhiv.ndelo.ru/one_stat.php?id=6147#

dağıstandilli xalqların yaşaması, sonralar isə Qafqaza miqrasiya etməsi» bildirilir. Qeyd edilir ki, «**Belə bir mülahizə yürütmək olar ki, ləzgilərin, və irandillilərin - talışların, giləklərin və kürdlərin etnogenezi eyni ərazidə** *(Cənubi Azərbaycanda)* **formalaşmışdır».**[177] Halbuki, vaxtılə SSRİ ərazisində xəzərşünaslıq elminin təməlini qoymuş alim, Ermitaj Muzeyinin direktoru işləmiş professor Mixail Artomonov hələ 1946-cı ildə dərc etdirdiyi «Qədim Dərbənd» məqaləsində qala divarlarındakı işarələrin mənşəyinə dair münaqişələrə son qoymaq məqsədilə yazırdı: **«Xəzərlərin Dərbənd şəhərinə hakim olduqları dövrlərin abidəsi olaraq qala divarlarının hörgü daşları üzərindəki çoxsaylı işarə və təsvirləri göstərmək olar. Bu işarələr Sarkel** *(Don* çayının *sol sahilində xəzərlərin qala-şəhəri),* **Mayask** *(IX-X əsrlərdə indiki Voronej vilayətində, Don və Tixaya Sosna çaylarının mənsəbində qədim türk tayfalarının arxeoloji mədəniyyət abidəsi)* **və Bolqarıstandakı Aboba-Pliske** *(təməli Asparux xan tərəfindən qoyulan və 681-ci ildən 893-cü ilədək paytaxt olan yaşayış məntəqəsi)* **şəhərlərindəki işarələrin tam bənzəridir».**[178]

Yuxarıda adı çəkilən professor Murtazəli Hacıyev 2009-cu ildə Tiflisdə «Qafqazın arxeologiyası, etnologiyası və folkloru» mövzusunda keçirilmiş beynəlxalq konfransda çıxış edərək, Dərbənd şəhərinin müdafiə tikililəri üzərində eramızın VI əsrinə aid 500-dən çox işarənin müəyyən edildiyini bildirmişdir. M.Hacıyev bu nişanların semantikasını, analoqlarını, etnik mənşəyini araşdırmadan, bəlkə də, bundan məqsədli şəkildə yayınaraq, onları «**eramızın 568-569-cu illərində Dərbənd qalasında aparılan inşaat işlərində çalışan atəşpərəst bənnaların rəmzləri**» kimi təqdim etmişdir. Üstəlik, qədim saka-skiflərdə, hunlarda, xəzərlərdə, oğuz və qıpçaqlarda «and» kimi tanınan, hətta Əmir Teymurun dövlət rəmzi olan damğanın da (*Dərbənd daşlarında onun on üç təsviri aşkar olunmuşdur*) məlum etnik mənsubiyyəti üzərindən sükutla keçərək, həmin işarəni Qafqazda «buddistlərin üç nöqtə simvolu» (!), «üç disk nişanı» (?) adlandırmışdır. Bundan başqa, o, qədim türklərdə «ama», «abak» damğasını «sasanilərin mehranilik dininin rəmzi», «Ay-Günəş» və ya «Ay-Ulduz» işarəsini isə «İranın qədim dini-dövlətçilik atributu» kimi qələmə vermişdir.[179]

177 «Иранско-дагестанские исторические связи», http://voprosik.net/iransko-dagestanskie-istoricheskie-svyazi/

178 M.Артомонов. «Древний Дербент». // «Советская археология»,VIII, 1946

179 M. Гаджиев. «К выделению и интерпретации зороастрийских символов в знаковой системе Дербента середины VI века». Международная научная конференция «Археология, этнология, фольклористика Кавказа» Сборник кратких содержаний докладов Тбилиси, 25-27 июня 2009

Səfəvi dövlətinə aid üzlüklü (niqablı) dəbilqənin «işıq» adlanan alın hissəsində üzərində «Ay-Günəş» (Ay-Ulduz) ☉ işarəsi.

Dərbənd işarələrini cidd-cəhdlə «atəşpərəst irandillilərin» adına çıxaran professor Murtazəli Hacıyevin tədqiqatlarında daha dörd yanlışlığı diqqətə çatdıraq. Birincisi, müəllifin guya keçmiş dövrlərdə Dərbənd qalasının tikintisində çalışan bənnaların hörgü daşlarına fərdi nişanlarını həkk etdirmələri barədə mülahizələri normal məntiqə sığmır. Çünki divar hörgüsü ilə məşğul olan bənnanın daş blokları və ya bişmiş kərpicləri bir-bir işarələməsi lüzumsuzdur. Bu barədə iki fərziyyə irəli sürmək olar. Əvvəla, yaxşı məlumdur ki, keçmiş dövrlərdə genişmiqyaslı tikintilər, məsələn, müdafiə istehkamlarının inşası zamanı hökmdar *(xaqan, xan, şah)* vassal tayfaların üzərinə xüsusi vergilər qoyurdu. Onlar inşaat meydançasını fasiləsiz olaraq müəyyən miqdarda tikinti materialları, o cümlədən hörgü daşları ilə təmin etməli idilər. Böyük ehtimalla bu işarələr həmin tayfalara məxsus tanınma-fərqləndirmə nişanlarıdır. Digər fərziyyə isə bu nişanların daşkəsənlərə məxsus olmasıdır. İkincisi, M.Hacıyevin təqdim etdiyi təsvirlərdəki «500-dən çox qədim işarə», əslində, təqribən 100-dən bir qədər çox etnik damğanın müxtəlif tərəflərdən çəkilmiş variantları, eləcə də Göytürk və uyğur əlifbası qrafemləridir. Üçüncüsü, müəllifin təqdim etdiyi yüzlərlə damğa nişanları arasında nədənsə irandilli xalqların - parfların,

sasanilərin nişanlarına qətiyyən rast gəlmirik. Əvəzində isə damğa işarələri üzrə tanınmış mütəxəssislərin – İ.Baskenin, E.Triyarskinin, L.Lavrovun və başqalarının təsnifatlarına əsasən, qədim türk xalqlarının etnik tanınma-fərqləndirmə nişanlarını görürük.

Dördüncü «yanlışlıq». Hind-Avropa meyilli Ermənistan və Rusiya alimlərinin təcrübəsi göstərir ki, damğa işarələrinin, rəmzlərin təhrif olunmasının, etnik, regional mənsubiyyətinin məqsədli şəkildə gizlədilməsinin ən sadə və çox işlənən üsulu onları tamamilə fərqli rakusda - üfüqi, tərs vəziyyətdə, müəyyən seqmentləri silinmiş şəkildə təqdim edilməsidir. Bu üsul təkcə Qərbi Azərbaycandakı Göyçə, Geğam, Abaran, Dəvəboynu qayaüstü yazılarına dair materiallarda deyil, Dərbənd işarələrinin təsnifatında da özünü qabarıq büruzə verir. Təəssüf ki, M.Hayıyevin araşdırmalarında da bu arzuolunmaz üsul özünü göstərir. Misal üçün: Dərbənd qala divarlarının daşlarına həkk olunan və oğuzların əfşar tayfasına aid edilən damğasının, Göytürk əlifbasındakı və s. qrafemlərinin tərs çevrilərək «atəşpərəst işarələrinə» transformasiya olunması onların semantikasının müəyyənləşdirilməsini çətinləşdirsə də, məhz türk tanınma-fərqləndirmə işarələrinin saxtakarlığa dayanıqlığı üzündən bu təcrübə özünü doğrultmaşdır. Belə ki, M.Hacıyevin təsnifatında qədim türklərin spesifik damğalarından olan «yay-ox» işarəsinin müxtəlif istiqamətlərə çevrilməsinə, onların semantikasının dəyişməsinə baxmayaraq, yenə də etnik türk damğası *(daraq damğa)* olaraq qalmaqdadır. Bu hal «bitik» və «qalxan», «beşik» və «qapı», «qarmaq» və «kösöv» kimi işarələrə də aiddir. Bundan başqa, M.Hacıyevin çoxsaylı nöqtələrdən ibarət fraqmentləri və s. «sakral rəmz» nümunələri kimi tanıtmaq cəhdləri də heç bir elmi əsasa söykənmir. Belə işarələr nə Qafqaz xalqlarında, nə saka-skiflərdə, nə də türk tayfalarında, sarmatlarda, sasanilərdə və parflarda vardır. Doğrudur, Göytürk əlifbasında sözləri bir-birindən ayırmaq məqsədilə qoşa nöqtələrdən istifadə olunmuşdur. Lakin Dərbənd işarələrindəki nöqtələrin sistemsizliyi belə bir fikir yürütməyə əsas verir ki, M.Hacıyev qala daşları üzərində ərəb qrafikası ilə yazılan *(kufi xətti)* və zaman keçdikcə bir hissəsi silinən mətn işarələrinin – qrafemlərin salamat hissələrini damğa nişanları kimi qəbul etmişdir.

Xüsusilə vurğulamaq lazımdır ki, Dərbənd işarələri və Qaraçay-Çərkəz Respublikasının Qaraçay rayonu ərazisindəki Xumara yazılarının müqayisəli təhlili nəticəsində onların arasında heç bir prinsipial fərq müəyyən edilməmişdir. Vaxtilə görkəmli qaraçay alimi, paleontoloq və qədim türk mətnləri üzrə mütəxəssis Soslanbəy Bayçorov da Şimali Qafqaz ərazisində, o cümlədən qədim Xumara şəhəri xarabalıqlarında aşkar olunmuş 150-yədək qədim türk mətninin deşifrəsi əsəsında Göytürk əlifbasının İtil *(Volqa)* çayından Dunan sahillərinədək uzanan Qafqazı və Şimali Qafqazı da əhatə edən nəhəng ərazinin «klassik əlifbası olması qənaətinə gəlmişdir.[180] Araşdırmalara əsasən, bu şəhər-qala eramızın VIII əsrində xəzərlər tərəfindən inşa olunmuşdur. Ötən əsrdə professor Georgi Turçaninov Xumara abidələri üzərində bir sıra etnik damğalar müəyyən etsə də, onların türk mənşəli olması barədə susmuşdur.[181] Yeri gəlmişkən, Mahmud Kaşğarinin «Divani lüğət-it-Türk» əsərinə əsasən, əski türk sözü olan «xumaru» miras, yadigar olaraq verilən mal; ölən böyük bir adamın mal-mülkündən xaqan üçün ayrılan hissə; uzaq səfərə gedən adamın qohumlarına qoyduğu əmanət anlamlarını verir.[182] Dərbənddə uyğur əlifbası işarələrinin *(damğalarının)* tapılması isə elmdə yenilik deyildir. Belə bir fikir dolaşır ki, guya uyğur əlifbası XIII əsrədək yarandığı ərazi çərçivəsindən kənara çıxmamış, Avropa ərazilərində yayılmamışdır. Halbuki, ilkin orta əsrlərə aid edilən belə qrafemlər Hun imperiyasına və Xəzər xaqanlığına daxil olan tayfa-nəsillərin damğa işarələri şəklində Şimali Qafqazın, Rusiyanın və Ukraynanın ərazilərindəki Mayat, Sarkel, Xumara şəhərləri xarabalıqlarında, Xersonda və s. aşkar olunmaqdadır.

Eyni zamanda, Mahmud Kaşğarinin «Divani lüğət-it Türk», Fəzlullah Rəşidəddinin *(1247-1318)* «Cami ət-Təvarix» («*Səlnamələr toplusu*»), Əli Yazıçıoğlunun *(XV əsr)* «Təvarixi al- iSəlcuq», Əbülqazi Bahadur xan Xivəlinin *(1605-1663)* «Şəcəreyi-Tərakimə» və Seyid Loğmanın «Hünərnamə» *(XVII* əsr*)* əsərlərindəki təsnifata əsasən, Dərbənd işarələri

180 С. Байчоров. «Древнетюркские рунические памятники Европы». Ставрополь, 1989
181 Г.Ф. Турчанинов. «Памятники письменности и языка народов Северного Кавказа и Восточной Европы», 1971
182 M.Kaşğari. «Divanü lüğat-it-Türk», dörd cilddə, Tərcümə edən və nəşrə hazırlayanı Ramiz Əskər, Bakı: «Ozan», 2006.

ilə oğuz tayfalarının damğaları arasında identiklik də göstərilmişdir. Lakin cədvəllə tanışlıqdan əvvəl xüsusilə qeyd edək ki, rusiyalı arxeoloq Valentina Flerova «Xəzərlərin qraffitisi» kitabında Xəzər xaqanlığının iri yaşayış məntəqələrindən sayılan Sarıkel, Semikarakor, Mayat, Xumara şəhər xarabalıqlarının hörgü daşları və buradan tapılan maddi-mədəniyyət nümunələri üzərində həkk edilən damğaları ilk dəfə olaraq sistemləşdirmiş və təsvirlərini vermişdir. Maraqlıdır ki, V.Flerovanın müəyyənləşdirdiyi Xəzər damğaları[183] -  ilə M.Hacıyevin Dərbənd daşlarındakı «atəşpərəst irandilli bənnaların rəmzləri» kimi təqdim etdiyi işarələr arasında fərq yoxdur. Bu damğaların içərisində hunlara məxsus işarələr olsa da, əksər hissəsi Xəzər konfederasiyasına daxil olan türk tayfalarına aiddir.

Başqa bir misal. Tanınmış qafqazşünas, etnoqraf və tərcüməçi Leonid Lavrov Qafqaz damğalarının öyrənilməsi və təsnifatı məqsədilə regiona çoxsaylı ekspedisiyalarda olmuş, qədim mənbələri və XIX-XX əsrlərin müəlliflərinin əsərlərini öyrənmişdir. Nəticədə, L.Lavrov Azərbaycanın cəmi bir neçə məntəqəsindəki – Veysəlli, Meysarı, Altıağac, Kuşi, Kələxani, Göylər, Udulu, Qırxbulaq *(bəzi adlar mətndə təhrif olunmuşdur)* kəndlərində, Beşbarmaq və Qobustandakı qədim tikililərin - məbəd və karvansaraların hörgü daşları, ağac lövhələr, məzar daşları üzərində, qayaüstü rəsmlər içərisində xeyli sayda etnik damğa işarəsi müəyyən edə bilmişdir. Məkan baxımından noqay damğalarını ortaq türk tanınma-fərqləndirmə işarələri qismində nümunə kimi götürən L.Lavrov yazır ki, «**Azərbaycan damğaları Qafqaz dağlılarının deyil, noqayların damğalarına daha** çox **bənzəyir**».[184] Onun Azərbaycandakı tədqiqat dairəsi məhdud olsa da, aşkar etdiyi damğalar - Dərbənd qala divarları daşlarındakı işarələrdən fərqlənmir. Necə deyərlər, faktların üst-üstə düşməsi birinci dəfə təsadüf, ikinci dəfə oxşarlıq, üçüncü dəfə isə qanunauyğunluqdur. Qafqaz xalqlarının etnik damğa işarələrini sistemləşdirən və onları müqayisəli təhlil

183 В.Флерова. «Граффити Хазарии», изд. Эдиториал УРСС, 1997
184 Л.Лавров. «Историко-этнографические очерки Кавказа», Наука, 1978

edən Leonid Lavrov sonra vurğulayır: **«Aydın şəkildə görünür ki, Qafqaz damğalarının bir çoxu ya tamamilə, ya da əhəmiyyətli dərəcədə noqay və Krım damğalarına bənzəyir. Belə damğalara malik olanların bəziləri həqiqətən də kök etibarilə noqay və tatarların törəmələridir. Krım və noqay damğaları ilə üst-üstə düşən Qafqaz damğaları arasında Mərkəzi Asiyadakı işarələrin analoqları da çoxdur. Məsələn, Qunia nəslindən olan abxazların, Kişayevlərin, Şovgenovların** *(abaza)* **və Naxucevlərin** *(kabardin)* **damğaları Orxon-Yenisey işarələrinin eynidir. Belə oxşarlıq Qafqaz əhalisinin Krım, Mərkəzi və Ön Asiya türkləri ilə çoxəsrlik əlaqələrinin nəticəsidir».**[185] Bu fikir kumık alimi Kamil Əliyevin araşdırmalarında da öz təsdiqini tapır. Məsələn, Qafqazın köklü türk xalqlarından olan kumıkların damğalarının  və qaraçayların tayfa-nəsil işarələrinin [186] analoqlarına Dərbənd qala divarında geniş rast gəlinir. Nəticədə, Dərbənd işarələrinin ortaq türk rəmzləri, əlifba qrafemləri, damğaları ilə müqayisəli təhlili bu şəhərin qədim türk etnomədəni məkanına daxil olan yaşayış məntəqəsi olduğunu, onun və müdafiə qurğularının məhz kimlər tərəfindən tikildiyini, ən nəhayət, kimlərin bu regionda dominant etnos olduğunu sübuta yetirir.

Aşağıdakı cədvəldə Dərbənd qala divarlarının daşları üzərində aşkar olunan qədim işarələrin məhz türk simvolizmində semantikası və analoqları verilmişdir. Cədvəllə tanışlıqdan əvvəl bir vacib məqamı da diqqətə çatdırmaq istərdik. İşarələr arasında saka-skif, hun, xəzər, oğuz və qıpçaq damğalarına, Göytürk *(Talas, Orxon, Yenisey)* və qədim uyğur əlifba qrafemlərinə *(Yusif Balasaqunlunun «Kutadqu bilik»* əsərinin *yazıldığı uyğur run* əlifbası*)* rast gəlinməsi ilk növbədə Dərbənd şəhərinin eramızın əvvəlki dövrlərindən etibarən qədim türklərin yaşayış məntəqəsi və istehkam tikilisi olmasını, onun inşası və təmiri ilə bağlı işlərin məhz türk tayfaları tərəfindən aparılmasını təsdiqləyir. Onu da bildirək ki, eramızın əvvəllərində yaradılmış qədim uyğur əlifbası 20 hərfdən – 5 sait və 15 samitdən ibarət olmuş, mətnlər yuxarıdan aşağıya doğru yazılmışdır. Uyğur tarixçisi Turqun Almas Çin yazılı mənbələrinə istinadən bu əlifbanın daha qədim dövrlərə – təqribən eramızdan 300 il əvvələ aid edir.

185 Yenə orada

186 К.Алиев. «Тамга-знаки Дагестана», http://kumukia.ru/article-8986

Cədvəl 12. Dərbənd qala divarlarındakı nişanlar[187] və onların ortaq türk damğaları, rəmzləri, Göytürk, uyğur əlifba işarələri, oğuz və qıpçaq tayfalarının simvolizmi kontekstində identikliyi

№	Dərbənd işarələri	Semantikası	№	Dərbənd işarələri	Semantikası
1		*Tanrıçılıq inancında Tenqri xanın əsas simvollarından sayılır. Onun dörd cəhətə, dörd dünyaya və dörd stixiyaya yönəlmiş hökmünü simvolizə edir. Qobustan, Gəmiqaya, Göyçə, Saymalıtaş, Tamqalıtaş, Sülek və s. qayaüstü rəsmləri arasında təsvirləri vardır. Xristian dini ilə əlaqəsi yoxdur. Müxtəlif tayfaların damğa işarələri ilə birləşdirilmiş tipləri və s. vardır. Dini etiqadından asılı olmayaraq, bütün türk xalqlarının etnik sivolizmində və milli ornamentlərində «xaç», «haça», «aça», «açamay», «sarkay», elşən» və s. adlar altında geniş yayılmışdır. Bir sıra oğuz və qıpçaq tayfalarının, məsələn, «Cami ət-Təvarix» əsərində oğuzların əfşar boyunun damğası kimi göstərilmişdir.*	50		*Damğa adları: «Qaba Ağac», «Dirilik Ağacı», «Töz Ağac», «bayterek», «baytörə», «üstün», «bakan», «başqan», «dirək» və s. «Şəcəreyi-Tərakimə» əsərinə görə, həm də oğuzların salur boyunun damğası olmuşdur. Göytürk yazılı mətnlərində yalnız «iç» (daxili) sözünü bildirmək üçün istifadə edilir. Qədim türk mifik təfəkkürünə əsasən, işarəsi «göyü saxlayan dirək» anlamını verir və Qazaxıstan Respublikasının milli rəmzlərindən biridir. Bəzi mülahizələrə görə, «iç» sözü omonim olaraq «təslim olmaq», «hökmdara tabeçilik», «Tanrıya tapınmaq» anlamlarını verir. «Şəcəreyi-Tərakimə» əsərində oğuzların salur boyunun damğası sayılır. L.Lavrov və işarələri Azərbaycan xalqının etnik damğa işarələrindən biri hesab edir. Xalça naxışlarında tipi də vardır.*
2		*Ən qədim ortaq türk damğalarından biridir. Saka-skif, hun, sarmat, xəzər, avar, Şimali və Cənubi Qafqaz, Anadolu, Krım, Volqaboyu təsnifatında «yay-ox» adlanır. Yay dövlətçilik rəmzi kimi hökmdarı, ox isə vassallığı simvolizə edir. Damğanın kimi variantları da vardır. Saka-skiflərdən etibarən, bütün türk xalqlarının damğa təsnifatlarında nümunələri vardır. «Cami ət-Təvarix» və «Təvarixi əl-Səlcuq» əsərlərinin təsnifatına əsasən, oğuzların üregir boyunun damğasının bir seqmenti yay işarəsidir.*	51		*Mahmud Kaşğarinin təsnifatında oğuzların əfşar boyunun rəmzi kimi göstərilən damğa işarəsidir. Noqay etnoqrafı və maarifçisi Əbdülhəmid Canıbəyov işarəsini «bodrak» adı ilə həm də noqayların kanqlı tayfasına aid edir. Uyğur əlifbasında qrafemi sözün sonunda «s» səsini ifadə edir. Onun digər variantı kumıkların Şauxal (Şamxal) binu Əli (Şamxal Əli oğlu) nəslinin tanınma-fərqləndirmə işarəsidir.*

187 М. Гаджиев. «К выделению и интерпретации зороастрийских символов в знаковой системе Дербента середины VI века». Международная научная конференция «Археология, этнология, фольклористика Кавказа» Сборник кратких содержаний докладов Тбилиси, 25-27 июня 2009

3	✝	*Xristian dinindən xeyli əvvəl qəbul olunan sakral işarədir. Onun kimi çoxsaylı variantları vardır. Damğa təsnifatlarında «Dirilik Ağacı», «Qaba Ağac», «Nəsil Ağacı» mifologemi ilə əlaqələndirilir. Ən qədim damğa işarələrindən sayılır. işarəsinə Midiya, Qərbi Azərbaycan və Yenisey daş kitabələrində, o cümlədən Qafqaz Albaniyasına aid maddi-mədəniyyət nümunələri üzərində geniş rast gəlinir.*	52		*Bu damğanın müxtəlif variantları Mərkəzi Asiya xalqları Polşa-Litva tatarları , Şimali Qafqazdakı qaraçaylar , balkarlar , noqaylar , Kazan tatarları arasında geniş yayılmışdır. Volqaboyu Bulqar dövlətinin, Krım xanlığının, Qızıl Ordanın dövlət rəmzlərindən biri olmuşdur. Ən qədim nümunələri Cənubi Sibirin qayaüstü təsvirlərində, Volqa Bulqar dövlətinin metal pulları üzərində həkk edilmişdir. Azərbaycan xalça ornamentlərində də variantlarına rast gəlinir. Onun variantı qaraçayların laypan tayfasının, işarəsi isə kumıkların tatar nəslinin damğasıdır.*
4	X	*İncə saitli sözlərdə cingiltili «d» samitini ifadə edir. Sözün əvvəlində yazılmır. Qıpçaq kökənli xalqlar arasında damğa işarəsi kimi əsasən «aşamay» (açа May, Humay açası/xaçı) adlanır. «Təvarixi əl-Səlcuq» və «Hünərnamə» əsərlərinə əsasən, oğuzların əfşar, «Cami ət-Təvarix» təsnifatına görə isə kızık boylarının damğasıdır.*	53	Y	*Göytürk əlifbasında cingiltili «l» samitini ifadə edir. Damğa adı: «hənək», «sənək», «durbaş», «ayır» (ikidişli döyüş yabası). Karaimlərin milli rəmzidir. Səfəvi dövlətinin döyüş bayraqlarının başlıqlarında «durbaş» adı altında istifadə olunub. «Şəcəreyi-Tərakimə» əsərində oğuzların Çəbni boyunun damğası kimi göstərilib.*
5	▭	*Əsasən Yenisey abidələrində işlədilir və hər iki işarə «ş» səsini bildir. ▭ işarəsi damğa nişanı kimi «beşik» adlanır.*	54	ϟ	*Göytürk əlifbasında incə əsaslı sözlərdə işlədilir və açıq «ö» və qapalı «ü» saitini bildirir.*
6	ᛉ	*ᛉ işarəsi incə saitli sözlərdə «r» səsini bildirir. Tək halda «ər» kimi oxunur. Sakral rəmz və damğa işarəsi kimi türk xalqlarının yaşadıqları bütün ərazilərdə geniş yayılmışdır və Tenqri xanın simvolu hesab edilir. Damğa işarəsi kimi «ər» adlanır. Tenqri açası ilə birlikdə təsvirlərinə bu gün də Altaylarda, Şimali Qafqazda, Azərbaycanda, Türkiyədə, Krımda, Mərkəzi Asiyada və s. rast gəlinir.*	55		*Damğa işarəsi kimi «yay» adlanır. Əbdülqazi Bahadur xan Xivəlinin «Şəcəreyi-Tərakimə» əsərinə əsasən, oğuzların əfşar tayfasının damğasıdır. Həmin mənbəyə görə, alayuntlu və dodurğa tayfalarının rəmzləri də bu işarəyə bənzəyir. Krımda yaşayan caytamqalı (yaydamğalı), dair, burlak, buyten türk tayfalarının da damğası olmuşdur.*

7		*Əlifbada liqatür işarə kimi «nt» səsini bildirir. Qədim qardaşlaşma, qana and içmək ənənəsini özündə əks etdirən sakral türk damğalarından biridir və «and» adlanır.*	56		*Göytürk əlifbasında «a» saitini bildirir. Orxon mətnlərində bəzən isə şəklində yazılır. Damğa işarəsi və xalça ornamenti kimi «qarmaq», «çəngəl», «qaz boynu», «dəvə boynu» və «it quyruğu» adlanır. «Divani lüğət-it Türk» əsərində işarəsi oğuzların bəydili tayfasının damğalarından biri kimi göstərilib.*
8		*Türk damğaları təsnifatında «Döngələk», «domalaq», «Gün belgisi» (Gün nişanı), «Domalaq ana», «Gün domalaq», «Nurullah», «Sarı baybişe», «Baybike», «Altun top», «Altun alma», «xalxa/halqa» kimi adları vardır. Eyni zamanda, Atillanın damğası kimi tanınır. Bu işarə Səfəvi hökmdarı II Təhmasibin də bayrağını bəzəmişdir. «Şəcərəyi-Tərakimə» əsərində bu işarə həm də oğuzların alkaevli boyuna aid edilmişdir.*	57		*Göytürk əlifbasında burunda tələffüz olunan «ŋ» səsini bildirmək üçün istifadə edilir. Yenisey mətnlərində şəklində də yazılır. «Cami ət-Təvarix» əsərində göstərilir ki, damğanın variantı oğuzların yazır boyunun damğasıdır. «Təvarixi al- i Səlcuq» və «Hünərnamə» isə onun tərs tipini kızık tayfasına aid etmişdir. Həmin işarəyə «kuelqan» adı ilə başqırd damğaları içərisində rast gəlinir. Başqırdıstanın Ufa yaxınlığında yerləşən Çeşmə stansiyası ərazisindəki qədim məzar daşları üzərində orta əsrlərə aid analoji damğa işarəsi aşkar olunmuşdur.*
9		*Qalın əsaslı sözlərdə «ı», incə əsaslı sözlərdə isə «i» saitlərini bildirir. Damğa işarəsi kimi adı: «kösov».*	58		*«Cami ət-Təvarix» əsərində oğuzların karaevli boyunun damğası kimi göstərilmişdir.*
10		*«Hünərnamə» və «Təvarixi al- i Səlcuq» əsərlərindəki damğa təsnifatında işarəsi oğuzların bügdüz boyunun tanınma-fərqləndirmə nişanı kimi göstərilib.*	59		*Yenisey əlifba işarələrində «ŋ» səsini Talas işarələrində isə «nt» səsini, ifadə edir. Damğa nişanı kimi «ama», «abak» adlanır və qadın başlanğıcını - Yaranışı, Ana bətnini bildirir.*
11		*«Şəcərəyi-Tərakimə» əsərinə əsasən, oğuzların dögər boyunun damğası sayılır. Azərbaycan xalça ornamentləri sırasında «daraq» adlanır.*	60		*«Təvarixi al- i Səlcuq» və «Hünərnamə» əsərlərindəki damğa təsnifatlarında bu işarənin oğuzların yaparlı boyuna məxsus olması bildirilir.*
12		*Həm Orxon, həm də Yenisey kitabələrində incə saitli sözlərdə kipləşən kar «t» samitini bildirən işarələrdəndir.*	61		*Göytürk yazılı abidələrində cingiltili «l» samitini ifadə edir. Damğa adı: «qarmaq».*

13	ʃ	*Kipləşən qoşadodaq cingiltili «b» samitini bildirir. Damğa işarəsi və xalça ornamenti kimi «qarmaq» adlanır.*	62	1	*Kipləşən, qoşadodaq kar «r» samitini bildirir. Damğa adı: «kösöv». Qədim uyğur əlifbasında* ᛏ *qrafeminin bənzəridir.*
14	#	*«Ocaq» anlamı verən damğa həm Krımın qıpçaq tayfalarında, həm də oğuzların alayuntlu boyunda (Əbdülqazi Bahadur xanın təsnifatında) vardır. Gəmiqaya, Qərbi Azərbaycan qayaüstü təsvirlərində rast gəlinir Azərbaycan xalça ornamenti kimi bu gün də istifadə olunur.*	63	‖	*Damğa adı: «ikipıçak» (iki bıçaq), «qoşa süngü», «qıpçaq» olan bu işarə iki və daha çox tayfanın birliyini ifadə edir. Mərkəzi Asiyanın qıpçaq kökənli tayfaları arasında geniş yayılmışdır. «Şəcəreyi-Tərakimə» əsərində* ‖ *oğuzların karkın boyunun damğası olaraq göstərilib.*
15	ᛦ	*Damğa işarəsi kimi «ot» adlanır. Mərkəzi Asiyanın, Azərbaycanın xalça ornamentlərində bu gün də qalmaqdadır. «Quyruqlu ay» damğa işarəsinin* Y *tərs formasıdır.*	64	∩	*Damğa işarəsi kimi «nal» adlanır. Mərkəzi Asiya, Şərqi Sibirin türk kökənli tayfaları arasında geniş yayılmışdır.*
16	ᛗ	*Uyğur əlifbasında («Kutadqu-bilik»)* ᛗ *«d», «t» səslərini bildirir. Bu işarənin bənzərlərinə Xınalıq yazılı daşlarında da təsadüf olunur.*	65	ᛣ	*Ənənəvi hun damğalarından hesab olunur. V.Flerovanın xəzər damğaları təsnifatında da təsvirləri verilmişdir. Qazax tayfalarının nəsil nişanlarında da rast gəlinir.*
17	ᛣ ᛣ	*Şimali və Cənubi Qafqazda, o cümlədən Qafqaz Albaniyasında, Mərkəzi Asiyada, Volqaboyunda geniş yayılmış bu işarə «alban» adlanır. Xristian dini ilə əlaqəsi yoxdur. Hunların dulo tayfa ittifaqına daxil olmuş iri nəsillərdən birinin - suvarların damğa nişanlarındandır. Tenqri xan* + *və Günəş* O *rəmzlərinin birliyini ifadə edir. Dərbənd işarələri arasında onun* ᛣ *variantına da rast gəlinir.*	66	ᛘ	*Damğa işarəsi kimi ilkin semantikası «ikiağızlı balta», «baltavar» olmuş, islam dininin türkdilli xalqlar arasında geniş yayılmasından sonra semantikası «qazan» kimi yozulmuşdur. Yazıçıoğlu Əlinin «Təvarixi al- i Səlcuq» əsərindəki təsnifatda oğuzların alkaevli boyunun damğası kimi göstərilir. Bulqarların, Krım tatarlarının, noqayların tayfa-nəsil rəmzlərində də təsadüf olunur. Mərkəzi Asiyada «toskur» (təknə) adlanır.*
18	ᚹ ᚹ	*Təkağızlı baltaya bənzəyən işarə qədim türklərin hakimiyyət, dövlətçilik rəmzlərindən biri sayılıb. Damğa işarəsi kimi «balta» adlanır. Azərbaycanda, o cümlədən Qərbi Azərbaycanda baltalı tayfası ilə bağlı etnonimlər vardır. Bu damğa qazaxların baltalı tayfasının da rəmzidir.*	67	∿	*İlkin damğa adı «qarmaq» olan işarə həm də «axar su» adı ilə Azərbaycan etnik xalça ornamentlərində qalmaqdadır. «Şəcəreyi-Tərakimə» əsərində bu damğanın oğuzun iqdır və kızık boylarına aid oduğu bildirilir.*
19	▯	*Damğa işarəsi kimi «eşik» adlanır və «qapı» anlamını verir.*	68	ᚲ	*Damğa adı: «çömçə». Mərkəzi Asiyada, Volqaboyunda və Krımda «çemiş» adı ilə yayılmışdır.*

20		*«Təvarixi əl-Səlcuq» və «Hünərnamə» əsərlərinə əsasən, oğuzların bəydili boyunun damğasıdır. Semantikası müxtəlifdir. İkiağızlı yandırıcı ox dəmrəsinə, Ayparaya da bənzədilir. Mərkəzi Asiyada və Qafqazda «quyruqlu Ay», Altaylarda «kayekelü Ay» (hörüklü Ay) da adlandırılır. «Cami ət-Təvarix» əsərində onun digər forması oğuzların biçene boyunun tanınma-fərqləndirmə nişanı kimi göstərilib. Pazırıq kurqanlarında müəyyən edilən qədim damğalardandır.*	*69*		*Qafqaz Albaniyasını türk xalqlarına bağlayan etnik işarələrdən biridir. Damğa adı: «sırğa». «Şəcərəyi-Tərakimə» əsərində oğuzların bayat boyunun damğası kimi göstərilmişdir. Qazaxların alban (alban-suan, alban-suvar) tayfasının damğalarından biri.*
21		*Kumıkların Krım-şamxal nəslinin də damğası hesab olunur. Midiya, Azərbaycan və Mərkəzi Asiya damğaları içərisində də rast gəlinir.*	*70*		*Mahmud Kaşğarinin «Divani lüğət-it-Türk» əsərinə görə, oğuzların iqdır boyunun damğasıdır. Qazaxların Böyük juzuna (birliyinə) daxil olan kanlı tayfasının şılbır nəslinin də damğası sayılır.*
22		*Qobustan, Gəmiqaya və Baykal gölünün şimalındakı Subuktuy qayaüstü təsvirlərində, Midiya dövlətinə aid maddi-mədəniyyət nümunələrində, sasani və sarmat damğaları arasında rast gəlinir. Damğa semantikası «ev» kimi yozulur və «məskunlaşma» bildirir. işarəsi Altaylarda «suluk keyegelü» (hörüklü yüyən) adlanır.*	*71*		*Əlifbada hər üç işarə kipləşən dilarxası kar «k» samitini (məsələn, «kul», «kız» sözlərində olduğu kimi) bildirir. və ya işarəsi tək halda «ok» kimi oxunur. Damğa işarəsi kimi adı: «ox». Eyni zamanda, işarəsi «Təvarixi al- i Səlcuq» və «Hünərnamə» əsərlərinə əsasən, oğuzların bayat, «Cami ət-Təvarix» təsnifatına görə, kınık boylarının damğasıdır.*
23		*Damğa adı: «oraq» və «kuyruktu Ay» (quyruqlu Ay). «Cami ət-Təvarix» əsərindəki təsnifatda işarəsi oğuzların salur boyunun damğasıdır.*	*72*		*Damğa adı: «yuyən» (suluk), «qoşa göz» olan bu işarənin prototipi Pazırıq kurqanlarında müəyyən edilmişdir. Noqoyların mayjenli və mingkuba tayfalarının rəmzidir.*
24		*Əlifba işarəsi kimi dilortası cingiltili «u» samitini ifadə edir. Damğa işarəsi olaraq həm «Ay» (səma cismi), həm də «yay» (atıcı silah) adlanır. Mərkəzi Asiyada və Altaylarda «Aydınq sekiz yanqızı» (səkkizinci günün Ayı» da adlanır.*	*73*		*Göytürk əlifbasında kar «ç» səsini göstərmək üçün istifadə edilir.Onun bərabərtərəfli formasına ortaq türk damğa işarələri arasında rast gəlinir. «Cami ət-Təvarix» əsərində bu damğa oğuzların Çəbni boyunun rəmzi kimi göstərilib.*

25		*Şimali Qafqazda yaşayan qaraçayların «botaş» nəslinin damğasıdır. Azərbaycan xalqının etnik damğa nişanları arasında da vardır.*	*74*		*Mərkəzi Asiyada damğa adı: «bosaqa», «qapı çatısı» (çərçivəsi) anlamında işlədilir.*
26		*«Şəcəreyi-Tərakimə» əsərində oğuzların yaparlı boyunun damğası kimi təsnif olunub. Qoç buynuzunu simvolizə edən işarələrdəndir. Onun variantı da vardır. Altaydakı türk xalqlarının damğa təsnifatında bu işarə həm də «çorqo» (turşumuş süddən araq çəkmək üçün mis boru) adlanır.*	*75*		*Qədim türk yazılı abidələrində qalın saitli sözlərdə kipləşən kar «t» samitini ifadə etmək üçün işlədilir. Damğa işarəsi kimi «atlı» adlanır. Aşağı bucaq atın yəharini, yuxarıdakı isə atlının ayaqlarını sivolizə edir. işarəsi həm də kumukların candar tayfasının damğasıdır. «Divani lüğət-it Türk» əsərində «beşik» və «atlı» damğaları birlikdə oğuzların karaevli boyunun tanınma-fərqləndirmə nişanı kimi göstərilib.*
27		*Solyar rəmzdir. Əski türk simvolizmində Günəşi, Tenqri xanı, ikibaşlı qartalı simvolizə edir. Qədim nümunələrinə saka-skif (Pazırıq kurqanları) maddi-mədəniyyət nümunələrində, Qobustan, Gəmiqaya, Qərbi Azərbaycan qayaüstü təsvirlərində, ortaq türk xalçaçılıq sənətinin «göl» motivində, dövlət rəmzlərində və damğalarında rast gəlinir.*	*76*		*Qədim türklərin dövlətçilik rəmzlərindəndir. «Baltavar», «xan damğası», «daraq damğa» kimi adları vardır. İkili semantikaya malikdir. Əsasən, vassallığı simvolizə edir. Krım xanlıqlarının, Qızıl Ordadan asılı vəziyyətdə olan rus knyazlıqlarının rəmzi olmuşdur. Bu anlamda Şimali Qafqaz, Volqaboyu xalqlarında yayılmışdır. İkinci yozumu isə «ikibaşlı qartalı» təcəssüm etməsidir. Dini və dünyəvi hakimiyyətlərin birliyini göstərir.*
28		*«Aybulat» damğasının variantlarından sayılır. «Novruz damğası» da deyilir. Qafqaz Albaniyasının dövlət rəmzlərindən biridir.*	*77*		*Anadoluda əfşarlara və Harmandalı obasına aid nəsillərin damğalarındandır.*
29		*Uyğur əlifbasında («Kutadqu-bilik») sözün əvvəlində gələn «z» səsini bildirir. Damğa işarəsi kimi adları: «qoç», «koç müyüz», «kuldya» (qoç buynuzu).*	*78*		*İşarənin forması Uyğur əlifbasında («Kutadqu-bilik») sözün əvvəlində işlədilən «s» səsini ifadə edir.*

30		*Ən qədim variantlarına Midiya dövləti rəmzləri içərisində rast gəlinir. Konstruktiv baxımdan oğuzların çəbni boyunun damğa işarəsinə bənzəyir («Divani lüğət-it Türk»). Göytürk mətnlərində (z) işarəsinin (Talas, Yenisey) və (ğ) qrafeminin (Talas) variantları kimi istifadə olunub. Altay, Xəzər, Polşa-Litva tatarları və Azərbaycan xalçaçılıq sənətində geniş yayılan ornamentlərdəndir.*	*79*		*Damğa adı: «qaz ayağı». Eyni zamanda, rəmz olaraq onqon yırtıcı quşların (şahin, qartal, bozdoğan, ağbaba və s.) caynaqlarının təsviri kimi qəbul edilir. Oğuz tayfalarının damğaları içərisində fərqli variantları vardır. Onun yuxarıya yönələn tipi Qərbi Azərbaycan qayaüstü təsvirlərində yer almışdır. Oğuzların salur, biçene tayflarının damğaları, hun və macar rəmzləri içərisində də rast gəlinir.*
31		*Damğa adı: «göz» (gözlər). Mərkəzi Asiya və Krım tatarlarının arqın (arqun) və altın tayfalarına aid nəsillərin damğasıdır.*	*80*		*Göytürk əlifbasında cingiltili «u» saitini bildirir. Damğa qismində «qarmaq» işarəsinin bir variantıdır.*
32		*Damağa adı: «təkər». Ön və Mərkəzi Asiyada, Şərqi Avropada, Altaylarda geniş yayılmışdır. Tenqri-Günəş rəmzlərindən olan dairənin və açanın (xaçın) birləşməsindən yarandığı bildirilir. Rəmzin digər yozumuna əsasən, yenə də Günəşi təcəssüm etdirən «çərxi-fələk» işarəsinin qrafik variantlarındandır -*	*81*		*Bu qrafem Göytürk əlifbasında kipləşən sonor «n» samitini ifadə etmək üçün işlədilir. Damğa işarəsi kimi «yay» adlanır.*
33		*Mərkəzi Asiyada damğa adı: «botagözü» (köşək gözü). Nəzərlik kimi türk xalqlarının xalçaçılıq sənətində geniş tətbiq edilir.*	*82*		*Şimali Qafqazda yaşayan qaraçayların «kosxar» (qoçqar, qoşqar), tülpar, semen nəsillərinin damğası. Azərbaycan qayaüstü təsvirlərində işarənin variantına da rast gəlinir.*

34		*Damğa işarəsi kimi semantikası «alaçıq qapısı» şəklində izah edilir. «Bucaq» adı ilə də tanınır. Dərbənd işarələri arasında variantları da vardır. Orxon və Yenisey mətnlərində açıq «o» və qapalı «u» saitlərini ifadə edir. Uyğur əlifbasında («Kutadqu-bilik») sözün əvvəlində işlədilən «i» səsini ifadə edir. Mahmud Kaşğarinin təsnifatında qoşa variantı oğuzların dodurğa tayfasının damğasıdır.*	*83*		*Dilarxası kar «k» samiti. Yalnız «ı» saiti ilə qonşuluqda işlədilir. Onun variantı damğa təsnifatında Humay Ananın sakral rəmzi kimi «bitik», «tumar», «nəzərlik duası» adlarını daşıyır. Azərbaycan xalçaçılıq sənətində işarəyə «nəzərlik» deyilir. Mərkəzi Asiya və Altaylarda bir adı da «üç tolukdur». Damğanın variantı isə «qalxan» adlanır. Antik müəlliflərin əsərlərində Qafqaz Albaniyası atlı döyüşçülərinin üçkünc qalxanla silahlandıqları bildirilir. Eyni tipli müdafiə vasitəsi ilkin orta əsrlərdə Mərkəzi Asiyada da yayılmışdı.*
35		*Damğa adı: «Barxan». Mərkəzi Asiya, Azərbaycan, o cümlədən Qafqaz Albaniyasının maddi-mədəniyyət nümunələri arasında rast gəlinir. «Məskunlaşma», «binə salma» kimi izah olunur. Oğuzların dögər boyunun damğası ilə eyni semantikaya malikdir. «Yurd salmaq», «çadır (alaçıq qurmaq», «məskunlaşmaq» anlamını verən bu damğa işarələri Mərkəzi Asiyada «barxan» adlanır.*	*84*		*Damğa adları: «çəkic», «kərki», «təbər», «sakar» (ikiağızlı saka-skif baltası). Mərkəzi Asiyanın, Şimali Qafqazın və Krımın qıpçaq tayfaları arasında daha çox yayılmışdır. «Təvarixi al- i Səlcuq» əsərinə əsasən, oğuzların çəbni tayfasının damğası olmuşdur. Noqayların toymas və saray tayfalarının da rəmzidir.*
36		*Göytürk mətnlərində qalın samitli sözlərdə sonor «r» samitini ifadə edir. Tək halda «ar» kimi oxunur. Altaylarda damğa işarəsi kimi «teqelü sarkay» (qarmaqlı xaç) adlanır.*	*85*		*Kipləşən dilortası «k» samitini (kitab, kök, kəmər) bildirir. Mərkəzi Asiyada, Volqaboyunda damğa adı: «kuray» (qarğı ney)*
37		*Qıpçaq kökənli xalqlar bu damğa işarəsini «Ay yürektü» (ürəkli Ay) adlandırırlar.*	*86*		*«Təvarixi al- i Səlcuq» əsərinə görə, oğuzun bügdüz tayfasının damğasıdır.*
38		*Qazaxların baybaktı tayfasına məxsus işarədir. «Kutadqu-bilik» mətninin yazıldığı uyğur əlifbasında işarəsi «n» səsini bildirir. Damğa adı: «barmaq».*	*87*		*Mərkəzi Asiyada qazaxların «suan» (suvar) tayfasına aid edilir. Uyğur əlifbasında («Kutadqu-bilik») sözün əvvəlində işlədilən «ö», «o» səslərini bildirmək üçün istifadə edilir.*
39		*Uyğur əlifbasında («Kutadqu-bilik») sözün sonunda işlədilən «g», «k» səslərini ifadə edir.*	*88*		*Kipləşən, dilortası cingiltili «g» samitini ifadə edir. Damğa adı «ney» və ya «kuray».*

40		*Göytürk əlifbasında cingiltili «z» samitini bildirir. Qədim solyar rəmzdir. Damğa işarələrində variantları «öz/oz damğası», «qaz tapiyi», «sarman», «çərxi-fələk», «şəms-gərdan» və s. adlanır.*	*89*		*Damğa adı: «qılınc». «Şəcəreyi-Tərakimə» əsərində oğuzların yıva boyunun damğası kimi göstərilmişdir. Bəzi hallarda «ilan damğa» da adlanır. Uyğur əlifbasında qrafemi «a» səsini bildirir.*
41		*Mahmud Kaşğarinin təsnifatına görə, oğuzların eymür, Əbülqazi Bahadur xanın «Şəcəreyi-Tərakimə» əsərinə əsasən isə bəgdili boylarının damğası. Uyğur əlifbasında («Kutadqu-bilik») sözün əvvəlində gələn «d», «t» səslərini bildirir.*	*90*		*E.Triyarskinin təsnifatına əsasən, ən qədim türk damğalarından sayılır. Müxtəlif semantik yozumlara malikdir. Əsasən, Günəşin və Ayın vəhdətini simvolizə edir. Hazırda «Ay-ulduz» kimi tanınır. Eramızın VI-VII əsrlərinə aid Göytürk sikkəsi üzərində də həkk olunmuşdur.*
42		*Qədim türk damğalarından biri sayılır. Qazaxların nayman, qarakirey tayfalarına aid tanınma-fərqləndirmə işarəsidir. Tipik hun damğalarından biri sayılır. Altaylarda «kulya» (qoç buynuzu) da adlanır. Qərbi Azərbaycan qayaüstü rəsmlərində təsvirləri vardır.*	*91*		*E.Triyarskiyə görə, Altay kökənli türk damğasıdır. Baza siqmentləri Mərkəzi Asiyada «quyruqlu ay» adlanır. Türk xalqlarında onun variantı da vardır.*
43		*«Şəcəreyi-Tərakimə» əsərindəki təsnifatda işarəsi oğuzların çuvuldur boyunun damğası kimi göstərilmişdir. «Ay» və ya «yay» damğasının bir variantı olsa da, bəzən «təknə», «qayıq» da adlandırılır. Yenisey işarələrində qalın saitli sözlərdə «b» səsini bildirən qrafemlərdən biridir.*	*92*		*Mərkəzi Asiyada «yürekli toskur» (ürəkli təknə) adlanan bu işarə Azərbaycanın milli xalça ornamentləri sırasında «dəvə» kimi də tanınır. Çünki xarici görünüşünə görə bu işarə yüklü dəvəni xatırladır. Damğanın şaquli variantı Türkiyənin Karacabey ilçəsindəki Yumrucaqlu kəndində aşkar olunmuşdur. Oğuzların bayandur boyunun damğası kimi göstərilmişdir.*
44		*Uyğur əlifbasında («Kutadqu-bilik») sözün sonunda işlədilən «o» və «ö» səslərini bildirir.*	*93*		*Göytürk əlifbasında işarəsinin bənzəridir. Cingiltili «b» səsi kimi oxunur. «Ev» anlamını verən damğa işarəsidir.*
45		*İşarənin variantı türk damğaları təsnifatında Krım tatarlarının qıpçaq tayfasına məxsus tanınma-fərqləndirmə nişanıdır. Hun, xəzər, Azərbaycan, qaraçay, noqay rəmzləri içərisində onun variantları da vardır.*	*94*		*Mərkəzi Asiyada «kol/qol damğa» adı ilə tanınır. Tanınma-fərqləndirmə nişanı kimi qazaxların Böyük Juzuna (tayfa birliyinə) daxil olan şanışkılı tayfasının damğasıdır.*

46	✡	*İudaizmin Xəzər dövlətinə nüfuz etdiyi dönəmlərdə Qafqaz və Cənubi Qafqazda rəmz və damğa kimi geniş yayılmışdır. İslam simvolizmində sakral rəmzdir və «möhrü-Süleyman» adlanır. Bu rəmz türk admiralı Xeyrəddin Barbarossanın döyüş bayrağında, Azərbaycan və Türkiyənin bir sıra məscidlərinin divarlarında da əks edilmişdir. O.Akçokraklının təsnifatına görə, Krım tatarlarının damğa nişanlarından biri sayılır.*	*95*	IYI IVI	*Qərb mənbələrində «iki sütunlu ipsilon» (yunan əlifbasında hərf) adlanır. İşarəyə təkcə Dərbənd və Xumara şəhərlərində deyil, Azərbaycanın, o cümlədən Qərbi Azərbaycanın, Türkiyənin, maddi-mədəniyyət nümunələrində də rast gəlinir. Mahmud Kaşğarinin «Divani lüğət-it Türk» əsərinə əsasən, oğuzların qayı boyunun IVI damğasıdır.*
47	Iu	*İşarənin Ih qrafik forması uyğur əlifbasında («Kutadqu-bilik») sözün sonunda işlədilən «n» səsini ifadə edir.*	*96*	∽	*«Cami ət-Təvarix» əsərində oğuzların bəydili tayfasının rəmzi kimi göstərilmişdir.*
48	t t	*Uyğur əlifbasında («Kutadqu-bilik») sözün əvvəlində işlədilən t işarəsi «l» səsini bildirir.*	*97*	X	*Damğa adı «quşqun» (atın quyruğunun altından bağlanan yəhər qayışı. Onun X variantı «sınıq sənək» (ikidişli nizə) adlanır.*
49	U	*Uyğur əlifbasında («Kutadqu-bilik») sözün əvvəlində işlədilən U işarəsi «g» və «k» səslərini ifadə edir.*	*98*	∞	*Qədim türklərin «and» damğasının variantlarından biri. Tyan-Şan dağlarının Koçkor vadisindəki saka-skif qayaüstü işarələri içərisində (e.ə. I minillik) yer almışdır.*

Cədvəlin tərtibində aşağıdakı mənbələrdən istifadə olunmuşdur.[188]

«Dərbənd» və «Dəmirqapı» toponimlərinə gəldikdə isə onların hansının əvvəl, hansının isə sonra yaranması hələ də mübahisə obyektidir. Polemikaya fəal qoşulmasaq da, bəzi məntiqsizliklərə müəyyən aydınlıq gətirilməsinə zərurət göz qabağındadır. Xatırladaq ki, eramızdan əvvəl VI əsrdə yaşamış antik müəlliflər Midiya dövlətinin_sərhədlərini təsvir edərkən onun şimalında «Kaspi qapısı» adlı keçidin olduğunu bildirmişlər. Sonralar ayrı-

188 М. Гаджиев. «К выделению и интерпретации зороастрийских символов в знаковой системе Дербента середины VI века». Международная научная конференция «Археология, этнология, фольклористика Кавказа» Сборник кратких содержаний докладов Тбилиси, 25-27 июня 2009; К.Алиев. «Тамга-знаки Дагестана», http://kumukia.ru/article-8986; В.Флерова. «Граффити Хазарии», изд. Эдториал УРСС, 1997; Л.Лавров. «Историко-этнографические очерки Кавказа», Наука, 1978; М.Әхмәтжанов. «Нугай Урдасы: татар халкынын тарихи мирасы», Казан, «Мягариф», 2002. А.Родожинский, «Мы, нижеприлежившие истинные тамги…» (опыт иденфикации родоплеменных знаков казахов Старшего жуза)// «роль номадов в формировании культурного наследия Казахыстана, Алматы, 2010. Ж.Войников. «Алано-древнеболгарское письмо/некоторые протоболгарские символы», http://iriston.com/books/ALANO-DR-BOLG-PISMO/AL-PBG-P-SADRZANIE.htm; Г.Ф. Турчанинов. «Памятники письменности и языка народов Северного Кавказа и Восточной Европы», 1971; С. Байчоров. «Древнетюркские рунические памятники Европы». Ставрополь, 1989

ayrı salnaməçilər bu keçiddən danışarkən «Xəzər qapısı», «Alban qapısı», «Hun keçidi», «Qafqaz qapısı» kimi adlar işlətmişlər. Bu şəhərin adını və qala divarlarının inşaasını sasani hökmdarı I Xosrov Ənuşirəvanın eramızın VI əsrində Qafqaza yürüşü ilə əlaqələndirənlər, məsələn, Rusiya Elmlər Akademiyası Dağıstan Elm Mərkəzinin Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun işçisi İqor Semyonov, [189] yəqin ki, bu suala cavab verməkdə çətinlik cəkməzlər. Belə ki, qədim yaşayış məntəqəsi kimi Dərbəndin tarixinin 5 min il olması barədə iddialara baxmayaraq, şəhər kimi onun təqribən 2500 il yaşı vardır. Yəni onun təməli təxminən eramızdan 450 il əvvəl qoyulmuş və sasanilər orta hesabla min il sonra bu şəhəri ələ keçirmişlər. Elə isə onda həmin min il ərzində bu şəhərin adı nə olmuşdur? İkincisi, əgər rəsmi tarixşünaslıqda bildirildiyi kimi, **«sasani şahları öz imperiyalarını köçəri hunlardan, sonrakı dövrlərdə isə xəzərlərdən qorumaq üçün Dərbənd şəhərinə və onun strateji əhəmiyyətinə xüsusi diqqət verir və II Yezdəgirdin hakimiyyəti dövründə Beşbarmaq dağının zirvəsində müdafiə əhəmiyyətli ilk istehkamın (Beşbarmaq səddinin) inşasını həyata keçirmişdilərsə»** nə üçün Dərbənd qala divarlarının və Beşbarmaq tikililərinin hörgü daşları üzərində sasani rəmzlərinin bir nümunəsi də yoxdur? Əvəzində isə yüzlərlə hun, xəzər və digər türk dayfalarının etnik damğa işarələri həkk edilmişdir?!

Eramızın VIII əsrinin birinci yarısında İkinci Türk Xaqanlığının görkəmli hərbi-siyasi xadimlərindən olan Tonyukuka həsr olunmuş daş kitabələrdə *(725/726)* də «Temir Kapığ» ifadəsinə rast gəlinir. Bundan başqa, Bilgə xaqan *(683/4-734)* abidəsində də müdafiə səddi anlamında «Temir Kapığ» ifasinə təsadüf olunur: «**Temir Kapığka təgi konturmuş. İki ara idi oksuz ili ança olur etmiş».**[190] Bu mətnin sadələşdirilmiş yozumu belədir: «Dəmir Qapıya, iki müdafiə səddi (divarları) arasındakı ərazidə (Bilgə xaqan) oxsuz (oxlara bölünməyən, tayfalara parçalanmayan) xalqı yerləşdirmişdir». Əski türk dillərində hərbi termin olan və «keçilməz yer», «qorunan keçid» anlamını verən bu ifadə «Dəmir Qapı», «Temir Kapïğ», «Vaskapu», «Dömörkapu» kimi toponimlər şəklində Mərkəzi və Ön Asiyada, Şərqi Avropada da qalmaqdadır. Tədqiqatçıların qənaətinə görə, ən məşhur «dəmir qapı» Amudərya və Sirdərya çayları arasında yerləşən bölgədə – Baysuntau dağında, Səmərqənd-Termez yolu üzərindəki dar keçid olmuşdur. Buradakı kəndlərdən biri isə «Dərbənd» adlanır.

189 И.Семенов. «Сасаниды и строительство Дербентского оборонительного комплекса», http://www.gumilev-center.az/sasanidy-i-stroitelstvo-derbentskogo-oboronitelnogo-kompleksa/

190 Ə.Rəcəbli. «Qədim türk yazısı abidələri», 1-ci cild. Bakı, 2009

Mərkəzi Asiyada digər «dəmir qapı» Bəlx şəhərini Səmərqəndlə bağlayan, eni 12-14 metr, uzunluğu isə 3 kilometrə çatan ensiz keçiddir. Türklərin məskunlaşdıqları başqa bir ərazidə - Şimali Karpat dağlarında, Dunay çayının keçdiyi boğazlardan biri də «Dəmir qapı» kimi tanınmaqdadır. Macarıstan Elmlər Akademiyasının professoru, tanınmış altayşünas İmre Baski Qafqazdakı «Dəmir qapı» toponiminin Dərbənd şəhərinin ilkin adlarından olmasına əmindir və bu toponim ilk dövrlərdə təkcə şəhəri deyil, onun yaxınlığında strateji xarakter daşıyan keçidi də əhatə etmişdir. Belə ki, türk xalqları (hunlar, avarlar, xəzərlər) qədim advermə tərzlərini Qafqazda da tətbiq etmiş, Mərkəzi Asiyadakı strateji keçidlərin analoqunu bu regionda da tapmış, onu «Dəmir qapı» adlandırmışlar. Müəllif «Kitabi-Dədə Korqud» eposundakı **«Dəmir qapı Dərbənddəki dəmir qapını təpip alan Kıyan Səlcuq»** ifadəsini misal çəkərək, ikinci «dəmir qapı» sözlərinin şəhərə deyil, məhz Xəzər dənizi və Qafqaz dağları arasındakı dar keçidə aid olduğunu bildirir. İ.Baski türklərin regiondakı qədim müdafiə səddini Dərbənd və onun ətrafları ilə məhdudlaşdırmır, onun mürəkkəb sistem olaraq, Azərbaycanın şimal bölgələrini də əhatə etməsindən əmindir. Alim yazır: **«Təbii ki, qapının olduğu yerdə möhkəm divarların və ya hər hansı bir barmaqlığın mövcudluğu vacibdir. Bu, belə də olmuşdur! Təqribən 508-ci ildə «Beş barmaq» adlanan yerdən daş və bişmiş kərpicdən divarın inşaasına başlanılmışdır. Bu sədd şimala doğru 3650 metr, cənub istiqamətinə isə 3500 metr uzanırdı. Bir-birindən 350-450 metr aralıda olan bu iki paralel divar Xəzər dənizinin hüdudlarınadək davam etmişdir».**[191] Burada maraq doğuran və tədqiqatçının qənaətini təsdiqləyən məqamlardan biri Dərbənd qala divarlarındakı işarələrlə Beşbarmaq dağındakı damğaların *(L.Lavrovun təsnifatı)* identikliyidir. Bundan başqa, İmre Baski araşdırmalar nəticəsində türk xalqlarının tarixən məskunlaşdıqları ərazilərdə – Mərkəzi Asiyada, Qafqazda, Azərbaycanda, Türkiyədə, Macarıstanda, Makedoniyada ensiz keçidlər, möhkəm müdafiə sədləri ilə bağlı olan və sonralar yaşayış məntəqələrinə çevrilən 30-dan çox «Dəmirqapı», «Dəmirqapıy», «Dömirqaı» və macar dilinə kalka şəklində tərcümə olunmuş «Vaskapu» toponimini də müəyyən etmişdir.

191 I. Baski. **"Demirkapilar (Temir Qapïğ, Vaskapu, Dömörkapu)", makale I. Uluslararası Türk Dünyası Kültür Kurultayı** (9-15 Nisan 2006 Çeşme-İzmir)'nda bildiri olarak sunulmuştur, http://www.turkishstudies.net/Makaleler/1415210500_baskiimre.pdf

Nəticə əvəzi

Adətən, hər hansı bir mövzuya həsr olunmuş kitab nəticə ilə tamamlanır. Burada qaldırılan məsələlərin əhəmiyyəti, araşdırma metodları, müəllifin əldə etdiyi qənaət və təklifləri yer alır. Amma biz mövzuya nöqtə vurmaq iddiasından çox uzağıq. Çünki məqsədimiz etnik damğa işarələrinin öyrənilməsinin vacibliyi məsələsini aktuallaşdırmaq və türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin etnogenezi, tarixi, etnik mədəniyyəti, dövlətçilik ənənələri, əski inancları, mifoloji təfəkkürü və estetik baxışları və s. ilə üzvi şəkildə əlaqəli olan bu mövzunu gündəmə gətirmək və saxlamaqdır. Və sizə təqdim olunan bu kitab həmin mövzunun ictimai rəydə aprobasiyasıdır. Hazırda onun daha da genişləndirilmiş variantı üzərində işlər davam etdirilir. Burada digər məlumatlarla yanaşı xristian simvolizmində yer almış ortaq türk damğa işarələri, erməni-qriqorian kilsəsində «xaçkar», «kaçkar» kimi təqdim olunan, əslində isə Mərkəzi Asiyadan Şərqi Avropaya, Ural dağlarından Cənubi Qafqaza, Anadoluya, Cənubi Azərbaycana kimi nəhəng bir coğrafi ərazidə geniş yayılan, ayrı-ayrı türk xalqlarında «koçkar», «kaçkar», «qoçkar», «qoşqar», «koçkarok», «koçmüyüz», «aşamay», «yoncalı xaç», «elşən», «sarkay» və s. adlarla tanınan bərabərtərəfli Tanrı *(Tenqri xan)* rəmzi, Avropada «Georgi xaçı», «Malta xaçı» kimi yayılan hun işarəsi, rus tarixşünaslığının türk etnik nişanlarını özününküləşdirmə səyləri arxasında dayanan siyasi iddiaları, Qafqaz Albaniyası əlifbası qrafemlərinin etnik mənşəyi, ermənilərin Midiya, Manna, saka-skif, massaget, hun, xəzər maddi-mədəni irsini, səlcuqların, məmlüklərin, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi xanədanlarının dövlətçilik rəmzlərini mənimsəmə cəhdləri, erməni kilsə tarixində açıq saxtakarlıq elementləri… ilə bağlı materiallar imkan daxilində öz əksini tapacaqdır.

Britaniya tarixçisi və filosofu Tomas Karleyl deyirdi: **«O xalq xoşbəxtdir ki, onun tarix kitabının bir hissəsi öyrənilməyib».** Bu baxımdan türk xalqları ikiqat «xoşbəxt» və «bəxtəvərdirlər». Çünki onların etnik tarix kitabının çox hissəsinin qatı hələ də açılmayıb. Azərbaycanda, Türkiyədə, Qazaxıstanda, Qırğızıstanda, Krımda, Tatarıstanda, Başqırdıstanda, Şimali Qafqazda və s. etnik damğa işarələrinə həsr olunmuş materiallarda bu təsvirlərə, bir qayda olaraq, məhdud etnomədəni irs müstəvisindən yanaşılır, bu ərazidəki ayrı-ayrı nəsil və tayfaların tanınma-fərqləndirmə nişanları milli ornamentlərin prototipləri,

ən yaxşı halda isə ilkin dövlətçilik rəmzləri kimi səciyyələndirilir. Lakin indiki şərait tamamilə fərqli yanaşma tərzi tələb edir. Məhz müasir dövrdə cərəyan edən geosiyasi və etnosiyasi proseslər konkret regionda etnik mövcudluğun qədimliyinin təsdiqlənməsi üçün saxtalaşdırılması mümkün olmayan şəhadətnamələrin - damğa işarələrinin əhəmiyyətini nəzərəçarpacaq dərəcədə artırır. Yəni hər hansı bir ərazidəki qədim qayaüstü təsvirlər, tikililər və maddi-mədəni irs nümunələri üzərindəki damğaların lokal milli maraqlar çərçivəsindən çıxarılması, vahid və ortaq irs, ümumtürk dəyərləri kontekstində öyrənilməsi, təqdim və təbliğ edilməsi türk xalqları arasında inteqrasiyanın, mədəni-mənəvi birliyin yaranmasında da əhəmiyyət daşıdığını önə çəkir. Tədqiqatlar göstərir ki, bu gün damğa işarələri unudulmuş artefakt sayılsa da, əslində, təkcə bir xalqın deyil, etnosiyasi maraqlar çərçivəsində «türkdilli xalqlar» kimi təqdim olunan böyük və vahid subetnosun birliyinin təcəssümlərindən, rəmzlərindən, tarixi təsdiqlərindən biridir. Damğa işarələri «Turan» anlayışını coğrafi məkan hüdudları ilə məhdudlaşdırmır, əsl Turanın daha geniş və daha qədim etnomədəni əraziyə malik olduğunu sübuta yetirir. Çünki türk xalqlarının məskunlaşdığı elə bir region yoxdur ki, orada damğa işarələrinə rast gəlinməsin. Tarixi Azərbaycan ərazilərində isə belə tanınma-fərqləndirmə nişanları rəsmi tarixşünaslığın, qondarma Altay nəzəriyyəsi tərəfdarlarının bütün iddialarının əksinə olaraq, «VII-XI əsrlərdə köçəri türk tayfalarının regiona kütləvi miqrasiyasından» qat-qat qədimdir. O da həqiqətdir ki, türk tayfalarının regionda mövcudluğu tarixinin hunların, savirlərin, xəzərlərin, oğuz və qıpçaqların buraya orta əsrlərdə gəlişi ilə bağlanması və bu fikirlərlə razılaşmağımız nəticəsində böyük bir ərazidəki maddi-mənəvi irsin, dövlətçilik tarixinin başqaları tərəfindən mənimsənilməsinə ilk növbədə özümüz, məhz özümüz şərait yaratmışıq.

Beləliklə, həmin işarələrin yaranma tarixi, semantikası, üslubu türklərin hələ eramızdan bir neçə il əvvəl burada yaşadıqlarını təsdiqləyir və rəsmi tarixşünaslığın təlqin etdiyi məskunlaşma dövrlərindən min illərlə əvvəlki çağları əhatə edir. Qobustan, Gəmiqaya, Kəlbəcər, Geğam, Dəvəboynu, Abaran qayaüstü təsvirlərində, arxeoloji qazıntılar zamanı aşkar olunmuş materiallar üzərində damğa və rəmzlər tarixi Azərbaycan torpaqlarının coğrafi ərazisini göstərməklə, əski türklərin *(prototürklərin)* Qafqazda, Anadoluda məskunlaşma tarixi, Aratta, Midiya, Manna dövlətlərinin etnik mənzərəsi, Qafqaz Albaniyasının dominant etnomədəniyyəti haqqında dəqiq məlumat verməklə, mənimsəmə səylərinin qarşısına sədd çəkir.

Bu kitabda ilkin məqsədimizə nə dərəcədə nail olduğumuzu dəyərləndirməyi isə Sizin - oxucuların ixtiyarına buraxırıq. Əminik ki, deməyə xeyli sözünüz olacaqdır. Odur ki, Sizin də təklif və iradlarınızı, tapıntılarınız barədə məlumatları gözləyirik.

Birlikdə güclüyük!

İstifadə olunmuş ədəbiyyat

1. «Azərbaycan mifoloji mətnləri». Bakı: «Elm», 1988.
2. «Azərbaycan tarixi» (yeddi cilddə), I cild, Bakı, 2007.
3. «Azərbaycan toponimləri. Ensiklopedik lüğət», Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, 1999.
4. «Azərbaycan xalçaları. Təbriz qrupu». Bakı: «Elm», 2013.
5. «Azərbaycan xalçaları», cild 2, №4, 2012
6. «Dədə Qorqud Kitabı. Ensiklopedik lüğət». Bakı, 2004
7. «Gəldim, gördüm... mənimsədim (Azərbaycan mədəni ənənələrinin mənimsənilməsinin erməni ənənəsi haqqında)». Bakı, 2010.
8. «Kitabi-Dədə Qorqud», əsl və sadələşdirilmiş mətnlər. Bakı: "Öndər", 2004.
9. «Oğuznamə» (Əmsali-Məhəmmədəli). Bakı: «Yazıçı», 1987.
10. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, III cild, Bakı, 1984.
11. B.Budaqov, Q.Qeybullayev. «Ermənistanda Azərbaycan mənşəli toponomlərin izahlı lüğəti». Bakı, 1998.
12. B.Tuncay. «Kür-Araz mədəniyyəti və erməni yalanları» (I məqalə), KarabakhİNFO.com
13. C. Cəfərov. «Bəzi damğa və işarələrin etimoloji izahı»// Elmi əsərlərin tematik məcmuəsi, Bakı, ADU, 1984.
14. C.Bayramlı. «Qızılbaşlıq və ay-ulduz təsviri», http://www.yenicag.az
15. C.Rüstəmov. «Qobustan dünyasi». Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994.
16. Ə.Rəcəbli. «Qədim türk yazılı abidələri», I cild, Bakı, 2009.
17. Ə.Rəcəbli. «Qədim türk yazılı abidələri», II cild. Bakı, 2009
18. F.Rəşidəddin. «Oğuznamə». Bakı, 1992.
19. H.Vəli. «Nüvədi kitabələri». Bakı, 1998.
20. İ. Bayramov. «Qərbi Azərbaycanin türk mənşəli toponimləri», http://www.karabakh-doc.azerall.info/ru/azerpeople/ap069az-2.php
21. İ.Avşarova. «Azərbaycan tayfalarının hərb işi (tunc dövrü)», http://carpetsmagazine.com/Azerbaycan-xalcalari/N3/files/assets/basic-html/page128.html
22. K.Kərimov. «Azərbaycan miniatürləri». Bakı, «İşıq», 1980
23. M.Fərəcova. «Azərbaycan qayaüstü incəsənəti». Bakı, 2009.
24. M.Rəhbəri. «Əhəmənilər dövrünə aid türkcə yazı nümunəsi», qafqazalbaniyasi.az/?p=4698
25. M.Seyidov. «Azərbaycan mifik təfəkkürünün qaynaqları». Bakı: «Yazıçı», 1983.
26. M.Seyidov. «Azərbaycan xalqının soykökünü düşünərkən». Bakı: "Yazıçı", 1989.
27. N.Rzayev. «Daşlar danışır», Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu. Bakı: "Elm", 1985.
28. N.Vəlixanlı. «IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında». Bakı, 1974.
29. Naxçıvan sancağının müfəssəl dəftəri (27 avqust, 1727). Bakı, 1997.
30. Q.Cəbiyev. "Azərbaycan keramikası. XIV-XVII əsrlər", Bakı, 2003.
31. Qurbani, Bakı Universitetinin nəşriyyatı, 1990
32. R.Əfəndi. «Azərbaycan İncəsənəti». Bakı: "Şərq-Qərb", 2007,
33. Şah İsmayıl Xətayi. Əsərləri. «Şərq-Qərb», Bakı-2005
34. T.Məmmədov. «Qafqaz Albaniyası İlk Orta əsrlərdə», «Təhsil» nəşriyyatı, Bakı, 2006
35. V.Baxşəliyev. «Gəmiqaya təsvirləri». Bakı, 2003;
36. V.Əliyev. «Gəmiqaya abidələri». Bakı, 1992.

37. V.Quliyeva. «Azərbaycan memarliğinin şah əsərlərinin durumu», Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi Sayı: 1/4 2012.
38. Xətai. Seçilmiş əsərləri. Bakı, 2005
39. Y.Səfərov. «Qədim Azərbaycan: nə bilirik», Bakı, 1989.
40. M. Urud. «Zəngəzur». Bakı, 2005
41. «Bursa çevresinde kayi boyu ve karakeçili damgalari», http://timeoutbursa.blogspot.com/2012/04/bursa-cevresinde-kayi-boyu-ve.html
42. «Divanü Lugat'it-Türk Dizin», TDK, Ankara, 1972.
43. «Halı Motif Özellikleri Desen Hazırlama», http://www.halidesenmodel.com/2012/04/hali-motif-ozellikleri-desen-hazirlama.html
44. «İslam cografiyaçılarına gore Türkler ve Türk ülkeleri». Hazarlayan Dr. Ramazan Sesen. Ankara,1985.
45. «Osmanlı uyarlığı». İstanbul, 2002.
46. A.C.Emre. «Eski Türk Yazısının Menşeği», İstanbul, 1938.
47. A.İnan, «Müslüman Türklerde Samanizm Kalıntıları». Ankara 1952.
48. A.Yalqın. «Cenupta Türkmen oymakları», II, Ankara, 1977
49. Abdulkerim Rahman. «Uygur Folkloru», çev. Soner Yalçın-Erkin Emet, Kültür. Bakanlığı Yayınları, Ankara, 1996
50. Aysu Ata. «Orhun türkçesi». Anadolu Üniversitesi, 2011.
51. B.Abudukelimı. «Uygur türklerinin dinî inanişları», Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara – 2006.
52. B.Ögel. «Türk Mitolojisi», cild 2. Ankara, 1995.
53. E.Esin. «Ötüken Yıs», «Türk Sanatında ikonografik motifler». İstanbul, 2004.
54. E.Hebibbeyli, «Uyarlıqların Kavşağında Türk Dünyası», İstanbul, 2013.
55. E.Sofuoğlu. «Qora-Restelisa abidesi: Şar dağlarının tepesindeki kaya» www.turuz.info;
56. E.Şimşek. Ölümsüzlük ilâci elma", Turkish Studies International Periodical For the Languages, Literature and History of Turkish or Turkic Volume 3/5 Fall 2008
57. Emre Ahmet Cevat. Türk Dili Araştırmaları Yıllığı Belleten, 1954.
58. F.Sümər. «Oğuzlar». Bakı: "Yazıçı", 1992.
59. F.Toprak. «Defter-i Cengiz-Nāme'de Boy Nişanları ve Damgalar», Turkish Studies International Periodical For the Languages, Literature and History of Turkish or Turkic Volume 6/1 Winter 2011
60. Göktürk Sikkelerinde Ay Yıldız. Türkler ay-yıldız motifini İslamiyetten önce de kullanıyormuş. // TRT-Haber, 2005.
61. I.Baski. "Demirkapilar (Temir Qapïğ, Vaskapu, Dömörkapu)", makale I. Uluslararası Türk Dünyası Kültür Kurultayı (9-15 Nisan 2006 Çeşme-İzmir)'nda bildiri olarak sunulmuştur, http://www.turkishstudies.net/Makaleler/1415210500_baskiimre.pdf
62. M.Aksoy. «Milattan Önce Anadolu'da Türk İzleri». Tarix. Nisan, 2011
63. M.Kaşğari. «Divanü lüğat-it-Türk», dörd cilddə, Tərcümə edən və nəşrə hazırlayanı Ramiz Əskər, Bakı:
64. M/Erbek. «Çatalhöyük'ten Bugüne Anadolu Motifleri», http://dipnotkitap.net/DENEME/Anadolu_Motifleri.htm
65. O.Gökyay. «Dedem Korqudun Kitabı», İst., 1973.
66. Osman Mert. «Kemaliye'de eski türk izleri: Dilli vadisindeki petroglif ve damgalar», A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi Sayı34 Erzurum 2007
67. Ö.Ömer, «Köstence, Romanya», http://www.yalquzaq.com/?p=1038.

68. Şerare Yetkin. «Halı Sanatı», http://www.msxlabs.org/forum/guzel-sanatlar/22349-el-sanatlari-hali-sanati.html
69. T. Gülensoy. «Orhundan Anadoluya türk damğaları», İstambul, 1989.
70. T.Efe. «Eskişehir bölgesi tarihöncesi dönem araştirmalari ve Önasya arkeolojisi içindeki yeri», http://kulluobakazisi.bilecik.edu.tr/Dosya/Arsiv/ara%C5%9Ft%C4%B1rma%20tarih%C3%A7esi2.pdf
71. U.Türkeş-Günay. «Türklerin Tarihi. Keçmişden geleceğe». Aksağ Uayınları, Ankara, 2006.
72. Uluslararası Türk Dünyası Kültür Kurultayı (9-15 Nisan 2006 Çeşme-İzmir)'nda bildiri olarak sunulmuştur, http://www.turkishstudies.net/Makaleler/1415210500_baskiimre.pdf
73. V.Grivins. «Latvian rock art» mag. "At the Edge" #8, 1997.
74. Y.Ayönü. XII.YY'da Balkanlarda Bizans ve kuman (kıpçak) münasebetleri. Tarih semineri dersi. Ege Üniversitesi edebiyat fakültesi tarih bölümü. İzmir-Bornova, 2010.
75. Б.Ögel. «Türk kültür tarihinə giriş», VI cild. Ankara, 1991.
76. «Топонимы Угам-Чаткальского Национального Парка», http://www.orexca.com/rus/toponyms_tyan-shan.shtml
77. «Албанский дешифровщик», http://gazeta-nv.info/content/view/4348/216/
78. «Армянская мифология», http://www.simbolarium.ru/simbolarium/sym-uk-cyr/cyr-a/ar/armian-mith.htm
79. «Армянские ковры», http://hayodz.blogspot.com/2012/05/100-110.html
80. «Армянско-русский словарь». Ереван: Издательство АН Армянской ССР, 1987.
81. «Башкирский народный костюм», http://900igr.net/prezentatsii/geografija/Bashkirskij-narodnyj-kostjum/014-Bashkirskij-narodnyj-kostjum.html
82. «Вестник древней истории», 1952, № 2.
83. «Геральдика Самарканда», http://www.e-samarkand.narod.ru/gerb.htm.
84. «Дагестанские ковры», http://articles.agronationale.ru/pigs/1907-dagestanskie_kovry
85. «Двуглавый орел Софьи Палеолог». Календарь «Святая Русь», http://www.rusidea.org/?a=25042001
86. «Донской народный костюм» Ростов н/Д, 1986.
87. «Достояние республики», http://www.express.am/article/8_1007/view/dostojanie-respubliki.html
88. «Древнетюркский словарь», под ред. Наделяева В.М., Насилова Д.М., Тенишева Э.Р., Щербака А.М. - Ленинград: Наука, 1969.
89. «Древнобългарската митология», 4 част, http://atil.blog.bg/history/2012/01/20/drevnobylgarskata-mitologiia-4-chast.886479
90. «Индоевропейский язык и индоевропейцы», Тбилиси, 1984.
91. «Иранско-дагестанские исторические связи», http://voprosik.net/iransko-dagestanskie-istoricheskie-svyazi/
92. «Использование ромбического орнамента Архангельской области в современном трикотаже», http://artzentr.narod.ru/sdpt/rombarch.htm
93. «Казахская мифология и демонология», http://naturkaz.info.
94. «Ковры (армянские)», http://www.khachkar.ru/encyclopedia/?id=148
95. «Культура, жизнеобеспечения и этнос. Опыт этнокультурного исследования (на матариалах армянской сельской культуры)». Отв. ред. С.Арютунов, Э.Маркарян. Ер., 1983
96. «Мессиджи далеких предков», «Голос Армении», 6 ноябрь, 2011, No 127
97. «Монеты Золотой Орды и Крымского ханства», Одесский музей нумизматики, http://www.

museum.com.ua
98. «Путешествие Ибн-Фадлана на Волгу» /Перевод и комментарии А.Ковалевского/. М.-Л.: Изд. АН СССР, 1939.
99. «Путешествия профессора Эйхвольда к Каспийскому морю и Кавказскому краю», Библиотека для чтения, СПб., 1838. Т. 26. № 2.
100. «Род князей Шервашидзе (историко-генеалогическое исследование)», http://www.nplg.gov.ge/dlibrary/collect/0001/000263/KNIGA-SHERVASHIDZE-1.pdf
101. «Россия и Европа глазами Орудж-бека Баята - Дон Жуана Персидского». СПб. СПбГУ. 2007
102. «Самур» (журнал), Махачкала № 4-5; 2003
103. «Символика изображений на коврах», http://www.art-carpets.ru/part/izocarpets.html
104. «Синкретизм образов солярных богов и божеств в образах: орёл, конь и олень у якутов», http://bibliofond.ru
105. «Сокровиша булгарского народа», Вып. 1, Этногенез, История. Култура. Под редакцией академика Ю.Вегунова. Санкт-Питербург, 2007.
106. «Сумерки богов», Ф.Ницще, З.Фрейд, Э.Фромм, А.Камю, Ж.П.Сатр, Москва, 1990.
107. «Тамга (Родовой знак) и Уран (Родовой клич)», http://www.history.kz/ru.php
108. «Ученые записки», СПб,1855.
109. «Энциклопедия символов, знаков, эмблем».Авт.-сост. В. Андреева и др. М., 2002.
110. «Эпоха бронзы лесной полосы СССР», изд.Институт Археологии АН СССР, 1987.
111. «Этимология слов «карпет» (carpet) и «кали/хали» (kali/khali)», http://www.any-goods.ru/articlematerial1
112. З.Мифтахов. «Первые булгарские государственные образования, Курс лекций по истории татарского народа», Государственный Педагогический Университет, Казань, 2002.
113. А.Бисенбаев. «Мифы древних тюрков», http://www.eurasica.ru.
114. А.Таптыгов. «Мифологические топрнимы, сформировавщиеся на основе культов дерева и горы на территории Азербайджана», science.crimea.edu.
115. alamjurnal.com/stati/269-sekrety-albanskoj-pismennost
116. В.Мещанинов. «Каменные статуи рыб — вишапы на Кавказе и в Северной Монголии», Записки Коллегии Востоковедов, I, Ленинград, 1926
117. С.Плетнева. «Древние болгары в восточноевропейских степях»// Татарская археология, 1997, №1.
118. К.Табалдинов, Ж.Йолдашев. «Образцы изобразительной деятельности древнетюркских племен Тенир-Тоо», изд. Унив. Манас, 2003;
119. К.Кызласов. «К истории шаманских верований на Алтае». КСИИМК, вып. XXIX, 1949.
120. Q.Ваганян. «Каменная летопись цивилизации». Ереван, 1993;
121. А. Баяр. «Тайная история татар», http://kitap.net.ru/bayar4.php
122. А. Мальчик. «Роль орнамента в формировании архитектуры Кыргызстана (Генезис, эволюция, национальные традиции)».
123. А. Сукиасян. «История Киликийского армянского государства и права (XI—XIV вв.)». Митк, 1969.
124. А.-Х. Щ. Джанибеков, «Очерки по истории ногайцев», 1935 г., Архив Даг. НИИЯЛ
125. А.Абдысадыр уулу. «Мир узоров. Кыргызское великодержавие: Культура. Металлообработка», http://www.jyrgalizm.kg/index.php?option=com_content&view=article&id=205&Itemid=85
126. А.Алламуратов. «Каракалпакская народная вышивка». Нукус, 1977.

127. А.Аманжолов. «Генезис тюркского рунического алфавита». Алматы, 2003.
128. А.Анасян. «Новая концепция в албанистике», http://armenianhouse.org/caucasian-albania/126-154.html
129. А.Б. Лакиер. «Русская геральдика», http://www.heraldrybooks.ru/book.php?id=1
130. А.Бисенбаев. «Мифы древних тюрков», http://libbabr.com/?book=4872
131. А.В. Галанин. «Трезубец как символ власти», http://ukhtoma.ru/traditions3.htm
132. А.Галанин. «Арийские традиции. Трезубец как символ власти», http://ukhtoma.ru/traditions3.htm
133. А.Галиев. «Иран-наме», 3 (7) 2008
134. А.Гурбанов. «Сказки армянских мудрецов». Баку, 2005.
135. А.Досымбаева. «Археологические источники в этнографических реконструкциях истории тюрков», Вестник Томского государственного университета. История. 2013, №3 (23)
136. А.Е. Рогожинский. «Роль номадов в формировании культурного наследия Казахстана». Алматы, 2010.
137. А.Зелев. «Армяне потомки десяти колен Израиля», www.Druzya.com.
138. А.Иванов. «Армения – наследница древних цивилизаций», http://voskanapat.info/?p=4293
139. А.Камалов. «Древние уйгуры. VIII-IX вв.». Алматы: «Наш мир». 2001.
140. А.Кныш. «Мусульманский мистицизм». Москва-С.П, 2004
141. А.Кобринский. «Руническая письменность: истоки и распространение», http://amkob113.narod.ru/kobra/runis/rez.htm
142. А.Леонов, «Из глубины веков под знаком трезубца», http://megamatrix.ru/simbol/trid/trident.htm
143. А.Мартиросян. «Первобытные иероглифы Армении и их Урарто-армянские двопники»,
144. А.Мартынов. «Археология» // Искусство бронзового века Евразии, М., 2013.
145. А.Маслов. «Что формировало Украину: Славяне и тюрки», http://rusmir.in.ua/ist/935-iz-cikla-chto-formirovalo-ukrainu-slavyane-i.html
146. А.Мен. «Магизм и единобожие», изд. «Слово», 1991.
147. А.Мнацаканян, И.Селимханов. «Исследование некоторых оловянных предметов, наиденных в Армении», http://hpj.asj-oa.am/1633/1/1971-1(285).pdf
148. А.Мукаева. «Казахский национальный орнамент», http://www.rusnauka.com/11_EISN_2011/Tecnic/12_84935.doc.htm
149. А.Нарымбаева. «Аркаим – очаг мировой цивилизации, созданный прототюрками» Алматы, 2007
150. А.Олеарий. «Описание путешествия в Московию». М. «Русич». 2003.
151. А.Орешников. «Древнейщие русские монеты» // Русские монеты до 1547 года, М., 1996.
152. А.Рогожинский. «Роль номадов в формировании культурного наследия Казахыстана». Алматы, 2010.
153. А.Родожинский, «Мы, ниженижеприлажившие истинные тамги…» (опыт иденфикации родоплеменных знаков казахов Старшего жуза)// «роль номадов в формировании культурного наследия Казахыстана, Алматы, 2010.
154. А.Самсонов. «11 апреля 1857 г. Александр II утвердил государственный герб России – двуглавого орла», http://topwar.ru/
155. А.Терян. «История Восточной Части Армении /Агванк, Гардман, Утик/ или кто такие албаны?», http://angelateryan.wordpress.com
156. А.Терян. «История Восточной Части Армении /Агванк, Гардман, Утик/ или кто такие албаны?», http://angelateryan.wordpress.com

157. А.Фоменко, Г.Носовский. «Империя. Русь, Турция, Китай, Европа, Египет. Новая математическая хронология древности». Москва 1995.
158. А.Формозов. «Сосуды срубной культуры с загадочными знаками», Вестник древней истрии, № 1, 1953;
159. А.-Х. Ш. Джанибеков. «Очерки по Истории Ногайцев», 1935 г., Архив Даг НИИИЯЛ им Г. Цадасы, Ф 28, Оп. 1, Д. 2.
160. А.Юрченко. «Клятва на золоте: тюркский вклад в монгольскую дипломатию» // Тюркологический сборник, 2007–2008. М., 2009.
161. А.Якобсон. «Художественная керамика Байлакана (Оренкала)”, МИА СССР, № 67, М-Л., 1959.
162. Авраам Кретаци. «Краткое повествование о начале (царствования) Надир-шаха, сочиненное нашим Абраамом Текирдагци», http://www.vostlit.info
163. Алексис Шнайдер, «Венгры (мадьяры)», http://www.randevu-zip.narod.ru/europe/east/hungary.htm
164. Б.Б.Пиотровский. «История и культура Урарту». Ереван, 1944.
165. Б.Вайнберг. «Монеты древнего Хорезма». Москва, 1977.
166. Б.Режабек, Л.Регельсон, И.Хварцкия. «Кто изобрел «финикийскую» письменность?» http://www.apocalyptism.ru;
167. Б.Рыбаков. «Знаки собственности в княжеском хозяйстве Киевской Руси X-XIIвв.»// Советская археология. 1940.
168. Бартольд В.В. К вопросу о полумесяце как символе ислама.// Бартольд В.В. Работы по истории ислама и Арабского халифата. – М.: «Восточная литература» РАН, 2002.
169. Бишкек, 2010.
170. В. Ваганян. «О мировоззренческих и культурных связях древних армян с предками иранцев и индийцев, египтян и жителями Старой Европы (о рождении мотива борьбы Митры с быком)», http://grishashax.livejournal.com/31874.html
171. В. Ольховский «Тамга (к функции знака)», Историко-археологический альманах, No 7, Армавир, 2001
172. В.А.Бушаков. «Лексичний склад історичної топонімії Криму», Київ, 2003.
173. В.Беляев, С.Сидорович. «Новая интерпретация иерогрифа «бао» на монетах монгольских улусов», Эпиграфика Востока, XXIX, РАН, Институт Востоковедения, Москва, 2011.
174. В.Бутанаев. «Русско-хакасский словарь». Астана, 2011.
175. В.Бутба. «Труды», Академия Наук Абхазии, Абхазский Институт Гуманитарных Исследований им. Д .И . Гулиа, Сухуми, 2005
176. В.Ваганян. «Каменная летопись цивилизации». Ереван, Нжар, 2006
177. В.Востров, М.Муканов. «Родоплеменной состав и расселение казахов (конец XIX, начало XX вв.). Алма-Ата, 1968.
178. В.Востров, М.Муканов. «Родоплеменной состав и расселение казахов». Алма-Ата, 1968.
179. В.Драчук. «Системы знаков Северного Причерноморья». Киев, 1975.
180. В.Еремеев. «Этногенез турок». Москва, 1970.
181. В.Лившиц. «О происхождении древнетюркской рунической письменности.// Археологические исследования древнего и средневекового Казахстана». Алма-Ата, 1980
182. В.Н. Жук. «Из седой древности. Очерки из истории Украины и Полтавщины (VII тс. до н.э. - XVI ст. н.э.)», http://sespel.com.ua/korni/trezub/
183. В.Ольховский. «Тамга (к функции знака)», Историко-археологический альманах, No 7, Армавир, 2001.

184. В.Потин. «Монеты, клады, коллекции». Саннкт-Питербург: “Искуство”, 1993.
185. В.Седов. «Русский каганат IX в.», Отечественная история,1998. № 4.
186. В.Флерова. «Граффити Хазарии», изд. Эдиториал УРСС, 1997;
187. В.Чудинов. «Что Ярали Яралиев понимает под научным обоснованием», http://chudinov.ru/aliev/1/
188. Г. Ачарян. «Этимологический словарь армянского языка», I (на арм. языке). Ереван, 1971.
189. Г. Ачарян. Три вопроса о месроповском алфавите (арм.) // журнал «Эчмиадзин». — август-сентябрь 1946
190. Г. Бердымухамедов. «Живая легенда. Книга о вечной красоте туркменских ковров». Ашхабад, 2011
191. Г.Меликишвили, «Урартские клинообразные надписи». М., 1960
192. Г.Абгарян. «История Себеоса» и проблема Анонима. Ереван, 1965
193. Г.Ваганян, В.Блеян, Л.Кочарян. «Наскальные рисунки Армянского нагорья - первоисточники армянских, египетских, индийских и хеттских идеограмм (а также иероглифов употребляемых в греческой и латинской письменности)», http://novarm.narod.ru/arch082006/mois.htm
194. Г.Введенский. «Янычары». изд. Атлант, 2003.
195. Г.Ворошил. «К дешифровке албанских надписей Азербайджана», http://udilang.narod.ru/gukasjan-papers/Gukasjan1968-deshifr.pdf
196. Г.Гафарова. «Элементы тюркской культуры на азербайджанских памятниках», http://strategiya.az/old/?m=xeber&id=20370
197. Г.И. Карпов. «Родо-племенная структура Туркмен», turkmenhistory.narod.ru
198. Г.М. Давлетшин, Ф.Ш. Хузин. «Булгарская цивилизация на Волге», Татарское книжное издательство, 2011.
199. Г.Ф. Турчанинов. «Памятники письменности и языка народов Северного Кавказа и Восточной Европы», 1971
200. Геродот. «История», ОЛМА-ПРЕСС Инвест, 2004
201. Геродот. История в девяти книгах. Ленинград: «Наука», 1972.
202. Гуран.
203. Д. Хайретдинов, «Государственные символы и регалии Руси-России мусульманского происхождения», http://www.idmedina.ru/
204. Д.Ахундов. «Архитектура древнего ранне-средневекового Азербайджана». Баку, 1986.
205. Д.Савинов. «Оленные камни в культуре кочевников Евразии».// СПб: СПбГУ. 1994.
206. Двухглавый орёл – символ РФ http://gordo-orel.com/dvuglavii.html
207. Е. Алексеева. «Древняя и средневековая Карачаево-Черкесия». М., 1971
208. Е.Паркер. «Тысяча лет из истории татар», http://www.mirzayanov.com/images/Tisjachaletf-Febr14.pdf
209. Е.Смагулов, С.Яценко. «Святилище Сидак – один из религиозных центров доисламского севера Средней Азии». http://www.transoxiana.org;
210. Е.Ямаева, «Родовые тамги Алтайских тюрок», Горно-Алтайск, 2004;
211. Ж.Войников. «Алано-древнеболгарское письмо/ некоторыe протоболгарские символы», http://iriston.com/books/ALANO-DR-BOLG-PISMO/AL-PBG-P-SADRZANIE.htm;
212. Ж.Войников. «Древнеболгарское письмо», http://www.bulgari-istoria-2010.com/booksRu/ALANO_DREVNEBOLGARSKOE_PISJMO.pdf
213. З.Балаян. «Оджаг». Ереван, 1984.
214. З.Мирфатахов. Курс лекций по истории татарского народа. Лекция 3, Происхождение

етнонима «булгары», http://s155239215.onlinehome.us
215. З.Наурзбаева. «Архетип женщины – медиатора в традиционной и современной казахской литературе», http://www.otuken.kz.
216. З.Наурзбаева. «Да, скифы мы», http://www.press-uz.info/index.php?title=a...122007&st=6
217. З.Наурзбаева. «Семь ипостасей Коркута», http://www.otuken.kz/index.php/mythzira/48-korkut
218. И. Эрдели. «Исчезнувшие народы. Авары», Природа, 1980, № 11.
219. И.Баски. «Тамги и этнические названия. Вклад тамга-знаков в этногенез татар». // Татарская археология. 1997, №1;
220. И.Богословская, «Зооморфные мотивы каракалпакского орнаментального искусства», http://www.sanat.orexca.com/rus/archive/2-09/irina_bogoslovskaya.shtml
221. И.Джафарзаде. «Гобустан. Наскальные изображения», Баку, 1973
222. И.Дяконов, «История Мидии», Москва, 1956;
223. И.Кабышлы. «Тюркский мир. История тюрко-монголских народов». Алматы, 2007.
224. И.Кызласов, «Камень дыроватый (символика пещерных святилищ и культовой стрельбы из лука)». // Этнографическое обозрения, 1999, № 4.
225. И.Кызласов. «Гора-прародительница в фольклоре хакасов» // Сов. этнография, 1982
226. И.Кызласов. «Рунические писменности евразийских степей» Москва, РАН, 1994;
227. И.Мизиев. «Аланы и асы - предки балкарце и карачаевцев», http://passion-don.org/kazak.html.
228. И.Раимбердиева. «Таинственный мир кыргызских узоров», http://www.akipress.org/comments/news
229. И.Семенов. «Сасаниды и строительство Дербентского оборонительного комплекса», http://www.gumilev-center.az/sasanidy-i-stroitelstvo-derbentskogo-oboronitelnogo-kompleksa/
230. И.Смирновaş. «Тайная история креста. Все о древнем мистическом символе человечества». Москва: «GKSMO» 2006.
231. И.Толстой. «Древнейшие русские монеты великого княжества Киевского». СПб., 1882.
232. Ибн Руста. «Ал-Алак ан-нафиса», пер. В.Минорского. 1963.
233. Изв. АН Арм.ССР, Науки о Земле, XVII, 6
234. Исторические флаги Армени, http://www.armeniatravel.ru/flags.htm
235. К.Алиев. «Великий князь Алп-Илитвер. К эпической биографии правителя кавказских гуннов (гуннуг-ундуров) // газета “Ёлдаш/Времена”, 22 июль 2011 г.
236. К.Алиев. «Дорогой тысячелетий. От руники - к кириллице», http://kumukia.ru/article-9084.html
237. К.Алиев. «Кипчаки на Кавказе до и после нашей эры», газета “Ёлдаш/Времена”, 28-03-2008
238. К.Алиев. «Тамга-знаки Дагестана. По материалам кумыков и их предков». // КНКО: Вести. Махачкала, № 8-10, 2003.
239. К.Бегалин. «Мамлюки», http://historylib.org/historybooks/Kayrat--Begalin_Mamlyuki/9
240. К.Иманов. «Армянские (и) на(о)родные сказки». Баку, 2008.
241. К.Лайпанов, И. Мизиев. «О присхождении тюркских народов». Черкеск, 1993.
242. К.Тревер. «Очерки по истории и культуре Кавказской Албании. IV в. до н. э. – VII в. н. э.». М. – Л., 1959.
243. К.Юнг. “Архетип и символ”. Издательство “Ренессанс” СП “ИВО-СиД”, 1991.
244. Корюн. «Житие Маштоца. История жизни и смерти блаженного мужа, святого вардапета маштоца, нашего переводчика, (написанная) учеником его вардапетом Корюном», http://

www.vehi.net/istoriya/armenia/korun/koriun1-6.html
245. Ксенофонт. «Киропедия», Т VIII, Москва, 1976.
246. Қазақстан тарихы | История Казахстана. https://vk.com/wall-38304529_29088
247. Л. Гумилев. «Древние тюрки». Москва, 1967.
248. Л. Лавров. «Кавказские тамги» // Историко-этнографические очерки Кавказа. Л.,1978,
249. Л.Аванесян. «Связь изображений армянских ковров с погребальным обрядом». Журнал «Анив», №3 (42).
250. Л.Керимов. «Азербайджанский ковер» Том 2. Баку: «Гянджлик», 1983.
251. Л.Лавров. «Историко-этнографические очерки Кавказа», Наука, 1978
252. Л.Лавров. «Кавказская тамга», «Историко-этнографические очерки Кавказа». Ленинград, 1978;
253. Л.Меликсет-Беков. «Вишапы и вишапоиды Грузии». - КСИИМК, вып. XV. Москва, 1947.
254. 179. Л.Нидерле. «Человечество в доисторические времена» (доисторическая археология Европы и славянских земель). Санкт-Петербург, 1898.
255. Л.Тер-Мкртичян. «Армянские источники о Средней Азии, V-VII вв.», Москва, 1979.
256. Л.Чвырь. «Сравнительный очерк традиционных украшений уйгуров и соседних народов Средней Азии // Восточный Туркестан и Средняя Азия в системе культур древнего и средневекового Востока». Москва, 1986.
257. М. Гаджиев. «К выделению и интерпретации зороастрийских символов в знаковой системе Дербента середины VI века». Международная научная конференция «Археология, этнология, фольклористика Кавказа» Сборник кратких содержаний докладов Тбилиси, 25-27 июня 2009
258. М. С. Гаджиев. «Гемма-печать царя Албании Асвагена», Вестник древней истории. – 2003.
259. M.Azarnoush, BHelwing . “Recent Archaeological Research in Iran – Prehistory to Iron Age”, 2005
260. М.Абегян. «История армянской литературы». Ереван, 1975.
261. М.Артомонов. «Древний Дербент». // «Советская археология»,VIII, 1946
262. М.Артомонов. «История хазар», 2-е издание, СПб, ГУ, 2002.
263. М.Ауезов. «Казахские тамги – знак племени, или Печати времени», «Деловая неделя», 23.12.2005.
264. М.Гаджиев, В.Юсуфов. «Тайна Дербентской надписи», http://www.arhiv.ndelo.ru/one_stat.php?id=6147#
265. М.Закиев. «Происхождение тюрков и татар». Москва, Изд. «Инсан», 2002
266. М.Исмаил. «История Азербайджана (Краткий обзор с древнейших времен до 1920 г.)». - Б.: Азернешр,1995.
267. М.Казарян. «Армянские ковры». Москва, «Советский художник», 1985.
268. М.Каланкатуйский. «История Агван». СПб, 1861.
269. М.Кенин-Лопсан. «Обрядовая практика и фольклор тувинского шаманства». Новосибирск, 1987.
270. М.Леонти. «Жизнь картлийских царей». М.: «Наука», 1979.
271. М.Магомедов. «История аварцев». Махачкала, 2005
272. М.Троицына. «У инопланетян время разбрасывать камни», http://othereal.ru/u-inoplanetyan-vremya-razbrasyvat-kamni/
273. М.Халилов. «Древние каменные изваяния Южного Кавказа», http://www.az.ee/tkrea/rus/irs-200416.shtml
274. М.Халилов. «Древние каменные изваяния Южного Кавказа», http://www.az.ee/tkrea/rus/irs-

200416.shtml
275. М.Чолакян. «Армянские знаки на скрижалях Дербента», http://forum.hayastan.com/lofiversion/index.php/t39799.html
276. Мовсес Хоренаци. «История Армении», перевод с древнеармянского языка, введение и примечания Гагика Саркисяна. Издательство: Ер., «Айастан», 1990
277. Моисей Каланкатуйский. «История Агван», СПб., 1861
278. Н. Веселовский. «Роль стрелы в обрядах и ее символическое значение» // Зап. Восточного отделения Русского археологического общества. Т. XXV. Вып. 1-4. Пг., 1921.
279. Н. Ранчугова. «Децствительно ли двухглавый орел – средневековый монархический символ?» http://omskmark.moy.su/publ/essayclub/symbols_russia/2012
280. Н.Аристов. «Опыт выяснения этнического состава киргиз-казаков Большой Орды и кара-киргизов на основании родословных сказаний и сведений о существующих родовых делениях и о родовых тамгах, а также исторических данных и начинающихся антропологических исследований", http://bizdin.kg.
281. Н.Базылхан. «От двуглавого орла до аристократіческого аксункара. Этносимволы древних тюрков», http://kyrgyztoday.kg
282. Н.Бичурин. «Собрание сведеней о народах, обитавщих в Средней Азии в древние времена», Ч.1, М.; Л., 1950.
283. Н.Будаев. «Западные тюрки в странах Востока», Нальчик, 2002.
284. Н.Дмитриев. «О тюркских элементах русского словаря». Лексикографический сборник. Москва, 1958.
285. Н.Карамзин. «История государства Российского». Т. 2. Москва, 1988
286. Н.Константинов. «Скифо-сарматские знаки на памятниках Причерноморья», Крым, 1951, № 7.
287. Н.Мещерский. «История иудейской войны» в древнерусском переводе. М.-Л. 1958.
288. Н.Миннников. «Донская казачество в эпохе позднего средневековья (до 1671 г.)». Ростов н/Д., 1998.
289. Н.Рзаев. «Искуство Кавказской Албании. IV в. До н.э. VII в. Н.э.». изд «Элм», 1976
290. Н.Соболева. «О загадочном знаке первых русских монет», http://www.staraya-moneta.ru/lib/721/
291. Н.Соболева. «Очерки истории российской символики. От тамги до символов государственного суверенитета», Знак, 2006.
292. О.Акчокраклы. «Старокрымские и отузские надписи 13 - 15 вв.» / / Известия Таврического общества истории, археологии и этнографии, 1927.
293. О.Акчокраклы. «Татарские тамги в Крыму», http://crimeantatars.com
294. О.Гундогдыев. «С крыльями сокола, с сердцем льва...» // газета «Нейтральный Туркменистан».21.02.02
295. О.Гундогдыев. "Знак парфянских царей из селения Ызган", http://www.turkmenistan.gov.tm/?id=3103
296. О.Давудов. «Прикаспийская торговая дорога и археологические материалы», http://dagistanhistory.livejournal.com/11308.html
297. О.Прик. «Очерк грамматики караимского языка (крымский диалект)». Махачкала, 1976.
298. О.Сулейменов, «Язык письма. Взгляд в доисторию – о происхождении письменности и языка малого человечества». Алматы-Рим,1998.
299. О.Сулейменов. «АЗ и Я: Книга благонамеренного читателья». «Грифон М», 2005.
300. О.Сулейменов. «Литература - это жизнь: о литературе и литераторах». Алматы, 2011.

301. О.Сулейменов. «Язык письма. Взгляд в доисторию – о происхождении письменности и языка малого человечества». Алматы-Рим,1998.
302. О.Ширяев. « Крест – знак знаков», http://www.protos7.ru/Forma/Glava07.pdf ;
303. И.Смирнова. « Тайная история креста. Все о древнем мистическом символе человечества». Москва: «ЭКСМО», 2006.
304. П.Голден. «Религия кипчаков средневековой Евразии. Степы Европы в эпохи Средневековья», Т.6. Донецк, 2008.
305. П.Дибиров. «История орнамента Дагестана (Возникновение и развитие основных мотивов)», Москва, Наука, 2001
306. П.Мелиоранский. «Памятник в честь Куль тегина» ЗВО, вып. II, III, т. XII, СПб, 1899.
307. П.Петров, Я.Студитский, П.Сердюков. «Проводилась ли Токтой общегосударственная реформа 710 г.х. Кубанский клад времени Узбек хана», Труды международных нумизматических конференций. Монеты и денежное обращение в монгольских государствах XIII-XV веков. I МНК - Саратов 2001 и II МНК – Муром 2003.
308. Про тенгрианство и крест животворящий. http://bulochnikov.livejournal.com/111404.html.
309. Прокопий Кесарийский. «Война с готами. О постройках».М.: «Аркос», 1996.
310. Р.Ахметьянов. «Общая лексика духовной культуры народов Среднего Поволжья». М., 1981.
311. Р.Барийев. «Казаки – коренные жители юга Росии». http://passion-don.org/kazak/bariev_1.html.
312. Р.Гусейнов. «Большой Азербайджан в российских, европейских и иных источниках»,XIII часть, «Что понимали под словом Азербайджан в средневековом Китае?», http://www.ere-vangala500.com/?direct=news_page&id=160
313. Р.Керейтов, С.Червонная. «Эпиграфика Ногайской степи», Татарская археология. 2002-2003, №1-2(10-11) - http://tataroved.ru
314. Р.Керейтов. «Найманский компонент в этногенезе ногайцев и его параллели у других народов», http://turkolog.narod.ru/info/I310.htm
315. Р.Лолуа. «Кавказско-албанская эпиграфика»/«Восточные общества: традиции и современность», Материалы II Съезда молодых востоковедов стран СНГ, Баку, 11-14 ноябрь, 2013 года», Москва-Баку, 2014
316. Р.Лолуа. «Кавказско-албанская эпиграфика»/«Восточные общества: традиции и современность», Материалы II Съезда молодых востоковедов стран СНГ, Баку, 11-14 ноябрь, 2013 года», Москва-Баку, 2014
317. С. Байчоров. «Древнетюркские рунические памятники Европы». Ставрополь, 1989
318. С. Карапетян. «Армянская коллекция Кавказского музея». Ереван, 2004
319. С. Яценко. «Знаки-тамги ираноязычных народов древности и раннего средневековья», Российская Академия Наук, Москва Издательская фирма ”Восточная литература”, РАН 2001.
320. С.Айвазйан. « История России. Армянский след». Москва: «Крон-Пресс», 2000.
321. С.Амонжолов. «Заметки о тюркском этноэенезе», http://dalaruh.kz/articles/view/253.
322. С.Байчоров. «Древнетюркские рунические памятники Европы: Отношение северокавказского ареала древнетюркской рунической письменности к волго¬-донскому и дунайскому ареалам». Ставрополь, 1989.
323. С.Думин. «Геральдика литовско-татарского дворянства XVI-XX вв» /Гербовед, М., 1996, №10.
324. С.Кляшторный. «Древнетюркские рунические памятники». Москва, 1964.
325. С.Кляшторный. «Симбиоз», журнал «Родина», № 2, 2004.

326. С.Кондыбай. «Казахская мифология. Краткий словарь». Алматы, 2005.
327. С.Крамер, «Шумеры. Первая цивилизация на Земле». М, 2002
328. С.Петрова. «Традиционное якутское шитье и вышивка», http.//www.olonkho.info /ru /
329. С.Тарасов. Д.Ермолаев. «Кавказская Албания. История забытой казахской цивилизации», http://www.centrasia.ru/newsA.php?st=1237370940
330. С.Тер-Нерсесян. «Армения, быт, религия, культура». М., Центрополиграф, 2008.
331. С.Яценко. «Знаки-тамги ираноязычных народов древности и раннего средневековья». Москва: «Восточная литература», 2001.
332. Садри Максуди Арсал. «Уйгурская культура», http://uighur.narod.ru/book/sadri_maksudi_arsal4.html
333. Силаев А.Г. «Исток ирусской геральдики», ФАИР-ПРЕСС. 2003.
334. Т. Гриц. «Меткие стрелки», Москва, 1956.
335. Т.Гудава. «До і после Біблії», http://www.netslova.ru/gudava/sumer/gl16.html
336. Т.Лосева-Бахтийарова. «Военная лексика тюркских языков», http://cheloveknauka.com/voennaya-leksika-tyurkskih-yazykov
337. Тамара Т. Райс. «Скифы. Строители степных пирамид», «Центрполиграф», 2004
338. Тора, Иерусалим, изд. «Шамир», 1992
339. У.Паламарчук, И.Андриевский. «Зари Триплье», Винница, 2005;
340. Ф.Ахундов. «Разрушители фалсификаций», http://nofalsify.com/.
341. Ф.Г.-Х. Нурутдинов. «Важнейшие символы и гербы родов, городов и губерний булгар», http://atil.blog.bg
342. Ф.Искандеров, И.Искандеров, Е.Костина. «Азбука чувашских орнаментов и эмблем», festival. 1 september.ru/articles/57111/pril1.ppt
343. Ф.Рашидаддин. «Сборник летописей». М.-Л., 1952.
344. Флерова. «Граффити Хазарии», изд. Эдиториал УРСС, 1997
345. Х.Абовян. «Раны Армении». Ереван, 1955.
346. Х.Биджиев, «Хумаринское городище». Черкесск, 1983.
347. Х.Короглы. «К тюркско-венгерским фольклорным связям» //Советская тюркология. 1988. № 3.
348. Х.Яхтанигов. «Адыгские тамги», http://diplomrus.ru/raboti/23713?mod=dissertations
349. Ч.Валиханов. «О киргиз-кайсакской Большой орде», Собрание сочинений в 5 т. А, 1985.
350. Ш.Бадахов. «По следам тюрков Северного Кавказа», Информационно-аналитический центр «Алан». Карачаевск, 2004.
351. Ш.Куанганов. «Уч кудук - три колодца!», http://ddp-main.narod.ru/2002/nomer_47/popularnaa_istoria.htm
352. Ш.Л.Монтескье. “Персидские письма”. Москва, Издательство “ИОЛОС”, 1993.
353. Ш.Мингазов. «О происхождении народа Болгары» // «Татарские новости», № 3-4 (176-177), 2009.
354. Э. Гюль. «К вопросу о генезисе амулетниц-тумаров», http://www.kyrgyz.ru/?page=309
355. Э.Нюстрем. «Библейский словарь», изд. Библия для всех, 2011.
356. Э.Реклю. «Человек и земля», к-изд. П.П.Сойкина, СПб., 1906.
357. Э.Севортян. «Этимологический словарь тюркских языков», том I. Москва, 1974.
358. Э.Триярский. «Тамги тюркских племен из Болгарии», UAJG. 1975;
359. Э.Шукюрлю. «Надписанные камни – написанная история», http://karabakh-doc.azerall.info/ru/turkologiya/trk020.htm
360. Эмблема президента Туркменистана, http://www.heraldicum.ru/turkmen/presid.htm

361. Ю.Зуев. «Кыргызы-буруты» // Советская этнография, 1970, № 4.
362. Ю.Зуев. «Тамги лошадей из вассальных княжеств». Перевод из Китайского, том 3. Алма-Ата, 1960.
363. Ю.Юсифов. «Об актуальных проблемах этнической истории Азербайджана», http://myazerbaijan.org/index.php?p=history/46
364. Я.Гришин. «Польско-литовские татары (Наследники Золотой Орды). Казань, 1995.
365. Я.Ямпольский, «О древнейщих исторических свидетельствах обычая побратимствакровью и оружием на Кавказе» // Известия Азерб. Филиала АН СССР, № 1-2. Баку, 1944.
366. http://hameleons.com/kazakhstan-design/24498-kazaxskie-ornamenty.html
367. http://hasturkce.blogspot.com/2013/05/gork-sozcugu-uzerine.html
368. http://kazan-tatar.narod.ru/tamga.htm
369. http://lraber.asj-oa.am/2335/1/64.pdf
370. http://nofalsify.com/sitat/1686
371. http://ordubad.ucoz.com/news/ordubad_xalcalari/2013-11-05-71
372. http://photo.azerbaijans.com/tikmeler/tikmeler.html
373. http://ru.wikipedia.org/wiki/Вишапы
374. http://www.armsite.com/rugs/rshow.phtml?slide=2
375. http://www.darvishi.ru/index.php/kollektsiya-izobrazhenij-dervishej
376. http://www.erevangala500.com/?direct=page&id=267
377. http://www.myshared.ru/slide/400487/#
378. http://www.turkmenistan.gov.tm/photo/culture/2013/261013-1.jpg
379. http://www.uralrockart.ru/p1_gl4_1.html#
380. https://www.facebook.com/media/set/?set=a.628267480531933.1073741897.565674410124574&type=3
381. A.Akishev. «Art and mythology of sakas», Kazakh SSR, Alma-Ata, 1984
382. «Herbarz rodzin tatarskich w Polsce», Vilno,1929
383. Essays on Social Transformation by Julian H. Steward. University of Illinois Press, Urbana, Chicago,
384. Etymology: Middle English, from Middle French carpite, from Old Italian carpita, from carpire to pluck, modification of Latin carpere to pluck — more at harvest; Date: 15th century, http://www.merriam-webster.com/dictionary/carpet
385. F. Hirth, Nachworte zur Inschrift des Tonjukuk, St. Pb. 1898.
386. J.Harrod. Deciphering Upper Paleolithic (European): Part I. The basic graphematics – Summary of discovery procedures. // Language Origins Society annual meeting, 1998.
387. J.Marquart. «Untersnchungen zur Geschichie von Iran», heft II, Leipzig, 1905
388. K.Menges. Zwei mesopotamische Leimw. Srter., 1955
389. М.Әхмәтжанов. «Нугай Урдасы: татар халкынын тарихи мирасы», Казан, «Мягариф», 2002.
390. M.Fraehn. «De origine vocabuli rossici - denqi». Казань, 1815.
391. P. Nazaroff, «Hunted Through Central Asia», Oxford University Press, 1993.
392. Richard G. Hovannisian. The Armenian People From Ancient to Modern Times, Volume I: The Dynastic Periods: From Antiquity to the Fourteenth Century. — Palgrave Macmillan, 2004
393. Sharp L. Steel Axes for Stone Age Australians // Steward J.C., Murphy R.F.: Evolution and ecology

SAM-ın son nəşrləri





AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİ

Araz Qurbanov

Damğalar, rəmzlər... mənimsəmələr

BAKI -2014